63.3(Н7)
Ә-85

Əlisahib ƏROĞUL



# ERMƏNİ - DAŞNAK FAŞİZMİ və AZƏRBAYCAN

**Əlisahib ƏROĞUL**

# ERMƏNİ-DAŞNAK FAŞİZMİ VƏ AZƏRBAYCAN

***(bədii publisistika)***

**TƏHSİL**
**BAKI – 2007**

**Əlisahib ƏROĞUL**
Ə51 «Erməni-daşnak faşizmi və Azərbaycan» (bədii publisistika).
Bakı, «Təhsil», 2007, 412 səh.

Yazıçı-publisist Əlisahib Əroğul bu kitabında amansızlığı və xüsusi qəddarlığı ilə seçilən şovinist və militarist, Azərbaycan türkünün varlığına qənim kəsilmiş erməni-daşnak faşizminin, onun aparıcı siyasi qüvvəsi olan daşnak ideologiyasının qatı faşist mahiyyətindən bəhs edir. Qeyri-insani məziyyətlərini tam çılpaqlığı ilə açıb göstərir. Erməni-daşnak faşistlərinin, onun silahlı birləşmələrinin, terror qruplarının, təxribatçı dəstələrinin XIX və XX əsrlərdə, xüsusilə son 100 ildə Azərbaycan türkünə qarşı apardıqları ardıcıl və məqsədyönlü soyqırımı və etnik təmizləmə siyasətinin vəhşiliyindən söz açır. Həmçinin müəllif ümid edir ki, gec-tez dünya birliyi haqq səsimizi eşidəcək, bəşəriyyət və insanlıq əleyhinə cinayət törədən, terroru və separatizmi təbliğ və təşviq edən erməni-daşnak faşizminə də yox deyəcəkdir. Nəhayət, dünya ictimai fikri xristian dünyasının qoltuğuna sığınıb, özünü məzlum, qarşı tərəfi zalım kimi qələmə verən erməni-daşnak faşistlərinin bədnam təbliğatının maskasını yırtmaqda, onu da tarixin zibilliyinə tullamaqda özündə güc-qüvvət tapacaqdır".

**Ə 4702060204 2007**
**053**

**© «Təhsil», 2007**

*QARABAĞ HARAYI!!!*

***Vətən oğlu, iki əsrdən artıqdır ki, Rus imperiyasının ağuşuna atılmış erməni-daşnak faşistləri varlığımıza qənim kəsilmişlər. Yaşamaq haqqımızı belə, əlimizdən almışlar. Bizi - Azərbaycan türklərini erməni-daşnak faşizminin erməni adıyla ifadə olunan, erməni barbarlığının, erməni vandalizminin, erməni vəhşətinin və vəhşanəliyinin günahsız qurbanlarına çevirmişlər. Rus imperiyasının himayəsi və havadarlığı altında misli görünməmiş qəddarlıqlarla etnik təmizləmə siyasəti aparır, qətliamlar törədir, ulu əcdadlarımızın min illər boyu uyuduqları tarixi torpaqlarımızı ilhaq edirlər. Bədnam, dənizdən-dənizə erməni dövləti qurmaq arzularını həyata keçirirlər. Utopik, uydurma «Böyük Ermənistan» xülyasını mərhələ-mərhələ gerçəkləşdirirlər.***

***Erməni-daşnak faşistləri ilkin olaraq açıq səkildə 1905-1907-ci illərdə Azərbaycan türklərinin qətliamına fərman verdilər və milli-etnik münaqişə zəminində XX əsrin ilk soyqırımı faciəsini törətdilər. Dişləri qana batdıqca şirnikdilər, ayrı-ayrı dövrlərdə tarixi şəraitə uyğun və məqsədyönlü şəkildə müxtəlif metod və üsullarla təzyiq, təhdid və təqiblərini səngitmək bilmədilər. Azərbaycanlıların qətliamını II mərhələdə - 1918-1920-ci illərdə daha da amansız şəkildə davam etdirərək əcdadlarımızın Oğuz yurdunu - Qərbi Azərbaycanı qəsb etdilər. Ana şəhərimiz olan İrəvanı isə özlərinə paytaxt seçdilər. Total türk düşməni Stalinin saqqızını oğurlayaraq etnik təmizləmə siyasətinin III mərhələsində - 1948-1953-cü illərdə isə cinayətkarcasına Ermənistan SSR ərazisindən Azərbaycan türklərinin deportasiyasını həyata keçirdilər. 1988-1991-ci illərdə isə son olaraq daşnak terror qruplarının təzyiqləri, təxribatları və sui-qəsdləri ilə Azərbaycan türklərini etnik torpaqlarından - Qərbi Azərbaycandan son nəfərinədək çıxardılar, yurd-yuvalarından didərgin saldılar. Türksüz Ermənistan Respublikası yaratmağa müvəffəq oldular.***

***Bütün bunlarla kifayətlənməyən erməni-daşnak faşistləri günü bu gün də Azərbaycan torpaqlarını qəsb etmək, etnik təmizləmə və qətliam siyasətlərini davam etdirməkdən əl çəkmirlər. On beş ildən artıqdır ki, Vətənimizin döyünən ürəyi olan Qarabağ torpaqlarını işğal altında saxlayırlar. Bir milyondan çox soydaşımız çadır düşərgələrində, fin qəsəbələrində, yük vaqonlarında, mal-qara qışlaqlarında, yol kənarlarındakı torpaq qazmalarda, tikintisi yarımçıq qalmış ictimai binalarda, yataqxanalarda, uşaq bağçalarında və məktəblərdə ağır şəraitdə həyat tərzi keçirirlər. Hələ də «Böyük Ermənistan» kabusu üstümüzə yeriməkdədir. Vətən təhlükədədir!***

***Bu gün Qarabağı geri qaytarmaq Azərbaycan varlığını, onun ərazi bütövlüyünü, torpaqlarımızın toxunulmazlığını bərpa etmək, Azərbaycan dövlətçiliyinə əbədiyyət qazandırmaq, Azərbaycanda separatizmin kökünü kəsmək haqqımızı kimsə əlimizdən ala bilməz. «Qarabağsız Azərbaycan yoxdur!»***

*deyənlər haqq yolundadılar. Sarsılmaz Azərbaycan dövlətçiliyinin keşiyindədilər. Qarabağ uğrunda ədalətli mübarizəmiz öz həllini tapmayınca mənəvi yaralarımızın sağalacağından, fiziki şikəstliyimizin aradan qalxacağından hər hansı bir şəkildə danışmaq olmaz. Nə qədər erməni-daşnak faşizmi var, onun ideyalarını yaşadanlar mövcuddur, nə dinclik, nə sülh bizə qismət olmayacaqdır. Varlığımız təhlükə altında qalacaq, zaman-zaman torpaqlarımız erməni-daşnak faşizminin təcavüzünə düçar olacaqdır.*

*Vətən oğlu, Qarabağ bu gün bizim üçün Tanrı sınağı, qeyrət rəmzidir. Qarabağ bizim yaşam pasportumuzdur. Qarabağsız Azərbaycan ruhsuz candır. Bu gün Qarabağ milli qeyrət, milli mənlik, milli özünüdərk, olum-ölüm yolu, gələcək nəsillər qarşısında məsuliyyət hissi deməkdir. Qarabağı unutsan, həyatınla, varlığınla, bu gününlə, sabahınla vidalaşmalı olacaqsan. Bu gün səni məhv etməyi, varlığını tarix səhnəsindən silməyi qarşısına məqsəd qoymuş erməni-daşnak faşizmi ilə üz-üzəsən. Yurd-yuvanı, əcdadının uyuduğu torpağı müdafiə etmək, mənliyini qorumaq, yaşamaq və gələcəyini yaşatmaq üçün Qarabağ uğrunda mübarizə aparmağa məhkumsan. Bu mübarizə sənin yaşamaq haqqın, həyat seçimindir!*

*Qan yaddaşını oyat! Tarixdən ibrət dərsi götürməyənləri tarix özü cəzalandırır!*

# JİZOİT QADIN VƏ YA DAŞNAK MANQURTLARI

1983-cü ilin ılıq nəfəsli qızılı payız günlərindən biri idi. Sovet məkanında hər il olduğu kimi bu il də Azərbaycanın kənd rayonlarında bəhsəbəhslə keçirilən «Məhsul bayramları» elatımızda, obalarımızda vur-çatlasınla qeyd olunur, qələbəliklər günbəgün artır, toy-büsatlar aşıb-daşırdı. Hər yanda, hər yerdə çal-çağır bir-birindən öz coşqunluğuyla, al-əlvanlığı ilə seçilirdi. Kolxoz və sovxozların mərkəzi malikanələrindən revanş götürən bayram tədbirləri, şənliklər sonucda rayon mərkəzlərində öz kulminasiya nöqtəsinə çatırdı. İllik zəhmətlərinə yekun vuran, əkib-becərmələrin barını-bəhrəsini dərən kənd əməkçilərinin bu günlərdə sevinclərinin həddi-hüdudu olmazdı. «Durğunluq» dövrünün bu qaynar çağlarında adət şəklini almış bayram tədbirləri, şənlik mərasimləri, ziyafət məclisləri özgür bərəkəti, təam bolluğu ilə seçilirdi. Bayram dekorasiyaları, maskaratları göz oxşayır, ürəkləri riqqətə gətirirdi. Rayon rəhbərləri bəhsəbəhsə girirdilər. Hər bir rayon rəhbəri çalışırdı, çox istəyirdi ki, onun rəhbərliyi və təşkilatçılığı altında keçirilən bu bayram tədbirləri qonşu rayonlarda həyata keçirilən tədbirlərdən seçilsin, daha əzəmətli, öz dəbdəbəsilə üstün olsun, bəzəkli-düzəkli keçsin. Təmtəraqlı, əyləncələri dillə deyilən olsun. Bu gün isə belə bir bayram tədbiri Qubadlı rayonunda keçirilirdi. Həmin gün qonşu, həmsərhəd rayonların birindən - Cəbrayıldan bu bayram tədbirinə dəvət olunanlar sırasında mən də vardım. Daha doğrusu, Rayon Xalq Nəzarəti Komitəsinin sədri kimi mən və Rayon Partiya Komitəsinin katibi Heyran xanım Kəlbalıyeva Cəbrayıl rayonunun nümayəndə heyətinin üzvləri olaraq həmin tədbirə qatılmışdıq.

Əlbəttə, fikir və məqsədim burada o dövrlərdə Qubadlıda quruculuq işlərinin vüsət aldığı yüksəliş illərindən, Rayon Partiya Komitəsinin birinci katibi işləyən, yaxın dostluq ünsiyyətində olduğum Zöhrab Məmmədovun ondan əvvəl küçələri bərbad, şəhər tipli qəsəbə adlansa da kənddən seçilməyən, çal-çəpəriylə, hisli-pasaxlı bir kəndi andıran Qubadlını bir neçə il ərzində sözün əsl mənasında bir şəhər halına gətirməyindən, gördüyü tikinti abadlıq işlərindən, habelə kənd təsərrüfatı məhsullarının istehsalı və tədarükü sahəsində rayonun son illərdə əldə etdiyi böyük uğurlardan, qazandığı nailiyyətlərdən bəhs etmək deyil, öz maraq dairəmə dəxli olan bir sıra mətləblərə toxunmaqdan, söz açmaqdan ibarətdir. Mənim də öz xobbim vardı. Mən hara getsəm, harda olsam, istər sanatoriyalara müalicəyə, istirahət evlərinə dincəlməyə gedim, istərsə də ezamiyyətə güzarım düşən yerdə həmpeşə sahiblərimi, həmkarlarımı arayıb axtarardım. Onlarla həmsöhbət olardım. İş yerlərinə dəyərdim. İmkan daxilində təcrübə mübadiləsi aparardım. Yaxşı nə isə bir şey öyrənməyə, rastıma çıxan yeniliyi götürməyə çalışardım. Qubadlıda da bu istəyim, adətkarlığım məni çəkirdi. Qonaqların əksəriyyəti Bakıdan dəvət olunanlardı. Bayram şənliyinə həmsərhəd rayonlardan - Zəngilan və Laçından ancaq rayon Partiya Komitələrinin birinci katibləri gəlmişdilər. Qafan rayonundan hələ ki, gələn yox idi. Gəlməyəcəkləri də sonradan

məlum oldu. Gorus rayonundan isə mərasimdə birinci katiblə rayon Xalq Nəzarət Komitəsinin sədri Arteşeş iştirak edirdi. Mən ona sadəcə Artuş deyə müraciət etdim və biz tanış olduq. Bundan sonra gün ərzində, daha doğrusu, səhərdən axşama kimi davam edən tədbir boyu Artuşla bir gəzib dolanırıq. Qabaqcıl təsərrüfatlardan birində - Telman adına kolxozda oluruq. Tədbirin rəsmi hissəsində iştirak edirik. Sonda rayonun əmək qabaqcılları mavi işığa dəvət olunurlar. Qonaqlar üçün isə ziyafət məclisinin Çayzəmidə təşkil edildiyini Zöhrab Məmmədov bəyan edir. Biz Qubadlının Qafanla həmsərhəd ərazisinə yollanırıq.

Çayzəmi çəmənzarlığı Qafan rayonu ilə Qubadlı rayonunun sərhədində, Kəpəz dağının gündoğan ətəyində, Qızıldaş istiqamətində, Qafan-Gorus avtomagistralının altında yerləşirdi. Dörd tərəfi meşələrlə əhatə olunmuş, alp çəmənliyi olan geniş bir düzənlikdir. 1969-cu ilədək yaydan-yaya Qubadlı camaatı burada çadırlar, comalaqlar qurar, yayı burada sərinləyər, təbiətin bu füsunkar, cənnət, dilbər guşəsində keçirərdilər. Lakin 1969-cu ildə ermənilər mərdimazarcasına Çayzəmiyə olan iddialarını Kreml səviyyəsində ortaya atdılar. O ildən camaatın bu yerlərə gəl-gedini də səngitdilər, seyrəltdilər. Xoş təblərini küsdürdülər. Çayzəmi seyrəngahı Qafan-Qubadlı arasında mübahisə doğuran neytral zonaya, sanki iki düşmən dövlət arasında peyda olan qan qoxuyan mübahisəli torpağa çevrildi. Lakin Zöhrab Məmmədovun 80-ci illərin əvvəllərində Qubadlı rayon Partiya Komitəsinin birinci katibi vəzifəsinə seçilməsiylə yenidən Çayzəmidə bir canlanma başladı. Z.Məmmədovun qətiyyəti, ərdəmliliyi burada özünü göstərirdi. Çayzəmiyə get-gəllər çoxaldı. Bu gün isə burada könülaçan tikinti obyektlərinin açılışı keçirilirdi. Z.Məmmədovun təşəbbüsü ilə burada iki obyekt tikilib istifadəyə verilirdi. Yolun üstə ermənilərin «Vaqo» bulağı adlandırdıqları «Daş bulağın» buz sulu çeşməsi ilə üzbəüzdə iaşə xidməti göstərəcək birtipli layihə üzrə gözəl bir pavilyon tikilib quraşdırılmışdı. Adını da qoymuşdular «Azərbaycan» pavilyonu. Belə bir pavilyonun Qubadlı-Gorus sərhədində - Yazı düzündə keçən il tikilib istifadəyə verilməsindən də xəbərdar idim. Özü də simvolik ad seçilmişdi «Həcər» pavilyonu. Çəmənliyin elə bu başındaca - şimal ucqarında çox gözəl zövqlə, milli memarlıq üslubu olan kürsülü qonaq otağı inşa edilmişdi. Bu gün hər iki obyektin açılış lentini kəsirdik. Gələcəkdə Z.Məmmədov burada respublika səviyyəli, yüksək tələblərə cavab verən istirahət pansionatları tikdirmək fikrindəydi. Əfsuslar olsun ki, Ermənistan SSR-lə həmsərhəd rayonlarımızda Z.Məmmədov kimi ötkəm katiblərin təyinatı və ya seçilməsi bəlkə də 70 ildə yeganə hallardan biriydi. Ermənilərin torpaq qoparma iddialarına qarşı əməli işləriylə cavab verən ikinci bir vəzifə səlahiyyətlisinin adını çəkməkdə bu gün də çətinlik çəkirəm. Sanki belə bir fikirdə olan vəzifə sahibi, kadr ehtiyatı olmayan bir respublika kimi tərpənilibdi. Həmişə respublika rəhbərləri ermənilərin quş götürənlərini sərhəd rayonlarımıza birinci katib vəzifəsinə göndəriblər. Həmişə də torpaq mübahisələrində udan ermənilər, uduzan biz olmuşuq.

Qonaq otağının banket zalında süfrəyə son təamlar düzülməkdədir. Biz isə bu cənnətməkandakı ilahi gözəllikdən, təbiətin əsrarəngizliyindən doymaq bilmirik. Saf dağ havasından udduqca uduruq. Daş bulağın daşdan süzülüb gələn gur, göz yaşı kimi dupduru, buz kimi soyuq, şirin qar suyundan içdikcə içirik. Hər kəs öz curuyla ağız-ağıza verib yarıgerçəyindən, yarızarafatından qalmır, olub-keçəndən doğrayıb tökür, müsahibini hay-gopuyla özünə cəlb edirdi. Görünür, mənim Artuşla şirin söhbət etməyimdən, yarızarafat gen-bol danışmağımızdan, yaxınlığımızdan nəzər-diqqəti göz və söz çəkən Bakı qonağı, akademiyanın əməkdaşı, toponimşünas-alim Səyyaf Kərimov girəvə gözləyirmiş kimi bizə yaxınlaşaraq ürək sözünü mənə açır (Səyyaf Kərimov Cəbrayılın Əmirvarlı kəndindən, mənə yaxın ailələrdən birinin qızıyla ailə həyatı qurmuşdu. Özü isə əslən Qubadlı rayonunun Mollu kəndindən idi. Xeyli müddət idi bir-birimizi tanıyırdıq. Əfsuslar olsun ki, gənc yaşlarında həyatdan tez getdi): «Əlisahib müəllim, necə bilirsən, istəyirəm mən də bu beynəlmiləl məclisdə söz alam, erməni-azərbaycanlı dostluğundan danışam. Bir tapıntım barədə də məclis iştirakçılarına açıqlama verəm». Tapıntısının nə olduğunu soruram. Rəhmətlik deyir ki, bəs yayda Qafan rayonunun Zeyvə kəndində tədqiqatla məşğul olanda, yüz yaşlı bir erməni kişisi mənə dedi ki, Qaçaq Nəbiyə Boz atı filan erməni bağışlayıbdı. Həmən andaca alınıram: «Səyyaf müəllim, deyəsən, sənin başına at təpib. Ağlını başına yığ. Mollu hara, Zeyvə hara. Aralarında 40 50 km məsafə var. Zeyvə martısı yalan danışıb. Cəfəng söhbət danışma. Bizim kənd Qarabağda erməni kəndinə qonşudur. Hələ indiyədək eşitməmişəm ki, kimsə ermənidən at alıb. Erməni heç vaxt minik atı saxlamayıb ki, satsın da. Satdığını da eşitməmişəm. Olsa-olsa ermənilər yük atından istifadə edən olublar. Ermənidən inək, eşşək, qatır alan kimsənin adını eşitmişəm, amma at alanın üzünü belə görməmişəm. Bir də sənli-mənli marağı olan çoxsaylı azərbaycanlı kişilərinin, cavanlarının erməni axçiləri ilə evləndiyinin şahidiyik. At alma söhbəti əsla olmayıb. Cəfəng söhbətdi. Nəbi Boz atını kəndinizdə bir kimsədən əldə etməyibsə, eşit, onu ya tərəkəmələrdən almış olar, ya da Əliyanlı elatından. Axı, seçmə atı tərəkəmə minər. Əliyanlılar da ki, dədə-babadan at minən, at sərrafı, at azarkeşi, at tanıyan olublar» - deyirəm. Deyəsən, söhbətimizi həmyerlim, respublika DTK-sının şöbə müdiri, Bakıdan qonaq sifətiylə Qubadlıya dəvət alan Yasif müəllimin qulağı çalır. O, bizə yanaşır. Söhbətin nədən getdiyindən hali olunca Səyyaf müəllimə elə bir qulaqburması verir, təpinir ki, rəhmətlik açdığı söhbətin peşmançılığını çəkir. Bir daha bu barədə söz belə açmır. Mövzu qapanır.

Ermənilərlə bağlı ikinci söhbət də məni çəkir. Bu çəkhaçək Qafana yaxın bir ərazidə Qafan rayonundan nümayəndələrin bugünkü tədbirdə iştirak etməmələri ilə bağlı idi. Gorus rayon Partiya Komitəsinin birinci katibi Qafandan kimsənin bu tədbirə qatılmaması, Qubadlıya gəlməməsi ilə bağlı dəqiqəbaşı azaylanırdı. Öz narahatçılığını gizlədə bilmir, nigaran qalmağını tez-tez büruzə verdirirdi. Onun hər sorğusuna Zöhrab müəllim ağız boza verən cavablarını təkrarlayırdı.

«Dəvətnamə göndərmişik, yəqin indilərdə gələrlər» deyirdi. Sondan-sona isə «görünür, nəsə bir əngəl olub. Daha vacib bir iş ortaya çıxıb. Gəlmək imkanları olmayıb» cavabını bildirməsindən Qafandan daha heç bir nümayəndənin gəlməyəcəyinə əmin bir adam kimi danışması diqqətimi çəkirdi. Ətraf rayon rəhbərlərinin hörmətlə yanaşdığı Zöhrab Məmmədovun Qafan rayon Partiya Komitəsinin birinci katibi işləyən Mkrtıçyanın eşitməməsinə ciddi bir səbəb olduğunu anlayıram və bunun səbəbini öyrənmək məqsədi ilə Zöhrab müəllimə yanaşıram. Sual edirəm. Aldığım cavab qənaətimlə üst-üstə düşür. O, mənə - «Çayzəmiyə asfalt yol çəkdirməyim, burada tikinti işləri aparmağım Mkrtıçyanın xətrinə dəyib. Bərk qəzəblənibdir. Mənim barəmdə Kremlə, Azərbaycan KP MK-ya şikayətlər edib. Guya təbiəti korlayıram. Qafan rayonunun torpağına təcavüz edirəm. Respublika rəhbərləri dönə-dönə ehtiyatlı olmağımı, pansionat tikdirməkdən vaz keçməyimi tövsiyə edirlər. Bilirsən, Mkrtıçyan kommunist cildinə girmiş daşnakdır. Ancaq etika xatirinə dəvətnamə də göndərmişəm. Erməni bicənnəsidir. Onu da bir söz qayırmasın. Onsuz da gəlməyəcəyini əvvəlcədən bilirdim. «İt hürər, karvan keçər» deyib atalarımız. Mənim üçün əziz olan qonaq elə sizlərsiniz» - deyir. Mən bu zaman Heyran xanımla söhbətə girişən Zəngilan rayon Partiya Komitəsinin birinci katibi rəhmətlik Muradxan Cabbarova yan alıram. Zöhrab müəllimin sözləri dilimin ucunda ona üz tutub gülümsəyirəm. O da mənə «nolub, yenə də nə ara qarışdırırsan?» sorur. Mənsə «Heç, elə belə, daşnak dostumuz Mkrtıçyanı xatırlayıram» cavabını verirəm. Başını bulaya-bulaya o da gülümsəyir. Mən isə elə həmin ilin qışında, birinci və sonuncu dəfə görüşdüyüm daşnak mordalı Mkrtıçyanla rastlaşdığımız o günü xatırlayıram.

**Haşiyə - 1:** Ötən əsrin 80-ci illərində Sovetlər Birliyində vaqonların dəmiryol stansiyalarında normadan artıq yük altında saxlanması, yüklərin relslər kənarında günlərlə, aylarla yığılıb qalması, boş dayanmalar ittifaq miqyaslı problemə çevrilmişdi. Bununla əlaqədar idarə, müəssisə və tikinti təşkilatlarının ünvanına hesablanan cərimələr mərkəzi hökumətdə ciddi təşviş doğururdu. Məsələ Sov.İKP MK-nın katibliyi səviyyəsində müzakirə edilən bir hal almışdı. Tez-tez bütün ölkəni əhatə edən ittifaq miqyaslı regionlar üzrə vaxtaşırı selektor müşavirələri keçirilirdi. Ətraf rayonların rəhbərləri ayrı-ayrı şöbələrin dəmiryol qovşaqlarında toplantılara çağırılır, cavabdeh şəxslərin birbaşa sual-cavablara cəlb edilməsi təşkil olunurdu. Bu məsələlər ilə əlaqədar olaraq idarə, müəssisə rəhbərlərinin məsuliyyət məsələsinə baxılması ilk növbədə rayon Xalq Nəzarəti Komitələrinə həvalə edildiyindən, komitə sədrləri də bir qayda olaraq həmin müşavirələrə dəvət olunurdular. Cəbrayıl rayonu bölgü üzrə əvvəllər İmişli şəhərinin dəmiryol qovşağına çağırılsa da, sonralar Naxçıvanın ondan ayrılaraq Azərbaycan Dəmiryol İdarəsində müstəqil şöbə kimi fəaliyyət göstərməsi ilə əlaqədar olaraq bizi yeni bölgü üzrə Mincivan dəmiryol qovşağına çağırmağa başladılar. 1983-cü ilin qışında belə bir növbəti selektor müşavirəsində iştirak etmək üçün Mincivan qəsəbəsinə getmişdim. Cəbrayılla yanaşı Qubadlı, Laçın,

Qafan rayonlarının nümayəndələri də Mincivan dəmiryol qovşağının xidmət göstərdiyi xətt və stansiyalardan istifadə etdiklərinə görə bu qovşağa toplanırdılar. İşlərində nəzərəçarpacaq qüsurlar olan hallarda rayon Xalq Nəzarəti Komitələrinin sədrləri ilə yanaşı birinci katiblər də çox vaxt həmin müşavirələrə qatılırdılar. Hər toplantımızda Zəngilan rayon Partiya Komitəsinin birinci katibi Muradxan Cabbarov, rayon İK-nin sədri Əli Quliyev də bizimlə birgə ev sahibi kimi selektor müşavirələrində iştirak edir, yekunda isə bizləri yaxınlıqdakı iaşə obyektində ürəyimiz istəyən süfrəyə qonaq edirdilər. Ancaq bundan sonra bizdən ayrılırdılar, daha doğrusu, bizi yola salırdılar. Həmin gün selektor müşavirəsinin başlanmasına bir neçə dəqiqə qalmış Mincivan qovşaq ilk partiya təşkilatının iş otağına yığılıb bir stol ətrafında mikrofona diqqət kəsilmişdik. Stolun başında ağsaqqal və ərazinin raykom katibi kimi Muradxan Cabbarov əyləşmişdi. Elə bu zaman Qafan rayon Partiya Komitəsinin birinci katibi Mkrtıçyan otağa daxil oldu. İrigövdəli, donuz durumlu bu pəzəvəngin bizimlə ancaq rusca salamlaşması, bir kəslə əl tutmaması ilk baxışda bu adamın özünü yekəxana aparmasından, eqoist bir tip olmasından xəbər verən cizgilərini sezdim. Muradxan Cabbarovun stuldan qalxması, stolun başında ona yer təklif etməsi, onunsa, elə-belə də olmalıymış kimi hərəkət edərək xüsusi bir ədayla yuxarı başda xahiş-minnətsiz əyləşməsi istər-istəməz ona qarşı məndə lap xoşagəlməz bir əhvali-ruhiyyə yaratdı. Muradxan müəllim isə yerini ona təhvil verdikdən sonra keçib mənim sağımdakı boş stulda oturdu. Artıq selektor müşavirəsi başlamışdı. Mən isə içimi deşən sözümü Muradxan müəllimə deməyə bilməzdim. Pıçıltı ilə iradımı bildirdim: «Muradxan müəllim, həm hamıdan yaşda böyüksünüz, həm də sizin rəhbəri olduğunuz bir rayonun ərazisinə yığışmışıq. Nə üçün yerinizi Mkrtıçyana verdiniz? Osa heç «sağ olun» belə demədən keçib oturdu stol başında. Yekəxana, yoğunluğundan sınan adama oxşayır». O isə cavabında: «Sən hələ partiya etikasını bilməzsən. Mən birinci katib vəzifəsində saç-saqqal ağartmışam. Qafan iri sənaye mərkəzi, həm də beynəlmiləl bir şəhərdir. Dəfələrlə Zəngilan rayonundan həm əhali, həm də ərazi cəhətdən böyükdür. Mən onun yox, tutduğu vəzifənin böyüklüyünə hörmət edirəm», dedi. Mən susdum. Mkrtıçyan müşavirə qurtaran kimi nəinki bizimlə qonaqlıqda iştirak etmədi, salamsız-kalamsız özünəməxsus bir ədayla, təkcə Muradxan müəllimlə görüşdü və necə deyərlər, bacısına xor baxan erməni sayaq başını qıçları arasına sallayıb aradan çıxdı.

... Zöhrab müəllim çox uzaqgörənliklə Mkrtıçyanı daşnak kimi xarakterizə edirdi. Onu yaxşı tanımışdı. Lakin Muradxan müəllimin «Qafan beynəlmiləl şəhərdir» deməsini də o zamanlar qəribliyə salmamışdım. Çünki mən 1973-cü ildə xoşagəlməz bir hadisəylə bağlı Qafan şəhərində çox olmuşdum. Özü də tez-tez, sonralar da ara-sıra yolum o tərəflərə düşüb. Qafana gedib-gəlmişəm. Qafan o zamanlar doğrudan da mənə elə beynəlmiləl şəhər təəssüratı bağışlayırdı.

**Haşiyə - 2:** Məndən yaşca bir neçə il böyük olan əmizadəm uşağı Məhəmməd Maqsud oğlu Qafanda sürücülük məktəbində oxuyarkən cavançılıq

etdiyindən ilişmişdi. Əlqərəz, Qafanda gözü düşən bir qızı bəyənsə də, onunla alış-veriş etsə də, sözündən qaçmışdı. Qız adamları əvvəl almaq istəməməyinə görə ondan şikayət vermişdilər. Peşmançılıq ərizəsini qəbul etməyən erməni müstəntiqləri tərəfindən Məhəmməd əlbəəl göz altına alınaraq haqqında cinayət işi qaldırılmışdı. Hətta arada barışıq olmasına, Məhəmmədin qızla ailə həyatı qurmasına belə baxmayaraq, yenə də şikayətə xitam verilməmişdi. Məhkəməyə göndərilmişdi. Erməni hakimləri tərəfindən Məhəmməd Maqsud oğlu 3 illik icbari islah işinə, məcburi əməyə cəlb edilmişdi. Mən təyinatla rayona gələndə o, artıq yiyəvay dərdindən bir ilə yaxın idi ki, cəza çəkirdi. Belə hallarda əslində o, ancaq qız həddi-büluğa çatmamış olsaydı məhkum edilə bilərdi. Onun ardınca gedən-gələn, maraqlanan olmadığından işini çətinə salmışdılar. Qoca atası, bir də əlacsız anası vardı. Altıaylıq müəllimlik fəaliyyətimdən sonra rəhbəri olduğum məktəbdə xadimə işləyən anası tez-tez üstümə ağlayırdı. Həbsxana divarları arasında olmasa da, Məhəmmədə gecə-gündüz Qafan dəmiryol stansiyasında sementlə dolu vaqonlar boşaltdırırlar, ağır işlər gördürürlər, - deyirdi. Məhəmməd vağzal həndəvərində yaşayan Artyom adlı bir erməninin evində kirayədə qalırdı. Gündəlik icbari iş normasını yerinə yetirirdi. Məhəmmədin işiylə əlaqədar tez-tez Qafana getməli oldum. Kirayənişini olduğu evin sahibi Artyom xoşxasiyyət bir adam idi. Mənə qarşı alicənablıq göstərirdi. Əlindən gələn köməklikləri edirdi. Onun köməkliyi ilə rus və erməni dillərində müvafiq orqanlara həm Məhəmmədin, həm də ailəsinin adından müraciətlər etdik. İnzibati orqanların qapılarını döydük. Nəhayət Məhəmmədin işinə xitam verdilər. Belə günlərin birində, dəqiq yadımdadır ki, 1973-cü ilin 24 aprel gününü Qafanda keçirməli oldum. 23-ü aprel günü idi, axşam həmkəndlim İsayev İmran Qafanın Sarı dərə məhəlləsindəki evində mənə qonaqlıq verirdi. Ev sahibləri sabah nə işlə məşğul olacağımı, nə edəcəyimi sordular. Mən şəhəri gəzmək, bazarlıq etmək, axşamüstü isə Pircivana gedəcək seksiyayla yola düşmək fikrində olduğumu dedim. Mənim orada yolumu gözləyəcəkdilər. Ev sahibləri yadıma saldılar, daha doğrusu, xəbərdarlıq etdilər ki, bəs sabah ermənilərin genosid günüdür. Nəbadə, nəqliyyata minərkən, bazar-dükanda alver edərkən Azərbaycan dilində danışasan. Xoşagəlməz hadisə baş verə bilər. Nədənsə bu söhbət mənə bir o qədər də əhəmiyyətli görünmədi. Mən 24 aprel günü istədiyim bazar və mağazalarda oldum və istədiyim kimi hərəkətlər etdim. Heç bir xoşagəlməz hadisəylə rastlaşmadım. Satıcılar da, sürücülər də, ümumiyyətlə, təmasda olduğum ermənilərin mənimlə normal ünsiyyətlə, xoş davranışla rəftar etmələrinin şahidi oldum. Demə, hər şey şəhər Partiya Komitəsində birinci katib vəzifəsinə kimin seçilməsindən asılıymış...

...Bəli, Zöhrab müəllim Mkrtıçyanı, doğrudan da, yaxşı tanımışdı. Xarakteristikasını uzaqgörənliklə vermişdi. Mkrtıçyan 1987-1988-ci illərdə maskasını yırtıb əsl sifətini göstərən ilk kommunist-daşnaklardan biri oldu. Mkrtıçyan bölgədəki erməni-daşnak terrorçularının havadarı, lideri kimi çıxış etdi. Daşnak terror qrupunun təxribatçı dəstələri onun fitvası ilə Qərbi Azərbaycandan

ilk qaçqın dəstəsini Qafan, Qacaran bölgəsindən Azərbaycana yola saldılar. Milli ədavətin ilk qığılcımını Qafan şəhərində alovlandırdılar. Mkrtıçyanın təşəbbüsü və havadarlığı ilə daşnak terror qrupları zorakılıqlar törətdilər, minlərlə insan yurd-yuvasından didərgin salındı. Həmçinin, 1988-ci ildə Qafan şəhərinin mərkəzi meydanında 1918-1920-ci illərdə türk qanı içən, əlini uşaq, qadın, qoca demədən minlərlə günahsız türk insanının al qanına boyayan daşnak generalı, İkinci Dünya müharibəsində isə alman-faşist ordusunda xidmət edən və yəhudilərin soyqırımında fəallıq göstərən Qaragen Nijdenin heykəlini ucaldan, abidənin açılışında Nijdenin arzusunu həyata keçirməyi ilə fəxr edən, nitq söyləyən məhz bu daşnak fitnəkarı oldu... ...Zöhrab müəllimin «Məhsul bayramı» münasibəti ilə Çayzəmidə təşkil etdiyi ziyafət məclisi çox yüksək səviyyədə keçdi. Spirtli içkilərin istisi, hərarəti həlimləşdi, sərin mehi goruslu qonaqların da narahatçılıqlarını onlara unutdurdu. Lakin qısa payız günü öz işini gördü. Toran çalmaq üzrəydi. Kəpəz dağının üz qarsıdan, sərin sazaqlı mehlə müşayiət olunan kölgəsi Çayzəminin dərəsində qatlanıb Çardaxlı üzə aşanda biz də məclisi yekunlaşdırmalı olduq. Artuşla vidalaşmağın məqamı gəldi. Bir-birinin ardınca düzülmüş QAZ 24 markalı xidməti minik maşınlarının sürücüləri Qafan-Gorus şosesinin üstə dayanıb öz şeflərini gözləyirdilər. Artuş məndən xeyli yaşlı olmasına baxmayaraq, gün ərzində söz-söhbətimizlə bir-birimizin ürəyinə yol tapdıq. Aramızda yaranan xoş ünsiyyət, səmimiyyət bizim gələcək get-gəllərimizə, dostluğumuza pillə qoydu, körpü saldı. Artuş Bakı ermənisi idi. 50-ci illərdə V.İ.Lenin adına APİ-nin erməni məktəbləri üçün rus dili müəllimi hazırlayan qrupun müdavimi olmuşdu. Ali təhsil almışdı. Rus dili müəllimi kimi təyinatı Ermənistan SSR Maarif Nazirliyinə verilmişdi. Oradan isə bölgü əsasında Gorus şəhərində müəllim işləməyə göndərilmişdi. Gorusda Gövhər adlı qızla ailə həyatı qurmuş, ata-anasını, valideynlərini də buraya köçürmüşdü. Demək olar ki, Bakıyla əlaqəsini tam kəsmişdi. Azərbaycan dilində sərbəst və təmiz danışırdı. Bir-birimizi əvvəldən tanıyırıqmış kimi, uzun illərin dostları sayaq Artuşla xoş-beşlə görüşüb, öpüşüb, əl tutub ayrıldıq. Bir sözlə, gələcək görüşlərədək bir-birimizə əlvida dedik.

...Deyirlər, necə gəlmək qonaqdan, qonağı necə qarşılamaq, necə yola salmaq ev sahibindən asılıdır. Qubadlıda keçirilən «Məhsul bayramı»nda iştirak etdiyim gündən heç bir həftə keçməmişdi. Cəbrayıl şəhərində iş yerindəydim, kabinetdə oturmuşdum. Cari işlərlə məşğul idim. Bu zaman qapı döyüldü, «səni bir erməni qonağı axtarır» dedilər. Əvvəl-əvvəl güman etdim ki, gələn qonşu Hadrut rayonundan olar. Çünki Hadrut rayonunun, demək olar ki, partiya, sovet orqanlarının, idarə, müəssisə rəhbərlərinin əksəriyyəti ilə, habelə bizimlə həmsərhəd kolxoz və sovxozların sədrləri, direktorları ilə yaxın və sıx əlaqələrimiz, get-gəllərimiz vardı. Lakin qonağın furqonlu «QAZ-24» markalı «Volqa» maşınında gəlməsi məni çaşdırdı. Nəhayət, ahıl yaşlı, iri-gövdəli qonaq içəri daxil oldu, özünü təqdim etdi: «Adım Lenodur. Kənd Gorusdanam. Gorus rayon Xalq Nəzarəti Komitəsinin sədri, dostun Artaşesin qudasıyam. Məni də sənin yanına

göndərən odur. Özüm də rayonun baş zootexniki vəzifəsində işləyirəm. Bir sıra kənd təsərrüfatı maşınlarının, drabilkaların, ot doğrayan maşınların, avtomat suvatların, tesenlərin ehtiyat hissələrinə ehtiyacımız var. Onların əldə edilməsinə mənə imkan daxilində kömək göstərmənizi xahişə gəlmişəm. Lenonun ehtiyat hissələrə olan ehtiyacının bir qismini Cəbrayıl RTS-sindən, qalan qismini isə Qaradiz rayonlararası təchizat idarəsinin anbarından əldə edirik. İstədiyini soraqlayırıq, axtarıb hamısını tamamilə tapırıq. Axşamüstü isə yaxşı bir qonaqlıqla Lenonu Gorusa yola salıram. Ayrılarkən Leno mənimlə tanışlığından məmnun qalmasından söz açır, fərəh hissi keçirməsindən danışır. Dili ağzına sığmır. Məni dönə-dönə Gorusa qonaq dəvət edir. «Artaşes qudamın dostu kimi yox, mənim öz qonağım kimi səni Gorusda görmək, xidmətində durmaq istəyirəm» deyir. Mən isə üzrxahlığımı bildirirəm, «ancaq yaz, yay aylarında, kolxoz və sovxoz fermaları yaylağa çıxan dövrlərdə, yaylaq mövsümlərində o tərəflərə yolum düşə bilər» deyirəm.

Əlbəttə, mənim fikrim arada sürücümün oğluna toy tədarükü görməsi, bir çox ehtiyacını ödəməsi ilə əlaqədar Sisian rayonuna gedərkən yolüstü Gorusa dönüb Artuşla görüşməkdən və ya onun Cəbrayıla gəlməsindən söz açmaq deyil, sözümün məğzi isti, qızmar yay günlərinin birində Lenonun mənə telefon açması ilə başımıza gələn bir məsələylə bağlıdı. Mənə zəng edən Leno bazar günü sübh tezdən Xinzirək kəndinin mərkəzindəki univermağın qabağında yolumuzu gözləyəcəyini deyir və məni ailəliklə kənd Gorusa, evinə qonaq dəvət edirdi. Aradakı boşluqdan istifadə edərək Lenonun bu dəfəki dəvətini qəbul edirəm. Rayon rəhbərliyindən ehtiyat iki gün də əlavə vaxt üçün icazə alıram. İmkan olarsa, oradan Cermuxa getmək fikrində olduğumu da dilə gətirirəm. İlk dəfə daşnaksutyun partiyasının üzvü olduğunu açıq şəkildə etiraf edən, boynuna alan şəxslə də məhz bu səfərimdə, 1985-ci ilin yayında rastlaşıram...

Dədə-babadan Gorus şəhəri o üz Qarabağda həmişə daşnak yuvası kimi xarakterizə edilən, adla deyilən bir yaşayış məntəqəsi olub. Ermənistanın yeganə rayon mərkəziydi ki, son illər burada türk insanı yaşamırdı. 1918-ci ildə Zəngəzura daxil olan tayqulaq Andronik o zamanlar özündən yana burada Ararat respublikası quraraq Gorusu da özünə paytaxt elan etmişdi. Gorus şəhərinin əhalisi sovet dönəmində də daşnak iyi burunlarında yaşayırdılar. Arana, dağa köç edənlər ən çox Gorus camaatının berahatlığından, dava-dalaş salmalarından narazılıq edirdilər. Köç əhlinin bu əraziyə yetişincə həyəcanları artırdı, bəri başdan narahatçılıqlar keçirirdilər. Xüsusilə 50-ci illərdən sonra burada tez-tez toqquşmalar olurdu, insan tələfatlarının da sayı artmışdı. Sovet hökumətinin əmin-amanlığı dövründə bunun da başlıca səbəbi Düzən Qarabağ əhalisinin dədə-baba yaylaqlarına qeyri-qanuni köç sürmələri ilə bağlıydı. Ermənipərəst Kreml hökuməti erməni-daşnak faşistlərinin xahişiylə Ermənistan SSR ərazisində qalan yaylaqlara get-gəlləri kəsdi. Köç məsələsinə 50-ci illərdə rəsmən qadağa qoydu. Yaylaqlardakı dədə-baba yurd yerlərinin əvəzinə maldarlara Laçın, Kəlbəcər rayonlarının

ərazilərindəki dövlət torpaqlarından otlaq sahələri ayrıldı. Lakin ərazilər kifayət etmirdi. Otlaq yerlərinin çoxu həm də yararsız idi. Cəbrayıl rayonunun kolxoz və sovxozlarına Laçın rayonu ərazisində ayrılmış yaylaq yerləri daşlı-kəsəkli, meşəli və kəndlərə yaxın ərazilərdə yerləşirdi. Otlaq üstə həm qonşu kolxozlar, həm də yerli camaatla - fərdi yaylaqçılarla arada tez-tez dava-dalaş düşür, mal-qara oğurluqları da ki bir yandan baş alıb gedirdi. Məhkəmə çəkişmələri səngimək bilmirdi. Ona görə də Düzən Qarabağın kolxoz və sovxozlarının maldar camaatı - elatları nəyin bahasına olursa-olsun, baş salamatçılığı, dincliyi, sakitliyi üçün Zəngəzur, Dərələyəz, Göyçə mahallarındakı dədə-baba yaylaqlarına can atırdılar. O yerlərə köç sürməyə üstünlük verirdilər. Həmin ərazilərdəki rayon və kolxoz rəhbərlərini yaylaq mövsümləri başlamazdan bir neçə ay əvvəlcə gedib görür, onları pul-pənəylə ələ alır, qeyri-qanuni olsa da qoyun sürülərini, mal-qara naxırını yenə də dədə-baba yaylaqlarına çəkib aparırdılar. Dağa gedən yollar isə Gorus şəhərindən keçirdi. Qoyun sürüləri şəhərin alt hissəsindən - el yolundan sürülüb aparılır, maşın karvanları isə şəhərin üstdəki asfalt yolla yaylaqlara dartınırdı. Yaylaq qadağasından xəbərdar olan şəhərin daşnak ünsürləri yaylaqçılara sataşır, sürtüşür, yük daşıyan maşınları daşa basmaqlarından qalmırdılar. Camaat arasında hələ də daşnak xofunu yaşadırdılar. Yaxşı yadımdadır, onda mən hələ məktəbli idim. Böyük Vətən müharibəsinin iştirakçısı olmuş atamla, kəndimizdəki səkkizillik məktəbdə tarix müəllimi işləyən Xalid əmim yeni yurd yerində başladığımız inşaat işləri ilə əlaqədar kəm-kəsir tikinti materialları, xüsusən əhəngdaşı almaq üçün Gorusa getmişdilər. İş elə gətirmişdir ki, getdikləri gün istədikləri alınmamış, sabahkı günə qalmalı olmuşdular. Xoflarından gecəni şəhər mehmanxanasında yer alıb yatmaq əvəzinə şəhərdən kənar ərazidə, Yazı düzündə gecələmişdilər. Onların bu hərəkəti o zamanlar mənə çox qəribə gəlmişdi. Ötən illər ərzində, əlbəttə, çoxsaylı hadisələr də qeydə alınmışdı. Mən onları burada sadalamaq fikrində deyiləm. Gorus şəhərində cövlan edən daşnak ab-havasının yaxşı və pis tərəflərini əks etdirən, 70-ci illərin ortalarında özümlə bağlı baş vermiş hadisələrdən biri haqqında söhbət açmaq istəyirəm...

**Haşiyə - 3:** Yuxarıda adını çəkdiyim əmizadəm Məhəmməd Maqsud oğlu Qafan sərgüzəştindən sonra ata-anasının yanına qayıtmışdı. Kəndimizdəki Jdanov adına üzümçülük sovxozunda sürücü işləyirdi. Mənim Gorusa getmək, hamam kalonkası, vanna-filan almaq fikrində olmağımdan xəbəri vardı. Bir gün mənə xəbər verdi ki, bəs maşının matoru vurubdu. Sovxoz köçürmə verib, valını Gorusdakı maşın təmiri zavodunda şlifləmə etdirməyə, mühərrikini yenidən yığdırmağa aparıram. Adıma maşın yazdırmışam. Gedirsənsə, obaşdan mənimlə gedək. Göydəndüşmə oldu. Sübh tezdən, daha doğrusu, danüzü Gorusa yol aldıq. Biz səhər-səhər zavodun həyətinə girəndə ilk qarşılaşdığımız adam - elə Pəhləvan adlı erməni oldu. Haqqında məlumatımız vardı. Zavodda matorçu işləyirdi, mühərrikyığan idi. Məhəmməd göz altına alınanda, sən demə, Qafanda türmə yoldaşı olublar. Əslən Hadrut rayonunun Düdükçü kəndindən olan Pəhləvanın ata-

anası Gorusa Qarabağdan keçməydilər. Bizi bir yerli kimi yüksək səviyyədə, çox mehribanlıqla qarşıladı. Mühərrikin elə günü bu gün təmir edilməsini matorçu yoldaşına tapşırdı, naryadların verilməsi, yazılması, sənədlərin qaydaya salınması işlərini tez bir zamanda həll etdi. Məhəmmədi və bizi gətirən maşının sürücüsünü də köməkçi işlərə qoşdu. Özü isə təəssüflə bu gün tədbir keçirəcəyini, zavod rəhbərliyindən icazəli olduğunu bildirdi. Mənimlə də tanışlığından çox razı qaldığını söylədi. Özü də ötən ilin bu günü vəfat etmiş atasının ildönümünü qeyd etmək üçün keçirəcəyi tədbirə tələsirdi. Mənim məsələmi də yolüstü həll etdi. Həm də məni tək buraxmadı. Bu gün bir yerdə olacağıq dedi. Mənimlə bir yerlisi kimi danışır, dostlarına, tanış-bilişlərinə köhnənin dostuyuq deyir, elə belə də təqdim edirdi. Mənim qarabağlımdı, atamın ildönümünü eşidib gəlibdi, deyirdi. Qohum-əqrəbaları, dəvət olunan dost-tanışları günorta naharına bütünlüklə qəbir üstünə toplaşmalıydılar. Pəhləvan sözarası mənə goruslulardan giley-güzarını da etdi. «Əlisahib müəllim, Gorus məmurlarının azərbaycanlılara münasibəti xoşuma gəlmir. Nahaqdan atam o vaxtlar köçüb, gətirib bizi bu xarabaya. Pasportumu dəyişəndə adımın türk sözü olmasını mənə irad tutdular. Başıma qaxınc etdilər. Məcbur olub adımı dəyişdirdim. İndi mənim pasportda adım Pəhləvan yox, Nahapetdir. Goruslular belədilər» - dedi. Nahapet evdə yemək tədarük etdirib qəbir üstə gətirtmişdi. Əlavə bazarlıqlarını mənimlə və dostu Sirqenlə bir etdi. Tədbiri də gur, qələbəliklə keçdi. Qəbirüstü mərasimdə stəkanlar bir-birinə vurulmasa da, çox sözlər danışıldı, növbəylə hər kəs öz sözünü dedi, Nahapetə başsağlığı verdi. Məni də söz deməyə məcbur etdilər. Mən insan ölümü haqqında danışdım, hətta Əli Kərimdən şeir də dedim. Deyəsən mənim danışığım, sözüm-söhbətim mərasim istirakçılarının olduqca diqqətini çəkdi. Çoxlarını kövrəltdi. Nahapetin hisslərini də riqqətə gətirmişdim. O, məni mərasim iştirakçılarına, yaxınlarına belə elə təqdim etdi ki, guya mən, doğurdan da, Gorusa ancaq elə bu tədbirdə iştirak etmək üçün gəlmişəm. Tez-tez məni bağrına basır, məndən aralı durmaq bilmirdi. Mənim mərasimdə iştirakımı atasının ruhuna ən dəyərli ərməğan kimi qiymətləndirirdi. «Ata, qalx ayağa, bax, ruhunu yad etməyə həmyerlin gəlib. Gör kim gəlib». Aramsız olaraq yerli-yersiz adımı təkrarlayırdı. Yas mərasiminə yekun vurulub istirakçılar qəbiristanlıqdan dağılanda mən, Sirqen və Pəhləvan hələ də qəbirüstə qalmışdıq. Pəhləvan qab-qacağı yerbəyer elədi. Arvad-uşağı maşınla evlərinə yola saldı. Yay günü idi, hələ günün batmasına çox vardı. Biz piyada gəzmək, havamızı dəyişmək üçün şəhərə tərəf döndük. Əlqissə, məni şəhərin görməli yerləri ilə tanış etmək qərarına gələn dostlarla hüzn yerindən ayrıldıq. İlk növbədə şəhər parkına enmək, burada bir balaca dincəlmək qərarına gəldik. Həmin gün axşamüstü Sirqen bizə şam yeməyi vermək inadından əl çəkmədi. Məhəmmədgilin sabaha qalma gümanı vardı. Hələ də işlərini qurtarmamışdılar. Uzun yay günündə vaxt keçirirdik. Axşamüstü Gorusun ən yığnaqlı, xidmət səviyyəsi yüksək sayılan mərkəzi şəhər yeməkxanasına varid olduq. Yeməyimizin qızğın yerində çörəyin qurtarmasına ilk reaksiya verən, yerindən qalxan mən oldum. Sirqen də, Pəhləvan

da məndən yaşca fərqli dərəcədə böyük idilər. Növbədənkənar irəli keçib bufetçidən çörək verməsini xahiş etdim. Bu vaxt yenicə gəlib növbəyə duran erməni dığası qabağıma keçdi. Xüsusi bir ədayla məndən növbəyə durmağı tələb etdi. Mənsə yeməyimizin stolda qaldığını dedim, bufetçi mənim tərəfimi saxlasa da, dığa bununla razılaşmadı. «Tork lotusuna nə qahmar çıxırsan, ara» deyəndə mən ona «lotu özünsən, düdük» deməyimlə aləm qarışdı. Onun ətrafına yığılmış dığalar mənim üstümə hücum çəkmək istəyəndə Sirqendə ağılagəlməz tərpəniş ağır gövdəsinə uyuşmayan bir çəldlik gördüm. Yumruq düyməyi ilə üstümə qabaran həmin dığanı yerə sərdi. Döş cibindən İtaliya istehsalı olan finka çıxarıb düyməsini basdı və hayqırdı. «Kim mənim dostuma çırtma vursa, onun anasını ağlar qoyaram» - dedi. 20-30 nəfərlik növbənin üstünə yeriməklə yeməkxanaya bir çaxnaşma, vəlvələ düşdü ki, gəl görəsən. Stulda oturanlar da bir-birinə dəydilər. Demək olar ki, qaçan-qaçana qarışdı, bir-birinə ilişdi. Yeməkxana işçiləri, bufetçi, Pəhləvanın özü belə Sirqendən bıçağı ala bilmədilər. Bu zaman mən xüsusi bir ərklə Sirqenin üstə yeridim. Gözləri hədəqəsindən çıxmış Sirqen gözləmədiyim halda əl uzatmağımla bıçağı mənə verdi. Mən tiyəsini yerinə salıb finkanı Sirqenə qaytardım. Bununla söz-söhbət yığışıldı. Aranı sakitləşdirdik. Hadisə yerinə gələn milis nəfərləri yeməkxanada tam sakitliklə üzləşdilər, nəsə bir hadisənin baş verdiyinə heç özlərinin də inanmağı gəlmədi. Sakit nəzərlərlə zalı diqqətdən keçirdilər. Bufetçiylə etdikləri sual-cavabla kifayətləndilər və gəldikləri kimi də çıxıb getdilər. Mənim, ümumiyyətlə, müxtəlif dövrlərdə və zaman kəsiklərində Cermuxda, İrəvan şəhərinin özündə belə olduğum zamanlar ermənilərlə aramda olan xoşagəlməz söz-söhbətim bununla bitib. Baş verən yeganə kriminal hadisəylə bu sayaq üzləşmişəm.

... Leno bizi böyük sevinc içində qarşıladı. Güllü-çiçəkli həyətində toğlu kəsdirib kabab çəkdi. Həyat yoldaşı da ürək genişliyi ilə bizi qəbul etdi, süfrə açdı. Sabah isə Cermuxa getməyimizi planlaşdırdıq. Axşamüstü məclisimizə Artuş da qatıldı. O da evdə tədarük gördüyünü dedi. Leno ona - ancaq və ancaq sabah yox, birisi gün qonaqlarımı sənin öhdənə buraxa bilərəm - dedi. Sabah da bütün günü Cermuxda olacağıq. Xəbərdarlığını bəri başdan etdi. Mənim israr etməyimə baxmayaraq həmin gün Artuşgildə gecələmə məsələsini də sabah axşama adlatdı. Artuşu axşam evinə yola salıb qayıtdı. Leno üzünü mənə tutub dedi: «Əlisahib müəllim, qudam Artuş çox mərifətli adamdır. Amma arvadı Gövhərin üzünü gor görsün. Çox murdar qadındır. Ona görə istəmirəm gedib onlarda gecələyəsiniz. Onun murdarlığı ucbatından əhvali-ruhiyyəniz korlansın. Onun naqisliyindən bir yeniyetmə oğlu da erkən yaşında tələf oldu. Bir qızı da boşanıb iki uşaqla Krasnodarda oğlunun, mənim kürəkənimin himayəsində yaşayır. Allah o qadına lənət eləsin!» Lenonun həyat yoldaşı da Artuşun həyat yoldaşının qarasına danışdı. Doğrusu, mən Gövhər xanımı ötəri görmüşdüm. Onun qaraqabaqlığını hiss etmişdim. Lakin onun çox pis, həm də öz qudaları tərəfindən bu qədər qara boyalarla anılacağını heç vaxt ağlıma gətirməzdim. Ermənilərin bir-birini bu qədər

açıq şəkildə pisləmələrini də birinci dəfəydi ki, görürdüm. Gövhər adlı qadında bu iyrəncliyi bir gün sonra apaydın görəsi olduq. Cermuxdan gecə keçəndə qayıtdıq, maşını birbaşa Artuşun həyətinə sürdürdüm. Onsuz da axşam yeməyinə ehtiyacımız yox idi. Səhər naharını Artuşgildə edib Cəbrayıla qayıtmağı qərarlaşdırmışdıq. Artuşun canfəşanlıqlarına baxmayaraq Gövhər xanım uşaqlarımla heç març-murç da etmədi. Mənimlə, həyat yoldaşımla ağızucu, çox soyuq görüşdü. Cansıxıcı bir ab-hava şəraitində Artuşgildə gecələməli olduq, sabahı da elə bu ab-havayla yerimizdən qalxdıq. Səhər süfrəsinə balı, yağı, çayı düzən, gətirən Artuşun özüylə ərgən qızı oldu. Gövhər xanım (əgər ona xanım demək mümkünsə) mısmırığını sallamış halda ora-bura var-gəl edirdi. Mən istər-istəməz Artuşdan Gövhər xanımın qaş-qabaqlı olmasının səbəbini soranda, Artuş pıçıltıyla dindi: «Allah bunun bəlasını versin. Bu yaramaz da onlardandı. Türk insanı görəndə özünü bu cür aparır». Düzü Artuşun kimləri nəzərdə tutmasını ilk sözündə başa düşmədim. «Yəni kimlərdəndi deyirsən?» soruşdum. «Ayə, eşitməmisən, o, oğrac qızı Silva Kaputikyanın, o yaramaz Zori Balayanın adamlarındandır. Bu başıbatmış da daşnakdır. Gənc yaşlarından Daşnaksutyun partiyasına üzv yazılıb. Ailə qurduqdan sonra bu qancığın daşnak olmasından xəbər tutmuşam. 30-40 ildir bunun ucbatından nələr çəkirəm bir Allah bilir. Ağ günümü on illərdi qara əsgiyə bükübdü. Açıb-ağarda da bilmirəm. Bir oğlumuzu da bunun ucbatından güdaza verdik. Yenə də özünə yığılmaq bilmir». Kim idi, əntər sifətli, anqutu çıxmış, xanım deməyə dilim də gəlməyən bu daşnak qadını Gövhər xanım?! Gövhər xanım yerliydi. Yerliydi deyəndə, dədə-babası XIX əsrin əvvəllərində ruslar tərəfindən bura köçürülən İran ermənilərindən olub. Özünü köklü Goruslu sayırdı. Gizli fəaliyyət göstərən Daşnaksutyun partiyasına İrəvanda orta tibbi təhsili alarkən yazılıb. Hər tərpənişindən, duruşundan bir dəli-becan jizoit qadın olması hiss edilməkdəydi. Elə bil həyət bağçasında kəsilmək üçün gilənar ağacına bağlanmış toğlunun mələrtisindən cana doymuş kimi hərəkət edirdi. Əllərini qoynuna qoyub qoyunun qaraltısına dövrə vurur, donquldana-donquldana özünü yeyib tökürdü. Artuşunsa dişi bağırsağını kəsirdi. Ha girəvəyə salıb, yanlayıb Gövhəri sakitləşdirməyə çalışsa da, xeyri yoxuydu, səylərindən bir şey alınmırdı. Daşnak qadın donqultusunu kəsmək, sakitləşmək bilmirdi. Gövhərin bu oyunbazlığı mənə nədənsə gülməli gəlirdi. Bir dəri, bir sümük olan, ağız-burnu əyri, qara gavalı qaxacına dönmüş bu qadın türk əhli görmək ucbatından bir görün nə qədər qıcıqlanırdı. Qan havasına oynayırdı. Bir o qalırdı ya üstümüzə atılsın, bizi cırmaqlasın, ya da bizə gücü düşmürsə, bu hərəkətləri etməyə imkanı yoxsa, eləcə özünü didib-parçalasın. Ərgən qızı da, qayınatası da vaxtı ilə M.C.Bağırovun mühafizə dəstəsində xidmət etmiş, «Kişi» deyə tərifindən doymaq bilməyən qoca Petros da ikiqat bizə qayğı göstərirdilər. Sanki onlar öz hərəkətləri, davranışları ilə Gövhərin daşnak nankorluğunu, murdar xislətini bizim qarşımızda kompensasiya etməyə çalışırdılar. Lakin canfəşanlıqları hədər idi. Artuş lap dilxor olmuşdu. Bilmirdi ki, bizim başımızı hansı oyunlar ilə qatsın. İki dığa çağırıb qoyunu kəsib,

kabab etdirənədək şəhər ətrafına çıxmağı təklif etdi. Mən onunla həyətdən çıxdım. Lakin tez-tez «yolçu yolda olsun gərək» deyirdim. «Yox, bir tikə çörək kəsin, yemək yeyin, sonra gedərsiniz» deyirdi. Artuşun xətrinə dəymədim, arvad-uşağın narahatlığına baxmayaraq bir az ləngiməli olduq. Deyəsən, ikigünlük xoş «kənd Gorus-Cermux» istirahətimizi Gövhər öz daşnak xisləti ilə burnumuzdan tökəcək idi. Gorus ətrafındakı sərin sulu bir-iki bulaqdan su içib bir saat keçməmiş geri döndük. Hər şey süfrədə hazır idi. Şişlər də manqal üstə düzülmüşdü. Lakin ətrafda xoşagəlməz bir qanqaraçılıq vardı. Öyrəndim ki, 6 yaşlı ortancıl oğlum Tale küçədə erməni uşaqları ilə savaşıb. Hətta, qaça-qaça həyətə girib kababçının ət tikələdiyi bıçağı ləyəndən götürüb onunla savaşan 4-5 erməni uşağının üstünə yeriyib. Uşaqları qabağına qatıb Gorusun enli küçəsiylə üzüaşağı qovalayıb. Onun bu hərəkəti Gövhər xanımı lap cin atına mindirib. Qanına zəhər yeridib. Acığını uşağın üstünə tökmək istəyib. Hirsli-hirsli danışmağına Tale də əsəbiləşərək ona sarı tüpürüb. Bunun da müqabilində anası Taleyə bir-iki sillə çəkib. Belə-belə işlərdən sonra bizim bir stol ətrafında oturmağımız ancaq etika xatirinə oldu. Biz kababı yox, deyəsən, kabab bizi yedi. Qaradinməz stulda oturan, dişini-dişinə sıxan Gövhər xanıma ən sonda mən söz deyəsi oldum. Onu acıqla da olsa dindirmək qərarına gəldim. Dedim ki, ay Gövhər xanım, mənim Goruslu dostum Pəhləvan deyir pasportlar dəyişiləndə mənim adım türk mənşəli söz olduğundan adımı məcburi dəyişdirdilər, Nahapet qoydular. Siz nə əcəb türkdən bu qədər acığınız gələ-gələ adınızı o zaman dəyişdirməmisiniz. Elə bir ayıya dəyirmançı dedim. Qadın üfürülmüş şara döndü. Üzünə sanki iynə ucu toxundurdular. Part açıldı. «Gövhər türk sözü deyil, korennoy ərəb sözüdür» - dedi. Mənim «Nə olsun ki, ərəb də müsəlman deyil?» sualıma o bir az da səsini ucaltdı: «Söhbət müsəlmandan getmir. Nə olsun, farslar da müsəlmandılar. Amma bizimlə din ayrı qardaş kimidilər». Mən: «Siz hardan farslarla qardaş ola bilərsiniz, onlar Yaxın Şərqdə Hindistan tərəfdən, deyilənə görə, sizsə Balkanlardan gəlibsiz». O isə «hardan gəliblər, gəlmişik, deyə bilmərəm. Biz «Böyük Ermənistanın» övladlarıyıq» - dedi. Artuş söhbətə qoşulur. Amma səsini astadan, pıçıltıyla çıxarır. Deyəsən, Gövhəri daha da əsəbiləşdirəcəyindən ehtiyatlanır: «Bunu dindirməsən yaxşıdır. Əlisahib müəllim, Gövhər xanımı xəyal dünyasından ayırmaq asan iş deyil. Beyninə elə yeridiblər ki, uydurmalarını gerçək kimi qəbul edir. Çox dərinə getməyin». Gövhər xanım sözdən söz çəkir. Sanki hayqırır: «Yox, mən xəyal deyiləm. Mən daşnak olmağımla fəxr edən qadınam. Dediyimiz nə var, hər şey haqdır, həqiqətdir». Daşnak sözündən alınıram: «Yox, Gövhər xanım, Daşnaksutyunun yetirməsi olan erməni yazarları tarixi saxtalıqları əsas götürürlər, tarixi həqiqətlərə göz yumurlar. Tarixi həqiqətlər hələ çoxlarına dərs olmamışdır. Saxta erməni tarixçiləri elmdən uzaq, uydurma və əsassız, sübutu olmayan qondarma və qurama əsasa söykənən iddialarla çıxış edirlər» - deyirəm. Gövhər xanımın gözləri bərələ qalır. Gözləmədiyi cavabdan diksinir. Sözünün ardını ermənicə gətirir və Artuşun qarasına deyinə-deyinə manqal ətrafında curlaşan dığalara tərəf yortur. Biz isə

qalxmağı, bu cansıxıcı aləmdən tezliklə uzaqlaşmağı əfsəl bilirik. Stoldan yarımçıq qalxırıq. Gorusun Papaq daşınadək Artuş bizdən ayrılmır. Ora qədər də Gövhər sözünü sanki əzbərləmiş kimi «başı-batmış»la əvəzləyir. Gövhərin qarasına, Silva Kaputikyanın, Zori Balayanın ünvanına nalayiq sözlər deməkdən belə çəkinmir, yorulmur. Bizə üzrxahlıq edir: «İndi, Əlisahib müəllim, gör Artuş qardaşın bu jizoit qadının əlindən nələr çəkir. Ona öhtə eləmək bu gündən belə çətin məsələdir. Nevropatoloq yanında olmuşam. Psixoterapevtlərə müraciət etmişəm. Heç birindən müsbət cavab almamışam. Səndən xahiş edirəm onun qanqaraçılıq salmasını çox yuxarı almayın. Daşnakların təbliğatı erməni olanın beynində milli psixoz əmələ gətirməyə xidmət edir. Bu yaramazlar milləti daşnak psixopatlarına çevirirlər. Deyilənə baxmırlar. Düz yolda olmadıqlarını anlamırlar. Belələrinin cəzasını Allah özü verəcəkdir». Əlbəttə, Allah-taalanın cəzası ədalətli olur. Gec də olsa güclü olur. Bəndəsi tərəfindən istəsə də, istəməsə də qəbul edilən olur. Mənsə Tanrı bəndəliyindən çıxmış Gövhər xanımın oxşarını, bəlkə də eynisini harda görməyimi arayıb-araşdırmaqdan xilas ola bilmirəm. Xəyalım fikrən özümdə olmamağımla məşğuldur. Yazı düzündə beynimə, yaddaşıma yazılanları vərəqləyə-vərəqləyə arana doğru irəliləyirik. Axtardığımı isə qətlətən tapıram. Fikir məni keçmişlərə çəkir. Hövüllənirəm. İndi məni cəlb edən gözlərimin qabağından çəkilib getməyən, 60-cı illərin Gövhəri olan Siranuş idi. Odur ki var. Mənə tam aydın oldu ki, elə Siranuş da daşnak qadını imiş ki, qaraçılıq edirdi. Jizoit qadın özüdür ki var və olub da...

**Haşiyə - 4:** Bizim qonşu erməni kəndindən Dolanlardan olan Tiqran dədə-baba qonaqçılarımızdan, daha doğrusu, erməni kirvələrimizdən biriydi. Özü demişkən, Daşkənd, Orconekidze şəhərlərində evləri olsa da, hal-hazırda Bakı şəhərində yaşayırdı. Son vaxtlar Dolanlar kəndində də ikimərtəbəli ev tikdirmişdi. Yaydan-yaya gəlib 5-10 gün kənddə dincəlirdi. Özü də tək qalırdı. Bizimlə də görüşürdü. 1963-cü ilin yayı, avqust ayının son günləri idi. Mən həmin il kənd səkkizillik məktəbini bitirib Bakıya gəldim. Bakı Politexnikumuna daxil olub bir həftəliyə kəndə qayıtdım. Sentyabrın 1-də dərslər başlayırdı. Bu gün - 31 avqustda şəhərə yola düşürdük. Tiqranla birgə. Onda Tiqran çox yaşlaşmışdı və çox ağır tərpənirdi. Topal barmaqlarına baxanda adam üşənirdi. Tiqran 30-cu illərdə Cəbrayıl rayonunda əmanət kassasının müdiri işləmişdi. RİK-nin sədri Mirqəniyev (həyat yoldaşı erməni qızı olub) trotskiçi kimi tutulanda, daha doğrusu, enkevede dustağı olanda təzyiqlərə davam gətirmir. Nə var, nə sorurlar, hə deyir, bir çox idarə rəhbərləri haqqında yanlış ifadələr verir. O cümlədən rayon milis şöbəsinin rəisi Xanlar Səmədovun gizli müsavat təşkilatında çalışdığını, Tiqran Qriqoryanın isə daşnaksutyuna xidmət etdiyini bildirir. Adı çəkilən idarə, müəssisə rəhbərlərini də istintaqa cəlb edirlər. Tiqran deyirdi ki, barmaqlarıma döyməkdən məni bu günə saldılar. Lakin heç bir şey boynuma qoya bilmədilər. Mirqəniyevi elə günə salmışdılar ki, yazıq əməliyyatçı görəndə qaçıb çarpayının altına girir və nə soruşsalar, nə desələr təsdiqləyirdi. Getsin o günlər, gəlməsin, çətin zamanlar idi.

**Yenə orada** - «Daşnaksutyun partiyası Qafqazda fəaliyyətinin lap başlanğıcında çarizmin qulluqçusu rolunu oynayırdı. Yalnız həddini aşanda çarizm ona qulaqburması verirdi»;

**Yenə orada** - «Gənc türklərin siyasətindən xəbərdar olan daşnaklar iki od arasında qalan xalqın özünümüdafiəsini təşkil etmədi, onun fəlakətini yüngülləşdirmək üçün heç bir tədbir görmədi, öz avantürist hərəkətləri ilə düşmənçiliyi daha da qızışdırdı»;

**86. Erməni tarixçisi Vartanyan 1914-cü ildə nəşr etdirdiyi «Erməni hərəkatının tarixi» adlı kitabında yazır:** «XIX yüzilliyin əvvəllərində ermənilər bir millət olaraq Avropada məlum deyildilər»;

**87. Erməni müəllifi Sumbat Qabrielyan «Erməni böhranı və onun təkrar yaranması» (Boston, 1905) adlı kitabında yazır:** «Avropada dövlətli bir ermənidən pul tələb edən erməni inqilabçısına o, belə cavab vermişdi:

- Mən öz pulumla millətimin cəlladı ola bilmərəm»;

**88. Edqar Qraiville yazır:** «Bu iş - problemlər ermənilər tərəfindən yaradılmayıb. Belə ki, ruslar erməniləri bu işə təhrik etməyincəyə qədər Türkiyədə heç bir erməni hərəkatı olmamışdır. Rusların «köməyi» ilə başlayan Balkan hərəkatına qədər ermənilər sadəcə öz aralarında məzhəb mücadiləsi aparmışlar. Hətta öz aralarındakı anlaşılmazlıqların həlli üçün də türklərdən kömək alırdılar»;

**89. Erməni tarixçisi A.S.Vartapetov:** «Erməni kilsəsi «Albaniyanın bütün kilsələrində sakitliyi» yalnız yadelli işğalçıların köməyi ilə bərqərar edirdi. Erməni katolikosluğunun və naxararlarının mənafeyi hər dəfə tələb etdikdə erməni kilsəsi bir qayda olaraq yadelli işğalçıların köməyinə əl atır, «xaç bayrağı» adı altında öz yolu üzərindən tarixi Ağvaniya və onun bir hissəsi olan Qarabağ (Arsax) xalqlarını yox edirdi»;

**90. Gürcüstan hökumətində Ermənistanın işlər vəkili Camalyan məlumat verirdi («Azərbaycan» qəzeti, 01.01.1919-cu il, 1-ci sayı):** «Dekabrın 2-də (1918) Gülyataq ermənilərinin quldur dəstəsi Sırxavənd kəndinə hücum edib 122 baş qaramal, 45 keçi aparmışlar. Həmin quldur dəstə Gülyataq, Canyataq və Kasapet ermənilərindən ibarət daha güclü bir tərkibdə iki dəfə Balagilyar kəndinə hücum etmişlər»;

**91. «Xorhurdain Hayastan» qəzeti 29.X.1921-ci il tarixli sayında yazır:** «Ermənistanı erməni olmayanlardan, öncə tatarlardan və türklərdən təmizləyin. Türklərə nifrət edin, müsəlmanları qırın, kəndlərinə od vurub yandırın, əmlaklarını talan edin»;

**92. Daşnaksutyun partiyasının yaradıcılarından biri olan Ovanes Kaçaznuni daşnak partiyasının 1923-cü ilin aprel ayında keçirilən konfransına hazırladığı «Daşnaksutyuna bir iş qalmadı» adlı məruzəsində yazır:** «Başa düşmək lazımdır ki, erməni bolşevikləri bizim varislərimizdir, onlar bizim işlərimizi davam etdirməlidirlər və artıq davam etdirirlər... Biz bolşeviklərə minnətdar olmalıyıq. İrsən alınmış işi daha etibarlı şəkildə qaydaya saldılar»;

**Yenə orada** - «Artıq Daşnaksutyuna bir iş qalmır. Hər şeyi erməni kommunistləri daşnaklar sayaq, onlardan daha da yaxşı həyata keçirirlər»;

**93. Görkəmli Fransa alimi Jorj de-Malevl özünün «1915-ci il erməni faciəsi» adlı kitabında yazır (Bakı, 1990, s.15):** «Bu gün ermənilərin həyata keçirdikləri zorakılıqları, istər söz zorakılığı olsun, istərsə də fiziki zorakılıq, kənardan müşahidə edən onun riyakarlığını nəzərdən qaçıra bilmir. Onda belə şübhə yaranır ki, qarşısında gizli məqsədlər üçün naməlum rejissorlar tərəfindən ayrı-ayrı parçalardan quraşdırılmış ssenari var və bu ssenarinin aktyorları istər tarixçi-alim olsun, istər muzdlu qatil - əzbərlədikləri rolları ifa edirlər»;

**Yenə orada** - «Həqiqətən, erməni xalqı tarix səhnəsində yalnız eramızdan əvvəl, VII əsrdə Urartu dövlətinin süqutundan sonra görünməyə başlayıb... və gəlmə xalqdılar»;

**Yenə orada** - «İngiltərənin iradəsi ilə çar imperiyasının xarabalıqları üzərində 1918-ci ildə qurulub qısa bir ömür (may 1918 - noyabr 1920) sürən erməni respublikası, bütün tarix boyu mövcudiyyəti qeydə alınan yeganə müstəqil erməni dövləti olmuşdu»;

**94. ABŞ Kolumbiya Universitetinin professoru, milliyyəti erməni olan N.Qorsyan yazır:** «Erməni müəlliflərinin ilk orta əsrlərə aid fikirləri Zərdüşt İranı təhlükəsinə qarşı duran vahid Ermənistan ideyasını əks etdirir. Lakin bu mənzərə real gerçəkliyi əks etdirmir, çünki Ermənistan V əsrdə birləşmiş halda deyildi»;

**95. Erməni tarixçisi K.P.Patkanyan özünün «Yaxın Asiya tarixində Van yazıçılarının rolu» (Sankt-Peterburq, 1881, səh.36-37) kitabında yazır:** «Ermənistan bəşər tarixində xüsusi rol oynamamışdır. Bu, ermənilərin yayılıb səpələndikləri bir regionun coğrafi adıdır. Bu ərazi güclü qonşu dövlətlərin: assuriyalıların, midiyalıların, iranlıların, yunanların, romalıların, parfiyalıların, ərəblərin, türk tayfalarının, monqolların, rusların... öz mübahisələrini həll etdikləri yer olmuşdur»;

**96. Sov.İKP MK-nın qərar və qətnaməsindən (Partiya arxivi, f.461, q.45452):** «Erməni hökumətinin agenti olan daşnaklar Qarabağı Ermənistana birləşdirməyə can atırlar, lakin bu, Qarabağ əhalisi üçün öz həyat mənbəyindən - Bakıdan məhrum olmaq və heç vaxt, heç nə ilə bağlı olmadıqları İrəvana bağlanmaq demək olardı»;

**97. Zaqafqaziyanın partiya boslarından olan L.Mirzəyan 1923-cü ildə yazırdı:** «Mənim dərin əqidəm belədir ki, Qarabağın məsələsi bir tərəfdən bizim yuxarı partiya və sovet rəhbər dairələri tərəfindən, digər tərəfdən də bir sıra millətçi əhvali-ruhiyyəli erməni ziyalıları tərəfindən yaradılmış və yaradılmaqdadır. Təmiz şəkildə Qarabağ məsələsi yoxdur. Erməni kəndlisi Bakı və Ağdamla sıx əlaqəsi olmasa yaşaya bilməz, yalnız onun ovalıq hissəyə yolunu təhlükəsiz etmək və mədəni inkişafına imkan yaratmaq lazımdır»;

**98. Ali Amerika diplomatı Bryus Lainger «Vaşinqton post» qəzetinə yazdığı 21 iyul 1983-cü il tarixli məktubunda bəyan edir:** «Erməni terrorçularının basqıları bütün insani davranış normalarının və diplomatik təşrifatların pozulduğunun davam etdiyini göstərən faciənin tərkib hissəsidir. Bəs

erməni cəmiyyətinin böyük əksəriyyətinin belə qəddarlıqları pisləyən səsi haradadır? Bu cür mənasız, kortəbii terror aktları ilə axı nə əldə etmək olar? Erməni millətinin tarixinin heç bir həqiqi və ya xəyali səhifələri bunun davamına bəraət qazandıra bilməz»;

**99. Latış jurnalisti Tatyana Çaladze özünün «Karabax: Voyna v litsax» kitabında yazır:** «Mənim gəldiyim qənaətə görə bu millətin (ermənilərin - *red.)* ən böyük bədbəxtliyi, ən böyük faciəsi heç yerdə rahat yaşaya bilməmələri, ayaqları bir balaca yer alan kimi bura mənimdir iddiasına düşmələri, bu iddianı həyata keçirmək üçün ən iyrənc vasitələrə, namünasib üsullara əl atmaları, özlərindən adamlar öldürüb başqalarını şərləmələridir»;

**Tatyana Çaladze «Dünya bilməlidir: Xocalı faciəsi əsl soyqırımdır» məqaləsində yazır:** «Erməni terror təşkilatları və muzdlu silahlı birləşmələr bütöv ailələri məhv edir, açıq qətllər təşkil edir, adamların diri-diri dərisini soyur, qulaqlarını kəsir, skalpını çıxardırdılar. Hamilə qadınların qarnını yarır...uşağı çıxardır...artıq ölmüş qadının yarılmış qarnına ərinin kəsilmiş başını soxurdular. Bütün bunları təsvir etmək mümkün deyil»;

**100. Amerikalı aqronom Leonard Ramsden Hartvill 1928-ci ildə İndianapolis şəhərindəki «Bobbo Meril kompani» nəşriyyatında çap etdirdiyi «İnsanlar belədir, 1918-22-ci illər Azərbaycan hadisələri bir ermənin xatirələrində» kitabında yazır (O, 1922-24-cü illərdə Transqafqazın əkinçilik təsərrüfatlarında çalışmış, köməkçisi xankəndili Ovanes Apresyanın onu mütəəssir edən xatirələrini qələmə almışdır - *Ə.Ə.):*** «Xankəndili Ovanes Apresyan: «Bu yerlərin sakinləri türklər və ermənilərdir. Əslində bir türk yurdu olan bu diyarda ermənilər gəlmədilər... Uşaqlıq illərindən başlayaraq mənə pis nə varsa türklərin adı ilə bağlı olduğunu öyrədirdilər... Bütün deyilənlərə rəğmən mən daim yanımızda çalışan türkləri sevirdim... Türklərin əksəriyyəti fağır insanlardı... İndi başa düşürəm ki, biz ermənilər öz məmləkətlərinin zənginliklərindən çox az pay almalarına baxmayaraq bu türklərə nifrət bəsləyir, onlara özümüzdən aşağı insanlar kimi baxır və bu cür də rəftar edirik»... 1905-ci ildə Xankəndindəki türkləri məhv etmək, onların ev-eşiyini dağıtmaq qərarına gələn ermənilərin kənddə keşik çəkən kazak bölüyünü ələ almaları və gecə hücuma keçmələri barədə deyir: «Bizimkilər türk evlərinin qapılarını yumruqladılar, amma heç bir cavab almadılar. Belə olanda qapıları qırdılar və evdəki son türk öldürülənə qədər davam edən bir türk soyqırımı başladı...»…1918-ci ildə müstəqil Ermənistan Respublikasının öz azərbaycanlı vətəndaşlarına qarşı apardığı etnik təmizləmədən bəhs edir: «Türklərə qarşı başladılan müharibə qısa bir zaman içərisində onların nəslini yerli-dibli kəsmək savaşına çevrildi. Türklər Türkiyədəki erməni məsələsini erməniləri ölkədən sürgün etmək yolu ilə həll etdikləri kimi, biz də Ermənistandakı türk problemini eyni qaydada aradan qaldırmağa girişdik. Türklərin sağ-salamat qaçaraq xilas olmalarına imkan verən yolları və dağ keçidlərini bağladıq... Dərhal türklərin kökünü kəsmək işinə başladıq... Əgər ingilislər araya girməsəydilər, Tiflis

də qalib erməni ordusu tərəfindən işğal olunacaqdı. Bakıda isə ermənilər ingilislərin yardımı ilə bu böyük neft şəhərini ələ keçirdilər və şəhərin türk əhalisindən 25 min nəfərini öldürdülər»;

**101. Erməni tarixçisi Yervand Şahəziz yazır:** «1827-ci ildə İrəvanda 2400 azərbaycanlı ailəsi (12 min nəfər) yaşamışdır»;

**Yenə orada** - «İrəvan və Rəvanqulu adları arasında heç bir əlaqə yoxdur. Çünki İrəvanın adı VII əsrdən bəlli olmuşdur»;

**Yenə orada** - «Hüseynəli xan heç bir xərc və qayğı əsirgəmədən farsların (azərbaycanlıların - *Ə.Ə.)* ən yaxşı məscidləri olan Gəncədəki Şah Abbas, Təbrizdəki Göy məscid üslubunda öz xanlığına layiq bir xatirə abidəsi qoyub getmək istəmişdir»;

**102. Erməni alimi Zaven Korkodyan «Sovet Ermənistanın əhalisi son yüzillikdə -1831-1931» (İrəvan, 1932, səh.162) kitabında yazır:** «İrəvan - indiki Ermənistan ərazisində mövcud olmuş İrəvan quberniyasının İrəvan, Üçmüəzzin, Yeni Bəyazid, Aleksandropol və Gəncə quberniyasının Zəngəzur, Qazax-Dilican, Tiflis quberniyasının Loru-Pəmbək qəzalarındakı 2310 kəndin 2000-ni azərbaycanlılara məxsus olmuşdur»;

**Yenə orada** - «1833-cü ildə İrəvan şəhərinin 18.766 nəfər əhalisinin 15.992 nəfəri, 1866-cı ildə 27.246 nəfərindən 23.626 nəfəri, yəni 85,2%-i azərbaycanlı olmuşdur»;

**Yenə orada** - Qəmərlidə olan 102 kənddən 94-də, Üçmüəzzində olan 71 kənddən 67-də azəri türkləri yaşayırdılar. Daşnak qırğınından sonra bu rəqəm köklü şəkildə dəyişilmişdi. Ermənistanda Sovet hakimiyyəti qurulduqdan sonra Qəmərlidəki 102 kənddən 75-də, Üçmüəzzində isə 71 kənddən 52-də azəri türkləri yaşayırdı»;

**Yenə orada (səh.184):** - «1920-ci ildə daşnaklardan Sovet hökumətinə cəmi 10.000 nəfərdən bir qədər artıq türk əhali qalmışdır. 1922-ci ildə 60.000 qaçqın qayıtdıqdan sonra türklər burada 72.596 nəfər təşkil etmişdir»;

**103. İ.P.Petruşevski «Tarixi oçerk» kitabındakı (Leninqrad, 1949, səh.52) «Azərbaycan və Ermənistan feodal münasibətləri» adlı məqaləsində yazır:** «Albanların əksəriyyəti Azərbaycan xalqının tarixinə daxil olaraq İslam dinini qəbul etmiş, onların kiçik azlığı isə Şəkidə və Dağlıq Qarabağda gəlmə ermənilərə qoşulub erməniləşmişdilər»;

**İ.P.Petruşevski «O doxristianskix verovaniyax krestyan Naqornoqo Karabaxa» (Bakı,1930) kitabında yazır:** «Tatev və Gəncəsər monastırlarına ermənilər təsadüfdən-təsadüfə gəlirlər, daha doğrusu, Gəncəsər monastırına son vaxtlar heç gəlmirlər, onlar çox xəsis olurlar. Bu ziyarətgahlara, birinci növbədə Gəncəsərə türk maldarları tez-tez gəlirlər. Xüsusən mal-qaranı yaylaq və qışlağa köçürərkən mütləq monastırlara gəlirlər və çox səxavət göstərirlər»;

**Yenə orada** - «Qarabağ heç vaxt erməni mədəniyyətinin mərkəzi olmamışdır. Qarabağ mədəniyyəti vahid mədəniyyət olub, Azərbaycan xalqına məxsusdur»;

**104. İ.Dyakonov «Erməni xalqının ilkin tarixi» kitabında (İrəvan, 1968, səh.229-237) yazır:** «Qədim ermənilər təxminən bizim eradan əvvəl birinci minillikdə Fərat çayının yuxarı vadisi zonasında meydana gəliblər»;

**Yenə orada** - «Erməni etnosu Qafqazın hüdudlarından kənarda formalaşıb»:

**Yenə orada** - «Qədim erməni dili Ermənistan yaylasının yerli əhalisinin dilinə qohum olmadığından aydındır ki, o dil buraya kənardan gətirilmişdir»;

**105. Manuk Abekyan «Erməni ədəbiyyatı tarixi» kitabında (İrəvan, 1975, səh.11) yazır:** «Erməni xalqının əsli nədir, necə və nə vaxt, haradan və hansı yollarla o buraya gəlib, erməni olmazdan əvvəl və sonra hansı tayfalarla əlaqədə olub, onun dilinə, etnik tərkibinə kim və necə təsir göstərib? Bizim əlimizdə bunları sübuta yetirən aydın və dəqiq dəlillər yoxdur»;

**Yenə orada** - «Erməni dili hibrid **(calaq** - *Ə.Ə.)* dildir. O biri yandan da erməni qəbiləsi hibriddir. Urartu və başqa qonşuları assimilyasiya etmişdir»;

**106. «Kommunist» (İrəvan) qəzetinin 20 yanvar 1975-ci il tarixli sayında məlumat verilir:** «Ermənistan KP MK-nın 1975-ci il yanvar plenumunda qeyd olunur ki, 476-dan çox kənd (azərbaycanlı əhalisi boşaldılmış kəndlər - *Ə.Ə.)* istifadəsiz qalmışdır»;

**107. Amerika konqresinin yeganə erməni üzvü olmuş Çarlz Qaşayan 12 dekabr 1985-ci ildə bəyan edir:** «Mən deməyə borcluyam ki, bu günədək hələ də bu səbəb ədalətsiz şəkildə təkzib olunur (erməni terrorizmi - red.), hansı ki, bu terrorizmi DTK və KP alov üstə yanacaq tökəcək kimi bir qayda olaraq tamamlayırdı»;

**108. Beynəlxalq aləmdə ad çıxarmış qatil Karlos İspan televiziyasına verdiyi müsahibəsində bəyan edir:** «Mənim təşkilatım erməni terrorçuları ilə işgüzar əlaqə saxlayır, biz narkotik ticarəti ilə məşğul oluruq ki, pul əldə edək və imperialist qüvvələrə qarşı mübarizəni davam etdirək»;

**109. İrəvan Universitetinin 1986-cı ildə buraxdığı 4 cildlik «Ermənistan və ətraf rayonların toponimlər lüğəti» kitabında yazılır:** «Bu gün Ermənistan SSR-də mövcud olan kəndlərin 70%-indən çoxunda gəlmə ermənilər yaşayır»;

**110. A.Benniqsen «Sovet İslamı» məqaləsində («Aravi» jurnalı, № 19-20, 1988, səh.10) yazır:** «Orta əsrlərin əvvəlindən ermənilər diaspor xalqdır. Əksinə, Azəri türkləri və gürcülər SSRİ xalqları arasında ən az «mühacir» olandılar»;

**111. «Qolos Armenii» qəzetinin 11 noyabr 1990-cı il tarixli sayında yazılır:** «Azərbaycanlıların köçürülməsi ilə əlaqədar boşaldılan torpaqlardan və mənzil fondundan xaricdən gələn erməni kəndlilərinin yerləşdirilməsi üçün istifadə edilmədi»;

**112. 1896-cı ilin «Qafqaz təqvimində» (48-61-ci səhifələrində) göstərilir:** «Qarabağ xanlığı Rusiyaya birləşdirilərkən - 14 may 1805-ci ildə regionda ermənilər əhalinin cəmi 20%-ni - beşdə birini təşkil edirdilər»;

**Yenə orada** - «Köçürmə Qarabağın dağlıq hissəsində milli tərkibin dəyişilməsinə səbəb oldu. Belə ki, XIX əsrin 80-ci illərinin sonunda Şuşa qəzasında ermənilərin sayı əhalinin artıq 52 faizini təşkil edirdi»;

113. **Helsinki Vətəndaş Assambleyasının Ermənistan Komitəsinin sədri M.Danielyan AŞ PA-ya göndərdiyi rəsmi arayışda yazır:** «Ermənistanda qeyri-qanuni olaraq hərbi çağırış həyata keçirilir və çağırışçılar hərbi xidməti yerinə yetirmək üçün Dağlıq Qarabağa göndərilirlər. Ermənistanın milli ordusu qonşu ölkənin 20% ərazisini öz nəzarəti altında saxlayır, bu, işğaldan başqa bir şey deyildir» («Zerkalo» qəzeti, 24 iyun 2000-ci il);

114.**AŞ NK-nın sədri R.Aqo Ermənistan nümayəndələrinə müraciətində deyir:** «Siz torpaqları işğal etdiyinizi, azərbaycanlıları qırdığınızı unutmusunuzmu?!» («Zerkalo» qəzeti, 9 noyabr 2000-ci il);

**115.ABŞ senatının xarici əlaqələr komitəsinin sədri C.Helms başda olmaqla bir qrup senatorun ABŞ prezidentinə ünvanladıqları məktubda göstərilir:** «Ermənistan Azərbaycan torpaqlarını işğal altında saxladığı üçün hər iki ölkə arasında sərhəd bağlı vəziyyətdə qalmışdır» («Respublika» qəzeti, 13 yanvar 2001-ci il);

**116. AŞ PA-nın sədri Rassel Canston bildirir:** «Beynəlxalq hüquqa görə birmənalı şəkildə belə çıxır ki, Ermənistan Dağlıq Qarabağın ərazisini işğal etmişdir» («Exo» qəzeti, 15 oktyabr 2001-ci il);

**117. Ermənilərin özlərini başqa xalqlardan üstün tutmalarının cavabını avropalı Q.E.Lessik layiqincə verir:** «Mən tamamilə əminəm ki, dünyada heç bir xalq başqa xalq üzərində üstünlüyə malik deyildir»;

**118. Q.V.Çiçerin:** «Bütün şərqdə işğalçı siyasətin aparıcıları, xarici kapitalın agentləri xain və satqın ermənilərdir»;

**119. Britaniya müxbiri Titroy Plaklen:** «Görünür, ermənilər yad torpaqlarda rahatca yaşaya bilirlər. Bəlkə də onlara kifayət qədər vəsait verilsəydi, Qarabağdakı torpaqları tərk edərdilər»;

**120. V.İ.Lenin:** «Ermənilər faydalı axmaqlardır»;

**V.İ.Lenin daşnak hökumətinin böyük dövlətçilik iddiasından bəhs edərək yazır:** «Türkiyəni sovet Rusiyasına qarşı qaldırmağa, dostluq münasibətləri yaratmaq haqqında danışıqları pozmağa çalışan Antanta rəhbərləri fitnəkarlıqla daşnak Ermənistanının Türkiyəyə hücumunu təşkil etmişlər. Daşnaklar Türkiyəyə qarşı təcavüzkar mövqe tutaraq Kiçik Asiyanın təqribən yarısı daxil olmaqla «Böyük Ermənistan» yaratmağa can atırdılar. 1920-ci il sentyabrın 24-də daşnak hökuməti Türkiyəyə qarşı hərbi əməliyyata başladı. Müharibədə daşnak ordusu dalbadal məğlubiyyətə uğrayır, hücum edən türk qoşunları isə irəlilədikcə dinc əhalini qovur, yaşayış məntəqələrini viran qoyur, erməni talanları təşkil edirdilər.

Türkiyə hökuməti Ermənistan ərazisini ələ keçirmək üçün daşnakların avantürist siyasətindən istifadə etməyi qərara aldı. Müharibə Ermənistanı var-yoxdan çıxardı və onun əhalisini tamamilə məhv olmaq təhlükəsi qarşısında qoydu» (V.İ.Lenin, ƏTK, c.54, səh. 803-804);

**121. Əfqanıstan müharibəsindən keçmiş SSRİ Silahlı Qüvvələrinin baş leytenantı O.Getenov 24 mart 1990-cı ildə erməni-daşnak faşistlərinin Qazax rayonunun Bağanis Ayrım kəndində törətdikləri faciəni belə təsvir edir:** «Diz üstə küllükdə sürünərək öz qardaşının cəsədinin yanıb kömürə dönmüş parçalarını vedrəyə yığan qocaya, xirtdəyi kəsilmiş qadına, silahın qundağı ilə başı əzilmiş körpəyə baxmaq dəhşətli idi. Beynimdə fasiləsiz olaraq oxşar obrazlar - Xatın, Oradur, Lidissa dolaşırdı. Lakin kiçik Azərbaycan kəndi Bağanis Ayrımı mən onlarla yanaşı qoya bilməzdim. Axı, onlarda cinayəti alman faşistləri törətmişdilər, burada isə özümüzünkülər (daşnak terrorçuları - Ə.Ə.)»;

**122. Bakının bir qrup rus əhalisi RSFSR xalq deputatlarının VI qurultayına müraciətində yazırdı:** «Arutyunovun (rus qaçqınları ilə iş üzrə komitə) məsuliyyətsiz çıxışları rusların Bakıya dəstə ilə qayıtmasının qarşısını, əlbəttə, ala bilməyəcək, onlar öz talelərini çoxdan Azərbaycan xalqı ilə bağlayıblar, onun heç bir çığır-bağırı Bakıda yaşayan biz ruslarla bizim azərbaycanlı qardaşlarımız arasında nifaq sala bilməyəcəkdir»;

**123. Leninqraddakı «Elektronmaş» EİB-nin fəhləsi İqor Poyarkov 1989-cu ildə SSRİ Konstitusiya Nəzarəti Komitəsinin sədri S.Alekseyevə ünvanladığı məktubda yazır:** «Bu regiondakı (Qarabağdakı - Ə.Ə.) çıxılmaz vəziyyəti millətçilikdən ağlını itirmiş adamlardan çox, SSRİ hakimiyyət orqanlarının, o cümlədən Sizin başçılıq etdiyiniz komitənin prinsipsizliyi yaratmışdır»;

**Yenə orada** - «Hərgah onlar (ermənilər - *Ə.Ə.)* üçün müəyyən anda millətin öz müqəddəratını təyin etmək hüququ dünyadakı bütün başqa hüquqlardan üstün olmuşdursa, DQMV-dən Ermənistana çıxıb getməklə sərbəst və tam şəkildə bu hüquqdan istifadə edə bilərlər. Bəs onlar bunu niyə etmirlər? Onlar Ermənistana üstündə yaşadıqları ərazi ilə birlikdə çıxıb getmək arzusundadılar. Bəs ərazisiz necə? Ərazisiz onlar getmək istəmirlər! Təəssüf eləyirəm, amma tamamilə aydındır ki, hər halda bu adamlar üçün onların yaşadığı ərazi millətin öz müqəddəratını təyin etməsindən daha vacibdir. Ermənilərin öz müqəddəratını təyin etməsi artıq olmuşdur. Bir millət öz müqəddəratını neçə dəfə təyin edə bilər?»;

**124. İngilis Vilson:** «Ermənilər acgöz və tamahkardılar, fitnəkar və araqarışdırandılar, heç kəsi bəyənmirlər. Onlar xırda bir işi şişirtməkdə istedad sahibidirlər və intriqa yaratmağı da sevirlər»;

**125. Erməni tarixçisi Kanakerli Zakari (Xronika, M., 1969, səh.113) yazır:** «Ermənilərin Gəncə-Qarabağ əyalətlərinə köçüb gəlmələri Osmanlıların İrəvan bəylərbəyiliyini 1635-ci ildə tutmaları ilə də bağlı olmuşdu. Bununla

əlaqədar İrəvan xanı əhalinin əsasən qonşu əyalətlərə köçməsi əmrini verir. O zaman ermənilər Gəncəyə, Zəyəmə, Vərəndə, Xaçına, Keştəyə köçmüşlər»;

**Yenə orada** - «Əmirqulu xan (1605-ci ildə Şah Abbasın İrəvana təyin etdiyi hökmdar - *Ə.Ə.)* İrəvana sahib olan kimi quruculuq işlərinə başladı, şenlik yaratdı, qala tikdi, saray ucaltdı, bağ-bağça, bostan saldı, arxlar çəkdirib şəhərin suyunu artırdı»;

**126. SSRİ AS RH-nin sədri seçilən kimi Anastas Mikoyan DQMV-ni Ermənistana birləşdirmək təklifini edərkən Sov.İKP-nın baş katibi N.S.Xruşşov ona əsəbiliklə cavab verir:** «Bir sutka ərzində DQMV ermənilərini Ermənistana köçürmək üçün 12 min hərbi yük maşınını onların ixtiyarına verməyə hazıram»;

**127. S.P.Zelenski (Ekonomiçeski bıt qosudarstvennıx krestyan Zanqezurskoqo uyezda Yelizavetpolskoy qubernii. Materialı dlya izuçeniya ekonomiçeskoqo bıta qosudarstvennıx krestyan Zaqafkazskoqo kraya, t. IV, Tiflis, 1886, st.10) yazır:** «Yerli ermənilər gəlmə ermənilərin dilini çox çətinliklə başa düşmüş, hətta geyimləri ilə də fərqlənmişlər, gəlmələr yerlilərə dilini unutdurmuşlar»;

**128. Daşnak ideoloqu Ruben Darbinyan «Erməni inqilabçısının xatirələri» (Los-Anceles, 1952, səh.59) kitabında yazır:** «Ölkəyə göndərilənlərin 90%-i ola bilsin ki, məhv olsun, lakin 10%-i gedib yerinə çata bilər. Bu o demək deyil ki, bizim məqsədimiz «ölmək, məhv olmaqdır», hər halda on nəfərdən biri gedib sağ-salamat vətənə çata bilər və bizim ideyamızı yayıb genişləndirə bilər»;

**Yenə orada** - «Bizim xalqımız müstəqil vahidlərin cəmidir. Digər xalqlar isə müstəqil cəmin sıfıra bərabər mənasız bir zərrəsidir»;

**R.Darbinyan «Haraç» qəzetinin 1920-ci il tarixli 119-cu sayında yazırdı:** «İfrata varmadan demək olar ki, bütün millətimizlə birlikdə qəbul etdiyimiz rus təmayülü real siyasi təfəkkürün və ya hesablamaların nəticəsi deyil, qarşısıalınmaz bir ictimai psixoz, kütləvi xəstəlik, kütləvi sərsəmlik idi»;

**129. Rusiya Xarici İşlər Nazirliyinin nümayəndəsi Sazanov:** «Türkiyənin təqsirləndirilməsi və tənqidi erməniləri həvəsə gətirir, bu da Türkiyə əleyhinə mübarizə üçün olduqca əlverişlidir»;

**130. Rus tarixçisi N.Dubrovin 1866-cı ildə Sankt-Peterburqda nəşr etdirdiyi «Zaqafqaziye v 1803-1806 qodax» kitabında məlumat verir:** «Ağa Məhəmməd şah Qacarın hücumunadək Qarabağda 60 min ailə olmuş, 1805-ci ildə 10 min ailə, 1828-ci ildə isə 3080 ailə qalmışdır (Deməli, qanlı müharibələr nəticəsində Qarabağın türk əhalisi 20 dəfə azalmışdır - *Ə.Ə.)»;*

**131. Şuşa şəhər sovetinin deputatı Aşxen Qriqoryanın SSRİ Ali Soveti Rəyasət Heyətinin 1988-ci il 18 iyul tarixli iclasındakı çıxışından:** «Vacib bir məsələni deyirəm. Azərbaycan xalqının heç nədə günahı yoxdur. Bütün günahlar erməni ekstremistlərindədir. Biz sakitcə yaşayır və işləyirdik. Erməni

ekstremistlərinin başına Qarabağı Ermənistana birləşdirmək ideyası düşdü. Lakin biz yaxşı bilirik: Qarabağ Azərbaycanın olub və olacaqdır»;

**Aşxen Qriqoryan özünün SSRİ AS RH-nin 1988-ci il 18 iyul tarixli iclasındakı çıxışından sonra demişdir:** «Zori Balayan İrəvanın «Kommunist» qəzetində məqalə dərc etdirərək yazır ki, guya mənə bir kiloqram konfet veriblər, sonra döyüblər, daha sonra isə öldürüblər. Mən Zori Balayana deyərdim ki, o, cürbəcür şayiələr buraxmasın. Elə Zori Balayanın özüdür ermənilərin düşməni»;

**132. 1989-cu ilin avqustunda öz milliyyətindən utanaraq intihar edən Bakı sakini Qavril İvanoviç Petoyanın ölümqabağı yazdığı məktubundan:** «Mən öz ölümümdə Dağlıq Qarabağ və Ermənistanın erməni ekstremistlərini ittiham edirəm. Qəzetlərdə oxuyuram, televiziya və radio verilişlərindən eşidirəm, onlar Azərbaycan xalqına nə qədər bəla və bədbəxtlik gətirmişlər. Mənə yuxusuz gecələr əziyyət verir. Mən daim bu barədə düşünürəm və bu biabırçılığa dözə bilmirəm. Etiraz əlaməti olaraq özümü qurban verirəm»;

**133. Görkəmli rus yazıçısı Yuri Pompeyev «Qarabağ qan içində» (Sankt-Peterburq, 1992) publisist əsərində yazır:** «Erməni mətbuatı millətlərarası ədavətin alovlanmaqda olan odluğuna daim quru odun atır, obıvatel kütləsini öz yaxın qonşusunun üstünə salışdırır, akademik İ.Orbelinin dediyi kimi, on və yüz minlərlə erməni qaçqınına sığınacaq vermiş və indi 150-200 il keçəndən sonra özü kənarda sığınacaq axtaran bu xalqı hər yerdə günahlandırırlar»;

**Yenə orada** - «SSRİ xalq deputatı, Spitak rayonunun ağası Muradyan azərbaycanlıların gecə ikən zəlzələdən zərər çəkmiş Qursalı kəndindən qovulmasını tələb edirdi. Ongünlük aclıqdan və əziyyətlərdən sonra azərbaycanlıların bu son ailələri Ermənistandan vertolyotla qonşu Qazaxa göndərildilər. Əməliyyata Azərbaycan SSR NS sədrinin birinci müavini başçılıq edirdi»;

**Yenə orada** - «Belə görünür ki, bizdə və Qərbdəki erməni millətçilik hərəkatının təşəbbüskarları əmin idilər ki, Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi elə bir çətinliklə qarşılaşmayacaqdır. Hər şey hesaba alınmışdır, yalnız bir faktordan - Azərbaycan xalqının iradəsindən savayı. Onu partiya «şirvanşahları» (KP-nın rəhbərləri - *Ə.Ə.)* iflic edə bilməmişdi»;

**Yenə orada** - «DQMV-də qəsəbə sovetliyindən tutmuş vilayət rəhbərliyinədək, böyük və kiçik vəzifələrlə birlikdə bütün hakimiyyət həmişə 99% ermənilərin əlində olmuşdur... Taleyin acı təsadüfünə bax ki, məhz Allahın da unutduğu yarıuçuq azərbaycanlılar yaşayan kəndlər ermənilər və onların hüquq müdafiəçiləri tərəfindən lentə alınaraq baxımsız erməni kəndləri kimi nümayiş etdirilirdi»;

**Yenə orada** - «Mən heç vaxt nə Minasyanın («Vesti»), nə də Saqalayevin milli mənsubiyyətindən danışmazdım. Əgər onlar Ermənistanın Azərbaycana təcavüzü barədə həqiqəti blokadaya almasaydılar. Bu abırsız müharibəni varlı diasporun (erməni diasporundan söhbət gedir - *Ə.Ə.)* nəzarəti altında olan, demək

olar ki, bütün informasiya vasitələri və Demokratik Rusiyadan olan qaraqışqırıqçılar (Komitet Rossiyskoy İntelligensii «Karabax» - KPHK-unlar - daha doğrusu, erməni diasporunun yalağından yallanan rus ziyalılarının nümayəndələri - *Ə.Ə.)* müdafiə edirlər. Bu təşviqatın məqsədi azərbaycanlıları bir millət kimi məhv etməkdir»;

**Yenə orada** - «Qarabağın dördillik qan girdabını doldurub daşdıran son damla isə 1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə şəhər tipli qəsəbə olan Xocalının tutulması oldu. Bunun Xatın və Sonqmi ilə hər hansı müqayisəsi yersizdir. Həmin kəndlərdə cəlladlar Xocalıdakı kimi köməksiz dinc adamların tükü ilə birlikdə soyduqları baş dərilərini və kəsdikləri qulaq seyvanlarını kolleksiya etmirdilər, onları sadəcə öldürürdülər»;

**Y.P.Pompeyevin 1992-ci il yanvar ayının 16-da RF-nın prezidenti B.Yeltsinin və RF-nın spikeri R.Xasbulatovun adına vurduğu teleqramdan:** «Radio, televiziya, bir çox qəzetlər hər gün Azərbaycan əleyhinə ehtirasları qızışdırır. Vasitəçilik baş tutmadı. Aydındır ki, boyeviklərin və Rusiya xüsusi alayının ixtiyarına verilmiş Qarabağda Rusiyanın başçılığı ilə qanlı divantutma hazırlanır. Rusiya hökumətini Xankəndindən (Stepanakertdən) 366-cı alayı çıxarmağa və hazırlanan qırğının qarşısını almağa çağırıram»;

**134. Qatı ermənipərəst rus jurnalisti Andrey Nuykin «Komsomolskaya pravda» qəzetinin 1992-ci il mart nömrəsində yazırdı:** «Biz öz əllərimizlə Qarabağlar yaradırıq»;

**135. Bakı şəhərindəki rus millətindən olan müəllimlərin bir qrupu erməni muzdlusu Q.Starovoytovaya 20 mart 1992-ci il tarixdə ünvanladıqları məktubda yazırdılar:** «Müharibə Azərbaycan torpağında gedir, beşinci ildir ki, bütün xalqların nümayəndələrinin qanı tökülür. Bu müharibə öz ərazisindən tədricən bütün milli azlıqları sıxışdırıb çıxarmış monomilli respublika tərəfindən başlanmışdır. Sizin kimi «alim-siyasətçilərin» yazı-pozusunun nəticəsidir ki, indi Azərbaycan xalqının birbaşa məhv edilməsi baş verir... Siz erməni xalqının genosidi barədə çox ağlayırsınız. Kim kimi məhv edir? Təkcə son ayda 30-dan çox Azərbaycan kəndi məhv edilmişdir (qeyd edirik Azərbaycan ərazisində).

Xocalı faciəsi tarixdə erməni bandaları və onların hüquq müdafiəçiləri: Bonner, Balayan, Nuykin və xanım Starovoytova, məhz sizin Azərbaycan xalqına qarşı törətdiyiniz genosid kimi qalacaqdır. Gəlin kimə bəraət qazandırdığınızı öz gözlərinizlə görün. Əlbəttə, əgər sizdə hələ bir damla rus qanı qalıbsa»;

**136. Qondarma DQR-nın ilk prezidenti Artur Mkrtıçyan 1992-ci ilin aprel ayında öldürülməzdən bir az əvvəl etiraf etmişdi:** «Bizdə müharibə deyil, bizdə baş verən hadisələri mən qısaca belə adlandırıram: insanları ələ salmaq. Heç güman etmək olardımı ki, hər bir qarabağlıya bu qədər qarşısıalınmaz məhvetmə instinkti sirayət edib. Mən özümüzü də, onları da nəzərdə tuturam (azərbaycanlıları - *Ə.Ə.).* Lakin bu var, indi üzə çıxdı, deməli, gizlədilibmiş»;

**137. 1919-cu ilin payızında Yudeniçin Şimal-qərb ordusunun həmləsi zamanı Petroqrad quberniyasından 10 min qaçqın İzborska geri çəkilərkən kütləvi insan tələfatı ilə bağlı anonim müəllif yazır:** «Kimin canı bərk idi - dözdü, qalanlar öldülər... Müsibətin mənzərəsi belədir ki, o rusların deyil, ermənilərin başına gəlsəydi, indi bütün Avropa dəhşətdən lərzəyə gələrdi»;

**138. Tereza Qavrilovna Petoyan deyir:** «Bilirsinizmi, atam bütün ömrü boyu böyük çətinliklər çəkmişdi və onlara səbirlə dözmüşdü. Lakin DQMV-dəki həmtayfaları tərəfindən bu cür satqınlığa və əclaflığa dözə bilmədi. Dağlıq Qarabağda bir gün sakitlik yaranacaq, lakin mən atamın etirazını heç zaman unutmayacağam və bağışlamayacağam»;

**139. İsrail publisisti R.David Qarabağ süjetinin müəllifi barədə yazırdı:** «Kənardan təhrik edilməsələr oturduqları budağı kəsməyə başlamazdılar. Onların Amerikadakı rəhbərlərinə konflikt lazım idi, Sovet İttifaqında milli düşmənçilik zəminində aləmi qarışdırmaq lazım idi və bu məqsədə elə həmin ermənilərin qanı hesabına çatdılar»;

**Yenə orada** - «Görünür, təsadüfi deyil ki, Birləşmiş Ştatlarda nəhəng icması olan iki SSRİ xalqından biri, məhz ermənilər yenidənqurmanın lap başlanğıcından sovet ordugahında Troya atı rolunu oynadılar. Dağlıq Qarabağ millətçilik taununun ilk yarası oldu və ondan bu yoluxucu xəstəlik yayılaraq İttifaqın cənub və qərb ucqarlarını dolaşmağa başladı»;

**140. Ermənistanın dövlət xadimi S.Spandaryan 1906-cı ildə yazırdı:** «Daşnaksutyun millətçi şovinist partiyadır» (Məqalələr, məktublar, sənədlər. M., 1958, səh.14);

**Yenə orada** - «Daşnaksutyun milli şovinizmin və xəyali sosializmin hermafroditidir»;

**141. 1989-cu ilin oktyabr ayında Azərbaycan və Ermənistana səfər edən «Oqonyok» jurnalının şərhçisi Georgi Rojnov «Sonu görünməyən yol» oçerkində yazırdı:** «İki aydan çox keçməsinə baxmayaraq mən hələ də Azərbaycana və Ermənistana səfərim barədə bir sətir də dərc etdirə bilməmişəm. Moskvanın nə bir qəzeti, nə də bir jurnalı mənə öz səhifələrində yer vennək istəmədi. Niyə? Səbəbi sadədir: mənim yazdığım və danışdığım həqiqət aydan-aya oxucuların və dinləyicilərin beyninə yeridilən «həqiqətə» heç cür oxşamırdı»;

**142. 1990-cı ilin iyul ayında Sov. İKP MK-nın XXVIII qurultayının nümayəndələri ilə görüş zamanı Qarabağ ermənilərinin onlara müraciətindən:** «Hər yerdə danışın, qoy bizi yenidən peyda olmuş saqqallı banditlərdən (daşnak terror qruplarından - *Ə.Ə.)* azad etsinlər. Onlar ilk növbədə bizim düşmənimizdir, ermənilərin düşmənidir. Özlərini müdafiəçilərimiz adlandırırlar, amma özbaşınalıq edir, qadınlara və qızlara sataşır, gəncləri düşmənçilik etməyə məcbur edir, bütün vasitələrlə millətlərarası ədavəti qızışdırırlar. Yuxarıda oturanlar isə öz yalan informasiyaları ilə onları həvəsləndirir, cəlb edir. Qoy Allah bu adamların cəzasını versin!»;

**143. Rus jurnalisti Q.Kotoya «Qonaqsevərlik qanunlarını pozaraq» («Arqumentı i faktı» qəzeti, 1986, № 3) məqaləsində yazır:** «1957-ci ildən başlayaraq İrəvana oxumağa gələn xarici vətəndaşlar (müəllif bu gün Ermənistanda 20 ölkədən 700 tələbə oxuduğunu qeyd edir - *Ə.Ə.)* arasında daşnak təbliğatı aparanların sayı ildən-ilə çoxalmışdı... bu daşnak təbliğatçıları qara yaxır, yetkin olmayanların milli duyğuları ilə oynayır, xalqların dostluq və qardaşlığına böhtan atırlar. Bu təbliğatçılar ilk növbədə «özlərini erməni məsələsinin həllinə imkan yaradan qüvvə» hesab edir, «tarixi saxtalaşdırır», «ərazi iddiaları irəli sürürlər»;

**144. «Krasnaya zvezda» qəzeti 1990-cı il 31 iyul tarixli sayında jurnalist, sənətşünas, «Erməni xalçaları» kitabının müəllifi olan EMO hərbi şurasının sədri V.Vardanyan tərəfindən erməni-azərbaycanlı düşmənçiliyinin təbiəti barədə lap zooloji mühakimə yürüdülür:** «Elə erməni tanımıram ki, ruslara pis münasibət bəsləsin. Yalnız üzünü Türkiyə və Azərbaycana çevirdikdə erməni qəlbini qəzəb hissi bürüyür... ermənilərin və azərbaycanlıların qardaş ola biləcəkləri tarixən sübut edilməmişdir. İki il yarım müharibə dövründə biz belə bir qənaətə gəldik ki, erməni mütləq əlində tüfəng anadan olmalıdır... erməni xalqı o vaxt daim yaşayacaqdır ki, millət orduya çevrilmiş olsun, millətin dini isə hər hansı qondarma Allah yox, millətin özü olsun. O zaman suveren Ermənistan özünün qüdrətli diasporunun köməyi ilə tanınmaz dərəcədə dəyişiləcək, çiçəklənən ölkəyə çevriləcək və onun əsasını inam uğrunda başdan ayağadək silahlanmış indiki fədainlər təşkil edəcəklər»;

**145. 1923-cü ildə Ask. Mravyan («Xorhurdain Hayastan» qəzeti, İrəvan, 1923, № 88) yazırdı:** «Sıravi daşnak passivdir, kor kimidir, istər xmbabet, təlimçi müəllim, istərsə də büro üzvü, fərqi yoxdur, ona komanda verən adamlar istənilən vasitə ilə sıravini istədiyi yerə qova, istədiyi yerə göndərə bilər. Ona «müqəddəs vətənə xidmət» ideyası aşılayaraq onun duyğularını zəhərləyir və Türkiyə Ermənistanına - «vətənə» göndərirlər. Daşnak komandirləri onları bu cür, türkləri gözgötürməzlik duyğusu ilə hazırlayıb Güney Qafqazdakı türk kəndlərini dağıtmağa və talan etməyə göndərirdilər»;

**Askanaz Mravyan «Daşnaksutyunun böhranı» əsərində bu partiyanın xalqa zidd siyasətindən bəhs edərək yazır (səh.37):** «Onlar qırğınlar törədir, ancaq bunu böyük bir bəla hesab etmirdilər. Bircə bu qırğınlar Avropanın diqqətinə yetərli olsun. «Axıdılan qanlar, küçələrdə qalan meyitlər nə qədər çox olsa, azadlığa bir o qədər tez qovuşarıq» siyasəti də elə buradan meydana atılmışdır;

**146. «Azadlıq» radiosunun ermənicə verilişlərinin baş redaktoru, Daşnaksutyun partiyasının liderlərindən biri Eduard Ohanesyan Münhenin erməni klubunda 1991-ci il yanvar ayındakı çıxışlarından birində deyir (Y.Pompayev. «Qarabağ qan içində», B.,1996, səh.34):** «Bir erməni intellektualları kimi biz qərara gəldik ki, yaranmış şəraitdə Qarabağ ərazicə və hüquqi cəhətdən Azərbaycana məxsus olmalıdır. Mən siyasi baxımdan bu nəticəyə

gəlmişəm. Biz buna o vaxt gedəcəyik ki, siz azərbaycanlılar Qarabağ ermənilərinin həyatını erməni dəyərləri ilə təmin etməyə razı olasınız»;

**147. 1919-cu ildə daşnak emissarlarının fitnəsinə uymayan erməni yepiskopu R.N.Melik-Şahnazaryan yazırdı:** «Bu cənablar həmişəlik bilməlidilər ki, onlar nə qədər cəhd göstərsələr də və nə qədər əllaməlik etsələr də, son nəticədə Qarabağda ermənilər və azərbaycanlılar yaşayacaqlar»;

**148. ABŞ-ın deputatlar palatasının üzvü Valter M.Çandler Amerikadakı erməni təbliğatçılarının Azərbaycana bəslədikləri hissləri müşahidə edərək yazırdı:** «Azərbaycanın müstəqilliyi ideyasına o qədər də çox fikir verməк lazım deyil, çünki onlar türk, tatar və müsəlmandılar... Amerikada yaydıqları ədəbiyyat türkə və tatara aid nə varsa, hamısı ittiham və hücumlarla doludur və bu hücumların çox hissəsi Azərbaycanın payına düşür»;

**149. 1988-ci ilin iyul ayında Kremldəki qurultaylarda ermənilərin tez-tez səsləndirdikləri genosid ittihamlarına Vəzirov və onun silahdaşları deyil, Azərbaycan xalqının qatili M.S.Qorbaçov bir gülləylə iki quş vuraraq cavab verdi:** «Genosid kortəbii deyil, müəyyən mütəşəkkil irqçilik siyasətidir. Genosid hər hansı xalqa və ya milli azlığa münasibətdə aparılan düşünülmüş məhvetmə siyasətidir. Niyə siz banditlərin hərəkətini bütün Azərbaycan xalqının adına çıxırsınız? Hansı genosid haqqında danışmaq olar?»;

**150. Rus müəllifləri «Şeypur» jurnalının 7 dekabr 1918-ci il tarixli 8-ci sayında yazırlar:** «Doğrudan da həya yaxşı şeydir, insan ki həyasız oldu, heç nə, həyasız adamdan hər nə desən baş verir. Bu həyasızlardan biri də Andronik kirvədir ki, yenə də Qarabağda baş qaldırıb müsəlmanları qırmağa başlamışdır. Ermənistan hökuməti də gözlərini yumub əli ilə işarə edir. Ermənistan hökumətinin nə tövr siyasət yeritdiyini və nə fikirdə olduğunu təsvir etmək artıqdandır. Bu hökumət deyir ki, Qafqazda Gürcüstan və Azərbaycan ola bilməz. Burada ancaq Ermənistan ola bilər. Qafqaz hamısı ya gərək Ermənistan olsun, ya da Ermənistana tabe kimi bir şey olsun»;

**151. Ermənistanın «Hüquqi özbaşınalığa qarşı» fondu özünün rəsmi sənədində yazır («Snak» informasiya bülleteni, 9 dekabr 2000-ci il):** «Ermənistan tərəfindən 1992-ci ildə Azərbaycana 1600 nəfər əsir və girov qaytarılmışdır»;

**152. Parisli müxbir Klod-Mari Vardo 1988-ci ilin dekabr ayında Ermənistandan yazırdı:** «Son günlər Livandan İrəvana ağır silahlar, minamyotlar və avtomatlar yüklənmiş təyyarələr gəlməkdə davam edir. Onlar gecələr erməni gömrükxana işçilərinin mühafizəsi altında boşaldılır. Artıq bir neçə gündür ki, aeroportun gömrükxanasında bir nəfər də olsun, rus qulluq etmir. Dağlıq Qarabağda vətəndaş müharibəsinin qızışdığı bir vaxtda, İrəvanda və kəndlərdə, paytaxtla Azərbaycan sərhədi arasındakı ərazidə daha çox silahlı adama rast gəlinir. Bu bandaların başında çox vaxt Beyrutdan və Dəməşqdən gələn erməniləri

görmək olur. «Qarabağ komitəsi» Azərbaycana basqınların təşkilini öz əlində saxlayır. Ölkənin şərqinə çatmaq üçün yalnız o vertolyot verə bilər»;

**153. Ermənistan EA xarici ermənilərin tarixi və mədəniyyəti şöbəsinin baş elmi əməkdaşı R.Xurşudyan «Antisovetizm dalanda. Daşnak partiyasının istiqaməti haqqında» («Kommunist» qəzeti, İrəvan, 17 yanvar 1985-ci il) məqaləsində yazır:** «Daşnaklar əski bayraqlarını yeni rəngə boyayır, proqramlarına obyektivlik forması verirlər... Ancaq yeni proqramları ilə tanışlıq göstərir ki, müəyyən ifadələr zahiri görkəmini dəyişib, mahiyyəti isə öncəki kimidir»;

**154. Strasburqdakı Şərq Tədqiqatları İnstitutunun direktoru Pyer Düman qondarma erməni genosidi ilə bağlı mülahizələrində yazır:** «Osmanlı İmperiyası hökumətinin Türkiyə ərazisini erməni əhalisindən tamamilə təmizləmək barədə qoşunlara əmr göndərdiyi və bu işdə marağı olan siyasətçilərin son 70 il ərzində tarixi dəlil kimi istinad etdiyi xüsusi teleqram həyatda, ümumiyyətlə, mövcud olmamışdır...»;

**Yenə orada** - «Dinc kürd, türk və erməni əhalisi arasında tələfat, hərbi qarşıdurmanın güclənməsini kəskinləşdirən xarici işğalçı qoşunların iştirakı ilə hər iki tərəfin apardığı hərbi əməliyyatların nəticəsidir və bu, genosid hesab edilə bilməz. Bu hadisələr ətrafında möhtəkirlik nəticəsində qurbanların sayını 2 milyona çatdırmışlar. Halbuki o zaman Osmanlı Türkiyəsinin və çar Rusiyasının sərhədləri daxilində cəmi 1,4 milyon erməni yaşayırdı»;

**Yenə orada** - «Qoy siyasətçilər tarixə müdaxilə etməsinlər... Onların müdaxiləsi həmişə saxtakarlıqla müşayiət olunur»;

**155. Qarabağ vilayətini uzunmüddətli gəzintiyə çıxan erməni şairəsi Marietta Şaginyan 1927-ci ildə yazırdı:** «Bu torpaq özünün coğrafi və iqtisadi mövqeyi baxımından üzünü daha çox Azərbaycana çevirmişdi. Əsrarəngiz meşəli yaylaqları buraya enir, çaylar buraya axıb gedir, yollar buraya uzanır, çay axarı və yollar boyunca kəndlər və adamlar da öz iqtisadi maraqları ilə birlikdə yerini buraya dəyişir: ticarətlə məşğul olur, mal alır, mal dəyişir, uyğunlaşır, tələbata cavab verir, məişət cizgilərini mənimsəyir, ümumi məqsədlərlə bir-biriylə bağlanırlar»;

**156. 1919-cu il may ayının 22-də Anastas Mikoyan V.İ.Leninə yazırdı:** «Erməni hökumətinin daşnak agentləri Qarabağı Ermənistana birləşdirməyə çalışırlar. Bu, Qarabağ əhalisi üçün Bakıdakı həyat mənbəyindən məhrum olmaq və heç zaman və heç nə ilə əlaqəsi olmadığı İrəvanla bağlanmaq deməkdir. Erməni kəndliləri V qurultayda Azərbaycanı tanımağı və ona birləşməyi qərara aldılar»;

**157. Vaxtilə İrəvandakı seçkilərdə mistik təcavüzkar, qadınlıq hissiyatını itirmiş Qalina Starovoytovanın vəkili, sonralar isə RF Xarici İşlər nazirinin birinci müavini işləyən Fyodor Şelov-Kovedyayevin «Brüssel-Moskva» reysi ilə uçarkən İl-68 təyyarəsinin salonunda verdiyi müsahibəsindən:** «Dağlıq Qarabağdakı konflikt yaxşı planlaşdırılmış, əvvəlcədən

hazırlanmış, həyata keçirilməsi Ermənistanın kommunist rəhbərliyinin üzərinə düşən aksiyadır... «Qarabağ hərəkatı»nın liderləri millətin öz müqəddəratını təyin etməsi prinsipini hipertrofiyaya uğradaraq elə bir həddə çaldırmışlar ki, ondan sonra separatizm başlayır»;

**158. Erməni-daşnak terror təşkilatı ASALA-nın türk diplomatlarına qarşı törətdikləri kütləvi terror aktları ilə əlaqədar ABŞ prezidenti Reyqanın 28 iyul 1983-cü il tarixli bəyanatından:** «Bu dəhşətlərə heç bir həqiqi və ya xəyali faktorlarla haqq qazandırmaq olmaz. Bu mənasız zorakılıq aktlarına lazımdır ki, son qoyulsun. Mən bununla bağlı yaxın günlərdə digər dövlət rəhbərləri ilə danışıqlar aparacam. Mədəni cəmiyyətimizdə baş verən belə vəhşi və qeyri-insani hərəkətlərin kökünün birdəfəlik kəsilməsi üçün təcili və təxirəsalınmaz tədbirlər görülməsini təmin etmək barədə söhbət edəcəyəm»;

**159. 1989-cu ildə ABŞ senatı qarşıdan gələn 1990-cı ilin «erməni genosidi ili» elan olunmasını təklif edərkən bu məsələylə əlaqədar müzakirələrdə söz alan ABŞ-ın yəhudi icmasının başçısı öz çıxışında bəyan edir:** «Bəşər tarixi yalnız bir genosid yəhudi xalqının soyqırımını tanıyır, lakin faciədən ucuz oyunbazlıqlar düzəltməyə bizim qürurumuz heç cür yol verməz»;

**160. RSDFP Qafqaz təşkilatının 1915-ci ildə qəbul etdiyi qətnamədən:** «Türkiyə ermənilərini azadlığa çıxarmaq şüarı ilə erməni xalqı arasında özünü şöhrətləndirən erməni burjaziyası Daşnaksutyun partiyasının uzaqgörməzliyindən istifadə edərək erməni kəndlisi və meşşanlarının böyük nüfuzunu qazanaraq Türkiyə ermənilərinin rus hökumətinə sədaqətli olduqlarını bildirməklə, onları öz yaşadıqları dövlətə xain çıxan satqına çevirdilər»;

**Yenə orada** - «Düşüncə tərzindən məhrum olan, öz məqsədinə çatmaq üçün xalq kütlələrinin qırılmasına bir qəpiklik əhəmiyyət verməyən adamlar bu cür hərəkət edə bilərlər»;

**161. Amerika vətəndaşı, məşhur erməni yazıçısı L.Z.Sürməliyan «Xanımlar və cənablar, sözüm sizədir» adlı kitabında yazır:** «Türklərlə ermənilər arasındakı ziddiyyətlərin yaranmasının əsas səbəblərindən biri də türk və azəri xalqlarının humanizminə, qayğıkeşliyinə, vətənpərvərliyinə qarşı erməni millətçilərinin aramsız qəddarlığıdır»;

**162. Erməni tarixçisi Movses Xorenatsinin özləri haqqında dedikləri:** «İndi olduğu kimi, keçmişdə də qədim «hay»ların (ermənilərin - *Ə.Ə.)* elmlərə, ağızdan-ağıza keçən nəğmələrə həvəsləri olmayıb. Ona görə də kəmağıl, nadan və vəhşi adamlar haqqında danışmaq artıqdandır»;

**Yenə orada** - «Biz «hayklar» kiçik azsaylı, zəif və çox hallarda özgələrinin hakimiyyəti altında yaşayan xalqıq»;

**163. Xocalı soyqırımının iştirakçısı olmuş 366-cı rus alayının əks-kəşfiyyat şöbəsinin rəisi, polkovnik Vladimir Savelyev «məxfi arayışında» yazır:** «Erməni əsgərləri qadınları, uşaqları, qocaları xüsusi qəddarlıqla, amansızlıqla qətlə yetirirdilər. Qeyri-insani cəza üsullarına əl atırdılar. Mənimsə

əlimdən heç nə gəlmirdi. Edə bilmədiyim köməyə görə qoy azərbaycanlılar məni bağışlasınlar»;

**Yenə orada** - «Azərbaycanlı meyitləri qalaqlanan çalaların ətrafında axşamlar itlərin və çaqqalların səs-küyündən, boğuşmalarından qulaq tululur, adam vahimələnirdi. Hər yerdən laxtalanmış qan və cəsəd iyi gəlirdi»;

**164. Daşnak lideri Xr.Mikaelyan «İnqilabçının düşüncələri» (Cenevrə, 1906, səh.54) kitabında yazır:** «Avropa yox, qoy bütün ermənilər bilsin ki, nə qədər ki erməni torpağı tökülən qanla istilənməyib, heç nə əldə edə bilməyəcək»;

**Yenə orada** - «Rusiyanın hər yanından erməni gəncləri kütləvi şəkildə Qafqaza axışıb gəlirdilər. Ermənilərin ruh yüksəkliyi səmimiydi. Bütünlüklə onları bura çəkib gətirən bir məqsəd, bir istək vardı - «Böyük Ermənistan» uğrunda döyüşə atılmaq»;

**165. Erməni jurnalisti Robert Arakelov «Dağlıq Qarabağ: Faciənin müqəssirləri məlumdur» (Bakı, «Şərq-qərb», 1991) kitabında istehza ilə yazır:** «Erməni qəzet və jurnallarında mən erməni xalqının böyüklüyünü, onların sivilizasiyanın inkişafında, elm və mədəniyyətin tərəqqisində müstəsna rolunu eşitdim, oxudum. Bu qəzet və jurnallardan ilk dəfə bildim ki, hələ tarixi dövrə qədər ulduzlu səmanın ilk atlasını ermənilər yaradıblar, rəngli televizorların da yaranması bu gün ermənilərin adı ilə bağlıdır, demə, Hind-Avropa dillərinin hamısı da erməni dilinin əsasında yaranmışdı»;

**Ümumiyyətlə, Robert Arakelov bu kitabında erməni daşnakları tərəfindən təşkil olunmuş «Qarabağ hərəkatı»nın fəaliyyətini beynəlxalq hüquqa və ölkələrin konstitusiyalarına zidd, avantürist bir hərəkat adlandırır. Qonşu azərbaycanlılara qarşı düşmənçilik toxumu səpən Z.Balayanın, S.Xanzadyanın, L.Arutyunyanın pis əməllərini lənətləyir. Azərbaycanlıların doğma yurd-yuvalarından zorakılıqla qovularaq Ermənistanda monoetnik erməni dövləti yaradılması fikrini və bu prosesin başlanğıcında Quqark rayonunda 100 nəfərdən artıq azərbaycanlının vəhşicəsinə qətlə yetirilməsini xəstə təxəyyülün məhsulu hesab etməklə soydaşlarını ayıqlığa çağırır. R.Arakelov yazır:** «Qarabağa gəlincə, deməк lazımdır ki, nə qədər ki bu ərazi hər cür yaramaz millətçi ünsürlərdən təmizlənməmişdir, bu torpaqlarda sakitlik olmayacaqdır»;

**166. ABŞ-ın Konnektikut universitetinin professoru Odri L.Altstadt «Mərkəzi Asiya icmalı» jurnalının 1988-ci il tarixli 4-cü sayında (s.63-78) yazır:** «1920-ci ilin martında Anastas Mikoyan V.İ.Leninə yazdığı məruzədə ermənilərin Qarabağın hər hansı bir hissəsinə qarşı irəli sürdükləri iddiaya qarşı çıxdı. Mikoyan təsdiq etdi ki, Qarabağın İrəvanla heç bir bağlılığı yoxdur, onu Bakıdan ayırmaq olmaz»;

**Yenə orada** - «Əslində Ermənistanda yaşayan azərbaycanlıların torpağı tarixən onların öz qanuni torpağıdır və onlar ev sahibi kimi öz «erməni qonaqlarına» yaxşı münasibət göstərmişlər»;

**167. Erməni yazıçısı Karen Simonyanın 1990-cı il iyul ayının 8-də «Azadlıq» radiostansiyasının erməni redaksiyasına verdiyi müsahibəsindən:** «Xülasə, onu demək istəyirəm ki, akademik Aqanbekyanın ideyaları erməni xalqının milli mənafelərinə daban-dabana ziddir və ermənilərin qonşu xalqlarla münasibətlərinin pisləşməsinə xidmət edir»;

**168. ABŞ-ın Pasadena şəhərində çıxan «Masis» həftəliyi (1991-ci il) yazır:** «Ədalətli və mühüm Arsak məsələsi səhv yollarla və səhv hesablaşmalarla irəli sürülmüşdür. Bu səhv siyasətin günahkarlarından biri Zori Balayan kimi şübhəli vətənpərvərdir. O, Arsak problemini qeyri-düzgün stimullaşdırdıqdan sonra indi ağlağan məktublar göndərir, aclıq elan edir və mətbuatı demaqoq məqalələrlə doldurur»;

**169. Amerikalı professor Devid Nisman «Amerikanın səsi» radiostansiyasına verdiyi müsahibəsində deyir:** «Ermənilərin ərazi iddialarının heç bir əsası yoxdur, çünki ermənilər Qarabağa XIX əsrin əvvəllərində, Rusiya ilə İran arasında Türkmənçay müqaviləsi bağlanandan sonra köçmüşlər. Ermənilərin bu regionda yığcam halda yaşamaları isə onlara həmin torpağın iddiasında olmaq hüququ vermir»;

**Devid Nismanın 1989-cu ildə «Azadlıq» radiostansiyasına verdiyi müsahibəsindən:** «Mənim fikrimcə, Dağlıq Qarabağda gərginliyin qalmasının səbəblərini Bakıda yox, İrəvanda axtarmaq lazımdır. Artıq neçə ildir ki, ermənilər «Böyük Ermənistan» konsepsiyasını Ermənistan SSR-nin rəsmi təbliğat ideologiyasına çevirmişdir. Əgər ermənilər bu ideologiyadan imtina etsələr, Dağlıq Qarabağda sakitliyin bərpa olunmasına kömək etmiş olarlar»;

**170. Konqresmen Denis Dikontin:** «... çalışmalıyıq ki, Qarabağda həm ermənilərin, həm də azərbaycanlıların hüquqlarına təminat verilsin»;

**171. Senator Cim Meybol özünün konqresdəki nitqində deyir:** «Konqres üzvləri və Amerika xalqı təhrif olunmuş faktlara əsaslanan birtərəfli, qərəzli təbliğata məruz qalıblar. Bu təbliğat ermənilərin türklərə qarşı təşkil edib həyata keçirdikləri geniş tədbirlərin bir qismidir»;

**172. ABŞ Dövlət Departamentinin keçmiş SSRİ-də millətlərarası münasibətlər şöbəsində işləmiş Pol Qoqon «Amerikanın səsi» radiostansiyasına müsahibəsində demişdir:** «Bugünkü Dağlıq Qarabağ münaqişəsi ermənilərin azərbaycanlılara qarşı ərazi iddiasıdır. Torpağı isə heç bir xalq verməz. Torpaq müharibə ilə geri qaytarılmalıdır. Ancaq mənim dərin inamıma görə bu problemi danışıqlar yolu ilə həll etmək olar. Bir şərtlə ki, ərazi iddialarına son qoyulsun».

**173. Alman professoru Petra Kapekin «Azadlıq» radiostansiyasına verdiyi müsahibəsindən:** «Əlbəttə, arzu edərdim ki, bu bölgədə sülh olsun, əmin-amanlıq olsun. Sülhə isə o zaman nail olmaq olar ki, ərazi iddialarına son qoyulsun, hər iki xalqın hüquqları qorunsun»;

**174. Herodotun «Tarix» kitabında oxuyuruq:** «Ermənilər «Erməni yaylası» adlanan (Fərat çayının yuxarı vadisində - *Ə.Ə.)* sahənin qərbində yaşayırlar»;

**Yenə orada** - «Fərat çayının yuxarı axarındakı ölkəyə Ermənistan deyirmişlər»;

**175. Xaçatur Abovyan («Ranı Armenii», İrəvan, 1977, səh.312) yazır:** «Qədim rəvayətə görə, İncil cənnəti Ermənistanın ərazisindədir. Başlanğıcını Ermənistandan alan Dəclə və Fərat çayları da cənnət çaylarıdır»;

**X.Abovyan İrəvan qalasının ruslar tərəfindən işğalı ilə bağlı hədsiz sevincini belə ifadə edir:** «Ermənilərdən ötrü İrəvan qalasının süqutu günaha batmış insan üçün cəhənnəmin tar-mar olunmasından da qiymətli bir hadisədir» (Seçilmiş əsərləri, III cild, İrəvan, 1948, səh.256);

**Yenə orada** - «Mənə elə bir müasir dil məlum deyil ki, yeni erməni dilinin qədim erməni dilindən fərqləndiyi qədər fərqlənsin. Heç bir dil mənim üçün qədim erməni dili qədər çətin olmamışdır»;

**176. Henrix Raulikson yazır:** «Ermənilər Frikiyadan gəlmədilər. Onlar tədricən Frikiyadan şərqdə yerləşən yüksəkliklərə yiyələnir, oradan qədim urartuları sıxışdırır, onların adına, dininə, dilinə və rəvayətlərinə yiyələnib özlərinki ilə əvəz edirlər»;

**177. Mixi yazılarının nüfuzlu tədqiqatçısı Fransua Lenorman yazır:** «Urartu dili və xalqı ilə erməni dili və xalqının heç bir qohumluğu yoxdur. Ermənilər Urartuya e.ə. VI əsrdə gəlmişlər. Urartulardan bəhs edən mixi yazılar isə e.ə. IX əsrə aiddir. Aydındır ki, bu yazıların ermənilərdən bəhs etdiyini güman edənlər böyük səhvə yol verirlər, çünki mixi yazılar ermənilərin gəlişindən azı üç əsr əvvəl yazılmışdır və buna görə də onlardan bəhs edə bilməzdi»;

**178. «İstoriya drevneqo mira» (M., «Prosveşeniye», 1979, səh.220) kitabında oxuyuruq:** «Ermənilərin əcdadı Çarox çayı hövzəsindən gəlmişlər»;

**179. «İstoriya armyanskoqo naroda» (İrəvan, 1980, səh.27) kitabından oxuyuruq:** «Ermənilərin əcdadı balkanlardan gəlmişlər»;

**Yenə orada** - «Qədim erməni tayfaları Zaqafqaziyada deyil, məhz yuxarı Fərat vadisində məskunlaşmışlar»;

**180. V.Qriqoryevin 1833-cü ildə Sankt-Peterburqda nəşr edilən «Statistiçeskoye opisaniye Naxçıvanskoy provinsii» kitabında yazılır:** «1828-ci ilin yanvarında İrandan Naxçıvan əyalətinə 2551 erməni ailəsi köçürülüb məskunlaşdırılmışdır. Bunlardan 416 ailə şəhərdə, 1869 ailə Naxçıvan, 260 ailə Ordubad nahiyələrində yerləşdirilmişdir»;

**181. Moskvada nəşr olınan «Hərbi tarix» jurnalında oxuyuruq:** «Rusiyanın Daxili İşlər Nazirliyinin Polis departamentinin polkovniki öz hesabatında Türkiyədən Cənubi Qafqaza yarım milyon erməni köçürüldüyünü bildirir»;

**182. Ermənistan Mərkəzi Statistika İdarəsi tərəfindən 1962-ci ildə nəşr olunmuş məlumatda bildirilir:** «XIX əsrin əvvəllərində İrəvanda yaşayan 10 min əhalinin 7 min nəfəri azərbaycanlılar idi»;

**183. «Böyük Sovet Ensiklopediyası»ndan (birinci buraxılış, c.3., səh.437) oxuyuruq:** «Daşnaklar 1918-ci ildə əllərindən alınmış Qars vilayətini, İrəvan quberniyasının bir hissəsini müttəfiqlərdən alaraq Ermənistanın ərazisini 17.500 ingilis kvadrat milinə, əhalisini 1 milyon 510 min nəfərə (795.000 ermənilər, 575.000 azərbaycanlılar, 140.000 başqa millətlər) çatdırdılar. Onlar bununla kifayətlənməyib Gürcüstan SSR ərazisinə daxil olan Axalkalaki və Borçalını, Azərbaycan SSR tərkibində olan Qarabağ, Naxçıvan diyarını və Yelizavetpol quberniyasının cənub hissəsini tələb edirdilər. Bu əraziləri zorla birləşdirmək cəhdi Zaqafqaziyanın ingilis islahı dövründə Gürcüstanla (dekabr 1918-ci il) müharibəyə və Azərbaycanla uzunmüddətli və qanlı müharibəyə gətirib çatdırdı ki, bunun da nəticəsində mübahisəli rayonların əhalisi 10-30% azalmış, bir sıra kəndlər, sözün əsl mənasında, yerlə yeksan edilmişdir»;

**184. 1920-ci il sentyabr ayının 22-də 28-ci diviziyanın komandiri Nesterovski XI Qırmızı Ordunun rəisinə vurduğu teleqramda bildirirdi:** «Daşnakların törətdikləri qırğından qaçıb xilas ola bilən qaçqınlar Naxçıvan rayonunda məskən salmışlar. Onların sayı təqribən milyona çatır. Qaçqınlar çox ağır şəraitdədilər, açıq havada Araz sahilində lüt, ac, taqətdən düşürlər. Qocaların, uşaqların vəziyyəti daha ağırdır»;

**185. 1655-ci ildə İrəvanda olmuş fransız səyyahı Jan Babtist Taverniyen yazır (Əsərləri, I cild):** «Şəhər qalasında yalnız müsəlmanlar (azərbaycanlılar - *Ə.Ə.)* yaşayır»;

**186. 1673-cü ildə İrəvanda olmuş fransız səyyahı Jan Şarden yazır (Əsərləri, I cild):** «İrəvan qalasını özlüyündə kiçik bir şəhər hesab etmək olar. Qalada 800 ev var. Burada ancaq təmiz qanlı Səfəvilər yaşayırlar (azərbaycanlılar - *Ə.Ə.)»;*

**187.Fransız tarixçisi Jean-Michel Thibaux Fransa parlamentində qondarma erməni soyqırımının cinayət hesab edilməsi barədə qanun layihəsinin müzakirəyə çıxarılmasına etiraz əlaməti olaraq yazır:** «Mən bu ucuz siyasətə üsyan edirəm. Belə olan halda Türkiyə də Fransada 1789-cu ildə baş vermiş inqilabda törədilən qətliamın tanınmasını istəyə bilər. Həmin vaxt yüzlərlə fransız parça-parça edilib, güllələnib. İşgəncə verilən insanların dərisindən paltarlar tikilib, ölülərin piylərindən həbsxana mətbəxlərində istifadə olunub. Deməli, milyonlarla hindunu didərgin etdikləri üçün amerikanlar, Cənubi Amerikada yerli mədəniyyəti yox etdikləri üçün ispanlar ittiham olunmalıdır. Bu şərtlərlə insanlıq tarixinə yenidən baxılmalı və heç bir cəmiyyət bundan kənarda qalmamalıdır»;

**188. Ermənistanın dövlət xadimi A.Miyasnikyan 1921-ci il noyabr ayının 29-da «Xorhurdain Hayastan» qəzetində «Ermənistanın Qırmızı Ordusu» məqaləsində yazırdı:** «Daşnaklar öz ordularına təlqin edirlər ki, türklərə

nifrət bəsləyin, azərbaycanlıları qırın, kəndlərinə od vurub yandırın, əmlaklarını talan edin və bu yolla, hər vəchlə çalışın xmbabetlik ruhu canlansın»;

**Yenə orada** - «Daşnakların milli siyasətlərinin mahiyyəti belə idi: Ermənistanı erməni olmayanlardan, ilk növbədə nifrət etdiyiniz tatarlardan və insana bənzəməyən türklərdən təmizləmək»;

**Yenə orada** - «Daşnak ordusunun başında duran kimlər idi? Aram və Rubendən Martiros və Pilosadək nadan, talançı quldur xmbabetlər, bu ordu silahsız müsəlmanlara divan tutmaqda, dinc əhalini çapıb-talamaqda məharətli və cəsarətli idi»;

**Yenə orada** - «Daşnaklar türklərə hücum etməyi və onların Aralıq dənizinədək torpaqlarını işğal etməyi planlaşdırmışdılar. Sonra isə ölkənin sərhədlərini genişləndirmək, müsəlmanlardan təmizləmək məqsədilə ölkə daxilində və Ermənistanın hüdudlarından kənarda müharibə aparmaq hamıya bəlli məsələ idi. Bu, nasionalizmin ən yüksək həddi və heyvani şovinizm idi»;

**Yenə orada** - «Ermənistanın qonşuları ilə qarşılıqlı münasibətləri haqqında yek fikir vardı. Türk düşmənçiliyi ölçü, hüdud bilmirdi»;

**Yenə orada** - «Menşevik Gürcüstanı azad və «müstəqil» şəkildə erməniləri təqib edirdi. Daşnak Ermənistanı isə «müstəqil» şəkildə və cəzasızlıq şəraitində müsəlmanları doğrayırdı»;

**189. SSRİ prokurorluğunun baş istintaq idarəsi rəisinin birinci müavini V.T.İlyuxin öz müsahibəsində Qarabağ hərəkatının tarixi haqqında deyir:** «Biz «Qarabağ komitəsi»nin istintaqı ilə çox dərindən məşğul olmuşuq. Bu məlum komitənin fəaliyyəti əvvəllər çoxlarının başa düşdüyü kimi heç də günahsız deyildir. «Qarabağ hərəkatı» bəzilərinin iddia etdiyi kimi yenidənqurmanın da yetirməsi deyildir. Bu hərəkat 40-50-ci illərdən mövcuddur»;

**190. Ermənistan SSR DİN-nin birinci müavini V.Yerin SİTA-nın müxbirinə müsahibəsində demişdir («Pravda» qəzeti, 18.XII.1988-ci il):** «DQMV ətrafında törədilən fitnəkarlıqları nə «qaraköynəklər», nə «ağköynəklər» və nə də «saqqallılar» törətmişlər. Onlar ancaq «Qarabağ komitəsi»nin 10-12 nəfər ideoloqunun iradəsinin kor-koranə icraçılarıdır»;

**191. Bonn Universitetinin professoru xanım Yeva Mariya Auxun etirafı:** «Biz daşnak terroru haqqında çox eşitmişik. Amma bu gün ilk dəfə olaraq bu barədə faktları təsdiqləyən konkret sənədlərlə tanış oluruq»;

**192. Böyük Britaniyanın Avropada dövlət naziri, Xarici İşlər və Birlik məsələsi idarəsinin rəhbəri Cef Qunun ölkə parlamentinin 4 oktyabr 2006-cı il tarixli yığıncağındakı çıxışından:** «Biz tərkibinə Dağlıq Qarabağ da daxil olmaqla Azərbaycanın müstəqilliyini və ərazi bütövlüyünü tanıyırıq»;

**193. Erməni yazıçısı Sero Xanzadyanın «Qovorite, qorı Armenii» (İrəvan, 1987, səh.79) kitabında oxuyuruq:** «Trabzon ən cənub rus limanı, Fərat çayı isə Rusiyanın, ancaq Rusiyanın sərhədi olmalıdır»;

**Yenə orada (səh.49)** - «Rusların sırasında erməni könüllü dəstələri var və fədakarcasına, cəsarətlə döyüşürlər - axı, bu da xeyli gücdür»;

**Yenə orada (səh.78)** - «Müdafiə nazirliyi dəftərxanasının verdiyi məlumata görə, hal-hazırda rus ordusunda 300.000 erməni generalı, zabiti, əsgəri xidmət edir»;

**Yenə orada (səh.266-267)** - «Trabzondakı rus ordusunun tərkibində çoxlu sayda erməni əsgər və zabitləri var. Onların sayı 250.000-dən çoxdur»;

**Sero Xanzadyan:** «Erməni yenidən o kəndlərə (Ordubadın kəndləri) qayıtmalıdır. İlk addım çətin olur. Həmişə bayraqdar olmaq gərəkdir»;

**194. BMT TŞ-nın 30 aprel 1993-cü il tarixli 822 saylı qətnaməsinin 1-ci bəndindən çıxarış:** «Atəşin qəti şəkildə dayandırılması, habelə, bütün işğalçı qüvvələrin Kəlbəcər rayonundan və Azərbaycanın bu yaxınlarda işğal olunmuş digər rayonlarından çıxarılması məqsədilə bütün hərbi əməliyyatların və düşmənçilik hərəkətlərinin dərhal dayandırılmasını tələb edir»;

**195. BMT TŞ-nın 29 iyul 1993-cü il tarixli 853 saylı qətnaməsinin 3-cü bəndindən çıxarış:** «Bütün hərbi əməliyyatların təxirə salınmadan dayandırılmasını və münaqişədə iştirak edən işğal qüvvələrinin Azərbaycan Respublikasının Ağdam rayonundan və bu yaxınlarda işğal olunmuş bütün digər rayonlardan dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb edir»;

**196. BMT TŞ-nın 14 oktyabr 1993-cü il tarixli 874 saylı qətnaməsində oxuyuruq:** «TŞ 822 və 853 saylı qətnamələrini təsdiq edərək, işğalçı qüvvələrin bu yaxınlarda işğal edilmiş ərazilərdən çıxarılmasına dair təxirəsalınmaz tədbirləri dərhal həyata keçirməyə çağırır»;

**197. BMT TŞ-nın 12 noyabr 1993-cü il tarixli 884 saylı qətnaməsindən:** «Hərbi əməliyyatların dərhal dayandırılmasını; işğal qüvvələrinin Zəngilan rayonundan və Horadiz qəsəbəsindən, həmçinin Azərbaycanın zəbt edilmiş digər rayonlarından birtərəfli qaydada çıxarılmasını tələb edir»;

**198. 25 yanvar 2005-ci il tarixli sessiyasının qətnaməsiylə AŞ PA** «Ermənistanı təcavüzkar, Dağlıq Qarabağın qanunsuz rejimini isə separatçı qurum kimi tanımışdır»;

**199. İngiltərəli deputat David Atkinsonun AŞ PA-nın sessiyasındakı məruzəsindən:** «SSRİ-nin süqutundan sonra DQ erməniləri Azərbaycan ərazisində yeni bir «dövlət» yaratmaq iddiasına düşmüş və beləliklə, iki dövlət arasında (Ermənistanla Azərbaycan - *Ə.Ə.)* münaqişəyə səbəb olmuşlar».

**David Atkinsonun Bi-Bi-Si-yə müsahibəsindən:** «...millətlərin öz hüquqlarını təyin etməsi prinsipi DQ barəsində tətbiq oluna bilməz»;

**200. Alman tarixçisi Müller:** «...erməni tarixçiləri Ermənistan tarixini yazmağa başlayanda tarixçi olduqlarını unudaraq erməni kimi yazırlar»;

**201. BMT Baş katibinin dövlət daxilində başqa yerə köçürülmüş şəxslər üzrə nümayəndəsi F.Denq «Daimi yaşayış yerinin dəyişdirilməsi təcrübəsinin təhlili. Azərbaycan» mənzərəsində yazır:** «Həm Azərbaycan, həm

də Ermənistan iddia edir ki, onları Dağlıq Qarabağla çoxəsrlik tellər bağlayır. Lakin indiki münaqişənin mənbəyi XX yüzilliyin əvvəllərində meydana çıxmışdır. Oktyabr inqilabından sonra yeni müstəqil dövlətlərə çevrilən Azərbaycan və Ermənistan Dağlıq Qarabağ ərazisi uğrunda mübarizə aparırdılar. 1919-cu il Paris sülh konfransı Azərbaycanın bu əraziyə olan iddiasını tanıdı. Azərbaycan və Ermənistanın Sovet İttifaqı tərkibinə daxil edilməsindən sonra Dağlıq Qarabağa dair bu mövqe təsbit olundu, amma o halda ki, Azərbaycanı onun qərb rayonu ilə - Naxçıvanla birləşdirən Zəngəzur rayonu Ermənistana verildi»;

**202. 1920-ci ilin iyun ayında Q.K.Orcenikidzenin RSFSR Xalq Xarici İşlər komissarı G.V.Çiçerinə vurduğu teleqramdan (Sov.İKP MK yanında MLİ AFPA, fond 85, siyahı 13, qovluq 32, vərəq 3):** «Qarabağda və Zəngəzurda sovet hakimiyyəti elan edilmişdi və yuxarıda adları çəkilən ərazilər özlərini Azərbaycan Sovet Respublikasının bir hissəsi hesab edirlər»;

**203. «İstoriçeskiye zapiski» jurnalında oxuyuruq (c.2, M.,1938, s.80):** «Daşnaksutyunun 30 aylıq ağalığı dövründə azərbaycanlı əhalinin əlində olan torpağın 60%-i müsadirə edilmişdir»;

**204. Şimali Qafqaz mənşəli, Rusiya parlamentinin liderlərindən biri Ramazan Abdulatipovun çıxışından:** «Bu gün hər hansı erməni lideri desə ki, azərbaycanlılar bizə düşmən deyillər, dostdurlar, ola bilsin ki, onu lap sabah məhv edəcəklər. Niyə? Ona görə ki, o özü milli prinsipləri çox yüksək pilləyə çatdırıb, milləti psixoz vəziyyətinə gətirib çıxarıbdır. Gizli atəş vaxt etibarı ilə öz xalqını müharibə və qisas bayrağı altına çağırmış lider əleyhinə işləyəcəkdir»;

**205. Rus yazıçısı Andrey Bitov özünün «Uroki Armenii» əsərində erməni dostunun psixologiyasını istehzalı, ironiyalı şəkildə göstərir:** «Bundan sonra o mənimlə belə danışmağa başladı:

Gördü qarpız aparırlar...

- Bu, erməni qarpızıdır, - dedi.

Qoduğu gördü...

- Bu, erməni eşşəyidir, dedi.
- Bu, çox kök erməni qadınıdır. Bu isə erməni pivəsidir. Pivə istəyirsən? Bu adi erməni taksisidir. Minmək istəyirsən?

Əvvəlcə gülümsündüm. Sonra mənim üçün asan oldu: mən bilirdim ki, bu, erməni hasarı olacaq, bu, erməni dirəyidir, bu isə adi erməni milis nəfəridir, o necə də bundan bezikmir?»;

**206. Bir il Ermənistanda olmuş dallaslı jurnalist Canin Frend Nyu-Yorkda çıxan «Biznes yi» həftəlik jurnalında dərc olunmuş «Batmaqda olan ölkəni tərk edərkən» adlı məqaləsində yazır:** «Belə nəticə çıxarmaq olar ki, Ermənistan heç vaxt imkana malik olmayıbdır. Kütləvi mühacirət hətta müstəqillik əldə edilməzdən əvvəl, 1988-ci ildəki viranedici zəlzələdən dərhal sonra başlamışdır. Döyüş əməliyyatları başlandıqdan sonra çoxları orduya çağırılmaqdan

yayınmaq üçün ölkəni tərk etmişdi...həkimlər mehmanxana və restoranlarda qapıçı, universitet müəllimləri həftədə 5 dollara ofislərdə süpürgəçi işləyirlər»;

**Yenə orada** - «27 yaşlı İrəvan ermənisi Anahit Gülbudaqyan deyir: «Müharibənin nəfəsi duyulur. Əgər müharibə yenidən başlasa, az sayda çağırışçıları olan Ermənistan müharibəni uduza bilər. Biz daha çox torpaq əldə etmək istəyirik. Amma indi bütün torpaqlarımız boş qalmışdır»;

**207. Məşhur tarixçi alim Maqda Neyman yazır:** «Tarixi ədalətsizliyə yol verən Türkmənçay müqaviləsindən (10 fevral 1828-ci il) dərhal sonra Azərbaycana İrandan 40.000 erməni, 1829-cu ildə isə Türkiyədən 90.000 erməni köçürülmüşdür. (Ümumiyyətlə, 1828-1896-cı illərdə İrandan və Türkiyədən 1.200.000 erməni köçürülmüşdür ki, onun da 985.460 nəfəri indiki Ermənistanda, qalanları isə Qarabağda və Gəncə quberniyasının ərazilərində yerləşdirilmişdir - *Ə.Ə.)»;*

**208. Y.Rathauzer 1929-cu ildə nəşr etdirdiyi «Şura Azərbaycanı uğrunda» kitabında (səh.63) yazır:** «Türkiyə ərazisindən geri çəkilərkən 250 minlik bu qaniçici ordu (erməni könüllüləri - *Ə.Ə.)* yol boyu silahsız və günahsız müsəlmanları qırmağa, ata-baba yurdlarından didərgin salmağa, sözün geniş mənasında fiziki və mənəvi soyqırımına məruz qoymağa girişdi. Türk kəndlərinin qanı eləcə sel kimi axmağa başladı. Yüzlərcə kənd darmadağın edilib yer üzündən götürüldü. On minlərcə qaçqın yeməksiz, yersiz və yurdsuz qalıb məhv olurdu. Daşnak diplomatları sülh və dostluq barəsində təntənəli nitqlər söyləyirdilər. Qəzalarda isə topların səsi kəsilməyir, mənasız qırğın nəhayət bulmayırdı»;

**209. Ermənistan EA-nın müxbir üzvü A.Qazaryanın 1988-ci il noyabr ayının 4-də İrəvanda keçirilən mitinqdəki çıxışından:** «Bu onilliklər ərzində ilk dəfədir ki, Ermənistanı təmizləmək üçün nadir imkan verilmişdir. Mən bunu on ayda apardığımız mübarizənin ən böyük nailiyyəti hesab edirəm»;

**210. 1989-cu ilin mart ayında daşnakların cəllad generalı, türk qaniçəni Q.Nijdenin Qafanda heykəli qoyularkən, abidənin açılışında rayon Partiya Komitəsinin birinci katibi Mkrtıçyanın çıxışından:** «Siz çox zəhmət çəkdiniz, lakin respublikanı türklərdən təmizləyə bilmədiniz. Sizin böyük arzunuzu biz - nəvələriniz yerinə yetirdi. İndi Ermənistanda heç bir türk qalmayıb»;

**211. Qnçakçılar «Yeridasard Hayastan» qəzetində yazırlar:** «Birləşmiş azad Ermənistan terminini biz 1916-cı ildən sonra işlətməyə başlasaq da, çoxdan dəstəklədiyimiz tarixi tezisdən heç vaxt yan keçməmiş və həmişə Ermənistan dedikdə təkcə onun əzəli məkanı olmuş Türkiyə Ermənistanını deyil, bütövlükdə tarixi Ermənistanı, yəni Rusiya, Türkiyə və İran Ermənistanını nəzərdə tutmuşuq» (A.F.Miyasnikyan, Seçilmiş əsərləri, İrəvan, 1965, səh.643);

**212. Daşnak lideri M.Bardanyan 1927-ci ildə nəşr etdirdiyi «Simon Zavaryan» adlı monoqrafiyasında (səh.18) yazır:** «İnqilabi gücə malik bu partiyaya (Daşnaksutyun - *Ə.Ə.)* Türkiyə Ermənistanında həmişə narazılıq və savaş, qarışıqlıq və xaos olması gərək idi. Bu, Rusiyanın işə qarışmasına, ya da bu əraziləri zəbt etməsinə şərait yaradırdı»;

**213. Akademik Aşot Havhannisyan:** «Erməni məsələsi» Avropa siyasəti üçün xüsusilə iri miqyaslı müharibələr zamanı aktuallaşırdı»;

**214. Erməni tarixçisi H.Pastermaçanyan yazır:** «E.ə. VII-VI əsrlərdə meydana gələn Hind-Avropa xalqı olan haykların gəlişindən qabaq, indi Ermənistan adlanan ərazidə Urartu mənşəli Koldis və ya Xaldes xalqı yaşayırdı. Onların ölkəsi Urartu adlanırdı»;

**215. İlk erməni partiyalarından olan Armenakanı yaradan M.Portakalyan 1885-ci ildə nəşrinə başladığı «Armeniya» qəzetində yazırdı:** «Qan tökmədən azadlığa nail olmaq mümkün deyil»;

**216. V.Nazardsaryan yazırdı («İdeoloqların ruhu», Qahirə, 1915, səh.119):** «Söhbət yaşamaq hüququndan deyil, ölüm daxilindəki azadlıqdan gedir»;

**«Bolşevizm və Daşnaksutyun» əsərində (səh.103) yazır:** «Erməni torpağı gərək öz əhalisi ilə erməni olsun, öz dili ilə erməni olsun, indisi və əbədiyyətə çalan gələcəyi ilə, öz ruhu və gücü ilə, öz idealı və ölməzliyə can atan xəyalları ilə erməni olsun»;

**217. 1913-cü ildə fransız Jorj Klemanson yazırdı:** «Erməni islahatları. Bu, qədim bayatıdır. İngiltərədə çoxlu komitələr təşkil etdilər. Oradan Ermənistana nitqlər sel kimi axırdı. Fransada biz bununla bağlı saysız-hesabsız məqalələr dərc etdik. Hər kəs belə düşünməkdə sərbəst idi ki, qırğınlara o zaman son qoyulacaq ki, qırmağa adam qalmasın»;

**218. Erməni tarixçisi Con Girokosyan:** «Qısacası, «erməni məsələsi» Avropa imperialistləri üçün elə bir qapı idi ki, Osmanlı imperiyasının daxili işlərinə qarışmaqdan ötrü istədikləri vaxt onu açırdılar (Birinci Dünya müharibəsi, İrəvan, 1967, səh.129)»;

**219. Almaniya Texniki Əməkdaşlıq Cəmiyyətinin eksperti Vilhelm German:** «Əgər Rusiya Ermənistanla mövcud olan hərbi müttəfiqliyə son qoysa, məsələnin sülh yolu ilə həll olunması naminə bu müttəfiqliyi aradan qaldırsa, Dağlıq Qarabağ məsələsi hamının marağında olacaq»;

**220. Loyd Corc:** «Böyük Ermənistan dövləti yaradılmasının məsuliyyətini mən öz üzərimə götürə bilmərəm... Şəxsən mən bu fikirdəyəm ki, Böyük Ermənistan yaradılması Hindistanda və bütün dünyada arzuolunmaz əhvali-ruhiyyə doğura bilər»;

**221. Erməni tarixçisi V.Parsamyan 1977-ci ildə İrəvanın «Hayastan» nəşriyyatında çap olunmuş «Erməni xalqının tarixi» kitabında yazır:** «1828-ci il mart ayının 20-də Nikolay müqaviləni təsdiq etdi. Mart ayının 21-də isə erməni vilayətinin yaranması haqqında qərar imzalandı. 1829-1830-cu illərdə Ərzurumdan, Qarsdan, Bəyaziddən Zaqafqaziyaya 90 mindən çox erməni köçdü»;

**222. 28 noyabr 1988-ci il tarixdə milis cildinə girmiş daşnak terrorçuları tərəfindən xüsusi amansızlıqla qətlə yetirilən Zəngibasarın Qaraqışlaq kənd sakini Müşviq Tağıyevin əmlakını Azərbaycana gətirərkən**

**terror aktının və talançılığın şahidi olmuş kuybışevli sürücü Kalyakinin izahatından:** «Məni maşının yanına gətirəndə təhnədəki yükü boşaldıb qurtarmaq üzrə idilər. Bir şeydən dördü-beşi yapışıb, hərəsi bir yana dartırdı. Gözüm Müşviqi axtarırdı, yox idi. Serjant gördü narahatam, dedi: «Onu görsən tanıyarsan?» Qəribə məntiq idi. Öldürməkləri heç ağlıma gəlmirdi. Axı, nə üçün də günahsız adamı öldürsünlər? Kənarda çuxura atılmış meyiti görəndə tam aydın oldu ki, başqa yerdə yox, Ermənistanda zorakılıqdır, istənilən vaxt, istədiyin adamı, ancaq qeyri millətdən olanı daha asan öldürtnək olur. Onlar çox vəhşi, insanlıqdan kənarda qalmış xalqdılar. Ona görə belə deyirəm ki, ölümün də təhri var. Gözümün qarşısında adam öldürdülər. Bu cür ölümü faşistlər etməmişdilər. Doğrudan da meyiti tanımaq olmurdu. Kəlləsi ortadan iki bölünmüşdü. Yanımda bir vedrə benzin gətirib üstünə tökdülər. Od vurmaq istəyəndə qoymadım. Yalvardım ki, meyiti yandırmasınlar. Sahibinə nə cavab verəcəyəm? «Türkə rəhmin gəlir?» deyib mənim üstümə düşdülər. Şahid olmayım deyə məni də öldürəcəydilər. Yox, Allah var, həmin an mənim Allahım harayıma çatdı. Qarşı tərəfdən iki hərbi maşın gəldi, məni onların əlindən alıb buraxdılar. Gedərkən hərbçilərə yalvardım ki, Müşviqin meyitini orada qoymasınlar, götürüb özləri ilə aparsınlar»;

**223. Ermənilərin erməni tarixinin atası adlandırdıqları Leo 1934-cü ildə Parisdə çap etdirdiyi «Türkiyə ermənilərinin inqilabi ideologiyası» kitabında yazır:** «Roma ordusu gözlənilmədən hücum edib şəhər və kəndləri dağıtdı. Tiqranın padşahlığına son qoydu. M.ö. 387-ci ildə Roma ilə İran arasında erməni torpağı iki yerə bölündü. Fərat çayının sol sahili Van, Qars, Bitlis Romaya keçdi, sağ sahili İrana qaldı»;

**Yenə orada** - «1890-cı il iyunun 18-də Ərzurumda türk əsgərləri ilə yerli ermənilər arasında ilk toqquşma baş verdi. İğtişaşı «Vətəni müdafiə» adlı erməni təşkilatı salmışdı. Əlbəttə, bu, dəlicəsinə törədilmiş, təsəvvürə gəlməyən bir xəyanət, bir fitnə idi. Bu cəhdin nə qədər ağır nəticə verəcəyini fitnəkarlar əvvəlcədən bilirdilər»;

**Tarixçi 1990-cı il iyulun 15-də Qnçaq partiyasının tapşırığı ilə Cangülyan tərəfindən İstanbulun Qum-Qapı məhəlləsində törədilən iğtişaş haqqında yazır:** «Bütöv bir xalqın taleyini beləlirinə tapşırmaq gerçəkdən bədbəxtlikdir. Hadisənin baş verdiyi o adi gün sonradan müsibətlər üzünə geniş qapı açdı...»;

**Yenə orada** - «Erməni xalqı üçün nə daimi dost, nə də daimi düşmən yoxdur. Onlar üçün ancaq mənafe var»;

**Leo «Erməni tarixi» kitabında yazırdı:** «Erməni məsələsi»ni San-Stefano sazişinin ilk günlərindəcə Türkiyənin təhkimçi kəndlilərinin naləsi, qanı və gözyaşı kimi Avropanın xarici işlər nazirliklərinin bərli-bəzəkli otaqlarında tacir laqeydliyi ilə satırdılar»;

**224. Beynəlxalq dərəcəli avantürist ləqəbi kimi ad qazanmış, Hindistandan vurub Bavariyadan baş çıxaran erməni İsrail Orinin**

**XVIII əsrin başlanğıcında I Pyotra yazdığı məktublarından sətirlər:** «İrəvan şəhərində iranlılar ermənilərə zülm edirlər. Ermənilər də yığışıb məsləhətləşmiş və qərara gəlmişlər ki, bu zülmdən xilas olmaq üçün imperator həzrətləri, şəxsən cənablarınıza müraciət etsinlər»;

**Yenə orada** - «Rus qoşunları Cənubi Qafqaza daxil olandan sonra, güman ki, türklər savaşa başlaya bilərlər. Lakin bunun faydası yoxdur. Müharibə onlara heç nə verməyəcək, çünki burada tutulmalı yeganə bir şəhər varsa, İrəvan şəhəridir»;

**Yenə orada** - «İrəvan daşla tikilən qaladır, buna baxmayaraq rus qoşunları onu hətta müqavimətə rast gəlmədən də ala bilər. Qalada bomba, barıt yoxdur. Barıt və digər hərbi sursat ermənilərin əlindədir. Qalanın iki qapısı var, hərəsini bir keşikçi mühafizə edir. Yerli ermənilər darvazaları asanlıqla aça bilər və rus qoşununun daxil olmasını təşkil edərlər»;

**225. Arxiyepiskop Minas Pərvazyan 22 sentyabr 1722-ci ildə I Pyotra yazdığı məktubda göstərirdi:** «Hazırda ermənilərin 40.000 nəfərdən ibarət bir ordusu var. İmperator ordusunun yaxınlaşdığını görən kimi 40.000 nəfərlik bir ordu da səfərbər etməyə imkanımız var».

**İki ay sonra daha həyəcanla yazır:** «20-30 minlik imperator qoşunu tezliklə Şamaxıya çatmasa biz batar-qırılarıq, türklər İrəvanı tutarlar. İrəvan İran torpaqlarının açarıdır. Məqsədimiz İrəvana sahib olmaqdır. İrəvanı ələ keçirə bilsək, türklər və iranlılar daha bizə heç nə edə bilməzlər»;

**226. Məlik Abraham başda olmaqla bir qrup İrəvan ermənisi şirnikdirmək üçün çar generalı Sisianova yazırdılar:** «İrəvanda çox az döyüşçü var. Cəmi 3000 nəfərdi. Qaladakı tatarlarla, qaladan kənarda olan əhali ilə danışmışıq, söz veriblər, sizin ordu İrəvana gəlsə, hamısı təslim olacaq, çətinlik çəkmədən qalanı alıb şəhərə və xanlığa sahib ola bilərsiniz»;

**227. Türkiyədə olmuş çar üsuli-idarəsi müşaviri Qryaznov 1896-cı ildə nəşr etdirdiyi «Türkiyədə ermənilərin vəziyyəti» əsərində (səh.69) yazır:** «Yaxşı torpaqları yalnız ermənilər becərirdilər, sənaye və ticarətlə məşğul olanlar da ancaq onlar idi. Türklər və kürdlər qismən ermənilərin hesabına yaşasalar da, bunun əvəzinə əkinçiliyin, sənayenin və ticarətin qazancını bu bacarıqlı və eyni zamanda çox fəndgir bir xalqa verirdilər. Kim Asiya Türkiyəsi ermənilərinin vəziyyəti ilə tanışdırsa, hökmən bunu etiraf etməlidir ki, Bason, Alaşkert, Xarbert torpaqları, Murad çayı və Van gölü sahillərinin ən bərəkətli torpaqları ermənilərin əlindədir. Türkiyədə gəzib-dolaşdığım dörd ildə Rusiyanın şimalındakı rus kəndlərində camaata çoxdan bəlli olan yoxsulluğu mən Türkiyə ermənilərində görə bilmədim. Türkiyədəki erməni kəndlərinin çoxunda olan taxılın və mal-qaranın say-hesabını rus kəndliləri heç təsəvvürə belə gətirə bilməzlər»;

**228. Peterburqda çıxan «Qolos» qəzetində dərc olunmuş bir yazıda deyilir (Qryaznovun «Türkiyədə ermənilərin vəziyyəti» kitabının 109-cu səhifəsi):** «Ərzurum vilayətinin ermənilərinin soyuq və odlu silah ehtiyatları

kifayət qədərdir, bu səbəbdən də onlar indi türklərə qarşı tamamilə başqa münasibətdədilər. Mənə dedilər ki, ermənilər silahlı cəmiyyətlər təşkil ediblər. Bu cəmiyyətlər hadisələrin gedişini diqqətlə izləyir. Lazım gələn kimi öz köməklərini göstərməyə hazırdılar»;

**229. Türkiyədəki rus səfirliyinin nümayəndəsi podpolkovnik Tomilov 1904-cü ildə yazdığı hesabatda göstərir:** «...qırğınları erməni inqilabçıları təşkil edirlər. Onlar başıpozuqluqlar salmaqla, hətta öz can qardaşlarının qanı bahasına xristianları üsyana təhrik edir və bu yolla Avropa dövlətlərinin diqqətini erməni məsələsinin həllinə yönəltmək istəyirdilər. Bu yolla muxtariyyət əldə etməyə can alırdılar»;

**230. Rusiya Xarici İşlər Nazirliyinin fiziki coğrafiya müəllimi Vasilyev adıyla Türkiyəyə göndərdiyi polkovnik Putyata Sasun iğtişaşının səbəbini belə şərh edir:** «Sasun əhvalatında diqqəti cəlb edən fakt budur ki, hadisələrə səbəb, məlum olduğu kimi, erməni təşviqatçıları olub. Onlar öz təxribatçı dəstələrinin vasitəsi ilə kürd əhalisini ədavət salmağa məcbur ediblər ki, həm kürdlər, həm də türk hökuməti sərt tədbirlərə əl atsın və beləliklə, Avropa dövlətlərinin diqqəti erməni məsələsinin həllinə yönəldilsin»;

**Yenə orada** - «Ermənilər müstəqil padşahlıq yaratmaq istəyirlər. Erməni qırğınlarına da məhz bu baxımdan bəraət qazandırırlar»;

**231. 1843-cü ildə İrəvana gələn alman səyyahı Moris Vaqner yazırdı:** «Rusiya öz ikibaşlı qartalını İrəvan çuxurunadək çatdırdığı gündən, öz eybəcər, zəhlətökən maks (rüsum) siyasətini Cənubi Qafqaz quberniyalarına yaydığı andan bu ölkədə əvvəllər çiçəklənmə həddinə çatmış ticarət birdəfəlik soldu, pozuldu. İran-Gürcüstan yolunun tən ortasında olduğundan İrəvanın dükan və karvansaraları aşıb-daşmaqdaydı. İndi bomboş qalmış o dükanlar, o karvansaraların həyətində bir vaxtlar atlar kişnəyər, ağır yükləri altında dəvələr mələşərdi»;

**232. «Erməni xalqının tarixi» kitabında (I c, səh. 96) oxuyuruq:** «Bəşərin beşiyi, ilk vətəni Ermənistandır. Ən qədim xalq erməni xalqıdır, ən qədim dil erməni dilidir»;

**233. Dinisi:** «Xəzərsahili xalqlar - hunlar, albanlar, kaduslar, mordovlar sırasında erməni adına rast gəlmədim»;

**234. Strabon:** «Erməni çarları qonşu xalqların xeyli torpağını işğal etsələr də, orada davam gətirə bilməmişlər»;

**235. H.Pastermaçyan:** «Ermənilər friqlərlə birlikdə qərbdən e.ə. VII-VI əsrlərdə şərqə gəlmişlər»;

**Yenə orada:** - «Atam Azərbaycan türklərinə qarşı qılıncla vuruşurdu. Mən də bu vuruşu qələmlə davam etdirirəm»;

**236. R.Hovannisyan:** «Ermənilər işğalçılar kimi gəlmiş və yerli əhalini işğal altına almışlar»;

**237. R.Kuriyan:** «Nəhayət, ermənilər isveçlərdən gəliblər»;

**238. Erməni jurnalisti Levon Dabbağyan yazır:** «...ermənilər indiki dövrdə milli varlıqlarına görə həqiqətən səlcuq və osmanlı türklərinə borcludurlar. Bizansların və ya digər avropalıların əlində qalsaydı, erməni adı bu gün sadəcə olaraq tarix kitablarında saxlanılan bir ad ola bilərdi»;

**Yenə orada:** - «Biz ermənilər din qardaşlarımız olan xristianların zərərli vədlərinə inanaraq böyük türk dövlətinə qarşı üsyan etdik. Daha doğrusu, vətənə xəyanət etdik. Acı olsa da gerçək budur. Bütün bunlara baxmayaraq yenə də böyük türk milləti bizi öz bağrında barındırır. Unutmayaq ki, türklərin düşməni bizim də düşmənimizdir»;

**239. Qədim tarixçi Urfalı Motevos Bizans hökmranlığı altında «inim-inim» inləyən ermənilərin vəziyyəti barədə yazırdı:** «Erməni milləti zülm-əsarət altında qalmışdı. Bütün məmləkətimiz qan içindəydi. Bu qanlar vətənimizin bir ucundan o biri ucunadək dərya kimi coşub-daşırdı. Məzhəbini dəyişmək istəməyən ermənilərin boğazına əridilmiş qurğuşun tökərək ən faciəli ölümlərə mübtəla edirdilər»;

**Urfalı Motevos Səlcuq sultanı Məlikşahın ata şəfqətindən vəcdə gələrək yazırdı:** «Məlikşahın səltənəti Allahın lütfünə nəsib oldu. Hakimiyyəti uzaq ölkələrə qədər yayıldı. Və ermənilərə sakitlik verdi. Qəlbi xristanlara qarşı şəfqətlə dolu idi. Keçdiyi ölkələrin xalqları ilə ata kimi rəftar edirdi»;

**240. Səlcuq Sultanı Məlikşahın ədalətli rəftarı haqqında erməni katolikosu Vasil yazırdı:** «O, hər tərəfdə barış və hakimanə bir idarə qurmuşdu... bildiklərimizin hamısından adil olduğuna görə heç bir insana kədər vermədi...hərb və zorakılıqla deyil, könüllərə yol tapmaqla indiyədək heç bir hökmdarın əldə edə bilmədiyi məmləkətlərə sahib oldu»;

**241. 1968-ci ildə erməni müəllifi Ter Çersisyan yazırdı:** «Ermənilər üzərində Bizansın öldürücü ilhaq siyasətinin xeyli davam etdiyi və ermənilərə qarşı düşmənçiliyin artdığı bir zamanda şərqdə Səlcuq türklərinin zühur etdiyi göründü. Bizansın Malaşkert fəlakətinə uğramağı üzündən bütün ermənilər 1071-ci ildə Səlcuqların iradəsinə keçdilər. Səlcuqların köməyi ilə hürriyyət qazanan ermənilər Qriqorian idarəsində tərəqqi etdilər»;

**242. Erməni ziyalısı minnətdarlıq hissi ilə yazırdı:** «Sultan Fatehin İstanbulu fəth etməsi ilə ermənilərin taleyi üçün yeni bir ulduzun parlamağa başlamasını söyləsəm, tarixi bir həqiqəti etiraf etmiş olacağıma əminəm»;

**243. Patriarx Nerses Varjapetyan 1878-ci il mart ayının 17-də İngiltərənin İstanbuldakı elçisi Loyarda yazırdı:** «Bir il bundan əvvəl bizim Osmanlı üsuli-idarəsindən heç bir şikayətimiz yox idi. Lakin Rusiyanın bu son zəfərləri vəziyyəti dəyişdirdi. İndi biz də bağımsız bir Ermənistana sahib olmaq istəyirik. Əgər siz yardım etməsəniz, biz bu istəyimizi gerçəkləşdirmək üçün Rusiyaya müraciət etməli olacağıq»;

**Nerses Varjapetyan 1878-ci il aprel ayının 13-də İngiltərənin xarici işlər naziri Solisberiyə göndərdiyi məktubda yazırdı:** «Ermənilərlə türklərin bir

yerdə yaşaması artıq imkansızdır. Bərabərlik, ədalət, vicdan azadlığı ancaq xristian dövlətlərində bərqərar ola bilər. Buradakı müsəlman üsuli-idarəsini xristian üsuli-idarəsi əvəz etməlidir. Qərbi Anadolu və Kilikiya xristian dövlətinin ərazisi olmalıdır. Türkiyə erməniləri bunu istəyirlər»;

244. **İstanbuldakı erməni milli məclisinin San-Stefanoda sülh danışığı aparan Rusiyanın nümayəndə heyətinin başçısı qraf İqnatyevə ünvanladıqları məxfi məktubda yazılırdı:** «Şərq xristianları olan biz ermənilər də Qərb xristianları kimi Rusiyanın köməyi sayəsində müstəqillik əldə etmək istəyirik. Xahişimiz, istəyimiz budur»;

**245. 1878-ci il tarixli 23 saylı nömrəsində «Mşak» qəzeti yazırdı:** «Beləliklə, San-Stefano müqaviləsi Batumu və Qərbi Ermənistanın böyük bir hissəsini Rusiyaya verdi»;

**246. 1878-ci il iyun ayının 1-də keçirilən Berlin konqresi ərəfəsində İngiltərənin Xarici İşlər nazirinin erməni nümayəndə heyətinin başçısı Mkrtıç Xrımyana cavabı:** «Londonun Ermənistandan 3000 mil uzaqda olduğunu gərək biləydiniz. Bizim gəmilərimiz Ermənistan dağlarına qalxa bilməz. Taleyinizin daha pis olmasını istəmirsinizsə itaət edin, səbir eləyin, mən sizə ancaq bunu deyə bilərəm»;

**247. Erməni nümayəndə heyəti erməni məsələsinə dair proqram sənədlərini Berlin konqresinin sədri Bismarka vermək istəyəndə Bismark deyir:** «Pomeranlı tək bir əsgərin sümüyünü bütün ermənilərə dəyişmərəm»;

**248. Berlin konqresində Almaniya imperatoru I Vilhelmlə görüşə bilməyən erməni nümayəndə heyəti üzvləri onun xanımının qəbuluna düşmək istəyirlər. Bu hadisəni nümayəndə heyətinin üzvü Minas Çeraz belə təsvir edir:** «Qapının ağzında bizi rəsmi geyimli nəhəng bir kişi qarşıladı. Dedik ki, imperatriçanı görmək istəyirik. Bunu eşitcək o zorba kişi bizi söyməyə başladı. Yaxınlaşıb Mkrtıç Xrimyana bir sillə çəkdi, çaşıb qalmışdıq. Xrimyanın başı hərləndi, papağı səkiyə düşdü. Papağı götürüb, gəldiyimiz faytonla da mehmanxanaya qayıtdıq. Hayrik qarşıda əyləşmişdi, dinib-danışmırdı, üzü gömgöy göyərmişdi. Silləni tək ona deyil, elə bil böyük erməni xalqına vurmuşdular. Ümidlərimiz üzülmüş halda qayıdıb Konstantinopola gəldik»;

**249. Berlin konqresinə yollanan Mkrtıç Xrimyanın «siz konqres iştirakçılarının dilini bilmədiyiniz halda onlara hansı dildə necə müraciət edəcəksiniz» sualına cavabı:** «Siz narahat olmayın, mən orada hamının çox asan başa düşdüyü bir dildə danışacağam - ağlayacağam»;

**250. Tiflis kitabxanasında əlinə keçən kitabın üstündə «Xaçatur Abovyan, «Ermənistanın yaraları» sözlərini oxuyan çar məmuru romanı ayaq altına ataraq hiddətlə demişdir:** «Rusiyada Ermənistan yoxdur, yarası da ola bilməz»;

**251. 1903-cü ildə «Novoye vremya» qəzetinin İrəvan müxbiri Qriqoryev yazırdı:** «Törədilən cinayətlərin icraçılarının, «millət naminə» əhalini

soyub var-yoxunu əlindən alanların 80 faizi Türkiyədən gəlmiş yarımvəhşi erməni qatilləridir»;

**252. Daşnaksutyun partiyasının 13-20 noyabr 1905-ci il tarixdə keçirilən gizli yığıncağının stenoqramasından:** «Alnımızın yazısıdır, tatarlarla yanaşı yaşamalıyıq. Bizə nisbətən onların mədəni səviyyəsi aşağıdır. Bu hal öz-özlüyündə bir bəladır. Gələcəkdə federasiya tərkibində biz tatarlarla iki düşmən düşərgəsini təmsil etməli olacağıq»;

**Yenə orada:** - «Qələbənin başlıca rəhni hücumdur. Əgər qırılmaq, məhv olmaq istəmiriksə, onda birinci biz hücum etməli, ölümcül zərbə endirməliyik»;

**253. 4 yanvar 1915-ci ildə R.Milyukov deyirdi:** «Mənim üçün ermənilərin istədikləri deyil, işdə Rusiya üçün əlverişli olanlar vacibdir»;

**254. 1917-1918-ci illərdə Qars qırğınlarının şahidi olmuş yunan müəllifi yazır:** «Türk ordusu qarşısında geri çəkilən silahlı erməni qaçqınları ətrafdakı müsəlman kəndlərini yer üzündən silərək hər şeyi atəş və qılıncdan keçirir, təsəvvürə gəlməz bir dəhşət və fəlakət törədirdilər. «Qalib» erməni ordusu hərbi qənimətləri, yəni süngü ucuna taxılmış südəmər uşaqlarla keçdikləri yolların ətrafına çılpaq soyundurulmuş müsəlman qadınlarını düzürdülər. Bu cəhənnəm əzabından ağlını itirmiş qadın və uşaqların ürək parçalayan iniltilərini, qocaların ümidsiz nalələrini dinləmək üçün adamın qəlbi daş olmalıdır»;

**255. 4-cü Qafqaz korpusunun komandiri General Oqanovskinin şərhi:** «Rus hökuməti Şərqdə öz tarixi siyasətini və missiyasını unutmayıb (yəni erməni məsələsi ilə bağlı siyasət) və o, Ermənistanın muxtariyyəti barəsində ermənilərin xülyasını deyil, rus dövlətinin mənafeyini müdafiə edir. Rus hökuməti Türkiyə Ermənistanında ermənilərin sayının az olmasını istəyir. Ermənilər öz düşüncə tərzini və dünya baxışlarını dəyişməlidilər. Onlar gərək kütləvi qaydada etiraf və əməli işlə sübut etsinlər ki, muxtar Ermənistan naminə deyil, rus imperiyasının vətəndaşları olaraq vuruşurlar. Əks halda ermənilərin niyyətləri özləri üçün baha başa gələr»;

**256. Amerikalı müəllif Maykl Ü.Arlen «Ararata doğru uzanan yol» kitabında yazır (Nyu-York, 1975, səh.186):** «Sanki ermənilərin bir neçə nəslinin beyninə millətçilik zəhəri yeridilib. Elə bir xüsusi zəhər ki, ermənilər nə onu tüpürüb, nə də udub canlarını qurtara bilmirlər»;

**257. ABŞ-ın dövlət siyasətinin müdafiəsi ilə məşğul olan idarənin məmuru Fred Aykl:** «Erməni terrorizmi ən dəhşətli, ən həyasız terrorçuluq hərəkatlarından biridir»;

**258. Erməni ASALA terror təşkilatının rəhbəri A.Akopyan:** «Ermənilərin terrorçu təşkilatı çox məxfi, həm də çox gözəl təşkil olunmuş silahlı birləşmələrdən ibarətdir. Həmin birləşmələr əsasən Orta Şərqdə və Avropada əməliyyatlar keçirirlər»;

**259. Prof. Maykl M.Güter (ABŞ, Qennesi Texnoloji Universiteti) 1984-cü ildə dərc etdirdiyi «Erməni terrorizminin müasir aspektləri» məqaləsində**

**yazır:** «Erməni terrorçuları son on ildə 28 türk diplomatını və onların ailə üzvlərini vəhşicəsinə öldürmüşlər. Bu qətllərdən dördü ABŞ-da baş vermişdi. Bundan başqa, erməni terrorçuları 34 nəfər qeyri-türkü öldürmüş, 300 nəfərdən çox adamı isə yaralamışlar, həmin şəxslər törədilmiş amansız qətllər vaxtı erməni terrorçularının aramsız atəşinə məruz qalmışlar»;

**Yenə orada:** - «Şərqi Türkiyənin torpaqlarını qoparıb müstəqil erməni əraziləri yaratmaq imkanının sıfıra bərabər olduğunu şüursuz adam da dərk edə bilər. Xüsusən də, tarixin bu son inkişaf mərhələsində ermənilərin həyasız iddiaları xam xəyaldan başqa bir şey deyildir»;

**260. Daşnaksutyunun törəməsi olan «Erməni soyqırımının ədalətli qisasçıları» terror təşkilatının 1979-cu ilin iyulunda verdiyi bəyanatdan:** «Osmanlı imperiyasının varisi olan və bizim əraziləri işğal etmiş türk dövlətindən tələb edirik ki, bütün məsələmizə məsuliyyətlə yanaşıb erməni torpaqlarını öz sahibinə qaytarsın»;

**261. Amerikalı müəllif Bonni Kordis (ABŞ, Kaliforniya) 17 aprel 1984-cü ildə dərc etdirdiyi «Amerikada erməni terrorçuluğu» məqaləsində yazır:** «Erməni terrorçu qruplarının aramsız xəyanətkar əməlləri xalqlar arasında gərginliyin artmasına xeyli dərəcədə təsir edir. Hazırda bu, özünü daha qabarıq şəkildə büruzə verdiyindən, terrorçuluq əleyhinə mübarizədə dünya xalqlarının beynəlxalq əməkdaşlığını daha da möhkəmlətmək zəruridir»;

**262. Sovet tarixçisi Qurko-Kryajın «erməni məsələsi»nin Zaqafqaziyada cəmləşməsi ilə əlaqədar yazırdı:** «Böyük Ermənistan»la bağlı bütün ümidlərinin açıq-aydın puça çıxmasına baxmayaraq daşnaklar burada (Cənubi Qafqazda - *Ə.Ə.)* davakar millətçilik siyasəti yeritməkdə davam edirdilər»;

**263. «Pravda» qəzetinin 29 noyabr 1935-ci il tarixli sayındakı icmal-məqalədə yazılır:** «Erməni silahlı və quldur dəstələri şəhərlərdə, qəzalarda və kəndlərdə, hətta Ermənistan Respublikasının paytaxtı İrəvan şəhərində ac qurdlar kimi müsəlmanlara hücum edir, hər axşam üç, dörd müsəlmanın evini dağıdır və talan edir, sakinləri öldürürdülər»;

**Yenə orada** - «1919-cu ilin birinci yarısında ölkədə 180000 adam, 30 ayda isə (Daşnaksutyun partiyasının 30 aylıq hakimiyyəti dövründə - *Ə.Ə.)* 489 min adam ölmüşdür»;

**264. Daşnaksutyun partiyasının 30 aylıq hökmranlığı haqqında «Xorhurdain Hayastan» qəzeti 30 noyabr 1935-ci il tarixli sayında yazırdı:** «Xoş o adamın halına ki, bu üzücü günlərdə qəzaya yolu düşməyib, kənddə cövlan edən dəhşətləri görməyib. Addımbaşı aclıq və meyit görə bilərsən. Hansı küçədən keçsən tökülüb qalmış meyitlərə rast gələcəksən. Hansı evə girsən bir tərəfdə ölüləri, o biri tərəfdə yarımcan insanları və uşaqları görəcəksən. «Ah, bircə tikə çörək!» fəryadını eşidəcəksən. Cəmi bir neçə saatdan sonra gördüyün o adamlar da

öləcəklər. Evlərdə, küçələrdə, təndirlərin başında, küçələrin qırağında tökülüb qalan meyitləri dəfn edə bilməyiblər. İtlər parçalayır, quşlar dimdikləyir»;

**265.Erməni müəllifi H.Azatyan:** «Şərqi fəth etmək yolunu rus burjuaziyasının üzünə açan məhz Daşnaksutyun partiyası oldu. Bu partiya rus burjuaziyasının planlarının həyata keçirilməsinə kömək edən bir vasitəyə çevrilmişdir»;

**266.A.Aharonyan:** «Nadir nəslin övladlarıyıq biz. Bizi fərsiz millətçilərlə bir tərəziyə qoymaq olmaz. Erməni başqa heç bir millət qarşısında baş əyməz»;

**Yenə orada:** - «Erməni milləti Allah vergisidir. Onu başqa heç bir millətlə eyni tərəziyə qoymaq olmaz. Dünyada ən nadir, ən seçmə bir soy varsa, o da erməni soyudur. Bu soyun övladları olan biz ermənilər həm fəxr etməli, həm də ən adi insani hüquqlara sahib olmalıyıq»;

**267. Paronyan yazırdı («Teatr» jurnalı, № 193):** «Məqsədə nail olmağın, insan hüququnu qorumağın ilkin şərti tüfəngdir»;

**268. Raffi yazırdı:** «Mən və mənim həmfikirlərim ölərik, lakin bizim ölümümüz varislərimizin qarşısında yeni imkanlar, yeni yollar açar»;

**Yenə orada** - «Hey ermənilər, dinləyin - hey atalar və babalar... əgər siz kilsələr əvəzinə qalalar tiksəydiniz, əgər siz müqəddəs xaçlar və ibadətlər əvəzinə silahlar alsaydınız, əgər siz biganəlik əvəzinə barıt qoxusuna bələd olsaydınız, ölkəmiz bəxtəvər olardı» (Əsərləri, III cild, səh.152);

**269. Erməni aşığı Civan:** «Başqaları kimi sən silah almadın, buna görə hüquqsuz, imkansız qaldın»;

**270. Qnçakçıların «Yeridasard Hayastan» qəzeti yazır:** «Birləşmiş azad Ermənistan terminini 1916-cı ildən sonra işlətməyə başlasaq da, çoxdan dəstəklədiyimiz tarixi tezisdən heç vaxt yan keçməmiş və həmişə Ermənistan dedikdə təkcə onun əzəli məkanı olmuş Türkiyə Ermənistanını deyil, bütövlükdə tarixi Ermənistanı, yəni Rusiya, Türkiyə və İran Ermənistanını nəzərdə tutmuşuq»;

**271. Daşnaksutyun partiyasının Qərb komitəsinin bəyanatı:** «Qarabağ respublikasının yaradılması son yüzillikdə partiyamızın ən böyük və ən parlaq qələbəsidir»;

**272. Koliforniya ştatının sabiq qubernatoru C.Tokmacyan yazır:** «Sevr müqaviləsinə görə Ermənistanın ərazisi 161 $km^2$ olmalı idi. Qarabağdan başlayan yol bizi bu ulu məqsədə çatdırmalıdır»;

**273. Ermənistan Respublikasının ilk prezidenti Levon Ter-Petrosyanın Los-Ancelesdəki nitqindən:** «...çətinliklərə sinə gərdik, Qarabağ qələbəsini qazandıq. İndi Qarabağda 20 minlik, Ermənistanda 60 minlik nizami erməni ordusu var. Ruslar bizə möhkəm bel bağlayıblar, Amerika bizə ağıllı-başlı havadarlıq eləyir»;

**274. 1918-ci ildə qəza rəisinə daşnak komissarı Ter-Qriqoryanın dedikləri:** «Uluxanlını biz istədiyimiz anda yerlə yeksan edə və dünya diplomatları qarşısında özümüzə haqq qazandıra bilərik»;

**275. Emma Xanzadyan «Dağlıq Ermənistan mədəniyyəti» adlı əsərində yazır (İrəvan, 1967):** «... «Dağ adası» Ermənistanın 300 min $km^2$ ərazisi olub (səh.3). Bu ərazidə yalnız və yalnız yüksək mədəniyyət sahibi olan ermənilər yaşayıb. Məhz onların əli və zehni ilə «Beşdaş», «Daşbaşı», «Barmaqsız», «Clar», «Göytəpə», «Yanıqtəpə» adlı yurdlarda çox nadir mədəniyyət inciləri, memarlıq abidələri yaradılıb, möhtəşəm qalalar, nəhəng binalar ucaldılıb (səh.87)»;

**276. Fransız müxbiri Kutilinin «Tetra» qəzetində yazır:** «Gələcəkdə Qafqaz ermənilərin olacaq, gürcülərlə tatarlara bir çarə - erməniləşmək qalacaq»;

**277. 1919-cu il iyunun 15-də Fransa prezidenti Pankare ilə görüşündə Andronik bildirir:** «Dünya müharibəsində 195 min erməni əsgəri Türkiyəyə və Almaniyaya qarşı vuruşub. Fransanın və onun müttəfiqləri qarşısında öz borclarını şərəflə yerinə yetirərək həlak olmuş erməni könüllülərinin qanı hədər getməməlidir. Paris sülh konfransına təqdim olunmuş ərazi iddiasının gerçəkləşməsinə Fransa hər vəchlə kömək etməlidir»;

**278. Ermənistan parlamentinin deputatı Viktor Dallakyanın 6 mart 1997-ci ildə «Molorak» qəzetinə verdiyi müsahibəsindən:** «Gürcüstanın Marneuli rayonunda 13 min erməni, bir o qədər gürcü, 130 min azərbaycanlı yaşayır. Demoqrafik baxımdan azərbaycanlıların bu qədər üstünlüyünə baxmayaraq Ermənistan rayonun strateji əhəmiyyətini, Ermənistan, Gürcüstan, Azərbaycan respublikalarını bir-birinə bağlayan avtomobil yolunun, Gürcüstandan Ermənistana gedən dəmiryol və qaz kəmərinin buradan keçdiyini, üç ölkənin iki ticarət-iqtisadi mərkəzlərindən biri olduğunu nəzərə alaraq burada möhkəm mövqe tutmağa, geniş imkanlara sahib olmağa, azərbaycanlılar tərəfindən daim nəzarət altında saxlanılan Sadaxlı yolunun əvəzinə özü üçün müstəqil yol açmağa son dərəcə cidd-cəhd göstərməlidir»;

**279. 26 mart 1997-ci il tarixdə «Noyan Tapan» agentliyinin hərbi-siyasi icmalçısı David Petrosyanın müharibə təhlükəsinin labüdlüyünə dair verdiyi şərhindən:** «Döyüş əməliyyatlarının dalğası bu dəfə daha geniş əraziləri bürüyəcək, vuruş meydanı Ermənistanla Naxçıvan sərhədlərinədək gəlib çatacaq. Əməliyyatlarda Türkiyə, türk zabitləri, türk silahı da iştirak edəcək. Ancaq müharibə 8-10 həftədən çox davam etməyəcək. Ona görə ki, tərəflərin ehtiyat qüvvəsi tez tükənəcək»;

**280. «Hay Dad» Mərkəzi Komissiyasının üzvü İlda Codoyanın 29 mart 1997-ci ildə keçirilən Paris toplantısındakı bəyanatından:** «Erməni milli azadlıq hərəkatı Qarabağda parlaq qələbə qazanıb. Deməli, «erməni məsələsi», yəni «dənizdən-dənizə böyük Ermənistan» dövləti yaratmaq uğrunda mübarizə yeni mərhələyə qədəm qoyub. Daha «erməni soyqırımının» hamı tərəfindən etiraf olunmasını tələb etməklə kifayətlənmək olmaz. İtirilmiş erməni torpaqlarının qaytarılıb Ermənistana birləşdirilməsi bundan belə başlıca şüarımız olmalıdır»;

**281. 1996-cı ildə İrəvanda dərc olunan «Qardmonik» qəzetinin baş redaktoru Samvel Karapetyan qəzetinin ikinci sayında yazır:** «Qardman ölkəsi

Şimali Arsaxın davamıdır. Əhalisinin əksəriyyəti ermənilər olub. Lakin 1988-ci il hadisələrindən sonra bu yerləri tərk ediblər. Xanlar, Daşkəsən, Şamxor və Gədəbəy rayonları ermənisiz qalıb, Naxçıvanın gününə düşüb»;

**282. Hakob Ter-Hakopyan (təxəllüsü - Şahan Natan) 1912-ci ildə «Hayrenik» (ABŞ) adlı məcmuədə dərc etdirdiyi «Türklər və biz» əsərində yazır:** «Ermənilərin türklərdən başqa düşməni yoxdur. Türkə qarşı nifrət hissini ermənilərə Allah özü bəxş edib. İntiqamçı olmağı, türkdən intiqam almağı Tanrı özü buyurub erməniyə»;

**Qeyd:** Bu həmən daşnakdır ki, 1919-cu il Daşnaksutyun partiyasının sentyabr ayının 27-də keçirilən qurultayında iştirak edib və Qriqor Mercanovla birlikdə qətlə yetirilməsi nəzərdə tutulan 200 türkün adını özündə ehtiva edən «Qara siyahı» hazırlayıblar;

**283. Tehranda nəşr olunan «Araks» dərgisinin redaktoru Movses Keşişyan jurnalın 78-ci sayında yazır:** «Biz qisasa, intiqama, terrora hökm verən «Hay Dad»ın, yəni «erməni məsələsi»ni həll etmək, türkləri cəzalandırmaq məqsədi ilə təşkil olunmuş erməni məhkəməsinin mikrofonu, tribunası, dünyaya yayılan səsi və nəfəsiyik. Bu istiqamətdə dərgi daha böyük səylər göstərəcək və daha ciddi işlər görəcək...».

**Movses Keşişyan dərginin 80-ci sayında yazır:** «Bil və agah ol, eşit və unutma! Türkün özü də, onu dəstəkləyən qüvvələr, ölkə və dövlətlər, xalq və millətlər də sənin, yəni erməninin düşmənidir!»;

**284. Silva Kaputikyan 1981-ci ildə Moskvada çap etdirdiyi «Ermənistan damı» kitabında (el arasında «Daşnak ressepti» adlanır) yazır:** «Üç dəniz - Qara, Aralıq və Xəzər dənizləri arasında, Fərat və Dəclə çaylarının axarı boyunca babam Hakopun ucaboy, qüvvətli nəvələri yaşamışlar. Bu torpaqlar əvvəllər Urartu adlanırmış. İyirmi beş əsrdir ki, ona Ermənistan deyirlər» (səh.29).

**Silva Kaputikyanın meydandakı çıxışından:** «V əsrdən biz bu türklərə dözürük, daha nə qədər dözmək olar?»;

**Silva Kaputikyan açıq-aşkar yazır:** «Erməni xalqının şəninə bacardığımız qədər yalan mədhiyyələr söyləyin, qorxmayın, bu yalanlar həqiqətə dönəcək, hamının etirafını qazanacaq, ermənin dünyanın hər guşəsində anası, atası, bacısı, qardaşı, uşaqları, nəvələri olacaq...»;

**Yenə orada** - «Lazım gəlsə, Qarabağ üçün hamımız öləcəyik»;

**Yenə orada** - «Türk özü lənətlənməlidir, amma sözləri doğrudur»;

**S.Kaputikyan erməni analarına deyir ki, siz hər dəfə öz balalarınıza süd verəndə mütləq onların qulağına pıçıldayın:** «Türk sənin düşmənindir. Böyüyəndə qisas almalısan, öldürməlisən, qəsd etməlisən, «Böyük Ermənistan» yaratmaq üçün türkü son nəfərinə qədər qırmalısan. Bütün torpaq bizimdir»;

**285. 1918-20-ci illərdə Göyçə gölü sahilindəki azərbaycanlı kəndlərini dağıdan erməni-daşnak terror qruplarının törətdikləri qəddarlıqları erməni müəllifi Muradyan «Yağovurd» («Xalq») qəzetində belə təsvir edir:** «Bizim

hökumətin həyata keçirdiyi tədbirlər nəticəsində bu kəndlərdə (Toxluca, Ağbulaq, Ardanış və s.) əhali qalmayıb. Ermənistanın hüdudlarından kənara qaçıblar. Mən burada sahibsiz qalmış kəndləri gördüm. Burada mən bir neçə pişikdən, habelə hiddətə gəlmiş itlərin əcaib hürüşməsindən başqa bir şey görmədim. Bu kəndlərin əhalisi çox geniş sahələrdə kartof, buğda, arpa əkib qoyub getmişlər. Hökumət bu kəndlərdən milyon put buğda və yarım milyon pud kartof götürə biləcək»;

**286. Ömrü boyu «Türksüz Zəngəzur», «Türksüz Ermənistan» deyə-deyə türk qanı tökən Qarağen Nijde:** «Günəş altında özümüzə gen-bol yer eləmək üçün bu dünyanı türkün başına tərs fırlandırmaq, keçmişin bütün külünü onun gözünə üfürmək lazımdır»;

**287. Amerikanın erməni nasiri Vilyam Sarayan:** «Yer üzündə tək bir erməni qalmış olsa belə, yenə də türkə qarşı müharibəyə qalxmaq hüququnu onun əlindən almağa heç kimin haqqı yoxdur»;

**Yenə orada** - «Mənim xalqımın mövcudluğu, varlığı Şərq üçün zəruridir. Mən bu böyük zəruriyyətə inanıram. O gərək özünün qeyri-xristian, yırtıcı qonşularını əhliləşdirsin. Əgər bu missiyanı yerinə yetirə bilmirsə, onun siyasi gücsüzlüyündən irəli gəlir. Bizim xalq nə qədər güclənərsə, yırtıcı Məhəmməd dünyasının əhliləşdirilməsi bir o qədər asanlaşacaqdır» («Ayrenok» qəzetinin 6 avqust 1984-cü il tarixli sayından);

**288. «Znamya truda» qəzetində dərc olunmuş bir məqalədə yazılır:** «1919-cu ildə İrəvanda hər yüz nəfərdən 15-i, orta hesabla hər saatda 1,6 adam ölmüşdü. Şəhərdə ölən azərbaycanlıların sayı 2241 nəfərdir (əslində azərbaycanlılardan ölənlərin sayı göstəriləndən daha da çox olmuşdur. Çünki onları bağda, bağçada, dağda-aranda, harada gəldi orada dəfn etmişlər - *Ə.Ə.)»;*

**289. 1920-ci il iyun ayının 29-da S.M.Kiruv Moskvada vurduğu teleqramda xəbər verir:** «Zəngibasarda üsyanı yatırarkən əsir düşmüş azərbaycanlılara divan tutmuşlar. Onların hamısını yerindəcə güllələmişlər. Daşnakların ağ terroru dörd ətrafı bürümüşdür»;

**290. Daşnak lideri Emin Frankyan 1920-ci ildə «Haraç» qəzetinin 106-cı sayında yazırdı:** «Bütün həyatımız başdan-başa erməniləşdirilməlidir. Dövrün hökmü belədir. Dövlətimizə, millətimizə, məmurlarımıza təklif olunan təkidli tələb belədir. Dilimiz və ruhumuz ikiqat erməniləşməlidir»;

**291. Arşavir Melikyan «Karmir astğ» («Qırmızı ulduz») qəzetinin 1922-ci il tarixli 74-cü sayında yazırdı:** «Daşnak hökuməti qonşularla dinc yanaşı yaşamaq əvəzinə yumruğunu düyünlədi, aləmə meydan oxumağa başladı, millətçilik azarından əl çəkmək istəmədi»;

**292. B.Boryan yazırdı:** «Siyasi xadimlərimiz erməni daşnak hökumətini ölkəni idarə etməkdən ötrü deyil, müsəlmanları qırmaqdan ötrü yaradıblar»;

**293. Lord Kerzonun 1920-ci ilin mart ayında İngiltərə İcma palatasındakı çıxışından:** «...Siz erməniləri səkkiz yaşında pak və məsum bir qız kimi təsəvvür edirsiniz. Bu fikirdə çox yanılırsınız. Halbuki ermənilər özlərinin son

vəhşi davranışları ilə nə qədər qan tökən bir xalq olduqlarını qeyd-şərtsiz isbat etmişlər»;

**294. Daşnaksutyun partiyasının orqanı olan «Horizon» qəzeti 7 sentyabr 1912-ci il tarixli 196-cı sayında yazırdı:** «Türk dövlət xadimləri qoy yaxşı bilsinlər ki, bundan sonra ermənilər üçün nə türk hökumətinin bir sıfır boyda qiyməti olacaq, nə də türk dövlətinin»;

**295. M.Şatryan və M.Fetvaçyan 1916-cı ildə nəşr etdirdikləri «Erməni könüllüləri» toplusunda yazırdılar:** «Rus-türk müharibəsi ermənilərin istəklərini getdikcə artırırdı. Yeni-yeni kömək formaları tapırdılar. Könüllü dəstələri rus hökumətinin ixtiyarına verir və bütün xərcləri ödəyirdilər»;

**Yenə orada** - «Döyüş meydanını əla tanıdıqlarından, düşmənin dili və sirrini, vuruş üslubunu çox yaxşı bildiklərindən, həm də onlarda türk dövlətinə qarşı hədsiz kin və nifrət hissi oyandığından Rus hökuməti erməni silahlı könüllülər dəstələrindən məharətlə istifadə edirdi»;

**Yenə orada** - «Vanın alınması, Şataq və Moksin işğal edilməsi, Dilmandakı müqavimətin təşkili, Bitlisin alınması könüllü dəstələrə və onların rəhbərlərinə şöhrət gətirdi. Son illər ermənilər heç vaxt bu qədər böyük hərbi qüvvə ilə çıxış etməmişlər»;

**296. I Kommunist İnternasionalının II konqresinə Ermənistan KP tərəfindən təqdim olunmuş sənəddə deyilir:** «Daşnak siyasətçiləri türk kəndlərini yandırır, dağıdır, türk kəndlisini zorla öz ata-baba yerindən qovur, boşaldılıb boş qalmış bu yerlər və rayonlarda Türkiyədən gələn erməniləri yerləşdirirdilər. Beləliklə, onlar «Həmidiyə» sayağı yeni bir zümrə yaratmağa cəhd göstərirdilər» (MLİ Elm. Fil.F.33, siy.2, iş 1139, v.10);

**297. Ermənistan Respublikasının İkinci qəza bölgəsinin komissarı Ter Gevorkyan öz rəisinə yazırdı:** «Cənab komissar, Sizə məlumat verir, həm də xahiş edirəm, yaranmış bu dözülməz vəziyyətə son qoymaq üçün uluxanlılara icazə verəsiniz, sakitcə gedib öz bağ-bağçalarında başlarını aşağı salıb işləsinlər ki, ölkə xam torpağa dönməsin, bundan gələn təhlükəyə daha bir yeni təhlükə əlavə olunmasın» (Erm. MDTA F.33, siy. 2, İş 684, v.61);

**298. Qırmızı Ordu komandirləri Tozarski və Sviridovun cəbhə xəttindən S.Orcenikidzeyə göndərdikləri raportdan:** «Şərur rayonunun Araz sahilində Uluxanlı stansiyasından ta Naxçıvanadək müsəlmanların yaşadıqları bu yerlər, əslində çəmənzar bir gülüstan idi. İndi bura ölüm və qoxusaçan meyitlər vadisinə dönüb. Şərurun bütün əhalisi 1918-1920-ci illərdə Ermənistan Respublikasının hökumət qoşunları tərəfindən silah gücünə məhv edilmiş, sağ-salamat qalanları da Türkiyəyə qovulub. Onların bütün əmlakları hazırda Nijdenin yuvasını mühafizə etməkdə olan mauzerçilər tərəfindən talan olunub. Bəşəriyyət tarixinə hələ indiyədək belə vəhşilik bəlli deyil» (MLİ Elm. Fil.F.85, siy.13, İş.75, v.2);

**299. Rus zabiti Boris Pristijevski 1920-ci il oktyabr ayının 22-də keçirdiyi mətbuat bürosunda demişdir (MDYTA F.28, İş 76, v.55):** «Qoşunumuz azərbaycanlılar yaşayan bir kəndə çatdı. Əhali əvvəlcədən çıxıb getmişdir. Kənddə qalan cəmi bir neçə nəfər idi. Əsgərlər dərhal onları qətlə yetirdilər. Bu əsgərləri heç bir vəchlə sakitləşdirmək olmurdu. Basarkeçər kəndindən 20 km aralı, Göyçə gölünün sahilində Sişqaya adlı bir tatar kəndi var. Bu kəndin sakinləri ermənilərə itaət göstərəcəklərinə söz vermişdilər. Martın sonunda erməni qoşunu kəndi tutdu. Qoşuna polkovnik Hələbyan başçılıq edirdi. Kişiləri bir dama, qadınlarla uşaqları başqa bir dama yığdılar. Sonra hamısını qılıncdan keçirdilər. Həmsöhbətiniz avqust ayında da burada olub, hələ də küçələrdə qalmış meyitləri öz gözləri ilə görüb»;

**300. 1925-ci ildə Gülşer yazırdı:** «Ermənilər əsasən müsəlmanlarla məskun olan məhəllələrə soxularaq rastlarına gələn hər kəsi öldürür, qılıncla parçalayır, süngü ilə dəlmə-deşik edir, evləri yandırır, uşaqları yanmaqda olan evlərin alovu içinə atır, onların diri-diri yanmalarına tamaşa edirdilər. Üç-dörd günlük südəmər körpələri süngülərin ucuna taxırdılar. Qırğından bir neçə gün sonra bir çuxurdan 87 müsəlman cəsədi çıxardılar, qulaqları, burunları kəsilmişdi, qarınları yarılmışdı, cinsiyyət orqanları doğranmışdı. Ermənilər uşaqlara acımadıqları kimi, uşaqlı qadınlara da acımırdılar»;

**301. Q.A.Ezov «Snoseniya Petra Velikoqo s armyanskim narodom. Dokumentı» (səh.87) əsərində yazır:** «İ.Ori belə hesab edir ki, Şamaxı şəhəri İrəvan ərazisinə qoşun yeritmək üçün bir növ açardır. Əgər Şamaxı şəhərini ruslar ələ keçirsələr, onda İran müsəlmanlarını da tezliklə oradan təmizləmək mümkün olacaqdır. Bununla da İrəvan ərazisini zəbt etmək üçün yol açılacaqdır»;

**302. «Alik» qəzetinin 1963-cü il tarixli 299-cu sayındakı icmal məqaləsində yazılır:** «Daşnakların fikrincə, hər şey, erməni ruhundan başqa, zaman və məkan axarındadır. Bütün millətlərin tarixi zaman və məkan daxilində yazılır və dərk edilir. Təkcə ermənininin ölməz ruhudur ki, zaman və məkana daxil olmur»;

**303. Doktor Andreasyan 1969-cu ildə yazırdı:** «Osmanlı türk imperiyasının hər dövründə biz ermənilər dövlətə xidmət etmiş, ən yüksək vəzifələr tutmuş və xoşbəxt yaşamışıq. Həm Osmanlı dövründə, həm də cümhuriyyət dövründə heç vaxt özümüzü yabançı hiss etməmişik, türklər bizə heç vaxt yabançı gözü ilə baxmamışlar. Ancaq içimizdən çoxlu xainlər də çıxmışdır»;

**304. Prof. Karapet Arman 13 iyul 1978-ci ildə yazır:** «Osmanlı tarixinin hər dövründə bir erməni paşasına, bir erməni səfirinə, bir erməni müdirə rast gəlmək mümkündür. Təəssüf ki, bir çox xarici dövlətlər ermənilərin bu bəxtiyarlığını qısqanmış və öz şəxsi mənafeləri üçün türk-erməni qardaşlığını pozmağa çalışmış, bizim xain ermənilərə silah vermiş, onların arasına agentlər, missionerlər, zabitlər göndərmiş və Anadoludakı ermənilərə xəyali vədlər verərək onları üsyana təşviq etmişlər»;

**305. Erməni taciri Hakop Keşişyan:** «24 aprelin Beyrutdakı erməni kilsəsi tərəfindən genosid günü kimi elan edilməsi hamımızı dərin kədərə qərq etdi. Çox yaxın bir keçmişdə Türkiyənin Xarici İşlər naziri Qabriel Noradunkyan deyildimi? İmperiya dövründə Maliyyə və Xəzinə naziri Hakop paşa deyildimi? Poçt və Teleqraf naziri Oskan əfəndi deyildimi?..

Ey qafillər, siz hansı keçmişdən danışırsınız? Biz hansı keçmişi unutmuşuq? Keçmişdə heç bir soyqırımı hadisəsi olmayıb. Dövlətin qanunlarına qarşı çıxan bütün vətəndaşlar kimi ermənilərə o zaman qanunlara uyğun olaraq bəzi cəzalar verilmişdir, vəssalam!»;

**306. Görkəmli erməni yazıçısı Torqom Stepanyan:** «Dünya ictimaiyyəti qarşısında məmnuniyyətlə ifadə edə bilərik ki, biz ermənilər yüzillər boyunca türklərlə qardaş kimi yaşamışıq. Adət-ənənələrimiz, yeməklərimiz, mahnılarımız baxımından bir-birimizlə o qədər qaynayıb-qarışmışıq ki, sanki bir cəmiyyət olmuşuq. Türk-erməni qardaşlığı XI əsrdən başlanır. 1064-cü ildə bizi bizanslılar qırıb-çatmaq istəyirdilər. O zaman ermənilər mərhəməti, insanpərvərliyi və qonaqsevərliyi ilə bütün dünyada məşhur olan türklərin himayəsinə sığındılar. Türklər bizləri qorudular. Biz türklərlə qaynayıb-qarışdıq. Əbəs yerə deyil ki, bu gün dünyanın dörd tərəfinə səpələnmiş ermənilərin katolikosu birinci Vazgenin soyadı Balçıyandır. Halbuki o, özü Rumıniyada anadan olmuşdur. Reallıq budur ki, biz burada - Türkiyədəki kilsə və məktəblərimiz də hər cür mənasız kinlərdən uzaqdır, azad bir mühitdə yaşayırıq»;

**307. Qrand Matevosyan:** «Qəlbində intiqam hissi yoxsa, sən erməni deyilsən»;

**308. Vahan Papazyan:** «Əgər sən ermənisənsə hər gün, hər an bu barədə düşünməli, soyqırımı ilə bağlı bir məktub yazmalı, bir qapı döyməlisən»;

**309. Zori Balayan:** «Torpağın hər qarışı uğrunda vuruşmaq gərəkdir. Vuruş üçün silah lazımdır. Əldə silah döyüş meydanına atılmaq gərəkdir»;

**Zori Balayanın Ermənistan SSR Ali Sovetinin sessiyasındakı çıxışından («Kommunist» qəzeti, İrəvan, 27.06.89.):** «Bir daha ölkədə Qarabağ faciəsinin təkrar olmaması üçün təcili surətdə SSRİ Ali Sovetinin və Ermənistan SSR Ali Sovetinin himayəsi altında Naxçıvan Muxtar Respublikasında ermənilərin və rusların genosidinin təşkilatçılarını mühakimə etmək lazımdır»;

**Zori Balayan 1996-cı ildə nəşr etdirdiyi «Ruhumuzun canlanması» kitabında yazır:** «13 yaşındakı türk uşağının başından, sinəsindən və qarnından dərisini soydum. Saata baxdım, türk uşağı 7 dəqiqə sonra qan itirərək öldü. İlk sənətim həkimlik olduğuna görə humanist idim. Ona görə də türk uşağına etdiyim bu əməllərə görə də özümü xoşbəxt saymadım. Amma ruhum xalqımın bir faizinin belə qisasını aldığı üçün sevincdən qürurlanırdı. Dostum Xaçatur daha sonra ölmüş türk uşağının cəsədini hissə-hissə doğradı və onu türklə eyni kökdən olan itlərə atdı»;

**Z.Balayanın çıxışından:** «Ermənilərin xoşbəxtliyi azərbaycanlıların ölümündən başlayır»;

**Z.Balayan «Yol» kitabında yazır:** «... yaddan çıxarmayın, kinli olun və həmişə yadınızda saxlayın ki, erməniləri məhz «türk barbarları» məhv etdilər, onların ucbatından siz bütün dünyaya səpələnmisiniz»;

**310. A.İoonnisyan:** «İrəvan şəhəri əhalisinin dörddə bir hissəsini ermənilər, əksəriyyətini azərbaycanlılar təşkil edirdi»;

**311. A.Burnotyan:** «İndi Ermənistan adlandırılan ərazidə XIX əsrin sonunadək ermənilər azlıq təşkil etmişlər»;

**312. 1843-cü ildə İrəvana gəlmiş Dübüa-de-Monperro yazırdı:** «İrəvan Üçtəpənin ətəyində türklərin əli ilə salınan şəhərdir. Şəhərin üzük qaşı olan qalada qubernator otururdu»;

**313. 1880-ci ildə İrəvana gələn arxeoloq Uvarov yazırdı:** «Möhtəşəm qaladan qalan yalnız Sərdarın şərq üslubunda tikilmiş, güzgüsü-bəzəyi, zövqü-səliqəsi ilə insanı valeh edən salonudur. Bu salon bəzəkli-düzəkli çay qutusuna bənzəyir. İlahi, sini xonça kimi bəzəkli imarətləri necə yerlə yeksan ediblər? Əsrlər boyu ucaldılmış abidələri yer üzündən silmək, yox etmək üçün gör nə qədər əlləşmiş, nə qədər səy sərf etməli olmuşlar?!»;

**314. «Русская мысл» qəzeti 9 mart 1919-cu il tarixli sayında yazırdı:** «Andronikin dəstəsinin Zəngəzurdakı quldurluğu nəticəsində azərbaycanlıların yaşadığı 119 kənd dağıdılmış, 50 mindən artıq qaçqın yurdunu-yuvasını tərk etməyə məcbur olmuşdur»;

**315. 14 dekabr 1917-ci il tarixdə daşnak generalı Tayqulaq Andronikin yaydığı müraciətindən:** «Əgər siz məni Ermənistanın oğlu sayırsınızsa, mən sabah Ərzuruma yola düşəcəm, türkləri, kürdləri və yəhudiləri qıracağam. Bu yoldan məni heç kəs döndərə bilməz»;

**316. M.A.Skibitskinin 1899-cu ildə Tiflisdə nəşr etdirdiyi «Materialı dlya ustroystva kazennıx letnix i zimnix pastbiş i dlya izuçeniya skotovodstva na Kavkaze» kitabında oxuyuruq:** «Qarabağın yay otlaqları Qarabağ adlanan, 1828-ci ildə Rusiyaya birləşənədək xüsusi Qarabağ xanlığını təşkil edən torpaqlarda yerləşmişdir. O... uzunluqda 102,4 verst,.. enlikdə isə 146 verst uzanır (nöqtə yerlərində dərəcə, dəqiqə və saniyələrlə Qarabağın dəqiq coğrafi koordinatları göstərilir *-Ə.Ə.).* Təsvir edilən yaylaqlardan istifadə edənlərin ümumi sayı 452 kənd arasında paylanmış 26038 təsərrüfatdır. Onlardan 4048 təsərrüfat Cəbrayıl qəzasının 81 kəndində, 5064 təsərrüfat Cavanşir qəzasının 102 kəndində, 331 təsərrüfat Yelizavetpol qəzasının 4 kəndində, 9432 təsərrüfat Zəngəzur qəzasının 175 kəndində, 5223 təsərrüfat Şuşa qəzasının 81 kəndində və 1940 təsərrüfat Cavad qəzasının 9 kəndində yaşayırdı. Tayfa tərkibinə görə dediyimiz yaylaqlar azərbaycanlılara, kürdlərə, ermənilərə və tatlara bölünür. 18919 təsərrüfatdan ibarət azərbaycanlılar - türklər (72,6%) bütün Qarabağ ərazisində səpələnmiş 333 kənddə, 3510 təsərrüfatdan ibarət kürdlər (13,5%) Zəngəzur

qəzasının Həkərə və Bərgüşad çaylarının çökəkliyində, Tərtərdə və Tuxtuda, 3408 təsərrüfatdan ibarət ermənilər (13%) Cavanşir, Zəngəzur və Cəbrayıl qəzalarının yüksəklik hissəsində 47 kənddə yaşayırdı»;

**317. Daşnak yazarları Moskvada nəşr etdikləri «Armyanski vestnik» qəzetinin 10 oktyabr 1990-cı il tarixli nömrəsində yazırlar:** «Fəhlə Anaid Şahrimanyan avqust ayının 7-də öz sahəsini suvararkən səmada uçan şar ona yaxınlaşmışdır. Şardan bir adam çıxmış və özünü təqdim etmişdir ki, 9-cu qalaktikanın sakinidir. 9-cu qalaktikanın sakini Anaidlə erməni dilində hal-əhval tutmuş və sonra isə demişdir: «Bilirsinizmi, Şuşa xalis erməni şəhəri olmuşdur və yenidən erməni şəhərinə çevriləcək»;

**318. Görkəmli rus şairi Y.Yevtuşenko «Sovetskaya kultura» qəzetinin 11 mart 1989-cu il tarixli sayında yazırdı:** «Tarixdə elə bir xalq yoxdur ki, hətta onların arasında nə vaxtsa qan tökülmüş olsa da, labüdən digər xalqa düşmən kəsilsin. Bütün xalqların düşməni eynidir. Müharibələr, kortəbii fəlakətlər, qarşılıqlı etimadsızlıq, azadlığın olmaması, süründürməçilik kimi ümumi düşmənlər azdırmı ki, xalqlar da bir-biri ilə düşmən olsun»;

**319. İngilis diplomatı 1919-cu ildə Londona göndərdiyi məktubda yazırdı:** «Bütün erməni iğtişaşları və vuruşmaları o vaxt dayandırıla bilər ki, onların arasından bir neçə siyasi intriqantlar, təşviqatçılar və provokatorlar götürülsün» (Azərbaycan SSR MDOJA, f.894, siy. 10, İş 103,v.10-13);

**320. «Komsomolskaya pravda» qəzetinin 25 fevral 1992-ci il tarixli sayındakı «Qarabağ - müharibənin beşinci ili» adlı baş məqaləsində oxuyuruq:** «Öz müqəddəratını təyin etmək anlayışının milli azlıqların öz dövlətini yaratmaq hüququnun üstünlüyü kimi başa düşülməsinin son dərəcə mücərrədliyi nə milli azlıqların mədəniyyətinin qorunub saxlanmasına, nə dünya birliyinin diqqətinin insan hüquqlarına qeyd-şərtsiz əməl olunmasına yönəldilməsinə, nə də inteqrasiyaya və əməkdaşlığa deyil, məhz adamları ayıran sərhədlər naminə getdikcə artan qırğına labüd surətdə gətirib çıxaracaq və artıq gətirib çıxarmışdır. Elə Ermənistanın özündə milli azlıqlar əslində qalmamışdır, azərbaycanlıların ardınca kürdləri də «müvəffəqiyyətlə» pərən-pərənə salıb qovurlar...»;

321. **1991-ci ilin yanvar ayında İstanbul jurnalisti Murad Arvasın «Respublikadakı çoxminlik ordu kimə qarşı yaradılmışdır?» sualına Ermənistanın mətbuatla əlaqələr üzrə dövlət məmuru Aşot Nazaryanın cavabı:** «Türklər və ermənilər yüzillər ərzində mehriban yaşamışlar. Erməni kəndlisinin türk kəndlisi ilə bölməli heç nəyi yoxdur. Birinci Dünya müharibəsində rus fitnəsinə uyaraq Rusiyanın və Qərbin komandası ilə Türkiyəyə qarşı müharibəyə girdik. Nəticədə erməni xalqı genosidə məruz qaldı və Türkiyə ərazisindən qovuldu. Biz yeni dövlət qurduq, bizi diasporumuz və Qərbdəki dostlarımız müdafiə edir və bizim əsas düşmənimiz Sovetlər, Sovetlər İttifaqıdır»;

**322. Xocalı faciəsinə şahidlik edən «İzvestiya» qəzetinin müxbiri V.Belıx şəhadət verir:** «...Vaxtaşırı Ağdama diri girovlara dəyişdirilmiş

azərbaycanlıların meyitlərini gətirirlər. Belə şeyi dəhşətli yuxularda da görmək mümkün deyil... oyulmuş gözlər, kəsilmiş başlar, çıxarılmış skalplar, qoparılmış qulaqlar... kəndirlə zirehli maşının arxasına bağlanılaraq uzun müddət sürüklənmiş, bir-birinə sarınmış bir neçə meyit...vəhşiliyin həddi-hüdudu yoxdur...»;

**323. Xocalı qətliamı ilə bağlı girovların dəyişdirilməsi işinə cəlb edilmiş hərbi təyyarəçi, mayor Leonid Kravetsin xatırlaması:** «...Fevralın 26-da mən Stepanakertdən yaralıları çıxarıb Əsgəran darvazasından geri qayıdırdım, aşağıda gözümə nəsə ləkələr dəydi. Aşağı endim və birdən bort mexanikim qışqırdı: «Baxın, orada qadınlar və uşaqlardır». Elə mən özüm də yoxuşa səpələnmiş 100-ə yaxın meyit gördüm, onların arasında əlisilahlılar gəzişirdilər. Sonra biz ora uçduq, meyitləri götürməyə cəhd etdik, yerli Xocalı milis kapitanı da bizimlə idi, o, burada özünün dördyaşlı oğlunu tanıdı... başı əzilmişdi... Və dəli oldu. Bizi atəşə tutmazdan əvvəl imkan tapıb götürdüyümüz başqa bir uşağınsa başı kəsilmişdir. Hər tərəfdə şikəst edilmiş qadın, uşaq, qoca meyitlərini gördüm...»;

**324. Xocalı faciəsinin tükürpədici mənzərəsinin şahidi və iştirakçısı olmuş erməni mənşəli beyrutlu müəllif Davud Xerriyanın «For the Sake of Gross» adlı kitabında oxuyuruq:** «...Martın 2-də meyitlərin yandırılması ilə məşğul olan «Qaflan» erməni qrupu yüzdən artıq azərbaycanlı meyiti yığdı və Xocalıdan təxminən bir kilometr qərbdə yandırdı...sonuncu maşında mən alnından və əllərindən yaralanmış 10 yaşlı qız gördüm, aclığa, soyuğa, aldığı yaralara baxmayaraq bu sir-sifəti gömgöy göyərmiş uşaq hələ sağ idi. O yalnız nəfəs alırdı. Tezliklə Tiqranyan adlı əsgər bu hərəkətsiz qızı götürüb meyitlərin üstünə tulladı...sonra onlara od vurdular»;

**325. «Sandy Times» qəzetinin reportyoru Tomas Tolts yazır:** «Xocalı yalnız azərbaycanlıların yaşadığı şəhər olmuşdur. Sülh vaxtında kənd təsərrüfatı ilə məşğul olan minlərlə azərbaycanlının şəhərdə evi var idi. Keçən həftə yer üzündən silinmişdir»;

**326. Fransalı müxbir Janiv Yunet 2 mart 1992-ci ildə dünyaya bəyan edirdi:** «Biz Xocalı faciəsinin şahidi olduq. Yüzlərlə cəsəd gördük. Bunların arasında qadınlar, qocalar, uşaqlar və şəhərin müdafiəçiləri var idi. Sərəncamımıza vertolyot verilmişdi. Göydən gördüklərimizi kamera ilə çəkirdik. O zaman ermənilər vertolyota atəş açdılar, biz çəkilişi yarımçıq buraxaraq geri qayıtmaq məcburiyyətində qaldıq. Mən müharibə haqqında çox şey eşitmişdim, alman faşistlərinin qəddarlığını oxumuşdum. Ancaq ermənilərin məzlum xalqı və 5-6 yaşındakı uşaqları öldürərkən etdikləri vəhşiliklər faşistləri belə, kölgədə qoyurdu. Biz xəstəxanada, vaqonlarda, hətta uşaq bağçalarında və məktəblərdə, siniflərdə çoxlu yaralı gördük»;

**327. 1992-ci il mart ayının 3-də Bi-Bi-Si Xocalı soyqırımı haqqında məlumat verirdi:** «Hadisə yerində olan müxbirimiz 100-dən artıq azərbaycanlı kişi, qadın və uşaq daxil olmaqla cəsədlər gördüyünü və bunların başlarına yaxın məsafədən atəş açılaraq öldürüldüyü haqqında məlumat verdi»;

**328. «Finansial Times» qəzeti yazırdı:** «Ermənilər Ağdama gedən qaçqınları atəşə tutdular. Azərbaycanlılar gəldikdə 1200 cəsəd saydılar. Livandan gələn reportyor, zəngin ermənilərin Qarabağa silah və könüllü göndərdiklərini təsdiq edir»;

**329. Erməni mənşəli avropalı jurnalist yazırdı:** «Ermənilər Xocalıda qətlə yetirdikləri 100 nəfəri yan-yana düzərək körpü qurdular. Mən bu körpüdən - cəsədlərin üzərindən keçərkən ayağımı körpə bir uşağın sinəsinə basanda elə titrədim ki, fotoaparatım, bloknotum, qələmim yerə düşərək qana bulaşdı. Özümü tamam itirdim, bədənim titrədi»;

**330.«Vaşinqton Post»un müxbiri yazırdı:** «Dağlıq Qarabağ qurbanları Azərbaycanda torpağa verildilər. Qaçaraq canını qurtaranlar ermənilərin Xocalıya hücumunda yüzlərlə insanın öldüyünü söyləyirlər. 7 adamın cəsədi bu gün göstərildi. Onların ikisi uşaq, üçü qadındır. 120 qaçqın Ağdam xəstəxanasındadır, vücudlarında çox dərin yaralar vardır»;

**331. «Le Monde» qəzeti yazırdı:** «Ağdamda olan xarici qəzetçilər Xocalıda öldürülmüş qadın və uşaqlar arasında 3 nəfərin başının dərisinin soyulduğunu, dırnaqlarının çıxarıldığını görmüşlər. Bu Azərbaycan təbliğatı deyil, həqiqətdir».

**332. «The Times» qəzeti yazır:** «Ermənilər yüzlərlə qaçqın ailəsini qətlə yetirdilər. Ermənilərin əlindən sağ qurtara bilənlər 450-dən çox azərbaycanlının öldürüldüyünü və onların çoxunun qadın və uşaq olduğunu söyləyirdilər. Yüzlərlə, həlta minlərlə Xocalı sakini itkin düşmüşdür».

**Yenə orada** - «Qətliam məlum olmuşdur. Dağlıq Qarabağın yamaclarında aralarında qadın və uşaqlar da olan 60-dan artıq cəsəd tapılmışdır. Bu isə ermənilərin azərbaycanlı qaçqınları qətlə yetirdikləri haqqındakı xəbərlərin doğru olduğunu göstərir. Hələ itkin düşmüş yüzlərlə qaçqın vardı»;

**Yenə orada** - «Meyitlərin çoxu tanınmaz hala salınmışdır. Yalnız kiçik bir uşaq qalmışdır»;

**333. ABŞ Konqresində Azərbaycan üzrə işçi qrupun həmsədri Bill Şuster Avropa Şurası Parlament Assambleyasının 324 saylı bəyannaməsini xatırlayaraq Nümayəndələr Palatasının üzvlərinə müraciət edirdi:** «Xocalı faciəsini bəşəriyyətə qarşı cinayət adlandırıram və sizi bu faciəni unutmayan azərbaycanlılara qoşulmağa çağırıram»;

**334. «Krasnaya zvezda» qəzeti özünün 11 mart 1992-ci il tarixli sayında yazırdı:** «Sovet ordusunun 366-cı motoatıcı alayı hərbi dairə komandanlığının əmr və göstərişlərinin əksinə olaraq Xocalıda fevral hadisələri zamanı əməliyyatlarda iştirak etmişdir. Şəxsi heyət oradan çıxarılarkən alayın desantçılarında külli miqdarda rus pulu və ABŞ dolları aşkar edilmişdir. İkinci motoatıcı batalyonun komandiri Seyran Oqanyan və alay komandiri podpolkovnik Yuri Zarviqorov əlbir olaraq yaraqlılara yüzə yaxın döyüş texnikası, avtomat və pulemyotlar, sayı-hesabı bilinməyən döyüş sursatı saxlamışlar»;

**335. 1992-ci il mart ayının 3-də general-polkovnik V.Pyankov Rusiya parlamentinin deputatları qarşısında çıxışında demişdir:** «366-cı motoatıcı alay Xankəndindən çıxarkən 103 nəfər hərbçi erməni tərəfinə keçmişdir, özü də əliboş yox, bütöv bir döyüş arsenalı ilə»;

**336. Rus zabiti İ.Karabelnikov yazır:** «Birinci batalyonun qərargah rəisi, mayor Abram Çitçiyan 13 nəfərlik Babayevlər ailəsini gülədən keçirib. Buna görə ona Fransa erməni diasporu tərəfindən 150 min dollar pul və ən böyük təltif sayılan «Kilsə mükafatı» verilib»;

**337. NATO-nun keçmiş Baş katibi Jozep Lune:** «Avropalıların bildikləri yeganə şey erməni iddialarıdır. Birinci Dünya müharibəsində ermənilərin nə qədər türk öldürdüyündən isə heç kəsin xəbəri yoxdur»;

**338.Amerika tarixçisi mister Karti yazır:** «Anadoludakı erməni varlığını anlamaq istəyən unutmamalıdır ki, erməni fəlakəti müharibənin törəməsi kimi Birinci Dünya müharibəsi və milli-azadlıq hərəkatı zamanı meydana çıxmışdır... Çoxu türk olan 2,5 mln. müsəlmanın da öldüyünü statistik məlumatlar göstərir. Ermənilərlə məskun olan yalnız 6 vilayətdə 1 mln.-dan çox müsəlman öldürülmüşdür»;

**339.Əvvəllər ABŞ konqresində ermənipərəstliyi ilə tanınan Larri Smit yazır:** «Bu sahədə bəzi araşdırmalar apardım. Çox şey aydınlaşdı və fikrim tamamilə dəyişdi. Artıq hadisələrə elmi və gerçək bir mövqedən baxıram. Ermənilərin tarixi saxtalaşdırdıqlarını və həqiqəti öz məqsədləri istiqamətində dəyişdirdiklərini gördüm»;

**340.Daşnaksutyun partiyasının Misirdəki orqanı olan «Uyasber» qəzetinin baş məqaləsində yazılır:** «Millətlərin gələcəkdə böyük toqquşmalarında hamı bir nəfər kimi ya bilavasitə, ya da dolayı olaraq iştirak etməlidir. Biz birinci qrup millətlərə aidik».

**341. Akademik N.Y.Marr VI əsrdə yaşamış erməni müəllifi Zelob Qlakın əsərinə əsaslanıb yazırdı:** «Ermənilərin kökü Hindistandan bu vadiyə gəlib çıxan qaraçıların bir qolu olmuşdur»;

**342. Amerika alimi Djetti Makkarti «Erməni soyqırımı: mif və reallıq» kitabında yazır:** «Şərqi Anadoluda 1 mln.-dan artıq müsəlman əhalisi qırılmışdır, 2,5 mln. müsəlman bu fırıldağın qurbanı olmuşdur... Erməni soyqırımı isə olmayıb... Bax bu gün də erməni millətçiləri qatil babalarının qanlı yollarını davam etdirirlər. Lakin onlar çox yanılırlar. Heç bir işğalçı siyasətin yaxşı sonluğu olmur»;

**343. Tərtibatçıları sırasında erməni alimləri V.A.Ambarsumyan, İ.L.Knunyans, R.V.Tatevosov olan «Demoqrafiçeski ensiklopediçeski slovar» kitabının (10 iyul 1985-ci il, Moskva) 266-cı səhifəsində yazılır:** «Eramızın I əsrində bu region *(DQMV-Ə.Ə.)* Qafqaz Albaniyasının albanlar yaşayan Ərsak əyaləti olmuş, hətta e.ə.IX-X əsrlərdə region Alban çarlığının tərkibində qalmışdır.

Eramızın III-V əsrlərində isə bu regionda yalnız albanlar və türk qəbilələrindən olan Hunlar və Xəzərlər yaşamışlar;

**Yenə orada** - «İndiki azərbaycanlılar etnogenezdə yerli türk və alban qəbilələrinin birliyindən hələ yeni eramızdan bir min il əvvəl gəlmişlər» (səh 12);

**Yenə orada** - «Ermənilər bir millət kimi Fərat çayının şimal ərazisində (indiki İraq-Suriya zonasında - *Ə.Ə.)* əmələ gəlmiş, sonradan miqrasiya edərək İrəvan və Naxçıvan xanlığı daxilində yaşamışlar»;

**344. Rus ordusunun baş leytenantı Yuri Qirçenko öz gündəliyində (18 yanvar 1991-ci il) yazırdı:** «Ermənistandan DQ-a gələn boyeviklər (daşnak terrorçuları - *Ə.Ə.)* nəinki azərbaycanlıları, hətta rusları da girov götürüb qaytaranda əvəzində silah-sursat alırdılar. Onların xüsusi düzəldilmiş elə maskaları vardır ki, geyəndə ruslardan seçilmirdilər»;

**Yenə orada** - «Hərbi hissələrimiz döyüş sursatlarını ermənilərə qoyub gedirdilər. Onlara müharibəni davam etdirmək lazım idi. Biz isə yalançı döyüş aktları tərtib edərək hərbi texnikanı hər iki tərəfə satırdıq. Bunu nəinki 4-cü ordunun komandirləri, hətta Zaqafqaziya hərbi dairəsinin komandanlığı da qeyri-rəsmi qaydada bilirdi» (dekabr 1991-ci il);

**Yenə orada** - «Xocalıya hücum planı çox məxfi hazırlanmışdır. Əvvəlcə şəhər mühasirəyə alındı. Burada xeyli silahlı OMON-çu var idi. Odur ki, Ağdam istiqamətində bir dəhliz açıldı və səsucaldanla silahsız çıxmaq şərti ilə OMON-çulara getmək icazəsi verildi. Dəhlizlə OMON-çularla bərabər əhali də çıxmağa başladı. Onlar koridorun sonuna çatdıqda əsl qırğın başladı. OMON-çular qırıldıqdan sonra uşaq, qadın, qoca olmasından asılı olmayaraq, bütün tutulanların diri-diri gözləri çıxarılır, qulaqları kəsilir, dərisi soyulurdu. Qaçanları Gülablı kəndinə qədər təqib edib qırdılar. Dəhlizdə 200-dən çox, şəhərdə isə 300-dən çox azərbaycanlı əsir götürüldü» (25-26 fevral 1992-ci il);

**Yenə orada** - «20 may 1992-ci il. Xocalının və Şuşanın işğalından sonra 366-cı motoatıcı alayın bütün hərbi texnikası ermənilərə qaldı. Əsgər və zabitlərimiz ancaq vertolyotlarla əvvəlcə Gəncəyə, sonra isə Tiflisə daşındılar. Podpolkovnik Azarov «biz dinc əhalini qırdıq» deyərək çox həyəcan keçirirdi»;

**345. 30 oktyabr 1994-cü ildə Bakıda olan BMT-nin Baş katibi Butros Butros Qali bəyan edir:** «İşğalçı qoşunlar Dağlıq Qarabağdan təcili və şərtsiz olaraq çıxarılmalıdır»;

**346. 29 iyun 1995-ci ildə Bolqarıstanın prezidenti Jelye Yeley demişdir:** «Bolqarıstan Dağlıq Qarabağ məsələsinin ədalətli həllinə kömək göstərmək üçün bu səylərdən başqa digər formalarda da iştirak etməyə hazırdır»;

**347. 25 mart 1997-ci ildə Ukraynanın prezidenti Leonid Kuçma demişdir:** «Azərbaycanın ərazi bütövlüyünə ciddi əməl edilməsinin zəruriliyindən başqa bizim ayrı nöqteyi-nəzərimiz olmamışdır və yoxdur»;

**348. Ermənistan Respublikası Səhiyyə Nazirliyinin baş psixiatrı Samvel Torsyan «Ekspress» qəzetinin 08 dekabr 2004-cü il tarixli nömrəsində**

**məlumat verir:** «İndi burada (Ermənistanda - *Ə. Ə.)* hər 4 ermənidən biri ruhi xəstədir, ermənilər arasında intihar halları 8 dəfə artmışdır. Dəqiq məlumata görə 12 deputatın və 4 nazirin ruhi xəstə olub-olmaması yoxlanmalıdır»;

**349. Avropa Şurasının baş katibi Terri Devis Ermənistanın «A1+» telekanalına müsahibəsində demişdir («Azadlıq» qəzetinin 24-25 iyun 2007-ci il tarixli 134-cü sayına bax):** «Bu gün DQ işğal edilmiş ərazidir və Azərbaycanın ayrılmaz hissəsidir. Mən Xəzəryanı ölkələrin, o cümlədən həm Azərbaycanın, həm də Ermənistanın ərazi bütövlüyünün tərəfdarıyam. Lakin DQ Ermənistanın ərazisi deyil. Gürcüstanda da ermənilər yaşayır, bu o demək deyil ki, Gürcüstanı Ermənistanın ərazisi hesab etməliyik»;

**Söz ardı:** Əziz oxucu, erməniləri ittiham edən qeyri-türk müəlliflərinin boy sırasını qat-qat artırmaq olar. Mənim topladığım bu siyahı, əlbəttə, tam deyil. Dəryada damladır. Sivil dünyamız tarixi həqiqətlərə sadiq qalan alimlərdən xali deyildir. O cümlədən N-de-Bişaf, Yan-Pol-Ru kimi fransız alimləri sübut edirlər ki, tarix heç bir erməni soyqırımını tanımır. Rumyantsev, V.Suvorov kimi rus tarixçilərinin də adını bu sırada çəkmək yetərlidir. Rus ədiblərindən Leskov «Soboryanax» romanında erməni psixologiyasını istehzayla qamçılayır, onların iç üzünü açır, layiqincə ifşa edir. Birinci Dünya miiharibəsinin iştirakçıları olmuş rus generalları Nikolayev və Bolxovitinov müvafiq olaraq 01 iyul və 09 iyul 1915-ci ildə qraf Vorontsov-Daşkova yazdıqları raportlarda erməni silahlılarının əliyalın türklərə qarşı törətdikləri vəhşiliklərdən söz açmışlar. Habelə, rus generalları Prjevalski və Odişelidze də erməni vəhşiliyindən təəssüfləndiklərini bildirmişlər. Doktor Xoreşonko isə 21 may 1918-ci il tarixli yazısında erməni daşnaklarının insanlığa yaraşmayan hərəkətlərindən bəhs etmiş və s. Bütün bunları nəzərə alaraq erməniləri ittiham edən qeyri-türk müəlliflərinin bütöv bir siyahısını tamamlamağı siz möhtərəm oxucuların öz ixtiyarına buraxıram.

## «ERMƏNİ MƏSƏLƏSİ» TORBADA PİŞİK MƏSƏLƏSİDİR. BU GÜN «ERMƏNİ MƏSƏLƏSİ» UYDURMA «ERMƏNİ SOYQIRIMI» ƏFSANƏSİNƏ KOMPENSASİYA EDİLİR

Nəinki «erməni məsələsi», həm də erməni milləti məfhumunun özü belə Avropa arenasında 1850-ci illərdən sonra işlənən ifadələrdir. Həmişə də rus-türk müharibələrinin (1855, 1859, 1864, 1866, 1870, 1877-ci illər) yekun nəticələrində sülh müqavilə və aktlarında səslənməyə başlamışdır. İlk dəfə isə söz olaraq Krım müharibəsində Türkiyənin Rusiya üzərindəki müvəqqəti qələbəsinin yekun sənədində, 1856-cı ildə keçirilən Paris konfransında ermənilərin hüquq və azadlıqlarına mülayim bir formada və Avropanın super dövlətlərinin maraqları çərçivəsində işarə vurulması ilə yazılı sənəddə öz əksini tapmışdı. Bu isə bəri başdan Rusiya və Avropanın xristian dövlətlərinin bir növ gələcəkdə Osmanlı

imperiyasının Anadolu torpaqları üzərində hərbi əməliyyatlara qərar verməsi demək idi. Onsuz da böyük dövlətlər Türkiyəni daha asanlıqla aradan götürmək, sıradan çıxarmaq üçün onun mərkəzdənqaçma qüvvələrini arayıb-araşdırmağa, tapıb gücləndirməyə, ölkəni içəridən zəiflətməyə çalışırdılar. Hər biri öz aləmində, öz növbəsində öz dövlətlərinin mənafeləri baxımından «erməni məsələsi» əsnasında siyasətlərini formalaşdırmağa və bundan bir dayaq nöqtəsi, təsir vasitəsi kimi istifadə etməyə can atırdılar. 1877-78-ci illərin rus-türk müharibəsində Türkiyənin məğlub olması Rusiyanın bu sahədə ilk rəsmi addım atması ilə nəticələndi. «Erməni məsələsi» adı 1878-ci il fevral ayının 19-da Rusiya ilə Türkiyə arasında Bolqarıstanın sahil qəsəbəsi olan San-Stefanoda bağlanan sülh müqaviləsinin 16-cı paraqrafına daxil edildi. Rusiyanın bu sahədə əməli fəaliyyətə keçməsi Qərb dövlətləri arasında əks-səda doğurdu. Zəif düşmüş Osmanlı imperiyasını parçalamaq, pay-pürüş etmək, daha çox pay mənimsəmək məqsədi ilə dünyanın altı nəhəng xristian dövləti diplomatiya siyasəti sahəsində, habelə silah gücüylə öz məqsədlərinə çatmaq uğrunda yarışa və vuruşa qalxdılar. İlkin olaraq isə hər biri özü-özlüyündə «erməni məsələsi»ndən Türkiyəyə qarşı əlverişli silah, təsir gücünə malik bir siyasət vasitəsi kimi istifadə etməyə önəm verdilər. Beləliklə, «erməni məsələsi» çar Rusiyasının, Qərbin imperialist dövlətlərinin və zamanın hökmüylə bu sayaq beynəlxalq status aldı. Xüsusilə İngiltərə, Fransa, Rusiya tərəfindən Şərq məsələsinin tərkib hissəsi kimi ortaya atıldı. Şərq məsələsi əsas etibarı ilə bu regionda, daha doğrusu, müsəlman dünyasında kiçik dövlətlər, tayfa dövlətləri yaratmaq, iri dövlətlərin meydana gəlməsinə qətiyyətli surətdə imkan verməmək, aralarında daim ziddiyyətlər yaratmaq, xüsusilə super dövlətlər sırasında dura biləcək güc şəklində çıxış etmələrinə əsla imkan verməmək siyasətinin məcmusudur. «Erməni məsələsi» də Osmanlı imperiyasının daxildən zəiflədilməsinə hesablanan bir siyasət oldu. Artıq bu dövrlərdə Rusiya liberal hərəkatının təsiri altında Moskva və Tiflis şəhərlərindəki erməni millətçiləri nəinki bu şəhərlərdə, habelə Türkiyənin özündə mətbuat və təşviqatçılar vasitəsilə ermənilər arasında «milli özünüdərkin oyanması» və hətta döyüşkən millətçilik təbliğatı aparmağa başlamışdılar. Erməni millətçiləri yaxşı dərk edirdilər ki, böyük dövlətlərin dəstəyi olmadan onlar nə dövlət qura bilər, nə də müstəqil bir dövlət kimi əsla köməksiz yaşaya bilməzlər. Bütün ümid və istəklərini böyük dövlətlərin onlara verə biləcəkləri şanslara dikirdilər. Bir sözlə, «erməni məsələsi»nin həm zahiri, həm də daxili mahiyyətində bir məqam - Türkiyənin süqutu həlledici istiqamət sayılırdı. Bu sahədə istər super dövlətlərin, istərsə də erməni millətçilərinin bədnam niyyətləri üst-üstə düşürdü. Bir tərəfdən də böyük dövlətlərin milli mənafeləri baxımından «erməni məsələsi»nə müdaxilə etmələrinə rəğmən əl qoymaları bu məsələni günü-gündən daha da mürəkkəbləşdirirdi. Rusiyanın Qara dənizi, Bosfor və Dardanel boğazlarını zəbt etmək səyləri «xristianları müsəlman Türkiyəsinin zülmündən xilas etmək uğrunda mübarizə» şüarları ilə pərdələnirdi. San-Stefano ilkin sülh müqaviləsinin 16-cı paraqrafına

görə Türkiyə erməni vilayətlərində dərhal lazımi islahatları həyata keçirməliydi. Və bu işlər görülüb qurtaranadək rus qoşunlarının Anadolu Türkiyəsində işğal etdikləri torpaqları öz əllərində saxlamaqda davam edəcəkləri nəzərdə tutulurdu. Rusların təşəbbüsü və təhriki ilə «erməni məsələsi» beynəlxalq toplantılarda müzakirə obyektinə çevrildi. Rusiya artıq Türkiyəni taqətdən salıb parçalamaq yolunda ilk addımını atdı. Xaç süngüsünə çevrilmiş «erməni məsələsi»ni katalizator rolunda oynatdı. Erməni millətçiləri isə Rusiyanın dəstəyindən istifadə edəcəklərində israrlı idilər. Müsbət nəticə əldə edəcəklərinə özlərində bir əminlik, yəqinlik hissi hasil edirdilər. Milli-siyasi müqəddəratı müstəqil təyin etmək məqsədi ilə Rus işğalına bel bağlayırdılar. Odur ki, həmin istiqamətdə təşviqat-təbliğat işini gücləndirdilər. Ermənilərin Rusiyadan kömək istəmələri türk-erməni münasibətlərini də kəskinləşdirdi. Türkiyə hökuməti ermənilərə münasibət məsələsində kəskin surətdə dönüş etdi. Halbuki türk hökuməti 1877-ci il rus-türk müharibəsinədək erməniləri nəinki təqib eləmirdi, əksinə adlı-sanlı ermənilərin böyük dövlət vəzifələri tutmalarına isti münasibət bəsləyirdi. Ermənilərin Rusiya işğalının xeyrinə etdikləri xəyanət Türkiyənin əleyhinə yönəlmiş vətəndaşlarının dövləti cinayəti idi. Hadisələr ermənilərin istəyincə davam etmədi. Şübhəsiz ki, Rusiyanın «erməni məsələsi»ndən təkbaşına istifadə edib Türkiyənin içərilərinə doğru real addımlar atması Qərb dövlətlərini qıcıqlandırmaya bilməzdi. Çar Rusiyasının bu niyyəti onun Yaxın Şərqdəki əsas rəqibi - İngiltərənin ciddi müqavimətinə tuş gəldi. Çar Rusiyasının «erməni məsələsi»ndən təkbaşına istifadə etmək cəhdi İngiltərə tərəfindən qətiyyətlə dəf edildi. İngiltərə erməni millətçilərinin də saqqızını oğurlamağa müvəffəq oldu. Çünki həmin dövrlərdə çar Rusiyası ermənilərin başını sığallasa da, bununla bahəm Zaqafqaziyada ruslaşdırma siyasəti də yeridirdi. Vaxtı ilə Rusiya «Asiyada ermənilərin müstəsna üstünlüklərə malik olacağı ərazi yaradılması» ideyasını irəli sürməsinə baxmayaraq, indi onun əleyhinə açıq-aydın əməli fəaliyyət göstərirdi. Rusiyanın Bolqarıstan məsələsində ağzı yanmışdı. Bolqarıstan çar Rusiyasının köməyilə azad edilsə də, indi çar Rusiyasının vassalına çevrilmək istəmirdi. 01 iyun 1878-ci ildə Berlin konqresində San-Stefano ilkin sülh müqaviləsinə baxılarkən İngiltərə öz istəyinə nail oldu. San-Stefano müqaviləsinin 16-cı paraqrafı Berlin konqresinin 61-ci maddəsi ilə əvəzləndi. Bu maddəyə görə, Türkiyə hökuməti erməni vilayətlərində lazımi islahatlar keçirməyə borclu olduğunu təsdiq edirdi. Lakin həmin islahatların həyata keçirilməsi üzərində nəzarət təklikdə Rusiyaya yox, Berlin konqresinin iştirakçısı olan altı böyük dövlətdən ibarət «birliyə» verilirdi. Berlin konqresinin qərarı erməni millətçilərinin də damağına şəkər əzib tökürdü. Milli erməni dövlətinin yaradılması uğrunda mübarizəyə təkcə Rusiya tərəfindən deyil, bütün böyük dövlətlər tərəfindən kömək göstəriləcəyi iştahlarını birə on qat artırırdı. İngiltərə diplomatiyası isə öz işini görürdü. Onun əsas məqsədi çar Rusiyasına özünün Yaxın Şərq siyasətində «erməni məsələsi»ndən təkbaşına istifadə etməsinə imkan verməmək idi və buna da nail oldu. Bu dövrdə İngiltərənin

Türkiyədəki şəxsi siyasətində ermənilər ona gərək deyildi, Türkiyə ilə gizli sövdələşməsi vardı. İngiltərə Türkiyəni Rusiyadan qorumaq müqabilində Türkiyədən Kipr adasını alırdı. Ermənilər isə xam xəyallarıyla baş-başa qalırdı. Çoxluğun nəzarəti əslində erməniləri Türkiyənin ixtiyarına buraxırdı. Türkiyə hökuməti erməni vətəndaşlarının xəyanəti və satqınlıqları ilə üz-üzə qalmışdı. Torbada pişik vardı. Sərhədləri Rusiyadan qorumaq üçün tədbirlər görməliydi. Türkiyə hökuməti qabaqlayıcı tədbirlər görməkdə qərarlı oldu. Erməni millətçiləri isə siyasiləşən nasionalist partiyalar yaradaraq, təşkilatlanmaq, mütəşəkkil şəkildə terror aktları həyata keçirmək və silahlı mübarizə aparmaq yoluna qədəm qoydular. İlkin olaraq «Armenakan» və «Qnçaq» partiyaları bu yolda təşəbbüs göstərdilər. Sonucda isə Daşnaksutyun meydana atıldı. Yarandığı gündən böyük dövlətlərdən kömək almaq ümidini itirən erməni-daşnak faşistləri Türkiyədə üsyanlar qaldırmağa başladılar. Ancaq onlar yaxşı bilirdilər ki, türk hökuməti ilə mübarizədə qalib gələ bilməzlər. Erməni-daşnak faşistlərinin qarşısında ilk və böyük əngəl - Anadolu türk yurdunu parçalamaq istəməyən Osmanlı türklüyü dururdu. Üsyanlar törətməkdə məqsədləri isə ancaq böyük dövlətlərin diqqətlərini «erməni məsələsi»nə cəlb etmək istəyi oldu. Böyük dövlətlər isə ancaq Türkiyə ilə bağlı problemləri ortaya çıxandan-çıxana «erməni məsələsi»ni yada salırdılar. Erməni müəllifi S.Makosyanın təbirincə desək, «erməni məsələsi» Avropa diplomatiyası üçün komediya, ermənilər üçün isə faciə idi». Avropanı ilgiləndirən erməni millətinin taleyi deyildi, «erməni məsələsi» onlara Türkiyənin həyat şirəsini sormaq üçün lazım idi. Erməni xalqı artıq Türkiyədə öz faciəsini yaşayırdı. Daşnaklar 1884-cü ildə Sasunda kortəbii şəkildə baş verən üsyanın siyasiləşən variantda davam etdirilməsinə yeni təkan verdilər. Əsas rolu ələ alan Daşnaksutyun partiyasının təxribat dəstələri, terror qrupları Asiya Türkiyəsinin ərazisini bürüyən üsyankar ocaqlar yaratdılar. 1895-ci ildə Zeytunda, 1896-cı ildə Vanda silahlı üsyanlar təşkil edən erməni-daşnak faşistlərinin qazancı sonucda ancaq qırğınlar oldu. Bu illər ərzində heç nə qazana bilməyən ermənilər ancaq dəstə-dəstə Qafqaza axın etdilər. Dərd ondaydı ki, özləri ilə elə «erməni məsələsi»ni də Qafqaza gətirdilər. Burada öz istəklərini həyata keçirmək üçün münbit şərait vardı. «Erməni məsələsi»ni silah gücünə həll etmək konsepsiyasına hakim kəsilən erməni-daşnak faşistləri Türkiyədə edə bilmədiklərini Rusiyanın əsarəti altında olan Azərbaycan torpaqlarında Azərbaycan türklərinə qarşı etdilər. 1905-1907-ci illərdə XX əsrin ilk soyqırımı hadisəsini törətdilər. Əliyalın, dinc, heç bir torpaq, hakimiyyət iddiasında olmayan Azərbaycan türklərinin qətliamlarını təşkil etdilər. Onları etnik təmizləmə siyasətinin günahsız qurbanlarına çevirdilər. Vaxtı ilə ermənilərə sığınacaq vermiş, ermənilərlə bir gor qonşusu kimi yaşamağa qərarlı olan Azərbaycan türklərini erməni-daşnak terror qrupları və ya qruplaşmaları silah gücünə ev-eşiyindən çıxarıb ayağı yer tutunca qovmağa başladılar. Ələ keçəni uşaq, qadın, qoca demədən xüsusi qəddarlıqla qətlə yetirirdilər. Torpaqlarını, yer-yurdlarını isə mənimsəyirdilər. Birinci rus inqilabını söndürmədən çar Rusiyasının bu

qətliamların qarşısını almamasının, daha da qızışdırıcı mövqedə durmasının səbəbləri məlum idi. Bu yolla əsarətdə olan xalqların fikir-diqqətini inqilabi mübarizədən yayındırırdı. Bu, imperiyanın klassik «parçala, hökm et» siyasətinin qanlı şöləsi idi. Yalnız Azərbaycan türklərinin soyqırımı ilə kifayətlənməyən erməni-daşnak faşistləri bölgələrdə hakimiyyəti ələ keçirməkdən belə çəkinmir, yolları və körpüləri partladır, nüfuzlu ictimai xadimləri, dövlət məmurlarını terror yolu ilə qətlə yetirirdilər. I Rus inqilabının süqutundan sonra çar Nikolay həddini aşmaqda olan erməni-daşnak terrorçularına bir balaca qulaqburması verdi. Məsuliyyətə cəlb edilənlər oldu. Arada uzun çəkməyən dartışmalardan sonra erməni-daşnak faşistləri yenə də «erməni məsələsi»nin ilkin dayaq bazasına - Rusiyaya üz tutdular. I Dünya müharibəsi ərəfəsində çar hökuməti böyük məmnuniyyətlə erməni-daşnak faşistlərini qəbul etdi. Rus diplomatları açıq şəkildə «məzlum ermənilərin müdafiəsi» uğrunda çıxışlar etməyə başladılar. Türkiyə hökumətindən ermənilər yaşayan şərq vilayətlərində islahatlar keçirilməsi tələbini irəli sürdülər. Türkiyə hökuməti 26 yanvar 1914-cü ildə Rusiyanın nəzarəti altında həyata keçirilməsi nəzərdə tutulan islahatlar haqqında saziş imzalamağa məcbur oldu. I Dünya müharibəsinin başlanması ilə bahəm erməni-daşnak faşistlərinin iştahı yenidən on qat artdı, deməzsən, tük apardı. Fransa erməni dövlətini Türkiyə ərazisində, Rusiya isə bu dövləti I Pyotr zamanından Cənubi Qafqazda qurmaq istəyini yenidən ortaya qoydu. Hər iki dövlətin niyyətindən bəhrələnmək istəyən erməni-daşnak faşistləri ruhlandılar. Onlar yenidən «Böyük Ermənistan» dövləti qurub-yaratmaq eşqinə düşdülər. Və bu xəyali dövlətin xəritəsini belə cızdılar. Beləliklə, erməni xalqını əbədi məhrumiyyətlərə sürükləmiş oldular. Bununla sonu görünməyən türk düşmənçiliyinin bünövrəsini qoydular. Özlərini isə super dövlətlərin sandıq tulasına çevirdilər.

Erməni-daşnak faşistləri bütün güclərini terrorçu dəstələr düzəldib Türkiyə ərazisinə göndərilməsinə, onların pozuculuq fəaliyyətləri göstərmələrinə, könüllü hərbi hissələr təşkil edib rus komandanlığının sərəncamına vermək işinə yönəltdilər. Ancaq nə qədər qırğınlar törətsələr də, sonucda yenə də məğlubiyyətin acısını daddılar.

I Dünya müharibəsindən sonra «erməni məsələsi» beynəlxalq müzakirələrdə tədricən özünə yeni ünvan tapdı. Daha doğrusu, uydurma «erməni soyqırımı» əfsanəsinə kompensasiya edildi. Əslində uydurma «erməni soyqırımı» əfsanəsi yalan üzərində qurulmuş «torbada pişik» oyununun davamıydı. Erməni xalqının təqvimində 24 aprel günü rəmzi məna daşıyır. Bu gün bir erməninin burnu belə qanadılmayıb. Bəs onda nə üçün qətliam günü olsun?! «24 aprel» gününün özü bu soyqırımın saxtalığına dəlalət edən danılmaz və qaçılmaz bir faktordur. 1915-ci ilin 24 aprel günü Türkiyə hökuməti tərəfindən dövləti içindən parçalamağa cəhd edən bir qrup vətən xaininin və satqınının məqsədyönlü şəkildə türk torpaqlarına təcavüz edən qərb imperialistlərinə və artıq Şərqi Anadolunu işğal etmiş və tərkibində 250 min erməni könüllü silahlısı olan və Türkiyə əleyhinə

vuruşan çar Rusiyasına xidmət edən erməni təşkilat və cəmiyyət rəhbərlərinin göz altına alınmasına dair fərman verilən bir gündür. Onlar öz cinayətkar fəaliyyətlərinə görə ədalət məhkəməsi qarşısında cavab verməli olmuşlar. Vətənin taleyinin həll edildiyi bir vaxtda, ölüm-olum dilemması qarşısında qaldığı çətin bir zamanda etnik ermənilərin xəyanət və satqınlıqların kütləvi hal aldığını nəzərə alan, ölkənin təhlükəsizliyini təmin etmək üçün Türkiyə hökuməti 24 aprel tutqusundan təxminən bir ay sonra, daha doğrusu, mayın 15-də ermənilərin yerdəyişməsi haqqında qərar qəbul etmək məcburiyyətində qaldı. Müxtəlif dövlət və ölkələrin tarixində bu cür faktlar yüzlərlədir. Təkcə bunu qeyd etmək kifayətdir ki, əgər I Dünya müharibəsində bu fakt bir dəfə qeydə alındısa, II Dünya müharibəsində Sovet Rusiyası xəyanət və satqınlığın qeydə alınmadığı bir dövrdə qabaqlayıcı tədbirlər adı altında Krım tatarlarını, Şimali Qafqaz xalqlarını – çeçenləri, inquşları, balkar-qaraçaylıları və hətta müharibə qorxusunun aradan qalxdığı, qələbənin sovetlərin xeyrinə həll olunacağının qabaqcadan göründüyü bir zamanda Gürcüstandan Məhsəti türklərini bu cür yerdəyişmələrə məruz qoymuşdu. Habelə Böyük Vətən müharibəsindən 4-5 il sonra Azərbaycan türkləri də yalan könüllülük adı altında Ermənistandan deportasiya edilmişlər. Hələ də bu xalqların və millətlərin taleyinə dünya birliyi biganəlik və laqeydlik göstərir. Ancaq günün günortaçağı erməni fitnəsinə, saxtakarlığına uyanlar - qatığa qara deyən Qərb parlamentləri və erməni diasporunun yalağına çənə söykəmiş parlamentarlar özlərini səfeh və ya satqın adamlar kimi aparır, tərəqqipərvər insanları özlərinə güldürürlər. Onlar dərk etmək istəmirlər ki, 24 aprel günü erməni qanı axıdılmayıb. Osmanlı dövlətçiliyinin əleyhinə iş aparan, xəyanət yolu tutan bir sıra erməni təşkilatlarının rəhbərləri qanuna müvafiq qaydada göz altına alınıblar. Bu tədbiri soyqırımı kimi qəbul edən və buna səs verən parlament üzvlərini qrupbaz xristian manyakı kimi qəbul etmək olar. Onlar dərk etmək istəmirlər ki, may ayında yerdəyişmə haqqında qanun qəbul edilməsəydi, ya türk dövləti tam məhv edilərdi, ya da ölüm-olum savaşı gedən döyüş meydanında bir erməni insanı belə sağ-salamat qalmazdı. Əslində bu yerdəyişmə erməni xalqının xilası kimi dəyərləndirilməli və özünün həqiqi qiymətini almalıdır. Əgər bu tədbir Osmanlı dövləti tərəfindən həyata keçirilməsəydi, indi nə dünyəvi dövlətlərdə oturuş tapan erməni diasporu yaranardı, nə bu qədər gücə malik erməni toplumu meydana gələrdi, nə də erməni-daşnak faşistləri özlərində cəsarət tapıb türk dünyasına qarşı meydan sulamaq eşqinə düşmüş olardılar. Sadəcə olaraq bu həpəndlər «erməni soyqırımı» adı altında pozuculuq fəaliyyətləri ilə türk-müsəlman dünyasına qarşı xaçlılar yürüşünün bayrağını qaldırırlar. Sosialist-kapitalist cəbhələşməsindən azad olmuş dünyanı xristian-müsəlman qarşıdurmasına sürükləyirlər. Erməni-daşnak faşistləri öz çirkin oyunlarından əl çəkmək fikrindən uzaqdılar. Boş dağara daş atıb dığırlatmaqdan, səs çıxarmaqdan yorulmaq bilmirlər. Türk əleyhdarları isə «torbada pişik var» bəhanəsindən zaman-zaman faydalanırlar. Türklərin ermənilərə inam göstərməmək üçün tam əsasları vardı. Ermənilər döyüş gedən ərazilərdən

köçürülməsəydi, Türkiyə hökuməti öz varlığını saxlamaq imkanını əldən vermiş olardı. Təkcə bir erməni nəfərinin satqınlığı ucbatından «Allahu Əkbər» dağında 90 min türk əsgərini rus işğalçıları məhv etmişdir. Habelə Rus ordusunun Türkiyə sərhədini keçib Şərqi Anadoluya daxil olmasıyla bahəm Türkiyə ordusunda xidmət edən 50 min erməni mənşəli türk əsgəri xəyanət yolu tutaraq rusların tərəfinə keçmiş və türklərə qarşı döyüşmüşdülər. Ümumiyyətlə, I Dünya müharibəsində ermənilərdən qat-qat çox türk əhalisi qırılmışdır. Belə ki, N.Sokolskinin 1923-cü ildə yazdığına və statistik məlumatlara görə, 1915-ci illərdə Türkiyədə cəmi 1 mln. 285 min nəfər erməni yaşamışdır. Köçürülənləri, qaçqınları, Türkiyədə qalıb yaşayanları bu saydan çıxsaq, aydın olur ki, bu dövrdə ölən ermənilərin sayı 10 minlərlə, ölən türklərin sayı isə 100 minlərlə olmuşdur. Lakin erməni-daşnak faşistləri öz törətdiklərini əks tərəfin üzərinə qoymaq kimi qarayaxmayla, qaraçı qanlarından irəli gələn hay-küylərinə burada da don geydirməkdən usanmaq bilməmişlər. Hazırda 24 aprel gününü uydurma «erməni soyqırımı» günü kimi bütün dünya dövlətlərinə tanıtmağa cəhd göstərirlər.

Bu gün beynəlxalq arenada fırladılan qondarma və uydurma «erməni soyqırımı» əfsanəsi ümumi erməni saxtakarlığının apogeyidir. Yalan yalana söykənir. Uydurmalar bir-birinə calana-calana sonu görünməyən və olmayan bir həddə çatdırılıbdır. İlk öncə «erməniləri məhv etməklə bağlı Tələt paşanın teleqramı var» deyə-deyə erməni-daşnak faşistləri haray-həşir qopardılar. Sənədlər əsasında isbat olundu ki, bu teleqram əsli olmayan, uydurma bir qalka köçürməsidir. Bu yalanları baş tutmayanda ikinci bir uydurmaya, yalan ifadəyə əl atdılar. Guya Adolf Hitler yəhudilərin soyqırımına rəvac verərkən «bu gün erməni soyqırımını kimdir yada salan» ifadəsini işlədibdi. Los-Ancelesdəki Kaliforniya universitetinin professoru Riçard Ovanesyan 1983-cü ildə bəyan edir ki, A.Hitlerin bu ifadəsini işlətməsi barədə 23 noyabr 1945-ci il tarixdə, daha doğrusu, ondan bir gün əvvəl Nürenberq prosesinin stenoqramında məlumat var. Hətta söylənilir ki, A.Hitler bu ifadəni Polşaya hücum etməzdən əvvəl, 22 avqust 1939-cu il tarixdə müharibəyə başlamağa hazırlıqla əlaqədar olaraq öz baş komandanlarına müraciətində işlədibdi. Halbuki nə həmin gün, nə ondan əvvəl, nə də sonra Nürenberq tribunasında belə bir şey, belə bir söylənmə və dilə gətirilən ifadə məsələsi olmamışdır. Belə bir ifadə birinci dəfə Assoşieyte Pressin Berlin şöbəsinin müdiri L.Lexnerin 1942-ci ildə nəşr etdirdiyi kitabda özünə yer tapıb. Halbuki bunun da doğru olmadığı təsdiqlənibdir. Çünki A.Hitlerin belə bir ifadə işlətməsinə dair heç bir inandırıcı sübut, dəlil yoxdur. Alman faşistləri Polşa torpaqlarına soxulduqları zaman belə hələ Hitler öz çıxışlarında antiyəhudi fəaliyyət barədə heç bir ifadə işlətməmişdir. Lakin Riçard Ovanesyanın bu qərəzli, bədnam, yalan cümlələr işlətməsindən sonra, 1984-cü ildə, qəribədir ki, ABŞ-da çoxsaylı dövlət rəsmiləri və konqresmenlər bu saxta ittihamı tutuquşu kimi dəfələrlə təkrarlamışlar. Lakin bu yalanları da ayaq açıb yeriməmişdi.

Ermənilər uydurma «erməni soyqırımı» hadisəsindən 70 il sonra daha bir fırıldağa, iftiraya əl atmışlar. 1985-ci ildə səs salmışlar ki, guya müasir Türk Cümhuriyyətinin qurucusu M.K. Atatürk 22 iyun 1926-cı ildə İsveç jurnalisti Emil Xilderbranda verdiyi müsahibəsində erməni soyqırımını tanımasını bəyan edib. Əlbəttə, əgər doğrudan da ermənilər deyən belə bir fakt olsaydı, uydurma erməni soyqırımının tarixi həqiqətliyi üçün bu bəyanat çox ciddi arqument ola bilərdi. Araşdırma zamanı məlum olmuşdur ki, M.K.Atatürk 22 iyun 1926-cı il tarixdə İzmir şəhərində olmuş, lakin bu səfəri zamanı kiməsə müsahibə verməmişdir. Ümumiyyətlə isə onun 20 illik hakimiyyəti dövründə Emil Xilderband adlı İsveç vətəndaşının Türkiyə Cümhuriyyəti ərazisində olması sübuta yetirilməmişdir. Erməni saxtakarları tərəfindən bir-birinin ardınca düşünülmüş şəkildə ortaya atılan, lakin mənbəyi olmayan bu sayaq uydurmaların sayı-hesabı yoxdur. Bununla belə, erməni-daşnak faşistlərinin təbliğat maşını, təşviqatçıları uydurma «erməni soyqırımı» ilə bağlı hər cür saxtakarlıqları yaymaqda davam edirlər. Hər cür dələduzluğa baş vururlar. Xüsusilə onların məşhur rus rəssamı Vasili Vereşaginin «Müharibə apofeozu» adlı rəsm əsəri ilə dələduzluq etmələrindən danışmamaq olmur. Hal-hazırda rəssamın müharibə mövzusunda kətan parça üzərində işlədiyi bu sənət əsəri Moskva şəhərinin məşhur Tretyakov adına rəsm qalereyasında saxlanılır. Rəssam bu rəsm əsərini 1871-ci illərdə işləmiş, özü isə I Dünya müharibəsi başlanmazdan on il əvvəl dünyasını dəyişmişdir. Rəsm əsərinin obyekti heç vaxt ermənilər olmamışdı və ola da bilməzdi. Bu sənət əsərinin I Dünya müharibəsi ilə, ermənilərlə heç bir bağlılığı, əlaqəsi yoxdur. Lakin erməni-daşnak faşistləri dələduzluq yolu ilə bu əsəri mənimsəmişlər. Əsərdə insan kəllələrindən toplanmış qalaq təsvir olunur. Erməni dələduzları bu rəsm əsərinin fotoreproduksiyasını çıxararaq altında 1915-1917-ci illər yazmış və kağız üzərinə rəssamın saxta imzasını köçürmüşlər. Bu kəllələr guya türklər tərəfindən soyqırıma düçar edilən ermənilərə məxsusdur. Uydurma «erməni soyqırımı» ilə heç bir əlaqəsi olmayan bu reproduksiyanı poçt markalarında, təbliğat plakatlarında, reklam vərəqələrində yerləşdirmişlər, ayrı-ayrı kitab üzlüklərində bolluca nəşr və çap etmişlər.

Ümumiyyətlə, erməni-daşnak faşistləri hər cür fırıldağa, dələduzluğa qol qoyurlar. Tutar qatıq, tutmaz ayran deyirlər. Aydan arı, sudan duru adamlar kimi daş atıb baş tuturlar, haray-həşir, səs-küy qoparırlar. Elə ki yalanları üzə çıxdı, uydurmaları uğursuzluğa düçar oldu, utanıb-qızarmadan, həyasızcasına növbəti yalana, növbəti fırıldağa, iftiraya, şərə-böhtana əl atırlar, təzə yalana, saxtakarlıqlara meydan verirlər. Bu bir-birinə ara verməyən, arasıkəsilməz yalançı, saxta, məkrli və hiyləgər oyunları ilə cəmiyyəti ələ salır, əldə saxlayır, əldə oynadırlar. Daim Qərb və Rusiyanın hakimiyyət orqanlarının ikili standartlarla müsəlman aləminə qarşı davam edən baxış və davranışlarından bəhrələnirlər. Qərb və Rusiya üçün «erməni məsələsi» barmaqda oynadılan qəlp və fahiş bir həlqəyə bənzəyir. Nə ucu var, nə də sonu. Qəribəsi də budur ki, ucu, sonu bilinməyən bu

qəlp həlqə açılandı, qapanan deyil. İstənilən super dövlət bu həlqəni barmağına keçirərək dünya arenasında Türkiyə əleyhinə bir vasitə kimi fırladır. Erməni saxtakarlığından və Türkiyə əleyhinə olan ziyankarlığından kifayət qədər faydalanırlar. Əgər belə olmasaydı, erməni-daşnak terrorçuların törətdiklərini heç demirəm, bu sadə sənəd cinayətkarlarını bunca müdafiə etməzdilər. Axı, sənədlərin saxtalaşdırılmasının özü də dövləti cinayətdir. Hər bir dövlətin cinayət məcəlləsində saxtakarlara qarşı maddə, cinayət məsuliyyətinə cəlbolunma tələbləri var. Bəs görəsən həmin ölkələrin qanun keşikçiləri nə üçün erməni saxtakarlığına hüquqi qiymət vermirlər?! Nə üçün özlərini sivil ölkə adlandıran, demokratiyanın flaqman hökumətləri, onun ali qanunvericilik orqanları - parlamentləri dövləti cinayəti müdafiə edirlər?! Cəzasızlıq şəraitindən istifadə edən erməni-daşnak faşistləri peşəkarcasına terror aksiyaları törədirlər. İnsan qatilləri cəzalandırılmaq əvəzinə cinayətlərinədək müdafiə olunurlar, sərbəst buraxılırlar. Yoxsa Amerika, Qərbi Avropa parlamentariləri bizimlə «məndən ötən qardaşıma dəydi, elə bildim saman çuvalına dəydi» oyunu oynamaqdan həzz almazlar. Bütün bunlardan azğınlaşan erməni-daşnak faşistləri özlərinin uydurduqları saxta soyqırımlarını millətin üzərinə alırlar. Hətta iddia edirlər ki, erməni genosidi yəhudi soyqırımının müjdəçisi olub. XX əsrin ilk soyqırımıdır. Hətta şişirtmə yolu ilə qələmdən keçən erməni qırğınına dair rəqəmlər hələ də ekspert rəyindən keçirilmir. Erməni-daşnak faşistləri isə ilkin dövrlərdə şişirdilmə ilə qeydə alınan 300 min erməni öldürülüb ifadəsindəki rəqəm göstəricisini ilbəil dəyişdirir, artırırlar. «Böyük qırğın» adı altında guya 1915-ci ildə 2,5 milyon, təqribən həmin dövrdə dünya ermənilərinin sayı civarında erməninin öldürüldüyünü iddia edirlər. Bu rəqəm dildən-dilə keçir, kağızdan-kağıza köçürülür. Çox güman ki, erməni saxtakarlığı dünyadakı ermənilərin sayı hərgah 6 milyon və ya ondan çox olsaydı, utanıb-qızarmadan bu rəqəmi 6 milyonluq yəhudi genosidinə çatdırar, bəlkə də bu rəqəmi arxada qoymuş olardılar. İnsan həyasını itirəndə ondan hər nə desən, gözləmək olar. Görün bir iş nə yerə çatıb ki, erməni saxtakarlığı, habelə A.Hitlerin adına ünvanlanan, əsli olmayan sitatlar, uydurma mülahizələr ABŞ dövlətinin bir çox ştatlarının orta məktəblərində dərs vəsaiti kimi tədris olunur. ABŞ-ın ali qanunvericilik orqanlarında yuva qurmuş R.Doul kimi ermənipərəst senator və konqresmenlər küpəgirən qarılar sayaq qondarma «erməni soyqırımını» İran saqqızı kimi çeynəməkdən, ərəb təsbehi kimi daşlarını o yan-bu yana çevirməkdən, saymaqdan yorulmaq bilmirlər. Erməni yalanına cürbəcür, çeşid-çeşid don biçirlər, dünya ictimaiyyətini həqiqətdən yayındırmağa çalışırlar. Fransada, İsveçrədə hətta erməni saxtakarlığını inkar edənlərə qarşı ölkənin CM-də müvafiq maddələr də təsbit edilir. Bu gün «erməni məsələsi» ABŞ-da prezident seçkilərində namizədlər üçün səs toplamaq vasitəsinə, senatorlar, konqresmenlər, qubernatorlar üçün isə varlı erməni diasporlarından və beynəlxalq təşkilatlarından pul çəkmək məsələsində bir oyuna çevrilib. Oyunbazlıq göstərməkdə Fransanın əldə tutduğu «erməni məsələsi»

bir oyun, bir marionetkadır. Rusiya üçün isə bu məsələ Qafqazda oturacaq yerinə işlətdiyi söykəksiz kətildir.

Hər il aprel ayının 24-də dünyanın aparıcı ölkələrində əlləri yüz minlərlə türkün qanına boyanan, qatı millətçiliyi ilə tanınan, türk düşmənçiliyini dövlət siyasətinə çevirən erməni-daşnak faşistləri uydurma «erməni soyqırımı» yalanını ucuz şou-tamaşayla qeyd edirlər. Erməni millətini «məzlum», «əzabkeş», «çox təcavüzlərə məruz qalan», «qurbanlıq quzu» qismində dünya birliyinə sırıyırlar. Kimsə demir ki, 1915-ci ildə 1,3 milyondan az erməninin yaşadığı bir ərazidə bu ərazinin 11 milyon türk əhalisini məhv edib bu torpaqları Rusiyanın tərkibinə qatmaq və ya hansısa uydurma monoetnik erməni dövləti yaratmaq hansı məntiqə sığır?! Haqq-ədaləti bunca tapdamaqmı olar?!

Bu gün ilməsi hiyləsindən, erməni felindən, erməni məkrindən, erməni saxtakarlığından çalınıb hörülən erməni toru özündən qat-qat böyük, güclü, gözə görünən və görünməyən dünyəvi torları öz içinə salmaqda, siyasi baxımdan daxilinə almaqdadır. Dünyanı çuğlamaqda, ağuşuna salmaqdadır. Bütün bəşəriyyətin bu tora düşmək təhlükəsi vardır. Erməni-daşnak faşistlərinin səngimək bilməyən antitürk təbliğatı bütövlükdə yalan üzərində qurulub. Utancaqlıq erməni təbliğatına yaddır. Həyanın nə olduğunu erməni təbliğatı bilmir. Erməni təbliğatı haqq-ədalətdən min işıq ili qədər uzaqdır. Lakin bu uzaqlığı yaxın edən superdövlətlər, gücdüşməz güclər mövcuddur. Bu paradoks «erməni məsələsinin» bir hissəsi olan qondarma, süni surətdə yaradılmış və qabardılmış Qarabağ probleminin həlli məsələsində də özünü göstərir. Daha doğrusu, bu problemin həll edilməsi məqsədi ilə yaradılmış Minsk qrupunun süründürməçilikləri, yarıtmaz fəaliyyəti göz qabağındadır. 15 ildə nəyəsə müvəffəq olunmayıb. Bu baxımdan nə Fransa hökumətinin, nə də Rusiyanın Minsk qrupuna həmsədr olmağa mənəvi haqları yoxdur. Çünki hər iki dövlət qondarma «erməni soyqırımını» tanıyan ölkələr siyahısına daxildirlər. Hər iki ölkənin siyasət aləmində erməni diasporu at oynadır. Bu azmış kimi həm Fransa, həm Rusiya erməni-daşnak terrorunu açıq-aydın himayə edən dövlətlərdir. Üçüncü həmsədr - ABŞ-ın isə bunlardan ancaq bir fərqi var. Onunla seçilir ki, hələlik qondarma «erməni soyqırımını» tanımaqdan vaz keçir. Minsk qrupunun həmsədrləri haqqında düşünməyinə dəyər! Bundan o tərəfə yol yoxdur. Qoy öz qürurunu itirmiş qərb parlamentariləri qərb şərqşünası Pyer Dümanın - «Qoy siyasətçilər tarixə müdaxilə etməsinlər. Onların müdaxiləsi saxtakarlıqla müşayiət olunur» xəbərdarlığını sırğa edib qulaqlarından assınlar. Bu xəbərdarlığı qulaqardına vurub qondarma «erməni soyqırımı»nı tanımaq lehinə səs verməklə haqqı danmasınlar, vicdanlarına kölgə salmasınlar. Onsuz da öz əməllərinə görə ermənilər hər xalq, hər dövlət üçün bir cürə mənalandırılan, ünvanlandırılan ayamalar qazanmışdılar. İngiltərə erməni məsələsindən kifayət qədər, yetərincə istifadə edib. Bu gün ermənilər ingilislər üçün eninə-boyuna, hər yanına silinib atılan bir əsgi parçasından başqa bir şey deyildir. Fransızların əlində Türkiyə dövlətindən çimdik götürən maşaya bənzəyir. İmperiya siyasətində I

Pyotrdan üzü bəri Rusiya üçün haylar işğalçılıq vasitəsi olub, olaraq da qalır. Türklər, daha doğrusu, bizlər üçün işə kobud da olsa deməyinə dəyər - xristian pölüyüdür. Sədd heyif ki, bu murdar tikəni kəsib ata bilmirik. Rusiya buna imkan vermir...

**Haşiyə 1:** Əlbəttə, «erməni məsələsi» mahiyyət etibarı ilə Avropa məsələsidir. Əgər o, XIX əsrin sonu - XX əsrin əvvəllərində böyük dövlətlərin Osmanlı imperiyasını parçalamaq işinə xidmət edirdisə, bu gün AB-yə can atan Türkiyə Cümhuriyyətini zəif salmaq, daha asanlıqla iradələrini ona diqtə etdirmək, əldə saxlamaq cəhdlərinə xidmət edir. Bu gün «erməni məsələsi» Rusiya Federasiyası üçün daha böyük, çar və sovet Rusiyası dönəmindəkindən ikiqat artıq əhəmiyyət kəsb edir. Bütün gücü-qüvvəsi ilə əlini bu məsələnin üstünə qoyub. Ermənistanla birgə hərbi qruplaşmalar, hava hücumundan vahid müdafiə sistemi yaradır. Azərbaycan və Gürcüstan ərazilərindən çıxardığı hərbi bazaların canlı qüvvələrinin və döyüş texnikasının böyük bir qismini Ermənistan ərazisinə köçürüb. Ermənistana 1994-1996-cı illərdə təmənnasız olaraq 1 milyard ABŞ dolları dəyərində döyüş silah-sursatı verib. ER-nın müasir silahlarla təchizatını hələ də davam etdirir. Ermənistanı barıt çəlləyinə döndərib bölgənin heç vəchlə öz təsir dairəsindən çıxmasına imkan vermir. Gürcüstan və Azərbaycanda separatizmi hər vasitə ilə dəstəkləyir. Hələ də imperiyapərəst siyasətindən əl çəkmək niyyətində olmadığını nümayiş etdirir. Ermənistanı öz forpostuna çevirib yedəyində saxlayır. Demək olar ki, RF-nın bütün xarici siyasətinin 2:1 nisbətini, daha doğrusu, ikiqat prioritetini «erməni məsələsi» təşkil edir. «Erməni məsələsi»nin müzakirə serialları RF-nın hakim dairələri tərəfindən və onların təhriki ilə dünya səhnəsinə çıxarıldığı kimi, bu gün də sonu görünməyən və həlli bilməyən serial şəklində gündəmdə saxlanılır. Bu qondarma məsələnin yeganə həll variantı hansı yolla olursa-olsun onun dünyanın siyasət meydanından silinib atılmasından, işlənmiş bir əsgi parçası kimi tullanmasından ibarətdir. Bu isə rus imperiyasının süqutunun hər hansı bir şəkildə davam etdirilməsi, yaxud gücünə güc göstərə biləcək super türk dövlətini nə vaxtsa qarşısında görməsi ilə bağlı olacaqdır. Çünki «erməni məsələsi» türk dünyasının başında fırladılan, yeri gəldikcə sındırılan və sındırılacaq bir baş çanağı olaraq meydana atılmışdır...

...Bu gün qondarma, uydurma «erməni soyqırımı» əfsanəsi erməni-daşnak faşizminin apardığı ideoloji mübarizənin ana xəttini təşkil edir. Bu isə çox mətləblərdən xəbər verir və analoqu olmayan bir siyasətdir: Birincisi, bu uydurma soyqırımı davamlı olaraq artan xətlə böyük dövlətlərin parlamentlərində bu və ya başqa şəkildə müzakirəyə çıxarılır və gündəmdən düşməyə imkan verilmir. Bu da erməni xəyanətini və erməni-daşnak faşistlərinin Azərbaycan türklərinə qarşı apardıqları etnik təmizləmə siyasətini və soyqırımını pərdələyir. İkincisi, bununla belə, erməni-daşnak faşistləri Azərbaycan türklərinin soyqırımını davam etdirmək niyyətində olduqlarını nümayiş etdirirlər; Üçüncüsü, uydurma soyqırımı dünya

birliyinə tanıtmaqla Türkiyə Cümhuriyyətindən təzminat almaq, torpaq qoparmaq iddiasından əl çəkmək fikrində olmadıqlarını açıq-aydın bəyan edirlər.

Uydurma «erməni məsələsi» uzun illər öz adıyla tarixləşsə də, bəli, bu gün qondarma «erməni soyqırımı» adıyla yaşadılır. «Əzabkeş və məzlum» erməni obrazı yaradılır, «erməni soyqırımı» əfsanəsinin tanıdılması uğrunda gedən mübarizə səngiməк bilmir. Gündəlik müzakirə mövzusuna çevrilir. Hətta bununla bağlı bir sıra Qərb ölkələrinin qanunvericilik orqanları beynəlxalq hüquq normalarına zidd olan əsassız və ədalətsiz təsiretmə aktları qəbul edirlər. Bununsa kölgəsində erməni-daşnak faşistləri öz məkrli niyyətlərini həyata keçirirlər. İşğalçılıq, etnik təmizləmə və soyqırımı, dövlət terrorizmi kimi siyasətlərini pərdələyirlər. Halbuki qondarma «erməni soyqırımı» əfsanəsinin arxasında real türk soyqırımı dayanır. Axı, tarixə yanlışlıq verə-verə erməni-daşnak faşistləri hara kimi yalan addımlar atacaqlar, nə qədər məsafə qət edəcəklər?! Detalları şübhə doğuran, tarixi kökü, sübutu olmayan uydurma «erməni soyqırımı» heç nədən yaranan, xristian himayəsinə sığınan erməni-daşnak faşistlərinin ortaya atdığı ədalətsiz işğalçılıq müharibəsinə haqq qazandırmaqdan, məkr və hiylədən başqa bir şey deyildir. Vaxt gələcək tarix öz mizan-tərəzisini ortaya qoyacaqdır. Kimin kim olduğunu incələyib tarixi həqiqətin nədən ibarət olduğunu bütün dünyaya bəyan edəcəkdir. Qanında irqçilik geni daşımayan yeganə bir millət varsa, o da türkdür, qayəsi insandır, türkün! Bu tarixi haqqımızı dünya birliyinə tanıtmaq, çatdırmaq, öz haqqımızı əldə etmək üçün ardıcıl, sarsılmaz, əzmkar mübarizə yolu qarşımızdadır. Bu yol bizim haqq yolumuzdur.

**Haşiyə 2:** «Erməni məsələsi» Şərq məsələsinin bir hissəsi olduğu kimi, «Qarabağ məsələsi» də «erməni məsələsi»nin tərkib hissələrindən biridir. Belə ki, ilk dəfə «Dağlıq Qarabağ» ifadəsi I Dünya müharibəsindən sonra erməni-daşnak faşistləri tərəfindən ortaya atılan yer adı olub. Siyasi məna kəsb edən coğrafi anlayışa çevrilib. Bolşevik-daşnak qaragüruhçuları tərəfindən isə elmi-coğrafi baxımdan deyil, volyuntarist prinsip əsasında formalaşdırılan bir qurum adı və inzibati ərazi vahidi kimi hallandırılıbdı.

Qeyd etmək lazımdır ki, bu yanaşma ilə, bu prinsipi əsas götürməklə dünyanın istənilən ölkəsində və ya çoxmilyonlu iri şəhərlərində kompakt yaşayan hər hansı bir adda gəlmə əhalinin və ya etnik qrupun siyasi qurumunu yaratmaq mümkündür.

Bu gün beynəlxalq aləmdə müzakirəsi aparılan Dağlıq Qarabağ məsələsinin milli-etnik xarakteri o qədər də əsas deyil. Bu məsələ bütövlükdə çoxsaylı dövlətlərin, habelə sayı-hesabı bilinməyən tamahkar qrup və fərdlərin vəzifə hərislərinin siyasi alver mənbəyi və qumar məkanıdır. Daha çox isə böyük dövlətlərin siyasi və iqtisadi təsir vasitələrini və təzahür formalarını özündə əks etdirən, Qafqazın təbii qaynaqlarının yenidən bölüşdürülməsi, yeni ərazilərə sahib olmaq və öz təsir dairəsində saxlamaq sahəsində dövlət siyasətlərinin və milli maraqlarının açıq və ya gizli formada müzakirə obyektidir. Bu problemin həlli ilə

məşğul olmaq üçün yaradılan və status alan Minsk qrupunun həmsədrləri dərk etmək istəmirlər ki, Qarabağ Azərbaycan xalqının mənəviyyat baxımından dil, ədəbiyyat, incəsənət və mədəniyyətinin, siyasi baxımdan isə dövlətçiliyinin, milli konsolidasiyasının formalaşdığı əsas mərkəzlərdən biridir. Bu məsələnin həlli sırf siyasi xarakter daşıya bilməz. Qarabağ məsələsi ümummilli problemdir, onu yalnız xalqın ümumi iradəsi və onun elitasının düşünülmüş fəaliyyət proqramı əsasında həll etmək olar. Ona görə də məsələnin öz həllini tapmasında yalnız siyasilər deyil, Azərbaycan cəmiyyətinin bütün elitası iştirak etməlidir. Problemin çözülməsində, həllində bütün danışıqların aparılmasında əsas məkan Xankəndi və Şuşa şəhərləri seçilməlidir. İşğal altında qalan 900 yaşayış məntəqəsindən didərgin salınmış əhali tərəfindən seçilmiş nümayəndələrin bu danışıqlara cəlb edilməsi prioritet təşkil etməlidir. Müzakirələrin belə bir məcrada keçirilməsini təmin etməyən beynəlxalq təşkilatlar hansı vasitəçilik missiyalarından danışa bilər?! ER-nı təcavüzkar, beynəlxalq terroru və separatizmi dəstəkləyən dövlət kimi tanımayan beynəlxalq təşkilatlar və həmsədr dövlətlər işğala məruz qalan Azərbaycan üçün xoşməramlı nə iş görə bilərlər?! Təəssüf hissiylə qeyd etmək lazımdır ki, hələ də bu məsələ Azərbaycan cəmiyyəti tərəfindən ən ümdə və əsas ümummilli müzakirə səviyyəsinə qaldırılmamışdır. Biz bu məsələyə barmaqarası baxmamalıyıq. Erməni-daşnak fasistlərinin ikibaşlı oyunlarının yedəyində bunca getməməliyik. Özümüz-özümüzə güc gəlməyi bacarmalıyıq. «Erməni məsələsi» həlqəsini başqalarının barmağından çıxarmağın, öz barmağımıza keçirib fırlatmağın yolunu arayıb-araşdırmalıyıq. Bunun çəmini tapmalıyıq...

## DAŞNAKSUTYUNUN XAÇ ATASI KİLSƏLƏRDİR

Erməni Qriqorian kilsələrinin ta qədim zamanlardan şər-böhtan yuvası kimi adının hallandırılması və ya hallanması təsadüfi deyil, əməli fəaliyyətin nəticəsidir. Allah evinin qarşıya qoyduğu vəzifələrin həyata keçirilməsi tələbi ilə daban-dabana ziddiyyət təşkil etməsindən irəli gəlir. Erməni kilsəsi öz xalqına - Allaha ibadət yolu, doğru-dürüstlük, ədalət, mənəviyyat, barışıq, əmin-amanlıq yolu göstərmək əvəzinə, din pərdəsi altında terror, üsyan və inqilab bayraqdarı kimi çıxış edir. Millətlərarası ədavəti qızışdırmaq, insanları biri-birinə qırdırmaq kimi faşist ideologiyasını təbliğ edir. Kilsələrin qapıları erməni-daşnak faşistlərinin üzünə daim açıq saxlanılır. Lazım gəldikdə gizli toplantılar keçirmək, məxfi sövdələşmələr aparmaq üçün ibadət evlərini onların ixtiyarına verirlər. Hələ erkən orta əsrlərdə kilsələrin bu üzdəniraq fəaliyyətləri Bizans imperatorunun da nəzər-diqqətini cəlb etmişdi. Erməni keşişləri, arxireyləri, katolikosları Allahın təbliğindən çox Allaha şər atmaqla məşğul olmuşlar. Bəlkə də elə yarandığı gündən din xadimləri kilsələri şər yuvasına çevirmişlər. Allah evində Böyük Yaradanın əşrəfi olan insana, insanlığa xidmətlə deyil, ona tor qurmaq, qan axıtmaq tədbirlərinin hazırlanması və görülməsi işləri ilə məşğul olmuşlar. Erməni

kilsəsinin bizə bəlli olan tarixi, ilk xəyanət yolu tutması VII-VIII əsrlərdən başlayır. Daha doğrusu, bu xəyanətin tarixi erməni ünsürlərinin, erməni kilsə nümayəndələrinin Ərəb Xilafətinin xeyrinə satqınlıq edərək Albaniya torpağına ayaq basdıqları gündən intişar tapır. Alban kilsələrinin Bizansın tərəfində olduğunu, daha doğrusu, Bizans imperiyasında olduğu kimi diofizit təriqətinə mənsub olduqlarını deyən erməni kilsəsi güclü xilafətin əliylə alban kilsəsini özünə tabe edir və beləliklə Albaniya ərazisində oturuşaraq alban türklərinə qarşı öz düşmənçilik missiyalarını zaman-zaman yerinə yetirməyə səy göstərirlər. Nəhayət, erməni Qriqorian kilsəsinin xəyanəti və satqınlığı ilə Ərəb Xilafəti tərəfindən Albaniya dövləti 643-cü ildən nəzarət altına alınır, 705-ci ildə isə Albaniya dövlətçiliyi tamamilə məhv edilir.

**Qeyd:** Ermənilərin monofizit Qriqorian kilsəsi son məqsədinə rusların əli ilə çatır. 1836-cı ildə Peterburq Müqəddəs Sinodunun qərarı ilə Alban kilsəsi rəsmi surətdə bağlanır. 1910-cu ildə isə Alban kilsəsinə məxsus arxivin məhv edilməsinə dair qərar verilir...

Xilafətin zəiflədiyi bir zamanda erməni xəyanətinə bələd olan bizanslılar erməni kilsəsini məhv etmək məqsədi ilə kütləvi qırğınlara əl atırlar. Lakin bu dəfə ermənilər məhvolmadan xilas olmaq, qorunmaq üçün bütövlükdə o zamanlar supergüc kimi meydana atılan Səlcuq İmperiyasının qoltuğuna sığınırlar. Uzun əsrlər boyu isə Səlcuq imperiyasının varisi kimi çıxış edən Osmanlı imperiyasının xidmətində dururlar.

Lakin Osmanlı imperiyasının zəiflədiyini hiss edincə öz çirkin vərdişlərini təkrarlamağa başlayırlar. Xəyanət yolu tutan ermənilərin din xadimləri dünyada güc sahibi kimi özünü göstərməyə başlayan Qərb dövlətlərinə və çar Rusiyasına üz tuturlar. Vətəndaşı olduqları dövlətə qarşı satqınlıq və xəyanət edirlər. Erməni kilsə xadimləri bir-birlərinin ardınca Qərb və rus imperatorlarının qapısı ağzında oturur, ətəklərindən yapışır, onlardan əl çəkmirlər. Min cür hiylə və əxlaqsız yollarla, xristianlıq naminə Osmanlı imperiyasının zəiflədilməsi və dağıdılması, müsəlman Şərqinin işğalı yollarından bəhs edir, bu yolda öz köməklərini, hansı xəyanətə və satqınlıqlara baş vuracaqlarından danışırlar, onları qəsbkarlıq etməyə şirnikləndirirlər. Tarixi mənbələr göstərir ki, Qafqazın, xüsusən Azərbaycanın, onun müstəqil xanlıq dövlətlərinin Rusiya tərəfindən işğal olunmasında ilk növbədə erməni keşişlərinin, arxireylərinin, katolikoslarının mənfur rol oynamaları kimsəyə sirr deyildir. Onlar şirnikləndirici xəyanətləri, satqınlıqları, casusluqları, bədnam əməlləri və alçaq hərəkətləri ilə nankorluğun nə olduğunu dünya tarixi qarşısında təcəssüm etdirmişlər. Əllərini Qərb dövlətlərinin ətəyindən üzüncə çar Rusiyasına üz tutmuşlar. Çar I Pyotrun hakimiyyəti dövründən başlayaraq, daha doğrusu, şimal müharibələrindəki qələbələrindən sonra Osmanlı sultanlığına yön çevirən kimi bir-birinin ardınca aramsız olaraq kilsə topluları rus çarlarına öz xidmətlərini təklif etmişlər. Satqınlığın, xəyanətin misli-bərabəri olmayan üsullarından, məkr və hiylənin, çirkinliyin görünməmiş yollarından istifadə

etmişlər. Hər an qonşularının qanını içməyə hazır olduqları barədə andlar içmişlər. Onlara rəhmdarlıq edib yer-yurd, sığınacaq, çörək verənlərin ayağının altını qazımışlar. Qonşuya xəyanət etməyə, özlərini məhv edib od-ocaqlarına sahib çıxmağa, işğalçı rus ordusunun əlaltısı olmağa, əllərində hər cür alətə çevrilməyə hazır olduqlarını bəyan etmişlər. Doğrudan da bu gün biz tarixə nəzər salarkən çar Rusiyasının adını çəkməyə elə bir cəllad, qaniçən generalı tapmaq çətindir ki, o, işğal zamanı erməni kilsəsinin xidmətlərindən, onların xəyanətkar rolundan istifadə etməmiş, erməni əlindən su içməmiş olsun. Hətta Qafqaz sərhədlərinə ayaq basmamışdan öncə erməni keşişləri çar generallarının pişvazına çıxmışlar, onları üzük qaşı kimi araya almışlar. Öz çirkin niyyətlərini, məkr və hiylələrini həyata keçirmək üçün onlarla oturub-durmuşlar, onlara yarınıb-yalmanmışlar, onlardan bir addım kənarda durmamışlar. Bütün işğal müharibələri boyunca və sonrakı dövrlərdə belə qəsbkarlara bələdçilik etmişlər, yaltaqcasına onların qulluqlarında dayanmışlar, sədaqətlə onlara xidmət etmişlər. Xidmətləri müqabilində isə onların vasitəsi ilə hissə-hissə torpaqlar, kəndlər ələ keçirmişlər. İşğalçıların bu yerlərdə dayaqlarına, tərəfdarlarına çevrilmişlər. Rus çarları kimliyindən asılı olmayaraq ardıcıl olaraq Qafqaz canişinlərinə birmənalı şəkildə imperiyanın işğalçılıq siyasətini həyata keçirməkdə erməni keşişlərinin xidmətindən istifadə etməyi, onların sədaqətinə inanmalarını hər zaman məsləhət görmüşlər, tövsiyə etmişlər. İlkin olaraq I Pyotrun və II Yekaterinanın hakimiyyətləri dövründə istər Matyuşkinin, istərsə də Zubovun Dərbəndə, Bakıya təcavüzləri zamanı erməni kilsələrinin, kilsə nümayəndələrinin oynadıqları mənfur rolları yada salmaq kifayətdir. Ermənilərin kütləvi şəkildə Rusiya tərəfindən Azərbaycan torpaqlarına köçürülməsi də əməli şəkildə çar generallarının və erməni kilsə nümayəndələrinin onlarla birgə fəaliyyətləri sayəsində gerçəkləşən fakt kimi özünü göstərmişdir. Belə ki, gürcü mənşəli qaniçən çar generalı Sisianov hələ 1804-cü ildə erməniləri işğal etdiyi Gəncə şəhərinə köçürülməsini sürətləndirmək məqsədi ilə yazdığı məktubda ermənilərin arxireyi Ohandan bu işi tezləşdirməyi xahiş edir və onlara bir çox güzəştlər edəcəyini bildirirdi.

Danılmaz faktlar, sübut və dəlillər göstərir ki, rus çarları öz məqsədlərinə çatmaq üçün türklərlə ermənilər arasına fitnə-fəsad toxumunu da ilkin olaraq erməni kilsələrinin - keşiş və katolikoslarının əli ilə səpiblər. Bu iki xalqın arasında sonu olmayan ədavət salıblar. Belə ki, erməni katolikosu rus çarının fərmanı ilə təyin olunurdu. Sinodda dini məsələlər rus çarının xüsusi nümayəndəsinin müşahidəsi altında həll edilirdi. Bu zaman ermənilərin türk əleyhinə düşmənçilik ruhunda tərbiyə edilməsinə xüsusi diqqət yetirilirdi. Bu missiyanı əməli olaraq erməni kilsələri həyata keçirirdi. Bu minvalla ermənilər Rusiyanın məsləkdaşından çox, Rusiyanın havadarlığı və himayəsi altında Türkiyəyə, türkə qısqırdılan köpək halına çatdırılırdılar. Kilsələr vasitəsi ilə üsyankar elementləri Türkiyə ərazisində silahlandırırdılar. Siyasi partiyalar, xüsusilə Daşnaksutyun yaranmamışdan əvvəl Türkiyədə fəaliyyət göstərən erməni terror qruplarına rəhbərliyi prinsip etibarı ilə

kilsələr həyata keçirirdilər. Əgər belə olmasaydı, 1869-cu ildə patriarx seçilən Mkrtıç Xrimyan İstanbul ermənilərinin Milli Şurası adından hökumətə təqdim etdiyi şikayət ərizəsində öz məqsədlərinə terrorla nail olacaqlarını bəyan etməzdi. Bütün bunlar 1860-cı illərdən başlayaraq Rusiyanın təşviq və təhriki ilə Türkiyədə ilk erməni terror qruplarının, silahlı dəstələrinin yaradılmasına xeyir-dua verənin kilsələr olduğunu göstərir.

Erməni kilsələri bu baxımdan terrorizmə xeyir-dua verən bəlkə də yeganə dini mərkəzlərdən biri və birincisidir. Yarandığı gündən bu günədək şər yuvası olaraq eləcə qalır. Dini ayinlər əvəzinə erməni-türk düşmənçiliyi təbliğ edilir. Buna nə ad vermək olar ki, Tayqulaq Andronikin neçə-neçə günahsız türk insanının, türk körpəsinin, türk qadınının, türk qocasının al qanına boyanmış, üstə tüpürüləsi qılıncı bu gün Üçmüəzzin kilsəsində bu insan qəssabından qalmış əziz xatirə kimi saxlanılır, müqəddəs əşya kimi ona səcdə edilir.

24 aprelin saxta «erməni genosidi» günü kimi qeyd edilməsi ilk dəfə Beyrutdakı erməni kilsəsi tərəfindən irəli sürülmüş və Daşnaksutyun tərəfindən daim gündəmdə saxlanılmış, kütləviləşdirilmişdir. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, erməni xalqının tarixi ardıcıl olaraq bu sayaq erməni kilsə «tarixçilərinin» - keşişlərinin cızma-qaralarına istinadən yazıldığından başdan-başa saxtakarlıqlarla silələnibdir. Bu tip «tarixçilərin» fikirlərinin elmi həqiqətlərlə heç bir əlaqəsi yoxdur və erməni tarixi sadəcə olaraq uydurmalar yığnağından başqa bir şey deyildir. Saxta erməni tarixi faktlar və həqiqət qarşısında laldır...

Ümumiyyətlə, Azərbaycanın son iki yüzillik tarixinə dair işıq üzü görmüş kitabların ermənilərlə bağlı hansı səhifəsini açırsansa aç, erməni kilsələrinin böyük-kiçikliyindən, yerləşmə yerindən asılı olmayaraq onun ancaq Azərbaycana və Azərbaycan xalqına qarşı cinayətkar hərəkətlərindən bəhs edən yazılar oxuyursan. Türkün qatı düşməninə çevrilmiş erməni-daşnak faşizminin mərkəzində erməni kilsələrinin özünü və müştərək oyununu görürsən. Erməni kilsələrinin zaman-zaman siyasiləşmiş bir təşkilata çevrilməsini, tək Allahlığın, Allaha duaların və dini mənəviyyatın təbliğindən çox siyasətlə, cinayətkar əməllərlə məşğul olmasını, onun iç üzündəki naqislikləri açan kifayət qədər faktlarla rastlaşırsan. Kilsələrdə saxta pullar kəsilməsi, kilsələrin silah-sursat anbarlarına çevrilməsi, kilsələrin siyasi partiyaların, daha doğrusu, Daşnaksutyunun görüş və yığıncaq yerlərinə çevrilməsi, bir çox terror və mövcud hakimiyyət orqanlarının rəhbərlərinə qarşı sui-qəsdlərə dair hazırlıq planlarının müzakirəyə qoyulduğu yerlər kimi fəaliyyət göstərmələrinin şahidi olursan. Bütün bunlar ondan irəli gəlir ki, çar Rusiyasının himayəsi altında yaradılan Daşnaksutyun partiyası rüşeym halında kilsələrin ana bətnində yetişmişdir. Daşnaksutyun kilsələrin xeyir-duası ilə həyata vəsiqə almışdır. Odur ki, erməni kilsələri daim millətçi ziyalıları yetişdirib Daşnaksutyun partiyasının sıralarına kadrlar ötürən ehtiyat mərkəz qismində özünü büruzə veribdi. Üçmüəzzin kilsəsi başda olmaqla bütün erməni kilsələri qatı millətçi, şovinist gücləri, qüvvələri öz ətrafında toplayaraq öz potensialını

siyasiləşmiş millətçi ziyalı ordusuna ötürür və erməni-daşnak faşistlərinin cərgəsinə qoşur. Özü isə arxa planda, daha doğrusu, pərdə arxasında iblisanə oyunbazlıqlar edən bir mərkəzə çevrilir. XX əsrin birinci soyqırımını törədən erməni-daşnak faşistlərinin qətliamın ən qızğın dövründə öz qurultaylarını 1907-ci ildə Üçmüəzzin kilsəsində keçirmələri, «Vahimə» adlı təşkilat yaratmaları erməni kilsəsinin Azərbaycan türklərinin qətliamında erməni-daşnak faşistləri ilə müştərək iştirakını sübut edən faktların yüzdən biridir. Erməni din xadimlərinin bir çox nümayəndələri bilavasitə təcavüz aktlarında, etnik təmizləmə və Azərbaycan türklərinin soyqırımı hadisələrində iştirak etmişlər. 1905-1907, 1918-1920 və 1988-1994-cü illərdəki qətliamlarda, 1948-1953-cü ilin deportasiyasında erməni kilsələrinin özlərini erməni-daşnak faşizminin təbliğat mərkəzi kimi göstərməsi kimsəyə sirr deyildir. Ümumiyyətlə, ermənilərin bütün üsyankar və davakar hərəkətlərini istiqamətləndirən, çətin anlarda kömək əlini uzadan, onlara dayaq duran, rəhbərlik edən və maddi yardım göstərən tərəflərdən biri də həmişə kilsə nümayəndələri və onun başında oturan katolikoslar olmuşlar. 1914-cü ildə Üçmüəzzin katolikosu Gevork rus çarının qəbulunda olarkən çara müraciətində ermənilərin qurtuluşunun Türkiyədən ayrılmaq, çar himayəsinə keçmək və müstəqil bir erməni dövləti qurmaqla mümkün ola biləcəyini söyləmişdir. XIX əsrin II yarısından başlayaraq illərlə davam edən bir inadkarlıqla, başda Rusiya olmaqla İngiltərə, Fransa və digər superdövlətlər erməniləri dəstələyərək və silahlandıraraq kilsələrin gücündən və imkanlarından maksimum istifadə etmişdilər. Kilsələrin və kilsə nəzarətində olan məktəblərin bir qayda olaraq silah-sursat anbarlarına çevrilməsini göz önünə gətirin. Hətta erməni kilsələri 1948 1953-cü illərdə Ermənistan SSR-dən azərbaycanlıların öz tarixi torpaqlarından deportasiya edilməsində də xüsusi rol oynamışdır. Katolikos seçkiləri ilə bağlı 1945-ci ilin aprelində Stalinin erməni katolikosu Çörəkçiyanı qəbul etməsi, bu zaman xaricdə yaşayan ermənilərin Ermənistana repatriasiyası, darlıq məsələləri barədə danışıqlar aparılmışdır. 1943-cü ilin Tehran səfərində də İrandakı erməni kilsələrinin və diasporlarının da bu məsələ ilə əlaqədar Stalinin saqqızını oğurlamalarının da az təsiri olmamışdır. İş o yerə çatdırılmışdır ki, Stalin 1945-ci ilin kominternində türkləri Avropadan çıxaracağından, SSRİ ilə Türkiyənin sərhədləri məsələsindən danışmışdı. Xaricdə yaşayan 360 min ermənini Ermənistana köçürməyə hazır olduqları barədə yalan məlumatlara ayaq verilmişdi. Məhz bu görüşlərdən və təsirlərdən sonra SSRİ XKS 1945-ci il noyabr ayının 21-də ermənilərin xaricdən Ermənistan SSR-ə qaytarılmasına və ya köçürülməsinə dair qərar, SSRİ AS RH isə sovet sərhədindən ölkəyə daxil olan hər hansı erməniyə sovet vətəndaşlığı verilməsi barədə fərman qəbul etmişdir. Hər halda bu çirkin oyunların nəticəsi olaraq 1948-1953-cü illərdə azərbaycanlılar cinayətkarcasına Ermənistan SSR-dən deportasiya edilmiş, əvəzində isə Ermənistana xaricdə yaşayan 90 min erməni repatriasiya olunmuşdur. Onlarla bir sırada bugünkü

«Qarabağ Komitəsi»nin liderləri Ayrikyan, Manuçaryan, Silva Kaputikyan kimi daşnak elementləri də Ermənistana mühacirət etmişlər.

Başqa bir nüans: Marşal İona Antoneskinin şəxsi dostu olan və əli çox mətləbləri həll etməyə çatan Qarapet Balcanyanın katolikos seçilməsi ilə bahəm Daşnaksutyunun fəallaşması, baş qaldırması təsadüfi deyildir. Daşnaksutyun katolikos seçilən Qarapet Balcanyanın verdiyi təkan və etdiyi köməkdən bəhrələnərək fəallaşmışdı.

Ümumiyyətlə, həmişə erməni kilsəsi Daşnaksutyunun müdafiəçisi və müttəfiqi rolunda çıxış etmişdir. Onlar xristianlıqdan uzaqdırlar. Bir sözlə, erməni kilsələrinin nümayəndələri körpəlikdən daşnak tərbiyəsində böyüyür və yetişirlər. Bu gün onların əksəriyyəti üzdə olmasa da, qəlbən daşnaksutyun partiyasının biletlərini sinələrində, ürəklərinin başında gəzdirirlər...

Diqqət çəkən daha bir məqama nəzər yetirin. Xankəndində 10 mart 1988-ci il tarixdə bir qrup daşnak separatçısı piket keçirir və Dağlıq Qarabağın Ermənistana birləşməsi məsələsini Sov.İKP-nin XIX konfransı qarşısında qaldırılması tələbini irəli sürür. 13 mart 1988-ci il tarixdə isə (cəmi 3 gün sonra) ABŞ-da fəaliyyət göstərən Ali erməni kilsəsi rəhbərliyinin çağırışı ilə Nyu-Yorkda ermənilərin DQ ermənilərini müdafiə edən mitinqi keçirilir...

**Haşiyə:** Mən, 1989-cu ilin yayında Şıxlar kəndi ilə qonşu erməni kəndi Dolanlar camaatı arasında baş vermiş bir xoşagəlməz hadisənin çözülməsi və həlli ilə bağlı bizim yerli camaatın təbirincə adlandırsaq Təzəkənddə (Dolanlar) oldum. Söhbət zamanı Dolanlar kəndinin sakinləri mənə şikayət etdilər ki, bəs İsaxlı camaatı da yaxşı iş görməmişlər. Məgər bura gələndə görmədiniz, yolun kənarında ölmüş eşşəyin üstünə «II Vazgen» yazılmış kağız yapışdırıblar. II Vazgeni uzunqulağa bənzədiblər. Doğrusu, belə bir mənzərəylə rastlaşmadığımı bildirdim. Və əlavə olaraq dedim ki, hər halda siz deyəni ediblərsə, İsaxlı camaatı düzgün iş görməyib. Onlarınkı eşşəyə gücü çatmayıb palanı döyəcləməkdir. Həm də izah etdim ki, yerli adamlar elə səhv iş görməzlər. Siz deyən elə bir şey varsa, şübhəsiz ki, İsaxlı kəndinə Ermənistandan qaçqınlar gəlib, onların işi olacaq. Yaxşı bilirsiniz ki, İsaxlı camaatı 1938-ci ildə Ermənistan SSR-in Sisyan rayonunun Dəstəyirt kəndindən köçüb gələn ailələrdi. İndi də Sisianda qalan 8000-ə yaxın azərbaycanlı əhalisi doğma yer-yurdundan qovulublar. Bir neçə Dəstəyirt ailəsi də İsaxlıdakı qohum-əqrəbasının yanına sığınıb. Çox qəzəblidilər. Zori Balayanla yanaşı II Vazgenə də lənət oxuyurlar. Deyirlər ki, erməni daşnaklarını qızışdırıb üstümüzə salanların biri də elə II Vazgendir. İrəvanın Teatr meydanındakı mitinqlərdə çıxışında deyib ki, Qarabağı Ermənistana birləşdirmək üçün lazım gəlsə 3 milyon ermənini qurban verməyə hazırıq. II Vazgenin davası Qarabağ ermənilərini xoşbəxt görmək deyil. Qarabağ torpağını Ermənistana birləşdirmək davasıdır. Görmədiniz saqqallılar Qarabağ savaşına başlayan kimi Üçmüəzzinin təşkilatçılığı ilə erməni kilsələri üstən saat ötürmədilər. 1987-ci ildə tezcənə «Qarabağ həmrəylik komitəsi» yaratdılar. Bütün yerli kilsələrdə özəklərini təşkil etdilər.

Daşnaksutyun partiyası ilə bir cəbhədə çıxış edirlər. Din hara, siyasət hara?! Axı, dindarlarımız əhalini, insanlarımızı müharibəyə, qan tökməyə deyil, əmin-amanlığa, qonşu haqlarını tanımağa çağırmalıdılar. Bəs Üçmüəzzinin «Ararat» qəzetində arximandrit Karapetin «Sülh yox, ancaq qılınc!» müraciətinə nə deyəsən?! Bəli, bu gün kilsənin müqəddəsliyi ayaqlar altına atılıb. Müqəddəslik erməni-daşnak fasistlərinin xaç atası rolunda çıxış edən kilsələr üçün mənasız şeydir. Erməni-daşnak faşistlərinə qoşulan xaç ata üçün müqəddəs bir şey varsa, o da türkü qırmaqdır.

Kilsələrin qarasına bildiklərimdən danışıram. Bunu da əlavə edirəm ki, İsaxlı camaatıyla aranızda bölünəsi bir şərikli malınız yoxdur. Dediyiniz şikayətlə bağlı qayıdanbaş bir tədbir görərəm. Qonşuluqda dava-dalaş salmayın, buna imkan verməyin. Duz-çörəyə hörmət edin. Qayda-qanunlara riayət edin, deyirəm. Onlarsa bir ağızdan etiraf edirlər ki, vallah, bizlik burada bir iş yoxdur. Araqarışdıranların hamısı saqqallılardı. İrəvandan gəliblər. Kəndlərdə at oynadanlar silahlılardı - boyeviklərdi. Siz onları Qarabağdan çıxarın, hər şey qurtarıb getsin. Biz sizinləyik. Azərbaycan hökumətinin qayda-qanunlarına riayət etməyə hazırıq. Hamısı bir ağızdan «biz sizinləyik» deyirlər. Bunu deyən əməksevər, zəhmətkeş erməni kəndlilərinin gözlərinin içinə baxıram. Onların sözlərinin səmimiyyətinə hər halda inanıram. Və bir də ona inanıram ki, erməni xislətinin, erməni xarakterinin ana xətti tarix boyu güclü tərəfə yıxılmaq olub. Əlbəttə, bizim hökumət öz gücünü göstərib erməni-daşnak terrorçularını Qarabağ torpağından kənar etsə, ayağını bu yerlərdən kəsə bilsə, torpaqlarımızın toxunulmazlığını təmin etsə, Qarabağ erməniləri istər-istəməz bizim sözümüzü deyəcək, bizim istəyimizi yerinə yetirəcəklər...

...Bəli, erməni-daşnak faşizminin xaç atası kilsələrdir. Erməni-daşnak faşistlərinin siyasi özək təşkilatı Daşnaksutyun partiyasının yaranma tarixi də bunu sübut edir. Daşnaksutyun partiyasının kilsə ətrafında sarmaşıq tək xaç üstə sarınmış yumaqdan çöz aldığı, maya tutması qaçılmazdır, danılmazdır. Erməni-daşnak faşistləri hər zaman bu nüvə ətrafında fırlandığını, kilsələrdən güc aldığını nümayiş etdirən əməl sahibi olublar. Bunu biz də hər zaman müşahidə etmişik. Kilsə xadimləri bütün tarix boyu erməni dilini, ədəbiyyatını, olmayan, lakin qonşulardan əxz etdikləri adət-ənənələri özününküləşdirərək ildən-ilə, nəsildən-nəslə ötürən mühafizəkara dönüblər. Bir qayda olaraq kilsələr ölən daşnak terrorçusuna yas tuturlar. Daim onu yad edirlər. Xatirəsini anırlar. Həmişə həbs cəzasına məhkum edilən daşnak terrorçularının, insan qatillərinin müdafiəsinə qalxırlar. Daşnaksutyun partiyasının keçirdiyi tədbirlərdə yaxından iştirak edirlər, başda otururlar. Erməni-daşnak terrorlarının həyata keçirilməsinə xeyir-dua verirlər. Həmişə erməni xalqını fəlakətə aparan, faciədən-faciəyə sürükləyən daşnak təbliğatının, erməni-daşnak faşistləri tərəfindən etnik münaqişələrin, ədavətlərin törədilməsində Daşnaksutyunla qoşa addımlar atırlar. Bir sözlə, kilsələr daşnakların hami-tərbiyəçisi, müdafiəçisi və müttəfiqi qismində çıxış edirlər.

## DAŞNAKSUTYUN İFRAT FAŞİST PARTİYASIDIR

Faşizm Daşnaksutyun partiyasının təbiətində, onun mahiyyətindədir. Bunu eləcə onun I qurultayda (1892) qəbul etdiyi proqram sənədindəki fundamental, təməl prinsiplər təsdiq edir. Silahlı üsyanlara hazırlıq, inqilabi çağırışlar və təbliğat, erməniləri silahlandırmaq və dayaq dəstələrini nizami ordu şəklində təşkilatlandırmaq, terror və talanlarla məqsədə çatmaq kimi vəzifələri partiya fəaliyyətinin prioriteti sayırdı. Daşnaksutyun hələ yaranmağını, yaradıldığını öz xalqına bəyan etdiyi gündən (1890) qan-qan deyirdi. Öz fəaliyyəti ilə siyasi və iqtisadi müstəqilliyə nail olmaq üçün Türkiyə ermənilərini silahlı üsyana səsləyirdi. Partiyanın ilk mətbu orqanı olan «Draşok» qəzeti yazırdı: «Partiyanın ilk üç ildə müəyyən bir proqramı olmamışdı. Məqsədləri ancaq və ancaq üsyanlar etmək yolu ilə Türkiyə Ermənistanı üçün siyasi və iqtisadi hürriyyət qazanmaq olmuşdu. Komitənin təşkilatlara verdiyi ilk əmr də məhz bu məqsədə xidmət edirdi: «Hər cür şəraitdə türkləri və kürdləri qırmalı, məqsədimizə xəyanət edən erməniləri heç zaman bağışlamamalı və onlardan qisas almalı». Daşnaksutyun 1897-ci ildə isə taktika, quruluş, intizam və qismən terror məsələlərinə dair qərarlar qəbul edir. 1904-cü ildə hərbi səfərbərlik və onun təşkili məsələlərinə dair müzakirələr keçirir. Partiya qərargahında Erməni İnqilab Şurasının hərbi nizamnaməsi hazırlanır. Ümumiyyətlə, Daşnaksutyunun I, II və III qurultaylarının, 1905-1906-cı illərdə keçirilən «Qafqaz rayon» yığıncaqlarının, 1907-ci ildə keçirilən IV qurultayının qərar və qətnamələrinin, 1908-ci ildə qəbul olunan proqramlarının məğzini müqayisəli şəkildə təhlil və tədqiq etdikdə yekun nəticə bundan ibarətdir ki, ermənilərin azadlığa çıxarılması, müstəqil erməni respublikasını (torpağı olmayan bir xalqın dövlətini) yaratmaq əsas məqsəddir. Mahiyyətini, məzmununu faşizm ideologiyası təşkil edən ifrat mürtəce bir partiya olan Daşnaksutyunun timsalında sanki torpağı, ərazisi və paytaxtı olmayan, lakin bütün dövlət atributları olan bir faşist erməni dövlətinin mövcudluğunu, qurulduğunu görürük. Daşnaksutyun özünün I qurultayından zinavorlar (əsgər) hazırlığına başlayır, onun Birinci Rus inqilabı ərəfəsində artıq 100.000-lik ordusu olmuşdur. Dövlət milisi, özünümüdafiə və döyüşən qrupları, terror təşkilatları, maliyyə, maarif, statistika, prokurorluq, məhkəmə, ali məhkəmə, Baş hərbi şura, Baş qərargah və s. qurumları təsis edilir. Erməni cəmiyyətinin bütün təbəqələrini əhatə edən, öz nəzarətində saxlayan, ayrı-ayrılıqda nizamnaməsi olan birlik və bölmələri, beynəlxalq və dini təşkilatları fəaliyyət göstərir. Bütün dövlət təsisatları yaradılır. Daşnaksutyunun o gündən bu günə dünyanın ayrı-ayrı regionlarını əhatə edən büro və komitələri mövcuddur. Mərkəzi komitənin nəzdində «Deli» kəşfiyyat təşkilatı fəaliyyət göstərir. «İşçi komitet» partiyanın Qafqazdan kənarda yerləşən fabrik və emalatxanalarında partlayıcı maddələr hazırlamaqla, silah tədarükü ilə məşğul olur. «Tədqiqat Orqanı» isə «Böyük Ermənistan» ərazisində (Rusiya,

Türkiyə, İran) hərtərəfli hərbi-statistik məlumatlar toplayır. «Özünü müdafiə» qrupları şəxsi silahla təchiz edilmiş fədailərdən seçilir və s. Daşnaksutyunun təşkilati quruluşu Yəhudilərin Beynəlxalq İttifaqlarından mürəkkəb olsa da tamdır. İstər partiya, istərsə də erməni icmasının ictimai fəaliyyət sahələrində nəzarətdən kənarda qalma hallarına rast gəlinmir. Daşnaksutyun, bir sözlə, nə qədər geniş fəaliyyətli və açıq proqramlı partiya olsa da, bir o qədər də qapalı və mürəkkəb quruluşa malik bir təşkilatdır. Lakin tərkib hissələrinin qarşılıqlı əlaqəsi bir-birini tamamlayır, ayrı-ayrı qurumları qırılmaz tellərlə bir-birinə bağlanır. Partiya öz hegemonluğu ilə seçilir. Mərkəzi Komitənin və məsul orqanın yekdil qərarı ilə terror aktları həyata keçirilir. Daşnaksutyun yeganə partiyadır ki, öz nizamnaməsində terrora, silahlı dəstələrin saxlanmasına birbaşa yer ayırır. Daşnaksutyunun 1907-ci ildə qəbul olunmuş nizamnaməsinin 122-ci maddəsinin 4-cü bəndində hər bir komitənin ildə ən azı 50 silahlı döyüşçü hazırlaması tələb olunur. 147-151-ci maddələrdə isə hər biri 10 nəfərdən ibarət çoxsaylı terror qruplarının təşkil edilməsi tələbini irəli sürür. 155-157-ci maddələr isə terror başlığı altında verilir. Hər bir təşkilatın ən azı 10 nəfər silahlı üzvünün olması və silahlı dəstə saxlaması məcburidir.

Ümumiyyətlə, Daşnaksutyun istər siyasi, kütləvi olsun, istərsə də fərdi olsun, terrora ali məqsədə çatmağın ən əlverişli vasitəsi kimi baxır. Terrorsa Daşnaksutyunun proqram sənədlərində özünü əsas fəaliyyət qayəsi kimi göstərir. Daşnaksutyunu qanlı terror aksiyalarından ayrı təsəvvürə gətirmək mümkün deyildir. Daşnaksutyun öz nizamnaməsində siyasi terroru hüquqi norma səviyyəsinə qaldıran, erməni cəmiyyətinin şüuruna yeridən və ona yiyələnən bir faşist partiyası kimi xarakterizə olunur. Daşnaksutyunun nəzəri və taktiki proqramı əslində milli müstəsnalıq və milli təkəbbür zəhərini ara vermədən erməni xalqının damarlarına yeritmək və ona qonşu xalqlara qarşı qəddar düşmənçilik hissi aşılamaqdan ibarətdir. Daşnak ideologiyasına əsasən, ermənilər uşaqlarını körpəliyindən türkə qarşı düşmənçilik əhvali-ruhiyyəsində tərbiyə etməlidir və edir. Qarayaxmaları, çirkin təbliğat kampaniyaları heç zaman səngimək bilmir. Müxtəlif tarixi şəraitlər belə, düşünülmüş addımlar atır, müvafiq və məqsədyönlü şəkildə təcavüzkar siyasətlərini aravermədən aparır. (Qonşuya qarşı təcavüzkar siyasət yeridən, bundan əl çəkmək fikrində olmayan erməni-daşnak faşistləri tarix və bəşəriyyət qarşısında bir gün cavab verməli olacaqlarını əsla dərk etmək istəmirlər!)

Daşnaksutyun bulanıq suda balıq tutmaq vərdişini erməni millətinin xislətinə çevirir. Daşnaksutyunun faşizmə oturuşunu erməni milləti və erməni millətçiliyi, bir sıra erməni ziyalıları anlamış olsalar da, onların cinayətkar hərəkətlərini ört-basdır etmək əməllərindən əl çəkmirlər. Bəlkə də faşizmin klassik düsturundan - ziyalı üçün millət və milli-sosialist ideologiyası qarşısındakı borcu hər şeydən vacibdir və üstündür - prinsipini əsas götürürlər. Daşnaksutyun erməni cəmiyyətini peşə, cins və yaş fərqlərinə görə müxtəlif ictimai təşkilatlar vasitəsi ilə

nəzarət altında saxlayır. Təbliğatını sistemli şəkildə aparır, demək olar ki, əsl reallıq hipnoz və terror səddi qarşısında neytrallaşdırılır. Uydurmalarla, boş vədlərlə «Böyük Ermənistan» sayıqlaması erməni cəmiyyətinə həqiqət kimi qəbul etdirilir. Xülya inadla, ardıcıl şəkildə beyinlərə yeridilir. Daşnaksutyun özünü erməni xalqının siyasi-milli konsepsiyasının, milli siyasi təfəkkürünün, milli-siyasi iradəsinin ifadəçisi və təmsilçisi kimi vəsf edir. Sanki Daşnaksutyun erməni xalqının milli ruhu, milli iradəsidir. Erməni-daşnak faşistləri üçün Daşnaksutyun partiyasının məkrli strategiyası və mənfur proqramı ehkamdır. Bu proqramı qəbul etmək partiya üzvü olub-olmamasından asılı olmayaraq hər bir erməni elementi üçün qanundur. Məcburi borcdur. «Hərbi doktorina» Daşnaksutyunun mahiyyətində özünə yer tutur. İstər siyasi, istərsə də daxili nizam-intizamı hərbi qayda-qanunlara tabe edilir. Daşnak fərdləri, partiya üzvləri tutduqları mövqedən asılı olmayaraq tam və qeyd-şərtsiz şəkildə partiyaya tabe edilirlər. «Kim bizdən deyilsə, demək, bizə qarşıdır» prinsipi milli mənafe əleyhinə fəaliyyət kimi qiymətləndirilir.

1950-ci ildə cızılan və ərazisi 200000 $km^2$ göstərilən (hətta son zamanlar bu rəqəm 300000 və 400000 $km^2$-dək şişirdilir) «Böyük Ermənistan» xəritəsi hamıya bəllidir, bu daşnak xülyasından doğan bir ilğımdır. Bu gün «Böyük Ermənistan» haqqında daşnak düşüncəsi - bu böyük yalan nəsildən-nəslə ötürülərək beyinlərə də çökdürülüb ki, erməni gənci tərəfindən həqiqət kimi qəbul olunur. «Böyük Ermənistan» xülyasının gerçəkləşəcəyinə onlarda inam yaradılır. Erməni biznesmeni varını bu yolda qoymağı özünə vicdan borcu sayır. Elə bir erməni yazıçısı tapmaq və göstərmək (eləcə də elmin, incəsənətin başqa sahələrində də) çətindir ki, o, «Böyük Ermənistan» xülyasının təbliğindən və təşviqindən yan keçmiş olsun. Onun təbliğinə bədii və ya publisistik əsərlərində az da olsa yer verməmiş və mənzərəsini təsvir etməmiş olsun.

Daşnak psixopatlarının siyasiləşmiş millətçilik inteqrasiyasını milliyyətçilik ilə qarışdırmaq olmaz. İsterik milliyyətçilik irqçidir, işğalçıdır. İsterik milliyyətçilik fanatik duyğular doğurur. Hirsə hakim olmamaq ruhu yaradır. Tarix isə öz axarında gedir. Bu zaman daşnak psixopatlarının isterik milliyyətçiliyi həm ermənilərin saxta özül üzərində qurulan etnoqrafik cığırlarının, həm də «Böyük Ermənistan» yalanının səddini aşmaq üçün qan tökülməsinə çıxış yolu kimi baxır. Millətlər arasında ədavəti, çarpışmanı dəstəkləyir, irqçiliyi təbliğ edir. Nifrət və təqib közünü üfürüb alovlandırırlar. Daşnak manqurtu, Qarabağ separatçısı, hazırda Ermənistan Respublikasının prezidenti Köçəryan Strasburqda, AŞ PA-nın sessiyasında çıxış edərək deyir ki, azərbaycanlılarla ermənilər etnik cəhətdən uyğun deyil. Bu açıq-aşkar irqçilikdirsə, faşizm deyilmi? Daşnaksutyuna görə, türk qismində şəxsiyyət yoxdur, ancaq məhv ediləsi türk adamı var. Daşnak üçün hər bir türk günahkardır, məhv olmağa layiqdir. O öldürülməlidir, çünki türkdür. Erməni-daşnak faşizminin ali məqsədi türkü mənəvi, siyasi və fiziki cəhətdən sındırmaq əsas deyil, güllələmək, məhv etmək, yurd-yuvasından didərgin salmaqla

istəklərinə nail olmaqdır. Türklər bir nömrəli düşmən hesab edilir. Hər bir erməni fərdinin şüuruna türk adamı «erməni soyqırımını» törədən və erməni xalqını 600 il əsarətdə saxlayan, ermənilərin qəsdinə duran düşmən kimi yeridilir. Hər bir ermənin başına gələn faciəyə görə türkləri günahlandırırlar. Güclü və sistemli şəkildə antitürk təbliğatı aparılır, kütlənin isterikasını qızışdırmaq üçün kütləvi, davamlı təşviqat kampaniyaları təşkil olunur. Xarici təhlükə var, bu türk təhlükəsidir, deyirlər. Uydurma xarici türk təhlükəsinə əhalini inandırırlar. Əhalini qorxu içində saxlayırlar. Onu siyasi cəhətdən öz ətrafında birləşməyə məcbur edirlər. Bir sözlə, Daşnaksutyun erməni cəmiyyətini simasızlaşdırır.

Erməni-daşnak psixopatlarının «Böyük Ermənistan» sayıqlaması ifrat millətçilik və böyük dövlətçilik isteriyasına yol açır. Bu isteriya bu gün bütünlüklə erməni xalqının ictimai şüuruna yeridilmiş, artıq ayrı-ayrı siyasi partiya, ictimai birlik və başqa erməni təşkilatlarının proqram sənədlərində ideoloji mübarizə prinsiplərinin baş düzümünə çevrilmişdir. Daşnaksutyun özünün 130 illik fəaliyyəti ərzində (1890-cı illərin axırlarından başlayaraq ermənilərin yeganə rəhbər siyasi təşkilatı olmuşdu) özünü erməni milləti ilə, erməni cəmiyyəti ilə, «Böyük Ermənistan» xülyası ilə eyniləşdirmişdir. Daşnaksutyunun əleyhinə atılan istənilən addım, habelə onun tələblərinə tabe olmayan kimsənin hərəkəti millət qarşısında xəyanət tək dəyərləndirilir. Həmin şəxsin millətçilikdən uzaq düşən xəyanətkar kimi cismən aradan götürülməsinə qərar verilir. Ermənilərdən daşnaklaşmış xalq məfhumu yaradılır. Öz başı, düşüncəsi ilə hərəkət edən, daşnakların tələblərini yerinə yetirməyən, onun faşist ideologiyasını bəyənmədiklərini demək cəsarətində olan erməni millətinin vicdanlı nümayəndələrini daşnak terrorçuları daim arayıb-axtarır və qətlə yetirirlər. Daşnak terrorçularının Moskvada qətlə yetirdikləri Janbaryan, İzmirdə öldürdükləri Balyazyan, Novorossiyskdə həyatına qəsd etdikləri Babalyan, müxtəlif dövrlərdə Azərbaycanda həlak etdikləri Yevgeniya İşxanyan (Xankəndi), Suren Adamyan (Çartaz) və başqaları məhz belələrindən olmuşlar. Əbəs yerə deyil ki, inqilabçı Daşnaksutyun partiyası el arasında terrorçu partiya da adlanır. Qanmaz və vəhşi hislərə mübtəla olmuş daşnak terrorçuları qarşısında millət diz çökür. Daşnaksutyun partiyası öz mövcudluğunu elə terrorla da saxlayır və qoruyur. Elə bu səbəbdən də o, daim terror obyekti axtarıb tapır. Çünki yaxşı bilirlər ki, fəaliyyətsiz terror aparatı gec-tez dağılmağa məhkumdur. Bütün erməni terror təşkilatları müxtəlif adlar altında fəaliyyət göstərsələr də, çeşid-çeşid ünvanlar daşısalar da, bütün bunlar gözdən pərdə asmaq üçündür. Hər biri Daşnaksutyun partiyasının, onun terror təşkilatının ayrılmaz tərkib hissəsindən başqa bir şey deyildilər. Hər birinin dəst-xəttində, hərəkət tərzində Daşnaksutyunun ruhu, qisasçılıq motivi durur. Hər bir terror aksiyası öz qaynağını erməni-daşnak faşizminin ideoloji bazasından alır. Milli ideologiya kimi qəbul edilən daşnak ideologiyasına, onun gələcək qələbəsinə şübhəylə yanaşan hər kəs təqib olunur. Sıravi daşnakın avtoritar düşüncə tərzinə məcburi itaətkarlığı var. Daşnak üçün

erməni fərdi mütləq mənada vətəndaş deyil, burada hamı milli, daha doğrusu, daşnak demaqoq və yalançı təfəkkürünün formalaşdırıldığı, saxta notlar üzərində qurulan və bərqərar edilən ideologiyaya xidmət göstərməyə və verilən tapşırıqları yerinə yetirməyə borclu olan robortdur. Daha dəqiq desək, daşnak ideoloquna görə erməni milləti mal sürüsüdür. Erməni cəmiyyətində iyerarxiya qazanan daşnak ideologiyası var. Bu ideologiya avtoritarlığa və avtoritetin qeyd-şərtsiz haqlı olmasına bağlı olan inama əsaslanır. Tələb etirazsız, mübahisə və şübhələrə yer qoyulmadan mütləq həqiqət kimi qəbul edilir. Daşnak sırasında, əlbəttə, həqiqi siyasi avtoritetə yer yoxdur. Bu halda demokratik cəmiyyətin mövcudluğu qeyri-mümkündür. Xalqı öz təbliğatının inhisarına almış daşnak ideologiyasının itaətində durmağa məhkum edən məcburi könüllülüyün yaradılması prinsipi var. Bu prinsip terrordur. Çox yaxın keçmişdə erməni parlamentində törədilən terror aksiyasını yada salmaq yetərlidir. Axı, erməni milləti üçün «Böyük Ermənistan» utopiyası ümidə inam və gələcək deməkdir. Əgər belə olmasaydı, təbliğatı inhisara almaqla erməni xalqının əxlaqını pozan daşnak demaqoqları Z.Balayan, S.Kaputikyan, S.Xanzadyan, akademik Hambarsumyan və başqaları öz siyasi əxlaqsızlıqları ilə SSRİ AS-nin qurultaylarında vecsiz-vecsiz meydan sulamazdılar.

Ümumiyyətlə, daşnak ideologiyasına xidmət göstərən hər şey qəbul ediləndir, onun ziyanına işləyən qeyri-şeylər isə zərərlidir və məhv edilməyə layiqdir. Daşnaksutyunun mütəşəkkil terror aparatı daim fəaliyyətdədir. Həm də fiziki terror mənəvi və ideoloji terrorla daim çulğalaşır. Nifrət obyekti üzərində cəmləşən və obyektə qısqırdılan terror subyektləri fanatizmi yüksək həddə saxlayır. Beynəlxalq yalan olan «Böyük Ermənistan» xülyasının təməlində həm də böyük ağlasığmaz şişirtmələr durur. Əvvəl-axır ölçü-biçi tanımayan bu yalanların müvəffəqiyyətsizliyə uğrayacağı məlumdur. Lakin səmərəli, ardıcıl və sistemli şəkildə aparılan daşnak təbliğatı əks təbliğatla üzləşmədiyinə görə, qərbə obyektiv informasiya ötürülməməsi nəticəsində hələ ki, erməni yalanları ayaq açıb yeriyir. Erməni hiyləsinin, erməni kələyinin üstü açılmır. Hətta erməni təbliğatı tək informasiya ötürmək üçün deyil, həm də müharibə aparmaq üçün hesablanır. Türkü gözdən salmaq üçün ən xırda fakt və hadisələr mümkün olduğundan da çox şişirdilir və yanlış, tamamilə təhrif olunmuş formada Qərb ictimaiyyətinə ötürülür. Türk düşmənçiliyi qarşısında «əzabkeş, məzlum, çox zülmlər görmüş» erməni obrazı özünə yer tapır. «Türk düşmənçiliyi erməniləri birləşdirir!» şüarını əllərində dəstavüz edən daşnak ideoloqları hələ də dərk etmək istəmirlər ki, bu düşmənçilik öz kulminasiya nöqtəsində erməni millətinin fəlakətinə him qoyur. Əlbəttə bu aksiya gələcəkdə ermənilərin təkrar yerdəyişmələrinə, hətta varlıqlarının yer üzündən silinməsi ilə sonuc tapa bilər. Erməni-daşnak faşistlərinin törətdikləri terror aktlarını, erməni barbarlığı, erməni vandalizmi və Azərbaycan türklərinə qarşı apardıqları etnik təmizləmə və soyqırımı siyasəti kimi ifadə olunan vəhşət və dəhşətlərini ümumi türk milliyyəti hələ ki, seyrçi mövqedən müşahidə edir. Bu parabeyinlərin, daşnak psixopatlarının hələ də ağıllana biləcəklərinə ümid edərək

astagəlliklə gözləmə mövqeyində dayanıb hadisələri izləməkdədirlər. Hələ də fərqində deyillər ki, müxtəlif zaman kəsiklərində, komitəçilər, xumbabetlər, mauzerçilər, daşnaksağanlar, çetelər, terrorçular, boyeviklər, saqqallılar, ağköynəklər, fədainlər və s. adlandırılan erməni daşnaklarının bir ünvanı var - erməni-daşnak faşistləri. Öz qəddarlığı, dəhşət və vəhşətləri ilə alman faşizmini kölgədə qoyan erməni-daşnak faşistləri artıq insan cildinə girmiş qaniçən yırtıcı halına gəlmişlər. Vəhşi hislərini soyudacaq türk qanına susamaq, türk qanı axıtmaq, türk qanı içmək hərisliyi kimi bir xəstəliyə, mübtəla olmuşlar. Erməni-daşnak faşizmi mövcud olmuş faşizmlərin ən dəhşətli forması kimi təzahür edir və özünü təsdiqləyir. Erməni-daşnak faşizmi faşizmin ağılagəlməz elə bir növü, elə bir variantıdır ki, min illər bundan sonra da onun oxşarı, analoqu ola biləcək dəhşətli bir faşizmin doğulacağına, yetişəcəyinə inanmaq çətindir, qeyri-mümkündür.

Erməni-daşnak təbliğatının mahiyyətində - türk elə türk doğulduğuna görə məhv edilməlidir israrı var. Türk türk olduğuna görə, erməni qabağında müqəssirdir, o, erməni adamına əl qaldırmamalıdır, erməni-daşnak faşistlərinin qarşısında özünü qurbanlıq quzu kimi aparmalıdır ideyası təbliğ olunur. Yarandığı gündən «erməni məsələsini» ancaq silah gücünə həll etmək konsepsiyasına proqram sənədlərində geniş yer verən, qol qoyan və yol açan Daşnaksutyun partiyası elə bu səylə də «Böyük Ermənistan» xülyasını gerçəkləşdirmək üçün hər cür vasitəyə can atmaqla isterik millətçiliyi ilə erməni ictimai-siyasi fikrində hegemonçuluğu da ələ almışdır. Onun terrorçu dəstələri ilə yanaşı nizami ordusunun da varlığı həlledici üstünlüyünə xüsusi önəm vermişdi. Ermənilərlə bağlı olan məsələləri onsuz həll etməyə heç kəsin cəsarəti, gücü-qüvvəsi çatmamışdı. Daşnaksutyunun siyasi arenadakı nüfuz sahiblərinin yezuitizmə əsaslanan siyasətləri onların dələduzluğunu, buqələmunluğunu, manevretmə imkanlarını daha da artırır. Daşnak ideologiyasının mahiyyətindəki yezuidizm siyasəti erməni-daşnak faşistlərinə faşizm kimi bir ana xəttini xristianlıq qalxanı altında gizlətməyə, pərdələməyə imkan verir. Digər tərəfdən «erməni məsələsi»nin hər zaman Qərbin böyük dövlətlərinin Şərq məsələsindəki düyünlə həmahəng səslənməsi erməni-daşnak faşistlərinin iştahını, türk dünyasına qarşı atılan hər cür qarayaxmalarını, böhtanlarını nəinki azaldır, əksinə daha da artırır. Daşnak başbilənlərinin ərazi iddiaları azalmaq bilmir, daim yüksələn xətlə davam edir. (Nə qədər erməni-daşnak faşistlərinin burnu əzilməyib, belə də davam edəcəkdir. Daşnak təbliğatına uymaq, daha doğrusu, daşnak manqurtuna çevrilmək naşılıqdan deyil, nadanlıqdan doğur. Çünki naşı olan ikinci addımda olmasa da, üçüncü addımda aldandığını hiss edir. Yolun yarısından qayıtmağın özünü də bir qənimət bilir. Peşmançılıq hissi keçirir. Lakin daşnak yolunu sonadək tutan nadanlar, bu qisim ermənilər manqurtlaşır. Buna heç bir şəkk-şübhəniz olmasın!)

Ayaq açıb yeriyən erməni yalanları, erməni uydurmaları xristian dünyasından dəstək alır. Dünya hökmranlığını ələ alan böyük xristian dövlətləri

gücü haqla, ədalətlə deyil, xristianlıqla birləşdirirlər. Bu da haqqı müdafiədə ikili standartlara gətirib çıxarır. Xristian-müsəlman diskriminasiyasına rəvac verir. Bu missionerlik daşnak ideyalarına yiyələnən, bu ideyalar beyninə, şüuruna hakim kəsilən ermənini son anda daşnak terrorçusuna çevirir. Daşnak terrorçusu isə türkə qarşı yönəlmiş canlı süngüdür. Erməni-daşnak faşistləri bəzən bu süngünü millətçilik terroruna çevirməyi də unutmurlar. Daşnak psixopatları uydurma erməni dəyərlərini olmazın dərəcədə, süni şəkildə şişirdib elə bir həddə çatdırırlar ki, paralel olaraq millətin özünü də psixoz vəziyyətə salırlar. Bunu bacarmadıqda, soyuq düşüncə ilə uydurmaları qəbul etməyənlərə qarşı millətçilik terrorundan istifadə edirlər. Bu yolla milləti qorxu altında saxlayırlar və yeni-yeni fəlakətlərə sürükləyirlər. Soydaşını ölümə məhkum edirlər. Burada bir misalı təkrarlamaq yerinə düşər: Qarabağın onlarla türk yaşayış məntəqələrini oda qalayan, türk balalarını süngü ucunda gəzdirən, hamilə türk qadınlarının qarnını yarmağından həzz alan, bundan fərəhlə danışan Domudakı daşnak terror qrupunun başçısı Tevon Daşnaksutyunun tələblərinə tabe olmayan soydaşlarından da keçmir. Türklərə qardaş münasibəti bəsləyən həmyerlisi Şimovan Davidyanı şaqqalayır, əzalarını parça-parça edir. Əlaltısına bu bədən parçalarını bir yerə topladır. Sonra isə mərhumun anasını balasının meyiti - demək mümkünsə - ət-sümük topasının ətrafında oynamağa məcbur edir. Belə bir vandalizmi hər hansı başqa bir xalqdan, millətdən olan faşist cəlladına deyil, ancaq və ancaq erməni daşnak xislətli faşistə xas fakt kimi qiymətləndirmək və qəbul etmək olar. Erməni-daşnak faşistlərinin bu sayaq cinayət faktlarına heç bir mədəni xalqın tarixində rast gəlinmir.

Erməni-daşnak faşistləri həm millət terroru, həm də isterik millətçilik yolu ilə, habelə utopik «Böyük Ermənistan» yalanını elə geniş və açıq şəkildə təbliğ edirlər ki, onun bərqərar ediləcəyinə xalqda inam yaranır. Busa «Böyük Ermənistan» yaratmaq utopiyasına inanan ermənilərin həm də dünya ağalığına iddialı olmalarından xəbər verir. Dünya ağalığı iddiasında olan hər bir ideologiyanın ana xətti, onun hərəkətverici qüvvəsi faşizmin millitarist siyasətinə söykənir. Faşizm ideoloqları tərəfindən damağına şəkər tozu əzilib səpilən millət qonşu millətlərə qarşı vəhşiliklər törətməyə məcbur edilir və ya buna şirnikləndirilir. Bütün bu yollardan keçən, sınaqlardan çıxan Daşnaksutyunun iblisanə gəzişmələri ilə öz xalqını şeytanların kirayənişi etmələri şübhəsizdir. Onları faşist rejiminin əlaltılarına çevirmələri göz qabağındadır. Bu gün «zəhmətkeş» və «əzabkeş» təbəqələrin hərəkətləri belə göstərir ki, erməni xalqı bütövlükdə daşnakların təbliğ etdikləri ifrat millətçi-sosialistlərin faşist ideologiyasına yoluxur. Erməni-daşnak faşistləri erməni xalqını yaradıcı, əməkçi xalq yolundan çıxarıb yırtıcı xislətli bir xalqa çevirmək əzmindədilər. Daşnak ideologiyasının daşıyıcılarına insan adı vermək olarmı?!

Dəhşətli fakt odur ki, bu gün «zəhmətkeş» və «əzabkeş» ermənilər sanki erməni kimi yox, daşnak kimi doğulurlar. Sonra isə özlərini bu addan, bu adın doğurduğu, gətirdiyi bəlalardan sığortalamaq, qorumaq üçün «erməni» sözüylə

maskalanırlar. Daşnak xislətlərini üzdə gizlədirlər. Başqa adda olan partiya, bu və ya digər ictimai təşkilatlara üzv yazılırlar. Sətiraltı çıxışlar edirlər. Son nəticədə, həlledici addımlar atılanda maskaları yırtılır, daşnak xislətli olmaları üzə çıxır və ixtiyari erməni iyrənc şəkildə olsa da öz iç-üzünü zahirdə rüsvayçılıqla büruzə verir, özünü başqa ünvan sahibi kimi göstərsə də, hesab etsə də daşnak kimi tanıdır. Geyimli erməni fərdi ikiüzlü və riyakardır. Bu ikiliyin özü də daşnak ideologiyasının əsasında, təməlindəki ikilikdən - nasionalist və yezuitlikdən doğur. Əlbəttə, Daşnaksutyun özü-özlüyündə faşizmdir. Faşizmdən qəddar ifrat faşizmdir.

Nasionalizmdən fanatizm doğursa, yezuitlik isə təməl insan şəxsiyyətini ikiləşdirir. Bir-birinə zidd iki mən doğurur. İctimai «mən» və fərdi «mən». Yezuitizm məqsədə çatmaq üçün hər bir vasitədən istifadə etmə siyasətidir. İctimai «mən» yezuitizmi, fərdi «mən» isə nasionalizmi təmsil edir. Faşizmi və yezuitizmi özündə birləşdirən Daşnaksutyun irqi nəzəriyyəyə və ari irq ruhuna prinsipial mövqedən deyil, ikiüzlü, riyakar emosiyalar baxımından, toplumdan yanaşır. Daşnak üçün siyasi rəqib yoxdur, türk düşmənçiliyi var. Dini inancından, dünyagörüşündən, yaşından, cinsindən asılı olmayaraq milliyətinə görə türk öldürülməlidir, öldürülür də. Buna «haqq» qazandırırlar. Daşnaksutyun zorakılıq üstə qurulan partiyadır. Faşizm onun mayasında oturur. Cinayət törətməsə yaşaya bilmir. Çox qəribəlikdən biri də budur ki, ortada hal şahidi kimi erməni riyakarlığı özünə yer alıbsa, daşnakların törətdikləri cinayəti cinayət kimi qəbul etmək çətindir. Ermənilər gözləri qabağında baş verənləri görür, lakin özlərini korluğa, görməzliyə vururlar. Digər bir tərəfdən isə ermənilər törətdikləri cinayətin izini itirməkdə mahirdilər. Onlar terroru elə həyata keçirirlər ki, guya onların heç nədən xəbəri yoxdur. Bütün mərhələlərdə bu «fonemenlik» özünü büruzə verir.

Dünya yaranandan bu günə kimi Yer kürəsində təxminən 15 minə yaxın müharibə qeydə alınıb. Cahangirlik iddiasında olan super işğalçılar belə qəsb etdikləri torpaqlarda əliyalın, dinc, təhlükəsiz əhaliyə, qocaya, qadına, uşağa daşnak vəhşəti ilə toxunmayıblar. Onları məhv etməyiblər, son nəfərinədək yaşadıqları ərazilərdən qovub çıxarmayıblar. Yaşayış məntəqələrini yandırıb külə döndərməyiblər. Qəbiristanlıqları şum altına verməyiblər. Kim deyə bilər ki, alman faşistləri uşaq güllələyib, hamilə qadınların qarnını yırtıblar və yaxud kiminsə kürəyinə qaynar samovar bağlayıblar. Erməni-daşnak faşistləri yer üzündə bəlli olan sırada yeganə təcavüzkardılar ki, işğal və qəsb etdikləri ərazidə özgə torpağı və sümükləri üstə dövlət qurur, vətən anlayışını aborigen millətin yer üzündən silinməsində, yaddaşlarının məhvində, maddi və mədəniyyət abidələrini, adət və ənənələrini mənimsəməkdə, özününküləşdirməkdə görür, öz təhlükəsizliklərini təmin etmək üçün bələkdəki körpələrini belə süngüyə keçirib tonqallara atırlar. Qaniçən daşnak generalları Tayqulaq Andronik, Dro, Nijde, Hamazasp, Xeço, Doluxanov, Hələbyan, Nişanyan, Kerri, Canpoladyan, Banduxt, Arqutinski, Nazarbekyan, Hacı Levon, Bağdasaryan, Lalayan və onlarca başqaları bu gün lənətlənmək əvəzinə milli qəhrəmanlar kimi saxta erməni tarixində özlərinə yer

almışlar. Bu günsə onların yerini daşnak terror qruplarının çoxsaylı rəhbərləri və beynəlxalq aləmdə həm özləri, həm də mənsub olduqları, terror fəaliyyətində ad çıxarmış bədnam erməni terror təşkilatlarının insan qəssabları tuturlar.

Bəli, erməni-daşnak faşizminin əsas silahı terrordur. Bu terror bu gün və ya dünən yaradılmayıb. Bu, ardıcıl tarixi bir prosesin son nəticəsidir. Daşnaksutyun özünün 1919-cu ildə keçirdiyi mənfur qurultayında «gənc türklər» dövlətinin baş naziri Tələt paşadan tutmuş AXC-nin baş naziri F.Xoyskiyədək 200 nəfər türk ictimai xadimini məhv etmək üçün adbaad siyahı tərtib etmişdir. Erməni-daşnak terrorçuları tərəfindən qısa bir zaman kəsiyində bu insanların həyatına sui-qəsdlər təşkil edilmişdi. Terror məhv edir. Vahimə yaradır. Etnik təmizləmə siyasətini həyata keçirir. Daşnaksutyunun bünövrəsini qoyduğu, mütəşəkkil hala gətirdiyi terror hərəkatı daşnak şinelindən çıxmış, daşnak məktəbi keçmiş bütün erməni təşkilatlarının, partiya və ictimai birliklərinin, ayrı-ayrı fərdlərinin həyat normasına çevrilmişdir. Bu gün Yer kürəsinin bütün guşələrində erməni-daşnak terrorunun şəbəkəsi var və əməli fəaliyyət göstərir. Öz mütəşəkkilliyi ilə seçilir. Təkcə Tayqulaq Andronikin apardığı türk qırğını öz qəddarlığına, öz mütəşəkkilliyinə, kütləviliyinə və fəallığına görə misli-bərabəri olmayan türk soyqırımı, türk qətliamı idi. Bu cinayəti ört-basdır etmək, faş etməmək, dünya birliyinə tanıtmamağın özü də bir cinayətdir. Bir insan kimi insanlığa qarşı çevrilən bu cinayətdən xəbərdar olub, canini, insan qəssabını ifşa etməməyin, bəşəriyyət üçün, tarix üçün bir ləkə olduğu başa düşülməlidi. Fəaliyyətsizlik faşist ünsürünün adını yaşatmaq deməkdir. Acınacaqlı haldır ki, Nürenberq prosesinin müttəhimləri əyləşən kürsülərdə oturdurmalı olan daşnak terrorçusu, separatçı «DQR dövlət müdafiə komitəsinin sədri» kimi DQ-ın dinc, əliyalın azərbaycanlı əhalisinə qarşı törədilən terror aktlarının təşkilatçısı və iştirakçısı olmuş R.Köçəryan Ermənistan Respublikasının prezidenti kreslosunda oturur. Bu cinayətkarın erməni-daşnak faşistləri tərəfindən belə bir yüksək kürsüdə oturdulmasına ABŞ, AŞ, BMT, Fransa, Rusiya kimi qüdrətli dövlətlər və dünyəvi təşkilatlar heç bir reaksiya vermirlər. Əksinə, bu cani ilə üz-üzə oturub danışıqlar aparırlar; İrəvan şəhərində ASALA kimi dəhşətli beynəlxalq bir terror təşkilatının dövlət səviyyəsində muzeyi yaradılır. Cinayət aktları təbliğ olunur. Lakin dünya birliyi susur. Bütün bunlar azmış kimi dünya birliyinin gözü qarşısında beynəlxalq aləmdə yaxşı tanınan erməni-daşnak terrorçuları Karapetyan, Melkonyan, Davidyan, Ohanesyan və onlarla başqaları İran, Suriya, Livan, Fransa, ABŞ kimi xarici ölkələrdən İrəvana, oradan isə DQ-a ötürülürlər. Hətta R.Köçəryan tərəfindən beynəlxalq aləmdə ad çıxarmış terrorçulardan Davidyan və Melkonyan DQ-da səhra komandiri vəzifəsinə təyin olunurlar...

**Haşiyə 1:** Biz burada yuxarıda adları çəkilən və çəkilməyən, beynəlxalq aləmdə ad çıxarmış, bu günsə Qarabağda gedən terror müharibəsində iştirak edən erməni daşnak terrorçuları haqqında ayrı-ayrılıqda məlumat verməyi məqsədəuyğun sayırıq:

1. Vazgen Sislyan - Fransa vətəndaşı, ASALA terrorçusudur. 1981-ci ildə Parisdə Türkiyə səfirliyinin tutulmasında, Parisin Usman məhəlləsində 1991-ci ilin sentyabr ayında 60 girovu ələ keçirmək aksiyasında, 1991-ci ilin dekabr ayında Budapeştdə Türkiyə səfiri Bədrəddin Tünbaşa qəsddə iştirak etmiş qatildir. 34 yaşlı bu terrorçu Livandan turist adıyla İrəvana gəlib. 1992-ci ilin yanvar ayında oradan vertolyotla Xankəndinə göndərilib. Xocalı soyqırımında iştirak etməsi, burada ikigünlük türk çağalarını öldürməsiylə fəxr edir. «Moskovskiye novosti» qəzetinə verdiyi müsahibəsində bəyan edir ki, beynəlxalq diqqəti «erməni məsələsi»nə cəlb etmək üçün zorakılıq siyasəti aparmağın (əsl daşnak xisləti) böyük əhəmiyyəti var. Ermənistan prezidenti R.Köçəryan tərəfindən Vazgen Sislyan Xocalı soyqırımında törətdiyi vəhşiliklərə görə Qarabağ müharibəsinin «qəhrəmanı» elan edilib;

2. Monte Melkonyan - ABŞ vətəndaşı, 1975-ci ildən fəaliyyətdə olan ASALA terror təşkilatının yaradıcısı Hakop Hakopyanın ölümündən sonra həmin beynəlxalq terror təşkilatına rəhbərlik edib. Peşəkar terrorçu olub. Məşhur beynəlxalq İspan terrorçusu Karlosun şagirdi sayılır. Livanda terrorçular hazırlayan məktəbdə təlim keçib. Həmkarları arasında partlayıcı qurğuların hazırlanması və ondan istifadə üzrə mütəxəssis kimi ad çıxarıb. 1990-cı ildə İrəvana gəlib. Dərhal gizli yolla İrəvandan Dağlıq Qarabağa göndərilib. Məlun Z.Balayanın dəstəyi ilə yaradılan və onun şərəfinə «Zorik» adlanan terror qrupu ilə Azərbaycan Respublikasının ali hakimiyyət nümayəndələrinin uçduğu vertolyotun Qarakənd səmasında vurulması kimi terror aksiyasını həyata keçirib. Sonra isə DQ-da səhra komandiri kimi fəaliyyətini davam etdirib. O,1993-cü ildə Azərbaycan MO-nun hərbi hissələri ilə döyüş zamanı öldürülüb. Meyiti İrəvana aparılıb. Onun dəfn mərasimində R.Köçəryan başda olmaqla bütün rəsmi şəxslər iştirak edib. M.Melkonyan ER-nın milli qəhrəmanı adına layiq görülüb. Ermənistan Respublikası MN-nin nəzdindəki təxribatçılıq məktəblərindən birinə onun adı verilib;

3. Varujan Karapetyan - Suriya vətəndaşı, ASALA terrorçusudur. 1983-cü ilin iyun ayında Fransanın Orli aeroportunda partlayış törədib. 1988-ci ildə Ermənistan SSR-in və erməni diasporunun dəstəyi ilə Fransa hökuməti tərəfindən əfv olunub. O, həbsdən azad edilərək İrəvana gətirilib. V. Karapetyanın təşkilatçılığı altında yaradılan daşnak terror qrupları həm də onun rəhbərliyi altında və özünün iştirakı ilə Ermənistan ərazisində çoxsaylı təxribat aksiyaları həyata keçirib. Monoetnik Ermənistan Respublikasının yaradılmasında fəal iştirak edib. Dinc, əliyalın, təhlükəsiz Azərbaycan türklərinin yurd-yuvalarından didərgin salınmalarında, Ermənistan ərazilərindən qovulmalarında əvəzsiz xidmətlər göstərib. 1989-cu ildə İrəvandan DQ-a ötürülüb. Burada da Azərbaycan türklərinin zorakılıqla qətlə yetirilmələrində, etnik təmizləmə siyasətinin həyata keçirilməsində yaxından iştirak edib;

4. Qrant Markaryan - İran vətəndaşı, «DRO» (1) terror təşkilatının fəalı, ARFD-nin büro üzvü. Saxta sənədlərlə əvvəl İrəvana, oradan isə

1991-ci ildə DQ-a göndərilib. Burada dinc, təhlükəsiz, əliyalın azərbaycanlılara qarşı çoxsaylı terror aktları həyata keçirib. O, R.Köçəryan tərəfindən Qarabağ müharibəsinin «qəhrəmanı» elan edilib;

5. Davityan - Livan vətəndaşı, ASALA terrorçusudur. R.Köçəryan tərəfindən Qarabağda səhra komandiri vəzifəsinə təyin edilib. Xocalı soyqırımının fəal iştirakçısı olub. Habelə Şuşa və Laçında bir sıra terror aktları həyata keçirib. Bu bölgələrdəki dinc, əliyalın əhalinin isti od-ocağından zorakılıqla məcburi köçkün düşmələri üçün aparılan qətliamların və təxribatların fəal iştirakçılarından, terror aktlarının törədicilərindən biri olub;

6. Hilbert Minasyan - Yaxın Şərq mənşəli terrorçudur. DQ-da dinc, əliyalın Azərbaycan türklərinin qətliamını törədib. Azərbaycanlılar yaşayan kəndlərin dağıdılmasında, yerlə yeksan edilməsində bilavasitə iştirak edib;

7. Əbu Əli - Yaxın Şərq mənşəli terrorçu, DQ-dakı Azərbaycan türkləri yaşayan kəndlərin dağıdılması, əhalisinin zorakılıqlara məruz qoyulması və qətlə yetirilməsi ilə isti od-ocağından didərgin salınması aksiyalarında iştirak edib;

8. Vahan Ohanesyan - «DRO» (1) terrorçusudur. ARFD-nin lideri olub. DQ döyüşlərində bilavasitə iştirak edib. Sonra isə Ermənistan Respublikası prezidentinin müşaviri vəzifəsinə irəli çəkilib;

9. Asin Simonyan - ASALA terrorçusudur. Məlum Qarabağ hadisələri başlayan zaman rəhbəri olduğu 16 nəfərlik ASALA terrorçu qrupu ilə birgə Xankəndinə gəlib. Ən fəal terror qrupu kimi dəstəsi döyüşlərə qatılıb;

10. K.Marselyan - ASALA terrorçusu, öz terror qrupu ilə 1990-cı ildə İrəvana gəlib. 1991-ci ildə qrupu ilə birgə «Qarabağ komitəsi»nin sərəncamında olan vertolyotla DQ-ğa ötürülüb. DQ-ın azərbaycanlılar yaşayan kəndlərinin canlı aləmdən təcrid edilməsi kimi terror aktlarının həyata keçirilməsində yaxından iştirak edib;

...Ümumiyyətlə, erməni-daşnak terrorunun spektri çox genişdir. Həm tarixi, həm hüquqi, həm də sosial-psixoloji düşüncə baxımından çoxsaylı çeşidləri var. İstər dövlətdaxili, istərsə də beynəlxalq səviyyəli motivlər üzrə (siyasi, milli, kriminal) olsun, erməni-daşnak terroruna hər üç mövqedən yanaşmaq olar. Erməni-daşnak faşistləri üçün terror cinayəti adiləşib. Daha doğrusu, adi əxlaq normasına çevrilib. Gündəmdən çıxmır.

Erməni-daşnak terroru cəzasız qaldıqca azğınlaşır. Erməni-daşnak terroru dünyanın çox yerində baş verən ağır, heç zaman unudulmayan faciələrin fonunda durur. Terror qrup və təşkilatları Daşnaksutyun partiyasının bürosunun nəzarəti altında fəaliyyət göstərirlər. Erməni-daşnak terrorçuları terror aktlarını gah silahlı qrup, gah qruplaşmalar, gah da birləşmələr şəklində həyata keçirirlər. Biz nəsil nümayəndələri də dünyaya göz açdığımız gündən erməni-daşnak terrorunun şahidləri olmuşuq. Daşnaksutyun gizli işə hazır bir partiya olduğundan leqal fəaliyyətə meydan açılan istənilən məqamlara açıq, lokal terror müharibəsinə keçməyə hazırdır və keçir də. Və bu zaman müxtəlif adlar altında fəaliyyət

göstərən erməni-daşnak terror qrup və qruplaşmaları bir komanda altında səfərbər olunur və birgə əməli fəaliyyətə başlayırlar. Hücumda, həmlədə və müdafiədə birgə olurlar. Erməni-daşnak faşistlərinin törətdikləri terror aktları, faciələr, vandalizm dəhşətləri bütövlükdə erməni xalqının ünvanına yazılır, millətin adına çıxılır. Erməni-daşnak faşistlərinin törətdikləri qanlı qətliamlara, irticaçı və təcavüzkar «könüllülük» hərəkatına - terror aktlarına erməni xalqının psixoloji düşüncəsinin nəticəsi kimi baxılır. Kimsə həqiqəti aramır, aşkarlamır ki, erməni-daşnak terrorunun ağıllı, siyasi məqsədi yoxdur. Onun kökündə, mayasında, özəyində, nüvəsində saxta, uydurma türk düşmənçiliyi durur. Kilsə keşişlərinin zaman-zaman qələmə aldıqları kilsə həyatından bəhs edən, onların şişirtmə cızma-qaralarına söykənən saxta erməni tarixi var. Və bir də erməni diasporunun Moskvada, Parisdə, Vaşinqtonda qeydə aldırdıqları saxta sənədlərə əsaslanan uydurma erməni iddiaları, erməni-daşnak terrorunu maliyyələşdirən erməni milli Assambleyası var, vəssalam. Erməni ailələri öz uşaqlarına öz əcdadlarının düşmənlərinə nifrət hissi aşılayır, bu ruhda böyüdürlər. Erməni-daşnak terrorunun ruhən və cismən ölməsinə, aradan yox olub getməsinə imkan vermirlər. Bu sahədə erməni-daşnak təbliğatının aparıcı rolu öz müstəsnalığı ilə fərqlənir. Əbəs yerə demirlər ki, erməni-daşnak faşizminin, onun terror hərəkatının ilhamçısı, ilham pərisi daşnak təbliğatı, əlindən tutub qaldıranı və yeridib-yürüdəni isə «velikorus» şovinizmidir. Erməni-daşnak təbliğatının öləni öldürən, zalımı məzlum, məzlumu zülmkar kimi qələmə vermək, «adımı qoyum sana, qalginən yana-yana» demək və buna inandırmaq bacarığı var. Erməni əhlinin gözbağlayıcılıq «istedadı», qaraçı hay-küyçülüyü, qaraçı falçılığı dillə deyilir. Daim bu təbliğat özünü məzlum, qarşı tərəfi zalım kimi göstərərək xristian dünyasını köməyə çağırır. Moskvanın KİV-ləri, MDB məkanından kənar ölkələrdə, nəşr edilən 300 adda erməni mətbu orqanları qəzet və jurnallar, çoxsaylı televiziya kanalları bu təbliğatın xidmətində durur. «Əzabkeş» erməni xalqına qarşı rəhm hissi oyatmaqda müstəsna xidmətlər göstərirlər. Əsla əks tərəfə qarşı apardıqları mənəvi terrorun fərqinə varmırlar. Yalanlara boy tutan öz hiyləgər əməllərindən zövq alırlar. Əslində bivec daşnak təbliğatı erməni-daşnak faşizminin ən qəddar təzahür formasıdır. Min türlü bu təbliğat vasitələri daşnak ideologiyasının canlı silahıdır. Məskunlaşdığı ərazini özününküləşdirmək, habelə sərhədləri genişləndirmək məqsədilə qonşunu məhv etmək və ya dözülməzlik şəraiti yaratmaqla onu ev-eşiyini tərk etdirməyə məcbur etmək əqidəsini təşviq edir, beyinlərə yeridir. Soyqırımı və etnik təmizləmə siyasətinin həyata keçirilməsinə son məqsəd kimi baxır.

Ümumiyyətlə, daşnak ideologiyasının xəmiri fitnə-fəsadla yoğurulub. Hər cümləsi şərlə, böhtanla, iftirayla möhürlənib. Daşnak xislətinin göstəricisi olan ikiüzlülük, riyakarlıq onun təbiətində, mayasındadır. Sadə bir nüansa diqqət yetirək: Dünənki daşnak təbliğatı kürd insanını dünyanın ən vəhşi məxluqatı kimi qələmə verirdi. Öz simasını kürd vəhşiliyinin kölgəsində (Raffinin «Xent» əsərini oxu) gizlədirdi. Erməni yazıçısı Raffi «Xent» (Sarsaq) əsərində yazır ki, guya

kürdlər erməni uşaqlarını analarının əlindən zorla alıb oda atır, sonra da uşaq yanan tonqalın başında yallı gedirlər. Erməni tarixçisi Vərəndyan isə göstərir ki, kürdün ən namuslu işi quldurluq və ən böyük məharəti zülm etmək və qan içməkdir. Bu gün isə erməni müəllifləri kürdlərə qardaş deyirlər. Erməni tarixçisi R.Yeğigyan yazır ki, kürdlər aridirlər və s. Bu faktlar erməni ikiüzlülüyünün «parlaq» təzahür formasıdır, əslidir. Nə qədər kürdlər türklərə qarşı çıxırsa, onlar ari irqə mənsubdurlar. Elə ki ermənilərə qarşı çıxırlar, onlar quldur, zülmkar və qaniçəndirlər. Ermənilərin iç-üzü bax budur: ikiüzlü siyasət yeritmək. Öz istəklərinə nail olmaq üçün hər yola baş vurmaq. Hər cür yalana, böhtana əl atmaq. Erməni-daşnak faşistlərinin siyasi möhtəkirliyi onların genindən gəlir. Daşnaksutyun 1947-ci ilin dekabr ayında keçirdiyi qurultay səviyyəli XIV konfransında Xoyban müqaviləsinə dair dinləmə keçirir. Kürdlərdən, kürd məsələsindən bir ordu kimi istifadə etmək, İrana və İraqa qarşı kürd hərəkatları ilə heç bir əlaqəyə girməmək, Türkiyəni erməni və kürd xalqlarının ümumi düşməni elan etmək kimi qərar qəbul edir. Bu gün isə öz sələfi kimi ASALA ilə PKK terror təşkilatları arasında işbirliyi yaradır. Belə ki, 1990-cı il aprel ayının 8-də Livanın Sidan kəndində PKK ilə ASALA arasında birgə fəaliyyət barədə saziş imzalanır. Türkiyə Respublikasını iki yerə bölüb xəyali dövlət quracaqlarına and içirlər. PKK terrorçusu Abdulla Öcalan Ermənistan Yazıçılar Birliyi tərəfindən «Böyük Ermənistan» xəyali dövlətinin yaradılmasındakı xidmətlərinə görə fəxri diplomla təltif edilir. Dünən erməni millətinin qatı düşməni kimi qiymətləndirilən kürdlər bu gün erməni kilsələrində daşnaklarla birgə toplantılar keçirirlər. Qardaşlaşırlar. Hələ də üzdəniraq kürd liderləri dərk etmək istəmirlər ki, ermənilər onlardan bir vasitə kimi istifadə edirlər. Onları Türkiyə, İraq, Azərbaycan, İran kimi ölkələrin müsəlmanlarına qarşı qanlı müharibələr aparmağa sürükləyirlər. Əlbəttə, mən qətiyyətlə deyərdim ki, sıravi kürd xalqının bu qardaşlamadan xəbəri yoxdur. Ariliklərini, qanımızda erməni qanından qarışıq var deyənləri, sözsüz ki, inkar edirlər. Erməni-daşnak faşistlərinin toruna düşənlər erməni mənşəli PKK terrorçularından başqa kimsələr deyillər. Biz bu qanlı oyunları erməni-daşnak faşistlərinin yetirməsi olan, Azərbaycanda bir sıra terror aktlarına imza atan, ləzgi etnik qruplarının adından çıxış edən «Sadval» terror təşkilatının da simasında gördük. «Sadval»ın ləzgi-etnik toplumu tərəfindən müdafiə olunmadığının, onun qurucusunun erməni qohumu olduğunun, «Sadval» terror qrupu üzvlərinin Ermənistan ərazisindəki təxribat məktəblərində təlim keçmələrinin, bu terror təşkilatının nə məqsədlə yaradıldığının da şahidi olduq. İstər ASALA, istər PKK, istərsə də «Sadval» olsun, onların hamısının fəaliyyətində erməni-daşnak faşistlərinin rolu böyükdür. Hər üçü Rusiyanın işğalçılıq, qəsbkarlıq, «parçala, hökm et» siyasətinin xeyir-duası ilə yaradılmış və müdafiə olunan terror təşkilatlarıdır. Bu terror təşkilatlarının, xüsusilə PKK və «Sadval»ın qardaş kürd və ləzgi xalqlarına heç bir dəxli yoxdur, bu xalqlara düşmən olan ermənipərəst ünsürlər tərəfindən təşkil olunan qurama terror təşkilatlarıdır. Rus himayəsində

olan erməni-daşnak faşistlərinin barmağı ilə fəaliyyət göstərirlər. Yeri gəlmişkən ASALA-nın «Hizbullah» terror təşkilatı ilə əlaqəsini də bura əlavə etmək, bu qəbildən hesab etmək lazımdır. Dünənədək Məhəmmədiyyə aləmini yırtıcılıqda suçlayan daşnak ideologiyasının fars şovinizminin yetirməsi olan «Hizbullah» və ərəb mənşəli bir sıra terror təşkilatları ilə bağlantıları çox aşkar və gizli mətləblərdən xəbər verir.

Bütün bunlar erməni-daşnak faşistlərinin hər türlü fürsətdən yararlanaraq Türkiyəni parçalamaq, Azərbaycan dövlətçiliyini məhv etmək kimi bir məqsəd güddüyünü göstərir. Müştərək işbirliyi yaratmaqda Ermənistanın sərhədlərini genişləndirmək yönündə irəliyə doğru hər hansı bir addım atmaq imkanını əldən verməmək məqsədi güdülür.

Qeyd etmək lazımdır ki, hər üç hökumət dönəmində - istər çar, istər sovet, istərsə də onların varisi kimi çıxış edən indiki RF zamanında erməni-daşnak faşistləri irəliyə doğru hər bir qələbə addımını Rusiyanın həm maddi, həm də mənəvi dəstəyi ilə atıb və atır...

**Haşiyə 2:** Rusiyada hansı quruluşun mövcudluğundan, kimin hakimiyyətdə oturmasından, dövlət başına kimin gələcəyindən və ya seçilməsindən asılı olmayaraq, bir sözlə, I Pyotrdan üzü bəri Rusiyanın dövlət başçıları həmişə ermənilərə havadarlıq etmiş, özlərini ermənilərin himayəçisi kimi göstərmişlər. Ermənilər də öz növbəsində Rusiyada kimin hakimiyyətdə olmasından və gəlməsindən asılı olmayaraq onu dəstəkləmiş, ona xidmət göstərmişlər, quyruq bulamışlar, regionlarda agentinə çevrilmişlər. Xüsusilə Cənubi Qafqazda Rusiya işğalının həyata keçirilməsində öz sədaqətlərini sübuta yetirmişlər, qonşu xalqlara qarşı xəyanət və satqınlıq yolu tutmuşlar. Rusiyanın əbədi əlaltısı və müttəfiqi olmağa məhkumluğu qəbul etmişlər. Öz varlıqlarını Rusiyasız təsəvvürə gətirmək istəmirlər.

Artıq 1990-cı ilin yayında Sovet mətbuatı xəbər verdi ki, 1921-ci ildə Sovet hakimiyyəti əleyhinə üsyan qaldırmış Daşnaksutyun partiyasının İrəvanda mərkəzi ofisi fəaliyyətə başlayır, mətbuat orqanı və informasiya mərkəzi açılır. Bütün bu xəbərdarlıqlara baxmayaraq, Azərbaycanın hökumət rəhbərləri yenə də Kremlin köləsi qismində işini davam etdirmək vərdişindən əl çəkmədilər. Dərk etmək istəmədilər ki, Ermənistanda açıq şəkildə fəaliyyətə başlayan erməni-daşnak faşistlərinin Qarabağ iddiaları qəsbkarlıqdır. Qarabağla bağlı məsələlərin müzakirəsində və həllində heç bir güzəştdən-filandan söhbət gedə bilməz. Tez və kəsərli tədbirlər görməyin, sərt addımlar atmağın zamanıdır. Təəssüflər olsun ki, bir-birini əvəz edən, milli qeyrətdən, vətənpərvərlik hislərindən uzaq düşmüş vəzifə düşkünlərimiz, kreslo hərislərimiz bir-birinin ardınca zamanı da, məkanı da, imkanı da bada verdilər.

Bu gün Azərbaycan xalqı torpaqlarının 20%-nin işğalı ilə üz-üzədir. Müharibə şəraitində yaşayır. Bütün bunlar azmış kimi Azərbaycan bu işğala dəstək verən, terroru müdafiə, bu və ya başqa şəkildə terroru himayə edən qonşu dövlətlər

əhatəsindədir. Bu ölkələr Azərbaycan dövlətçiliyini həzm etmək istəmirlər. Bu reallıqla barışsalar da, üzəvarı qonşuluq əlaqələrindən, dostluq tellərindən, qardaşlıq hislərindən danışsalar da, daxilən dövlət və milli mənafe baxımından siyasətlərinin alt qatlarında heç bir vəchlə öz çirkin niyyətlərindən əl çəkmirlər. Azərbaycan dövlətçiliyini qəbul etmək istəməyən, onun əleyhinə çıxan və mübarizə aparan siyasi partiyalara, terrorçu qrup və təşkilatlara açıq və ya gizli yollarla dəstək verirlər. Birgə işlər görürlər. Erməni-daşnak faşistləri, daha doğrusu, Daşnaksutyun partiyası 2004-cü ilin fevral ayında İrəvan şəhərində özünün XIX qurultayını keçirir. Ulu oğuz yurdu Naxçıvanın «geri qaytarılması» məsələsi qurultayın müzakirə obyektinə çevrilir. Bu bədnam qurultayda İİC-nin Ermənistandakı səfiri də iştirak edir. Buna nə ad vermək olar...

Bu gün Azərbaycanda 80 minlik erməni azlığına istiqlal, müstəqillik tələb edən RF əslində işğalçılıq arzusundan əl çəkmədiyini nümayiş etdirir. Xalqların deyil, DQ ermənilərinin öz hüquqlarını təyin etmə haqlarından danışır. Sual olunur: istəyi səmimidirsə, bəs nə üçün RF yüz illərdi rus əsarəti altında inildəyən, öz etnik torpaqlarında toplum halında yaşayan, sayları on milyonu keçən tatarlara, başqırdlara, digər çoxsaylı türk və Qafqaz xalqlarına canıyananlıq göstərmir. Onlara öz müqəddəratlarını təyin etmək hüququ vermir. Əksinə, öz istiqlalı uğrunda mübarizəyə qalxan xalqları al qanlarında boğur. Çoxmilyonlu xalqları öz içində əritmək, assimiliyasiya etmək siyasəti yeridir. Və yaxud kim zəmanət verə bilər ki, Azərbaycan erməni-daşnak təcavüzkarlarına qarşı hərbi yolla mübarizə aparacağı halda Ermənistan ərazisində yerləşən və şəxsi heyətində minlərlə daşnak terrorçusunun xidmət etdiyi rus hərbi bazalarının müasir silah-sursatından, ağır texnikasından, canlı qüvvəsindən bizə qarşı istifadə olunmayacaqdır. Əlbəttə, istifadə olunacağına şəkk-şübhə etməməliyik. 1988-1991-ci illərdə Sovetlər Birliyi dövründə bizim də təhlükəsizliyimizi təmin etməsi konstitusiya borcu olan 7-ci sovet ordusunun, 1991-1994-cü illərdəki toqquşmalarda isə RF-na məxsus hərbi hissələrin erməni-daşnak faşistlərinin tərəfinə keçmələri, bizə qarşı çıxmaları, böyük cinayətlər törətmələri hamımıza yaxşı məlumdur...

...Əlbəttə, Daşnaksutyun ifrat faşist partiyasının yaradılmasına xeyir-dua verməklə çar Rusiyası erməni məsələsindən istifadə edərək Türkiyədən daha çox pay qoparmaq məqsədini gündəmə gətirib. Habelə Qnçak partiyasını yaradan Yaxın Şərq siyasətindəki rəqibi İngiltərəni üstələmək istəyində olub. Lazım gəldikcə Daşnaksutyundan bir alət kimi yetərincə istifadə edib. SSRİ hökuməti sələflərinin erməni məsələsinə isnadən yeritdikləri siyasəti daha da inkişaf etdirib. Libasını dəyişərək kommunist cildinə girən daşnakları yüksək vəzifə postlarına irəli çəkib. Bolşevik-daşnak qaragüruhunun erməni kommunistləri Daşnaksutyunun edə bilmədiklərini daha «sivil» yollarla həyata keçiriblər. İstəklərinə nail olublar.

SSRİ hökuməti keçən əsrin 70-ci illərində Bolqarıstanın əliylə Türkiyə əleyhinə fəaliyyət göstərən terror təşkilatlarına 1 milyard ABŞ dolları dəyərində

döyüş silah-sursatı ötürməsi bu gün kiməsə sirr deyil. İstər PKK, istərsə də ASALA olsun, beynəlxalq aləmdə ad çıxaran bu terror təşkilatları SSRİ hökumətinin, onun DTK-sının dəstəyi ilə yaradılıb. Məqsəd isə PKK kürd və ASALA erməni-daşnak terrorçularının əliylə Türkiyəyə, habelə onun üzvü olduğu NATO blokuna zərbə vurmaq olub. Qorbaçovun SSRİ-nin dağıdılmasına yönələn yenidənqurma siyasətinin yaratdığı boşluq isə 1988-ci ildən başlayaraq erməni-daşnak terrorunun Ermənistan SSR-in ərazisində leqal şəkildə fəaliyyət göstərməsinə bilavasitə təkan verdi. Erməni-daşnak faşistlərinin törətdikləri terror aktları öz kütləviliyi ilə adətkarı olduğumuz, gündəlik həyat tərzimizə daxil olan, kriminal zəmində baş verən cinayət hadisələrindən birinə çevrildi. Erməni-daşnak faşistləri Qorbaçov hökumətinin dəstəyi ilə Azərbaycan türklərinə qarşı lokal terror müharibəsini həyata keçirdilər. İstər SSRİ, istərsə də bugünkü RF Silahlı Qüvvələrinin yerlərdəki hərbi hissələri gözlərimiz qarşısında erməni-daşnak faşistlərinin tərəfinə keçdilər. Faşizmin güc düşməz yardımçılarına çevrildilər. Həm silah-sursat, həm də canlı qüvvə sarıdan öz köməklərini daşnak terror qruplarından əsirgəmədilər. Xarici muzdlularla yanaşı rus əsgərləri də erməni-daşnak terror qruplaşmalarının tərkibində Azərbaycana qarşı döyüşlərdə iştirak etdilər. Habelə dünyanı çulğamış, müxtəlif adlar altında fəaliyyət göstərən erməni-daşnak terror təşkilatlarının terror qruplarının da bu döyüşlərə qatılmasına hərtərəfli şərait yaratdılar. Azərbaycanı və Azərbaycan türklərini terror qasırğasına büલənd etdilər...

**Haşiyə 3:** Adları dünya ictimaiyyətinə yaxşı bəlli olan ayrı-ayrı erməni-daşnak terror təşkilatlarının adbaad siyahısını burada oxucuların nəzər-diqqətinə çatdırırıq:

1) «Erməni Müli Ordusu» - 1988-1990-cı illərdə daşnak terror qruplarının bazasında yaradılan hərbi birləşmələr;
2) «David Sasunski» - terror qrupu;
3) «Vretarunet» (Qisasçılar) - terror qrupu;
4) «Haydat» (Erməni məhkəməsi) - terror təşkilatı;
5) «Neytral dəstələr» - terror təşkilatı;
6) «Respublika «Nart» partiyasının müstəqil ordusu» - Həmin partiyanın öz bayrağı altında terror aktları və təxribatlar törədən silahlı terror qruplaşmaları;
7) «MUŞ milli ittifaqı» - terror təşkilatı;
8) «Andronik terrorçular dəstəsi» - terror qrupu;
9) «Amaras» xeyriyyə cəmiyyətinin terror qrupu;
10) «Novaya Armeniya» partiyasının terror qrupu;
11) «İnqilabçı daşnaklar» - terror təşkilatı;
12) «İnqilabçı ermənilər ittifaqı» - terror qrupu;
13) «Kəndli azadlığı» - terror təşkilatı;
14) «Birləşmiş Ştatların şərq erməniləri» terror qruplaşması;
15) «Kilikiya» - terror qrupu;

16) «Jirair» - terror qrupu;

17) «Ermənistanın müdafiəçisi» - terror təşkilatı;

18) «Gənc erməni daşnakları» - terror təşkilatı;

19) ASALA (Ermənistanın azadlığı uğrunda mübarizə aparan gizli Erməni Ordusu) terror təşkilatı;

**Qeyd 1:** ASALA - Beynəlxalq aləmdə ən çox səs salan, ad çıxaran və türk diplomatlarına qarşı sui-qəsdlər təşkil edən erməni-daşnak faşistləri tərəfindən yaradılan, SSRİ keqebesindən xeyir-dua alan və müdafiə edilən Beynəlxalq terror təşkilatıdır. 1975-ci il yanvar ayının 20-də Livan erməniləri Hakop Hakopyan və Bedros Ovanesyan tərəfindən təsis edilib. «Ermənistanın azadlığı uğrunda gizli erməni ordusu» ifadəsinin ingiliscə yazılışının abreviaturasıdır (Armenian secret army for liberation of Armenia). «Arminfo» Ermənistan xəbər agentliyi özünün 10 sentyabr 2003-cü il tarixli məlumatında xəbər verir ki, Ermənistan Jurnalistlər İttifaqında mətbuat konfransı keçirən ASALA rəhbərləri bildiriblər ki, ASALA indiyə kimi Livanda fəaliyyət göstərib. Guya onun fəaliyyəti sırf siyasi xarakter daşıyır. İndisə ASALA Ermənistan hökuməti tərəfindən rəsmən qeydə alınıb və siyasi təşkilat olması bəyan edilib. Daha bir erməni məkri öz iç üzünü açır. Xüsusi bir iyrəncliklə beynəlxalq terror təşkilatının fəaliyyəti qanuniləşdirilir. ER tərəfindən beynəlxalq terror müdafiə edilir;

20) MAQ - terror təşkilatı;

21) «Erməni İttifaqı» - terror qruplaşması;

22) «Erməni Azadlıq Cəbhəsi» - terror qruplaşması;

23) «Kazis» assosiasiyası adı altında Pyatiqorsk şəhərində fəaliyyət göstərən terror mərkəzi;

24) «Vrej» (İntiqam) - terror qruplaşması, I Dünya müharibəsindən sonra Daşnaksutyun tərəfindən yaradılıb, Türkiyənin «gənc türklər» və AXC hökumət başçılarının siyahı üzrə (200 nəfər) məhv edilməsi planını qarşısına məqsəd qoyub;

25) «Dro» (I) - terror qrupu;

26) «Cavakx»ın fədainləri» - terror təşkilatı;

27) «Erməni soyqırımı ədalət Komandaları» - terrorçu qruplaşma;

28) «Erməni inqilab ordusu» - terror təşkilatı;

29) «Erməni Xalq hərəkatı» - Yunanıstan hökumətinin köməyi ilə yaradılan erməni-daşnak mənşəli terror təşkilatı;

30) «Yanikyan dəstəsi» - terror qrupu;

31) «Mets Tiqran» - terror qrupu;

32) «Zorik» - terror qrupu;

33) DQ MO – Beynəlxalq aləmdə tanınan erməni terror təşkilatlarının və yerli daşnak terror qruplarının bazasında yaradılan separatçı hərbiləşmiş terror birləşmələri;

34) «Yeni Erməni Dirənişi» - terror təşkilatı;

35) AİKA - terror təşkilatı;

36) «Qarabağ» - terror qrupu;

37) «Qaflan» - terror qrupu.

**Qeyd 2:** Burada adları çəkilən terror təşkilatlarından 20-si müstəqil, qalanları isə onların qolları kimi fəaliyyət göstərirlər.

**Qeyd 3:** İstər müstəqil fəaliyyət göstərən, istərsə də hər hansı bir terror təşkilatının qolu, qrup və ya qruplaşması hesab edilən digər adı çəkilən və ya çəkilməyən erməni terror təşkilat və birlikləri bütövlükdə Daşnaksutyun tərəfindən yaradılmış və onun xeyir-duası ilə əməli fəaliyyətə keçmədilər...

...Erməni-daşnak faşizmi öz ideologiyasında Daşnaksutyunu dövlətlə, xalqla, vətənlə, digər partiya və onların terror təşkilatları ilə eyniləşdirir. Daşnaksutyunun prinsipləri ali siyasi dəyər kimi erməni ictimai fikrinin ana xəttini təşkil edir. Habelə ayrı-ayrı partiya, ictimai birlik və qeyri-hökumət təşkilatlarının fəaliyyət proqramlarında üstün mövqe tutur. Daşnak ideologiyasının bütün ictimai hərəkatların fəaliyyətində mütləq inhisarı vardır. Daşnaksutyunu, bu ifrat faşist partiyasını bir fərd kimi qiymətləndirsək, tam əsasla deyə bilərik ki, onun düşüncəsi, mənəvi əxlaqı digər partiya və təşkilatların düşüncəsinə, əxlaqına çevrilmişdir, inteqrasiya elmişdir. Ümumi keyfiyyətləri onların fəaliyyətində öz əksini tapır.

Əfsuslar olsun ki, Azərbaycan xalqı ermənilərə qucaq açanda bilmədi ki, qoynunda özünə əfi xislətində qəvi düşmən bəsləyir. İlan xisləti erməni-daşnak faşistlərinin canında, qanında, təbiətindədir. Türkiyə ərazisində qaldırdıqları üsyanlardan əli boşa çıxan gündən erməni-daşnak faşistləri etnik təmizləmə və soyqırımı siyasətini Cənubi Qafqaza -Azərbaycan müstəvisinə köçürdülər. Bu siyasətlərini zaman-zaman həyata keçirdilər. Yüz illik təcrübə qazandılar. Azərbaycan türkünə qarşı erməni ünvanında özünü xarakterizə edən, xüsusi qəddarlıqla həyata keçirilən, vəhşi amansızlıqla mərhələ-mərhələ terror müharibəsi apardılar. Heç bir qonşu haqqı tanımadılar. İnsanlıq qanunlarını ən alçaq şəkildə pozdular. Sözün tam mənasında erməni adına ləkə gətirən, yaddaşlarda özünə yer edən daşnak faşizminə yol-iz açdılar. Ulu bir xalqın - Azərbaycan türkünün qəsdinə durdular. Qansızlıqlar etdilər. Heç bir rəzillikdən, alçaqlıqdan çəkinmədilər. İnsan təfəkkürünə sığmayan, insan şüurunu yerindən oynadan erməni-daşnak faşistlərinin törətdikləri dəhşətli cinayət aktlarını, faktlarını sadalamaqla, saymaqla nə qurtarandı, nə də baş vermiş bu saysız-hesabsız faciələri tam dolğunluğu ilə əks etdirmək mümkündür. Mən burada sadəcə olaraq daşnak terror qrup və birləşmələrinin törətdikləri və ümumerməni xalqının adına yazdırdıqları ağlasığmaz qəddarlıqlarını üç təsnifat altında icmal-xülasəsini yığcam şəkildə verməyi lazım bildim:

I. Erməni barbarlığı - Yaşayış məntəqələrini yerlə yeksan etmək məqsəddir. Qəbirlər uçurulub dağıdılır, məzarlıqlar şum altına verilir. Tarixi və milli-mədəniyyət abidələrinin izi yer üzündən silinir. Azərbaycan xalqının varisi olduğu alban abidələri rekonstruksiya edilərək erməniləşdirilir. Ərazilərdə arxeoloji

qazıntılar aparmamışdan o yerlərdə torpağa əvvəlcədən erməni nişanələri olan daşlar, saxsı qablar basdırılır. Türk nişanələri olan qəbir daşları və s. daş kitabələr oğurlanır, məhv edilir. Yol ağızlarına, körpülərin altına minalar basdırılır, yaşayış məntəqələri atəş altında saxlanılır, insan yaşayışı iflic vəziyyətinə salınır, canlı aləmdən təcrid edilir;

II. Erməni vandalizmi - Əsir və girov düşənlər, ələ diri keçənlər türk olduqlarına görə ən vəhşi cəza üsullarına məruz qoyulur. Dəriləri soyulur; gözləri çıxarılır; qulaqları kəsilir; beyinləri oyulur; qızıl dişləri sökülür; xaç nişanı ilə damğalanır; sümükləri sındırılır; qabırğaları əzilir; daxili orqanlarından donor kimi istifadə olunur, qiymətli transplondat kimi Qərb bazarına ixrac edilir; diri-diri yandırılır; diri-diri torpağa basdırılır; şaxtaya-dona verilir; qadınların döşü kəsilir; hamilə qadınların qarnı yarılır, körpə balalarını çıxarıb boğur, tikə-tikə edib bişirir, anaları öz balalarının ətini yeməyə məcbur edirlər; südəmər uşaqların bədənini süngülərlə dəlmə-deşik edirlər. Hətta gözlərinin qabağında ərlərinin başını kəsib, kəsilmiş başları qadınların yarılmış qarınlarına soxurlar. Əsir türkləri it əvəzi saxlayırlar; qul əvəzi işlədirlər. Alçaldıcı, təhqiramiz işlər görməyə məcbur edilirlər. Gəncləri balta ilə şaqqalayırlar; toplum halında qətllər törədirlər; Daşnak terrorçularının qəbri üstə, 24 aprel günlərində, Andronikin doğum günü, azərbaycanlıların əziz günü olan Novruzda əsirlər qurban kəsilir. Qarabağ bizimdir, deyən əsirlərin ağzına torpaq basıb bu yolla boğurlar. Ümumiyyətlə, əsirlər xüsusi soyuqqanlıqla məhv edilir. Ölüm hadisələri qaçmaqla deyil, başa güllə dirəməklə törədilir;

III. Etnik təmizləmə və soyqırım siyasəti həyata keçirilir - Məqsəd türksüz, monoetnik Ermənistan dövləti qurmaq, onun sərhədlərini genişləndirməkdir. Yaşayış məntəqələrinin varlığı yer üzündən silinir. Cismani soyqırımla yanaşı mənəvi terror da həyata keçirilir. Adlar dəyişdirilir, adət-ənənələr assimiliyasiya edilir, toponimlər erməniləşdirilir və s.

Əlbəttə, Daşnaksutyunun ifrat fasist partiyası olması onun ilan xislətli bir təbiətə malik olmasından irəli gəlir. O, özünə yuva tikmir, yer-yurd axtarır. Rastına çıxan yer-yurd sahibini məhv edir, yuvasından didərgin salır. Başqasına məxsus olan yuvanı və yer-yurdu özününküləşdirir. Qəribədir. Bütün ömrü boyu torpaq üstə sürünsə də, torpaq altında yaşasa da, əfilər torpaq ləlöynüdülər. Heç bir vaxt torpaqdan doydum demir, özlərini əbədi torpaq acı kimi göstərirlər. İlanlardakı bu xüsusiyyət, xislət ermənilərdə də adi acgözlük halından artıq genetik xarakter halına keçmişdir.

## ERMƏNİ-DAŞNAK FAŞİZMİ TƏRƏFİNDƏN AZƏRBAYCANIN TARİXİ TORPAQLARININ MƏNİMSƏNİLMƏ ARDICILLIĞI

1796-cı ildə general V.Zubovun başçılığı altında rus hərbi hissələrinin Azərbaycan torpağına qədəm qoyması ilə Şimali və Cənubi Azərbaycan terminləri

yaranmağa başlamış, Şimali Azərbaycanın tarixi torpaqlarında qondarma Ermənistan dövlətinin yaradılması ilə əlaqədar bu bölgədə Qərbi Azərbaycan coğrafi adı meydana gəlmişdi.

Qərbi Azərbaycanda ilk erməni torpaq mülkiyyətinin yaranması hadisəsi isə Qaraqoyunlu dövləti zamanında baş vermişdi. Maku ermənisi Qriqori 1431-ci ildə Əmir Rüstəmdən Vacarşabad, Əştərək, Batrınc, Noraqavit, Aqunatun, Kirəcli və Muğni kəndlərini almışdı.

1441-ci ildə isə bir qrup erməni işbazları birləşərək Qaraqoyunlulardan Üçmüəzzin kəndini alırlar və burada, yəni Qərbi Azərbaycanda ilk erməni kilsəsi inşa edilir. 1489-cu il avqust ayının 22-də isə Üçmüəzzin kilsəsi öz mülkiyyətini genişləndirmək məqsədi ilə azərbaycanlılara məxsus Osakan kəndini alır. Ümumiyyətlə, bu yolla ermənilər XVIII yüzilliyin sonunadək 60-dan çox kənddə yerləşir və burada mülk sahibi olurlar. Həmin dövrlərədək Şimali Azərbaycan ərazisində olan erməni kəndləri ayrı-ayrı Azərbaycan türklərinə məxsus mülklər olmuşlar. Bu ifadəmiz həmçinin XVIII əsrdə Yuxarı Qarabağ torpaqlarında formalaşan xəmsə məliklərinə də aiddir.

**Haşiyə 1:** Yuxarı Qarabağda ermənilərin məskunlaşmasının tarixi məsələsi mübahisəli söz oyunu olduğundan bu problemə də şərh verməyi lazım bilirik. Çar Rusiyasının 1842-ci ildə Şuşa qəzasının tərkibinə daxil olan erməni kəndlərində apardığı siyahıyaalmada eyni zamanda erməni kəndləri əhalisinin haradan köçüb gəlməsi barədə müfəssəl məlumatlar vardı. Belə ki, Cəbrayıl rayonu ilə həmsərhəd erməni kəndləri haqqında F.29, siyahı 1-dəki məlumatlarda yazılanlara diqqət yetirmək kifayətdir:

Hərəkül - 1828-42-ci illər arasında xaricdən və Çelaberdin Çardaxlı kəndindən köçüb gəlmiş və Şıxalıağalı torpağında məskunlaşmışlar; Binnətli - 1840-cı ildə İrandan gəlmiş erməni ailələridi. Feyzulla bəy Mehralı Minbaşı oğlunun torpağında yerləşiblər; Daşbaşı - 1837-ci ildə İrandan gəlmədilər və Şıxalıağalı torpağında məskunlaşıblar; Cilan - 1828-40-cı illərdə İrandan gəlmədilər, Cəbrayıl mülkədarı Hüseyn bəyin torpağında məskunlaşıblar; Şayaq - 1840-cı ildə Çelaberdin Qabartı kəndindən köçüb gəlmədilər; Quşçular - 1829-cu ildə İrandan köçüb gəlmədilər. Doşulu torpağında məskunlaşıblar; Məlikcan - 1829-39-cu, Xırmancıq - 1840-cı, Bulutan - 1836-cı illərdə İrandan köçüb gəlmədilər, polkovnik Cəfərqulu ağanın torpaqlarında yerləşiblər; haradan gəlmələri göstərilməyən Sur, Banazur, Mülkədərə kəndlərinin isə polkovnik Cəfərqulu ağaya, Zamzurun praporşik Əlibəy Tanrıqulu oğluna, Ağcakəndin Şirxan bəyə məxsus olduqları göstərilir; Siyahıyaalmaya adı düşməyən Dolanlar kəndi 1860-cı illərdə İrandan gəlmə olub, Keçəlməmmədli kəndinin Dolan yatağı adlanan yazlıq yerində məskunlaşıblar. Günü bu gün də ətraf kəndlərin əhalisi tərəfindən Dolanlar kəndi, ümumiyyətlə, Təzəkənd adlanır. Köçmə tarixləri göstərilməyən erməni kəndlərinin Yuxarı Qarabağda yerləşmə tarixləri XVI əsrin axırlarına - XVII əsrin əvvəllərinə təsadüf edir. Səfəvi şahları ilə Osmanlı

sultanları arasında davam edən aramsız müharibələr nəticəsində bu və ya digər tərəfin məğlub və ya qalib gəlməsindən asılı olaraq məcburi miqrasiyaya məruz qalan sünni və ya şiə qardaşların türklərin boşalmış, əhalisi pərən-pərən düşmüş kəndlərinə erməni ailələrini yerləşdirmələri kiməsə sirr deyildir. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, erməni tarixçisi Kanakerli Zakari (Xronika, M.,səh. 113) göstərir ki, ermənilərin Gəncə-Qarabağ əyalətinə köçüb gəlmələri Osmanlıların 1635-ci ildə İrəvan bəylərbəyiliyini tutmaları ilə bağlı olmuşdu. Belə ki, İrəvan xanı əhaliyə qonşu əyalətlərə köçmə əmri verir. O zaman ermənilər Gəncəyə, Zəyəmə, Vərəndə, Xaçına, Keştəyə köçür. Əlavə olaraq onu da bildirmək lazımdır ki, erməni ailələri həm də boş qalmış türk kəndlərinə köçmüşlər. İndi də həmin kəndlər türk mənşəli keçmiş adlarını özlərində saxlayırlar. Yuxarı Qarabağda erməni dili ilə izah olunan və cüzi sayda olan toponimlərin yaranma tarixi Rus imperiyasının erməni ailələrini kütləvi şəkildə İrandan və Türkiyədən Yuxarı Qarabağ bölgəsinə köçürməsindən sonraya, daha çoxu isə sovet dönəmindəki süni addəyişmələr dövrünə təsadüf edir.

Ümumiyyətlə, Yuxarı Qarabağ erməniləri prinsip etibarı ilə iki yerə bölünürlər: gəlmə ermənilərə (qartağanlar) və dönmə və ya tərs düşmüş ermənilərə (şurtvatslar). Erməni müəllifi B.İşxanyan yazır: «Dağlıq Qarabağda yaşayan ermənilərin bir hissəsi qədim albanların nəslindəndir... digər hissəsi Türkiyədən, İrandan gəlmiş qaçqınlardır. Azərbaycan torpaqları onlar üçün təqiblərdən sığınacaq yeri olmuşdur». Tanınmış erməni akademikləri İ.A.Orbeli, S.T.Yeremyan və başqaları da birtərəfli də olsa bu tarixi gerçəkliyi inkar və ya təkzib etmək iqtidarında olmamışlar. Burada İşxanyan dönmə erməniləri Alban türklərinə bağlamağa cəhd etmişdir. Halbuki dönmə ermənilərin albanlarla heç bir milli bağlantısı yoxdur. Dönmə ermənilərin özləri də Qarabağa gəlmə qeyri-türk dilli udin və ya mard adlı fars dillilərdən başqa bir kimsə olmamışlar. Belə ki, Yuxarı Qarabağ ərazisinə daxil olan 5 erməni məlikliyindən 4-nün - Dizaq, Vərənd, Çelaberd və Gülüstanın əraziləri XV-XVI əsrlərədək tam ermənisiz ərazilər olmuş, burada ancaq və ancaq türk etnosları yaşamışlar. Dönmə ermənilərin yaşayış məntəqələri əsasən Xaçınçay vadisindəki - Canyataq, Gülyataq, Ballıqaya, Bazarkənd, Şahmarlı, Vəng, Dovşanlı, Kolabəy, Seyidbəy, Ulubaba, Həsənriz, Qızılkörpü, Qızılqaya, Mehmana, Axmaqlı və Ortakəndlər hesab olunur. Çox qəribədir ki, bu kəndlərin heç birinin mərkəzi malikanələrində qədim tarixə malik nə qriqorian, nə də alban kilsələri olmamış və ya bu günlərimizədək qorunub saxlanmamışdır. Qriqorian kilsələrinin tarixi isə son əsrlərə aiddir. Hətta yaşı rus işğalından qabaqkı dövrə aid edilən kəndlərin tərs düşmüşlərində dindarlıq və dinə bağlılıq dərəcələri də gəlmə ermənilərə nisbətən çox aşağı səviyyədə olmuşdur. Ətrafdakı alban kilsələrinə belə, rəğbətləri kifayət qədər olmamışdır. Sadəcə olaraq bu yerlərə gəlmə olan udinlər və ya mardlar, xilafətin əlaltısına çevrilmiş, alban kilsələrini öz hökmranlığı altına almış qriqorian kilsəsinin təcavüzü altında alban türklərindən fərqli olaraq dinlərini saxlayaraq

dillərini dəyişmiş və tədricən ermeniləşmişlər. Qılıncdan keçirilən Alban türkləri isə dinlərini dəyişsələr də, dillərini saxlamışlar. Dönmə ermənilər yaşayan kəndlərin ətrafındakı alban kilsələri baxımsızlıqdan uçulub dağılmış, xarabazarlığa çevrilmişdi. Hələ də dönmə və gəlmə ermənilər daşları üzərində Alban xristianlığına məxsus xaç nişanları olan və ya olmayan məbədlərə yaxın düşmürlər. Halbuki, biz Qarabağ türkləri, üstə alban xaç nişanı olmayan, lakin alban kilsələri ilə eyni üslubda inşa edilən, memarlıq formasında olan alban məbədlərinə bu gün də pir, ziyarətgah kimi baxırıq. Ziyarət dağının (ermənilər bu dağa Ocaqqalanan deyirlər) zirvəsindəki alban məbədinə Dağtumas, Əhmədli, Sirik oymaqlarının camaatı inanc ocağı kimi sitayiş edir, qurbanlar kəsirlər. Bu məbədin daşlarında alban xristianlığını əks etdirən xaç nişanəsi-filan yoxdur. Dönmə ermənilərlə yanaşı gəlmə ermənilərin özləri də alban xaç nişanı olan kilsələrə zaman-zaman yaxın düşməmişlər. Rus tarixçilərinin Gəncəsər və Tatev məbədinə ən çox elat türkləri inanc göstərir demələri və bu tip yazılarını oxumağım məni bir çox mətləblərdən hali etdi. Belə ki, Gəncəsər məbədində olmuş dostlarımdan öyrəndim ki, həqiqətən Gəncəsər məbədinin daşlarında alban və ya digər xaç nişanı-filanı olmamışdı. Nəhəng sal divar daşları üzərində dəvə karvanlarının şəkilləri həkk edilmiş cizgilər olmuşdu. Yaxınlıqdakı Vəng kəndinin dönmə və ya gəlmə erməniləri məbədə ancaq sovet dönəmində mayovkadan-mayovkaya yeyib içmək üçün, şənlik məclisi təşkil ediləndən-edilənə getmişlər. Qarabağ ətrafında söz-söhbətlər çıxandan sonra isə karvan şəkilləri yonulub daşlardan silinmişdi. Abidələrin «restavrasiyası» adı altında məbəddə bərpa deyil, yenidənqurma işləri görən erməni ustaları onu kilsə halına salmağa cəhd göstərmişlər. Halbuki XIII əsrdə yarımmüstəqil Xaçın knyazlığı yaradan, mığrı türk tayfasına mənsub olan Həsən Calal bu məbədi knyaz iqamətgahı və ya karvansara xidməti qismində tikdirmişdi. Nəslin son nümayəndəsi isə XV əsrdə xəyanətkar, dönmə və ya gəlmə ermənilər tərəfindən zəhərlənərək məhv edilmişdi. Burada bir neçə nüansı qeyd etmək yerinə düşər: (1) Ərsak və alban sözlərinin nə qrabarda (qədim erməni dili), nə də aşxaraparda (müasir erməni dili) mənası yoxdur. Hər ikisi türk mənşəli söz olmaqla yanaşı, hər iki adda dağlıq Altayda qədim zamanlardan türk dilli qəbilələr yaşamışlar; (2) Alban hökmdarları əvvəl ərsak türkləri, sonra isə mığrı türkləri olmuşlar. İstər Cavanşir, istərsə də Həsən Calal mığrı türkləridir. Mığrını modernləşdirənlər Mehri deyib farslaşdıran və ya Meqri yazıb erməniləşdirməyə çalışanlar antitürkçülüyün kölələridir; (3) Alban toponimləri, şəxs adları bir halda türk mənşəlidirsə, albanları Dağıstan dilli adlandırmağa cəhd edənlərin də heç bir elmi əsasları yoxdur; (4) Antik tarixə baş vuranlar unutmamalıdırlar ki, Parfiya çarlığını türk dilli tayfalar qurmuşlar; (5) Erməni əlifbasını Mesrop Maştots albanların türk-runi əlifbasının əsasında tərtib etmişdir; (6) Arxeoloji tədqiqatlar erməni tarixçilərinin saxta yazılarının heç birini təsdiq etmir. Bizim tarixçilərin isə 6 min illik yaşa malik Orxon-Yenisey əlifbasını mənimsəməmələri, onun əsasında alban türklərinə aid daş kitabələri oxumaq iqtidarında olmamalarına dövlət çox

ciddi reaksiya verməlidir. Azərbaycan xalqının etnogenezində, kökündə duran türk mənşəli çoxsaylı tayfa əcdadlarından biri də alban türkləridir. (İstər dönmə olsun, istərsə də gəlmə olsun, erməni varlığı Qarabağda törəmədilər. Çünki dönmə ermənilərin özləri də avtoxton deyillər. Dönmə ermənilər ya Şərqdən köçüb bura gələn fars dilli mardlar, ya da basqılar zamanı alban katolikosluğunun Çoldan Ağoğlana, Albaniya mərkəzinin Qəbələdən Bərdəyə köçməsi ilə əlaqədar Böyük Qafqazdan Ərsaka miqrasiya edən Qafqaz dilli udinlər olmuşlar). Ermənilər alban türklərinin irsini mənimsəmək prosesinə VIII əsrdən başlayaraq əsrlər boyu bu işi davam etdirmişlər, günü bu gün də öz saxtakarlıqlarından əl çəkmirlər. Məsələni daha çox siyasiləşdirməklə öz iyrənc arzularını reallaşdırmaq əzmindədilər. Bizsə İslamdan öncəki doğma əcdadımıza kavur damğası vurmaqla, islam qadağası ilə alban əlifbasını məhv etməklə, zaman-zaman ulularımızın irslərinə sahib durmaqdan uzaq düşməklə etmənilərin öz iyrənc arzularını həyata keçirmələri üçün onlara imkan vermişik və şərait yaratmışıq, yolları üstə yaşıl işıq tutmuşuq.

Daha bir nüansı da qeyd etmək yerinə düşər ki, qriqorian kilsələri qotik, alban kilsələri ümumilikdə Şərq memarlıq üslubunda inşa edilmişdir. Bununla belə Böyük Qafqazdakı alban məbəd və kilsələri ilə Kiçik Qafqazdakılar arasında gözlə asan müşahidə edilən fərqləndirici memarlıq üslubları da var. Kiçik Qafqazda tikilən məbədlərin tavanı balıqbeli şəklində daşdan tağbənd, oturacaqları isə uzunsov düzbucaqlı şəklindədir. Böyük Qafqazdakıların tavanı günbəzvarı və oturacaq ölçüləri kvadrata yaxındır. Birincilərin daxilində heç bir əlavə gözlər və ya yardımçı xidmət otaqları yoxdur. İkincilərdə isə müxtəlif tipli arakəsmələri olan guşələr mövcuddur. Özlərini ağvan adlandıran dönmə və ya gəlmə ermənilərin XVIII əsrdə Gəncə şəhərində tikdirdikləri alban kilsəsi ikinci memarlıq tipindədir. Alban xaç nişanlarına rast gəlinmir. Bir sözlə, dönmə ermənilər, daha doğrusu, tərs düşmüşlər udin və yaxud mard tipli etnoslardan qeyri kimsələr olmamışlar. Alban türklərinə məxsus xaç nişanlı kilsələrdən belə imtina etmiş, üz döndərmişlər. Udinlərin erməniləşməsi prosesi bu günün özündə də gözlərimiz qarşısında baş verən bir prosesdir...

...XVII-XVIII əsrlərdə xristian təəssübkeşliyi altında erməni dövləti qurmaq təşəbbüsü ilə Qərbi Avropaya ayaq açan erməni elçiləri əlləri ətəklərindən uzun geri dönürlər. İtaliya, Fransa, Almaniya kimi dövlətlərdən dəstək ala bilmədikdə Rusiyaya üz tuturlar. Özlərinə tarixi-coğrafi vətən axtarmaqla məşğul olurlar. Beynəlxalq dərəcəli avantürist statusu almış Hindistan ermənisi İsrail Ori Bavariyadan birbaşa köçünü Sankt-Peterburqa sürür. O, 1701-ci ildə arximandrit Minasla I Pyotrun qəbulunda olurlar. Avropanın dövlət başçılarına təqdim edə bilmədikləri Türkiyə ərazisində erməni dövləti qurmaq «proqramını» imperatora təqdim edirlər.

Gürcüstan ermənisi olan arxiyepiskop Höser Arqutyan - Gürcüstanda yaşadığı dövrdə soyadını Arqutaşvili-Mxaqradzeli, Rusiyada isə Arqutinski-Dolqoruki adlandıran bu dələduz İosif isə Rusiyanın cənub hüdudlarındakı geniş

ərazidə qüdrətli və etibarlı bir erməni dövləti yaratmaq və Ani şəhərini «Böyük Ermənistan»a paytaxt etmək haqqında plan hazırlayıb çar hökumətinə təqdim edir. Onların ardınca isə Qarabağın bu yerlərə ayrı-ayrı bölgələrdən toplanmış xəmsə məlikləri gizli yollarla öz xəyanətlərini həyata keçirirlər.

**Haşiyə 2:** (1) Talış kəndi XVI əsrdə səfəvilər dövründə bura köçürülən Qızılbaşlardan olan talış ayamalı türk tayfası tərəfindən salınmışdı. XIX əsr erməni müəllifi Raffi yazır ki, «Qara yüzbaşı» ləqəbli Abov adlı erməni öz icması ilə birlikdə XVII əsrin əvvəllərində Şirvanın Nic kəndindən köç edib Qarabağın Talış kəndinə sığınır. Sonralar onun nəslindən olan Usub öz ətrafına topladığı silahlı dəstəsiylə Gülüstan qalasını zəbt edib burada məskunlaşır. Nadir şah Əfşar tərəfindən ona məlik titulu verilir, Gülüstan məlikliyi bu sayaq yaranır; (2) Raffi yazır ki, Mirzə bəy adlı erməni öz rəiyyəti ilə birlikdə 1682-ci ildə Göyçə mahalından didərgin salınır. Bu icma da Qarabağa gəlir və Vərənd kəndində məskunlaşır. Onun vərəsəsi Şahnazara məlik rütbəsi Nadir şah Əfşar tərəfindən verilir; (3) Raffinin yazdığına görə, Zəngəzurun Mağavız kəndindən olan Yesay adlı erməni Sünik xanını öldürdüyündən rəiyyəti ilə birgə 1687-ci ildə yurd-yuvasından qaçqın düşür. Qarabağın Çələberd kəndinə sığınır. Onun varisi Allahqulu da məliklik titulunu Nadir şah Əfşardan alır. Deyilənə görə, yarınıb-yalmanmaq ustası olan Allahqulu Nadir şaha xoş gəlmək üçün o, taxt-taca yetişməyə 5 km qalmış Nadir şahın hüzuruna sürünə-sürünə gedir. Daşnak psixopatı Zori Balayan da məlik Allahqulunun nəslindəndir. Bu məlun da RF-dan dəstək almaq üçün min cür tülkü oyunbazlığından çıxır, hər cür alçaqlıqlara baş vurur; (4) Raffi yazır ki, Dizak məliyi Yeqan XVIII əsrin əvvəllərində öz icması ilə birlikdə Qarabağa Loru mahalından (bir qisim müəlliflər isə onun İran mənşəli olduğunu qeyd edir) gəlib və Qarabağın Tuğ kəndinə sığınıb. Ona da məlik rütbəsi Nadir şah Əfşar tərəfindən verilib; (5) İrandan gəlib Xınzırıstanda məskunlaşan Mirzəbəy adlı erməniyə isə Xaçın məliyi rütbəsi XVIII əsrin ikinci yarısında Qarabağ xanlığının qurucusu Pənahəli xan tərəfindən verilmişdir.

Ümumiyyətlə, XVIII əsrədək Qarabağda xəmsə məlikliyi kimi təsisatlar olmamışdır. Nadir şah Əfşar şahlığını qəbul etməyən, səfəvilərə öz sədaqətlərini nümayiş etdirən Qarabağ bəylərbəyiliyini parçalamaq, gücünü zəiflətmək məqsədi ilə bir sıra tədbirlər görmüşdür. Yuxarı Qarabağda isə məlikliklər təsis etmişdir. Onların birbaşa şaha tabeçiliklərini təmin etməklə bu işin nə kimi fəsadlar törədə biləcəyinin fərqinə varmadan ermənilərin yerli hakimiyyətə düşmən münasibətdə olmalarına, bu ruhda tərbiyə olunmalarına rəvac vermişdir. Odur ki, Xəmsə məlikləri yarandıqları gündən özlərini həmişə Qarabağın düşmənlərinə həmməslək və müttəfiq seçmişlər. Xüsusilə, bu məliklərin özləri və onların varisləri Qarabağ xanlığının, eləcə də Azərbaycanın Rusiya tərəfindən işğal olunmasında və 200 ilə yaxın bir müddətdə əsarət altında saxlanmasında «müstəsna» xidmətlər göstərmişlər, daha doğrusu, Azərbaycan əleyhinə kifayət qədər xəyanət və

satqınlıqlar etmişlər. Varisləri bu günün özündə də satqın və xəyanətkar babalarının yolunu davam etdirirlər...

...XIX əsrin ilk günlərindən və illərindən başlayaraq ermənilər rus qoşunlarına bələdçi, casus, tərcüməçi olmaqla, hər cür maddi yardım göstərirlər. Satqınlıq və xəyanətkarlıqlarla kifayətlənməyib, həm də könüllü silahlı dəstələr təşkil edərək bu ordunun sıralarında Azərbaycan türklərinə qarşı vuruşublar. Bu dövrdə təkcə köç vasitəsilə etnik tərkibdə ermənilərin mütləq üstünlüyünü təmin etmək mümkün deyildi. Bunu nəzərə alan işğalçı çar generalları Azərbaycan türklərini sıxışdırıb öz tarixi ata-baba torpaqlarından çıxarır və ya qətlə yetirirdilər. 14 may 1805-ci ildə İbrahimxəlil xanın və qanlı general Pavel Sisianovun Kürəkçayda bağladıqları müqaviləyə görə, Qarabağ xanlığı Rusiyanın tərkibinə keçir. Elə həmin ildən ermənilərin Qarabağa köçü başlayır. 1822-ci ildə Qarabağ xanlığı ləğv edilərək Qarabağ əyalətinə çevrilir. 1823-cü ildə ilk rəsmi siyahıyaalma aparılır və müəyyən edilir ki, Yuxarı Qarabağ ərazisində yaşayan 18563 ailədən yalnız 1559-u və ya 8,4% erməni ailələridir. 1827-ci ildə isə ermənilərin sayı artırılaraq 10-15%-ə çatdırılır və bu faiz artan xətlə davam etdirilir.

1826-1828-ci illərdə İrəvan xanlığının Qırxbulaq, Zəngibasar, Vedibasar, Dərəkənd, Saatlı, Talin, Sərdərabad, Aparan, Dərəçiçək, Göyçə və Dərələyəz nahiyələrinin 437 yaşayış məntəqəsindən cəmi 38-də ermənilər yaşamışdır. Rus işğalından sonra bu mənzərə başdan-başa ermənilərin xeyrinə dəyişməyə başlayır.

1818-1828-ci illərdə İrəvan xanlığı ərazisində əvvəllər Azərbaycan türkləri yaşayan 420 kənd çar ordusu tərəfindən viran qoyulur. Bunlardan 100 kənddə İran və Türkiyədən köçürülən ermənilər yerləşdirilir. 410 min hektar torpaq sahəsi gəlmə ermənilər tərəfindən mənimsənilir. 1828-ci il mart ayının 21-də 85 min Azərbaycan türkünün, 22 min ermənin yaşadığı bir əraziyə çar hökuməti «erməni vilayəti» adı verir. Hətta çar I Nikolay 1833-cü il fevral ayının 27-də erməni dövlətçiliyinin mühüm atributu olan gerbi də təsdiq edir. Lakin Azərbaycan xalqının daxili bütövlüyü, vətənpərvərlik hisslərinin güclü olması, milli-mənəvi dəyərləri «erməni vilayəti» qurumunun möhkəmlənməsinin qarşısında sipərə dönür. Nəhayət, ermənilərə əlahiddə imtiyazlar verən vilayət statusu özünü doğrultmadığından 1840-cı il aprel ayının 10-da ləğv edilir. Lakin bununla belə, 1828-ci ildə «erməni vilayəti» adlı söz birləşməsi, ərazi vahidi ifadəsi ilk dəfə çar Rusiyası tərəfindən çəkildi və Cənubi Qafqazda meydana atıldı. Əslində ermənilərin ərazi məfhumu və Qafqazda dövlət qurmaq cəhdi və sevdası məhz bu addan sonra rəsmən gündəmə gəldi. Qərbi Azərbaycan ərazisində, onun Naxçıvan və İrəvan xanlıqlarının torpaqlarında bic doğuşlu ad özünə ünvan tapdı. Ermənilər elə həmin ildən, həmin gündən başlayaraq etnik üstünlüklərini təmin etmək üçün azərbaycanlıların bu inzibati ərazi vahidində təqib olunmasına, ermənilərin say artımının əldə edilməsinə başlayırlar.

1828-1872-ci illər ərzində 146 kənddən azərbaycanlılar sıxışdırılıb çıxarılır. 15 kənd isə xarabazarlığa çevrilir. Varlığı yer üzündən silinir. 46 il ərzində 571 kənd azərbaycanlılarsız qalır. Bu kəndlərdən 208-də gəlmə ermənilər məskunlaşır.

1905-1907-ci illərdə XX əsrin ilk soyqırımını Azərbaycan türklərinin qətliamını törədən erməni-daşnak faşistləri Gəncə və İrəvan quberniyalarında Azərbaycan türkləri yaşayan 200 kəndi canlı aləmdən təcrid edir, xarabazarlığa çevirirlər.

1918-1920-ci illərdə İrəvan quberniyasının azərbaycanlılar yaşayan 1301 kəndindən 959-u, Qarabağda isə 150 kənd erməni-daşnak faşistləri tərəfindən dağıdılır. İrəvan quberniyasında əvvəllər azərbaycanlılar yaşayan 200 kənd bütövlükdə, 70 kənd isə qismən erməniləşdirilir. Azərbaycanlılara məxsus 633 min hektar torpaq ermənilər tərəfindən mənimsənilir.

28 may 1918-ci ildə erməni-daşnak faşistləri Qərbi Azərbaycanın bir hissəsində - Gümrü (Aleksandropol) şəhəri və onun ətraf ərazisində, Azərbaycan türkünün tarixi torpaqlarında Ermənistan Respublikası yaradıldığını elan edirlər. Beləliklə, Qərbi Azərbaycan torpağında ilk erməni dövləti yaranır. Erməni-daşnak faşistləri öz istəklərinə çatırlar.

29 may 1918-ci ildə Gümrünün (Aleksandropol) Osmanlı imperiyası tərəfindən zəbt edilməsi ilə əlaqədar olaraq erməni-daşnak hökuməti Azərbaycan hökumətindən xahiş edir ki, İrəvanı paytaxt etmək üçün erməni hökumətinə versin. Azərbaycan hökuməti, daha doğrusu, Fətəli xan Xoyskinin Nazirlər Şurası Dağlıq Qarabağ iddiasından əl çəkmək şərti ilə İrəvan və Üçmüəzzin qəzalarını erməni-daşnak hökumətinə peşkəş edir. 04 iyun 1918-ci ildə Antanta dövlətlərinin təzyiqi altında Osmanlı imperiyası və yeni yaradılmaqda olan Azərbaycan Xalq Cümhuriyyəti Qərbi Azərbaycan torpağında sahəsi cəmi 9,8 min $km^2$ olan bir ərazidə yaradılan Ermənistan Respublikasını tanımalı olur.

29 noyabr 1920-ci ildə bolşevik-daşnak qaragüruhu Ermənistan SSR-in yaradılması münasibəti ilə torpaqları zəbt olunmuş Azərbaycan Xalq Cümhuriyyətinin tərkibinə daxil olan Zəngəzuru və Dərələyəzin bir hissəsini Ermənistan SSR-in tərkibinə daxil edir. Bununla kifayətlənməyən bolşevik-daşnak qaragüruhu 1920-ci ilin dekabr ayında AXC-nin tərkibinə daxil olan və 6 min $km^2$ bir ərazini əhatə edən Göyçə və Qaraqoyunlu mahallarını da Azərbaycan SSR-dən qopararaq Ermənistan SSR-ə ilhaq edirlər.

Ümumiyyətlə, 1920-ci ildə Sovet hökuməti Azərbaycan SSR ərazisinin 20 min $km^2$-ni kəsib Ermənistan SSR-in ərazisinə qatır. Halbuki daşnak Ermənistan Respublikasının ərazisi cəmi 9,8 min $km^2$ olmuşdu. Oktyabr Sosialist İnqilabından sonra rusların himayəsi və havadarlığı altında kommunist-bolşevik cildinə girmiş erməni-daşnak faşistləri qədim Oğuz torpaqlarında – Qərbi Azərbaycanda yaradılan qondarma Ermənistan SSR-də dövrə uyğun öz gizli erməniləşdirmə siyasətinin əsaslarını hazırlayırlar. Həmin vaxtdan başlayaraq bəzən pillə-pillə, bəzən də sürətlə bu mənfur siyasətlərini həyata keçirmək işinə rəvac verirlər.

1922-ci ildə bolşevik-daşnak qaragüruhu Dərələyəz mahalının Azərbaycan SSR-də qalan hissəsini də Ermənistan SSR-in tərkibinə daxil edir. Beləliklə, Qərbi Azərbaycan torpaqlarında ərazisi 29,8 $km^2$ olan Ermənistan SSR bərqərar edilir. Bununla da Azərbaycan SSR torpaqlarının Ermənistan SSR tərəfindən hissə-hissə qoparılması prosesinə ayaq verilir.

Erməni əlahiddəliyi bir də özünü onda göstərir ki, 1923-cü ildə Azərbaycan SSR-də heç bir hüquqi əsası olmayan bir şəraitdə DQMV yaradılır.

ZSFSR MİK-nin 18 fevral 1929-cu il tarixli 3 saylı iclasında Azərbaycan SSR-in Cəbrayıl qəzasının Nüvədi, Ernəzir və Tuğut kəndlərinin torpaqlarının başqa bir respublikanın – Ermənistan SSR-in Mığırı qəzasına verilməsi haqqında qərar qəbul edilir. Bunun ardınca elə həmin ildəcə çöldən-çölə Qars müqaviləsinin şərtləri kobud şəkildə pozulur. Belə ki, əlavə olaraq Naxçıvan MSSR-na məxsus 9 kənd 657 $km^2$-lik ərazisi ilə birgə Ermənistan SSR-in ərazisinə qatılır. Halbuki belə bir qərar dövlətin ərazi dəyişikliyi ilə bağlı olduğundan ancaq və ancaq ümumi səsvermə yolu ilə həll edilə bilərdi. 1930-cu ildə Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə Naxçıvanın Aldərə, Lehvaz, Astazur kəndləri də Ermənistana ilhaq edilir.

1930-cu ildə çar Rusiyası dövründə Şuşa qəzasının Gülüstan məntəqəsi adlanan ərazisində, DQMV azmış kimi, Şaumyankənd rayonu yaradılır. Onun ərazisinə 16 kənd və 2 şəhərtipli qəsəbə daxil edilir. Azərbaycan SSR ərazisində rayon inzibati ərazi vahidi yaradılır.

1938-ci ildə Gədəbəy rayonunun Köhnə Başkəndi öz ərazisi ilə birgə Ermənistan SSR-in Çəmbərək rayonuna, Naxçıvan MSSR-nın Sədərək və Kərki kəndlərinin ərazisinin xeyli qismi Ermənistan SSR-in ərazisinə ilhaq edilir.

1945-ci ilin noyabr ayında Ermənistan KP MK-nın 1-ci katibi H.Arutyunov Stalinə müraciət edərək DQMV-nin Ermənistana birləşdirilməsini xahiş edir. Lakin erməni-daşnak faşistlərinin bu istəyi hələ ki, baş tutmur. 23 dekabr 1947-ci ildə isə Stalinin, Mikoyanın və Tevosyanın iştirakı ilə SSRİ Nazirlər Soveti özünün 4083 saylı qərarını qəbul edir. Bu qərara əsasən Ermənistandan azərbaycanlıların Azərbaycana köçürülməsi planlaşdırılır. Qərarın 11-ci bəndində isə Ermənistan SSR NS-nə icazə verilir ki, boşaldılan azərbaycanlı evlərinə xaricdən gələn ermənilər yerləşdirilsin.

1948-1953-cü illərdə könüllü köçürmə adı altında azərbaycanlılar yaşayan 229 kəndin əhalisi Ermənistan SSR-dən deportasiya edilir. Azərbaycanlılara məxsus 160 min hektar torpaq sahəsi ermənilər tərəfindən mənimsənilir.

1950-ci illərdə Azərbaycan SSR-in min illər boyu istifadə etdikləri Zəngəzur yaylaqları Sovet hökuməti tərəfindən maldarlar üçün qadağan zonasına çevrilir. Həm də ermənilər bu dövrdə Kəlbəcər əhalisinin Azərbaycan SSR-in aran rayonlarına köçürülməsinə, ərazisinin yaylaq yeri kimi bölüşdürülməsi barədə mərkəzi SSRİ hökuməti qarşısında məkrli bir siyasətin formalaşdırılmasına

çalışırlar. Bu məkrli plan baş tutmasa da, 2800 hektar Kəlbəcər torpağı Ermənistan SSR-ə bağışlanır.

1953-cü ilin dekabr ayında Ermənistan SSR Azərbaycan SSR-in Gədəbəy rayonunun 730 hektarlıq ərazisini mübahisəli hesab edərək onun qaytarılmasını SSRİ hökumətindən tələb edir. Moskva nümayəndə heyəti yerdə yoxlama apararkən müəyyən edir ki, qeyd olunan ərazi Ermənistan SSR ilə heç bir təmas xəttinə malik deyil və sərhəddən 50 km aralıda yerləşir. Ermənistan hökumətinin iddiası əsassız hesab edilir. Lakin ermənilər bu məsələni 1968-ci ildə təkrar ittifaq səviyyəsində qaldırırlar. Moskvada lövbər salmış ermənilərin əli ilə Sov.İKP MK özünün 23 iyun 1968-ci il tarixli sərəncamı ilə məsələni mübahisəli hesab edir. Bu dəfə komissiya 1898 və 1903-cü illərin xəritələri üzrə bu mübahisəyə son qoyur. Arxiv araşdırmaları zamanı aydın olur ki, 1953-cü ildə Bakıda xəritələri tərtib edən 2 erməni – Kələntərov və Qadaqçiyev fırıldaq işlədərək belə bir ərazi mübahisəsinin yaranmasına qəsdən fitva veriblər. Bütün bunlara baxmayaraq, ermənilər 1986-cı ildə bu məsələni M.S.Qorbaçovun qarşısında qaldırırlar. M.S.Qorbaçov bu məsələni öz şəxsi nəzarətinə götürür. Lakin hadisələrin sonrakı gedişi ermənilərin bu torpaq iddialarını həyata keçirmələrinə mane olur.

1828-ci ildən keçən 140 il ərzində Qərbi Azərbaycandakı Azərbaycan türklərinə məxsus torpaqların 87,1%-i ermənilər tərəfindən mənimsənilir.

1969-cu ilin mayında Laçın rayonunun Qaragöl yaylağı, Qazax rayonunun Kəmərli kənd ərazisinin bir hissəsi, Kəlbəcər rayonunun Zod qızıl yatağı ərazisinin bir hissəsi, Qubadlı rayonunun Çayzəmi ərazisi - ümumilikdə 18000 hektar torpaq Ermənistan SSR-ə ilhaq edilir.

1982-ci ildə Qazax rayonunun İnçədərə yaylağı, Kəmərli, Aslanbəyli, Qaynaqlı kəndlərinə məxsus 5000 ha ərazi Ermənistan SSR-ə ilhaq edilir.

1988-1991-ci illərdə azərbaycanlılar yaşayan 172 türk kəndinin, 94 qarışıq kəndin türk əhalisi Qərbi Azərbaycandakı (Ermənistan SSR) tarixi torpaqlarından erməni-daşnak faşistləri tərəfindən qaçqın salınır. Sonuncu Azərbaycan kəndi olan Nüvədi 8 avqust 1991-ci ildə boşaldılır. Beləliklə, erməni-daşnak faşistləri monoetnik, türksüz Ermənistan Respublikası yaratmaq «proqramını» həyata keçirməyə müvəffəq olurlar. Azərbaycan türklərinə məxsus 8 min $km^2$-dən çox torpaq mənimsənilir.

Bununla kifayətlənməyən erməni-daşnak faşistləri DQMV-nin Ermənistan Respublikasına qatılması üçün Azərbaycan Respublikasına qarşı elan olunmamış lokal terror müharibəsinə başlayırlar. Nəticədə Azərbaycan Respublikasının 20% torpaqlarını işğal edirlər. 900 yaşayış məntəqəsinin türk əhalisini yurd-yuvasından didərgin salırlar. RF ilə hərbi ittifaqa girən ER DQMV-ni Ermənistana birləşdirmək niyyətdən heç cür əl çəkmək istəmir. Günü bu gün də AR-nın ayrılmaz tərkib hissəsi olan Qarabağ torpaqlarını işğal altında saxlayır.

***P.S.*** Daşnak ideoloqu, daha doğrusu, daşnak sadistlərindən biri olan A.Astvasatryanın «Ermənilərin ən böyük bədbəxtliyi Azərbaycanla,

azərbaycanlılara qonşu olmalarıdır» - deməsi daşnak manqurtlarının hələ körpə ikən, daha doğrusu, südəmər dövründən uşaqların qulaqlarına analar vasitəsilə pıçıldatdıqları «türk sənin düşmənindir» ifadəsinin incə şəkildə, xüsusi bicənəlliklə bütün erməni xalqının yaddaşına təkrar yeritməsindən başqa bir şey deyildir. Biz isə hələ də «Dağa qanlı dedilər, əridi dağ da» ata-babalarımızın zərbi-məsəlini inkar edir, qulaqardına vururuq. Tanrı payımız, ulu nəsillərdən bizə yadigar qalan, ana Vətənimiz olan Azərbaycan kimi nəhəng dağımız gözümüz görə-görə əriyir. Laqeydliklə, biganəliklə «külək dağdan nə aparır» düşüncəsiylə bivecliyimizi nəsildən-nəslə ötürürük. Dağda gedən aşınmanın fərqinə varmırıq. Qarışqanın fili yıxacağına əmin deyilik. Qarışqa isə filin canına darınıb öz işini görməkdədir.

## ERMƏNİ-DAŞNAK FAŞİZMİNİN ETNİK TƏMİZLƏMƏ SİYASƏTİ VƏ AZƏRBAYCANLILARIN SOYQIRIMI

Azərbaycan türklərinin yurd-yuvalarından qovulması və qətliamlarının törədilməsi Rus imperiyasının müstəmləkə siyasətinin nəticə verdiyi ilk gündən önəm daşıyır. Bununla bahəm ermənilərə rəğmən, onların xəyanətkar və satqınçı missiyalarına arxalanmaqla bu ərazilərdə güclü xristian dövləti yaratmaq məsələsi də ilk gündən gündəmə gəlir və özünü aşkar göstərir. XIX əsr rus tarixçisi Sergey Mixayloviç Solovyov «Rusiya tarixi üzrə mühazirə və hekayələr» (Moskva, «Maarif», 1989, səh.717) kitabında yazırdı: «Rusiya ətrafındakı işğal olunmuş ərazilərdə möhkəmlənmək üçün ən yaxşı vasitə, I Pyotra görə, oralarda xristian əhalinin qüvvətləndirilməsi, müsəlmanların isə azaldılması hesab olunurdu». Məhz bu dövrlərdə beynəlxalq dərəcəli avantürist adı almış İsrail Ori I Pyotrun boğazları (Bosfor, Dardanel) və Hindistan bazarını ələ keçirmək xəyallarının üstünə siyasi fahişəliyinin klassik nümunəsi olan «Böyük Ermənistan» adlı utopik xəritəsini də gəlir. Beləliklə, Rusiyanın gələcək cənub sərhədlərində erməni dövləti yaratmaq ideyasını meydana atır. Özü isə xəyanətkarlıq və satqınlıq missiyasını həyata keçirmək üçün I Pyotr tərəfindən İrana göndərilir və burada Rusiyanın səfiri kimi əməli fəaliyyətə - xəyanət işinə başlayır. Azərbaycan məmləkətinin başı üzərində əsarət torunun ilk ilmələri bu sayaq çalınır.

I Pyotr 1724-cü ilin mayında general-mayor Matyuşkinə yazırdı ki, Bakıda möhkəmlənmək lazımdır. O, bunun bir üsulunu Gilan, Mazandaran və s. yerlərdən ermənilərin gətirilib Bakıda, müsəlmanlar yaşayan digər ərazilərdə yerləşdirilməsində görürdü. Həmçinin zəbt olunmuş ərazilərdə türkləri (sünnüləri) azaltmağı, həm də bu işi sakit görməyi tapşırırdı.

Ümumiyyətlə, çarizmin Qafqaz siyasətinin başlıca prinsipi bu bölgədə etibarlı erməni-xristian dövləti yaratmaq olub. Rusiyanın imperiya siyasəti ilə erməni milli mənafeyinin çulğaşması işğala münbit şərait yaradıb. Həm də «xristianların müsəlmanların zülmündən azad edilməsi» adı altında hərbi-siyasi

planlar pərdələnibdi. Əslində bu plan xaçlı yürüşlərinin bu ad altında yeni dünya düzümünə köçürülən yeni variantından başqa bir şey deyildir. Dünya əslində imperialist dövlətlərinin işğalçılıq və geosiyasi mübarizəsindən doğan məkrli bir plana hamilə düşdü. Ermənilər isə bu siyasətin həyata keçirilməsində istifadə olunan alətə çevrildilər. Bu gün də bir alət olaraq eləcə qalırlar. Əlbəttə, ermənilərin Qafqaza köçürülməsi, yerləşdirilməsi və burada erməni dövlətinin yaradılması ideyası I Pyotrdan başlayır, onun vəsiyyətlərindən rişələnirdi. Lakin rus inrperiyası öz məqsədinə XIX əsrin əvvəllərində nail olur. Tarix ermənilərin üzünə bu sayaq gülür.

I Pyotr zamanında erməni kilsəsinin nümayəndələri ilə aparılan danışıqlardan sonra Azərbaycan ərazisində ermənilərdən ibarət xəfiyyə şəbəkəsi yaradılır, iğtişaşlar törədilir. 250 illik tarixə malik Səfəvilər dövləti dağılır. Xırda xanlıqlara parçalanır. İran, Türkiyə, sonralar isə yavaş-yavaş Azərbaycan xanlıqlarının malik olduqları ərazilərdəki strateji məntəqələrdən azərbaycanlıların köçürülməsi, orada ermənilərin yerləşdirilməsi əməliyyatları aparılır. Gələcək işğallara zəmin yaradılır. 1796-1828-ci illərdə Azərbaycanın çar Rusiyası tərəfindən işğal edilməsi prosesinin davam etdiyi 32 illik bir dövr Azərbaycan torpaqlarının bölünməsi, vahid xalqın iki yerə parçalanması ilə sonuc tapır. 1804-cü il yanvar ayının 3-dən Gəncənin al qana boyanması ilə başlayan Azərbaycan türklərinin kütləvi qırğınları 1828-ci il fevral ayının 10-dək, bədnam Türkmənçay müqaviləsi bağlanadək davam etdirilir. İndiki Ermənistan, Gürcüstan, Azərbaycan ərazilərindəki yüzlərlə azərbaycanlılar yaşayan kənd və şəhərlər top atəşinə tutulur, dağıdılır, yandırılır, yerlə yeksan edilir. Azərbaycan xanlıqları - İrəvan, Naxçıvan, Qarabağ, Gəncə, Şəki, Şirvan, Dərbənd, Quba, Bakı, Lənkəran xanlıqları, Borçalı, Loru mahalları, Şəmsəddil, Qazax, İlisu sultanlıqları və Balakən azad icması rus işğalçıları tərəfindən əsarət altına alınır.

«Xristianların xilası siyasəti» adı altında çar Rusiyasının Azərbaycanın xanlıqları ərazisində XIX əsrdə apardığı istila və qəsbkarlıqları ilə sonradan burda cəmləşdirdikləri və yetişdirdikləri erməni-daşnak faşistlərinin XX əsrdə Azərbaycan türkünə qarşı apardıqları etnik təmizləmə və soyqırımı siyasətindəki çevirmələri arasında köklü fərqlər çox az sezilir. Belə ki, mənşəcə erməni, gürcü olan çar generalları Sisianovlar, Mədətovlar, Lazarevlər, Behbudovlar, Korqanovlar öz qəddarlıqları və amansızlıqları ilə Azərbaycan türkünü əsl soyqırıma, kütləvi qırğınlara məruz qoydular. Azərbaycan xalqının qatillərinə çevrildilər. Çar Rusiyasının erməni əlindən su içən cəllad generalları Matyuşkin, Zubov, Qudoviç, Rtişşev, Yermolov, Paskeviç və onlarla başqaları öz ermənipərəstlikləri ilə fəxr edərək Azərbaycan türkünün başına olmazın müsibət və bəlalar açdılar. Gəncənin ardınca Böyük Qarakilsə (Kirovakan) və Gümrüdə (Leninakan) (iyul 1804), Arpaçayda (Axuryan) (18.06.1807), İrəvanda (2.07.1804, 16-17.11.1807, 01.10.1828), Aslandüzdə (19.10.1812), o illərdə bir nəfər də olsun erməninin yaşamadığı Mığrıda (VII.18.10.), Lənkəranda (31.12.1812), Şəmkirdə

(2.02.1826), Gəncədə təkrar (13.09.1826), Şəkidə (14.10.1826), Şuşa və Qubada amansız qırğınlar törətdilər. Gülüstan (24 oktyabr 1813) və Türkmənçay (10 fevral 1828) kimi hüquqi əsası olmayan sülh müqavilələrinə Azərbaycan xalqı adından kimsə deyil, onun əvəzinə bu xalqın cəlladlarına çevrilmiş Rtişşev, Paskeviç kimi səhra generalları imza atıblar. Nə b.e.-da, nə də b.e.ə. dünya tarixində ədalətsizliyi bu müqavilələr dərəcəsində özündə əks etdirən, uzun müddət yaşayan ikinci bir sülh müqaviləsinə rast gəlinmir. Bu müqavilələr çirkin bir niyyətə bir millətin ana yurdundan qovularaq onun yurd-yuvasına başqa bir millətin köçürülməsinə, bir millətin tarixi etnik torpağında başqa bir millətin dövlətinin qurulmasına, vahid, ulu bir xalqın iki yerə bölünməsinə xidmət etdi. 1796-1828-ci illərdə davam edən 32 illik işğalçılıq müharibəsi nəticəsində on Şimali Azərbaycan xanlığı çar Rusiyasına ilhaq edildi. 581 kənd dağıdıldı. 10 minlərlə Azərbaycan türkü qətlə yetirildi, 100 minlərlə Azərbaycan türkü yurd-yuvasından didərgin salındı. Bütün bunlar azmış kimi, köklü bir xalqın ana Vətəni iki yerə bölündü. Üstəlik bu gün acı taleyimizə bax ki, Qərbi Azərbaycan torpaqlarından aborigen türklər bütövlükdə çıxarılıblar. Bu gün Qərbi Azərbaycanda indiki Ermənistan adlanan coğrafi məkanda eksponat xatirinə köklü əhali olan Azərbaycan türkündən bir nəfərinə belə rast gəlmək qeyri-mümkündür. Halbuki bugünkü Ermənistan adlanan Qərbi Azərbaycanda yaşayan ermənilərin sayı qədər 2 əsr bundan öncə həmin ərazidə bir o qədər Azərbaycan türkləri yaşamışdı. Bütün bu tarixi cinayətlər məhz yuxarıda adları çəkilən həmin bədnam sülh müqavilələrinin nəzərdə tutulan maddə və müddəaları əsasında zaman-zaman xəbis niyyətlərin gerçəkləşməsi nəticəsində baş verib. Azərbaycan türkləri erməni balası və erməni bəlası ilə üz-üzə qalıb. İşğalçılıq müharibəsinə başlanılan gündən İrəvan, Zəngəzur, Naxçıvan, Qarabağ, Göyçə, Şəmşəddil, Gəncə, Qazax, Borçalı, Loru mahallarından azərbaycanlıların Türkiyə, İran ərazilərinə köçmələri, məhv və ya deportasiya edilmələri, ermənilərin isə məqsədyönlü və planlı şəkildə çar Rusiyası tərəfindən dövlət səviyyəsində Türkiyə və İran ərazilərindən həmin torpaqlara köçürülməsi prosesi də start götürübdü. Bir-birini əvəz edən rus çarları irsi ötürmə kimi ermənilərin bu ərazilərdə yerləşdirilməsinə hər cür dəstək verib, bu işi yoluna qoymaq üçün çoxlu maliyyə vəsaiti ayırmaqda belə xəsislik etməyiblər. Bu barədə tərtib olunmuş sənədlərin əksəriyyəti Sankt-Peterburq, Moskva, Tiflis arxivlərində bu gün də saxlanılmaqdadır.

Qəsdimizə durmuş cəllad xislətli çar generalları Azərbaycan xalqının əleyhdarı olmaq sarıdan bir-birindən üstün çıxırdılar. Bu qaniçən generallar bir-birlərindən ancaq öz qəddarlıqları ilə seçilirdilər. Lakin bu canilərin hərəkətlərində bir oxşar cəhət daim özünü qabardır və təkrarlayırdı. Onlar ətrafına topladıqları erməni mənşəli zabitlərin, erməni keşiş və məliklərinin əli və bələdçiliyi ilə yerli əhaliyə amansız divan tuturdular. Özlərini Azərbaycan türkünün, Qafqaz müsəlmanlarının qatili kimi göstərirdilər. Onlar təkcə müstəmləkəçilik siyasətini həyata keçirməklə kifayətlənmirdilər. Azərbaycan türklərini yer-yurdlarından

didərgin salırdılar. Boşalmış torpaqlara, yaşayış məntəqələrinə isə ermənilərin köçürülməsi və yerləşdirilməsi işini təşkil edirdilər. Erməniləri sanki gələcək siyasətlərini - etnik təmizləmə və soyqırım siyasətini aparmaq, arzuladıqları türk qətliamlarını yerinə yetirmək cinayətini törətməyə hazırlayırdılar. Erməniləri türkə qənim kəsilmiş bir hala gətirirdilər. Onların nankorluqlarına arxa-dayaq durur, Azərbaycan türklərinə qarşı müxtəlif növ cinayətlər törətmələrinə göz yumurdular və ya buna həvəsləndirirdilər. Erməni quldurlarının Azərbaycan türklərinə qarşı törətdikləri cinayətlərdən həzz ala-ala danışırdılar. Çar generallarının cinayətkar əməlləri Azərbaycan türkünün qan yaddaşında, tarix kitablarında bu gün də qalmaqdadır. «Rus barbarlığı» haqqında, habelə «Qərbi Avropa Şərqi Öyrənir, Rusiya isə məhv edir» kimi ifadələr sanki Rusiyanın işğalçı ordusunun Azərbaycanın, Azərbaycan xalqının başına gətirdiyi oyunlara, müsibətlərə rəğmən işlədilmiş və deyilmişdir. General A.P.Yermolovun «Bir müsəlmanı edam etməklə yüzlərlə rusu ölümdən xilas etmək olar, minlərlə müsəlman sənə qarşı çıxmaz» deməsindən tutmuş Cəfərqulu ağanın 102 min desyatin torpağını əlindən alaraq erməni mənşəli çar generalı V.Mədətova bağışlamasına, Şəkidə qırğınlar törətməsinədək elə bir işğalçı çar generalı tapmaq, adını göstərmək çətindir ki, Azərbaycan türkünün qanına susamamış olsun. Gürcü mənşəli çar generalı Sisianovdan tutmuş Yazova, Qraçovadək rus generalları zəmanəmizdə belə, cəllad, qatil libaslarını əyinlərindən çıxarmaq, soyunmaq niyyətində olmadılar. Bütün bunlara görə biz rus əsgərinə, rus ordusuna nifrət edir, onlara düşmən gözüylə, həm də varlığımıza qənim kəsilmiş erməni-daşnak faşistlərinin havadarı kimi baxırıq. Çünki bu ordu, bu əsgər iki əsrə yaxındır ki, əllərini büsbütün Azərbaycan türkünün qanına boyamış və boyayır, nə türk qanı tökməkdən əl çəkmək bilir, nə də türk qanı içməkdən doydum deyir.

Rusiya da, demək olar ki, Azərbaycanda apardığı işğalçılıq müharibələri dövründə Qarabağı xarabazarlığa çevirmişdir. Qarabağın türk əhalisi 20 dəfə azalmışdır. Belə ki, 1797-ci ildə Qarabağda 60 min ailə qeydə alındığı halda, bu rəqəm 1913-cü ildə 3080 ailəyə enmişdir.

Azərbaycanlıların öz tarixi torpaqlarından Qərbi Azərbaycandan (indiki Ermənistan), öz doğma yurd-yuvalarından qovulması tarixi də Rusiyanın işğalçı müharibələr apardığı illərdən başlayır. Çar gcnerallarının amansızlıqla apardıqları və yeritdikləri müstəmləkəçilik, antitürk, antiislam, dini ekspansiya siyasəti, təqiblər, təhqirlər, milli zülm, işgəncələr ağır nəticələrlə sonuc tapırdı. Avtoxton əhali olan Azərbaycan türkü yurd-yuvasını ellikcə tərk etmək məcburiyyətində qalırdı. Pəmbək mahalından 1813-cü ilədək 484 ailə, 1854-cü ildə isə 300 ailə doğma od-ocağını tərk edərək Qars paşalığına köçmüşdür. İşğaldan ötən 50 il ərzində Pəmbək mahalındakı 950 azərbaycanlı ailəsinin 784-ü tərki-vətən olmuşdu. 1806-cı ildən 1828-ci ilədək İrəvan xanlığı ərazisini 500 ailə tərk edərək İrana və Türkiyəyə köçmüşdür. 1832-ci ildə İrəvan şəhərində 7331 nəfər azərbaycanlı qeydə alındığı halda, 1854-cü ildə bu rəqəm 3163 nəfərə enmişdir. Təkcə 1826-

1828-ci illərdə İrəvan xanlığında 420 azərbaycanlı kəndi yerlə yeksan edilir. Bunlardan 100-də erməni köçkünləri yerləşdirilir. İşğalçılıq müharibəsi ərzində Naxçıvanı 1400 ailə, Borçalını 15354 ailə, Şəmsəddili 11478 ailə, Qazaxı 2306 ailə, Qubanı isə 10334 ailə tərk edir. Azərbaycan türkünün köç prosesi işğal müharibəsindən sonrakı illərdə də ara vermir. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, müharibədən sonrakı illərdə Naxçıvan bölgəsindən 1270 Kəngərli ailəsi sıxışdırmalara dözməyərək İrana adlamışdır.

İşğalçılıq müharibəsindən ötən 46 il ərzində (1828-1874) Qərbi Azərbaycanda və Qarabağda 581 kənd azərbaycanlısız qalır. Bu kəndlərin 208-nə erməni köçkünləri yiyələnir. Habelə zəbt olunmuş torpaqlarda 148 yeni erməni kəndləri salınmışdır. İşğalçılıq müharibəsindən bu yana, XIX və XX əsrlər boyu da Azərbaycan türklərinin yurd-yuvalarını məcburiyyət qarşısında tərk etmələri və ermənilərin fasilələrlə olsa da Azərbaycan torpaqlarına köçürülməsi və köçetmələri davam etmişdir. Çünki Rus imperiyasının Qafqaz siyasəti formalaşdığı gündən Azərbaycan xalqına bir bəla gətirmişdi. Bu bəla da erməni balasının marağı ilə qoşalaşmış, həmrəyləşmiş, həmkarlaşmış, erməni bəlası şəklində Azərbaycanın üstünə yerimişdir.

Erməni əlindən su içən çar generalı, Azərbaycan türkünün qəddarlarından biri olan Paskeviç ermənilərin İran və Türkiyədən Azərbaycana köçürülməsini təşkil etmək üçün erməni mənşəli çar generalı İ.D.Lazarevin rəhbərliyi altında xüsusi komitə yaradır. Bilavasitə İrəvana köçürməni təşkil etmək üçün isə ayrıca köç komitəsi təsis edir. Buna isə rəhbərliyi erməni mənşəli çar generalı V.O.Behbudova həvalə edir.

**Qeyd:** Çar generalları sırasında Behbudov (Tuğ ermənisi) ən murdar, ən qəddar müstəbid kimi xarakterizə olunur. Camaat onu quberniyanın bəlası adlandırıb, bir ağızdan ona lənət oxuyublar. Heç bir qubernator, paşa və ya sərdar kasıb kəndlilərin qan-təri hesabına bu erməni məlunu qədər qızıl pul, mal-dövlət toplamayıbdı, deyirdilər.

1805-1806-cı illərdə Şuşaya 390 nəfərlik ilk erməni köçü gəlir. Yeri gəlmişkən onu da qeyd edək ki, Şuşada ilk erməni kilsəsi rus kilsəsindən çox sonralar tikilmişdir;

I Rus-İran müharibəsi (1804-1813) başlayan gündən aramsız olaraq ermənilərin Azərbaycana köçürülməsi prosesi davam edib;

II Rus-İran müharibəsinin gedişi (1826-1828) zamanı Qarabağa 18 min erməni ailəsi köçürülüb;

1828-ci il fevral ayının 10-da Rusiya ilə İran arasında bağlanan Türkmənçay sülh müqaviləsi əsasında 8249 erməni ailəsi Şimali Azərbaycan ərazisinə köçürülüb. Süni surətdə bu regionda erməni əhalisinin sayı 50 dəfədən çox artırılmışdır.

XIX əsrin ortalarında ingilis mühəndisinin layihəsi əsasında Zəngəzurda məqsədyönlü şəkildə Gorus kəndi ərazisində ermənilər üçün Gorus şəhəri salınır.

Bura əsasən İrandan gəlmə erməni ailələri yerləşdirilir. 1868-ci ildə Şuşa qəzasının əsasında, daha doğrusu, onun bir hissəsində mərkəzi Gorus şəhəri olan Zəngəzur qəzası yaradılır.

1877-78-ci illərdə Rus-Türk müharibəsi zamanı 1827-28-ci illərdə olduğu kimi ermənilərin Azərbaycana köçmələri kütləvi hal alır. Erməni mənşəli çar generalı Ter-Qukasovun başçılığı ilə 53000 erməni Azərbaycan torpaqlarına köçürülür. Bununla yanaşı, işğal edilmiş Qars əyalətinə 50 min, Sürməliyə isə 35 min erməni qaçqını yerləşdirilir;

1879-cu ildə ən qədim türk məskənlərindən biri olan Dərbənd şəhərinə 250 erməni ailəsi köçürülür.

1893-96-cı illərdə isə 90000 Türkiyə ermənisi Azərbaycan torpağına köç edir. Artıq 1900-cü ildə Cənubi Qafqazda 1,3 milyon ermənininin toplaşması qeydə alınır.

1918-1919-cu illərdə daşnak hökumətinin başçısı Xatisov Türkiyədən qaçqın düşən 40000 ermənininin Qərbi Azərbaycanda yerləşdirilməsini xüsusi plan əsasında reallaşdırır.

1820-1920-ci illərdə, ötən yüz il ərzində Şimali Azərbaycan ərazisinə fasilələrlə rəsmən 600 min erməni köçürülür.

**Haşiyə 1:** Ermənilərin Qərbi Azərbaycana - Ermənistan SSR ərazisinə köçürülməsi Sovet hakimiyyəti illərində də davam etdirilib. 1946-cı ildə Suriya, Yunanıstan, Livan, İran, Bolqarıstan və Rumıniyadan 50,9 min, 1947-ci ildə Fələstin, Suriya, Fransa, ABŞ, Yunanıstan, Misir, İraq və Livandan 35,1 min, 1962-73-cü illərdə Kipr, Misir, Suriya, İraq, ABŞ, Tunis, Uruqvay və Argentinadan 33,1 min erməni köçürülüb. Bu köçürmə prosesi bu gün də davam etdirilir. Livan, İraq və bir sıra Şərq ölkələrindən gələn erməni ailələri Azərbaycanın işğal altında olan Qarabağ torpaqlarında boş qalmış azərbaycanlılar yaşayan kəndlərdə məskunlaşırlar...

...XIX əsrdə Türkiyədən, İrandan Azərbaycan torpaqlarına köçürülən ermənilər özlərinə özgə torpağında yer etdilər. Müəyyən güc topladıqdan sonra milli dövlət yaratmaq arzularını həyata keçirmək üçün əməli fəaliyyətə keçdilər. İlk öncə «Türkiyə Ermənistanı» məfhumunu ortaya atdılar. Türkiyə ərazisində kütləvi terror və üsyanlar, soyğunçuluq və qətliamlar törətməklə, güc vasitəsi ilə məkrli niyyətlərini həyata keçirmək istədilər. Ermənilər bir zaman onlardan yalnız vergi verməyi tələb edən, din və məzhəblərinə qarışmayan türklərə xilaskar kimi baxırdılar. Lakin super güclərin yerdəyişməsi ilə erməni nankorluğu da öz rəngini dəyişdi. Qərbi Avropanın və Rusiyanın Osmanlı imperiyasını içindən çökdürmək siyasəti erməni məsələsinə yaşıl işıq yandırdı. Problemin beynəlxalq arenaya qaldırılması tərəflərin ürəyincə oldu.

Beləliklə, Rusiya, İngiltərə, Fransa öz milli və dövlət maraqları çərçivəsində Türkiyəni parçalamaq məqsədi ilə süni surətdə yaratdıqları «erməni məsələsi»ni cücərdib ortaya atdılar. Hər üç dövlət, xüsusi ilə türk dünyasına qarşı uzun illər

düşmən cəbhədə duran və döyüşən Rusiya müsəlman aləmində geniş rişələri olan ermənilərdən bir alət kimi istifadə etmək sahəsində həlledici addımlar atmağa ilk qərar verən dövlət oldu. Türkiyənin daxilində hərc-mərclik, anarxiya yaratmaqla sultan dövlətini bünövrəsindən zəiflətmək, sarsıtmaq üçün ermənilərə əllərindən gələn köməyi etdilər. Ermənilər 1860-cı illərdən başlayaraq pozuculuq fəaliyyətinə rəvac verdilər, terror qrupları yaratmağa başladılar. Erməni keşişləri və millətçiləri öz sərsəm ideyalarını, 10 milyondan çox türkün və cəmi-cümlətanı 1,3 milyon ermənininin yaşadığı bir ərazidə «bütün türkləri qırıb xalis erməni dövləti yaratmaq» kimi sərsəm ideyalarını həyata keçirmək üçün silahlı üsyana qalxdılar. Erməniləri gah Fransa, gah İngiltərə, sonda isə yenə də Rusiya silahlandırırdı. 1877-78-ci illərdə erməni mənşəli çar generalı Loris-Melikovun komandanlığı altında rus ordusunun (əlavə 3 erməni mənşəli çar generalının da qoşun komandiri olduğu) Şərqi Anadoluya daxil olması ilə erməni hiyləsi türklərə açıq-aşkar şəkildə bəlli oldu. Daha doğrusu, bu müharibə onlara gözlənildiyindən baha başa gəldi. 18 mart 1878-ci il tarixdə qeydə alındı ki, ermənilər Osmanlı imperiyasını devirib «Osmanlı Ermənistanı» adlandırdıqları əraziləri Rusiyaya birləşdirmək istəyirlər. Türk ordusunun erməni əsgərləri bu müharibədə fərarilik edərək kütləvi şəkildə ruslar tərəfə keçir, türklərə qarşı vuruşur, silahlı dəstələr yaradaraq türk kəndlərini yandırır, əhalisini qılıncdan keçirirdilər. Bu müharibədə Türkiyənin məğlubiyyəti ermənilərin iştahasını daha da artırdı. Öz iyrənc planlarının baş tutması üçün böyük xristian dövlətlərinə də arxalanmağa başladılar. Bu yolda İngiltərə, Fransa kimi super güclərdən bu və ya digər dərəcədə, Rusiyadan isə bilavasitə hər cür xeyir-dua və dəstək alırdılar. Öz xəyali dövlətlərini «Böyük Ermənistan» və ya «Dənizdən-dənizə erməni dövləti» (Ağ dəniz, Qara dəniz) yaratmaq yolunda təşkilati strukturlar yaratmağa ehtiyac duydular. Fransanın himayəsi altında Armenakan, İngiltərənin xeyir-duası ilə Qnçaq (1885), Rusiyanın dəstəyi ilə Daşnaksutyun (1890) partiyaları yaradıldı. Bu partiyalar tərəfindən 1894-1896-cı illərdə ermənilərin Türkiyədə ölkə boyu üsyana qaldırılması ermənilərin tam məğlubiyyəti ilə qurtardı. Türklərdən qəti addım görüncə Daşnaksutyun partiyası türk xofunu özündən uzaqlaşdırmaq üçün münaqişənin əks-sədasını 1905-1907-ci illərdə Azərbaycanda törətdi. Erməni-daşnak faşistləri ilk dəfə olaraq silah gücünə Azərbaycan türklərini planlı şəkildə ana yurdlarından çıxarmağa, etnik təmizləmə siyasətini həyata keçirməyə, milli qırğınlar törətməyə başladılar, azərbaycanlıların qətliamına fərman verdilər. Tarix təhrif olunmamalıdır. Bu gün dünya parlamentlərində uydurma «erməni soyqırımı» əfsanəsindən deyil, erməni-daşnak faşistlərinin türk soyqırımı törətmələrinin tarixindən danışılmalıdır. Erməni-daşnak faşistləri XX əsrin birinci soyqırımını törətmələri faktını hər vəchlə gizlədirlər. Bu partiya 1890-cı illərin axırlarında az-çox gücə malik olan Qnçaqı da sıradan çıxardı və ermənilərin yeganə rəhbər siyasi təşkilatına çevrildi...

**Haşiyə 2:** Erməni-daşnak faşizminin təşəkkül tapması, əlbəttə, 1890-cı ildə ifrat faşist partiyası olan Daşnaksutyunun yaradılması ilə bağlıdır. Bu gün erməni-

daşnak faşistləri uydurma «erməni soyqırımı»nı gözə soxurlar. Onlar çox yaxşı dərk edirlər ki, soyqırımlar faşizm tərəfindən törədilir. Belə bir faşist təşkilatı isə Osmanlı Türkiyəsində mövcud olmamışdır. Belə bir təşkilatı ancaq özləri yaratmışlar. Məqsəd də aydındır. Azərbaycanı və Şərqi Anadolunu türkdən təmizləmək, bu ərazilərdə «Böyük Ermənistan» dövləti yaratmaq uğrunda mübarizə aparmaq olmuşdur. Bu faşizm doğulduğu gündən Azərbaycanda hərəkətdədir. Fəaliyyətlərinin ana xəttini Azərbaycanda türk fobiyası təşkil edir. İdeologiyasının kökündə Cənubi Qafqazda Azərbaycan xalqının, onun dövlətçiliyinin məhv edilməsi siyasəti durur. Çünki erməni-daşnak faşistləri Türkiyə ərazisində kütləvi terror və üsyanlar, soyğunçuluq və talanlar törətsələr də istəklərinə nail olmadılar. Bədnam niyyətlərini öz havadarlarının himayəsi və himayədarlarının əsarəti altında inləyən Azərbaycan torpaqlarında həyata keçirmək niyyətlərinə önəm verdilər. Həm də məkrli niyyətlərini bir az da şişirtdilər. Mifoloji «üç dəniz - Qara, Ağ, Xəzərarası» tarixən heç bir zaman olmamış, olmayan və olmayacaq «Böyük Ermənistan dövləti» yaratmaq eşqinə düşdülər. Bu isə Azərbaycan torpaqlarında ermənilərin demoqrafik üstünlüklərini yaratmaqla əldə edilə bilərdi. Bunun üçün isə ən qısa yol, planlaşdırılan, məqsədyönlü iş avtoxton əhaliyə qarşı etnik təmizləmə və soyqırım siyasətinin aparılması ola bilərdi. Bunu da erməni-daşnak faşistləri etdilər...

Azərbaycan türklərinə qarşı apardıqları etnik təmizləmə və soyqırımı siyasətinin birinci mərhələsinə 1903-1904-cü illərdə fərdi terrorlar törətməkdən başladılar. Daşnak terror qrupları bölgələrdə hakimiyyəti ələ keçirir, yolları və körpüləri partladır, nüfuzlu ictimai xadimləri terror yolu ilə qətlə yetirirdilər. 1905-ci ildə isə qanlı faciələrə, azərbaycanlıların kütləvi qətliamlarına rəvac verdilər. Əlbəttə, erməni-daşnak faşistləri 1905-1907-ci illərdə Azərbaycan torpaqlarında törətdikləri bu qətliamları, daha doğrusu, Azərbaycan türklərinə qarşı apardıqları etnik təmizləmə və soyqırımı siyasətini bilavasitə çarizmin dəstəyi ilə, onların maraqlarına uyğun olaraq həyata keçirdilər. Çünki həmin dövrdə milli münaqişənin törədilməsi Rusiyanın bir növ xeyrinəydi. Rusların yaponlara məğlub olması, birinci rus inqilabının başlaması dövründə qüvvələri zəiflətmək, fikirləri başqa səmtə yönəltmək işinə yarayırdı, çarizmin «parçala, hökm et» siyasətinə xidmət edirdi. Belə bir məqamda ruslar yenə də ermənilərdən, onların xəyanətindən öz xeyirlərinə bir alət kimi istifadə etdilər. Bunun müqabilində ermənilər də rus imperiyasının onlara verdiyi üstünlüklərdən, güzəştlərdən lazımınca bəhrələndilər. Ümumiyyətlə, erməni-daşnak faşistlərinin etnik təmizləmə və soyqırım siyasətlərini həyata keçirdikləri bütün mərhələlərdə üç şey dəyişilməz qalıb: 1) erməni-daşnak faşistləri öz üstünlüklərini və şanslarını heç zaman əldən verməyiblər; 2) Rus imperiyasının Azərbaycana olan mənfi münasibəti yaxşılığa doğru heç zaman dəyişməyib; 3) Azərbaycan türkləri də heç zaman təcavüz zamanı müdafiəyə hazır olmayıblar. Heç zaman da belə bir hazırlığın olmasına çar hökuməti imkan verməmiş və verməzdi də.

Bu mərhələdə erməni-daşnak faşistlərinin əsas məqsədi İrəvan, Üçmüəzzin, Qırxbulaq və Zəngəzur mahallarını Azərbaycan türklərindən təmizləmək idi. Bakıda sülh deyib Gəncədə, Gəncədə sülh deyib Şuşada qırğınlar törətməklə Qərbi Azərbaycanda öz çirkin niyyətlərini həyata keçirirdilər.

**Qeyd:** Mayasında iftira olan bir kimsəni sülh şüarı ilə yerində oturdacaqlarına gümanı olanlar gümanlarında yanılırlar. Nə qədər erməni-daşnak terroru var, üstəlik torpaqlarımız işğal altındadır, hər hansı sülh barəsində danışmaq əbəsdir. Əksinə, hər görüş və danışıqda ermənilər özlərinə məxsus hiyləgərliklə əsl mətləbdən uzaq, gələcək siyasətlərinin tərkib hissəsi olan çeşid-çeşid təklif və mübahisəni daha da dərinləşdirən, zənginləşdirən, vaxt aparan mövzulardan bəhs edəcəklər, o biri tərəfdə isə öz bildikləri kimi öz işlərini görəcəklər. Belə ki, 1905-1907-ci illərdəki qətliamların qarşısını almaq məsələsi ilə bağlı Tiflisdə Qafqaz canişini, erməni yeznəsi Vorontsov-Daşkovun təşəbbüsü ilə iki tərəf arasında sülh danışıqları aparılarkən bu hal özünü göstərmişdir. Azərbaycan tərəf erməni-daşnak terrorundan, hətta idarə, təşkilat rəhbərlərinin, dövlət məmurlarının terrordan qorxaraq ədalətli hərəkət etməmələrindən bəhs edirdi. Erməni tərəf isə azərbaycanlılara təklif edir ki, maldarlar yaylaqlara qalxmasınlar, oturaq həyata qədəm qoysunlar və s.

...Erməni-daşnak faşistləri heç də bu qəzaları əldə etməklə kifayətlənmək fikrində deyildilər. Qətliamın miqyasını artıraraq daha geniş ərazilərdə və ayrı-ayrı bölgələrdə yığcam çoxluqlar yaratmaq arzularını həyata keçirmək idi. Bu minvalla lokal döyüşlər aparan daşnak terror qrup və birləşmələri 1905-1907-ci illər qətliamında İrəvan quberniyasında 188, Yelizavetpol (Gəncə) quberniyasında isə 112 kəndi dağıtmış, əhalisini qılıncdan keçirərək qətliamlar törətmiş, sağ qalanları da yurd-yuvalarından didərgin salmışdılar. İrəvan, Naxçıvan, Tiflis, Ordubad, Gəncə, Şuşa, Bakı şəhərlərində qətliamlar daha çox kütləvi hal almışdı. Bu mərhələdə ümumilikdə 150000 azərbaycan türkü qətlə yetirilmiş, 350000 nəfər dədə-baba yurdlarından qovulmuşdu. Bütün bu iyrənc əməllərindən fərəh hissi keçirən Daşnaksutyun partiyası 1907-ci ildə Üçmüəzzin kilsəsində özünün IV qurultayını keçirir, partiyanın yeni proqramını qəbul edir. Proqrama görə Türkiyə Ermənistanı ilə Zaqafqaziya demokratik respublikası federativ əsaslarla mərkəzə bağlanır. Lakin hər iki ölkə üçün ümumi qanunlar qəbul olunur. Daimi ordu milislə əvəzlənir. Əli silah tuta bilən hər bir vətəndaş milisdə iştirak edir. Milis dövlətin azadlığına və bütövlüyünə təhlükə yarandıqda bir bayraq altında toplanır. Əslində nəzərdə tutulan bu milis dəstələrini yaratmaqla, Daşnaksutyun özünü bütövlükdə bir terror təşkilatına çevirir. Məhz bu qurultayda yeni proqrama əsasən terroru daha da mütəşəkkil şəkildə həyata keçirmək, şiddətləndirmək, dəhşətli təsirini artırmaq məqsədilə buna rəhbərlik edəcək «Vahimə» adlı yeni təşkilat yaradır. Xalqı bütövlükdə silahlanmağa çağırır. Özünü ifrat hegemon bir faşist partiyası kimi təsbit edir. Hələlik çar hökumətinin yaratdığı boşluqdan və dolayısı ilə göstərdiyi köməyindən istifadə edərək özünün faşist üzünü Azərbaycan türklərinə qarşı

apardığı etnik təmizləmə və soyqırımı siyasətində göstərir və təsdiq edir. Beləliklə, erməni-daşnak faşistləri XX əsrin ilk qətliamını törədərək tarixə ilk qanlı - Azərbaycan türklərinin soyqırımı səhifəsini yazmış olurlar. Budur erməni-daşnak faşizminin əsl siması. Biz bu simanı pərdələyən güclərin öhdəsindən gəlməliyik. Rusiyanın və Qərbin KİV-lərini erməni təbliğatının inhisarından çıxarmağı bacarmalıyıq.

Artıq 1907-ci ilin sonlarında ölkədə vəziyyətin sabitləşməsi yönümündə hökumət tərəfindən erməni-daşnak faşistlərinin terror müharibəsinə son qoymaları, əmin-amanlığı bərpa etmələri tələb olunurdu. Daşnaksutyun isə özünü unudub ipə-sapa yatmaq istəmirdi. Çar II Nikolayın qulaqburmasından sonra erməni-daşnak faşistləri sakitləşdilər. Rusiya heç də hər zaman ermənilərə etibarlı ünsür və dayaq kimi baxmayıb. Yeri gələndə «velikorus» mənafelərini ermənilərin «Böyük Ermənistan» iddialarından üstün tutublar... İndi isə tərəfləri susdurmaq lazım idi. Ən sərt tədbirlərə əl atmaq lazım gələndə Azərbaycan tərəfin ünvanına olması da gözlənilən idi. İlk gündən çarın əmri ilə Azərbaycan türklərinə silah gəzdirmək qəti şəkildə qadağan edilir. Özünü müdafiə məqsədi ilə yaradılan «Difai» partiyası büsbütün dağıdılır. Ana bətnindəcə məhv edilir. Bütün bunların müqabilində isə erməni-daşnak faşistlərinin əlindən ancaq toplar alınır. Addımbaşı ermənilərin xeyrinə azərbaycanlılara maddi, mənəvi, fiziki zərbələr vurulurdu. Daşnaksutyunun nə yerli təşkilatları dağıdılır, nə də türklərə qarşı müharibə aparmaq üçün yaratdıqları mərkəzlərə - qımdatxanalara toxunulur. Əksinə, işlərinə gərək olan kimi Daşnaksutyunla anlaşmaya rəvac verilir. 1913-ci ildə rus diplomatları mütəşəkkil erməni burjuaziyası ilə - Daşnaksutyunla saziş bağladılar. «Məzlum ermənilərin müdafiəsi» adı altında açıq çıxışlar edərək Anadolunun şərq vilayətlərində Türkiyə hökumətinin islahatlar keçirməsi tələbini irəli sürdülər. Almaniyanın müdafiə etdiyi Türkiyə inadlı müqavimətdən sonra 26 yanvar 1914-cü ildə islahatlar haqqında sazişi imzalamağa məcbur olur. Ermənilər Rusiyanın nəzarəti altında idarəetmə, dil, hərbi mükəlləfiyyət və i.a. sahələrdə çox geniş muxtariyyət almalı idilər. Bununla kifayətlənməyən daşnaklar I Dünya müharibəsi başlayan kimi «Böyük Ermənistan» şüarını yenidən ortaya atdılar. Erməni könüllülərindən ibarət silahlı dəstələr təşkil edib Türkiyə ərazisinə göndərməyə, Türkiyə ermənilərini kütləvi surətdə təxribatlar törətməyə, Rusiyanın xeyrinə xəyanət və satqınçılıq etməyə təhrik etdilər. Türk ordusunda döyüşən 40 min erməni mənşəli türk əsgərlərinin rus ordusu tərəfinə keçmələrini təşkil edirlər. Daşnaksutyun özünün 15-29 fevral 1915-ci ildə keçirilən IX qurultayında Andronik «ya indi, ya da heç vaxt» çağırışı ilə silahdaşlarını bütün varlıqları ilə silahlı toqquşmaya səsləyir. Terror qruplarının sayını artırmaq tələbini irəli sürdü. Özü isə birbaşa cəbhə xəttinə yollanıb türkləri, kürdləri, yəhudiləri qırıb tökəcəyini, onu bu yoldan kimsənin döndərə bilməyəcəyini bəyan edir. Əməli surətdə cinayətkar fəaliyyətə başlayır. Andronikin komandiri olduğu erməni-daşnak terror birləşmələri sözün əsl mənasında Van gölü ilə Urmiya gölü arasını

xarabazarlığa çevirir. Cənubi Azərbaycan türklərini bütövlükdə qılıncdan keçirir. Yüz minlərlə əliyalın və köməksiz türk kişiləri, qocalar, qadınlar, uşaqlar işgəncələrə məruz qalır, təhqir olunur, döyülüb-söyülür, amansızlıqlarla qətlə yetirilir. Neçə-neçə nəslin varlığına son qoyulur. Lakin Türkiyənin sərt addımlar atması Andronikin arzusunu gözündə qoyur. Birinci Dünya müharibəsindən sonra Osmanlı Ermənistanı tam ləğv olunur. Daha doğrusu, «Türkiyə Ermənistanı» sözü Lozanna konfransında dəfn edilir. Min ilin ölüsünə çevrilir. Beləliklə, erməni məsələsi bütövlükdə Qafqazda cəmlənir.

1917-ci il fevral inqilabı «erməni məsələsi»nin tarixində yeni dövr açır. Erməni-daşnak faşistləri eninə-boyuna qol-qanad açırlar. Nə qədər ağır da olsa qeyd etməliyik ki, xristian təəssübkeşliyi öz işini görür. Vətəndaş müharibəsi bəhanəsi ilə, habelə sovetləşmə adı altında Zaqafqaziyada toplaşmış erməni-daşnak faşistləri, bolşeviklər, eser-menşeviklər cidd-cəhdlə Azərbaycan türkünün milli hissini boğmaq sahəsində birgə səylərə əl qoyurlar. Bir millət kimi Qafqazda Azərbaycan türkünü məhv etmək planlarını cızıb hazırlayırlar. Erməni-daşnak faşistlərinin 1914-1916-cı illərdə Şərqi Anadoluda, Cənubi Azərbaycanda törətdikləri qətliamların Bakı, Yelizavetpol, Tiflis və İrəvan quberniyalarında təkrarlanması yolunda məkrli niyyətlərini həyata keçirmək üçün hazırlıq işləri görürlər. Məqamı yetişəcək anın marığında yatırlar. İstəklərincə bir-birinin ardınca ardıcıl addımlar atırlar. Böyük Oktyabr Sosialist inqilabından sonra isə «erməni məsələsi» yeni, əvvəlkindən daha böyük əhəmiyyət kəsb edir. 1917-ci ilin oktyabrında Daşnaksutyunun rəhbərliyi altında erməni milli konqresi toplanır. Konqres olmayan Türkiyə Ermənistanının rus qoşunları tərəfindən işğal olunmuş ərazilərinin Rusiyada saxlanılması tələbini irəli sürür. Olmayan Ermənistanla Rusiyanın digər hissəsinin əlaqəsini təsdiq edir. Bütün hallarda həm Rusiyanın, həm İngiltərənin, həm də Fransanın mənafeləri naminə Qafqaz xalqlarının birliyi, suverenliyi əleyhinə çıxışlar edir və buna qarşı mübarizə aparır.

29 dekabr 1917-ci ildə Sovet hökuməti mövcud olmayan «Türk Ermənistanı» barədə dekret qəbul edir. V.İ.Lenin dekretə imza atmaqla S.Şaumyana geniş səlahiyyətlər, imtiyazlar verir. Bununla da o tam sərbəstlik əldə etmiş olur və öz daşnak xislətiylə də xəbis niyyətlərini həyata keçirmək üçün şanslardan yetərincə istifadə edir. Azərbaycan türklərinin əleyhinə, onların məhv edilməsi yolunda əzmkarlıq göstərir...

**Sözə qüvvət:** Daşnak əlaltıları olan Şaumyanlar, Əmiryanlar, Avakyanlar, Mikoyanlar, Aqenbekyanlar, Abakumovlar, Şahnazaryanlar, Hambarsumyanlar, Balayanlar, Kaputikyanlar, Xanzadyanlar, Köçəryanlar və s. bu qəbildən olan erməni mənşəli partiya və dövlət rəhbərləri, erməni ziyalıları ciblərində kommunist biletləri gəzdirsələr, özlərinin saxta beynəlmiləlçiliklərini gözə soxsalar da, erməni-daşnak faşistlərinin ad çıxarmış liderlərindən heç nəylə fərqlənməyib, faşist ideologiyasının təbliğatçıları və təşviqatçıları kimi iş aparıb, fəaliyyət göstəriblər...

Bolşevik adı ilə pərdələnən S.Şaumyan Azərbaycan türkünə qarşı apardığı etnik təmizləmə və soyqırımı siyasətini çox hiyləgərcəsinə bolşevizm bayrağı altında, həm də çox qəddarcasına həyata keçirdi.

Məhz onun təşəbbüsü ilə azğınlaşmış erməni-daşnak faşistlərinin Azərbaycan türkünə qarşı 1914-1920-ci illərdə apardıqları etnik təmizləmə və soyqırımı siyasətinin II mərhələsi 1918-ci ildə daha geniş miqyas alır və ötən illərdəkindən öz amansızlığı ilə fərqlənirdi. Birinci Dünya müharibəsində çar ordusunun tərkibində türklərə qarşı döyüşən 250 minlik daşnak terrorçuları 1914-1917-ci illərdə Şərqi Anadoluda misli-bərabəri olmayan qətliamlar törətdilər. Hərbiləşmiş erməni-daşnak terror birləşmələri Rus ordusunun qoltuğu altında olsalar da, əslində türklərə qarşı ərazi iddiası ilə müharibə aparırdılar. Lakin Rusiyanın geri çəkilməsi erməni-daşnak faşistlərinin arzusunu gözündə qoydu. Osmanlı türkləri tərəfindən layiq olduqları cəzanı alan erməni-daşnak faşistləri ancaq öz iyrənc mübarizə üsullarını Azərbaycan türklərinə qarşı axıradək və bütün etnik ərazilərdə aparmaq fürsəti əldə edirlər. 3 fevral 1918-ci il tarixdən Anadoludan çıxarılan 250 min silahlı daşnak terrorçuları ayrı-ayrı daşnak komandirlərinin rəhbərliyi altında qrup və birləşmələr halında və həm də əlaqəli şəkildə Güney və Quzey Azərbaycan torpaqlarına daxil olurlar. Erməni-daşnak faşistləri Azərbaycanın bütün ərazisində, demək olar ki, qəddarlıqla, xüsusi amansızlıqla qırğınlar, talanlar, yanğınlar, terror və digər zorakılıq aktları törədirlər. Azərbaycan türklərini milli mənsubiyyətinə görə vəhşiliklə qırırlar, yaşayış məskənlərini yerlə yeksan edirlər, tarixi keçmişimizi özündə yaşadan minlərlə milli mədəniyyət abidələrini, məscidləri dağıdır və yandırırlar. Onları bir arzu birləşdirir. Azərbaycan torpaqlarını mənimsəmək, «Böyük Ermənistan» qurmaq uğrunda mübarizəni davam etdirmək, bu «ali» məqsəd uğrunda heç nədən çəkinməmək, adı türk olanı qırıb-çatmaq. Bir sözlə, nizami qoşun halında fəaliyyət göstərən erməni-daşnak terrorçuları Daşnaksutyun partiyasının siyasi rəhbərliyi altında İrəvandan Bakıya, Dərbənddən Təbrizə Azərbaycan türklərinə qarşı etnik təmizləmə və soyqırımı siyasətini həyata keçirirlər. Bütöv Azərbaycan al qana boyanır. Soyqırım öz kulminasiya nöqtəsinə Bakıda çatır. Erməni-daşnak faşistləri burada qeyri-insani bir qətliam törədirlər. Bolşevik pərdəsi arxasında gizlənmiş, daşnak ideologiyası ilə silahlanmış Şaumyan, Avakyan, Arakelyan, Ter-Mikaelyan, Saakyan, Əmiryan, Mikoyan, Korqanyan, habelə öz qəddarlıqları ilə ad çıxarmış Amazasp, Lalayan, Muradyan və başqaları Bakıya topladıqları 15 minlik daşnak silahlısından və 5 minlik rus muzdlusundan ibarət 20 minlik terror qruplaşması və hərbiləşmiş hissələrlə həmləyə keçirlər. Təkcə 1918-ci il mart ayının 31-də Bakıda 15 min, 30 mart-01 apreldə, üç gün ərzində Bakı şəhərində və onun ətraf kəndlərində 30 min Azərbaycan türkünü qanına qəltan edirlər. Körpələrin başını kəsib analarına qanlarını içirənədək heyvani vəhşanəliklər törədirlər. Azərbaycanlılara məxsus qəzet redaksiyalarını, mətbəələri, mətbuat idarələrini, milli teatr binalarını, məktəbləri, xəstəxanaları, milli mədəniyyət

müəssisələrini yandırır, dağıdır, yerlə yeksan edirlər. Əlbəttə, S.Şaumyanın məqsədi Bakıda sovet hakimiyyəti qurmaq, onu yaşatmaq deyildi. Bütöv Azərbaycanı milli qırğın meydanına çevirmək, Azərbaycan türkünün qətliamını törətmək, yurd-yuvalarından didərgin salmaq, başlıcası isə Azərbaycanın varlığı uğrunda mübarizəyə qalxan müsavat hökumətinin diqqətini Qərbi Azərbaycandan yayındırmaq idi. Əfsuslar olsun ki, S.Şaumyanın ustalıqla oynadığı bu çirkin oyunları, bədxah niyyətləri, şeytanə gəzişmələri baş tutdu. Şamaxı, Quba, Salyan, Lənkəran, Ərəş, Nuxa qəzalarında, Hacıqabul, Kürdəmir, Göyçay nahiyələrində qətliamlar törətdi. Təkcə Quba qəzasında erməni-daşnak faşistləri bir dəfə deyil, üç dəfə qırğına ayaq verdilər. Daşnak terrorçusu Muradyanın komandanlıq etdiyi 2 minlik silahlı birləşməyə yerli daşnak terrorçuları Avakyanın və Vartanyanın rəhbərlik etdikləri dəstələr də qoşuldular. Bu cinayətkar dəstələr azmış kimi may ayının 1-də qondarma daşnak generalı Amazasp hərbiləşmiş 3 minlik daşnak silahlısı ilə azğınlaşmış dəstələrə köməyə gəlir. Erməni-daşnak faşistləri Quba qəzasında əsl qətliam törədirlər. Daşnaklar ümumilikdə 19 min insanın həyatına son qoydular. Onlar Azərbaycan türklərini qətlə yetirməklə kifayətlənmirlər, Tayqulaq Andronikin arzusunda olduğu yəhudi qırğınını da törədirlər. Üç min yəhudini də al qanlarına boyayırlar. Qəzanın 122 kəndini od vurub yandırır, evləri dağıdır, 38 məscidi yerlə yeksan edirlər.

Bu günlərdə Quba və Neftçala şəhərləri ətrafında aşkar edilən Azərbaycan türklərinə məxsus toplum məzarları erməni-daşnak fasistlərinin vəhşiliyini göstərən əyani sübutlardır. S.Şaumyan ətrafına topladığı və rəhbərlik etdiyi Bakı Kommunasının qoşunu adlandırdığı daşnak terror qruplaşmalarından və azsaylı rus muzdlularından ibarət silahlı hərbi hissələrin əliylə planlaşdırdığı milli qırğını ustalıqla həyata keçirir. Lakin bununla kifayətlənmir. Gəncəni də müsavata çox görür. Naxçıvana teleqraf açır, erməni xalqının qəhrəman oğlu adlandırdığı daşnak generalı Tayqulaq Androniki Qarabağa girməyə çağırır və Gəncədə görüşmək arzusunu ona bildirir. Özü də Bakıdan Gəncə üzərinə qoşun yeridir. Şaumyanın öz çirkin niyyətlərini həyata keçirə bilməsinə mane olmaq üçün Müsavat hökuməti Bakının azad edilməsi uğrunda mübarizəyə qalxır. Qərbi Azərbaycan unudulur. Onun yerində Ermənistan daşnak hökuməti dikəlir. 1918-ci il avqust ayının 1-də ana şəhərimiz İrəvanda erməni-daşnak hökumətinin parlamenti çağırılır.

Böyük dövlətlərin təzyiqi altında yaradılan ilk erməni dövləti erməni-daşnak faşistlərinin Ermənistan Respublikası yarandığı gündən bütün Qafqaz xalqları üçün bir bəlaya çevrilir. Axalkalaki və Borçalı uğrunda Gürcüstanla, Azərbaycanla isə Qərbi Azərbaycanın bütövlükdə əldə edilməsi, habelə Qarabağ, Naxçıvan, Yelizavetpolun cənub hissəsi uğrunda uzun müddətli qanlı mübarizəyə girir. 1918-ci ilin dekabr ayında daşnak hökuməti Gürcüstanla qədim Oğuz yurdu olan Loru mahalı uğrunda müharibə aparır. Bu etnik Azərbaycan mahalı iki respublika arasında bölünür.

Daşnak hökuməti tərəfindən azərbaycanlılara qarşı aparılan kütləvi qırğın, amansız təqiblər, etnik təmizləmə və soyqırımı məqsədli və planlı şəkildə dövlət siyasəti səviyyəsində xüsusi qəddarlıqla həyata keçirilir. Daşnak hökumətinə heç bir təhlükə törətməyən, silahsız, əliyalın, dinc əhalinin etnik mənsubiyyətinə türk olduğuna görə qırılması, qətliam edilməsi erməni-daşnak faşistlərinin dövlət quruculuğu fəaliyyətlərinin ana xəttini təşkil edirdi. Azərbaycan türklərini kütləvi şəkildə qırır, məhv edirdilər. Əgər erməni-daşnak faşistləri tərəfindən 1905-1907-ci illərdə dünyada ilk dəfə etnik mənsubiyyət əsasında etnik təmizləmə və soyqırımı siyasətinin təməli qoyuldusa, II mərhələdə 1918-1920-ci illərdə bu siyasət daha geniş miqyas aldı və daha da qəddarlıqla, xüsusi amansızlıqla, faciəvi şəkildə həyata keçirildi. Azərbaycan türklərinin bütün etnik ərazisini əhatə etdi. Faciə sözü erməni-daşnak vəhşiliyinin mahiyyətini tam açmır, deyənlər sözlərində haqlıdırlar. Erməni-daşnak faşistlərinin bu illərdə törətdiyi qanlı hadisələr öz dəhşəti və ağılasığmazlığı, analoqu olmayan qeyri-insani xarakteri ilə fərqlənirdi. May 1918-noyabr 1920-ci illərdə, 30 aylıq hakimiyyəti ərzində Ermənistanın daşnak hökuməti Qərbi Azərbaycanın aborigen türk əhalisinin 60%-ni tamamilə qırıb məhv edir. Qərbi Azərbaycanın 15 mahalı da daşnak generalları Tayqulaq Andronikin, Dronun, Nijdenin, Bağdasaryanın, Doluxanovun komandanı olduqları erməni-daşnak terror qruplaşmalarının, hərbi hissə birləşmələrinin mauzer silahları, top atəşləri ilə al qanına boyanır. Antantadan, habelə Türkiyə istisna olmaqla üçlər ittifaqının özündən belə maddi və mənəvi yardım alan, döyüş silah-sursatları və patron ehtiyatları ilə tam təmin edilən daşnak hökuməti Ermənistan-Türkiyə sərhədini, Şərur-Naxçıvanı, Zəngəzuru, Qarabağı, Gəncə quberniyasının cənub-qərb zonasını da Azərbaycan türklərindən təmizləməyi qarşısına məqsəd qoyur. Dronun başçılıq etdiyi terrorçu daşnak qruplaşmaları 1918-ci ilin avqust ayında İqdır, Üçmüəzzin qəzalarının, Nijdenin silahlı qruplaşmaları isə Qərbi Azərbaycanın mərkəzi mahallarının bütün kəndlərinin kişi əhalisini qılıncdan keçirir, heç bir əxlaq çərçivəsinə sığmayan bir tövrlə qadınların namusuna təcavüz edirlər. Türk qanı içməkdə ad çıxarmış, öz amansızlığı ilə seçilən Tayqulaq Andronik Zəngəzurda paytaxtı Gorus olan Ararat respublikası qurur. Naxçıvanı, Dərələyəzi, Göyçəni özünə tabe etmək istəyir. Üç dəfə Qarabağa girməyə cəhd edir. Lakin girə bilmir. Bütün acığını Naxçıvan, Zəngəzur bölgələrinin, Göyçə mahalının əhalisindən çıxır. Bu ərazilərdə Azərbaycan türklərini kənd-kənd qılıncdan keçirir. Kəndləri viran qoymaq, əhalisini məhv etmək tapşırığı verir. Onun ayaq basdığı bölgələrdə etdiyi özbaşınalıqlar, törətdiyi qanlı hadisələr Azərbaycan xalqının qan yaddaşına əbədi həkk olur. (O dövrdəki daşnak hökuməti bu qatı cinayətkarı, daşnak terror qruplaşmalarının yaradıcısı Tayqulaq Androniki tanımadığını bəyan edir. Bugünkü ER isə bu daşnak cəlladının qəbrini Parisdən İrəvana köçürür. Erməni din xadimləri isə bu insan qəssabının məsum körpə qanlarına boyanmış qılıncını «müqəddəs yadigar», Tayqulaq Andronikdən əziz xatirə, əşya kimi Üçmüəzzin kilsəsində saxlayır.) Erməni-daşnak faşistlərinin

ikibaşlı oyunları davam edir. Erməni-daşnak hökuməti Denikinlə birləşir. Öz silahlı qüvvələri ilə Denikin ordusunun 7-ci korpusu qismində özünü göstərir. Denikinin əks-inqilabi ordusunda komandirlərin əksəriyyətini erməni zabitləri təşkil edir. S.Şaumyanın daşnak silahlılarından ibarət qoşununa isə tam dəstək verən Sovet Rusiyası, V.İ.Lenin olur. S.Şaumyan Tayqulaq Androniki xalq qəhrəmanı adlandırır, onun qırğınlarını alqışlayır. Tayqulaq Andronik isə tezliklə onun köməyinə çatacağını vəd edir. Hər ikisi bu sayaq Azərbaycan türkünü məhv etmək uğrunda bir-biriylə yarışa girirlər. Hər ikisi də türk qanı içməyə hazır olduqlarını bildirirlər. Bolşevik-daşnak qardaşlığı - siam əkizliyi Azərbaycan türkünü daha böyük bəlalarla üz-üzə qoyur. Daşnak xəfiyyəçiləri Azərbaycan türklərini bolşeviklərə qarşı silahlı çıxışlara təhrik edir, sonra isə bolşeviklərə kömək bəhanəsi ilə erməni-daşnak terror birləşmələri həmləyə keçir, Azərbaycan türklərini qırıb-çatır, qəddarcasına divan tuturdular. Bir tərəfdən də cinayət törədənlər öz yalan xəbərləri ilə Avropa ictimaiyyətində tamam əks əhvali-ruhiyyə yaradırdılar. Daşnak terror qruplaşmalarının, onun hərbi hissələrinin qanlı cinayətlərini gizlətməyə, ört-basdır etməyə çalışırdılar.

Ümumiyyətlə, erməni-daşnak faşistlərinin Azərbaycan türklərinə qarşı apardıqları etnik təmizləmə və soyqırımı siyasətinin II mərhələsində 800000-dən çox Azərbaycan türkü qətlə yetirildi, bir milyona yaxın günahsız insan isə yurd-yuvasından didərgin salındı. Bir sözlə, Azərbaycan türkü zaman-zaman «velikorus» şovinizmi ilə erməni-daşnak neofaşizminin qurbanlarına çevrilən bir xalq olur. Hər zaman istila və istismara məruz qalır.

Pantürkizmin, panislamizmin, Türkiyə ilə Rusiya arasında bufer erməni dövləti yaratmaq barədə klassik I Pyotr siyasətinin, vəsiyyətlərinin həyata keçirilməsi yolunda atılan ardıcıl addımlar (varisliyin gözlənilməsi) sovet dönəmində daha dəhşətli şəkildə davam etdirildi. Xüsusilə imperiyapərəst qüvvələr kommunizm inqubasiyasına qarşı duranların kampaniya şəklində məhv edilməsi, dövlət rəhbərliyində boşalmaların baş verdiyi dövrlərdə bir qayda olaraq erməni-daşnak faşistlərinin fəallaşmasına dəstək vermiş, imkan və şərait yaratmışlar. Davamlı olaraq türksoylu millət kimi azərbaycanlılara qarşı sıxışdırmaları və təzyiqləri artırmışlar.

Sovet hakimiyyətinin ilk günlərindən nəinki xaricdən qayıdan daşnak qaçqınlarının, habelə Şimali Qafqazdan və Rusiyanın müxtəlif yerlərindən ermənilərin Qərbi Azərbaycanın boş qalmış, azərbaycanlılar yaşamış kəndlərinə, torpaqlarına köçürülmələrinə dövlət əhəmiyyətli tədbir kimi baxıldı. Sözün ən yaxşı mənasında sovet hökuməti ermənilərə xoşbəxt bir həyat bəxş etdi.

Bolşevik-daşnak qaragüruhu Şərq ölkələrinin yeni inqilabi dəyişikliklərə can atma arzusunda olduqlarını görüncə öz siyasi məqsədləri naminə Azərbaycanın müstəqilliyini qoruyub saxlamaq ideyalarından əl çəkdilər. Dəli Petronun atdığı daşın ardınca qaçdılar. Erməni-daşnak hökumətinin bacarmadıqlarını, həyata keçirə bilmədiklərini kommunist cildinə girmiş erməni-daşnak faşistləri çox

asanlıqla və lazımi qaydada həyata keçirdilər. Nə daşnak hökumətinə, nə də Daşnaksutyun adına ehtiyac qalmadı. Daşnaklar kommunist cildində Şaumyan xəttini, Mikoyan yolunu tutdular. Ürəkdə daşnak, üzdə bolşevik oldular. Erməni-daşnak faşistləri sovet dönəmində bu sayaq əli qılınclı, dili fərmanlı öz işlərini dövrə və şəraitə uyğun davam etdirdilər. Öz çirkin niyyətlərindən əl çəkmədilər. Gizli və ya açıq formada azərbaycanlıları repressiyaya və ya deportasiyaya məruz qoydular. Həm Azərbaycan SSR, həm də Ermənistan SSR-də azərbaycanlıların həbs edilərək Sibirə göndərilməsində, xalq düşməni adı altında güllələnməsində, din xadimlərinin və ziyalıların məhv edilməsində, əsassız repressiyaların günahsız insanlara qarşı tədbiq olunmasında xüsusi rol oynadılar. Təkcə 1920-ci ilin aprel ayından avqust ayınadək Azərbaycan SSR-də 48 min azərbaycanlı, əsasən, ziyalılar məhv edildi.

Bir xristian birliyi olaraq rus, erməni, gürcü bolşevikləri birləşərək Qafqazda Azərbaycanın rolunu kiçiltmək, ərazisini parçalamaq məqsədi ilə ardıcıl, məqsədyönlü iş apardılar. Stalin, Mikoyan, Orcenikidze, Kirov, Mirzoyan, Sarkis, Şimali Qafqaz ermənisi Abakımov və başqalarının səyi ilə Azərbaycan SSR-də DQ muxtar qurumunun yaradılmasına müvəffəq oldular. 1921-ci ildən başladıqları mübarizə 1923-cü il iyul ayının 7-də öz nəticəsini verdi. Azərbaycan torpağında ikinci bir erməni qurumu - mərkəzi Xankəndi olan DQMV təsis edildi. Üstündən 2 ay keçməmiş 18 sentyabr 1923-cü ildə Xankəndi adı ləğv edilərək qaniçən Stepan Şaumyanın «şərəfinə» Stepanakert adlandırıldı. Beləliklə, antitürk siyasətinin əsasını qoydular. Əlifba və dil sahəsində mənfur aktlara əl atdılar. Bir sıra milli və dini bayramlara, adət-ənənələrə qadağalar qoyuldu. 28 aprelin Azərbaycan xalqına gətirdiyi fəlakət və faciələr daha çox insan tələfatı ilə müşahidə olundu. İstiqlalımızı qan içində boğdu. Ermənistan SSR-də isə tamamilə əks proses getdi. 1922-ci ildə Ermənistan hökuməti İrandakı azərbaycanlı qaçqınların Vedibasara, Zəngəzura qayıtmalarına o şərtlə icazə verir ki, onlar 1918-1920-ci illərdə ermənilərə qarşı vuruşmalarda iştirak etmədiklərini sübuta yetirmiş olsunlar. Əslində isə müxtəlif vasitələrlə, vəhşiliklərlə ölkə vətəndaşlarını elə ilk gündən repressiyalara məruz qoydular. Nəhayət, sərhəd qapıları yurd-yuvalarından didərgin salınmış Azərbaycan türklərinin üzünə qapanır. Daşnak lideri Ovanes Kaçaznuni 1923-cü ildə yazırdı ki, Daşnaksutyuna bir iş qalmır, hər şeyi erməni kommunistləri daşnaklar sayaq, onlardan da yaxşı həyata keçirirlər. Sovet Rusiyası erməni təəssübkeşliyini öz sələflərindən - çar Rusiyasından daha yüksək səviyyəyə qaldırdı. Erməni bolşevizminə yardım adı altında isə Azərbaycanı terrora məruz qoydu. Ermənilərə torpaq verdi. Azərbaycanı işğal altına aldı.

Çiçerin 1923-cü il yanvar ayının 27-də Lozanna konfransında bəyan etdi ki, Rusiya, Ukrayna hökumətləri xaricdəki erməni qaçqınların böyük bir hissəsini öz ərazilərində yerləşdirmək niyyətindədir. Əslində bununla sovet hökuməti «erməni məsələsi»ndən möhtəkirlik məqsədi ilə istifadə etmək planından əl çəkmək istəmədiyini, bu məsələnin ölüb getməsinə qətiyyən imkan verməyəcəyini

bildirmiş oldu. Çar Rusiyasının Qafqazda yaratdığı «erməni ocağını» öz varislik haqqı kimi saxladı. Ətəyi altına alıb eninə-boyuna pülədi. Daha da şişirtdi, şər ocağının közünü çatılı halda saxladı. Sönməyə qoymadı. Yenə də bu ocağın istisinə qızınan erməni-daşnak faşistləri oldu. 1920-1930-cu illərdə azərbaycanlı ziyalıların repressiyası, ərəb əlifbasında olan əlyazmaların məhv edilməsi, məscidlərin klublara, anbarlara çevrilməsi kimi mənəvi terror aktlarının həyata keçirilməsinin özü də bir növ erməni-daşnak fasistlərinin Azərbaycan türkünə qarşı apardığı etnik təmizləmə və soyqırımı siyasətinin gizli qatlarında mənfur niyyətlərinin izlərindən xəbər verir.

1930-cu illərdə Türkiyə sərhədindəki Azərbaycan türklərinin Türkiyə ilə qohumluq əlaqələri ortaya atılaraq Mikoyanın, erməni yeznəsi Orcenikidzenin fitvası ilə onların həmin ərazilərdən köçürülməsi kimi bir iyrənc əməliyyat sovet hökuməti tərəfindən həyata keçirilir. Vedibasar, Zəngibasar, Qəmərli, Dərələyəz və Ağbaba mahallarının 50 min türk əhalisi Qazaxıstana və Orta Asiya respublikalarına sürgün edilir. Ümumiyyətlə, 30-cu illərdə 100000 Azərbaycan türkü repressiyaya məruz qalmış, Ermənistan SSR-in ərazisindən çıxarılmışdır. Mikoyanın, Yejovun, Bertiyanın Ermənistana gəlişiylə Azərbaycan türklərinə daha bir ağır zərbə vurulur. Ermənistanın əks-inqilabçı və antisovet ünsürlərdən təmizlənməsi məsələsi həll edilərkən milli və dini ayrı-seçkilik motivi əsas götürülür. Respublika, demək olar ki, türk millətindən olan kadrlardan tamamilə təmizlənir. Təkcə bir gün ərzində Türkiyə türkləri ilə qohumluq əlaqəsi olan və yaxud əks-inqilabçılarla yaxınlıqları şübhə doğuran və ya əlaqələri olması güman edilən 130 Azərbaycan türkü - millətsevər kadr məhv edilir. Say-seçmə oğullarımıza hər zaman divan tutulmuşdur. Təkcə bir faktı göstərmək kifayətdir ki, 1937-ci ildə güllələnənlərin və sürgünə düçar edilənlərin əksəriyyəti 1917-1920-ci illərdə erməni-daşnak faşistlərinə qarşı vuruşan, at minib düşmən üstünə yeriyənlər olmuşdular. Hətta o qanlı illərdə daşnak terror qruplaşmalarına qarşı xalqın müqavimətini təşkil etdiyinə görə Azərbaycan xalqının qəhrəman oğlu Abasqulu bəy Şadlinski də Ermənistan SSR BSİ-nin daşnak xisləti əməkdaşları tərəfindən ələ alınan xain muzdlu tərəfindən qətlə yetirilmişdir.

Ümumiyyətlə, Stalin irticasının 1937-də türkə qarşı apardığı fiziki qəddarlığının üçəmlilik (antitürk, antiislam və qolçomaq) prinsipi, demək olar ki, Qərbi Azərbaycanda (Ermənistan SSR) ziyalı təbəqəsini və at minən türk kişilərinin tamamilə məhv edilməsinə səbəb oldu. Haqlıya haqqını, haqsıza həddini tanıdacaq bir kimsə qalmadı. Türkün bu faciəsi kommunist cildinə girmiş daşnaklar üçün yenə də yetərli olmadı. Kremldə yuva qurmuş bolşevik-daşnak qaragüruhu həm də Azərbaycan SSR-in özündə ictimai-iqtisadi həyatın bütün sahələrində hegemonluğu qeyri-türklərə etibar etdikdən sonra Ennənistan SSR-də Azərbaycan türkünə qarşı daha böyük tarixi xəyanət etmək üçün münbit şərait yaratdılar. Antitürk mühitində sürətlə boy atan və inkişaf edən və hər üzünə kommunist maskası taxmış erməni-daşnak faşistləri hiyləgərcəsinə öz işini gördü,

pambıqla baş kəsdi. Etnik təmizləmə və azərbaycanlıların soyqırımı siyasəti açıq forma aldı. Ermənistan SSR-dən azərbaycanlıların deportasiyası tolalitar Stalin hökuməti tərəfindən dövlət səviyyəsində həyata keçirilən bir cinayət aksiyasına çevrildi. Bu aksiya erməni-daşnak faşistlərinin hələ Böyük Vətən müharibəsi ərəfəsində başladıqları ikibaşlı oyunun məntiqi nəticəsi kimi özünü büruzə verdi. Qatı türk düşməni Stalinə əxz etdirilirdi ki, SSRİ Türkiyə ilə müharibə aparacağı halda sərhəd bölgəsindən, yəni Ermənistan SSR-dən Azərbaycan türkləri də sürgün edilməlidir və ya xaricdən ermənilər «vətən»ə qaytarılırsa, yenə də Azərbaycan türkləri Ermənistan SSR-dən köçürülməlidilər. Hər iki halda Azərbaycan türklərinin Ermənistan SSR-dən deportasiya edilməsinin konturu cızılmış oldu. Erməni-daşnak faşistlərinin ərsəyə çatdırdığı bu tarixi cinayət nəhayət, 1948-1953-cü illərdə Stalin-Mikoyan-Tevosyan üçlüyünün əliylə həyata keçirildi. Bu oyunun üst qatında isə DQMV-nin Ermənistan SSR-ə birləşdirilməsi məsələsi dururdu. Bu məqsədlə 1940-cı ildə yaradılmış «Qarabağ hərəkatı» SSRİ-də fəaliyyəti guya qadağan edilmiş Daşnaksutyun partiyasının bir qolu kimi açıq-aşkar öz işini görürdü. Məqsədi də bəlliydi: 1) İndiki Ermənistan SSR adlanan ərazidən aborigen türkləri tam qovub çıxarmaq, türksüz Ermənistan Respublikasını bərqərar etmək; 2) DQMV-nin nəyin bahasına olursa-olsun Ermənistana birləşdirilməsini təmin etmək; 3) «Erməni genosidini» dünyaya tanıdıb Türkiyədən təzminat almaq – Şərqi Anadolunu ələ keçirmək...

**Haşiyə 3:** 1939-cu ildə Stalin hökumətinin başladığı köçürmə əməliyyatı 1941-ci ildə bu işə rəhbər seçilən kommunist cildinə girmiş daşnak terrorçusu olmuş A.Mikoyan tərəfindən Azərbaycan SSR-də xüsusi bir hiyləgərliklə və qərəzliklə həyata keçirildi. Azərbaycana «dostluq və qardaşlıq köməyi, yardımı» adı altında əhalinin milli tərkibini «beynəlmiləlləşdirmək», qeyri-müsəlmanların Azərbaycana, Ermənistana isə ancaq ermənilərin yeridilməsi, türklərin sıxışdırılması kimi iyrənc bir siyasət aparıldı.

1939-cu il dekabr ayının 16-da Azərbaycan SSR XKS-nin 3782 saylı qərarı ilə XKS-nin nəzdində köçürmə şöbəsi yaradılır. Mikoyanın silahdaşı N.A.Mirzoyan bu şöbəyə rəhbərlik edir. 1940-cı ildə Mikoyanın təşəbbüsü ilə rəhbər vəzifələrə təyin etmək üçün 3370 nəfər rus və qeyri-türk insanı RSFSR-dən Azərbaycana köçürülür. Bu minvalla mərkəz (Moskva) tərəfindən Azərbaycanın ictimai-iqtisadi həyatının bütün sahələrində hegemonluq bütünlüklə qeyri-türk millətlərdən olan kadrlara etibar edilir. Mikoyanın razılığı ilə 1940-cı ilin yazında DQMV-dən 1440 erməni əhali də Bakıya köçürülür. Halbuki, həmin dövrdə azərbaycanlıların Bakıda qeydiyyata düşməsi dövlət səviyyəsində qadağan edilirdi. A.Mikoyanın xüsusi məktubuna əsasən Stalinqrad və Rostov şəhərlərindən 211 nəfər Bakıya, 1941-ci ilin dekabrında Rusiyanın ayrı-ayrı bölgələrindən Əlibayramlı və Xaçmaza 354 ailə, 1942-ci ildə Dağıstan MSSR-dən 900 ailə (əsasən rus və erməni), 1946-cı ilin noyabr-dekabr aylarında Ukraynadan 250 ailə Bakıya köçürülür. Azərbaycandan isə 1946-cı ildən başlayaraq hər il 200

azərbaycanlı ailəsi meşə qırmağa səfərbər edilərək Rusiyanın müxtəlif regionlarına köçürülür. Stalinin bu bədnam köçürmə əməliyyatı səngimək bilmir..

...Stalin hökumətinin başladığı çirkin köçürmə əməliyyatı 1947-ci ildə açıqdan-açığa Azərbaycan türkünə qarşı hörmətsizlik həddinə çatdırılır. SSRİ NS-nin 23 dekabr 1947-ci il tarixli 4083 və 10 mart 1948-ci il tarixli 754 saylı qərarları ilə Ermənistan SSR-dən 150000 Azərbaycan türkünün Azərbaycan SSR-ə deportasiya edilməsi heç bir beynəlxalq və dövlətdaxili hüquq çərçivəsinə sığmayan bir aksiya olur. Bu qərarlar əsasında 1948-1953-cü illərdə 144654 nəfər Azərbaycan türkü Ermənistandan - öz doğma tarixi-etnik torpaqlarından kütləvi şəkildə Azərbaycan SSR-in Mil-Muğan zonasındakı həyat nişanəsi olmayan, ilan mələyən düzlərə köçürülür. Həm də bu köçürülmə işinə nəzarət və onun həyata keçirilməsi istər Kremldə, istərsə də Azərbaycanda iş başında olan ermənilərə həvalə edilir. Azərbaycan SSR-də bu işə erməni millətindən olan N.A.Brutens (Azərbaycanı olmazın bəlalara düçar edən, erməniпərəst Qorbaçovun köməkçisi daşnak K.N.Brutensin atası) və R.İ.Sevumyan rəhbərlik edirlər. Qərar forma, məzmun, məna və məntiqi cəhətdən hüquqi aktların qəbul olunmuş norma və tələblərinə əsla cavab vermir. «Könüllülük» adı altında azərbaycanlıların məcburi surətdə dədə-baba torpaqlarından çıxarılıb nə burada yerləşdirilməsi, nə də Azərbaycanda pambıqçılığı inkişaf etdirmək kimi əsas mahiyyət daşımırdı. Bu köçürülmə erməni-daşnak faşistlərinin əzəli arzusu olan türksüz, monoetnik Ermənistan yaratmaq yönündə atılan növbəti addımlardan biri idi...

**Haşiyə 4:** Diqqət yetirin: 1947-ci ilin iyun ayında Daşnaksutyun partiyasının Tehran şəhərində qurultay səviyyəli XIV konfransı olur. Çox qəribədir ki, bu konfransda beş ay öncə Ermənistan SSR-dən azərbaycanlıların deportasiya olunacağı bildirilir və bu tədbirin baş tutacağına razılıq verilməsi də üstüörtülü şəkildə bəyan edilir və bəyənilir. Bu da ondan irəli gəlir ki, demək, ermənilərin xaricdən «vətənə» köçürülməsi, azərbaycanlıların doğrudan da deportasiyasına dair məsələnin 1943-cü ildə Tehran konfransında erməni katolikosunun və diasporunun öz işini görməsi, Stalindən razılıq almalarına dair gedən söz-söhbətlər doğrudan da həqiqətə uyğundur. Stalin-Molotov ermənilərin xeyrinə öz işlərini görüblər, erməni nümayəndələri ilə görüşlərində köç məsələsini tam həll etmiş olurlar. 1945-ci ildə Ermənistan KP MK-nın birinci katibi Artunyanın DQMV-nin Ermənistan SSR-ə birləşdirilməsinə dair Stalinə müraciət etməsi erməni-daşnak faşistlərinin ikibaşlı oyunlarının yeni addım üçün siyasətdəki at gedişlərinin təkrarıdır. XIV konfransda daha nələr üzə çıxmır? Konfrans müstəqil və azad Ermənistan yaradılmasını qarşıya məqsəd qoyur. Heç zaman «Böyük Ermənistan» yaratmaq məsələsini unutmamağı, ona uyğun siyasət yeridilməsini tələb edir. İstər erməni, istər digər başqa xalqları, istərsə də böyük dövlətlərin fikrini həqiqətdən yayındırmaqla, işğalçılıq siyasətini pərdələmək, milli münaqişələri qızışdırmaqla irticaçı fəaliyyətdən əl çəkməmək tapşırığı verir. Ermənistan yalnız Türkiyə tərəfindən «tutulmuş torpaqları» deyil, həm də Azərbaycana və Gürcüstana «bağışlanmış»

torpaqları da özünə birləşdirməlidir bəyanatı ilə çıxış edir. Konfransda Ermənistan SSR-dən gələn nümayəndələr də çıxışlar edirlər. Bu da onu göstərir ki, Ermənistanda fəaliyyəti qadağan edilsə də, Daşnaksutyun həmişə gizli və açıq şəkildə öz işini görüb. Bu yırtıcı faşist partiyası alt qatlarda Sov.İKP və DTK tərəfindən daim dəstək alıb. Həmişə onun yaxşı təşkil olunmuş komitələri, ilk təşkilatları, mərkəz tərəfindən idarə olunan və ustalıqla gizlədilən terror qrupları olub. Qaraçı xislətli, hiylə və məkr sahibləri Sovet hökumətinin onlar üçün yaratdığı münbit şəraitdən kifayət qədər bəhrələniblər. Əzəli və əbədi Azərbaycan torpaqlarında istədiklərinə nail olublar. Azərbaycandan torpaq qoparmaq cəhdləri, azərbaycanlıları sıxışdırma səyləri ara verməyib. Son anda hər iki istəklərinə nail olublar. Kifayət qədər torpaq qoparıblar, türksüz Ermənistana sahib olmaq arzularını reallaşdırıblar. Əleyhimizə xırda məqalələr yazıblar, susmuşuq, daha doğrusu, danışmaq istəyənləri öz rəhbərlərimiz susdurublar. Sonra broşüralar çap ediblər, yenə də ağzımıza su alıb durmuşuq. Daha sonra qalın, cild-cild kitablara keçiblər, səsimizi çıxarmamışıq. Ayağımızın altından torpağı çəkəndə ayılmışıq. Onda da gec olub...

... Azərbaycanlıların deportasiyası könüllülük əsasında yazılır, deyilir, amma əvvəlcədən köçürmə planı tərtib edilmirdi. Məcburiyyət və təqiblərlə həyata keçirilirdi. Əhali maddi və mənəvi məhrumiyyətlərə düçar edilirdi. Hətta Azərbaycan SSR NS-nin sədri Teymur Quliyevin deportasiya olunanları RSFSR, Ermənistan SSR və Gürcüstan SSR-lə Azərbaycan SSR-in həmsərhəd rayonlarında yerləşdirilməsi xahişi belə eşidilmir. Nəticədə deportasiya olunan əhalinin 1/5 hissəsi məcburi köçürməyə və iqlim şəraitinə davam gətirməyərək həyatlarını qeyb edirlər. Daha doğrusu, köçürmə zamanı 30000 Azərbaycan türkü aclığın və xəstəliyin qurbanı olur.

SSRİ hökuməti bu deportasiya aktını həyata keçirməklə 1948-ci il dekabr ayının 10-da qəbul edilən BMT-nin «İnsan Hüquqları Haqqında Ümumi Bəyannamə»sinin 7, 9 və 13-cü müddəaları azərbaycanlılara münasibətdə cinayətkarcasına pozulur. SSRİ NS-nin bu məlum qərarları məxfi olmasa da mətbuatda dərc olunmur. Qərar avtoritar-totalitar rejim və repressiyaların hökm sürdüyü bir zamanda qəbul edilmişdir. Bu aksiya antikonstitusion, beynəlxalq hüquq normalarına zidd, milli mənsubiyyətə görə dövlət səviyyəsində təqib, soyqırım kimi qiymətləndirilməlidir. 5 dekabr 1936-cı ildə qəbul edilmiş SSRİ Konstitusiyasının 123-cü maddəsinin tələblərinə ziddir. Ümumittifaq səsverməsinə dair 5 maddə, vətəndaşların hüquq bərabərliyinə dair 36 maddə, habelə digər tərəfdən Azərbaycan hökuməti ilə razılaşdırılmasına dair respublika hökumətinin səlahiyyətinə əhəmiyyət verilməməsi ilə müşahidə edilir. Günü bu gün də tarixi haqsızlıqlara və ədalətsizliklərə son qoyulmur. Azərbaycanlıların deportasiyasının SSRİ-nin varisi kimi çıxış edən RF tərəfindən qeyri-qanuniliyi etiraf olunmur, pislənilmir.

Stalin hökumətinin bu iyrənc köçürmə əməliyyatının təəssüflər olsun ki, Azərbaycanın tərkib hissəsi olan DQMV-də də aparılmasına imkan verilmişdir. Həmin illərdə daxili köçürmə adı altında 132 türk ailəsi DQMV-dən Xanlar və Beyləqan rayonlarına köçürülmüşdür. Bu çirkin köçürmə əməliyyatları sonralar da istər Ermənistan, istərsə də DQMV-də müxtəlif yollarla davam etdirildi. Həmin ərazilərin türksüzləşdirilməsi siyasətinə xüsusi önəm verildi. Azərbaycan türklərinin hüquqlarının ən kobud şəkildə pozulması, əhalinin sıxışdırılması adi hal aldı. Adi bir misal: SSRİ NS-nin köç qərarını bəhanə edən Ermənistan SSR NS-nin sədri S.Karapetyan subtropik bitkilər sovxozu yaratmaq adı altında türklər yaşayan Ləmbəli kəndində kolxozu ləğv edir və əhalinin kənddən çıxarılmasına qərar verir. Daşnak Baqrat Vartanyan sovxoza direktor təyin edilir. 225 ailə zorakılıqla kənddən çıxarılır. Qəbiristanlıqları dağıdılır, evləri gəlmə ermənilərə paylanır. Ləmbəli camaatı Gürcüstan SSR-yə pənah aparır, lakin onlara burada da dinclik verilmir, geri qaytarılırlar. Əhali bu dəfə soydaşlarının daha sıx yaşadığı Basarkeçər rayonuna sığınır. Ermənistanın hakimiyyət orqanları burada da onlara dinclik vermir. Təzyiq və təqiblərə məruz qalırlar. Buradan da qovulan ləmbəlilər Ermənistan-Gürcüstan sərhədinə yığılır. Camaat burada torpaq qazmalarda yaşayır. Dörd illik ölüm-dirim mübarizəsi aparırlar. Nəhayət, Stalinin ölümündən sonra SSRİ NS sədri Malenkovun göstərişindən sonra camaat öz ana yurdlarına qayıdır. B.Vartanyan isə cəzalandırılmaq əvəzinə, Ermənistan SSR və SSRİ AS-lərinə deputat seçilir, Sosialist Əməyi Qəhrəmanı kimi ən yüksək ada layiq görülür.

Deportasiya əməliyyatından sonra Azərbaycan SSR-in maldarları da yeni bir qadağa ilə üzləşir. Ermənistan SSR-in ərazisində qalan dədə-baba yaylaqlarından məhrum edilirlər. Min illərin yurd yerləri, ocaq daşları, yaylaqlarda yerləşən kənd qəbiristanlıqları da Ermənistan ərazisində qalır. Qəbirlər erməni-daşnak faşistləri tərəfindən uçurulub dağıdılır. Şum altına verilir. Ermənistan SSR-də yaşayan azərbaycanlıların mərkəzi və yerli mətbu orqanları müxtəlif yollarla və bəhanələrlə repressiyalara məruz qoyulur və qapadılır.

Ümumiyyətlə, Ermənistan SSR-də azərbaycanlıların normal həyat sürmələrinə mane olunur, hər vasitəylə dözülməzlik şəraiti yaradılır. Azərbaycan türklərinin fiziki və mənəvi soyqırımları bir-birini tamamlayır. Fiziki soyqırımın dayandığı dövrlərdə mənəvi soyqırıma ayaq verilir, addəyişmələr səngimək bilmir. Mənəvi soyqırımlar dövrü bir növ fiziki soyqırıma pauza verir. Zamanı yetişəndə terror müharibəsinə başlanılan bir günədək etnik təmizləmə və soyqırımı siyasəti özünün hazırlıq dövrünü keçirir. Mənəvi soyqırımın məcmuyu olan mənəvi terrorlar fiziki terrorun gərginliyini yaşadır.

Azərbaycan torpağında mənəvi terrorun ilk səhifəsini də erməni-daşnak faşizminin xaç atası olan erməni Qriqorian kilsəsi açmışdır. Xilafətə xəyanətinin qazancı olaraq ermənilər onlara heç bir dəxli olmayan alban kilsəsinə rəhbərliyi öz əllərinə keçirmişdilər. Uzun əsrlər boyu alban xristianlığı erməni kilsəsinin mənəvi terroruna məruz qalmışdı. Mənəvi soyqırıma düçar olmuşdu. XVIII əsrin ilk

günlərindən, illərindən başlayaraq xaçpərəstlikdən bir vasitə, bir alət kimi istifadə edən erməni Qriqorian kilsəsinin din xadimləri mənsub olduqları türk dövlət və xanlıqlarının dövlətçiliyi əleyhinə xəyanətkarlıq və satqınlıq zəminində məktublar yazmaqla Qərb dövlətlərini və Rusiyanı «əzabkeş, zavallı, bədbəxt, müsəlman əsarətində inləyən» erməni xalqını «xilas etməyə» səsləmişlər. 1828-ci il fevral ayının 24-də bağlanan, vahid Azərbaycan xalqının iki yerə bölünməsini başa çatdıran bədnam «Türkmənçay» müqaviləsinin mürəkkəbi qurumamış çar I Nikolayın imza atdığı 21 mart 1828-ci il tarixli fərmanı ilə əhalisinin 92%-ni Azərbaycan türkü təşkil edən bir ərazidə İrəvan və Naxçıvan xanlıqlarının ərazisində süni yolla «erməni vilayəti» adlı bir inzibati ərazi vahidi yaradılır. Bu addəyişmə ilə Azərbaycan türklərinin gələcəkdə öz tarixi torpaqlarından qovulmasına və fiziki soyqırıma səbəb ola biləcək bir siyasətin yaranması ilə yanaşı, mənəvi terrorun da bünövrəsini qoyur. Elə həmin il 1828-ci ildə Azərbaycan türkünün ana şəhəri İrəvan - Erivan, 1837-ci ildə Kəvər-Nor Bəyazid, 1840-cı ildə qədim türk şəhəri Gümrü-Aleksandropol (1920-ci ildə isə Leninakan) adlandırılır.

1877-78-ci il rus-türk müharibəsi zamanı rus işğalçı ordusunun tərkibində Qars şəhərinə daxil olan ermənilər ilkin olaraq orada əllərinə keçən qədim əlyazmaları, xüsusən Qurani-şərifi topa-topa qalaqlayıb yandırmağa başlayırlar. Bu cinayətkar hərəkətləri mənəvi terror aktı günümüzədək qarşısıalınmaz bir prosesə çevrilir.

1930-cu ildə Göyçə gölünün adını «Sevan» qoymaqla erməni-daşnak faşistləri özlərinə qondarma vətən yaratmaq istəyini reallaşdırırlar. Ermənistan SSR Ali Sovetinin Rəyasət Heyəti 1930-cu illərdən bu yana türk mənşəli toponimik adları erməni sözlüklü adlarla əvəzləşdirmək üçün 25-dən artıq fərman verir. Təkcə 1935-ci il 3 yanvar tarixli fərmanla 51, il ərzində isə birdəfəyə 150, 1946-cı ildə 120, 1948-ci ildə isə 8 fərmanla 80 türk mənşəli kənd, qəsəbə, yer-yurd adları erməniləşdirilir.

Ümumiyyətlə, erməni-daşnak faşistləri uzun illər boyu Azərbaycan türklərinə qarşı etnik təmizləmə və soyqırım siyasətini mütəmadi olaraq üç üsulla aparmış və xəbis niyyətlərini həyata keçirməkdən heç bir vəchlə əl çəkməmişlər: 1) Kəndləri tamam-kamal dağıdır, varlığını yer üzündən silirlər; 2) Kəndlərdə erməni əhalisi yerləşdirilir; 3) Kəndlərin adları dəyişdirilir. Quruculuq illərində belə gərginliyin saxlanmasına rəvac verən üçüncü yolla öz işlərini görürlər. Addəyişməyə meydan verirlər. Heç bir prosedura gözləmədən, yerli əhalinin rəyi nəzərə alınmadan, aşağı orqanların qərarı olmadan azərbaycanlılar yaşayan kəndlərin dədə-baba adları addəyişmələrə məruz qalır. Erməni-daşnak faşistləri kommunist hakimiyyətinin əli ilə öz işlərini görürlər. 1945, 1949-cu və 1968-ci illərdə də addəyişmə kampaniyası kütləvi şəkildə həyata keçirilir. Ümumiyyətlə, 1935-ci ildən 1978-ci ilədək 465 türk mənşəli kənd adları dəyişdirilərək erməniləşdirilmişdir. 1978-ci ildə isə Ermənistan SSR AS RH 100-ə yaxın türk

toponimlərinin erməniləşdirilməsinə birbaşa qərar verilmişdi. Addəyişmə prosesinə son nöqtə 1991-ci ildə qoyulmuşdur. 1991-ci il aprel ayının 9-da Ermənistan Respublikasının «demokrat» prezidenti Ter-Petrosyanın imzaladığı bir fərmanla 97 türk mənşəli kənd adları dəyişdirilərək erməniləşdirilmişdir. Ümumiyyətlə, iki yüz ildə Qərbi Azərbaycanda bu sayaq 2000 türk toponimi süni yolla erməniləşdirilmişdir. Artıq bundan belə Ermənistan türksüzləşdirilmiş monoetnik və marionet bir respublikaya çevrilmişdir. İnnən belə ancaq ermənilərin erməniləşdirilməsinə ehtiyac qalırdı. Qarşıda artıq Ermənistanı bir idbar ziyil kimi qabartmaq, «Böyük Ermənistan» fırı yaratmaq, Türk dünyasının qara üzündə ağ xala - sabun köpüyünə bənzər bir dövlət halına gətirmək istəyi durur. Bunun üçün erməni-daşnak faşistləri dünya ictimai fikrinə təsir etməkdən, yalan təbliğat bazası yaratmaqdan bir an belə çəkinmirlər. Mənəvi terrorun bütün rıçaqlarından, qarayaxmasından, qara-qışqırığından istifadə edərək öz xeyirlərinə müəyyən fikir yaradır, havadarlar tapırlar. Halbuki ermənilərin Qərbi Azərbaycana - bugünkü Ermənistan ərazisinə gəlmə etnos olduqları, 1828-ci ilədək bu ərazilərdə bir dənə də olsun erməni mənşəli toponimin olmadığı nəzərə alınmır. Ermənilər və Ermənistan anlayışı kimi faktorlar bizim üçün tarixi təhriflərdən, həqiqətin yanlış təsvirindən, tarixi gerçəklikdən uzaq konsepsiyalar, yığnağından, ədalətsiz ərazi iddiaları aparmalarından başqa bir şey deyildir. Erməni-daşnak faşistləri heç bir milli dəyəri olmayan bir xalqın, törəmə bir millətin örnəkləridilər. Onlar bu gün ancaq Azərbaycan xalqından əxz etdikləri nə varsa, onu öz adlarına çıxa bilərlər. Oğurladıqlarının, mənimsədiklərinin hesabına əldə etdikləri barədə danışa bilərlər. Erməni-daşnak faşistləri təkcə torpaqlarımızı deyil, həm də milli-mənəvi dəyərlərimizi, abidələrimizi, musiqimizi, oyun havalarımızı, musiqi alətlərimizi, xalq mahnılarımızı, nağıllarımızı, qəhrəmanlıq dastanlarımızı, ümumiyyətlə, keçmişimizi bütövlükdə özəlləşdirir, mənimsəyirlər. Özlərinin milli dəyərləri kimi qələmə verirlər.

Tariximizi təhrif edib öz adlarına çıxmaları faktı hələ VII əsr erməni müəllifi A.Şirakatsi tərəfindən uydurulan saxta erməni tarixindən üzü bəri davam edir. Hələ VIII əsrdə xilafətə quyruq bulayan erməni qriqorian kilsə xadimləri islamı qəbul edən Alban türklərinin öz sələflərindən imtina etmələrindən kifayət qədər bəhrələnmişlər. Erməni tərcümanları alban türklərinin müsəlman olaraq inkar etdikləri Arran, Alban ədəbi abidələrini məhv etməzdən əvvəl müxtəlif dövrlərdə qrabara çevirmişlər. Xüsusilə, elə bu səbəbdən alban müəllifi Musa Qalakəndlinin «Alban tarixi» kitabı bizə qədim erməni dilində (qrabarca), həm də təhrif olunmuş şəkildə gəlib çatmışdır. Belə ki, «Alban tarixi» əsərinin I və II hissələri VI əsrə, III hissəsi X əsrə aiddir. Müəllifin, Musa Qalakəndlinin VI əsr müəllifi olduğunu nəzərə alsaq, heç şübhəsiz ki, əsərin üzü qrabara köçürülərkən III hissənin kitaba sonradan əlavə edilməsi açıq-aşkar göz önündədir. Görkəmli albanşünas Fəridə Məmmədova çox yerində qeyd edir ki, qədim erməni müəllifləri Əhristanın, o cümlədən Ərsakın, Dizaq mahalının Ermənistanın tərkib hissəsi

olduğunu söyləyərkən öz fikirlərini əsaslandıran sübutlar gətirmirlər, çünki bu sübutlar yoxdur. Erməni katolikosu M.Barxudaryanın 1895-ci ildə sərsəmcəsinə yazıb nəşr etdirdiyi «Arsax» kitabı kimi. Müəllifin heç nəyə əsaslanmadan qələmə aldığı, başdan-başa cəfəng yazılarla, fikirlərlə dolu olan bu kitab ancaq və ancaq erməni-daşnak faşistlərinin uydurduğu «Böyük Ermənistan» dövləti yaratmaq ideyasına xidmət etmək saxtalığından başqa bir şey deyildir. Barxudaryanın reallığa tək dabanla təpik atmasına rəğmən isə 1986-cı ildə İrəvanda nəşr edilən «Ermənistan tarixi» kitabının müəllifləri lap ağını çıxarırlar. Belə ki, Barxudaryan ancaq Cəbrayıl rayonunun bir hissəsini erməni torpağı hesab edirdisə, «Ermənistan tarixi» kitabının müəllifləri antik türk yurdu Cəbrayılın bütün ərazisini Ermənistan xəritəsinin tərkibinə daxil edirlər. Erməni tarixçiləri heç zaman yaddan çıxarmamalıdılar ki, Azərbaycan ərazisində özlərində erməni elementləri gəzdirən, yaşadan nə yazılı əşyalar, nə daş kitabələr, nə də digər erməni nişanəli heç bir tarixi abidələr-filan yoxdur, varsa, onların hamısı ancaq və ancaq 1830-cu illərdən sonrakı yaxın keçmişə aid ola bilər. Qədim kitabların müasir çaplarındakı yazı və fikirlər qeylü-qallıdılar. İlkin mənbələrlə tutuşdurmadan nəsə demək olmaz. Çünki erməni tarixçiləri keçmiş əsərləri erməni, rus dillərinə tərcümə edərkən antik müəlliflərin fikirlərini təhrif edir, yazılarda saxtakarlığa yol verirlər. Özlərinə xeyir verməyən, sərf etməyən dəlil və faktları əsərdən çıxarırlar. Azərbaycan xalqının varisi olduğu bütün qədim Alban mənbələrini erməni mənşəli hesab edərək özlərinə saxta tarix yazırlar. Əslində isə Azərbaycan xalqının tarixini yazıb adına «erməni xalqının tarixi» kimi uydurma bir ad qoyurlar (Qarabağın özünü də belə bir avantüranın qurbanına çeviriblər).

Ümumiyyətlə, erməni hakimiyyətində saxtalaşdırılmış erməni tarixi yazmaq ideyası dövlət siyasəti səviyyəsində himayə edilir. Bu da gənc ermənilərin, daşnak əhvali-ruhiyyəsində böyüməsinə, tərbiyə edilməsi işinə xidmət edir. Erməni tarixçiləri həmişə saxtakarlığa meyil etdiklərindən elə saxtakar kimi də ad çıxarmışlar. Bu günümüzdəki erməni saxtakarlıqlarından bir neçə faktlara müraciət etmək, məncə, yetərli olar. Çünki ermənilərin 3 min illik tarixləri və ya milli mədəniyyətləri barədə qaldırdıqları səs-küylər cəfəng fikir yığnağıdır. Panarmenizm cəfəngiyyatından başqa bir şey deyildir. Belə ki, saxtakar erməni tarixçiləri 1968-ci ildə sırf türk məkanı olan, qədim Azərbaycan şəhəri – İrəvan şəhərinin erməni şəhəri kimi salınmasının 2750 illiyini keçirmək istəyirlər. Guya onun qədim adı Erebuni olub. Guya belə bir adın olmasını bu ərazidə tapılan və həmin dövrə aid edilən şüşə parçası üzərində qədim erməni əlifbası ilə mövcud yazı sübut edir. Lakin mötəbər rus alimləri tərəfindən tədqiqat aparılır. Ermənilərin sübut kimi ortaya atdıqları həmin şüşə parçasının II Yekaterinanın dövründə Rusiyada istehsal olunduğu müəyyən edilir. Saxtakar erməni alimləri ifşa olur. Onların saxta yubiley keçirmə planları baş tutmur.

Görkəmli şərqşünas, əski əlifba ilə yazılan daş kitabələri oxumaqda əvəzsiz bir insan olan Məşədi xanım Nemətova Zəngəzurun Urud kəndindəki XIV-XVI

əsrə aid qəbiristanlıqdakı daş kitabələri tədqiq edir. O, buradakı qəbirlər üzərində qədim türklərə məxsus tanrıların - maral üstə oturmuş ev quşları, Tibet öküzü - yak və şaban təsvirləri olan daş kitabələr aşkar edir. İki kitabədə isə qəbirüstü daşda «alban nəslindəndir» sözlərini oxuyur. Halbuki buna qədər antitürk siyasətinə qulluq edən saxta sovet tarixşünaslığında tədqiqatçılar alban tayfalarının xilafət dövründə dinlərinə yaxın olan qriqorianlığı qəbul edərək erməniləşmələri, bir hissəsinin isə gürcü xalqını qəbul edərək gürcüləşmələri barədə qara fikirlər yürüdürdülər. Urud abidələri isə göstərdi ki, bu fikirlər tamamilə uydurmadır. Zəngəzur ta qədimdən türk dilli alban tayfalarının məskəni olubdur. Sadəcə olaraq qılınc gücünə islamı qəbul ediblər. Onların bugünkü nəsilləri də əbəs yerə demirlər ki, «biz qılıncdan dönmə müsəlmanlarıq». Burada söhbət ancaq xristian albanların islamı qəbul edərək türkləşməsindən deyil (bu cəfəngiyyatdır), xristianlığı qəbul etmiş alban türklərinin islamı qəbul edərək dillərini yox, dinlərini dəyişməsindən gedə bilər. (Hətta bu proses - alban türklərinin islamı qəbul etməsi prosesi tədrici də olsa XVI əsrədək Yuxarı Qarabağda davam etmişdir.)

Erməni-daşnak faşistləri, onların apardıqları mənəvi terror aktları Azərbaycanın mədəni irsini həmişə öz hədəfinə çevirmişdi. Xüsusilə sovet dövründə rus dilində nəşr olunan ensiklopedik kitablarda Azərbaycanın tarixi, milli-mədəni və mənəvi irsi barədə saxtalaşdırmalar, erməni adına çıxmalar kimi cəfəng yazılar sistemli şəkildə bir-birini üstələmişdi. İşbaz, saxtakar erməni-daşnak siyasətinə qulluq edən erməni tarixçiləri, onlara dəm tutan muzdlular tariximizdən erməni xalqına bir qayda olaraq saxta tarix yazıblar. Bu yolla «Sarı gəlin» xalq mahnımızdan tutmuş, «can» sözümüzədək dünənimizi, bu günümüzü mənimsəməyə cəhd göstəriblər. Varlığımızın qəsdinə durublar. Mübahisə düşəndə isə mübahisələri aradan qaldırmaq üçün saxtakar erməni alimləri çıxış yolunu aradakı maddi sübutu yox etməkdə görüblər. Belə ki, Məşədi xanım Nemətovanın tədqiqatları mübahisə doğurunca, bu barədə söhbət açılınca onlar Urud qəbiristanlığını dağıdır, daş kitabələri xüsusi bir amansızlıqla məhv edirlər. İlan yarpızdan qorxan, qaçan kimi erməni tarixçiləri də daim bu kimi maddi faktlardan qaçar olmuş, bunları göz önündən silməyi əfsəl saymışlar. Erməni-daşnak faşistləri bu səbəbdən Qərbi Azərbaycanda (Ermənistan) ötən yüz ildə 1587 qəbiristanlığı, 500-dən çox tarixi-memarlıq, maddi mədəniyyət abidəsini, qədim kitab və əlyazmasının qorunub saxlandığı 382 məscidi (İrəvan şəhərindəki 6 məscidi), onların nəzdində fəaliyyət göstərən onlarla mədrəsəni yandırıb dağıtmış, yerlə yeksan etmişlər. Mövcud tarixi abidələr isə hər üzə ermənilərin yox, ta qədimdən Qərbi Azərbaycanda (indiki Ermənistan ərazisində) azərbaycanlıların ata-babalarının məskun olduqlarını göstərir. Qərbi Azərbaycanın hər qarış torpağında ulu əcdadlarımızın izi var, ruhu var, hənirtisi duyulur. Urud abidələri bunlardan, milyonlardan, minlərdən biridir. Tarixi həqiqətlərin açılmasına yardımçı olmaq üçün bu abidələrə əl qoymaq, tarixi məxəzlərə baş vurmaq, bu ixtiyarı, səlahiyyəti əldə etmək lazımdır. Saxta erməni tarixçilərinin dəlilsiz, sübutsuz yazılarına, kilsə

keşişlərinin uydurma cızma-qaralarını dəstəvuz edənlər, erməni əlindən su içənlər, böyük və qüdrətli türk millətinə qara yaxanlardı. Bu tarix siçovulları dərk etmək istəmirlər ki, dünyanın mizan-tərəzisi bəndələrinin deyil, Tanrının öz əlindədir.

Antitürk siyasətini dövlət səviyyəsində xidmət göstərən sovet tarixşünaslığına kifayət qədər «töhfələr» bəxş edən, ad-san qazanan, daha doğrusu, bu tarixə quyruq bulayan ermənilər Qərbi Azərbaycanın ərazilərindəki abidələri məhv etməklə kifayətlənməmişlər. Azərbaycan SSR-in ərazisindəki abidələrə də əl uzatmışlar. Qədim abidələrin bərpası ilə məşğul olan daşnak xislətli erməni millətindən olan usta və ya iş icraçıları tikililər üzərindəki bir çox daş abidələri qəsdən uçurub dağıtmış, məhv etmiş və ya oğurlamışlar. Şərq ornamentlərinə, şəbəkələrinə xaç nişanlı yeni əlavə naxışlar vurmuşlar. İş o yerə çatmışdır ki, Bakının «İçəri şəhəri»ndə bərpa işləri görərkən erməni ustaları qədim qala divarlarına Daşnaksutyun partiyasının emblemini də həkk etmişdilər.

Daşnak xislətli saxta erməni tarixçiləri Papazyan, Xaçaturyan, Arakelyan qərəzkarlıqla qeyd edirlər ki, daş kitabələri yazanlar guya islamı qəbul etmiş və türkləşmiş ermənilər olublar. Onlar ərəb dilini yaxşı bilmədiklərinə görə kitabələrin yazılışında səhvlərə yol vermişlər. Xaçaturyanın qələmi isə tamamilə qatıqlayır. Ərəb mənbələrində gedən və rastına çıxan bütün «ən-nəsəra» (xaçpərəst) sözlərini hər yerdə gözlərini yumaraq utanıb-qızarmadan, heç nədən çəkinmədən «erməni» sözü kimi tərcümə edir. Halbuki xaçpərəst sözü erməni demək deyildir. Əlbəttə, bu saxtakarlıq Xaçaturyanın qanmazlığından deyil, məkr və hiylə sahibi olmasından irəli gəlir. Bu bədfellik onun daşnak təbliğatçısı, daşnak ideyasının daşıyıcısı olduğunu təsdiqləyir. Özgə sümükləri üstə «Böyük Ermənistan» qurmaq daşnakların hərbi-siyasi və milli proqramıdır. Bütün bu saxtakarlıqlar, təhriflər erməni-daşnak faşizminin utopik ideyalarına, xülyalarına uymuş erməni tarixçilərinin və ədiblərinin yazılarında qəsdən, hiylə və məkrlə qələm işlətmələrinə bir işarətdir.

«Həyanı atıb oynamağa nə var» deyib atalar. Ucuz mənəviyyat dalınca qaçan erməni tarixçiləri Təbrizə «Tavriz», Gəncəyə «Qanzak», Ağstafaya «Akstef», Kəlbəcərə «Karbacar» və s. deməklə də Azərbaycan şəhərlərini özəlləşdirir, özlərinki hesab edirlər. Abır-həya bilmədən buna da çalışırlar. Kərkicahan kəndi yaxınlığındakı «Kilsəlik yeri» adlanan ərazidəki alban türklərinə məxsus nişanələri olan alban abidələrinə, daş kitabələrə erməni yönümü vermək üçün bu kitabələrin arasına üzərində qırmızı yağlı boyalarla işlənmiş erməni çalarları olan çaylaq daşları da atmağı öz şənlərinə sığışdırırlar. Gələcək tədqiqatlarda təki bunlardan maddi sübutlar kimi istifadə etsinlər.

Erməni-daşnak faşistləri bizə qarşı etnik təmizləmə və soyqırımı siyasəti yeridərək yaşayış məntəqələrimizlə yanaşı həmin ərazilərdəki xalqımıza məxsus maddi mədəniyyət və tariximizə aid abidələri də vəhşicəsinə dağıdır, məhv edir, izini itirmək üçün həmin ətrafı viran qoyurlar. Hətta yaxın keçmişdə öz əlləri ilə

ucaltdıqları, bugünkü tarixi saxtalıqlarını ifşa edən abidələrin də izini bu yolla yox edirlər, nişanəsini öz əlləriylə itirirlər.

1978-ci ildə ermənilər Leninavanda (əsl adı Maraqaşen) Cənubi Azərbaycanın Marağa şəhərindən Qarabağa köçmələrinin 150 illiyi şərəfinə mərmər obelisk ucaldırlar. 1988-ci ildə bu tarixi abidənin izini-tozunu itirirlər. Göyçədə Azərbaycan aşıq ədəbiyyatının böyük simalarından biri Dədə Ələsgərin qəbirüstü nişangahını, Zəngəzurda dahi Azərbaycan şairi Səməd Vurğunun şərəfinə ucaltdıqları heykəlini, 1970-ci ildə Şəmsəddil rayonunda azərbaycanlı kommunarların xatirəsinə dikəltdikləri abidəni uçurub dağıdırlar (1920-ci ildə mühasirəyə düşmüş ermənilərə neft, çörək, taxıl aparan üç azərbaycanlı kommunarın - M.Əliyev, M.Məmmədov və S.Şəkibəyovun şərəfinə ucaldılan bu abidənin postamentinə erməni daşyonanının müdrikcəsinə həkk etdiyi «Duz-çörək güllələnmir» kəlamı daşnak terrorçuları tərəfindən vəhşicəsinə həm güllələnir, həm də dağıdılır).

1950-ci illərin ilk günlərindən başlayaraq Ermənistanda Azərbaycan ərazisi hesabına «Böyük Ermənistan» yaratmaq ideyasını beyinlərə yeritmək üçün erməni-daşnak faşistləri açıqdan-açığa baş qaldırdılar. Qarşısıalınmaz ideoloji mübarizəyə rəvac verdilər. Bu ad altında cild-cild kitablar yazmağa başladılar. Bu ideyalar əsasında dərsliklər hazırlandı. Bu dərs vəsaitləri ali və orta məktəblərdə tədris olundu. Bununla bahəm Ermənistan hökuməti tərəfindən 1950-ci ildə Azərbaycan pedaqoji texnikumu, 1953-cü ildə İrəvan Pedaqoji institutunun Azərbaycan bölməsi bağlandı. 5000 nəfər buraxılışı olan Azərbaycan dilində fəaliyyət göstərən orta məktəb məzunları üçün pedaqoji institutda ildə cəmi-cümlətanı 25 nəfərlik bir qrup yeri saxlandı. Bu qrupu saxlamaq azərbaycanlıları ələ salmağa bərabər idi. Bunun ardınca İrəvan teatr texnikumunun, habelə az keçməmiş kənd təsərrüfatı texnikumunun da fəaliyyətinə xitam verildi. Hər il minlərlə gənc ümumorta məktəblərini qurtardıqdan sonra təhsillərini davam etdirmək imkanından məhrum oldular. İldə ancaq imkanı olan təxminən 500-ə yaxın məzun Azərbaycanda təhsillərini davam etdirə bilirdilər. Ali təhsil alıb geri dönənləri isə işə götürmür, müxtəlif bəhanələrlə sıxışdırırdılar. 50-ci illərdə bir-birinin ardınca rayon qəzetlərinin də nəşri dayandırıldı, mətbəələri ləğv edildi. Kiçik türk oymaqları iri erməni kəndlərinə birləşdirilir, adları xəritələrdən silinirdi. Həmin kəndlərin su dəyirmanları, bağ-bağatlara gələn dədə-baba arxları uçurdulurdu. İnzibati ərazi vahidləri ləğv olunurdu.

1960-1970-ci illərdə Azərbaycana qarşı müxtəlif səpkili təxribat xarakterli kitabların nəşr olunmağı erməni-daşnak faşistlərinin öz fitnəkarlıqlarından əl çəkmədiklərini göstərirdi. Mərkəz də onların dediklərinə züy tuturdu. Onların fitnəsi sayəsində həmin illərdə qədim Albaniya dövləti bütövlükdə Azərbaycan xalqının mədəni irsinə aid olmasına baxmayaraq albanistikanı öyrənən mərkəz SSRİ Elmlər Akademiyasının göstərişi ilə Bakıdan İrəvana köçürüldü.

1964-cü ildə A.Mikoyan Qarabağın və Naxçıvanın Ermənistana verilməsi təklifi ilə çıxış etdi. A.Mikoyanın hiyləgərliklə ortaya atdığı təklifi hökumət rəhbəri N.Xruşşov tərəfindən qəzəblə qarşılandı. Bu təklif qəbul edilməsə də, onun pərdəarxası tərəflərinin baş tutmasına təəssüf ki, L.Brejnev hökuməti tərəfindən yol verildi. 1965-ci ildə uydurma «erməni soyqırımı» faktının İrəvanda dövlət səviyyəsində qeyd olunması faktı razılıqla qarşılandı. Bununla da SSRİ hökuməti tərəfindən uydurma «erməni soyqırımı» tanınmış oldu. Xüsusilə, 1965-ci il aprel ayının 24-də bu qondarma soyqırımın 50, habelə Azərbaycan türkünün qatili, türk qəssabı kimi ad çıxarmış, qatı cinayətkar Tayqulaq Andronik Ozanyanın isə anadan olmasının 100 illiyinin İrəvan şəhərində 400000-lik erməni əhalisinin iştirakı ilə dövlət səviyyəsində qeyd edilməsi erməni-daşnak faşistlərinin leqal şəkildə başqa adlar altında açıq fəaliyyət göstərmələrinə, baş qaldırmalarına stimul yaratdı. Həmin gün «böyük genosid» adlandırılan mifik qırğının 50 illiyi xarici ölkələrdəki erməni diasporları arasında da təmtəraqlı şəkildə qeyd olundu. İstər İrəvanda keçirilən çoxminlik nümayişdə, istərsə də xaricdə keçirilən mitinq və toplantılarda erməni-daşnak fasistləri Qarabağ və Naxçıvanın Ermənistana birləşdirilməsi tələblərini də səsləndirdilər. Tayqulaq Andronik kimi bir terror başçısını, terroristi erməni cəmiyyətinə xalq qəhrəmanı kimi sırıdılar. Buna tam hazırmışlar kimi İrəvan şəhərinin Sevan girəcəyində - «Sisernaqabert» yolu üstə uydurma «erməni soyqırımı»na aid memuar xatirə kompleksinin açılışını etdilər. Gümrü yolu üstə «Cacur» aşırımında isə Tayqulaq Andronikə abidə ucaltdılar - böyük büstünü qoydular. Andronikların, Droların, Nijdelərin adlarını dərsliklərə saldırdılar. O gündən məlunlar erməni-daşnak terrorçularını erməni milli qəhrəmanı kimi erməni cəmiyyətinə təqdim etməyə başladılar. Daha doğrusu, onların tərifini elə bir səviyyəyə qaldırdılar ki, gənc nəsil bu gün onları özlərinə örnək sayır, onlara bənzəmək istəyirlər.

1965-ci ildən etibarən, xüsusilə Azərbaycan türklərinin Qafqaza gəlmə xalq olmasına dair saxta konsepsiyaya sovet tarixşünaslığında yenidən önəm verildi. Antitürkçülük daşnak müəllifləri tərəfindən geniş şəkildə təbliğ olunmağa başladı. Saxta Stalin tarixçilərinin buna züy tutması erməni-daşnak faşistlərinin əl-qolunu daha da açdı. Onlar başqa təsir və təzyiq vasitələrinə də əl atmağa başladılar. Respublikanın türk əhalisinə qarşı açıq təcavüzkar hərəkətlərə yol verir, açıq fikirliləri təqib edirdilər. Belə bir şəraitdə Ermənistan SSR-də yaşayan azərbaycanlıların vəziyyəti dözülməz həddə çatdırılır, bu da ayrı-ayrı kənd icmalarının bütövlükdə, ellikcə Azərbaycana köçmələrinə səbəb olurdu. Ayağı yer tutanların, xüsusilə ziyalıların Azərbaycana axını günü-gündən güclənirdi. Erməni-daşnak faşistləri belə günlərdə Qarabağı da yaddan çıxarmırdılar. Öz daşnak toplumlu təxribat dəstələrini İrəvandan Qarabağa ezam edirdilər. 1965-ci ilin 24 aprelini Xankəndində «genosid» günü kimi qeyd edən S.Kaputikyan və Z.Balayan o gündən qoşalaşırlar. Cütləşib kütlə qabağında ayaqlarını yerə döyərək bir ağızdan qaraqışqırıq salırdılar: «Bu qədim erməni torpağı əsirlikdədir!» deyirdilər. 1965-ci

il aprel ayının 24-dən, o müdhiş gündən başlayaraq təkcə Qarabağda deyil, Azərbaycan SSR-in Gəncə, Naxçıvan, Bakı, Sumqayıt kimi iri sənaye şəhərlərində kök salmış erməni-daşnak emissarları «Qarabağ hərəkatı», «Krunk», «Arsax» kimi gizli erməni-daşnak faşist təşkilatlarına vəsait toplamaqla, gizli vərəqələr yaymaqla məşğul oldular. Erməni-daşnak faşistləri keçirdikləri hər növ toplantılarda, yığıncaqlarda əvvəldən sonadək türksüz Ermənistan yaratmaq, hansı vasitə ilə olursa-olsun DQ-ın Ermənistana birləşdirilməsini gündəmdə saxlayırdılar. Öz çirkin oyunlarını ittifaq səviyyəli mətbuat orqanlarının səhifələrində də davam etdirirdilər. Təxribat xarakterli məlumatlar yayılmasına rəvac verirdilər. Həmin dövrdə «Oqonyok» kimi milyonlarla oxucusu olan bir jurnal yazırdı: «Ermənistan SSR-in Əsgəran rayonunda dövlətə pambıq satışı planı artıqlaması ilə yerinə yetirilmişdir». 80-ci ildə isə «Oqonyok» jurnalı erməni rəssamı Nalbandyanın anadan olmasının 100 illiyi münasibəti ilə dərc etdiyi baş məqalədə onun qədim Ermənistanın qədim şəhəri olan Şuşada anadan olduğunu yazırdı.

1963-cü ildə Moskvada dərc edilən «Həkimin təqvimi» dərgisində, 1984-cü ildə N.U. Voronovun «Monumental heykəltəraşlıq» kitabında, 1987-ci ildə ali məktəb tələbələri üçün tədris vəsaiti kimi buraxılan «Sovet dövlət hüququnun əsasları» dərsliyində Azərbaycanın ayrılmaz tərkib hissəsi olan DQMV Ermənistan SSR-ə aid edilirdi. Naşirlər və müəlliflər bu saxtakarlıqları korrektorların günahı kimi izah edirdilər. Sorğu soranların ağzını boza verirdilər. Gözdən qaçıb, vəssalam, deyirdilər. Azərbaycanın hakim dairələri və xüsusən oxucular da elə bir kütləvi etiraz səslərini qaldırmırdılar. Hay-küy salmırdılar. Daha doğrusu, içimizdəki erməni əlləri buna imkan vermirdi. Nəinki ittifaq səviyyəli KİV-lərdə, heç respublikadaxili mətbuat səhifələrində belə, səs çıxarmağa, etirazlarını dərc etdirməyə, həqiqəti deməyə, yazmağa ixtiyar sahibləri olmaz deyirdilər. Hər hansı bir şəkildə haqqımızı tələb etməyə, hüququmuzu müdafiə etməyə göstərilən cəhdlərin qabağı yerindəcə alınırdı, Bizə qalan ancaq çəpərdibi müzakirələr, giley-güzarlar olurdu. Erməni-daşnak müəllifləri isə get-gedə azğınlaşırdılar. Bu azğınlaşma elə bir həddə çatdırıldı ki, artıq 1970-80-ci illərdə bütün Sovet İttifaqının ərazilərində belə, tədrisi nəzərdə tutulan kitablardakı xəritələr də təhrif olunmağa başladı. Dərs vəsaitlərində kütləvi şəkildə Azərbaycan əraziləri və şəhərləri Ermənistan SSR-in ərazisi və şəhərləri kimi göstərildi.

1983-cü ildə Fransada fransız dilində çap olunan dərs vəsaitlərinə daxil edilmiş xəritələrdə Kür-Araz ovalığı bütövlükdə - Kürlə Araz qovuşanadək Ermənistan ərazisi kimi göstərildi. Həyasızlıq son həddə çatdırıldı. Bakur Karapetyan adlı zatıqırıq erməni jurnalisti daha çox torpağımızı qamarlayırdı. O, 1985-ci ildə «Sovetakan qrakanyun» jurnalının 9-cu sayında «Raffinin izi ilə» adlı məqaləsində əbləhcəsinə yazırdı ki, «Qırmızı» körpüdən Kürlə-Araz çaylarının qovuşduğu yerə kimi torpaqlar Ermənistana məxsusdur. Hətta bununla kifayətlənməyib Muğana da əl uzadırdı. Guya Muğan Muxan adlı bir erməninin düzü olub. Bu üzdəniraq nəmənəcik Kəlbəcəri Karvacar adlandırır. İzah edir ki,

Kəlbəcər daşı yonan mənası verən bu qədim erməni sözündən yaranıb. Guya Kəlbəcər nə vaxtsa daş yonan bir erməninin karxanası olub.

1984-cü ildə «Literaturnaya qazeta»nın zona müxbiri Z.Balayan azərbaycanlılara qarşı düşmənçilik hissi aşılayan böyük tirajla «Ocaq» qarayaxmasını, 1988-ci ildə isə hərzə-hədyanla dolu «Yol» adlı qeydlər kitabını rus dilində çap etdirir. Mərkəzdə oturan söz sahiblərinin Azərbaycan ziyalılarına cavabı daha da təhqiramiz olur: Z.Balayanın «Ocaq» kitabı Moskvada deyil, İrəvanda nəşr edildiyindən təhqirlərə dözmək lazımdır, deyirlər. Azərbaycan söz adamlarının, bir sıra tarixçilərin bu kitabın tənqidinə yönəlmiş məqalə və yazıları nəinki ittifaq, heç respublikadaxili mətbuatda da işıq üzü görmür.

Halbuki həmin dövrdə «Bakinski raboçi» qəzetində Ermənistan SSR-ə aid verilmiş məqalənin başlığındakı şəkildə - Ermənistan SSR-in gerbində Ağrı dağının kontur təsviri düşmədiyinə görə İrəvandan Moskvaya və Azərbaycanın ali hakimiyyət orqanlarına protestlər göndərilir. Ermənistanın özündə haylı-küylü təbliğat kampaniyası baş alıb gedir. Azərbaycanın müvafiq hakimiyyət orqanları tərəfindən bir qrup redaksiya və mətbəə işçisi söyülüb danlanmaqdan, tənbeh olunmaqdan başqa, təqiblərə və işdən çıxarılmalaradək müxtəlif növ cəzalanmalara məruz qalırlar. Çox qəribədir ki, bütün dönəmlərdə Azərbaycan rəhbərliyi belə bir sərsəm ideyadan əl çəkə bilmir ki, guya həqiqəti yazan məqalə müəllifləri millətlərarası düşmənçiliyi, milli ədavəti qızışdırır, ictimai-sabitliyi pozurlar. Hətta onların bu hərəkəti sovet quruluşunun düşməni qismində qiymətləndirilmələrədək şişirdilir, cəzalara məruz qoyurlar. İş o yerə çatır ki, 1988-ci ildə «Qabusnamə» kitabının təkrar nəşrində - 1960-cı illərdəki nəşrindən fərqli olaraq orta əsr müəllifinin ruhuna hörmətsizlik edilərək onun ermənilərin imicinə aid tənqidi, daha doğrusu, mənfi fikirləri kitab səhifələrindən çıxarılır. Günümüzün reallığı isə tamam başqa mətləblərdən xəbər verirdi. Səməd Vurğunun «26-lar» poemasının rus dilinə tərcüməsində M.Əzizbəyova aid olan nitqin Ş.Şaumyanın adına getməsi kiçik bir misal deyil, işıq ucu olan yerdə erməni barmağının fürsəti fövtə verməməsinin təzahürüydü. Erməni terrorunun hər sahədə öz işini görməsi demək idi. Hətta 37-ci il irticası dövrlərində erməni yazarlarının Səməd Vurğun barədə, onun millətçi-müsavatçı şair olması haqqında açıq şəkildə enkevedeyə danos vermələri çəkisi olan, şan-şöhrəti günbəgün artan türk insanlarının məhv edilməsinə yönələn erməni-daşnak terrorunun ardıcıl, yolundan dönməz bir proses olduğunu, xarakterini dəyişmədiyini göstərirdi. Mənəvi terror sonucda fiziki terrora ayaq verirdi.

1970-ci illərdən başlayaraq Ermənistan SSR-də azərbaycanlı kadrların kütləvi şəkildə vəzifələrdən çıxarılması aksiyası həyata keçirilir, onların Azərbaycana axınının qarşısı alınmaz olur.

3-6 sentyabr 1979-cu ildə Paris, 1983-cü ildə Lozanna, 13 iyun 1985-ci ildə Sevr şəhərlərində bir-birinin ardınca Daşnaksutyun partiyasının təşəbbüsü ilə Dünya ermənilərinin konqresləri keçirilir. Bir qayda olaraq hər üç konqresdə bütün

qüvvələrin Azərbaycandan torpaq qoparılmasına yönəldilməsi haqqında qərarlar qəbul edilir. 1985-ci ilin dekabr ayında Daşnaksutyun partiyasının Afinada keçirilən XXII qurultayı «Böyük Ermənistan» uğrunda mübarizəni yenidən genişləndirmək haqqında qərar qəbul edir.

Parisdə nəşr edilən «Qamk» erməni qəzeti özünün 11 dekabr 1985-ci il tarixli sayında Daşnaksutyun partiyasının manifestini dərc edir. Manifestdə qeyd olunur ki, erməni əraziləri olan Naxçıvan, Axalkalaki və Qarabağ torpaqları hökmən Birləşmiş Erməni Sərhədlərinə daxil edilməlidir. Ermənipərəst M.Qorbaçovun hakimiyyətə gətirilməsi ilə əlaqədar 1985-ci ildə Marseldə, 1987-ci ildə isə Moskvadakı erməni qəbiristanlığında erməni-daşnak fasistlərinin toplantıları olur. Toplantılarda yuxarıda adları çəkilən konqres qərarlarının yerinə yetirilməsi ilə bağlı əməli işlərin görüləsi vəzifələri və görülməsi vacib tədbirlər müzakirə edilir. Nəzərdə tutulan tədbirləri həyata keçirmək üçün bir-birinin ardınca təşkilatı işlər görülür. 1940-cı illərdə adını dəyişmiş daşnak ünsürləri tərəfindən yaradılan və yarımgizli fəaliyyət göstərən «Qarabağ hərəkatı»nın işini fəallaşdırmaq, açıq, leqal fəaliyyətə keçməsini təmin etmək üçün İrəvanda «Qarabağ komitəsi», Xankəndində «Krunk» təşkilatı, Üçmüəzzin kilsəsində «Qarabağ həmrəylik komitəsi», ABŞ-da «Erməni Assambleyası» kimi qurumlar yaradılır. 1987-ci ilin yazında Fransanın erməni elitasının təşəbbüsü ilə Avropa parlamentinin yaz sessiyasında «erməni məsələsi»nə dair müzakirələr keçirilir. 1987-ci ilin dekabr ayında isə ABŞ-ın Respublikaçılar partiyasının Nyu-Orleanda keçirilən qurultayında erməni icmasından olan nümayəndələri «Sovet İttifaqında öz müqəddəratlarını təyin etmək hüququnu əldə etməyə çalışan xalqların müdafiəsi» barədə müddəanın partiyanın proqram sənədinə daxil edilməsini təkidlə tələb edirlər.

Bütün bunlarla yanaşı erməni əlindən su içən Qərbin və Rusiyanın bir sıra dövlət adamları, siyasətçiləri və üzdə olan tanınmış ziyalılarının bir çoxu erməni-daşnak faşistlərin tələbindən mübarizə qabağı ələ alınırlar. Onlar da qərəzli mövqedən çıxış edərək erməni-daşnak faşistlərinə dəstək verir və Azərbaycan xalqına qarşı «dolayı genosid» adlanan əməliyyatlar aparmaqdan belə çəkinmirlər. Rus publisisti İqor Belyayev «Literaturnaya qazeta»nın səhifələrində «Azərbaycanlı olmaq ayıb deyil» deyə bu başlıq altında dərc etdirdiyi məqaləsində Azərbay-an xalqına kinayə edir. Rusiyanın televiziya kanallarından biri çeçen gəncinin müsahibəsini göstərir. Bu yeniyetmə gənc ümumittifaq tamaşaçısına bəyan edir ki, «Vuruşmalıyam, vuruşmaya bilmərəm. Mən azərbaycanlı deyiləm ki?!» Bu görüntünün televiziya ekranlarına təsadüfən çıxarılmasına ancaq sadəlövh insanlar inana bilər. Bu kimi təxribat xarakterli verilişlərin ekranlara yol tapması xüsusi tapşırıq almış televiziya müxbirinin hansı məkrli niyyətlərə xidmət etdiyinin göstəricisidir. Moskvanın «Vesti» və «Novosti» xəbərlər proqramlarının, onların şərhçilərinin erməni-daşnak faşistlərinin xeyrinə yaratdığı yalan seli hamımıza yaxşı məlumdur. Qızışmış ehtirasları daha da qızışdırmaqla milli ədavəti

alovlandıranlar ermənilərə tərəf durmağın genlərə yeridilən xaçpərəstlik lehinə səs qaldırmalarından qaynaqlanan aksiyalar törətdilər. Soljenitsin, Saxarov kimi dünya şöhrətli yazıçı və alimin Azərbaycanın mənafeləri əleyhinə peşəkar qatillərin, erməni-daşnak faşistlərinin müdafiəçilərinə çevrilmələrinə təəssüflənmək, onların bu hərəkətlərinə heç də təsadüfi hal kimi baxmaq da lazım deyildir. Görkəmli rus yazıçısı Y.Pompeyev haqlı olaraq təəccübünü gizlədə bilmir ki, özünü insan hüquqlarının müdafiəçisi adlandıran Saxarov nə üçün dözülməz irticalara məruz qalan məhsəti türklərinin hüquqlarının müdafiəsinə qalxmadı, amma 1977-ci ilin yanvar ayında Moskva metrosunda partlayış törədən, onlarla günahsız insanın ölümünə səbəb olan «Novaya Armeniya» daşnak partiyasının terrorçuları Zatikyan, Stepanyan və Bağdasaryanın müdafiəsini təşkil etdi. Axı, burada təəccüblənəsi bir şey yoxdur, hörmətli qələm dostum. Daşnak jizoit qadını Yelena Bonner-Əlixanyan tərəfindən ələ alınan Saxarovun alimliyinə bir şübhəmiz olmasa da, insanlığına rəğmən deyə bilərik ki, xaltasını daşnak manqurtunun əlinə vermiş, əldə oynadılan dayanıqsız bir insan halına salınmış Saxarov daşnak muzdlusundan başqa bir kəs deyildir.

1987-ci ilin oktyabr ayında İrəvan şəhərində, Puşkin adına parkda 250 nəfərlik iştirakçı ilə birlikdə Ter-Petrosyanın və İ.Muradyanın rəhbərliyi altında «Qarabağ komitəsi» mitinq keçirir. Mitinqçilər «Qarabağımızı xilas etmək üçün ölümdən və həbsxanadan qorxmamağı bacarmalıyıq» şüarını səsləndirirlər.

1987-ci il noyabr ayının 18-də ermənipərəst Qorbaçovun erməni məsləhətçilərindən biri, iqtisadi məsələlər üzrə köməkçisi A.Aqanbekyan erməni lobbisinin at oynatdığı Fransada «Humanite» qəzetinə verdiyi müsahibəsində DQ-nın Ermənistana verilməsinin labüdlüyünü söyləyir. daha doğrusu, o, müsahibəsində Qarabağ və Naxçıvan haqqında verilmiş sualı - «Mən bu xəbəri eşidib şad olardım ki, respublikanın şimal-şərqində yerləşən Qarabağ ermənilərin olub. Bir iqtisadçı kimi mən belə hesab edirəm ki, Qarabağ Azərbaycana nisbətən Ermənistana daha artıq bağlıdır. Bu məsələ ilə əlaqədar mən bir təklif vermişəm, ümid edirəm ki, yenidənqurma, demokratiya şəraitində bu problem öz həllini tapacaq» - kimi cavablandırır. Beləliklə, Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-ə birləşdirilməsi məsələsi Krem səviyyəsində gedən söhbətin mövzusuna çevrilir. Bu cavab isə əməli hərəkətə start verən siqnal-tapancadan açılan atəş səsi kimi erməni-daşnak faşistlərini açıq hücuma səslədi. Daha doğrusu, bununla bahəm Zori Balayanın doğuşu, Silva Kaputikyanın göbəkkəsdisi, ermənipərəst Qorbaçovun mamaçalığı Qarabağın Azərbaycandan qoparılması yolunda katalizator rolunu oynadı.

Artıq 1988-ci ilin yanvar ayından başlayaraq daşnak terror qrupları və təxribat dəstələri Ermənistan SSR ərazisində zorakılıq aktlarına start verdilər. Qərbi Azərbaycandan ilk qaçqın dəstələrinin Azərbaycan SSR-ə axını başladı. Bütün il boyu davam etdi. 1988-ci il fevral ayının 8-də Xankəndinə gəlmiş Daşnaksutyun partiyasının emissarları DQMV-nin Ermənistan SSR-in tərkibinə

qatılması ilə bağlı imza toplamağa başlayırlar. Bu tələblə fevral ayının 13-də isə 1 saat 37 dəqiqə davam edən ilk mitinq keçirməyə müvəffəq olurlar. Erməni-daşnak faşistlərinin təkidi ilə DQMV XDS-nin fevral ayının 21-də keçirilən sessiyası, DQMV partiya komitəsinin mart ayının 18-də keçirilən plenumu DQMV-nin Ermənistana birləşdirilməsinə dair qərar qəbul edir. Erməni-daşnak faşistlərinin 22 fevral 1988-ci il tarixdə azərbaycanlıların Əsgəran üzərinə dinc yürüş iştirakçılarından iki gənci güllələməsi, Sumqayıtda fitnəkarlıq məqsədi ilə öz soydaşlarını qətlə yetirmələri vəziyyəti daha da gərginləşdirir, Ermənistan ərazisindən azərbaycanlıların qovulması kütləvi xarakter alır.

Ermənistan SSR AS 15 iyun 1988-ci ildə DQMV-nin Ermənistan SSR-nin tərkibinə daxil olması barədə qərar qəbul etməsi bu işi daha da sürətləndirdi. Xankəndində mitinqlər və tətillərin səngiməsinə ara verilmir. DQMV XDS 12 iyul 1988-ci il tarixdə sessiya çağırır və DQMV-nin Azərbaycan SSR-in tərkibindən çıxarılmasına dair qərar qəbul edir. Mərkəzin göstərişi ilə Azərbaycan SSR əhalisindən quş tüfəngi, məktəblərin hərbi kafedralarından və hərbi hazırlıq kabinələrindən, respublika daxili işlər orqanlarından avtomat silahlar yığılır. Halbuki bu dövrlər erməni-daşnak faşistlərinin terror qrupları avtomat silahlarla təmin olunduğu bir dövr kimi xarakterizə olunur. 1988-ci il noyabr ayının 7-də «Qarabağ komitəsi» İrəvanın mərkəzi meydanında Daşnaksutyunun bayrağını qaldırır. Bununla da azərbaycanlıların son nəfərinədək Ermənistan SSR ərazilərindən çıxarılmasına ümumerməni təşkilatları birgə qərar çıxarır. Erməni-daşnak faşistləri Azərbaycanda gərginliyi artırmaq üçün daha bir pozucu vasitəyə əl atırlar. Azərbaycanın kurort şəhəri olan Şuşanın havasını çirkləndirilməsinə səbəb olacaq İrəvanın Kanaker alüminium zavodunun topxana meşəsində sexinin tikintisinə qərar verirlər. Ancaq bütün Azərbaycan ayağa qalxdıqdan, Gəncə şəhərində əhalinin hərbiçilərlə toqquşmasından, üç nəfər əsgərin həlak olmasından sonra bu qanunsuz tikinti 23 noyabr 1988-ci il tarixdə dayandırılır. 1988-ci ildə nəhayət, zaman-zaman Azərbaycan türklərini məhrumiyyətlərə düçar edən erməni-daşnak faşistləri son niyyətlərini həyata keçirirlər. Türksüz Ermənistan yaratmaq istəklərinə nail olurlar. 1989-cu ildən başlayaraq bütün güc və qüvvətlərini Azərbaycan SSR ərazisinə yönəldirlər. Ermənipərəst Qorbaçov hökuməti SSRİ Konstitusiyasının tələblərinin ziddinə dair 1989-cu il yanvar ayının 12-də DQMV-də xüsusi idarəetmə komitəsi yaradır. Əvvəllər Ermənistan KP MK-nın ikinci katibi işləmiş, erməni əlindən su içən, bir ay əvvəl isə DQMV-də olub öz haqq-hesabını çəkən A.Volski komitə sədri təyin edilir. Bununla da Azərbaycan SSR-nin bütün dövlət orqanlarının və ictimai təşkilatlarının DQMV-dəki səlahiyyətləri dayandırılır. Nə yazıqlar ki İslam aləmində mövcud olan hakimiyyət parazitliyi Azərbaycanda da öz işini gördü. Xalqı alçatmaq siyasətinin daşıyıcıları bu dəfə də Volskinin çaldığı havaya oynadılar. SSRİ KİV-ləri A.Volskinin alçaqcasına işlətdiyi iftirasını - «Ya niqde ne videl takuyu zapuşennuyu oblast» - yalanını bütün dünyaya yayanda bəri başdan öz etirazlarını bildirmədilər. A.Volski ilk əldən

vilayətdə yaşayan azərbaycanlılardan birər-birər ov tüfənglərini yığdırdı. 1988-ci il ərzində Ermənistandan didərgin düşüb DQMV-ə pənah gətirən Xocalı, Malıbəyli və Şuşa şəhərində məskunlaşan azərbaycan qaçqınlarını Azərbaycan hökumətinin əliylə ərazidən çıxardılaraq Azərbaycanın müxtəlif rayonlarına göndərilməsini təmin etdi. DQ-ı onlar üçün qadağan zonasına çevirdi. Vilayətdə Azərbaycan SSR DİN-nin əməkdaşlarının çıxarılması məsələsini də qısa bir müddətdə həll etdi. Erməni-daşnak terror qruplaşmalarının tam silahlanmalarına şərait yaratdı. Qısa bir müddətdə, demək olar ki, DQMV-də fəaliyyət göstərən idarə, müəssisə və təşkilatları hüquqi cəhətdən Ermənistan SSR-in müvafiq nazirliklərinə tabe etdi. SSRİ NS özünün 6 may 1989-cu il tarixli qərarı ilə Volskinin bu missiyasını qanuniləşdirdi. Vilayət və rayon partiya komitələri də Ermənistan KP-nin tərkibinə keçdilər. İlk dəfə olaraq 8 may 1989-cu il tarixdə İrəvandan Hadruta xaricdə təlim görmüş terror qrupu gətirildi. Qarabağda erməni-daşnak terror qruplarının sürətlə silahlanması prosesi aparıldı. Artıq 1989-cu ilin iyul ayından başlayaraq erməni-daşnak dəstələri açıq terror aktlarına start verdilər. 13 iyul 1989-cu il tarixdən etibarən DQMV-nin azərbaycanlılar yaşayan kəndləri daşnak terror qruplaşmaları tərəfindən blokadaya alındı.

19 iyul 1989-cu il tarixdə ABŞ konqresinin senatı «ABŞ-ın Sovet Ermənistanı xalqının Dağlıq Qarabağ ətrafındakı mübahisələri sülh yolu ilə və düzgün həll edilməsi barədə istəklərini ifadə etdiyini» bildirən qətnamə qəbul edir. Daşnak terror qruplaşmaları 46 km uzunluğunda Mığrı dəmiryol xəttini tam nəzarətə götürməklə iki məqsədi reallaşdırmağa nail olurlar. Birincisi, bu yolla Naxçıvan MSSR-ni özləri qəsdən blokadaya alırlar. İkinci bir tərəfdən isə həm İttifaqda və dünyada səs yayırlar ki, Azərbaycan Ermənistanı blokadada saxlayır. Həyati əhəmiyyətli mal-material daşıyan qatarlar Ermənistana buraxılmır. Terror qrupları Azərbaycan-Ermənistan sərhədlərinə toplanır. Azərbaycanın sərhəd kəndlərində aramsız terror aktları törədirlər. Daşnaksutyun partiyasının uzun illərdən bəri istifadə etdiyi irimiqyaslı terror aktlarına qol qoyurlar. 1989-cu ilin sentyabr ayının 9-dan başlayaraq Ermənistandan Qarabağa tanınma nişanları olmayan vertolyotlarla beynəlxalq aləmdə ad çıxarmış erməni terror təşkilatlarının üzvləri, qrup və muzdluların daşınması ara vermir. Erməni-daşnak faşistləri Azərbaycana qarşı lokal terror müharibəsinə başlamaq üçün ciddi hazırlıq işləri görür. Laçın-Gorus yolu ilə Ermənistandan DQMV-nə kifayət qədər silah daşınır. DQMV-nin ərazisində Ermənistanın gerbi və bayrağı qaldırılır. Xankəndində «DQ əhalisindən olan nümayəndələrin» qurultayı keçirilir. Burada Azərbaycan SSR Konstitusiyasının qüvvədən düşdüyü elan edilir. Qurultayın seçdiyi «Milli Şura» yeganə xalq hakimiyyəti kimi fəaliyyətə başlayır. Qorbaçov hökuməti Volski öz missiyasını görüb qurtardıqdan sonra 28 noyabr 1989-cu ildə DQMV-də fəaliyyət göstərən xüsusi idarəetmə komitəsini ləğv edir. Əvəzində Azərbaycan SSR tərəfindən təşkilat komitəsi yaradılmasına razılıq verir. A.İ.Volskinin xəyanətkar fəaliyyətini əks etdirən erməni müəllifi R.Arakelov yazırdı: «1989-cu il ərzində

A.İ.Volskinin komitəsi vəziyyəti nizama salmaqda nəinki əsaslı bir iş görmədi, əksinə Dağlıq Qarabağda vəziyyəti daha da gərginləşdirdi və bura Azərbaycanın ayrılmaz bir hissəsi olmaqdan uzaqlaşdı». Halbuki elə həmin tarixdə də - 1989-cu il noyabr ayının 28-də SSRİ DİN DQ hissələri DQMV-nə yeridilir. Əslində yenə də hər şey erməni-daşnak faşistlərinin xeyrinə həll olunur. Bununla yanaşı, 01 dekabr 1989-cu il tarixdə Ermənistan SSR AS Ermənistan SSR ilə DQ-ın birləşməsinə dair antikonstitusion qərar qəbul edir. Bütün bunlardan sonra 6 dekabr 1989-cu ildə Azərbaycan hökuməti Azərbaycan KP MK-nın ikinci katibi V.Polyaniçko başda olmaqla təşkilat komitəsi yaradır. Təşkilat komitəsi ilk günlər Azərbaycanın xeyrinə bir sıra işlər görür. Səmərəli fəaliyyət göstərir. Lakin Polyaniçko Moskvaya səfər etdikdən sonra vəziyyət tam dəyişir. Əvvəllər Azərbaycan hökumətinin qərar və göstərişlərini yerinə yetirirəm deyən Polyaniçko, sonralar SSRİ hökumətinin, şəxsən Qorbaçovun göstərişlərini yerinə yetirdiyini bəyan edir. Ermənistan SSR AS isə özünün 1990-cı il yanvar ayının 9-da keçirdiyi sessiyasında 1990-cı ilin plan və büdcə məsələsinə baxarkən DQMV-nin sosial-iqtisadi inkişaf planını da öz daxili məsələsi kimi müzakirəyə çıxarır. Bununla Azərbaycan SSR-in daxili işlərinə kobud şəkildə müdaxilə edir. Azərbaycanda hakimiyyətin iflic vəziyyətə düşməsinə, 20 yanvar Bakı qırğınının törədilməsinə hər vasitə ilə «yardım» etmiş olurlar.

Ümumiyyətlə, erməni-daşnak faşistlərinin XX əsrdə Azərbaycan türklərinə qarşı apardıqları etnik təmizləmə və soyqırımı siyasətinin IV mərhələsi 1988-ci ilin yanvarında azərbaycanlıların ilk qaçqın dəstəsinin Ermənistanın Qafan rayonundan zorakılıqla çıxarılması dövründən başlayır. DQMV-də isə bu prosesə DQMV XDS sessiyasının 21 fevral 1988-ci il tarixli «DQMV-nin Ermənistan SSR-ə birləşdirilməsi» haqqında qəbul etdiyi qərardan sonra ayaq verilir. Erməni-daşnak faşistləri 08 avqust 1991-ci ildə sonuncu azərbaycanlılar yaşayan Nüvədi kəndinə basqın etməklə, əhalisini yurd-yuvasından didərgin salmaqla türksüz Ermənistan Respublikası yaratmaq kimi məkrli niyyətlərinə nail olurlar. Bundan sonra erməni-daşnak faşistləri Azərbaycana qarşı açıq təcavüzə keçir və terror əməliyyatlarının miqyasını genişləndirirlər. Xocalı şəhəri vəhşicəsinə məhv edilir. Yuxarı Qarabağ ərazisindəki bütün azərbaycanlı yaşayış məntəqələri, o cümlədən Şuşa şəhəri işğal olunur. Azərbaycan türkləri yurd-yuvasından didərgin salınır. Evlərini tərk etməyənləri qətlə yetirir və ya girov götürürlər. Bunun ardınca Yuxarı Qarabağın inzibati sərhədlərindən kənarda olan Laçın şəhəri də ələ keçirilir və qondarma «DQR»-nın Ermənistanla quru yol əlaqəsi yaradılır. Ermənistandakı 7-ci rus ordusu və Xankəndində yerləşən 366 saylı xüsusi təyinatlı motoatıcı rus alayı erməni-daşnak faşistlərinin tərəfinə keçir. Beləliklə, xarici dövlətlərdən və erməni diasporlarından canlı qüvvə, maliyyə, silah-sursat sarıdan ciddi yardımı olan erməni-daşnak faşistləri irimiqyaslı lokal terror müharibəsinə başlayır və ümumilikdə Azərbaycanın 20% ərazisini zəbt edirlər. Bu işğal nəticəsində 100 milyard ABŞ dolları dəyərində Azərbaycana sosial-iqtisadi ziyan dəyir. 25 min km

uzunluğunda kommunikasiya xətti, 3984 km avtomobil yolları, 160 körpü, 14 min km elektrik xətti, 2,3 min km su kəməri, 7296 hidrotexniki qurğu, 36 nasos stansiyası, 26 suvarma sistemi, 2 min km qaz kəməri, 240 km kanalizasiya xətti, 2500 ədəd transformator, 34 min telefon nömrəsi olan ATS, 4 aeroport, 200 km-ə yaxın dəmiryol xətləri işğal zonasında qalır. 900 yaşayış məntəqəsi, o cümlədən 10 şəhər, 500 tarixi, 100-dən çox arxeoloji abidə, 40 min qiymətli eksponatı olan 22 diyarşünaslıq muzeyi və onların filialları, 4 rəsm qalereyası, yüzlərlə tarixi əhəmiyyəti olan binalar, 362 mədəniyyət müəssisəsi (o cümlədən, mədəniyyət sarayı, 3 teatr binası), 411 məbəd, 9 məscid, fondunda 4,6 milyon kitab və əlyazması olan 927 kitabxana, 113 min yaşayış evi, 623 təhsil ocağı, 700 səhiyyə müəssisəsi (o cümlədən 194 xəstəxana), 1000 sənaye obyekti, 700 ictimai bina dağıdılır, yerlə yeksan edilir. Hələ də 17 min km$^2$-lik torpaqlarımız işğal altındadır. 1 milyon soydaşımız qaçqın və ya məcburi köçkün vəziyyətində ağır həyat şəraitində yaşayır. 5446 uşaq yetim qalıb, 7918 ailədən şəhid düşən var. 30000-ə yaxın azərbaycanlı qətlə yetirilib. 50 min adam şikəst edilib. 5 min nəfər girov götürülüb. 12 may 1994-cü ildə AR ilə ER arasında bağlanmış atəşkəs haqqındakı müqavilə zahirən sakitlik təsəvvürü yarada bilər, daxilən isə xüsusi soyuqqanlılıq şəraitində müharibə şəraiti davam edir. 13 ildir ki, atəşkəsdir. Lakin nisbi sakitlikdir. Təkcə 2007-ci ilin 4 ayı ərzində 150 dəfə atəşkəs pozulmuşdur. Atəşkəsdən keçən 13 il ərzində Azərbaycan MO-nun 6500 əsgəri, 1000 nəfərdən çox mülki şəxs minaya düşmüş və ya düşmən snayperinin hədəfinə tuş gəlmişdir. Ümumiyyətlə, Qarabağ müharibəsinə son nöqtə qoyulmamışdır. Qaçqınlar və məcburi köçkünlər arasında əhalinin artım faizi 15-16% aşağı düşmüşdür. Dəmiryol relsləri üstəki vaqonlarda, qışlaqlardakı mal-qara tövlələrində, yol kənarlarındakı torpaq qazmalarda, çadır şəhərciklərində, fin qəsəbələrində, məktəbli düşərgələrində, uşaq bağçalarında, tələbə yataqxanalarında, yaşayış üçün nəzərdə tutulmayan inzibati binalarda, hörgüsü yarımçıq qalmış tikililərdə məskunlaşmış qaçqınların və məcburi köçkünlərin maddi durumlarından, yaşayış tələbatlarından söz açmağa dəyməz. Bircə faktı dilə gətirmək kifayətdir ki, etnik təmizləmədən keçən ilk beş il ərzində bu faşist aksiyasından zərər çəkənlər arasında 55 mindən çox ölüm hadisəsi qeydə alınmışdır. Ölüm faizi artan xətlə davam edir.

Bu gün dünyada mövcud olan 19 milyon qaçqının 1 milyonu Azərbaycanın payına düşür. Respublika əhalisinin hər 8 nəfərindən biri qaçqındır. Qarabağa ölüm və fəlakət gətirən erməni-daşnak faşistlərinin kimliyi hər kəsə məlumdur, lakin nədənsə super güclər həqiqəti əks etdirən faktlar qarşısında lallıq nümayiş etdirir, əsl mətləbdən söz açmaqdan yan keçirlər.

**Haşiyə 5:** Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həll edilməsinə kömək məqsədi ilə 1992-ci ildə yaradılmış ATƏT-in Minsk qrupunun 15 il ərzində bir-birinin ardınca Azərbaycanın ərazi bütövlüyünə və unitar dövlət qurumuna xələl gətirən təkliflərlə çıxış etməsi, haqsızlığa qapı açan, heç bir əməli nəticələr

verməyən tövsiyələrlə səmərəsiz görüşlər keçirməsi bizi şübhəli mülahizələrə və xoşagəlməz fikirlərə düşməyə vadar edir. Dünya birliyi Qarabağ münaqişəsinin ədalətli həllinə heç vəchlə səy göstərmir. Əksinə problemin həlli uzandıqca və yubandıqca beynəlxalq təşkilatlar və aparıcı dövlətlər işğal altında olan Azərbaycan torpaqlarının mübahisəli zona statusuna köçürülməsi yönümündə manevrlər edirlər. Azərbaycan Respublikasına münasibətdə ikili standartlardan xəbər verən baxışlar nümayiş etdirirlər. ABŞ hökuməti konqresin AR-na dövlət yardımını qadağan edən Azadlıq aktına əlavə, ədalətsiz 907-ci düzəlişi hələ də ləğv etməmişdir. İşğalçılıq müharibəsi aparmasına baxmayaraq, ER-na hər il 100 milyon dollarla dövlət yardımı edir. Minsk qrupunun başqa bir həmsədri olan RF isə ER-nı müasir döyüş silahları ilə təmənnasız təmin edir. Fransa isə öz qardaşlıq dəstəyini hər üzünə davam etdirir. Bir sözlə, ER beynəlxalq aləmdə himayə edilir, onun qəsbkarlıq hərəkətlərinə göz yumulur, təcavüzkar dövlət kimi tanınmır.

Xristian-müsəlman diskriminasiyası ittiham və qənaətlərimizi təsdiq edən əsas faktordur. Bu hal təcavüzkar ER ilə təcavüzə məruz qalan AR-nın Avropa Şurasına qəbulu zamanı bir daha özünü büruzə verdirdi. Belə ki, müzakirələrin gedişində insan haqlarını kütləvi şəkildə pozan, monomillətçilik, işğalçılıq, qəsbkarlıq və etnik təmizləmə siyasəti aparan ER-sı üzərinə bu yöndə heç bir öhdəlik qoyulmadı və iradlar tutulmadı. Bunun müqabilində isə Azərbaycan Respublikasında hərbi canilərin məhkumluğuna siyasi don geydirildi. Milli dövlətçiliyimizə qarşı xəyanətkar və separatçı mövqe tutmuş qatı cinayətkarların azadlığa buraxılması və ya istintaq işlərinə yenidən baxılması kimi qeyri-ciddi öhdəliklər qoyuldu. Başqa bir müqayisə faktına diqqət yetirək: Avstriyada ifrat millətçilərin hakimiyyətə gəlişi ilə bütün Avropa dövlətləri ayağa qalxdı və etiraz bəyanatları verdilər. Ermənistanda isə öz davranışı ilə faşizmi və ultra millətçiliyi kölgədə qoyan, beynəlxalq terrorçu təşkilata malik Daşnaksutyun partiyası nümayəndələrinin hakimiyyət pikində oturması faktı dünya birliyini qətiyyən narahat etmədi və bu gün də etmir.

İşğal altında qalmış ərazilərdə təbiətin mühafizəsinə və ətraf mühitin qorunmasına vəhşi münasibət bəslənilir, daha çox bəşəriyyət və insanlıq əleyhinə cinayət törədilir. Qırmızı palıd meşəliyi, qoz ağacları, şərq çinarları boy sırası ilə doğranır. Suvarma sistemləri dağıdılır, əkin sahələri, min hektarlarla bağ-bağatlar, 10 min hektarlarla üzüm plantasiyaları məhv edilir, oda qalanır, yandırılır. Yeraltı və yerüstü sərvətlər talanır, torpaq və yerin təki korroziyaya uğradılır. Su ehtiyatları, mineral sular, bitki və heyvanat aləmi qarət olunur, subartezian quyuları və kəhrizlər batırılır. Qiymətli metal ehtiyatı olan filiz yataqları yağmalanır, çaylara və ətraf ərazilərə reaktiv tullantılar atılır və zəhərli maddələr axıdılır.

Tarixi, arxeoloji və maddi mədəniyyət abidələri uçurulur, atəşpərəstliyi və türkçülüyü özündə əks etdirən antik dövrün nişanələri və islami dəyərlərin izləri həmin yerlərdən silinir. Dini və ritual ayinlərin icra edildiyi yerlər dağıdılır. Məscidlərin bünövrəsi qaşınır. Müqəddəs yerlər, ocaqlar, pirlər murdarlanır.

Qəbiristanlıqlar buldozerlərin çalovuna verilir. Yaşayış məntəqələri yerlə yeksan edilir. Adlar dəyişdirilir, toponimlər erməniləşdirilir.

Erməni-daşnak faşizmi, onun terror təşkilatlarının fəaliyyəti ER tərəfindən dövlət səviyyəsində dəstəklənir. AR-na və azərbaycanlılara qarşı yönəldilmiş terror aktları dövlət orqanlarında yuva qurmuş erməni-daşnak faşistləri tərəfindən planlaşdırılır, hazırlanır və maliyyələşdirilir. Erməni kəşfiyyatı, xüsusi xidmət orqanları Azərbaycanda terror-təxribat aksiyalarının təşkilində hərbi əsir və girovlardan, üçüncü dövlətlərin vətəndaşlarından, azsaylı xalqların nümayəndələrindən məharətlə istifadə edirlər. İkibaşlı siyasətlərini, at gedişli oyunlarını davam etdirirlər. RF-nın imperiya siyasətinin canlanmasından hər vasitə ilə istifadə etməyə, yenə də bəhrələnməyə səy göstərirlər. Həm imperiya siyasətbazlarının, həm də etnik qrupların ələ alınmış başıboş liderlərinin qulağına baş tutması mümkün olmayan şirin yalanlar pıçıldayırlar, öz yaramazlıqları ilə milli münaqişələrin sonu bitməyən variantlarından istifadə etməyə çalışırlar. Daşnak psixopatlarının sayıqlamalarına görə, «Car-Balakən respublikası» Ağdamadək uzadılmalı, «DQR»-na birləşməlidir. AR iki yerə bölünməli, ER Cənubi Qafqazın ən böyük dövlətinə, RF-nın Qafqazda əvəzolunmaz dayağına çevrilməlidir. Bu və ya başqa şəkildə RF ilə birbaşa sərhəd əlaqəsi yaradılmasına nail olunmalıdır. Həmçinin, erməni-daşnak faşistlərinin Gürcüstan separatçılarına bel bağlamaları da bu qəbildəndir. Abxaziyanın və ya Cənubi Osetiyanın RF-na birləşdirilməsi ER-nın sərhədlərini RF-na bir o qədər yaxınlaşması deməkdir.

Erməni-daşnak faşistləri unudurlar ki, indi Azərbaycan 1988-1993-cü illərin Azərbaycanı deyildir. Onun iqtisadiyyatı ilbəil yüksəlir. Müvafiq olaraq hərbi potensialı durmadan güclənməkdədir. İndi hər bir Azərbaycan əsgəri son damla qanını Qarabağ torpağı uğrunda axıtmağa hazırdır. Ədalətli müharibə aparmaq Azərbaycan xalqının haqqıdır. Bəli, Qarabağ müharibəsində son sözü Azərbaycan deməlidir!

## AZƏRBAYCANDA ERMƏNİ-DAŞNAK TERRORUNUN XRONOLOGİYASI

**Açıqlama:** Azərbaycanda erməni terrorunun tarixi, demək olar ki, ermənilərin və ya erməni elementlərinin bu torpağa qədəm qoyduqları, ayaq basdıqları günlərdən, VII-VIII əsrlərdən başlayır. Bununla onlar ilk iri terror aktlarını qəsbkarlıq zəminində xristianlığı qəbul etmiş alban türklərinə qarşı yönəltmişlər. Xilafətə quyruq bulayan erməni qriqorian kilsəsi mığrı türk tayfasından olan Böyük Alban hökmdarı Cavanşirin 681-ci ildə zəhərlənməsində, onun son varisi Şeruya və ona yaxın adamların şərə-böhtana salınaraq qətlə yetirilmələrində, daha doğrusu, ərəb sərkərdəsi Məhəmməd ibn Mərvan tərəfindən Xilafətin paytaxtı Şam şəhərinə aparılaraq orada 705-ci ildə edam edilmələrində xüsusi fəallıq göstərmişdir. IX əsrin istiqlaliyyət mücahidi, azadlıq aşiqi,

Azərbaycanın xalq qəhrəmanı Babək və qardaşı Abdulla erməni xislətli Səhl ibn Sumbat və oğlu Müaviyə tərəfindən xəyanət yolu ilə tutularaq ərəblərə təhvil verilmişlər. Onlar bu xəyanətdən bəhrələnmiş, Babəki ərəblərə sataraq çoxlu pul qazanmışlar. 838-ci il mart ayının 14-də xəlifə Mötəsimin hökmü ilə Babək Samirə şəhərində edam edilmişdi. Qardaşı Abdulla isə eyni işgəncə ilə Bağdad şəhərində qətlə yetirilmişdi. Hətta XIII əsrdə özünü Xaçın knyazı elan edən Həsən Cəlalın son varisi də XVI əsrdə gəlmə ermənilər tərəfindən zəhərlənərək aradan götürülmüşdü. Bununla da dönmə ermənilərin son varisi kimi çıxış edən Xaçın məlikliyinin özündə belə rəhbərliyi gəlmə ermənilər öz əllərinə keçirmişlər.

Mən bu bölmədə XVI əsrdən başlayaraq Azərbaycan ərazisində ermənilərin törətdikləri terror aktlarının xronologiyasını verməyə çalışmışam. Əlbəttə, dünya arenasında ermənilər və erməni-daşnak terrorçuları müxtəlif adlar altında terror aktları törətmiş, həm də kifayət qədər ifşa olunmuşlar. O da aydındır ki, erməni terrorçularının fərdi terror aktları 1892-ci ildən başlayaraq siyasi məna kəsb edən bir hərəkata çevrilmişdir. Bu isə Daşnaksutyun partiyasının adıyla bağlıdır. Daşnaksutyun partiyasının ən kəsərli silahı məhz bir ərazidə yaşadıqları qonşu xalqlara qarşı törədilən terror aktlarından faydalanmaq siyasətidir. Təkcə bir faktı göstərmək kifayətdir ki, erməni daşnak terrorçuları 1970-1980-ci illərdə türk səfirliklərinə və türklərə qarşı 220-dən çox terror aktı törətmişlər. Əllidən çox insan, o cümlədən 41 türk diplomatı qətlə yetirilmişdir. Onların ailə üzvləri də zərərçəkən insanlardan olmuşlar. Biz burada XIX-XX əsrlərdə erməni terrorçularının Türkiyə ərazisində və ya türk səfirliklərinə qarşı törədilən və həyata keçirilən terror aktları barədə məlumat verməyi qarşıya məqsəd qoymamışıq. Çünki Anadoluda və dünyanın bir sıra aparıcı ölkələrində erməni-daşnak faşistləri tərəfindən törədilən bu terror aktları barədə kifayət qədər deyilib və yazılıbdır. Əfsuslar olsun ki, ermənilərin və erməni-daşnak faşizminin Azərbaycanın tarixi-coğrafi ərazisində son iki əsrdə mütəmadi və məqsədyönlü şəkildə törətdikləri həm fiziki, həm də mənəvi-ideoloji terror aktları kifayət qədər araşdırılmamış, sistemli şəkildə öyrənilməmişdir. Deyərdim ki, hətta günü bu gün də terror aksiyaları tarixi faktlar əsasında izlənməmiş, Azərbaycanın varlığına yönəlmiş qəsdləri müqabilində yetərincə ifşa olunmamışdır. Halbuki ötən yüzilliklər ərzində ermənilər və erməni-daşnak faşistləri Azərbaycana və Azərbaycan türkünə qarşı xəyanət yolu tutduqlarını dönə-dönə nümayiş etdirmişlər. Yüz minlərlə Azərbaycan türkünü aman vermədən qətlə yetirmişlər, yurd-yuvalarından didərgin salmışlar. Əsas məqsədləri Azərbaycan türkünü məhv etməklə etnik təmizləmə siyasətlərini həyata keçirmək olmuşdur. Onlar bu istəklərini terror müharibələri ilə yerinə yetirmişlər. Azərbaycan torpağında öz dövlətlərini qurmağa çalışmış və son anda buna nail olmuşdular.

**01. 10 dekabr 1586-cı il:** Səfəvi şahı Məhəmməd Xudabəndənin vəliəhdi Həmzə Mirzə erməni sui-qəsdi nəticəsində - dəlləyi, erməni Xudaverdinin əli ilə öldürülmüşdü. Bununla da şahın fars qızından olan oğlu, I Şah Abbas hakimiyyəti

ələ keçirmişdir. Beləliklə, ermənilərin Quzey Azərbaycan ərazilərinə köçmələrinə, xüsusi güzəştlər əldə etmələrinə, zaman-zaman vəzirlik səlahiyyətlərini özlərində saxlamalarına, ölkə iqtisadiyyatında idarəçiliyi öz əllərinə keçirmələrinə münbit şərait yaranmışdır. (Bundan başqa I Şah Abbas türk təməlli Səfəvilər dövlətinin fars mənşəli dövlətə çevrilməsində mühüm rol oynamışdır -*O.Ə.)*

**02. 1721-1734-cü illər:** Erməni keşişləri rus çarlarını Qafqazı işğal etməyə həvəsləndirmək və tələsdirmək üçün təkcə məktublar yazmaqla, elçilər göndərməklə, xəyanət və satqınlıqlar etməklə kifayətlənmirdilər. Həm də qoşunla da kömək göstərəcəklərini vəd edirdilər. Onların fitvası və yardımı ilə Avan koxa adlı erməni ətrafına quldur dəstəsi yığıb Qarabağda at oynatmağa başlamışdır. Avan koxa vahimə yaratmaq üçün xüsusi qəddarlıqlar edirdi. Əlsiz, ayaqsız türkləri ələ keçirir, Bağrıqan dağındakı cinayət yuvasına aparır. Burada dərilərindən çıxardığı zoğlarla onları ağacdan asaraq işgəncə verə-verə qətlə yetirirdi. Bu illərdə çoxsaylı terror aktları həyata keçirmişdi;

**3. 1750-1760-cı illər:** Çelaberd və Gülüstan erməniləri Dəli Mahrasa, Tülü Arzuman, Çalağan Yüzbaşı öz quldur dəstələri ilə ətraf kəndlərə həmlələr edir, dinc, əliyalın Azərbaycan türklərini ələ keçirir və qətlə yetirirdilər. Bununla onların havadarları Cənubi Qafqazın işğalı zamanı imperiya ordusuna yaxındanköməklik edəcəklərini bildirir, rus çarlarının diqqətini özlərinə cəlb etmək istəyirdilər;

**4. 3 yanvar 1804-cü il:** Erməni millətindən olan quldurbaşı Qriqor Manuçaryan özünün 500 nəfərlik dəstəsi ilə Gəncənin qaniçən çar generalı Sisianov tərəfindən işğal edilməsində yaxından iştirak etmiş, yüzlərlə dinc şəhər sakininin qətlə yetirilməsində öz nankorluqlarını sübuta yetirmişlər;

**5. 2 iyun 1806-cı il:** Uzun müddət çar Rusiyasına casusluq etmiş Məlik Cümşüd Şahnazaryanın xəyanətkar təhriki və bələdçiliyi ilə rus mayoru Lisanoviç öz dəstəsi ilə Xanbağında istirahət edən Qarabağ xanı İbrahimxəlil xanı ailə üzvləri və əyanları ilə birlikdə (cəmi 17 nəfər) yataqlarında ikən qətlə yetirmişdi. Bunun müqabilində parabeyin kimi tanınan mayor Lisanoviç sonralar general rütbəsinədək yüksəldilmişdi. Məlik Cümşüd Şahnazaryan hələ 1796-cı ildə Gürcüstana səfər etmiş, orada çara xidmət edəcəyi barədə müqaviləyə imza atmışdır. Rusiyanın xeyrinə etdiyi xəyanətkar xidmətlərinə görə isə sonralar çar Pavel tərəfindən ona polkovnik rütbəsi verilmiş, Tiflis şəhərində mənzillə və 1400 manat məbləğində ömürlük dövlət təqaüdü ilə təmin edilmişdi;

**6. 1819-cu il:** Çar Rusiyası tərəfindən işğal edilmiş ərazidə - müsəlman əyalətinin həmin dövrdə hərbi rəisi işləyən, türk qəddarı kimi ad çıxarmış erməni mənşəli çar generalı V.Mədətov tərəfindən Şəki xanı İsmayıl xan zəhərlənərək qətlə yetirilmişdir;

Ümumiyyətlə, 2 may 1796-cı ildən 10 fevral 1828-ci ilədək çar Rusiyasının Azərbaycanda apardığı işğalçılıq müharibəsi əsasən ermənilərin - erməni keşiş və tacirlərinin, erməni mənşəli çar general və zabitlərinin satqınlıqları və xəyanətkarlıqları, bələdçilikləri və yol göstərənlərinin müşayiəti altında

aparılmışdır. Azərbaycan türklərinin olmazın müsibət və bəlalara düçar olmasında, aborigen millətin dədə-baba yurdlarını tərk etmələrində, kütləvi qırğınlarının təşkilində nankor erməni muzdluları müstəsna rol oynamışlar. Erməni əlindən su içən, ermənipərəst rus generalları Sisianov, Bulqakov, Qudoviç, Yermolov, Paskeviç, Kotlyarovski və onlarca başqaları müsəlman əhaliyə qarşı güzəştin nə olduğunu bilməmişlər. Yeraltı, yerüstü sərvətlərlə bol olan Azərbaycan torpağını qanlı müharibələr meydanına çevirmişlər. Sisianovun Gəncədə, Bulqakovun Bakıda, Yermolovun Şəkidə, Paskeviçin İrəvanda, Kotlyarovskinin ən qədim türk qalası olan Mığrıda törətdiyi kütləvi qırğınların miqyası hələ də yaddaşlardan silinməmişdir. Onları məhz bu qırğınları törətməyə həvəsləndirən Nerses, Stefan, Danil, Arqutinski, Yefrem, İonesyan, Sərkis, Yeqiş, Karapet kimi erməni keşiş və tacirləri olmuşlar. Azərbaycan türkünün cəlladlarına çevrilmiş erməni mənşəli çar generalları Valerian və Mirzəcan Mədətovlar, Behbudov, Lazarev və Korqanovlar həmin dövrdə fürsət düşdükcə Azərbaycan xalqından amansızlıqla qisas almışlar. İkiüzlü siyasətləri, vəhşi və məkrli hərəkətləri ilə öz çirkin niyyətlərini həyata keçirmək üçün neçə-neçə eli, obanı, elatı qan içində boğmuşlar. Təkcə V. Mədətov komandir olduğu hərbi hissəsi ilə ağına-bozuna baxmadan 1826-cı il fevral ayının 2-də Şəmkirdə 2000, sentyabr ayının 13-də Gəncədə 1500 nəfər soydaşımızı qətlə yetirmişdir. 1928-ci il fevral ayının 6-da özbaşınalıq edərək Təbriz yaxınlığında talanlar törətmişdir. Öz qəddarlıqları ilə bir-birindən seçilməyən erməni mənşəli çar generalları hansı vəzifədə və nə vaxt işləmələrindən asılı olmayaraq birmənalı şəkildə əhalini barbarcasına, bacardıqca soyub-talayır, incidir, onları üz-üzə qoyur, onlarda qiyam əhvali-ruhiyyəsi yaradır, əhalini çar Rusiyasına qarşı qoyur və onların işğalçı qüvvələr tərəfindən məhv edilməsinə nail olurdular;

**7. 20 may 1903-cü il:** Daşnak terrorçuları Gümrüdə (Aleksandropolda) dinc türklərə rəğbət göstərdiyinə görə rus kahini Vasilyevi qətlə yetirmişlər;

**8. 17 avqust 1903-cü il:** İrəvan dəmiryol stansiyasında cinayətlərə əl atan, türklərə qarşı vəhşi hərəkətlər törədən erməniləri qanunlara riayət etməyə məcbur etdiyinə və çağırdığına görə daşnak terrorçuları rus millətindən olan Stepan Damkovu qətlə yetirmişlər;

**9. 29 avqust 1903-cü il:** Daşnak terrorçuları Gəncədəki erməni kilsəsinin çağırışı ilə II hissədəki türklər məhəlləsinə basqın etmiş, dükanları çapıb-talamış, sayı qeydə alınmayan dinc sakinləri qətlə yetirmişlər;

**10. 5 sentyabr 1903-cü il:** Daşnak terrorçuları Qars şəhərində işləyən rus məmuru, milliyyətcə Azərbaycan türkü olan Şərif Laçınbəyovu qətlə yetirmişlər;

**11. 13 oktyabr 1903-cü il:** Milli ədavəti təbliğ etdiyinə görə Üçmüəzzin kilsəsinin fəaliyyətini nəzarətə götürmək istəyən general-adyutant, knyaz Q.S.Qalitsin üç daşnak terrorçusu tərəfindən izlənərək Tiflis şəhərində qətlə yetirilmişdir;

**12. 6 yanvar 1904-cü il:** Daşnak terrorçuları erməni təxribatlarının qarşısını almağa cəhd göstərdiklərinə görə Yelizavetpol (Gəncə) quberniyasının vitse-qubernatoru Andreyevi və 15 məmurunu qətlə yetirmişlər;

**13. 15 avqust 1904-cü il:** Azərbaycan türklərini yerli xalq saydığına, onların milli adət-ənənələrini öyrəndiyinə, tarixinə dair qeydlər apardığına, onlarla dostluq etdiyinə və xəstələrinə tibbi yardım göstərdiyinə görə İrəvan quberniyasının həkimi Urazov daşnak terrorçuları tərəfindən dəfələrlə hədələnmiş, lakin öz humanistliyindən əl çəkmədiyinə görə o, terrorçular tərəfindən qətlə yetirilmişdi;

**14. 1903-1904-cü illər:** Tarixi araşdırmalar göstərir ki, daşnak terrorçusu Vazgenin rəhbərlik etdiyi qrup bu illər ərzində Şuşa şəhərində və onun ətraf kəndlərində say hesabı ilə 500 nəfər Azərbaycan türkünü qətlə yetirmişdir;

**15. 2 fevral 1905-ci il:** Daşnak terrorçuları Bakıda milli zəmində ilk terror aktı törətmişlər. Mühafizəçi əsgər cildinə girmiş daşnak tərəfindən dustaq Aşurbəyov məhkəmə zalından çıxarılıb aparılarkən yarı yolda qətlə yetirilir;

**16. 6 fevral 1905-ci il:** Daşnak terrorçuları Bakıda qarşıdurma yaratmaq məqsədi ilə Parapet bağında əliyalın şəhər sakini Ağarza Baba oğlunu və eyni zamanda şəhərin digər məhəllələrində 13 dinc sakini qətlə yetirmişlər;

**17. 6-10 fevral 1905-ci il:** Daşnak terrorçuları Bakıda kütləvi qırğın törədərək, qadınlar, uşaqlar da daxil olmaqla 1000-dən çox Azərbaycan türkünü qətlə yetirmişlər;

**18. 01 may 1905-ci il:** Daşnak terrorçuları Sıxmahmudlu yolunda Cəhri kəndindən olan üç Azərbaycan türkünü odlu atəşlə yaralayırlar;

**19. 03 may 1905-ci il:** Naxçıvan qəzasının Tumbul kəndi daşnak terrorçularının basqınına məruz qalır, bir nəfəri qətlə yetirirlər;

**20. 10 may 1905-ci il:** Daşnak terrorçuları Naxçıvan şəhərində qırğın törədərək 100 nəfər dinc sakini qətlə yetirmişlər;

**21. 11 may 1905-ci il:** Daşnak terrorçuları onların qanlı əməllərinə ortaq olmadığına görə soydaşları, Naxçıvan qəzasının Kültəpə kənd sakini Xaçaturu və ailə üzvlərini qətlə yetirərək qanlarını kəndin türk əhalisinin üstünə atırlar;

**22. 11 may 1905-ci il:** Daşnak Həmzadın başçılıq etdiyi terror qrupu Daşaltı çayının sağ döşündəki dəyirmana basqın edir. Şuşa şəhər sakini dəyirmançı Xaspolatı, həyat yoldaşı Gülayəni qətlə yetirir, qıçlarından yapışaraq altıaylıq körpələri Məhəmmədi iki şaqqaya bölüb valideynlərinin üstünə atırlar;

**23. 14 may 1905-ci il:** Daşnak terrorçusu Dronun atdığı bombayla Bakı qubernatoru Nakaşidze və sürücüsü qətlə yetirilir;

Ümumiyyətlə, 1905-1906-cı illər ərzində Bakı qubernatoru Nakaşidze, Yelizavetpol (Gəncə) quberniyasının vitse-qubernatoru Andreyev başda olmaqla, qəza rəisləri Bequslovski, Şmerlinq, Naştanski, Pavlov, polismeyster Saxarov, pristav Şumakeviç, sərhəd mühafizəsi polkovniki Bıkov, jandarm rotmistrləri Appel, Burkatski vəzifə borclarını yerinə yetirmək istərkən, daha doğrusu, erməni-

müsəlman qırğınının qarşısını almağa cəhd göstərdiklərinə görə daşnak terrorçularının sui-qəsdlərinə məruz qalırlar;

**24. 23 may 1905-ci il:** Daşnak terror qrupları İrəvanda, Üçmüəzzində, Gümrüdə, Qırxbulaqda, Qazançıda, Kamanda sayı qeydə alınmayan qətliamlar törətmiş, yüzlərlə Azərbaycan türkünü qətlə yetirmişlər;

**25. 24 may 1905-ci il:** Daşnak terrorçuları İrəvanda türk evlərinə basqınlar edirlər. Silahsız beş kişini, dörd qadını və iki körpə uşağı öz ata-baba ocağında vəhşicəsinə qətlə yetirirlər;

**26. 9 iyun 1905-ci il:** Daşnak terror qrupu Üçmüəzzin qəzasının Təkiyə kəndinə hücum etmiş, kənd canlı aləmdən təcrid edilmiş, məscidə sığınan əhali gülləbaran olunmuşdur. Axund Məhəmməd Əli Mirzə Əbdülhüseyn oğlu Qazızadənin böyük imarətinə od vurub yandırmış, 200 cild Quranı və müqəddəs kitabları oda atmışlar. Qazı idarəsinə məxsus kitab və sənədlər məhv edilmişdir;

Bunun ardınca Üçmüəzzin qəzasının 9 məşhur azərbaycanlılar yaşayan kəndlərində qətliamlar törətmişlər;

**27. 10 iyun 1905-ci il:** Daşnak terror birləşməsi Üçmüəzzin qəzasının Toros kəndinə basqın edir. 53 nəfəri qətlə yetirir, cəsədlərini yandırırlar. 255 ev və kəndin bütün ot tayalarına, taxıl zəmilərinə od vururlar;

**28. 13 iyun 1905-ci il:** Daşnak terror qrupu Cəbrayıl qəzasının Divanəli kəndini yandırır və dağıdır. Sayı qeydə alınmayan qətllər törədirlər;

**29. 1 iyul 1905-ci il:** Daşnak terrorçuları İrəvan şəhərinin türk əhalisi arasında sayı qeydə alınmayan qətliamlar törədirlər;

**30. 1-3 iyul 1905-ci il:** Daşnak terror qrupları Naxçıvan qəzasının 12 kəndində (Güllücə, Təzəkənd, Tutya, Kötüklü, Kamallı və s.) sayı qeydə alınmayan qətliamlar törətmiş, həmin yaşayış məntəqələrini yerlə yeksan etmişlər;

**31. 5 iyul 1905-ci il:** Daşnak terror qrupu Cəbrayıl qəzasının Məzrə kəndinə basqın edir. Camaat yaylağa köçdüyündən qışlaqda qalmış doqquz nəfərdən altısını qətlə yetirir, bir nəfəri isə girov götürürlər. İki nəfər qaçıb aradan çıxa bilir;

**32. 8 avqust 1905-ci il:** Daşnak terrorçuları Cənubi Azərbaycandan gəlib Şuşa şəhərində binagüzarlıq edən, əliyalın 17 türk fəhləsini qətlə yetirirlər;

**33. 8 avqıst 1905-ci il:** Daşnak terrorçuları Şuşada Abbas bəyin evinə basqın edirlər. Abbas bəyi, qardaşını və üç qulluqçusunu qətlə yetirirlər;

**34. 8 avqust 1905-ci il:** Benk kəndində yuva qurmuş daşnak terrorçuları Şuşadan Gəncəyə gedən atlı araba karvanına basqın edirlər. Karvanı talayır, çalvadarları öldürür, sayı qeydə alınmayan çoxlu sayda Azərbaycan türkünü qətlə yetirirlər;

**35. 16-21 avqust 1905-ci il:** Daşnak terrorçuları tərəfindən Şuşa şəhərində 60 nəfər Azərbaycan türkü qətlə yetirilir;

**36. 20 avqust 1905-ci il:** Daşnak terror dəstələri Bakıda və ətraf yaşayış məntəqələrində qırğınlar törədirlər. Çoxlu sayda Azərbaycan türkünü qətlə

yetirirlər. Kişilərin başlarını kəsir, qadınların qarınlarını yarır, qocalara, uşaqlara aman vermirlər. Cəsədlərin çoxunu dənizə atırlar;

**37. 21-26 avqust 1905-ci il:** Daşnak terrorçuları Şuşa qəzasında ikinci dəfə türk qətliamına başlayırlar. Dörd kənd yerlə yeksan edilir. Dinc, əliyalın əhalidən 100 nəfəri qətlə yetirirlər;

**38. 22 avqust 1905-ci il:** Hərbi buraxıb vəkilliklə məşğul olan, İrəvan quberniyasında müsəlman əhalisinin hüquqlarını müdafiəyə qalxan Məmmədqulu bəy Kələntərli daşnakları ifşa etmək məqsədi ilə Fransaya getmək qərarına gəlir. O, yola düşərkən Batum şəhərinin dəniz vağzalında daşnak terrorçusu tərəfindən arxadan güllələnir;

**39. 25 avqust 1905-ci il:** Qondarma daşnak generalı Hamazasp və əlaltısı A.Mikoyanın rəhbəri olduqları terror qruplaşması Cavanşir qəzasının Çıraxlı, Kəmərli, Hacıqərvənd və Pirxud kəndlərinə basqın edirlər. Yüz nəfər Azərbaycan türkü qətlə yetirilir. Kəndlərin əhalisi yurd-yuvalarından didərgin salınır;

**40. 3 oktyabr 1905-ci il:** Daşnak terrorbaşı Hamazasp və Mikoyan öz quldur dəstəsi ilə Cavanşir qəzasının Sırxavənd kəndinə basqın etmiş, əliyalın, dinc əhalini qılıncdan keçirmişdir. Sayı qeydə alınmayan dəhşətli türk qətliamı törətmişdilər. Bu «qəhrəmanlığına» görə qaniçən türk cəlladına - Hamazaspa Daşnaksutyun partiyası general rütbəsi vermişdir;

**41. 01-23 noyabr 1905-ci il:** Daşnak terrorçuları Armen, Kara Bağdasaryan, Tiqran Stepanyan və Durbaxın rəhbərlik etdiyi qaniçən terror qrupları Tiflisdə, Borçalıda sayı qeydə alınmayan dinc, əliyalın əhalini qətlə yetirir, Azərbaycan türklərinə qarşı qətliamlar törədirlər;

**42. 18 noyabr 1905-ci il:** Daşnak terrorçuları Gəncə şəhərinin 2-ci sahəsində Toğana kənd sakinləri Məşədi Məmmədəli oğlunu və Mehralı Zeynal oğlunu qətlə yetirirlər;

**43. 20 noyabr 1905-ci il:** Daşnak terrorçuları Gəncənin 2-ci sahəsində yaşayan Tağı bəy Hacı Məlikovu və Mikayıl Hacı Məlikovu, Hadi Tat Mustafa oğlunu, Mollacəlilli kənd sakinləri Güllü Aşır qızını və Əli Nağı oğlunu qətlə yetirirlər;

**44. 21 noyabr 1905-ci il:** Daşnak terror qrupları Tiflis şəhərində sayı qeydə alınmayan qətllər törədirlər. Yalnız bir meyitxanada 10 nəfər müsəlman cəsədi tapılmışdır. Ayrı-ayrı məscidlərə onlarca qətlə yetirilən müsəlman meyitləri daşınmışdır;

**45. 26 noyabr 1905-ci il:** Daşnak terrorçuları Naxçıvan qəzasının Cəhri kəndində dörd türk ailəsini bütövlükdə məhv etmişlər;

**46. 26 noyabr 1905-ci il:** Erməni-daşnak terror qrupları kazakların köməyindən istifadə edərək Naxçıvan şəhərinin mərkəzi bazarına basqın edirlər. Bazar tamamilə qarət olunub yandırılır. 85 dükan, 75 anbar və başqa tikililər məhv edilir;

**47. 26 dekabr 1905-ci il:** Daşnak Abram koxanın rəhbərlik etdiyi daşnak terrorçuları Cavanşir qəzasının Umudlu kənd camaatını hiylə işlədərək mühasirəyə almışlar. Umudlu adıyla tarixə düşən qətliam törətmişlər. Uşaqlı, qadınlı 300 nəfəri qətlə yetirərək meyitlərini yandırmışlar;

**48. 29 dekabr 1905-ci il:** Daşnak quldur dəstələri Dərələyəzin Hors kəndinə basqın edirlər. Kənd camaatının tən yarısını qətlə yetirirlər. Sağ qalan qismi isə Şərura qaçır;

**49. 11 fevral 1906-cı il:** Daşnak terror qrupları İrəvan mahalının 25 kəndinə basqın edirlər. Sayı qeydə alınmayan qətliamlar törədirlər. Həmin 25 kənd canlı aləmdən təcrid edilir;

**50. 12 iyul 1906-cı il:** Daşnak terrorçuları Şuşada kazaklar yerləşən məhəllədə Məşədi Zeynalın evinə basqın etmişlər. Onun 20 nəfərlik ailə üzvlərini doğram-doğram etmişlər. Hətta bələkdəki körpə nəvəsinə belə aman verməyib, süngüyə keçirmişlər. Həmin gün daşnak terrorçuları Şuşada və onun ətraf kəndlərində qırğın törətmiş, yüzlərlə qocanı, qadını, uşağı vəhşicəsinə qətlə yetirmişlər;

**51. 29 iyul 1906-cı il:** Daşnak terror qrupları Zəngəzur qəzasının Xələc, Saldaş, İnçəvar, Daşnov kəndlərinə həmlə etmişlər. Sayı qeydə alınmayan qətliamlar törətmişlər. Sağ qalan əhali yurd-yuvasını tərk edərək Qatar kəndinə pənah aparmışdır;

**52. 29 iyul 1906-cı il:** Daşnak terrorçuları Qafanın Karxana kəndinə basqın etmişlər. Kənd canlı aləmdən təcrid edilmişdir. Qaçıb kənd ətrafındakı dağda gizlənən 30 qadın və uşaq da ələ keçirilərək tikə-tikə doğranmışlar;

**53. 1 avqust 1906-cı il:** Daşnak terror qrupu Zəngəzurun Qatar kəndinə həmlə edir. 750 evdən və 3500 nəfərdən ibarət əhalisi olan kənd yerlə yeksan edilir. Sayı qeydə alınmayan qətllər törədirlər. Sağ qalan əhali yurd-yuvasından didərgin düşür;

**54. 13 avqust 1906-cı il:** Daşnak terror qrupları Oxçu-Şabadin, Aralıq, Pirdavud, Atqız kəndlərinə basqın edirlər. Saqqarsu dağına çəkilmiş əliyalın kənd əhalisi mühasirəyə düşmüş, daşnaklar tərəfindən sayı qeydə alınmayan qətliam törədilmişdir. Təkcə iki qaya parçası arasından 62 qadın, bir palaz arasında kəsilmiş 15 uşaq başı tapılmışdır. Bu qadın və uşaqlara imdad istəyən 90 yaşlı, əli Quranlı el ağsaqqalı Həsən Əfəndi isə terrorçular tərəfindən tikə-tikə doğranmışdı;

**55. 17 avqust 1906-cı il:** Daşnak Koryun terror qrupu Helenendorf (Xanlar) şəhərinin sakini alman Qurrddan 30 min pul tələb edir. O, tələb olunan pulu vermədiyinə görə daşnak terrorçuları tərəfindən qətlə yetirilmişdir;

**56. 7 avqust 1911-ci il:** Güney Azərbaycanının Məşrutə hərəkatının rəhbəri Səttərxan Sərdari-milli aldadılaraq Tehran şəhərinə aparılmış, burada şah rejimi tərəfindən muzdla ələ alınmış, İranda açıq fəaliyyət göstərən daşnak Yefimin terror qrupu tərəfindən xaincəsinə zəhərli güllə ilə qətlə yetirilmişdir;

**57. 01 dekabr 1917-ci il:** Daşnak terror qrupu Zəngəzur qəzasının Kürdlər kəndinə basqın edir. Sayı qeydə alınmayan qətliam törədirlər. Kənd tamamilə dağıdılır;

**58. 05 dekabr 1917-ci il:** Daşnak terrorçuları Zəngəzur qəzasının Ərəfsə kəndinə soxulurlar. Altı nəfər dinc sakin öldürülür, əhalinin əmlakını talan edirlər;

**59. 08 dekabr 1917-ci il:** Daşnak terrorçuları Zəngəzurun İrəmis kəndinə basqın edirlər. Səkkiz nəfər dinc sakin qətlə yetirilir. Qalan əhali kənddən didərgin salınır;

**60. 11 dekabr 1917-ci il:** Daşnak terrorçuları Zəngəzurun Pöhrəli kəndinə basqın edirlər. Doqquz nəfər qətlə yetirilir, kənd oda qalanır;

**61. 14 dekabr 1917-ci il:** Daşnak terror qrupu Zəngəzurun Dulus kəndinə basqın etmiş, sayı qeydə alınmayan qətllər törətmişdir;

**62. 17 dekabr 1917-ci il:** Daşnak terror qrupu Zəngəzur qəzasının Bəhrili kəndini dağıdırlar, doqquz nəfər dinc sakini qətlə yetirirlər;

**63. 29 dekabr 1917-ci il:** Daşnak Yaponun başçılıq etdiyi birləşmiş terror qrupları Dərələyəzin Zeytə, Qabaxlı, Qurdqulax və Yengicə camaatının qorunmaq üçün yığıldıqları Əmağu kəndinə basqın edirlər. İki min Azərbaycan türkünü qətlə yetirirlər. Daha doğrusu, əliyalın camaatı kəndin aşağı başındakı Arpa qayasından diri-diri uçuruma yuvarlamışlar;

**64. 31 dekabr 1917-ci il:** Daşnak terror qrupu Vedibasarın Qaraxaç kəndinə basqın edir. Barışıq adıyla kənd camaatını bir yerə yığıb amansız qətliam hadisəsi törədirlər. Əhalinin bir qismini böyük bir dama yığıb, od vurub yandırır, qalan qismini isə qılıncdan keçirirlər. Beləliklə, 500 nəfər dinc, əliyalın Azərbaycan türkünü məhv edirlər;

**65. 06 yanvar 1918-ci il:** Daşnak terrorçuları Zəngəzur qəzasının Qarakilsə kəndində türk qətliamı törədirlər. 165 dinc sakini amansızlıqla qətlə yetirirlər;

**66. 10 yanvar 1918-ci il:** Daşnak terror qrupları Zəngəzurun Mülk kəndinə basqın etmişlər. Kənd tamamilə yerlə yeksan edilmiş, 150 nəfər dinc sakin qətlə yetirilmişdir;

**67. 11 yanvar 1918-ci il:** Daşnak terror qrupları Zəngəzurun Qarakilsə kəndinə təkrar basqın etmişlər. 49 nəfər dinc sakini qətlə yetirmiş, kəndi canlı aləmdən təcrid etmişlər;

**68. 13 yanvar 1918-ci il:** Daşnak terror qrupu Zəngəzur qəzasının Pulkənd yaşayış məntəqəsinə basqın edir, 19 nəfər dinc sakini öldürür, əhalinin əmlakını talan edirlər;

**69. 17 yanvar 1918-ci il:** Naxçıvanın Əznaburd kəndində yuva qurmuş daşnak terrorçuları azərbaycanlıların evlərinə hücum etmiş, 22 nəfər dinc, əliyalın Azərbaycan türkünü qətlə yetirmişlər;

**70. 25 yanvar 1918-ci il:** Mülkədərəli Avşar və Cilanlı Markarın başçılıq etdiyi daşnak terror qrupu Cəbrayıl qəzasının Eyvatlı kəndinə basqın etmişdi. Evlər

talan edilmiş, mal-qaranı sürüb aparmışlar. Girov götürdükləri kənd sakini Hüseyn Allahverdi oğlunu Xələf dağının gündoğan üzündəki daşarmud ağacına sarıyıb bədənindən nişangah kimi istifadə edərək qətlə yetirmişlər;

**71. 08 mart 1918-ci il:** Daşnak terror qrupu Naxçıvanın Nehrəm kəndinə basqın edir, üç nəfər dinc, əliyalın kənd sakini qətlə yetirilir;

**72. 13 mart 1918-ci il:** Daşnak terror qrupu Naxçıvan şəhərinin Zaviyə məhəlləsinə basqın etmiş, sayı qeydə alınmayan qətllər törətmişlər;

**73. 16 mart 1918-ci il:** Daşnak terrorçuları Naxçıvanda atışmanı davam etdirmişlər. İki qadın, bir kişini qətlə yetirmişlər;

**74. 22 mart 1918-ci il:** Daşnak terror qrupu Ərəş qəzasının Ağdam-Qəbələ yolunun Ağtala hissəsində yolçulara həmlə etmiş, yolçuları bir nəfər kimi qətlə yetirmişlər. Sonra isə dərilərindən zoğ açaraq cəsədlərini ağaclardan asmışlar;

**75. 17-28 mart 1918-ci il:** Qaniçən Dronun başçılıq etdiyi daşnak terror dəstələri İrəvan quberniyasının 24 azərbaycanlılar yaşayan kəndini yerlə yeksan etmişlər. Sayı qeydə alınmayan qətliamlar törətmişlər;

**76. 30 mart - 01 aprel 1918-ci il:** Bolşevik-daşnak qaragüruhunun rəhbərləri Şaumyanın, Avakyanın, Saakyanın, Korqanyanın və Petrovun rəhbərliyi altında daşnak terrorçuları və onların bolşevik əlaltıları Bakıda qətliam törətmişlər. Üç gün ərzində Bakı və onun ətraf kəndlərində 30 minə yaxın Azərbaycan türkü qətlə yetirilmişdir. Məşhur «İsmailiyyə» binası T.Əmiryanın rəhbərlik etdiyi daşnak terror qrupu tərəfindən yandırılmış, Təzəpir məscidinə top atılmışdır. Türklərə məxsus mətbəələr, mətbu redaksiyalar, teatr binaları, məktəb və xəstəxanalar dağıdılmış və yandırılmışdır;

**77. 31 mart 1918-ci il:** Qatı daşnak, sonralar SSRİ-nin dövlət xadimlərindən biri olmuş A.Mikoyanın rəhbərlik etdiyi «Qırmızı qvardiya» adlı daşnak terror qrupu Bakının İçəri şəhərində yerləşən xəstəxanalara od vurub yandırmışdır. İki minədək xəstə yandırılaraq məhv edilmişdir. Qaçqınları isə güllələbaran etmişlər;

**78. 01 aprel 1918-ci il:** Daşnak terrorçuları Ərəş qəzasının Sarıhacalılı kəndində tarladan evlərinə qayıdan üç qadını oğurlayıb aparmışlar. Sonradan həmin qadınların döşləri kəsilmiş halda meyitləri tapılmışdı;

**79. 03 aprel 1918-ci il:** Daşnak terrorçuları Ərəşin Bağır dərəsində ələ keçirdikləri beş azərbaycan türkünün bədənlərini süngü ilə dəlmə-deşik edə-edə qətlə yetirmişlər;

**80. 01-10 aprel 1918-ci il:** Daşnak Stepan Lalayanın və T.Əmiryanın rəhbərlik etdikləri daşnak terror qrupları Şamaxı şəhərində qətliam törətmişlər. Belə ki, şəhər məscidinin baş axundu Hacı Molla Ələkbərin gözlərini çıxararaq və ayrı-ayrı bədən üzvlərini kəsməklə qətlə yetirmişlər. Cümə məscidinə yığılmış yüzlərlə insanı diri-diri yandırmışlar. Şamaxının tanınmış ziyalısı Əlizadənin başını kəsərək öz evində qətlə yetirmişlər. 1910-1917-ci illərdə Lahıc məktəbində

müəllimlik etmiş vətənpərvər, millətsevər ziyalı Bədəl bəy Yolçuyevi isə dar ağacından asmışlar.

**Qeyd:** Ümumiyyətlə, 1918-ci ilin mart-aprel aylarında Şamaxı qəzasının 58 kəndi dağıdılmış, şəhər də daxil olmaqla həmin qəzada 13 min Azərbaycan türkü qətlə yetirilmişdir;

**81. 11 aprel 1918-ci il:** Naxçıvanın Qaraxanbəyi kəndində yuva qurmuş daşnak terror qrupları ətraf kəndlərə basqın edir. Naxçıvan şəhərində iki nəfər qətlə yetirilir. Şəhər ətrafından dörd nəfər girov götürülür. Azərbaycanlılar yaşayan qonşu kəndə basqın edirlər. 150 nəfər dinc, əliyalın sakin qətlə yetirilir. Qalanları yurd-yuvalarından didərgin salınır;

**82. 14 aprel 1918-ci il:** Polkovnik Avetisovun başçılıq etdiyi daşnak terrorçuları Lənkəranda dörd min dinc, əliyalın əhalini qılıncdan keçirmişlər;

**83. 15 aprel 1918-ci il:** Daşnak terror qrupu Ərəşin Çomaqlı stansiyası yaxınlığında araba karvanına həmlə etmiş, 21 arabaçını qətlə yetirmiş, cəsədlərin gözlərini süngü ilə oymuşlar;

**84. 20 aprel 1918-ci il:** Daşnak terrorçuları Ərəşin Ərəbki kəndinə basqın etmişlər. Səkkiz dinc sakini qətlə yetirmiş, cəsədlərin gözlərini süngü ilə çıxarmışlar;

**85. 21 aprel 1918-ci il:** Daşnak muzdlusu polkovnik İllarionoviçin rəhbərlik etdiyi daşnak terror qrupu Salyanda 12 yaşayış məntəqəsini dağıtmış, 2000 dinc sakini qətlə yetirmişdir;

**86. 23 aprel 1918-ci il:** Naxçıvan qəzasının Qaraxanbəyli kəndində yuva qurmuş daşnak terrorçuları yaxın kəndlərin azərbaycanlılarına hücum edirlər. Üç nəfər dinc sakin qətlə yetirilir;

**87. 24 aprel 1918-ci il:** Daşnak terror qrupu Zəngəzur qəzasının Arıqlı kəndinə soxulmuş, 25 dinc sakini qətlə yetirmiş, əhalinin əmlakını qarət etmişlər;

**88. 24 aprel 1918-ci il:** Daşnak terrorçuları Naxçıvan qəzasının Xoşlu və Nehrəm kəndlərinə basqın edirlər. İki nəfər dinc sakini qətlə yetirir, bir nəfəri isə girov götürürlər;

**89. 25 aprel 1918-ci il:** Erməni daşnak terrorçuları Zəngəzurun Dəstəyirt kəndinə basqın edirlər. Sayı qeydə alınmayan qətllər törədirlər;

**90. 25 aprel 1918-ci il:** Erməni daşnak terrorçuları Ərəşin Savalan kəndinə basqın etmişlər. Yeddi nəfər atəşlə qətlə yetirilmiş, kənddən qaçmağa macal tapmayan qadın və uşaqların boğazını kəsərək öldürmüşlər;

**91. 29 aprel 1918-ci il:** Daşnak terror birləşməsi Gümrüdən Ahılqalaya qaçqın daşıyan 500 arabalıq karvana qəflətən basqın etmişlər. 3000 qadın, kişi, qoca və uşağın hamısı azğın terrorçular tərəfindən qətlə yetirilmişdir;

**92. 30 aprel 1918-ci il:** Daşnak terror qrupu Zəngəzur qəzasının Arakilis kəndinə basqın edir. 25 nəfər dinc, əliyalın Azərbaycan türkü qətlə yetirilir;

**93. 30 aprel - 20 may 1918-ci il:** Daşnakların qondarma generalı Hamazaspın, Muradyanın və Venunsın rəhbərlik etdiyi daşnaklardan ibarət terror

qrupları Quba qəzasında 122 kəndi yandırıb dağıtmış, üç mərhələdə kütləvi qırğınlar törətmişlər. Qubada 16 min Azərbaycan türkü, ləzgilər və o cümlədən 3000 yəhudi millətinin nümayəndələrini al qana boyanmışlar. Ətraf kəndlərlə birlikdə isə 19 min dinc, əliyalın qəza sakinləri məhv edilmişdir. Uşaqların gözlərindən muncuq zənciri - təsbehlər düzəldərək xüsusi qəddarlıqlar etmişlər. 10 qız daşnaklar tərəfindən zorlanmış, sonra isə doğranmışdır;

**94. 01 may 1918-ci il:** Daşnak terror qrupu Şörəyel mahalının Şiştəpə və Düzkənd obalarına basqın edərək uşaq və qadın olmaqla 60 nəfər dinc sakini qətlə yetirmişdir;

**95. 01 may 1918-ci il:** Daşnak terror birləşməsi Ərəşin Axşam və Dzaxlı kəndlərinə basqın etmişdir. Axşam kəndində doqquz qadın və on azyaşlı uşağı qətlə yetirmişlər. Dzaxlı kənd sakininin bədəninə 17 süngü yarası vurmuşlar;

**96. 02 may 1918-ci il:** Daşnak generalı Sulikovun başçılıq etdiyi terror qrupu zodlu (Göyçə mahalı) Səməd ağanı qətlə yetirir;

**97. 04 may 1918-ci il:** Daşnak terrorçuları Naxçıvan qəzasının Bənənyar və Qızılca kəndlərinə basqın edərək birinci kənddə bir, ikincidə isə iki nəfər Azərbaycan türkünü qətlə yetirmişlər;

**98. 07 may 1918-ci il:** Türk cəlladı Tayqulaq Andronikin daşnak dəstələri Naxçıvan qəzasının Yaycı kəndində qətliam törətmişlər. Əhalini qətlə yetirməklə, Araz çayında batırmaqla 2500 əliyalın, dinc Azərbaycan türkünü məhv etmişlər;

**99. 11 may 1918-ci il:** Daşnak terrorçuları Ağdam-Qəbələ yolunun Ağtala dərəsində karvana basqın etmişlər. 20 nəfər arabaçı qətlə yetirilmişdir;

**100. 19 may 1918-ci il:** Daşnak terrorçuları Naxçıvanın Badamlı kəndinə basqın edir, üç nəfər Azərbaycan türkünü qətlə yetirir, 18 baş qaramalı sürüb aparırlar;

**101. 21 may 1918-ci il:** Daşnak terror qrupları Naxçıvan qəzasının Dərəzəmin və Noraşen kəndlərinə basqın edir, altı kişini və bir qadını girov qismində aparırlar;

**102. 24 may 1918-ci il:** Daşnak terrorçuları Naxçıvanın ətraf kəndlərinə basqınlar edir, iki nəfəri öldürür, bir qadın və üç kişini yaralayırlar. 100 baş mal-qara aparırlar;

**103. 25 may 1918-ci il:** Daşnak terror qruplaşması Zəngəzur qəzasının Şnif kəndinə basqın edib kəndi dağıdır. 95 nəfəri qətlə yetirirlər;

**104. 25 may 1918-ci il:** Daşnak terror qrupu Ərəş qəzasının Kürtə kəndinə basqın etmiş, 67 Azərbaycan türkünü qətlə yetirmişlər. Qadın və uşaqları bıçaqlayıb meyitlərini arxa tullamışlar. Bir çoxunu isə diri-diri divara mismarla vurub öldürmüşlər;

**105. 26 may 1918-ci il:** Daşnak terrorçuları Naxçıvan şəhərinin kənarında iki dinc sakini qətlə yetirirlər;

**106. 27 may 1918-ci il:** Naxçıvan qəzasının Qaraxanbəyli kəndində yuva qurmuş daşnak terror qruplaşmaları Nehrəm, Çeşməbasar və Qızılca kəndlərinə

basqın edirlər. Altı nəfər Azərbaycan türkü qətlə yetirilir, iki nəfər girov götürülür. Girovların hər ikisi sonradan qətlə yetirilir;

**107. 01-12 iyun 1918-ci il:** S.Lalayanın və T.Əmiryanın başçılıq etdiyi daşnak terror qrupları Hacıqabul-Kürdəmir, Göyçay ərazisinə soxulmuşlar. Yeddi min əliyalın, təhlükəsiz, dinc sakini qətlə yetirmişlər;

**108. 04 iyun 1918-ci il:** Daşnak terrorçuları Qubada təxribat törədərək doqquz nəfəri girov götürmüşlər. Girovlardan beş nəfərini xüsusi qəddarlıqla qətlə yetirmişlər;

**109. 08 iyun 1918-ci il:** Daşnak terror qrupları Zəngəzurun Şıxlı kəndinə basqın edirlər. 95 nəfər Azərbaycan türkünü qətlə yetirirlər. Kənd tamamilə dağıdılır;

**110. 10 iyun 1918-ci il:** Daşnak terrorçuları Zəngəzurun Zabazadur kəndinin müsəlmanlar yaşayan məhəlləsinə basqın edirlər. Sayı qeydə alınmayan tələfat törədir, əhalini yurd-yuvasından didərgin salırlar;

**111. 11 iyın 1918-ci il:** Gəncədə yuva salmış daşnak terror qrupu 15 nəfər süvarini, Milli Ordu əsgərini girov götürərək tikə-tikə doğramışlar;

**112. 19 iyun 1918-ci il:** Daşnak terrorçuları Ağdaş-Qəbələ yolunda Baxşəli adlı Azərbaycan türkünü ailəsi ilə birlikdə qətlə yetirmişlər. Bununla kifayətlənməyən terrorçular Baxşəlinin dərisindən zoğ açıb diri-diri ağacdan asaraq onu qətlə yetirmişlər;

**113. 11-20 iyun 1918-ci il:** Göyçay ərazisinə daxil olan daşnak terror qruplaşmaları Cəngi kəndində 5 mülkü yandırmış, burun-qulaqlarını kəsərək, kəllə sümüklərini əzərək 20 nəfəri; Qaravəlli kəndində 30 evi yandırıb 2 nəfəri; Qarabucaq kəndində 121 evə od vurub 7 nəfəri; Ərəb-Mehdibəy kəndində 84 mülkü yandırıb 83 nəfəri qəddarcasına qətlə yetirmişlər. Mustafalı, Sadalı kəndlərini talan etmişlər;

**114. 20 iyun 1918-ci il:** Nuxa yolunda daşnak terrorçuları biçindən qayıdan 23 nəfəri qətlə yetirmişlər;

**115. 21 iyun 1918-ci il:** Erməni daşnak terror birləşməsi Nuxa qəzasının Ağdam-Hacılı yolunda karvana basqın etmişlər. 60 nəfər qətlə yetirilmiş, 200 arabalıq əmlakları talan edilmişdir;

**116. 01 avqust 1918-ci il:** Daşnak terrorçuları tərəfindən Zəngəzur qəzasının Yaqublu kəndi yerlə yeksan edilmiş, 28 nəfər dinc sakin qətlə yetirilmişdir;

**117. 03 avqust 1918-ci il:** Daşnak terrorçuları Zəngəzur qəzasının Şəki kəndində qətliam törətmiş, 95 nəfər dinc sakini qətlə yetirmişlər. Körpə uşaqların iki parça etdikləri meyitlərini yolun ağzına düzmüşlər;

**118. 07 avqust 1918-ci il:** Daşnak terrorçuları Zəngəzur qəzasının Qızılcıq kəndinə soxulmuş, 27 nəfər dinc sakini amansız vəhşiliklə qətlə yetirmişlər;

**119. 12 avqust 1918-ci il:** Daşnak terror qrupu Zəngəzurun Ağudi kəndinin 96 nəfər dinc sakinini öldürmüş, əhalinin əmlakını qarət etmişlər. Qulaməli Şəkər

oğlunun ayağını topuqdan kəsmiş, sonra da qanı axa-axa onu yeriməyə məcbur etmişlər;

**120. 17 avqust 1918-ci il:** Daşnak terror qrupu Zəngəzur qəzasının Vağudi kəndində insan əxlaqına sığmayan heyvani qətliam törətmişlər. 400 nəfər kənd sakinini sığındıqları kənd məscidində diri-diri yandırmışlar. Qədimə Tahir qızının döşünü kəsərək körpə balasının ağzına tıxamışlar. Nisə Aman qızı, Sona Cəfərqulu qızı daxil olmaqla 15 qızı təhqir edərək qətlə yetirmişlər. Gülbəsti Qasım qızının isə döşlərini kəsib bel sümüyündən asmışlar;

**121. 17-30 avqust 1918-ci il:** Daşnak terror qrupları Üçmüəzzin, Sürməli, İrəvan, Yeni Bəyazid qəzalarında qətliamlar törətmişlər. 50 kənd talan edilib dağıdılmış, sayı qeydə alınmayan çoxsaylı qətl aktları yerinə yetirmişlər;

**Qeyd:** 31 avqust 1918-ci il tarixdə keçirilən Beynəlxalq məhkəmədə ermənilər il ərzində 400 min Azərbaycan türkünü, 120 min gürcünü, 22 min ləzgini qətlə yetirdiklərini boyunlarına almışlar;

**122. 1914-1918-ci illər:** Tayqulaq Andronikin komadan olduğu daşnak terror birləşmələri Güney Azərbaycanının Urmiya, Salmas, Xoy, Dilman, Maku, Həmədan və qismən də Təbriz şəhərlərində və ətraf kəndlərdə türk qətliamları törətmişlər. Təkcə Xoy şəhərində 30 min Azərbaycan türkünü qətlə yetirmişlər. Urmiya gölü ilə Van gölü arasındakı bütün yaşayış məntəqələrini yerlə yeksan etmişlər. Oda qalamışlar. Bölgəni xarabazarlığa çevirmişlər. Kütləvi qətliamlarda təqribən 150 minə yaxın Azərbaycan türkünü qətlə yetirmişlər;

**123. 03 sentyabr 1918-ci il:** Daşnak terrorçuları Zəngəzur qəzasının Sisian kəndinin 60 nəfər dinc sakinini türk olduqlarına görə qətlə yetirmişlər;

**124. 12 sentyabr 1918-ci il:** Qatı daşnak terrorçusu Tayqulaq Andronikin rəhbərliyi altında təpədən dırnağadək silahlanmış daşnak terror birləşmələri Zəngəzurun Rut, Dərəbas, Ərikli, Şükür, Məlikli, İrlik, Pəhlili, Xotanan kəndlərinə basqın etmişlər. Kəndlər tamamilə dağıdılmış və yandırılıb yerlə yeksan edilmişdir. 500 kişi, qadın, uşaq amansızlıqla qətlə yetirilmişdir;

**125. 19 sentyabr 1918-ci il:** Daşnak terror qrupu Zəngəzurun Bağırbəyli kəndinə basqın edir. Kənd tamamilə dağıdılır, ələ keçirdikləri yeddi nəfər dinc, əliyalın sakini bir evə doldurub diri-diri yandırırlar;

**126. 23 sentyabr 1918-ci il:** Andronikin başçılıq etdiyi daşnak terror birləşməsi Zəngəzurun Tat kəndinə soxulmuşdur. Daşnaklar burada ən dəhşətli vəhşiliklərindən birinə imza atmışlar. Əhalinin bir hissəsini böyük kahalara dolduraraq ağzında gərmədən ocaqlar çatmışlar. Tüstüdə boğub, odda yandırmışlar. Girov götürdüklərinin qalan hissəsini isə patrona qənaət etmək məqsədi ilə daha vəhşi üsullara əl atmaqla məhv etmişlər. Adamların başlarını daşların üstə qoyaraq gürzlərlə əzmişlər. Cəsədlərini isə Zabıx çayına atmışlar. Qadın və qızların saçlarını kəsərək özlərinə çatı toxutmuşlar. Sonra isə onlara ağlasığmaz işgəncələr verərək çılpaq halda həmin çatılar vasitəsilə ağaclardan

asmışlar. Ətraf kəndlərdə vahimə yaratmaq üçün isə 70 uşağın qarnına süngü soxaraq keçdikləri ərazilərdə nişan daşları sayaq yol kənarlarına düzmüşlər;

**127. 28 sentyabr 1918-ci il:** Zəngəzurun Dornu kəndində məskən salmış gəlmə ermənilərin «ağsaqqalları» təhlükəsizliklərini təmin etmək adıyla azərbaycanlıları aldadaraq kənddən kənara çıxarmış, daşnak terror qrupunun mühasirəsinə salmışlar. Daşnaklar Dornunun azərbaycanlı əhalisini böyükdən kiçiyə qılıncdan keçirmişlər. Sayı qeydə alınmayan türk qətliamı törətmişlər;

**128. 24 noyabr 1918-ci il:** Daşnak terror qrupu Yeni Bəyazid qəzasının Toxluca kəndini bombalayıb dağıdırlar. Sağ qalan kənd əhalisi yurd-yuvasını biryolluq tərk edir. Ələ keçirdikləri kənd sakini İbrahim Hüseyn oğlunun gözlərini çıxarıb buraxırlar;

**129. 26 noyabr 1918-ci il:** Daşnak terror qrupları Lehvaz kəndində 70, Teybədə 75, Mülkdə 30, Güldə 10, Bənövşənuşda 5, Tağalifdə 25, I Vartanazurda 100, II Vartanazurda 65 ev dağıtmış, 200 nəfər Azərbaycan türkünü qətlə yetirmişlər. Lehvaz kəndinin sakini Kərbəlayi Mehdinin başını kəsib yolun ortasında iri bir daşın üstə qoymuşlar; Lök kəndində qaçıb canlarını xilas edə bilməyən qocalar, qadınlar və uşaqları güllələyib dərədən axan çaya tökmüşlər;

**130. 01 dekabr 1918-ci il:** Polkovnik Doluxanovun başçılıq etdiyi daşnak terror qrupu Vedibasarın Şahablı kəndinə basqın etmişdi. Bütün kişiləri qılıncdan keçirmiş, uşaqları təndirə atmışlar. Səkkiz seçmə qadını girov götürmüşlər;

**131. 02 dekabr 1918-ci il:** Polkovnik Doluxanovun rəhbərlik etdiyi, Van və Sasun ermənilərindən təşkil olunmuş daşnak terror birləşmələri Qaraxaç, Qadılı, Şidli, Xalisə, Avşar, Cadqıran, Kiçik Vedi kəndlərinə basqın etmişlər. On kənddə sayı qeydə alınmayan qətliamlar törətmişlər. 300 qadını əsir götürmüşlər;

**132. 02 dekabr 1918-ci il:** Cavanşir qəzasının Dovşanlı kəndində məskən salmış daşnak terrorçuları kənddə yaşayan azərbaycanlıların evlərini mühasirəyə almış, onları tərk-silah etmişlər. Üç nəfəri isə qətlə yetirmişlər;

**133. 02 dekabr 1918-ci il:** Mülkədərə kəndində məskən salmış daşnak terrorçuları Cəbrayıl qəzasının Məzrə, Məlikli, Tatar kəndlərinə basqın etmişlər. Məzrə kəndində altı nəfər qətlə yetirilmiş, Məlikli, Tatar kəndlərində iki qadın ağır güllə yarası almışdı. Hər üç kənd talan edilmişdir;

**134. 02 dekabr 1918-ci il:** Daşnak terrorçuları Cəbrayıl qəzasının Cilan erməni kəndinə diləyə gəlmiş Hüseyn Allahverdi oğlunu qətlə yetirirlər;

**135. 03 dekabr 1918-ci il:** Daşnak terrorçuları Cəbrayıl qəzasının Haxullu kəndinə basqın edirlər. Kənd sakinlərindən iki kişi, üç qadın, bir uşaq qətlə yetirilir;

**136. 03 dekabr 1918-ci il:** Daşnak terrorçuları Cəbrayıl qəzasının Hoğa kəndinə basqın etmişlər. Azğınlar Əsəd ağa Cavanşir oğlunu, qızı İradə Bəyimi, qardaşı qızı Fatimə Bəyimi, ev qulluqçusu İncə İbad qızını, nökərləri Allahverdi Əziz oğlunu, İsa Abış oğlunu, Vəli Kəlbəlayi Ələsgər oğlunu xəncərlə doğramışlar.

Sonra isə əmlakını qarət edib evinə od vurmuşlar. Əlavə olaraq kənddə üç nəfər dinc sakini qətlə yetirmişlər;

**137. 5 dekabr 1918-ci il:** Daşnak terror qrupu Vedinin Dəhnəz kəndinə basqın etmişdir. Kənd yerlə yeksan edilmiş, 150 nəfər dinc sakin amansızlıqla qətlə yetirilmişdir;

**138. 11 dekabr 1918-ci il:** Daşnak terror qrupu Şuşa yaxınlığından keçən poçt yolunu kəsir. Poçtu dağıdır, soyğunçuluq edir, azərbaycanlıları qətlə yetirirlər;

**139. 14 dekabr 1918-ci il:** Daşnak terrorçuları Zəngəzurun Qaladərəsi və ətrafındakı azərbaycanlılar yaşayan digər kəndlərə basqın edirlər. Kəndin azərbaycanlı əhalisini bütövlükdə qətlə yetirirlər;

**140. 18 dekabr 1918-ci il:** Daşnak terror birləşməsi Cəbrayıl qəzasının Sirik kəndinə soxulub əliyalın, dinc əhalini güllələbaran etmişdir. Daşnaklar 11 kişi, 10 qadın, 14 uşaq qətlə yetirmiş, evlərə od vurub yandırmışlar.

**Qeyd:** Ümumiyyətlə, 1918-ci ilin sentyabrından 1919-cu ilin sentyabr ayınadək daşnak terror qrupları Qarabağın Şuşa, Cəbrayıl, Cavanşir qəzalarında 150 türk kəndini dağıtmış, 13050 nəfər türkü qətlə yetirmişlər;

**141. 19 dekabr 1918-ci il:** Daşnak terrorçuları Zəngəzurun Nüvədi kəndinə basqın edərək qətliam törətmişlər. Yataq xəstəsi Əsəd bəy Abbasovun sinəsinə süngü sancmışlar. Kənddən çıxıb qaçmaq istəyən qadın və uşaqların ələ keçəninin başlarını kəsmişlər;

**142. 20 dekabr 1918-ci il:** Daşnak terrorçuları Zəngəzurun Qarçıvan kəndinə basqın edirlər. 100 nəfər Azərbaycan türkünü arvadlı, uşaqlı qətlə yetirmişlər;

**143. 20 dekabr 1918-ci il:** Daşnak terrorçuları Zəngəzurun Deştahad, Fərəcan kəndlərinə basqın etmişlər. Həmin kəndlərdə on beş nəfər dinc sakini qətlə yetirmişlər;

**144. 29 dekabr 1918-ci il:** Daşnak terrorçuları Zəngəzurun Qaraçimən və Xaştab kəndlərinə basqın etmişlər. Qaraçimən kəndində yeddi, Xaştab kəndində isə bir nəfər dinc sakin qətlə yetirilmişdir;

**145. 30 dekabr 1918-ci il:** Daşnak terrorçuları Pilimyanin və Nişanyanın başçılığı altında Basarkeçər və onun ətraf kəndlərinə basqın etmişlər. Həmin kəndlərdə sayı qeydə alınmayan qətllər törətmişlər, 1300 baş davarı sürüb aparmışlar;

**146. 30 dekabr 1918-ci il:** Daşnak terror qrupu Zəngəzurun Bollaraçür kəndinə basqın edir. Bir nəfər sakin qətlə yetirilir, iki nəfər isə güllə yarası alır;

**147. 31 dekabr 1918-ci il:** Qarakənddə məskən salmış daşnak terrorçuları Ağdam-Qaryagin telefon xəttini sıradan çıxarır, iki nəfər Azərbaycan türkünü qətlə yetirirlər;

**148. 31 dekabr 1918-ci il:** Daşnak terrorçuları Cavanşir qəzasının Qarapirim kəndinə basqın edirlər. Cəmşidbəy Vəlibəyovun 1350 baş qoyun sürüsünü və at ilxısını qarət edib aparırlar;

**149. 31 dekabr 1918-ci il:** Cavanşir qəzasının Dovşanlı kəndində məskən salmış daşnak terrorçuları kənddəki 135 azərbaycanlı evini mühasirəyə alaraq onları tərk-silah etmiş, bundan sonra mal-qaralarını və ev əşyalarını qarət etməyə başlamışlar. Ev-eşiyindən didərgin düşən qaçqınlar sonralar Boyəhmədli, Kəngərli, Tarnaut kəndlərinə sığınıb qalmışlar;

**150. 01 yanvar 1919-cu il:** Qarakənddə məskən salmış daşnak terror qrupu Ağdam-Qaryagin yolunda biçarə qaçqınlara basqın etmişdir. Sayı qeydə alınmayan qətliamlar törətmişlər;

**151. 03 yanvar 1919-cu il:** Daşnak terrorçuları Zəngəzurun Qatar kəndinə basqın etmişlər. Kənd əhalisini yurd-yuvasından didərgin salmışlar. Sayı qeydə alınmayan qətliam törətmişlər. Məşədi Qələndər kişini camaatın gözü qabağında üstünə neft töküb diri-diri yandırmışlar. Kərbəlayi Allahverdinin isə başını kəsərək qətlə yetirmişlər;

**152. 06 yanvar 1919-cu il:** Andronikin daşnak terror qrupu Zəngəzurun Rəzdərə, Əsgərli və Vəlili kəndlərinə basqın etmiş, kəndlər yerlə yeksan edilmiş, həmlədən qaçıb canını qurtara bilməyən əhali yaşından və cinsindən asılı olmayaraq bütünlüklə məhv edilmişdir;

**Qeyd:** Ümumiyyətlə, dekabr 1917-ci ildən 1918-ci ilin sentyabrınadək Tayqulaq Andronik, Dro, Nijde başda olmaqla daşnak terror qrupları tərəfindən Zəngəzurun 115 kəndi yerlə yeksan olunmuş, 2276 qadın, 2196 uşaq daxil olmaqla 10068 nəfər Azərbaycan türkü məhv edilmiş, sağ qalan əhali yurd-yuvasından didərgin salınmışdır;

**153. 08 yanvar 1919-cu il:** Daşnak terror qrupları Zəngəzur qəzasının Quşçulu, Hacılar, Ərkötü, Ağsallı, Sağarcalan, Açaquz, Oxçu kəndlərinə basqın etmişlər. Sayı qeydə alınmayan qətllər törətmişlər;

**154. 24 yanvar 1919-cu il:** Göyçə mahalının Çamırlı kəndinə basqın edən daşnak terrorçuları dörd kişinin başını, altı qadının döşlərini kəsərək on nəfər dinc sakini vəhşicəsinə qətlə yetirmişlər;

**155. 28 yanvar 1919-cu il:** Daşnak terror qrupu Zəngəzurun Zoğal kəndinə basqın edir. Terrorçular tərəfindən 15 Azərbaycan türkü qətlə yetirilir, kənd tamamilə dağıdılır;

**156. 30 yanvar 1919-cu il:** Daşnak terror birləşmələri Kəvər mahalının Bığlı, Əfəndi, Hacı, Muğan, Əyrivənd, Ağzıbir kəndlərinə soxulmuş, əhalini kəndlərdən didərgin salmışlar. Təqiblər nəticəsində əhali yayda belə başı qarla örtülü olan Ağmangan dağının yuxarılarında mühasirədə saxlanılmış, üç min nəfər dinc sakin donaraq məhv olmuşdur. Hücum zamanı ələ keçirdikləri Əfəndi kənd sakini İbrahim Hacıhüseyn oğlunun gözlərini çıxarmış, sonra da diri-diri yandırmışlar;

**157. 02 fevral 1919-cu il:** Daşnak terrorçuları Pilimyan və Hişanyanın başçılıq etdikləri daşnak dəstələri Göyçənin Qızıl Vəng, Subasan, Zağalı kəndlərini yandırıb dağıtmış, əhalisini bütövlükdə məhv etmişlər;

**158. 05 fevral 1919-cu il:** Göyçə mahalının Daşkənd oymağından olan el sənətkarı Aşıq Nəcəf daşnaklar tərəfindən girov götürülmüşdür. Onu 2 gün ac-susuz çalıb-oxumağa məcbur etmişlər. Sonra isə Aşıq Nəcəf Çaxırlı kəndi ilə Basarkeçər kəndləri arasındakı Kültəpə adlanan yerdə ağır işgəncə ilə qətlə yetirilmişdir. Belə ki, onun kürəyinə qaynar samovar bağlayaraq küləyin əks istiqamətində qaçmağa məcbur etmişlər;

**159. 05 fevral 1919-cu il:** Daşnak terror qrupu Göyçənin Şorça kəndinə basqın etmişlər. Kənddəki bütün kişilər qılıncdan keçirilmiş, uşaqları isə təndirlərə atmışlar. 8 seçmə qadını isə kənddən aparıb 20 gün saxlamışlar, şərəflərinə toxunduqdan sonra buraxmışlar;

**160. İlaxır çərşənbə 1919-cu il:** Polkovnik Hələbyanın başçılıq etdiyi daşnak terror qrupu Göyçə mahalının Şişqaya kəndində xüsusi qəddarlıq aktı törətmiş, 640 nəfər dinc, əliyalın kənd sakinini od çatıb ətrafında dövrə vurdurduqları tonqala atıb yandırmışlar;

**161. 13 aprel 1919-cu il:** Tayqulaq Andronikin başçılıq etdiyi daşnak terror qrupları Göyçə mahalının 22 kəndinə, İnəkdağ və ətraf kəndlərə basqın etmiş, əhalisini yurd-yuvasından didərgin salmışlar. Söyüdlü aşırımından Kəlbəcər üzə aşmağa can atan 400 ailə qara, çovğuna düşərək Sümüktökülən dərədə kütləvi şəkildə donvurmadan məhv olmuşlar;

**162. yanvar-dekabr 1919-cu il:** Daşnak terror qrupları Naxçıvan qəzasında kütləvi terror aktları törətmiş, 4000 nəfər əliyalın, dinc Azərbaycan türkünü qətlə yetirmişlər;

**163. 04 iyun 1919-cu il:** Daşnak terror qrupu Şuşa ətrafındakı Üçmıxlar kəndində yerləşən milli ordu əsgərlərindən ibarət bölməyə basqın etmiş, 3 nəfəri qətlə yetirmiş, 4 nəfəri isə yaralamışlar;

**164. 17 iyun 1919-cu il:** Daşnak Aşot Məlik Mosesyanın terrorçu dəstəsi Ordubad şəhərinə basqın edir. Şəhərdə yaşayan erməni daşnakları da onun dəstəsinə qoşularaq şəhərdə sayı qeydə alınmayan qətllər törədirlər;

**165. 19 iyun 1919-cu il:** Şuşanın Xanbağı kəndinə basqın edən daşnak terrorçuları iki nəfər günahsız Azərbaycan türkünü qətlə yetirmişlər;

**166. 4 iyul 1919-cu il:** Daşnak terrorçusu Sasenin başçılıq etdiyi quldur dəstələri Böyük Vediyə basqın edirlər. Sayı qeydə alınmayan çoxsaylı insan tələfatı törədirlər;

**167. 16 iyul 1919-cu il:** Daşnak terror qrupu böyük Vedi kəndinə ikinci dəfə basqın edir. Sayı qeydə alınmayan qətllər törədirlər;

**168. 25 iyul 1919-cu il:** Daşnak terrorçuları Gümrü şəhərində sayı qeydə alınmayan qətllər törədirlər;

**169. 29-30 iyul 1919-cu il:** Daşnak terror qrupları Gərnibasarın Xaştab, Ağbaşyamaclar, Qocansura, Hacı Qurbanlar, Atgöz, Dəhla, Qurqərqə kəndlərinə basqın etmişlər. Həmin kəndlərdə 300 ev dağıdılmış, 58 qadın və uşaq vəhşiliklə qətlə yetirilmişdir;

**170. 15 avqust 1919-cu il:** Daşnak terrorçuları Naxçıvan qəzasında üç kənd ailəsini məhv etmişlər;

**171. 28 avqust 1919-cu il:** Daşnak terrorçuları Vedibasarın Şahablı kəndində amansız türk qətliamı törətmişlər. Kənddə bütün kişiləri qırırlar, uşaqları təndirlərə atırlar. Qadınları qılıncdan keçirirlər. Namuslarına təcavüz etmək üçün gözəgəlimli səkkiz qadını isə özləri ilə aparırlar;

**172. 19 sentyabr 1919-cu il:** Daşnak terrorçuları Cəbrayıl qəzası ərazisində terror aktı törətmişlər. Üç çobanı öldürərək (birinin başını kəsmişlər) mal-qara sürüsünü çəkib aparmışlar;

**173. 20-25 noyabr 1919-cu il:** Daşnak terrorçusu Dronun rəhbərlik etdiyi nizami daşnak terror qrupları Sürməlidə 60, Zəngəzurda 40 kəndi yerlə yeksan etmişlər. Həmin kəndlərin sağ olan əhalisi isti ocaqlarından, dədə-baba yurdlarından didərgin salınmışlar;

**174. 05 dekabr 1919-cu il:** Daşnak terror qrupları Vedibasarın 10 kəndinə kütləvi şəkildə basqın etmişlər. Sayı qeydə alınmayan xeyli adam qətlə yetirilmiş, 100 qadın əsir aparılmışdır;

**175. 8 dekabr 1919-cu il:** Daşnak terror qrupu Cəbrayıl qəzasının Arış kəndinə basqın edir. Əhalini atəşə tutub qoyun sürülərini çəkib aparırlar;

**176. 19 dekabr 1919-cu il:** Daşnak terrorçuları daşnakların sərt təqiblərindən xilas olmaq üçün İrəvanda təşkil edilmiş «Müdafieyi-məzluman» qrupunun üzvü Hüseynağa Şahtaxtinskini qətlə yetirmişlər;

**177. 20 dekabr 1919-cu il:** Daşnak terror qrupu Zəngibasarın Kolanı kəndinə basqın edir. Sayı qeydə alınmayan qətl hadisəsi törədirlər. Kənd əhalisi yurd-yuvasından didərgin salınır;

**178. 21 dekabr 1919-cu il:** Daşnak terror qrupu Zəngibasarın Qarğabazar kəndinə basqın edirlər. Kənd tamamilə dağıdılır, evlər yerlə yeksan edilir. Sayı qeydə alınmayan qətllər törədirlər;

**179. 22 dekabr 1919-cu il:** Daşnak terror qrupları Uluxanlı kəndini top atəşinə tuturlar. Əhalinin bir qismi kənddə həlak olur. Qaçqın düşənlərin bir qismi yolda terrorçular tərəfindən güllələbaran edilərək qətlə yetirilir. Bir qismi isə Arazda boğulur. Bununla, erməni daşnak hökuməti tərəfindən Zəngibasar mahalında Azərbaycan türklərinin etnik təmizləmə əməliyyatına kütləvi şəkildə başlanılır;

**180. 25 dekabr 1919-cu il:** Daşnak terror qrupları Üçmüəzzin mahalının Əkərək kəndinə basqın edirlər. Səkkiz nəfər qətlə yetirilir. Beş nəfər güllə yarası alır. Kəndin əhalisi bütünlüklə yurd-yuvasından didərgin salınır;

**181. 01 yanvar 1920-ci il:** Daşnak terror qrupu Üçmüəzzin mahalının Əxis kəndinə basqın edir. Sayı qeydə alınmayan qətllər törədirlər. Kənd əhli yurd-yuvasından didərgin salınır;

**182. 03 yanvar 1920-ci il:** Daşnak terrorçuları Zəngəzurun Saldaş kəndinə həmlə edirlər. Bir nəfər Azərbaycan türkünü qətlə yetirirlər;

**183. 06 yanvar 1920-ci il:** Daşnak terror qruplaşması Dərələyəzin Bilək kəndinə basqın etmiş, 50 kişi, 50 qadın və 25 uşaq qətlə yetirilmişdir. Kənd tamamilə dağıdılmışdır;

**184. 06 yanvar 1920-ci il:** Daşnak terror qrupu Şörəyel mahalının Düzkəndinə basqın edir. 86 nəfər dinc sakin qətlə yetirilir;

**185. 16 yanvar 1920-ci il:** Daşnak terror birləşməsi Dərələyəzin Civə kəndini bombalamışlar. Kəndin 4 dinc sakini həlak olmuşdur;

**186. 18 yanvar 1920-ci il:** Daşnak terrorçuları Böyük Vedi-Dəvəli yolunu tutmuşlar. Sayı qeydə alınmayan qətllər törətmişlər;

**187. 20 yanvar 1920-ci il:** Daşnak terror birləşmələri Zəngəzur qəzasının Qaladərəsi - Xocahan arasında yerləşən azərbaycanlılar yaşayan kəndlərə kütləvi həmlələr təşkil edirlər. Evləri yandırır, soyğunçuluqla məşğul olurlar. Sayı qeydə alınmayan qətl hadisələri törədirlər. 3-cü sahənin bütün kəndlərini dağıdırlar;

**188. 22 yanvar 1920-ci il:** Daşnak terror qrupu Böyük Vediyə taxıl almağa gəlmiş Ordubad sakinlərinə basqın etmişlər. Üç nəfəri qətlə yetirmiş, taxıl yüklü bir at və 21 uzunqulağı qənimət kimi ələ keçirmişlər;

**189. 23 yanvar 1920-ci il:** Daşnak terror qrupu Dərələyəz mahalının Ərkəz kəndinə hücum etmiş, beş nəfəri qətlə yetirmiş, üç qadını girov götürmüşlər. 600 baş qoyunu qənimət kimi sürüb aparmışlar;

**190. 23 yanvar 1920-ci il:** Daşnak terrorçuları Şərur mahalının Kərimqulubəyməzə kəndinə həmlə etmişlər. İki nəfər qətlə yetirilmiş, üç nəfər isə güllə yarası almışdır;

**191. 24 yanvar 1920-ci il:** Daşnak terror qrupu Əştərək bölgəsinin Savan kəndini top atəşinə tutmuşdur. Həlak olanların sayı qeydə alınmamışdır. Kənd əhalisi yurd-yuvalarından didərgin düşmüşdür;

**192. 30 yanvar 1920-ci il:** Daşnak terrorçuları Uluxanlı dəmiryol stansiyasında azərbaycanlı qaçqınları daşıyan qatara hücum etmişlər. Bir nəfər qətlə yetirilmiş, 12 nəfər girov götürülmüş, 85 nəfər isə qarət olunmuşdur;

**193. 01 fevral 1920-ci il:** Daşnak terror qrupları Sörəyelin Carcur kəndinə basqın edirlər. 2150 nəfər dinc sakin qətlə yetirilir. Əsl qətliam törədilir;

**194. 06 fevral 1920-ci il:** Daşnak terror qrupları Gümrü şəhərində terror aktları törətmişlər. 500 nəfər Azərbaycan türkünü qətlə yetirmişlər;

**195. 06-07 fevral 1920-ci il:** Daşnak terrorçuları qəflətən Cəbrayıl qəzasının Qarğabazar kəndinə basqın edir, 26 uşaq, 34 qadın, 13 kişi olmaqla 73 Azərbaycan türkünü qətlə yetirirlər. 38 kişi, 15 qadın olmaqla 53 nəfəri girov götürürlər;

**196. 10 fevral 1920-ci il:** Daşnak terror birləşmələri Gəncə qəzasının 9-cu sahəsinə daxil olan Şişqaya Sadarağac və Hacı Qəriblər kəndlərinə basqın etmişlər. Kəndlərdə əhalinin çox hissəsi qətlə yetirilmiş, sağ qalanlar isə ev-eşiyindən didərgin düşmüşlər. Qaçqınlardan 30 nəfəri isə donvurmadan ölmüşdü;

**197. 24 fevral 1920-ci il:** Zaruşat tərəfdən hücuma keçən daşnak terror qruplaşmaları Düzkəndin Şurakəni kəndini tamamilə dağıtmışlar. Bütün kişiləri qılıncdan keçirmişlər;

**198. 22 mart 1920-ci il:** Daşnak terror qrupları dəfələrlə Şörəyel mahalının kəndlərinə basqınlar təşkil edirlər. 2000 azərbaycan türkünü qətlə yetirirlər;

**199. 22 mart 1920-ci il:** Novruz bayramı ərəfəsində 200 nəfərlik daşnak terror qruplaşması Şuşa şəhərinə yeridilir. Şuşada yaşayan ermənilər də onlara qoşulurlar. Həmin gün şəhərin azərbaycanlılar yaşayan hissəsinə basqın edirlər. Bayrama başı qarışan əhali xeyli itki verir;

**200. 23 mart 1920-ci il:** Daşnak terrorçuları qəflətən Xankəndindəki Azərbaycan ordu hissələrinə hücum edib şəxsi heyətdən üç nəfəri qətlə yetirmişlər;

**201. 05-06 aprel 1920-ci il:** Daşnak generalı Bağdasarovun rəhbərliyi altında daşnak terror birləşməsi Qazax mahalının Yaradulla, Qaraçan, Çaxmanlı kəndlərinə basqın etmişdir. Hər üç kənddə qətliam törətmişlər. Əhalinin çox hissəsini qırmışlar;

**202. 06 aprel 1920-ci il:** Daşnak terrorçuları Gümrü şəhərində qətliam törədirlər. 500 Azərbaycan türkünü qətlə yetirirlər;

**203. 27 aprel 1920-ci il:** Gecə AXC-nin hökumət başçısı olmuş Nəsibbəy Yusifbəyli daşnak terror muzdlusu tərəfindən qətlə yetirilmiş, cəsədi naməlum şəraitdə yox edilmişdir;

**204. may 1920-ci il:** Daşnak terror qruplaşmaları 28-ci atıcı diviziyasının əsgərlərinə qoşularaq Gəncədə sovet quruluşuna qarşı üsyan edən əhalini kütləvi şəkildə qətlə yetirirlər. 12 min insan qanı Gəncənin küçələrini al rəngə boyayır. Bu dəhşətli hadisədən qeyzə gələn əhali günü bu gün də may ayında toy şənliyi etmir;

**205. May-iyun 1920-ci il:** Daşnak terror qruplaşmaları Vedibasar mahalının Qaraxac, Heyranlı, Ağasıbəyli kəndlərində sayı qeydə alınmayan kütləvi terror aktları törətmiş, əhalini türk soyqırımına məruz qoymuşlar.

**Qeyd:** Ümumiyyətlə, fevral 1917 - noyabr 1920-ci illər ərzində Tayqulaq Andronik, Dro, Nijde kimi türkə qənim kəsilmiş daşnakların qaniçən generallarının başçılığı altında terror qrup və birləşmələri tərəfindən 1) İrəvan, Çuxursəd mahalının 199 kəndi dağıdılmış, 132 min qətlə yetirilmişdir; 2) Üçmüəzzin qəzasının 60 kəndi dağıdılmış, 35784 nəfər qətlə yetirilmişdir; 3) Yeni Bəyazid qəzasının 84 kəndi dağıdılmış, 75000 nəfər (15 min ailə) qətlə yetirilmişdir; 4) Göyçə mahalının 22 kəndi yerlə yeksan edilmiş, 22 min nəfər qətlə yetirilmişdir, 5) Sürməli mahalında 96 kənd dağıdılmış, 57254 Azərbaycan türkü qətlə yetirilmişdir. Beləliklə, İrəvan quberniyasındakı 1301 Azərbaycan kəndindən 959-u dağıdılmış, 322038 Azərbaycan türkü məhv edilmişdir;

**206. 12 may 1920-ci il:** Erməni şahidlərinin uydurma ifadələri əsasında bolşevik cildinə girmiş daşnak müstəntiqi M.Safixanyanın saxta ittihamları və təhriki ilə Gəncənin general-qubernatoru Xudadat bəy Rəfibəyli güllələnmiş, cəsədi dənizə atılmışdır;

**207. 15 may 1920-ci il:** Gümrü (Aleksandropol) şəhərində vilayətin qeyri-erməni əhalisini, xüsusilə rusları daşnak terror qruplarının qətliamlarından qorumaq üçün Rusiya hökumətinə müraciət etdiyinə görə rus milli şurasının sədri Rossler daşnak terrorçusu tərəfindən qətlə yetirilmişdir;

**208. 29 may 1920-ci il:** Bakının sabiq general-qubernatoru Murad Gəray oğlu ÇK-nin baş müstəntiqi, bolşevik cildinə girmiş daşnak Adamyan tərəfindən istintaqa cəlb edilmiş, günahı sübuta yetirilmədən həmin gün gecə saat $2^{00}$-da güllələnmişdir;

**209. 19 iyun 1920-ci il:** AXC-nin baş naziri Fətəli xan Xoyski Tiflis şəhərinin İrəvan meydanındakı teatr binasının yanında daşnak terrorçuları Aram Yerkayan və Musaq Qriqoryan tərəfindən qətlə yetirilmişdir;

**210. 2 iyul 1920-ci il:** Daşnak terror qrupları Zəngibasarda kütləvi terror aktları törətmişlər. 1500 nəfər dinc, əliyalın Azərbaycan türkünü qətlə yetirmişlər;

**211. 19 iyul 1920-ci il:** AXC-nin qurucularından biri Həsənbəy Ağayev Tiflis şəhərində daşnak terrorçusu tərəfindən qətlə yetirilmişdir;

**212. 02 sentyabr 1920-ci il:** Daşnak terror birləşmələrinin İrəvanda, Şərur-Dərələyəzdə törətdikləri terror aktlarından, qətliamlardan can qurtarıb Türkiyəyə qaçmaq istəyən bu bölgələrin 1500 nəfərədək qaçqın dəstəsi Arazın qolu sayılan gur axınlı Olta çayını keçmək istərkən sıralarından 650 nəfər çayda boğularaq tələf olmuşdur;

**213. 03 sentyabr 1920-ci il:** Daşnak terror qruplaşması Şörəyel mahalının Düzkəndinə təkrar basqın edir. 120 nəfər qətlə yetirilir;

**214. 15 noyabr 1920-ci il:** Daşnak terrorçuları İrəvan şəhərində sayı qeydə alınmayan türk qətlləri törədirlər;

**215. 15 dekabr 1920-ci il:** Daşnak terrorçuları Şörəyelin kəndlərində sayı qeydə alınmayan türk qətliamı törətmişlər;

**216. 19 dekabr 1920-ci il:** Daşnak terror birləşmələri Zəngəzurun Əliquluuşağı - Fərəcan cəbhə xətti boyunda azərbaycanlılar yaşayan kəndlərə kütləvi basqınlar edirlər. 26 kənd yerlə yeksan olur. Erməni-daşnak faşistlərinin vəhşiliklərinin həddi-hüdudu olmur. Sayı qeydə alınmayan qətl hadisələri törədirlər, əhali yer-yurdundan didərgin düşür;

**217. 22 dekabr 1920-ci il:** Daşnak terror qrupları İrəvan şəhərində qətliamlar törətmiş, 192 nəfər Azərbaycan türkünü qətlə yetirmişlər;

**218. yanvar-dekabr 1920-ci il:** Daşnak terror qrup və birləşmələri il ərzində Naxçıvan qəzasında kütləvi terror aktları törətmiş, 11715 Azərbaycan türkünü qətlə yetirmişlər;

**219. 14 fevral 1921-ci il:** Konsert vermək üçün Ağdamdan ermənilər yaşayan Darnavaz kəndinə gedən altı nəfər aktyor yolda daşnak Ağacan Azriyanın başçılıq etdiyi terrorçular tərəfindən qətlə yetirilmişdi;

**220. 19 fevral 1921-ci il:** Daşnak terrorçuları Zəngibasarda terror aktları törətmişlər. 18 nəfər Azərbaycan türkünü qətlə yetirmişlər;

**221. 08 mart 1921-ci il:** Hadrut rayonunun Domu kəndindən olan, qatı türk düşməni, Qaragen Nijdenin ordusunda xidmət etmiş daşnak Tevon Cavadov (Stepanyan) beynəlmiləlçiliyi təbliğ etdiyinə görə soydaşı Şimavon Davityanı şaqqalayıb qətlə yetirmişdi. Bununla ürəyi soyumayan qatı daşnak sonra mərhumun anasını onun parçalanmış meyiti ətrafında əl çalıb oynamağa məcbur etmişdir;

**222. 18 mart 1921-ci il:** AXC-nin DİN işləmiş Behbud ağa Cavanşir İstanbul şəhərində, «Pera Palas» oteli qarşısında daşnak terrorçusu Misaq Terlaqyan tərəfindən arxadan atılan atəşlə qətlə yetirilmişdir;

**223. 19 mart 1921-ci il:** Daşnak terrorçuları Naxçıvan şəhərində 12 nəfər Azərbaycan türkünü qətlə yetirmişlər;

**224. 22 mart 1921-ci il:** Daşnak terrorçuları Qərbi Azərbaycanın Arpaçay qəsəbəsində (indiki Axuryan) terror aktı törətmişlər. Qəsəbənin 148 nəfər dinc türk sakinini məhv etmişlər;

**225. yanvar-dekabr 1921-ci il:** Daşnak terror qrupları Qərbi Azərbaycanın Baş Qarakilsə bölgəsində qətliamlar törətmişlər. 6000 nəfər Azərbaycan türkünü qətlə yetirmişlər;

**226. 25 aprel 1922-ci il:** Daşnak terrorçusu, əslən Qarabağdan olan Zaren Məlik Şahnazaryan Tiflis şəhərində Camal paşanı və onun bir köməkçisini qətlə yetirmişdir;

**227. 22 avqust 1922-ci il:** Naxçıvanda erməni şahidlərinin yalan ifadələri əsasında 1919-cu ilin baharında AXC-nin əleyhinə qiyam qaldıran daşnak generalı Dro Kananyanın və Dəli Qazarın terror qruplarını darmadağın edilməsi əməliyyatına rəhbərlik etmiş general-mayor Həbib bəy Yusif oğlu Səlimov bolşevik-daşnak qaragüruhçuları tərəfindən güllələnmişdir;

**228. 1920-1930-cu illər:** Bolşevik cildinə girmiş daşnak bolşevikləri Qərbi Azərbaycanın aborigen əhalisi olan Azərbaycan türkündən nə az, nə çox, 100000 nəfəri repressiyaya məruz qoymuşlar;

**229. 19 mart 1925-ci il:** Daşnak-bolşevik terrorunun qurbanlarından biri də Nəriman Nərimanov olmuşdur. Artıq bu gün danılmaz faktdır ki, antitürk siyasətinin daşıyıcılarından biri, erməni yeznəsi Orcenikidzenin milliyyətcə erməni olan sürücüsü tərəfindən nahar süfrəsində çayına zəhər qatılan Nəriman Nərimanov qətlə yetirilmişdir;

**230. 1937-1938-ci illər:** Bolşevik maskası taxmış daşnak A.Mikoyanın dezinformasiyası nəticəsində guya Qərbi Azərbaycan türkləri Türkiyə Respublikasına köçmək istəyirlər - Stalin irticası tərəfindən Türkiyə ilə həmsərhəd Vedibasar, Zəngibasar, Gərnibasar, Qəmərli, Şörəyel, Ağbaba və s. mahallardan 50000 Azərbaycan türkü Ermənistan SSR-dən Qazaxıstana sürgün edilmişdir;

**231. 23 dekabr 1947-ci il:** Qondarma daşnak generalı Hamazaspın qərargah rəisi olmuş, qatı daşnak, analoqu olmayan hiyləgər A.Mikoyanın təşəbbüsü ilə SSRİ Nazirlər Soveti «Ermənistan SSR-dən kolxozçuların və başqa

azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında» qərar qəbul etmişdir. Qərara əsasən 1948-ci ildə 10 min, 1949-cu ildə 40 min, 1950-ci ildə isə 50 min azərbaycanlının doğma yurdlarından köçürülməsi nəzərdə tutulmuşdur. Beləliklə, bu ad altında azərbaycanlıların Qərbi Azərbaycandan deportasiya edilməsinin əsası qoyulmuşdur;

**232. 1948-1953-cü illər:** Bolşevik-daşnak qaragüruhunun hökmdar olduğu SSRİ hökuməti, daha doğrusu, Stalin-Mikoyan-Tevosyan üçlüyü tərəfindən xaricdən gələn ermənilərin Ermənistanda yerləşdirilməsi adı altında Ermənistan SSR vətəndaşı olan 150 min Qərbi Azərbaycan türkünün insan hüquqları cinayətkarcasına tapdanmışdır. Həmin insanlar milli mənsubiyyətlərinə görə deportasiya olunmuş, erməni-daşnak faşizminin növbəti etnik təmizləmə siyasətinin günahsız qurbanlarına çevrilmişlər. Azərbaycan SSR-in Kür-Araz ovalığına - heç bir yaşayış şəraiti yaradılmayan ərazilərə köçürülən binəsiblərin 1/5-i aclıq və xəstəlik nəticəsində tələf olmuşdur;

**233. 24 aprel 1965-ci il:** Şuşa şəhərində Azərbaycan televiziyasının ötürücü qülləsini partlatmağa cəhd göstərən daşnak terrorçusu cinayət başında yaxalanmışdır;

**234. 03 iyul 1967-ci il:** Daşnak terrorçuları Xankəndi (Stepanakert) şəhərinin mərkəzi parkında, vilayət DİI-nin 20-30 metrliyində postsovet məkanında analoqu olmayan terror aktı törətmişlər. Erməni məkri ilə şərləyib tutdurduqları Xocavənd (Martuni) rayonunun Qaradağlı kənd sakinləri Ərşad və qohumları Ələmşadla Zöhrabın cinayəti tam sübuta yetirilməmişdir. Məhkəmə qərarı ilə saxta ittihamlar əsasında Ərşad müəllimə 11 il iş kəsilmiş, lakin Ələmşadla Zöhrab bəraət almışlar. Məhkumlar məhkəmə zalından çıxarılan zaman terrorçular onların üstünə hücum etmişlər. Çoxsaylı bıçaq zərbələri ilə Ərşadın başını kəsmiş, digər iki qohumunu qətlə yetirmişlər. Bununla kifayətlənməyən terrorçular hər üç cəsədin üstünə benzin tökərək od vurub yandırmışlar;

**235. 28 avqust 1969-cu il:** Daşnak terrorçusu Xankəndi şəhərində Azərbaycan SSR Maarif Nazirliyi tərəfindən keçirilən müəllimlərin zona müşavirəsi iştirakçılarının qaldığı «Qarabağ» otelinin qarşısında əl qumbarası partladır. Üç azərbaycanlı müəllim ağır qəlpə yarası alır. Qumbaranı atan məlum olsa da, kimsə haqqında cinayət işi qaldırılmır;

**236. 7 iyun 1968-ci il:** Daşnak terrorçuları İrəvan şəhərinin Kiyevyan küçəsindəki 1$^{b}$ binasının 15-ci mənzilində yaşayan, erməni saxtakarlığını ifşa edən tarix bilicisi İsrafil Məmmədovu məhv etmək məqsədi ilə partlayış törətmişlər. Azərbaycan türkü İ.Məmmədov və ailəsi xoş təsadüf nəticəsində sağ qalmışlar;

**237. 1970-ci illər:** Bakı şəhərinin memarlıq incilərindən olan Azərbaycan Dövlət Opera və Balet Teatrının binası daşnak terrorçusu tərəfindən yandırılmışdır;

**238. 1970-ci illər:** «Daşnak yolu çıxılmaz yoldur» - dediklərinə və tədbirlərinə qatılmadıqlarına görə daşnak terrorçuları Xocavənd (Martuni) rayonunun Çartaz kəndindəki «Kommunizm» kolxozunun sədri S.Adamyanın

evinə basqın etmiş, gecəyarı onu evində qətlə yetirmişlər. Xocavənd (Hadrut) rayonunun Dolanlar kəndindəki S.Şaumyan adına kolxozun sədri Yuranı isə Hadrut ərazisində maşın qəzasına salaraq məhv etmişlər;

**239. 1970-ci illər:** Xankəndində xalq hakimi qiyafəsinə girmiş daşnak ünsürü Razmik Sarkisyan əlinə girəvə düşdükcə türk millətindən olan məhkumlara öz amansızlığını göstərməkdən əsla çəkinməmişdir. Belə ki, özünü deteka polkovniki kimi qələmə verən, daşnak manyakı Z.Balayanın qayınanası Marqo Marutyanın yaxın rəfiqəsi Eteri (əsl adı Aşxan) adlı qadın tez-tez məşhur müğənni Şahmalı Kürdoğlunun maşınından istifadə edərək səfərlərə çıxar, ticarət, iaşə müəssisələrinin, ayrı-ayrı təşkilatlarının rəhbərlərinə hədə gələr, qorxuzaraq dələduzluq yolu ilə rüşvət alarmış. Növbəti səfərlərinin birində dələduz qadın yaxalanır. Şahmalı Kürdoğlu da qadınla birgə cinayət məsuliyyətinə cəlb olunur. Ramiz Sərkisyanın hakimlik etdiyi məhkəmə cinayətkar qadına cəmi 4 il, Şahmalı Kürdoğluna isə 14 il iş kəsir. Cəzasının müəyyən hissəsini çəkib qurtaran müğənninin sonrakı taleyi acı sonluqla başa çatır. 1990-cı ildə onun Ağdamdakı evi daşnak terrorçularının qrad raketinə tuş gəlir. Özü və kiçik yaşlı oğlu qəlpə yarasından həlak olur;

**240. 1980-ci illər:** Bakı şəhərinin Yasamal yaşayış massivində daşnak terrorçusunun əliylə təbii qazdan partlayış törədilir. Terror aktı çoxsaylı insan tələfatı ilə nəticələnir;

**241. 24 yanvar 1981-ci il:** İrəvanda nəşr edilən «Sovet Ermənistanı» qəzetinin redaktoru Məhərrəm Bayramov erməni millətçilərinin antitürk hərəkətlərini ifşa etməyə səy göstərdiyinə görə daşnak terrorçuları tərəfindən məhv edilmişdir;

**242. 1983-cü il:** Daşnak terrorçuları öz fahişəliyi ilə tanınan erməni qadınını naməlum şəraitdə qətlə yetirərək qanını Şuşa rayonunun Kosalar kənd sakinlərinin üstə atmışlar. Xalq hakimi Razmik Sarkisyanın sədrlik etdiyi məhkəmə heyətinin hökmü ilə, heç bir dəlil-sübut əldə etmədən şərlənən gənclərdən Həsənov Namiq güllələnmə, Həsənov Əlövsət və Əliyev Fuad isə 13 il həbs cəzasına məhkum edilmişlər.

**Qeyd:** Ümumiyyətlə, 1980-ci illərdə Xocalı kənd sakinləri Usubov Kamran Hüseyn oğlu, Əhmədov Eldar Nayıb oğlu, Ağdam rayonunun Bağbanlar kənd sakini İsfəndiyarov Hümbət Əsgər oğlu, Ağdərə (Mardakert) şəhər sakini Şərifov Kamal Çoban oğlu və başqaları DQMV-nin R.Sərkisyan kimi daşnak xalq hakimləri tərəfindən günahsız yerə həbs cəzalarına məhkum edilmişlər;

**243. 08 sentyabr 1984-cü il:** Daşnak terrorçusu Vartanyan Henri Surenoviç tərəfindən Bakı şəhər sərnişindaşıma nəqliyyatı müəssisəsinə məxsus 106 saylı marşrut avtobusuna partlayıcı paket qoyulmuşdu. Partlayış nəticəsində Fatimə Famil qızı Surxayzadə faciəli şəkildə həlak olmuş, dörd nəfər sərnişin isə ağır bədən xəsarəti almışdır. Tapılaraq məsuliyyətə cəlb olunan terrorçu

Moskvanın təzyiqi altında, guya psixi xəstədir deyə, Ukrayna SSR-ə müalicəyə ezam edilmiş, oradan isə azadlığa buraxılmışdır;

**244. 1984-cü il:** Daşnaklar tərəfindən DQMV-də azərbaycanlılar yaşayan Pirəməkli kəndinin varlığı yer üzündən silinmişdir. Kəndin yeri buldozerə verilmiş, kənd sakinlərinin mal-qarası əllərindən alınmışdır. Təxribatın təşkilatçılarından kimsə məsuliyyətə cəlb edilməmişdir;

**245. 1985-ci il:** Xankəndindəki Lenin adına orta məktəbin direktoru Yuri Nersesyan Xocalı şəhərində azərbaycanlı uşağının ölümü ilə nəticələnən yol-nəqliyyat qəzası törətmişdir. Lakin Yuri Nersesyan Daşnaksutyun partiyasının üzvü olduğundan ona «gözün üstə qaşın var» deyən olmamışdı;

**246. 25 yanvar 1988-ci il:** Qafan rayon partiya komitəsinin birinci katibi kommunist cildinə girmiş qatı daşnak Mkrtıçyanın rəhbərliyi altında daşnak terrorçuları Qafan və Kecalan şəhərlərində açıq şəkildə azərbaycanlı ailələrinin üzərinə həmləyə keçirlər. Evləri dağıdılır, özləri döyülür, söyülür, təhqir edilərək şəhərdən qovulurlar. 2000 Azərbaycan türkü isti od-ocağından qaçqın düşür. Qaçqınların bir qismi Azərbaycanın ətraf rayonlarına, bir qismi isə Sumqayıt şəhərinə pənah gətirirlər;

**247. 19 fevral 1988-ci il:** Daşnak terror qrupu türkün ana şəhəri olan İrəvanda zaman-zaman yandırıb məhv etdikləri 9 cümə məscidindən sonuncusunu, səhərin bəzəyi olan memarlıq abidəsi kimi qorunub saxlanan Göy məscidi yandırır;

**248. 22 fevral 1988-ci il**: Daşnak terrorçuları tərəfindən Əsgəranda dinc yürüş iştirakçılarından iki gənc – Bəxtiyar Quliyev və Əli Hacıyev, Əsgəran rayon DİŞ-nin daşnak terrorçusu olan əməkdaşları tərəfindən güllələnir. 19 nəfər müxtəlif dərəcəli güllə yarası alır. İstintaq işini Moskva öz əlinə alsa da, orada yox edilir. Cinayət məsuliyyətinə kimsə cəlb edilmir;

**249.23 fevral 1988-ci il:** Daşnak terror qrupları Ermənistan SSR ərazisində yaşayan azərbaycanlıları ata-baba yurdlarından qovmaq üçün əvvəlcədən hazırladıqları mənfur planlarını «etnik təmizləmə» siyasətlərini həyata keçirməyə başladılar. Bu dəfə Qafan rayonunun azərbaycanlılar yaşayan kəndlərinə kütləvi basqınlar etdilər. 4000 əliyalın, dinc Azərbaycan türkünü döyüb təhqir edərək, onları silah gücünə doğma yurd-yuvalarından qovdular. Qaçqınlar, demək olar ki, bütünlüklə Sumqayıt şəhərinə və onun ətraf kəndlərinə üz tutdular;

**250.28 fevral 1988-ci il:** Erməni-daşnak faşistləri əvvəlcədən hazırladıqları plan əsasında fitnəkarlıq məqsədi ilə Sumqayıtda təxribat aktı törədirlər. Daşnak terrorçusu Eduart Qriqoryanın və onun əlaltıları Ohanyanın, Samoylovun, Pavlovskinin təhriki ilə çoxsaylı mitinq iğtişaş həddinə çatdırılır. Daşnak terrorçuları öz soydaşlarına təcavüz edirlər. 26 erməni və 6 azərbaycanlı qətlə yetirilir, 400 nəfər yaralanır;

**Qeyd:** Təəssüflər olsun ki, günü bu gün də erməni-daşnak faşistlərinin Sumqayıtda törətdikləri fitnə gerçək mahiyyəti ilə parlament səviyyəsində müzakirəyə çıxarılmamış, hələ də özünün hüquqi-siyasi qiymətini almamışdır;

**251. 10 mart 1988-ci il:** Daşnak terror qrupu Zəngibasarın Mehmandar kəndinə basqın etmiş. Evini tərk etmək istəməyən beş nəfər əliyalın kənd sakini qətlə yetirilmişdir;

**252. 25 mart 1988-ci il:** Daşnak terrorçuları tərəfindən Vedibasarın el ağsaqqalı, məşhur övliya Seyid Ağabal ağa amansızcasına qətlə yetirilmişdir;

**253. 8 aprel 1988-ci il:** 5 daşnak terrorçusu «Jiquli» maşınında Sarvanlar (Zəngibasar) kəndinə girib camaatdan kəndi boşaltmağı tələb etmişlər. Qəti etiraz cavabı alan terrorçular maşını camaatın üstə sürərək üç nəfərə ağır bədən xəsarəti yetirmişlər;

**254. 03 may 1988-ci il:** DQMV-nin Tuğ kəndində yuva qurmuş daşnak terrorçuları yerli hökumət binası üstə Ermənistan SSR-in bayrağını qaldıraraq iğtişaş törədirlər. Daxili qoşun hissələri qan tökülməsinin qarşısını alırlar;

**255. 11 may 1988-ci il:** Daşnak terror birləşməsi Vedibasarın Şirazlı kəndinə basqın etmişlər. 2 nəfər öldürülmüş, 80 nəfərə xəsarət yetirilmiş, 8 ev yandırılmış, 64 ev dağıdılmış, 330 ailənin əmlakı talan edilmiş, kənd adamları Türkiyə sərhədinə yığılmışlar. 4 ay çadırlarda yaşamaq məcburiyyətində qalmışlar;

**256. 11 may 1988-ci il:** Daşnak terrorçuları tərəfindən İrəvanda M.Əzizbəyovun abidəsi uçurulmuşdur. M.F.Axundov adına şəhər orta məktəbinə, C.Cabbarlı adına İrəvan Dövlət Dram Teatrına hücumlar edilmiş, hər iki müəssisənin fəaliyyəti dayandırılmışdır;

**257. 13 may 1988-ci il:** Daşnak terrorçuları Xankəndinin azərbaycanlılar yaşayan məhəlləsinə basqın etmişlər. 6 nəfərə ağır bədən xəsarəti yetirmişlər;

**258. 16 may 1988-ci il:** Daşnak terrorçuları Xankəndindəki pedaqoji instituta basqın etmiş, azərbaycanlı tələbələri institutdan qovub çıxarmışlar;

**259. 23 may 1988-ci il:** Vedibasarın azərbaycanlılar yaşayan kəndlərinə daşnak terror qruplarının basqınları ara vermir. Aydın olur ki, Ermənistan SSR-in hakimiyyət orqanlarının didərginlərin doğma yurd-yuvalarına qayıtdıqdan sonra təhlükəsizliklərini təmin edəcəkləri haqda verdikləri vədlər boş sözlərdən ibarətdir, əslində, terror qruplarının başında özlərinin durduqları şərtlənir;

**260. 11 iyun 1988-ci il:** Krasnodardan gəlmiş daşnak terrorçusu Aleksandr Ağabekyan Bakı şəhərinin Varovski qəsəbəsində milis serjantı Fazil İsmayılovu qətlə yetirmişdir. Göz altına alınmış terrorçu gizli əllərin köməyi ilə qaçırılmışdır;

**261. 19-20 iyun 1988-ci il:** Zəngibasarın Zəngilər, Zəhmət, Dəmirçi, Dostluq, Nizami, Sarvanlar kəndinə hücum edən daşnak terror qrupları fiziki güc tətbiq edərək əhalini döyüb söymüş, əmlaklarını talan etmişlər. Dinc, əliyalın əhali Türkiyə sərhədinə qaçmağa məcbur olmuşdu;

**262. 04-05 iyul 1988-ci il:** Daşnak terror qrupları İrəvanın «Zvartnos» təyyarə limanını ələ keçirirlər, onlarla hərbiçi yaralanır, uçuşların dayandırılması nəticəsində blokadaya alınmış aerovağzalın yüzlərlə sərnişini təhqir və məhrumiyyətlərə dözməli olur;

**263. 21 iyul 1988-ci il:** Daşnak terrorçuları Kalinino qəsəbəsində qəssab işləyən Qaraboğaz Məhəmmədi qətlə yetirirlər;

**264. 03 sentyabr 1988-ci il:** Daşnak terrorçuları Xankəndinin azərbaycanlılar yaşayan Kərkicahan qəsəbəsinə həmlə edirlər. Ov tüfənglərindən kəndi atəşə tuturlar. Küçələrdə «Azərbaycanlılar! Sizə Ərsak torpağında yer yoxdur!» sözləri yazılmış vərəqələr yayırlar;

**265. 12 sentyabr 1988-ci il:** Azğınlaşmış 3000 nəfərlik daşnak təxribat qrupu Xankəndində vilayət prokurorluğuna basqın edərək həbs olunmuş daşnak terrorçularının azadlığa buraxılmasını tələb etmişlər;

**266. 18 sentyabr 1988-ci il:** Xankəndində yuva salmış daşnak terror qrupu Xocalıya basqın etmiş, bir nəfər qətlə yetirilmiş, iyirmi beş nəfər isə güllə yarası almışdır;

**267. 18-23 sentyabr 1988-ci il:** Daşnak terror qrupları Xankəndi şəhərində Azərbaycan türkləri üzərinə açıq basqınlara keçirlər. Azərbaycanlılar yaşayan məhəllələrə hücumlar edir, fərdi evlərdə, mülklərdə, ictimai binalardakı mənzillərdə yanğınlar törədir, əhalini daşa basır, atəş açır, sakinlər arasında vahimə yaradır, onları ev-eşiyindən didərgin salırlar. Bu minvalla şəhərin 16 minlik azərbaycan əhalisi döyülərək, söyülərək, təhqir edilərək şəhərdən qovulur. Onların adları 1989-cu ildə əhalinin siyahıya alınmasına daxil edilmir. Adları şəhər qeydiyyatından biryolluq silinir;

**268. 12 noyabr 1988-ci il:** Hamamlı (Spitak) rayonunun daşnak xislətli kommunist rəhbərləri - raykomun birinci katibi N.Muradyan, RİK-in sədri F.Abuçyan, milis rəisi V.Sərkisyan, prokuror Araksiyan, xalq hakimi V.Sərkisyan, rayonun baş həkimi R.Bağdasaryan başda olmaqla və onların fitvası ilə daşnak terror qrupları evlərini, yer-yurdlarını tərk etmək üçün azərbaycanlılara dözülməzlik şəraiti yaratmışlar. Onlarca uşaq itkin düşmüş, oğurlanmış, işgəncələrə dözməyən 36 nəfər Azərbaycan türkü həyatını qeyb etmişdir;

**269. 17 noyabr 1988-ci il:** Daşnak terrorçusu tərəfindən Xocavənd rayonunun Tuğ kənd sakini Teyyub Süleymanov vəhşicəsinə qətlə yetirilmişdir;

**270. 19 noyabr 1988-ci il:** Daşnak terror qrupları Vedibasarın Yersax kəndinə basqın etmişlər. Xeyli sayda dinc kənd sakinlərinə bədən xəsarəti yetirmişlər. Yaralıları Naxçıvana aparan maşınlar gülləbaran edilmişdir. Bir həftə ərzində Vedibasardan 24 min azərbaycanlı yurd-yuvasından qovulmuşdur;

**271. 20 noyabr 1988-ci il:** Daşnak terror qrupu tərəfindən Ermənistan SSR Sisian rayonunun Şəki kənd sakinləri - 1914-cü il təvəllüdlü Sadıqova Xatirə Əmrullah qızı və 1922-ci il təvəllüdlü Namazova Şahnisə Əziz qızı kənddən qaçqın salınmışlar. Ağbirçək qadınların hər ikisi yolda çovğuna düşmüş, məşəqqətli havada donub həlak olmuşlar;

**272. 24 noyabr 1988-ci il:** Daşnak terror qrupları Qubadlı rayonunun Eyvazlı, Qədirli, Davudlu kimi Ermənistan SSR ilə sərhəd kəndlərinə həmlə edirlər. Eyvazlı kəndi tamamilə yandırılır;

**273. 25 noyabr 1988-ci il:** Kalinino rayonunun 87 yaşlı sakini Məhəmməd Sadıqov isti ocağını tərk etmədiyinə görə daşnak terrorçuları tərəfindən vəhşicəsinə qətlə yetirilmişdir;

**274. 27 noyabr 1988-ci il:** Kirovakan şəhərində at oynadan daşnak terror qrupu Vartana kəndinə soxulmuşdur. Daşnak Qazanstyan Samvelin terror qrupu Bayramov Qaranı (evindən çıxmadığına görə) vəhşicəsinə qətlə yetirmişlər. Lyova və Lendrum Xaçaturyan qardaşları Hüseynova Leylini əzabla qətlə yetirirlər. Vanesyan Samvelin terror qrupu İsgəndərov Mehralını, arvadı Xanımı və 17 yaşlı Alimi öldürməzdən əvvəl Xanımı soyunduraraq ərinin gözləri qarşısında lüt-üryan rəqs etməyə məcbur etmişlər. Bundan sonra hər üçünü parça-parça doğramışlar. Qriqori Çavuşyanla Hamlet Qasparyanın terror qrupu 1924-cü il təvəllüdlü Əliyev Abdullanı öldürmüşlər. Evlərini tərk etmədiklərinə görə Məmmədov Süleyman Yosmedyan Surenin, Alıyev Əhmədi isə Vazgenin terror qrupu qətlə yetirmişdir. Terrorçu Zehranyan Suren Əliyeva Fatmanı «Niva» markalı minik maşınının təkərləri altına salıb əzmişdir. Beləliklə, kənd əhalisini ölümlə təhdid edərək doğma ev-eşiyini tərk etməyə məcbur etmişlər;

**275. 27 noyabr 1988-ci il:** Daşnak terrorçuları Masis rayonunun Zəhmət kəndinə basqın etmişlər. 5 nəfər, o cümlədən on yaşlı qız uşağı, 60 yaşlı qadın və 3 yeniyetmə gənc qətlə yetirilmişdir;

**276. 27 noyabr - 7 dekabr 1988-ci il:** Daşnak terror qrupları son məqsədə çatmaq, Qərbi Azərbaycanda türksüz Ermənistan yaratmaq üçün ayrı-ayrı bölgələrin şəhər və kəndlərinə kütləvi basqınlar edirlər. Bu sayaq çoxsaylı insan tələfatı ilə nəticələnən çoxsaylı terror aktları törədirlər: Allahverdi (Tumanyan) rayonunda 4 nəfər, Amasiyada 13 nəfər (5 qadın, 1 uşaq), Axtada (Hrazdan) 3 nəfər (1 qadın), Baranada (Noyemberyan) 3 nəfər (1 uşaq), Basarkeçərdə (Vardenis) 43 nəfər (8 qadın, 4 uşaq), Böyük Qarakilsədə (Quqark) 23 nəfər (6 qadın, 1 uşaq), Vedidə (Ararat) 6 nəfər (1 qadın), Kalininoda 12 nəfər (5 qadın), Qarakilsədə (Sisian) 5 nəfər (4 qadın), Qafanda 7 nəfər (3 qadın, 1 uşaq), Zəngibasarda (Masis) 22 nəfər (4 qadın, 3 uşaq), Karvansarayda (İcevan) 7 nəfər (1 qadın), Keşişkənddə (Yeğeqnadzor) 2 nəfər, Gorusda 2 nəfər, Mığrıda (Meqri) 1 nəfər, Soylanda (Vayk) 15 nəfər (4 qadın, 2 uşaq), Hamamlıda (Spitak) 15 nəfər (5 qadın, 1 uşaq), Çəmbərəkdə (Krasnoselski) 18 nəfər (7 qadın, 2 uşaq), Calaloğluda (Stepanovan) 8 nəfər (2 qadın) günahsız, əliyalın, köməksiz, evini tərk etmək istəməyən dinc azərbaycanlılar müxtəlif cür vəhşiliklərlə qətlə yetirilmişlər. Şəhid düşənlərdən 41 nəfəri döyülməklə öldürülmüş, 2 nəfərin başı kəsilmiş, 11 nəfər diri-diri yandırılmış, 1 nəfər asılmış, 3 nəfər doğranmış, 29 nəfər maşınların təkəri altına atılmış, 1 nəfər toka verilmiş, 16 nəfər isə güllələnmişdir. Ümumiyyətlə, qətlə yetirilən 216 nəfərin 57-si qadın, 23-ü isə uşaq olmuşdu. Bu amansız qətl hadisələrini törədənlərin böyük bir qisminin şəxsiyyəti məlum olsa da, onlardan heç biri nə İrəvanın, nə də Moskvanın hüquq mühafizə orqanları tərəfindən cinayət məsuliyyətinə cəlb edilməmişlər;

**277. 28 noyabr 1988-ci il:** Zəngibasar kəndinin 22 yaşlı sakini Müşfiq Tağıyev köçünü Azərbaycana gətirərkən Çubuqlu kəndi yaxınlığında daşnak terrorçularının basqınına məruz qalır. Özü xüsusi qəddarlıqla qətlə yetirilərək cəsədi tanınmaz hala salınır. Əmlakı isə talan edilir;

**278. 28 noyabr 1988-ci il:** Daşnak terror qrupları Basarkeçər rayonunun Çaxırlı, Qanlı, Kərkibaş, Şişqaya, Zod kəndlərinə basqınlar edirlər. Nəqliyyat vasitəsi olmayan imkansız, əliyalın əhalidən 34 nəfər döyülərək işgəncə ilə qətlə yetirilmişlər. Sağ qalanlar Gədəbəyə, Kəlbəcərə adlamaq üçün Sarınər, Urumbasar gədiklərindən aşmalı olurlar. Qarda-çovğunda borana düşən qaçqınlardan 12 nəfər donvurmadan tələf olur;

**279. 28 noyabr 1988-ci il:** Zəngibasar mahalının Nizami kənd sakini Mehdiyev Sabir və oğlu daşnak terrorçularının təcavüzünə məruz qalırlar. Hər ikisi vəhşicəsinə döyülərək xəstəxanaya düşürlər. Daşnak xislətli şəfqət bacıları tərəfindən Mehdiyev Sabir qətlə yetirilir, oğlu isə şikəst edilir. Milis forması geymiş daşnaklar isə onun sol qulağını kəsirlər;

**280. 30 noyabr 1988-ci il:** Daşnak terrorçuları malakanlar yaşayan Lermontov kəndində qaçıb gizlənən, Calaloğlu (Stepanavan) rayonunun Qarqar kənd sakini Bəsti Mustafayevanın yerini müəyyən edib, 20 min manat pulunu, qızıl əşyalarını qarət etmişlər. Özünü isə üstünə neft töküb od vuraraq yandırmışlar;

**281. 30 noyabr 1988-ci il:** Daşnak terror qruplaşması Quqark (Ermənistan SSR) rayonunun Gözəldərə kəndinə basqın edir. 21 nəfər, o cümlədən 6 qadın, 3 körpə qətlə yetirilir. Kənd canlı aləmdən təcrid edilir;

**282. 30 noyabr 1988-ci il:** Daşnak terror qrupu Allahverdi (Tumanyan) rayonunun Ayrım kəndinə basqın edir. Evlərini tərk etmədiklərinə görə kənd sakinlərindən Haqverdiyev Haqverdi və Əliyev Abbası döyərək qətlə yetirirlər. Kənd əhli məcburi şəkildə doğma yurdlarından didərgin salınır;

**283. 30 noyabr 1988-ci il:** Daşnak terrorçuları Hamamlı rayonunun Saral kəndindən Həmzəçimən kəndinə yollanan qaçqın dəstəsinə basqın etmişlər. 18 nəfər qətlə yetirilmiş, Balacayev Mövsümün 8 nəfərlik ailəsi tamamilə məhv edilmişdir. 7 nəfər isə ağır bədən xəsarəti almışdır;

**284. 30 noyabr 1988-ci il:** Sevan şəhərində yerləşən respublika ruhi xəstəxanasındakı azərbaycanlı xəstələrə rəhmi gəlməyən daşnak terrorçuları 22 nəfər Azərbaycan türkünü su ilə doldurulmuş quyuya ataraq boğub qətlə yetirmişlər;

**285. 01 dekabr 1988-ci il:** Daşnak Asatyan Benikin başçılıq etdiyi terror qruplaşması Quqark rayonunun Vartana kəndindən didərgin salınmış 240 nəfər uşaq, qadın və yaşlı adamlardan ibarət dəstəni qarlı dağlarda pusquya salmışlar. 100 nəfərdən çox Azərbaycan türkünü güllələbaran etmişlər. Ələ keçirdikləri 13 nəfər dinc sakini işgəncələrlə qətlə yetirib cəsədlərini yandırmışlar;

**286. 01 dekabr 1988-ci il:** Daşnak terrorçusu ermənilərin fitnəkarlıqlarını, alçaq hərəkətlərini aşkarlamağa səy göstərdiyinə görə DQMV-nin baş prokuroru

Vasilenkonun həyatına sui-qəsd etmişdir. Vasilenko təsadüf nəticəsində ölümdən qurtarmışdı;

**287. 02 dekabr 1988-ci il:** Daşnak terror qrupları Amasiya rayonunun ayrı-ayrı kəndlərinə basqın edirlər. Evlərini tərk etmək istəmədiklərinə görə Güllücə kənd sakini Əli Əliyevi vəhşicəsinə döyürlər. Əzizbəyov kəndində Həsənov Mühidi işgəncə ilə qətlə yetirir, Haqverdiyev Babəki asır, Heydər Seyidovu və Fərman Həsənovu isə vəhşicəsinə döyürlər. Çaxmaq kənd sakinləri Elbəyi və Roza Süleymanovları, Amasiya qəsəbə sakini Musayev Məmmədi işgəncə verməklə öldürürlər. Güllücə kənd sakinlərindən Rüstəmov Nəbini maşının təkərləri altına atır, Məmmədov Bayraməlini isə vəhşicəsinə döyməklə qətlə yetirirlər. Daşkörpü kəndindən Bəhlul Abbasovu, Mağaracıq kəndindən Dursun Məmmədovla Niftalı Əliyevi, Çaybasar kəndindən Güləhməd Vəliyevi vəhşicəsinə döyərək onlara ağır bədən xəsarəti yetirirlər. Qaçqın düşənlərdən altı nəfər isə qarlı-çovğunlu havada borana düşüb donvurmadan tələf olur;

**288. 02 dekabr 1988-ci il:** Daşnak terrorçuları Gorus şəhərinin yeganə azərbaycanlı sakini Cavanşir Rüstəm oğlunu döyməklə qətlə yetirmişlər;

**289. 03 dekabr 1988-ci il:** Daşnak terrorçuları Dilcanda Sarıyev Vahidi Azərbaycan türkü olduğuna görə ağır işgəncələr verərək öldürürlər;

**290. 05 dekabr 1988-ci il:** Daşnak terror qrupu heç bir insani əxlaqa, bəşəri davranışa sığmayan terror aktı törətmişdir. Hamamlı (Spitak) şəhərində türk millətinə mənsub olduqlarına görə 17 azyaşlı uşağı iri diametrli boruya (uzunluğu 20 m, diametri 1,5 m) dolduraraq başlarına dəmir lövhələr qaynaq edib uçurumdan yuvarlamışlar. Məsum körpələri diri-diri, vəhşanə tərzdə məhv etmişlər. Ümumiyyətlə bu cür vəhşi üsulla 87 nəfərədək uşaq qətlə yetirilmişdir;

**291. 10 dekabr 1988-ci il:** Daşnak terror qrupu Türkiyəyə məxsus olduğunu güman edərək Belqrad-Ankara-İrəvan marşrutu ilə Ermənistana - zəlzələ rayonuna uçan Yuqoslaviya təyyarəsini «qəzaya» uğradır. Altı nəfər ekipaj üzvü həlak olur;

**292. 11 dekabr 1988-ci il:** Bakıdan Leninakana zəlzələ rayonuna köməyə uçan İl-76 təyyarəsi daşnak terrorçuları tərəfindən qəzaya uğradılır. 69 sərnişindən yalnız bir nəfər Babayev Fəxrəddin təsadüf nəticəsində sağ qalır. 68 nəfər azərbaycanlı sərnişin və 9 nəfər ekipaj üzvü bu terror aktının qurbanı olur. Qəzanın səbəbləri öyrənilmədən, heç bir ekspertiza aparılmadan təyyarənin qara qutusu məhv edilir. Bu terror aktı qəza hadisəsi kimi cəmiyyətə sırınır. Təsadüfən sağ qalmış Fəxrəddin Babayev İrəvan xəstəxanasına aparılsa da, «ermənilər arasında yaralı türkə yer yoxdu» deyən daşnak xislətli erməni həkimləri onu müalicə etməkdən boyun qaçırırlar;

**293. 12 yanvar 1989-cu il:** Daşnak terrorçuları Xanlar rayonunun Todan kəndinə basqın edirlər. Dörd nəfər əliyalın, dinc kənd sakinini qətlə yetirirlər;

**294. 15 yanvar 1989-cu il:** Daşnak terrorçuları Xanlar rayonunun Todan kəndinə ikinci dəfə basqın edirlər. Bu dəfə iki nəfər əliyalın, dinc kənd sakinini qətlə yetirirlər;

**295. 16 yanvar 1989-cu il:** Daşnak terrorçuları Xanlar rayonunun Şəfəq kəndinə basqın edirlər. Bir nəfər kənd sakini qətlə yetirilir;

**296. 20 yanvar 1989-cu il:** Daşnak terror qrupu Naxçıvan MSSR-in Sədərək qəsəbəsinə basqın edir. 10 nəfər qəsəbə sakini (o cümlədən üç uşaq) vəhşicəsinə qətlə yetirilir;

**297. 10 may 1989-cu il:** Daşnak terrorçuları Qazax rayonunun Bağanis Ayrım, Bərxudarlı və Naxçıvanın bütün sərhəd kəndlərini top və minamyotlardan atəşə tuturlar. Xeyli yaşayış evi dağıdılır, yaralanan və ölənlər olur;

**298. 11 may 1989-cu il:** Daşnak terrorçuları Qubadlı rayonunun sərhəd kəndlərini atəşə tuturlar, bir nəfər ağır güllə yarası alır;

**299. 19 may 1989-cu il:** Daşnak terror qrupu Naxçıvan MSSR-in Yaycı kəndinə basqın edir. Bir nəfər kənd sakini qətlə yetirilir;

**300. 9 iyun 1989-cu il:** Hamamlıya sığorta pulu almağa getmiş dinc sakin Rəhim Daşdəmirov daşnak terrorçuları Sergey Poqosyanla Sergey Mədətyanın hücumuna məruz qalır. O, armatur çubuqla döyülərək qəddarcasına qətlə yetirilmişdir;

**301. 25 iyun 1989-cu il:** Bakı şəhər sakini Nəbiyev Əli Məhəmməd oğlu Kərkicahan kəndində yaşayan qardaşıgilə gedərkən yolda daşnak terrorçular tərəfindən qətlə yetirilir;

**302. 7 iyul 1989-cu il:** Daşnak terror qrupu Kərkicahan qəsəbəsinə həmlə edir. Daxili qoşunların qəsəbədə yerləşən hərbi hissəsi bu basqının qabağını alır. Lakin kəndin bir çox evləri yandırılır;

**303. 11 iyul 1989-cu il:** V.X.Xaçaturovun başçılıq etdiyi beş daşnak terrorçusu Şuşadan evlərinə qayıdan Kərkicahan qəsəbəsinin dinc sakinləri Əli Nəbiyev, Orduxan Səfərov və Natiq Salahovun qabağını kəsərək onları diri tutmaq istəyirlər. Natiq Salahov güllə yarası alsa da, qaçıb aradan çıxa bilir. Terrorçular girov götürdükləri Əli Nəbiyevlə Orduxan Səfərovu soyunduraraq hər ikisini ağaca sarımışlar. Onların sinələrini ülgücləyərək yara yerlərinə odlu siqarlar basmışlar. Müxtəlif işgəncələr verdikdən sonra onları nişangaha qoymuşlar. Əli Nəbiyevin ürəyindən, Orduxan Səfərovun başından ataraq qətlə yetirmişlər. Bütün bunlarla ürəkləri soyumayan qansızlar mərhumların gözlərini çıxararaq cəsədlərini yaxınlıqdakı çamurlu gölməçəyə atmışlar;

**304. 11 iyul 1989-cu il:** Daşnak terror qrupu Tərtərdən Kəlbəcərə gedən maşın karvanının yolunu Ağdərə ərazisində partladaraq qabağını kəsmişdir. Karvan güllələbaran edilmiş, 8 nəfər qətlə yetirilmiş, xeyli sərnişin ağır güllə yarası almışdı;

**305. 14 iyul 1989-cu il:** Kəlbəcər rayon DİŞ-nin əməkdaşları tərəfindən həbs edilən 11 daşnak terrorçusu Moskvanın təzyiqi ilə geri qaytarılır. Ermənilərə

satılmış rus hərbiçiləri vertolyotla terrorçuları gətirmək üçün Kəlbəcərə uçurlar. Xəyanətkarlar vertolyotu əvvəlcədən nəzərdə tutulmuş yerə deyil, qəsdən uşaqların futbol oynadıqları stadiona endirirlər. Bu zaman stadionda futbol oynayan uşaqlardan 8-ni vertolyotun pəri biçir. Qətlə yetirilən uşaqların ən kiçiyi olan Valehov Anar Qardaşxan oğlu 6 yaşda, ən böyüyü Xəlilov Bəxtiyar Rəhim oğlu isə 15 yaşda olur. Bu terror aktı ilə bağlı heç bir istintaq işi aparılmır. Əksinə, rus hərbiçiləri daşnak quldurlarını Xankəndinə gətirərək burada onları azadlığa buraxırlar;

**306. 15 iyul 1989-cu il:** Daşnak terrorçuları Xankəndi şəhər sakini Eyvaz Allahverdiyevin evinə bomba atırlar. Partlayış nəticəsində itki olmasa da, dörd avtomobil ciddi zədələnir;

**307. 24 iyul 1989-cu il:** Daşnak terrorçuları Kərçivan-Mığrı dəmiryolunun 347-ci kilometrliyində xəttə mina qoymuşlar. 1000 nəfər sərnişini olan qatar vaxtından 15 dəqiqə gecikdiyinə görə partlayış terrorçuların gözlədiyi nəticəni verməmişdir;

**308. 30 iyul 1989-cu il:** Meşəli kəndinin qeyrətli oğlu Miryusif Orucov daşnak terrorçusu, əyninə milis forması geymiş Əsgəran rayon DİŞ-nin rəis müavini Qərib Harutyunyan tərəfindən qətlə yetirilir. Şahid və sübutların olmasına baxmayaraq qatil cəzasız buraxılır;

**309. 01 avqust 1989-cu il:** Ermənistan SSR Ararat rayonunda yuva qurmuş daşnak terrorçuları Şərur rayonunun Kərki kəndinə basqın edirlər. Kənd evlərinin bir çoxu yandırılıb dağıdılır;

**310. 06 avqust 1989-cu il:** Daşnak terrorçuları Əsgəran rayonunun Meşəli kəndində 5 dinc sakini qətlə yetirirlər;

311. **08 avqust 1989-cu il:** Bakıdan gələn yük karvanı Kərçivanda daşnak terrorçularının basqınına məruz qalır. Şərur şəhər sakini Sədi Nəsirov, Qaraxanbəyli kəndindən Mirkamal Seyidov ağır güllə yarası alırlar;

**312. 11 avqust 1989-cu il:** Daşnak terrorçuları Əsgəran rayonunun Daşbulaq kəndində azərbaycanlı evinə bomba atırlar. Bir azərbaycanlı ailəsi evsiz-eşiksiz qalır;

**313. 12 avqust 1989-cu il:** Bərdə rayonunun Kətərparaq kənd sakini Mehrəliyev Məhi Əşrəf oğlu Laçından, qohumları evindən qayıdarkən Laçın-Bakı yolunun 7-ci km-də Qaladərəsi kəndində yuva salmış daşnak terrorçuları tərəfindən qətlə yetirilmişdi;

**314. 13 avqust 1989-cu il:** Daşnak terrorçuları tərəfindən Ağdam-Əsgəran dəmiryol platforması və Şuşa şəhərinin su kəməri partladılmışdır;

**315. 17 avqust 1989-cu il:** Şuşa-Ağdam marşrut avtobusu daşnak terrorçularının basqınına məruz qalmışdır. Altı nəfər sərnişin ağır dərəcəli xəsarət almışdır;

**316. 18 avqust 1989-cu il:** Laçın rayonunun Cicimli kənd sakini Məmmədov Mehdi Rüstəm oğlu təsərrüfat işindən qayıdarkən kəndin 1 km-liyində pusquda durmuş daşnak terrorçusu tərəfindən qətlə yetirilmişdir;

**317. 23 avqust 1989-cu il:** Ağdərədə yuva salmış daşnak terrorçuları Soltan Ağayevi vəhşicəsinə qətlə yetirmiş, «Niva» markalı minik maşınını isə xurd-xəşil etmişlər;

**318. 28 avqust 1989-cu il:** Şuşadan Ağdam istiqamətində hərəkət edən 9 avtobus və bir yük maşını daşnak terrorçularının hücumuna məruz qalmışdır; 12 nəfər müxtəlif dərəcəli xəsarət almışdır;

**319. 10 sentyabr 1989-cu il:** Daşnak terrorçusu tərəfindən Qubadlı rayonunun Seytas kənd sakini Heydərov İbrahim Xansuvar oğlu təsərrüfat işi görərkən Məzrədüzü adlanan sahədə vəhşicəsinə qətlə yetirilmişdir;

**320. 15 sentyabr 1989-cu il:** Daşnak terrorçusu Gorus rayonunun Ağbulaq kənd sakini Bərxudar Əsgərovu öz toy günündə evinə dönərkən qətlə yetirmişdir;

**321. 16 sentyabr 1989-cu il:** Daşnak terrorçusu tərəfindən Tiflis-Bakı marşrutu ilə hərəkət edən sərnişin avtobusuna saat mexanizmi ilə təchiz edilmiş partlayıcı qoyulur. Avtobus yola salındıqdan 6 saat sonra Yevlax stansiyasında partlamış, 5 nəfər həlak olmuş, 27 nəfər ağır bədən xəsarəti almışdır. Həlak olanlar arasında 2 qadın və beşyaşlı Azər Musayev adlı uşaq da olmuşdur;

**322. 18 sentyabr 1989-cu il:** Daşnak terror qrupu Ağdam rayonunun Qiyaslı kəndinə basqın etmişdir. 2 nəfər dinc kənd sakini qətlə yetirilmiş, 4 nəfər isə güllə yarası almışdır;

**323. 05 oktyabr 1989-cu il:** Səhər saat $8^{00}$ radələrində Kərkicahan qəsəbə sakinləri 11 yaşlı Nadir İbrahimov və 9 yaşlı qardaşı Nicat həyətdə oynayarkən daşnak terrorçusunun silahlı basqınına məruz qalmışlar. Hər iki qardaş baş nahiyəsindən güllə yarası almışdır;

**324. 07 oktyabr 1989-cu il:** Daşnak terrorçusu Abramyan Artur Artaşoviç Şuşa şəhərini Ağdam şosse yolu ilə birləşdirən Xəlfəliçay üzərindəki Ağa körpüsünü partladır. Terrorçu həbs olunur. Mühakimə edilərək 15 il müddətinə azadlıqdan məhrum edilsə də, sonralar əsir və girovlarla dəyişdirilir;

**325. 10 oktyabr 1989-cu il:** Daşnak terrorçuları Qaladərəsi kəndində bir Azərbaycan türkünü qətlə yetirirlər;

**326. 10 oktyabr 1989-cu il:** Daşnak terrorçuları Turşu kəndinə həmlə edirlər. 14 yaşlı Kamil Axundov güllə atəşi ilə qətlə yetirilir;

**327. 06 noyabr 1989-cu il:** Daşnak terrorçuları tərəfindən Qarqar çayı üzərindəki körpü dağıdılmış, Ağdam-Şuşa yolundakı körpü isə partladılmışdır. Şuşa ilə nəqliyyat əlaqəsi tam kəsilmişdir;

**328. 08 noyabr 1989-cu il:** Daşnak terrorçuları 1920-ci ildə mühasirəyə düşmüş ermənilərə neft, çörək, taxıl çatdıran M.Əliyev, M.Məmmədov və S.Şəkibəyov kimi kommunarların şərəfinə ucaldılmış, üstünə «Duz-çörək güllələnmir» yazılmış, «Zaqafqaziya xalqlarının dostluq abidəsi»ni partladan

zaman keşiş Stepan Davutyan, icevanlı Aşot Məlikbekyan həlak olmuş, volqoqradlı Andrey Kozlitin qəlpə yarası almışdır;

**329. 09 noyabr 1989-cu il:** Daşnak terrorçuları tərəfindən Laçın-Caqazur avtomobil yolunda qoyulmuş bombayla Laçın rayon tikinti idarələrinə məxsus «Zil 130» markalı maşın partladılmış, dörd nəfər yaralanmışdır;

**330. 14 noyabr 1989-cu il:** Daşnak terrorçuları tərəfindən Qubadlı rayonunun Seytas kəndinin nabatçıları gülləbaran edilir. Babaşov İnqilab Oruc oğlu qətlə yetirilir. Əliyev Xəyyam isə ağır güllə yarası alır;

**331. 15 noyabr 1989-cu il:** Əsgəran rayon sakini Şirinov Şirin Səməd oğlu Meşəli kəndi yaxınlığındakı Meydan deyilən sahədə daşnak terrorçuları tərəfindən güllələnmiş, aldığı ağır güllə yarasından xəstəxanada keçinmişdir;

**332. 17 noyabr 1989-cu il:** Daşnak terrorçuları tərəfindən Tuğ kənd məktəbinin 9-cu sinif şagirdi Teyyub Süleymanov qətlə yetirilmişdir;

**333. 20 noyabr 1989-cu il:** Daşnak terrorçuları Kərkicahan-Şuşa yolunu iki yerdən dağıdırlar;

**334. 26 noyabr 1989-cu il:** Daşnak terrorçuları Mığrı rayonunun Nüvədi kəndinə həmlə edirlər. 10 nəfər dinc sakin güllə yarası alır;

**335. 28 noyabr 1989-cu il:** Daşnak terrorçuları Qubadlı rayonunun Davudlu və Novlu kəndləri arasındakı körpüdə sovxoz direktorunu gəzdirən maşına həmlə etmişlər. Sovxoz direktoru Ələkbərov Qaçay Məcid oğlu və sürücüsü Hümbətəliyev Telman Rüstəm oğlunu qətlə yetirmişlər. Novlu kənd Sovetinin sədri Mehdiyev Mehdi Qasım oğlunu isə girov götürmüşlər. Onun meyiti bir neçə aydan sonra Sisian rayonu ərazisində tapılmışdır;

**336. 07 dekabr 1989-cu il:** Daşnak terrorçuları Martuni rayonunun Qaradağlı kənd sakini Tofiq Məmmədovun evini bomba ilə partladırlar, 17 nəfərlik ailə isti ocağından məhrum olur;

**337. 20 dekabr 1989-cu il:** Daşnak terrorçuları Kərkicahan kəndinə həmlə edirlər. Nəticədə İslam İdris oğlu və Füzuli Rəhim oğlu güllə yarası alırlar;

**338. 23 dekabr 1989-cu il:** Azadkənd-Hacıkənd (Xanlar rayonu) körpüsünü partlatmaq istərkən 4 daşnak terrorçusundan ikisi həlak olmuş, ikisi isə ağır qəlpə yarası almışdır;

**339. 26 dekabr 1989-cu il:** Məmməd Vəliyevin idarə etdiyi «UAZ-469» markalı 93-93 AQR dövlət nişanlı maşın Çaykəndində məskən salmış daşnak terrorçularının yolda basdırdıqları minaya düşür. Partlayış nəticəsində özü ilə yanaşı 4 nəfər - 5 dinc sakin ağır qəlpə yarası və yanıqdan xəsarət alırlar;

**340. 03 yanvar 1990-cı il:** Daşnak terrorçuları Xankəndində hərbi xidmətdə olan leytenant Əzizovu girov götürmüşlər;

**341. 03 yanvar 1990-cı il:** Daşnak terrorçuları Kərəmli kəndinin (Ağdərə) çobanı Əşrəf Cəfərovu girov götürmüşlər. 34 qoyunu özləri ilə çəkib aparmışlar;

**342. 04 yanvar 1990-cı il:** Daşnak terrorçusu Sərkisyan Qraçik Qriqoryeviçin başçılıq etdiyi qrup tərəfindən Əsgəran-Ağdam şose yolundakı dəmir-beton körpü partladılmışdır;

**343. 05 yanvar 1990-cı il:** Daşnak terrorçuları tərəfindən Şuşaya su verən boru kəməri təkrar partladılmışdır;

**344. 06 yanvar 1990-cı il:** Daşnak terrorçusu tərəfindən Ağdam şəhər avtovağzalının binasında partlayış törədilir. İki nəfər həlak olur, iki nəfər isə qəlpə yarası alır;

**345. 07 yanvar 1990-cı il:** Daşnak terrorçuları tərəfindən Xocalıya gedən dəmiryol xətti təkrar partladılır;

**346. 12 yanvar 1990-cı il:** Daşnak terrorçularını İrəvandan gətirən üç vertolyot Xanlar rayonunun Quşçular kəndinin yaxınlığında yerə enir. Müasir silahlarla təchiz olunmuş terrorçular vertolyotlardan düşməklə kəndə soxulmuşlar. Qadınlara, uşaqlara, qocalara fərq qoymadan onlarla dinc kənd sakinlərini gülləbaran etmişlər;

**347. 14 yanvar 1990-cı il:** Daşnak terrorçuları vertolyotla Xanlar rayonunun Aşıqlar kəndinə həmlə edirlər. Bir nəfər qətlə yetirilir, xeyli adam yaralanır. Toğana kəndindən yeddi nəfər girov götürülür. Rüzgar, Bəxtiyar, Abbasqulu adlı gənclər vəhşicəsinə öldürülür;

**348. 15 yanvar 1990-cı il:** Laçın rayonunun Hacılar kənd sakini Abduləzimov Allahverdi Fərman oğlu «Pirin yanı» deyilən sahədə qoyun növbəsində olarkən daşnak terrorçuları tərəfindən qətlə yetirilmişdir. Növbətçi yoldaşı Əhmədov isə həmişəlik əlil qalmışdır. Qoyun sürüsünü çəkib aparmışlar;

**349. 18 yanvar 1990-cı il:** Ermənistan SSR-in Ararat rayonunda yuva qurmuş daşnak terror qrupu Naxçıvanın Kərki kəndinə son dəfə basqın edir. Əliyalın, dinc əhali erməni-daşnak faşizminin etnik təmizləmə siyasətinin günahsız qurbanlarına çevrilirlər;

**350. 19 yanvar 1990-cı il:** Daşnak terrorçuları Sədərək kəndini mərmi atəşinə tuturlar. Məhərrəm Seyidov, Etibar Əhmədov, Mirhəşim Seyidov, Məhəmməd Məmmədov, İdris Məmmədov, Abbasəli Nəzərəliyev, Nəsirovlar ailəsinin iki körpəsi - 7 yaşlı Elvin və 5 yaşlı Malik qəlpə yarasından həlak olmuşlar;

**351. 20 yanvar 1990-cı il:** Ermənipərəst Qorbaçovun fərmanı ilə Bakıya tərkibində 600 nəfər erməni əsgər və zabiti olan və 180 daşnak terrorçusu daxil edilən ordu yeridilir. 171 nəfər dinc sakin qətlə yetirilmiş, beş nəfər itkin düşmüşdü. 800 nəfər güllə yarası almışdı. 100-ə yaxın müxtəlif markalı avtomaşın tankların altına salınmış, gülləbaran edilmişdir. Şəhər təsərrüfatına 5 milyard rus rublu dəyərində maddi ziyan vurulmuşdu;

**352. 23 yanvar 1990-cı il:** Daşnak terror qrupu tərəfindən Ağdam-Kəlbəcər elektrik hava xətti Ağdərə-Mardaket rayonu ərazisində partladılmışdır. Bununla da Kəlbəcər rayonu elektrik enerjisindən məhrum edilmişdir;

**353. 30 yanvar 1990-cı il:** Daşnak terror qrupları Gədəbəy rayonunun Sınıx bölgəsinə soxulurlar. Bölgənin əliyalın, dinc sakinləri 1936-cı il təvəllüdlü Xələfov Əsgəri, 1938-ci il təvəllüdlü Zeynalov Arifi, 1946-cı il təvəllüdlü Niftalıyev Fərhadı, 1953-cü il təvəllüdlü Hüseynov İbrahimi, 1957-ci il təvəllüdlü Qurbanov Əkbəri, 1961-ci il təvəllüdlü Vəliyev Məhərrəmi vəhşicəsinə qətlə yetirirlər. El ağsaqqalı, Güllü kənd sakini Cəfərov Hüseyni girov götürürlər;

**354. 13 fevral 1990-cı il:** Daşnak Armen Mixayloviç Avenasyanın başçılıq etdiyi terror qrupu Yevlax-Laçın avtomagistralının 105-ci km-də Şuşa-Bakı istiqamətində hərəkət edən avtobusu partladır. Nəticədə iki sərnişin həlak olur, 13 nəfər qəlpə yarası alır. Terrorçular isə cəzasız qalır;

**355. 10 mart 1990-cı il:** Daşnak terrorçuları tərəfindən Gürcüstan SSR Marneuli rayonunun Sadaxlı kənd sakini oğurlanmışdır. Bu günə qədər soydaşımızdan heç bir məlumat yoxdur;

**356. 18 mart 1990-cı il:** Daşnak terror qrupu Mığrı ərazisində Bakı-Naxçıvan yük qatarına basqın etmiş, Zəngilan rayon sakinləri maşinist Allahverdiyev İsmayıl İbiş oğlunu qəddarcasına döymüş, maşinist köməkçisi Qurbanov Elxan Ağamalı oğlunun isə başını kəsərək qətlə yetirmişlər;

**357. 22 mart 1990-cı il:** Daşnak terrorçuları Qazax rayonunun Aşağı Əskipara kəndinə həmlə etmişlər. Məmmədov Məhəmməd ağır güllə yarası almışdır;

**358. 24 mart 1990-cı il:** Daşnak terror qrupu Qazax rayonunun Ermənistan SSR ilə həmsərhəd kəndi Bağanıs Ayrım kəndinə basqın edir. 100 evlik kənd yerlə yeksan edilir. 1913-cü il təvəllüdlü kənd sakini Əliyev Dadaş Bayram oğlu, həyat yoldaşı, 1921-ci il təvəllüdlü Bəkizar Qulu qızı, qızları - 1956-cı il təvəllüdlü Havvaxanım, 1963-cü il təvəllüdlü Aliyə və ikiaylıq nəvəsi Hafizi ailənin iki mərtəbəli evində diri-diri yandırırlar. Ələ diri keçirdikləri kənd sakini, 1941-ci il təvəllüdlü Məmmədov Alməmməd Gülməmməd oğlunun əl-ayağını sarıyaraq həyətindəcə üstə atdıqları alovlanan ot tayasında yandırırlar. Qaçıb canını qurtarmağa çalışan Ənvər Əsgərovu və Məcid Əhmədovu yerlərindəcə güllələyirlər. Milis baş leytenantı Zirəddin Əliyev isə yaralanır;

**359. 28 mart 1990-cı il:** Daşnak terrorçuları Naxçıvanın Kərməçataq kəndinə həmlə edirlər. 38 yaşlı Vəli Zeynalov həlak olur;

**360. 29 mart 1990-cı il:** Daşnak terrorçularının atəşi altında qalan Sədərəkdə 12 yaşlı qız uşağı ağır güllə yarası alır;

**361. 05 aprel 1990-cı il:** Tərtər-Kəlbəcər marşrutu ilə hərəkət edən sərnişin avtobusunu daşnak terrorçuları gülləbaran edirlər. Nəticədə Bağlıpəyə kəndinin sakini Aslan Xıdırov qətlə yetirilir, iki sərnişin isə ağır güllə yarası alır;

**362. 10 aprel 1990-cı il:** Daşnak terrorçusu Laçın rayonunun Sadınlar kənd sakini İbrahimov Cavanşir Sarı oğlunu «Meşə başı» deyilən sahədə təsərrüfat işi gördüyü yerdə qətlə yetirmişdir;

**363. 30 aprel 1990-cı il:** Gürcüstanın Qasımlı kəndinin bir sakini və onun Azərbaycandan gəlmiş qonağı daşnak terrorçuları tərəfindən oğurlanır;

**364. 15-16 may 1990-cı il:** Daşnak terrorçuları Tuğ kəndini dalbadal atəşə tutur, kənd sakini A.İsmayılov ağır güllə yarası alır;

**365. 24 may 1990-cı il:** Daşnak terrorçuları Xankəndi şəhərində keşik çəkən hərbiçiləri atəşə tuturlar. V.Kirillov adlı hərbiçi qətlə yetirilir, dörd nəfər hərbiçi isə ağır güllə yarası alır;

**366. 26 may 1990-cı il:** Daşnak terrorçuları Qazax rayonunun Ermənistanla həmsərhəd Əskipara kəndinin uşaq bağçasını raket atəşiylə dağıdırlar;

**367. 26 may 1990-cı il:** Kəlbəcərdən Bərdəyə gedən avtomobil karvanı Ağdərə ərazisində daşnak təxribatçıları tərəfindən daşqalaq edilir. Nəticədə xeyli adam bədən xəsarəti alır, maşınlara ciddi zərər vururlar;

**368. 27 may 1990-cı il:** Daşnak terrorçuları Xanlar rayonunun Oktyabr kənd sakini T.İbrahimovu girov götürürlər;

**369. 29 may 1990-cı il:** A.Qurbanovun idarə etdiyi maşın Ağdam-Vəng yolunun Ağdərə ərazisində daşnak terrorçularının basdırdığı minaya düşür;

**370. 30 may 1990-cı il:** Ağdam-Şuşa xətti ilə hərəkət edən 17 maşın Əsgəran ərazisində daşnak təxribatçıları tərəfindən daşqalaq edilir. Xeyli adam bədən xəsarəti alır;

**371. 27-31 may 1990-cı il:** Daşnak terrorçuları tərəfindən Şahbuz rayonunun Kərməçataq, Babək və Culfa rayonlarının Ermənistanla həmsərhəd kəndləri atəşə tutulur, ölən və yaralananlar olur;

**372. 02 iyun 1990-cı il:** Daşnak terrorçuları tərəfindən Əsgəran rayonunun Badara-Daşbulaq kəndləri arasındakı keçid partladılır;

**373. 08 iyun 1990-cı il:** Azərbaycan vətəndaşları K.Bayramov və Ç.Mustafayev QAZ-24 avtomobilində Gürcüstana gedərkən Marneuli ərazisində beş daşnak terrorçusu tərəfindən girov götürülərək Ermənistana aparılmışlar. Burada onları vəhşicəsinə döydükdən sonra K.Bayramovu buraxmışlar. Ç.Mustafayevi qaytarmaq üçün isə 100 min manat təzminat istəmişlər;

**374. 08 iyun 1990-cı il:** Şuşa-Mingəçevir avtobus marşrutunun sürücüsü F.Salahov Xankəndi ərazisində daşnak terrorçuları tərəfindən vəhşicəsinə döyülmüş, Laçın-Şuşa marşrutunun sürücüsü A.Abbasov isə güllə yarası almışdır;

**375. 09 iyun 1990-cı il:** Daşnak terrorçuları Şahbuz rayonundakı C.Cabbarlı adına sovxozun çobanlarına hücum edərək 90 baş davarı, Kəlbəcərin Söyüdlü yaylağında çobanlara hücum edərək 747 baş davarı sürüb aparmışlar;

**376. 11 iyun 1990-cı il:** Daşnak terror qrupu Kəlbəcərin Yellicə kəndinin çobanlarına basqın etmişdir. B.Cəbrayılov və oğlanları Eldar, Ələkbər ağır güllə yarası almışlar. Eldarın həyatını xilas etmək mümkün olmamışdır. Terrorçular 600 baş qoyunu və 20 baş mal-qaranı çəkib aparmışlar;

**377. 13 iyun 1990-cı il:** Şuşalı sürücülər N.Muxtarov və A.Quliyevin avtomobilləri Əsgəran və Xankəndi ərazisində daşnak təxribatçıları tərəfindən

daşqalaq edilmişdir. Hər iki sürücü ağır bədən xəsarəti almış, maşınlarını işə yararsız hala salmışlar;

**378. 14 iyun 1990-cı il:** Daşnak terror qrupu Əsgəran rayonunun Meşəli kəndindən qayıdan maşınlara basqın etmiş, sıravi əsgər R.Koretski, Xocalı sakinləri V.Ağalarov və M.Həmidov güllə yarası almışlar;

**379. 21 iyun 1990-cı il:** Daşnak terrorçuları Laçın rayonunun Köhnəkənd sakinləri - ata Səlimov Kamal Bəşir oğlunu və 14 yaşlı oğlu Elçini naxır otardıqları «Seyidlər» adlanan otlaq sahəsində qətlə yetirirlər. Atanın gözləri çıxarılır, dili kəsilir, oğlunun kəllə nahiyəsi süngü ilə deşilir;

**380. 21 iyun 1990-cı il:** Daşnak terrorçuları Şuşa şəhərində ezamiyyətdə olan E.Əliyevi girov götürmüşlər. Həyat yoldaşına göndərdikləri məktubda bildirmişlər ki, əriniz ancaq aprel ayında həbs olunmuş daşnak terrorçusu V.Musaelyanla dəyişmək yolu ilə azad oluna bilər;

**381. 23 iyun 1990-cı il:** Daşnak terrorçuları Gədəbəyin Hacılar kəndinə hücum edərək 31 baş mal-qaranı sürüb aparmışlar;

**382. 24 iyun 1990-cı il:** Daşnak terror qrupu Kəlbəcərin «Tağıdərəsi» və «Üçtəpə» yaylaqlarına basqın edirlər. Ağcabədi rayonunun N.Nərimanov adına və Ş.Qurbanov adına kolxozlarına məxsus 2000 baş qoyunu, 13 baş mal-qaranı və dörd atı qənimət kimi aparırlar;

**383. 26 iyun 1990-cı il:** Daşnak terrorçuları Gədəbəyin Göyəli kəndinə basqın edirlər. Dinc sakinlərdən İ.Nuriyev, M.Nağıyev və İ.Orucov qətlə yetirilir. İ.İsmayılov itkin düşür. İ.Muradov ağır güllə yarası alır;

**384. 06 iyul 1990-cı il:** Daşnak terrorçuları tərəfindən Hadrut rayonunun Müşfiqabad kənd sakini M.Hacıyev qətlə yetirilmişdir;

**385. 11 iyul 1990-cı il:** Daşnak terrorçusu Aşot Misaqoviçin başçılıq etdiyi qrup Tərtərdən Kəlbəcərə mülki yük və sərnişin aparan avtomobil karvanına Ağdərə rayonunun Getavan və Çərəkdar kəndləri arasındakı «Otaq qaya» adlanan yerdə basqın edir. Üç nəfər (bir qadın - Çimnaz İsmayılova) qətlə yetirilir; 29 nəfər isə ağır güllə yarası alır;

**386. 12 iyul 1990-cı il:** Daşnak terrorçuları Laçın rayonunun Minkəndinin «Quşxana» kövşəninə basqın edirlər. 2060 baş davarı sürüb aparırlar;

**387. 15 iyul 1990-cı il:** Daşnak terrorçuları tərəfindən dəfələrlə hədələnən (milli ədavətin əleyhdarı olduğuna görə) Xankəndi təyyarə limanının rəisi Yevgeniya İşxanyanın evinə bomba atılır. Qadın qətlə yetirilir, əri isə ağır qəlpə yarası alır;

**388. 15 iyul 1990-cı il:** Şahbuz rayonunun Şada kənd sakini R.Rüstəmov daşnak terrorçuları tərəfindən girov götürülür;

**389. 17 iyul 1990-cı il:** Daşnak terror qrupu Laçının Ağanis kəndinə hücum edir. Ş.Xəlilov ayağından güllə yarası alır;

**390. 26 iyul 1990-cı il:** Daşnak terrorçuları Vedinin Yeni Həyat kəndinin sakini Süleymanov Şamo Əli oğlunun Əyircə yaylağındakı yurd yerinə basqın

edirlər. 74 yaşlı Şamo Süleymanov, həyat yoldaşı 70 yaşlı Seyran Yusifovanı və köməkçiləri 62 yaşlı Gözəl Həsənovanı qətlə yetirirlər. Hər üç cəsədin üstünə benzin töküb odlayırlar. Əmlakını, mal-pulunu qarət edirlər;

**391. 31 iyul 1990-cı il:** Azərbaycandan Gürcüstana qonaq qismində getmiş iki Şəmkir sakini daşnak terrorçuları tərəfindən Şulaverdə təcavüzə məruz qalır. Onlardan biri qətlə yetirilir, ikincisi isə girov qismində Ermənistana aparılır;

**392. 02 avqust 1990-cı il:** Daşnak terror qruplaşması İrəvanda hərbi hissə anbarına basqın edirlər. 165 ədəd reaktiv oqnemyot və onun 102 ədəd başlığını 675 ədəd siqnal raketini ələ keçirirlər;

**393. 03 avqust 1990-cı il:** Mığrının Kərcivan dəmiryol stansiyasında Bakı-Noraşen sərnişin qatarı daşnak təxribatçıları tərəfindən daşqalaq edilmişdir. Sərnişinlərdən A.Ağayeva ağır bədən xəsarəti almışdır;

**394. 03 avqust 1990-cı il:** Gürcüstan SSR Marneuli rayonunun Ahlı kənd sakini daşnak terrorçusu tərəfindən avtomat silahla qətlə yetirilmişdir;

**395. 09 avqust 1990-cı il:** Daşnak terrorçuları Kəlbəcərin Söyüdlü yaylağına basqın etmiş, 279 baş mal-qaranı sürüb aparmışlar;

**396. 10 avqust 1990-cı il:** Daşnak terrorçusu Armen Mixayloviç Avanesyanın başçılıq etdiyi terror qrupu Tiflis-Ağdam istiqamətində hərəkət edən sərnişin avtobusunda partlayış törətmiş, nəticədə 20 nəfər həlak olmuş, 30 nəfər yaralanmışdır. Terror qrupu ikinci dəfə 1991-ci il iyun ayının 17-də həmin istiqamətdə hərəkət edən avtobusu partlatmaq istərkən cinayət başında yaxalanmışdır. Armen Mixayloviç Avanesyan və Mixail Mixayloviç Tatevosov cinayət məsuliyyətinə cəlb olunmuş, cinayətin 3-cü iştirakçısı Vaçaqan Roçikoviç Ovanesyan barəsində axtarış elan edilmişdir. 1992-ci ilin mayında keçirilən məhkəmə iclasının qərarı ilə A.M.Avanesyan ölüm, M.M.Tatevosov 15 illik həbs cəzasına məhkum edilmişlər. Elə həmin ayda M.Tatevosov, sonra isə A.Avanesyan girovlarla dəyişdirilmişdir;

**397. 10 avqust 1990-cı il:** Daşnak terrorçuları Əsgəran rayonunun Kosalar kəndinə gedən maşın dəstəsinə Xankəndi ərazisində basqın etmişlər. 15 maşını sıradan çıxarmışlar. Xeyli adam bədən xəsarəti almışdır;

**398. 10 avqust 1990-cı il:** Daşnak terror qrupu tərəfindən «Şəmkir-Gəncə» avtomobil yolunda sərnişin avtobusu partladılır. 17 nəfər həlak olur, 26 nəfər yaralanır;

**399. 10 avqust 1990-cı il:** 8 nəfərlik daşnak terror qrupu Tovuz rayonunun Göyəbaxan kəndinin kövşəninə basqın edirlər. İki nəfəri girov götürüb, 279 baş mal-qaranı sürüb aparırlar;

**400. 11 avqust 1990-cı il:** Daşnak terrorçuları Kəlbəcərin Alalar kəndinə basqın edir, 45 baş mal-qaranı sürüb aparırlar;

**401.14 avqust 1990-cı il:** Daşnak terrorçuları Şuşa-Ağdam avtobusunu daşqalaq edirlər. Sürücü M.Əliyev baş nayihəsindən ağır xəsarət alır;

**402. 16 avqust 1990-cı il:** Daşnak terrorçuları Füzuli şəhəri ilə Dövlətyarlı kəndini birləşdirən Köndələn çayı üzərindəki körpünü partladırlar;

**403. 17 avqust 1990-cı il:** Qazax rayonunun Yuxarı Əskipara kəndi daşnak terrorçularının həmləsinə məruz qalır. F.Mehtiyev qətlə yetirilir, V.Həsənov, N.Eminov yaralanırlar;

**404. 19 avqust 1990-cı il:** Daşnak terrorçuları Əskipara-Qazax marşrutu ilə işləyən sərnişin avtobusuna həmlə edirlər. İki dinc sakin qətlə yetirilir. Milis əməkdaşı Ş.Çobanov və milis kapitanı A.Məmmədov həlak olur. İki milis əməkdaşı və iki mülki şəxs güllə yarası alır;

**405. 24 avqust 1990-cı il:** Kəlbəcər rayonunun Alalar kənd sakini B.Ramazanov daşnak terrorçuları tərəfindən girov götürülür;

**406. 24 avqust 1990-cı il:** Daşnak terrorçuları Xankəndi ərazisində R.Ələkbərovun idarə etdiyi QAZ 24 markalı maşınının yolunu kəsərək onu ailəsi ilə birlikdə yerə düşürmüşlər. Bütöv bir ailəni qaz balonu vasitəsi ilə boğmağa cəhd göstərmişlər. Huşunu itirmiş ata və körpələri daxili qoşun əsgərlərinin köməyi ilə ölümün pəncəsindən xilas olmuşlar;

**407. 25 avqust 1990-cı il:** Daşnakların «Amaras» adlandırdıqları terror qrupu Şuşanın Göytəpə yaşayış məntəqəsinə basqın edirlər. Valideynləri qətlə yetirilən və evləri yandırılan 5 yaşlı Elçin Allahverdiyev yetim və evsiz qalır;

**408. 28 avqust 1990-cı il:** Daşnak terrorçusu Şəmkir avtovağzalında sərnişin yığmağa dayanmış avtobusda partlayış törədir. Nəticədə ağır dərəcədə yanğın almış Elnora Məhərrəmova görmə qabiliyyətini itirir. Hər iki gözdən kor olur;

**409. 05 sentyabr 1990-cı il:** Ağdərə rayonunun Çıldıran kəndində yuva qurmuş daşnak terror qrupu qonşu Güneypəyə basqın etmişdir. Nəticədə 13 yaşlı kənd sakini G.Novruzov ağır bədən xəsarəti almışdır;

**410. 07 sentyabr 1990-cı il:** Gorus rayonunun Xazanvar kəndində yuva qurmuş daşnak terrorçuları Laçın rayonunun Hacılar kəndinə və Qaydulaq örüşünə basqın edərək 156 baş mal-qaranı sürüb aparmışlar;

**411. 08 sentyabr 1990-cı il:** Laçın rayonunun Köhnəkənd sovetliyinin mərkəzi malikanəsindən yük maşınlarında Alcana kəndinə gedən üç qardaşdan Elman və Xanoğlan Süleyman oğlu Süleymanov qardaşları daşnak terrorçuları tərəfindən atılan güllə atəşləri ilə yarı yolda qətlə yetirilirlər. Üçüncü qardaş Elxan Süleymanov isə ağır bədən xəsarəti alır;

**412. 09 sentyabr 1990-cı il:** Daşnak terrorçuları Xankəndində Sahib İmanovu əsir götürməyə çalışmışlar. Məqsədlərinə nail olmasalar da, onu yaralamışlar. Yaralı özünü şəhər xəstəxanasına çatdırsa da, daşnak xislətli erməni həkimləri ona ilk tibbi yardım göstərməkdən imtina etmişlər;

**413. 10 sentyabr 1990-cı il:** Martuni rayonunda yuva salmış daşnak terrorçuları qrup halında rayon DİŞ-nə basqın edərək şöbənin rəis müavini

M.Bəylərovu, əməliyyat müvəkkili A.Məmmədovu və milis serjantı F.Mirzəyevi girov götürmüşlər;

**414. 10 sentyabr 1990-cı il:** Daşnak terrorçuları uzun müddət Ağdərə Rayon Partiya Komitəsinin II katibi işləyən Arif Əliyevi girov götürürlər. Onun dişlərini sökür, 12 gün işgəncə altında saxlayırlar. Onu əsir düşmüş terrorçulara dəyişdirirlər;

**415. 11 sentyabr 1990-cı il:** Xocavənd rayonunda məskən salmış daşnak terrorçuları Əmiralılar kəndinə basqın etmişlər. Odlu silahlardan açdıqları atəşlə kənd sovetinin sədrinə, onun 14 yaşlı oğlu Vüqara və iki qadına bədən xəsarəti yetirmişlər;

**416. 12 sentyabr 1990-cı il:** Daşnakların təxribat qrupu Əsgəran rayonu ərazisində Xocalıya gedən sərnişin avtobusunu daşqalaq edərək 5 nəfər sərnişinə ağır bədən xəsarəti yetirmişdir;

**417. 13 sentyabr 1990-cı il:** Əsgəran şəhərində məskən salmış daşnak terrorçuları Məhərrəmov soyadlı Azərbaycan türkünü vəhşicəsinə döymüşlər. Sonra isə Ağdam-Şuşa sərnişin avtobusuna basqın edərək bir neçə sərnişinə bədən xəsarəti yetirmişlər;

**418. 14 sentyabr 1990-cı il:** Əsgəran rayon DİŞ-nin daşnak xislətli əməkdaşları Fərrux və Ağbulaq kəndlərində yuva qurmuş daşnak terrorçuları ilə birləşərək Ağdam rayonunun Cinli və Gülablı kəndlərini aramsız güllə yağışı altında saxlamışlar;

**419. 15 sentyabr 1990-cı il:** Daşnak terrorçusu tərəfindən Xankəndi şəhərində DQMV-nin radio-televiziya mərkəzi partladılır. İmkan olmasına baxmayaraq, terrorçunun şəxsiyyəti müəyyən edilmir;

**420. 02 oktyabr 1990-cı il:** Daşnak terrorçuları Kərkicahan kəndində törətdikləri bomba partlayışı nəticəsində birinci sinif şagirdi E.Abbasov həlak olmuş, qardaşı A.Abbasov isə yaralanmışdır;

**421. 03 oktyabr 1990-cı il:** Daşnak terrorçuları Kəlbəcər rayonunun Qılınclı kənd sakini Elbrus Rəsulovu Daşkəsən ərazisində girov götürərək Ermənistana aparmışlar;

**422. 05 oktyabr 1990-cı il:** Qafan şəhərində yuva salmış daşnak terrorçuları Zəngilan şəhər sakinlərindən üç nəfəri girov götürmüşlər;

**423. 10 oktyabr 1990-cı il:** Daşnak terrorçuları Gədəbəy rayonunun Rəsullu kəndinə basqın edərək 89 baş mal-qaranı sürüb aparmışlar;

**424. 13 oktyabr 1990-cı il:** Daşnak terrorçuları Laçın rayonunun Maebinəsi kəndinə həmlə edirlər. 80 yaşlı kənd sakini Cəfərov və onun iki nəvəsi ağır qəlpə yarası almışlar;

**425. 15 oktyabr 1990-cı il:** Daşnak terrorçuları tərəfindən «Simferopol-Bakı» sərnişin qatarında partlayış törədilmişdir. Qatar qəzaya uğramış, 11 nəfər ağır bədən xəsarəti almışdır;

**426. 21 oktyabr 1990-cı il:** Laçın rayonunun Ağanus kənd sakini Məhərrəmov Təvəkkül Adil oğlu Qaladərəsi kəndinə sığınmış daşnak terrorçuları tərəfindən kəndin kənarında qətlə yetirilmişdir;

**427. 14 noyabr 1990-cı il:** Daşnak terrorçuları Cəbrayıl rayonunun Söyüdlü kənd sakini Məcid Allahverdiyevi girov götürmüşlər;

**428. 15 noyabr 1990-cı il:** Daşnak terrorçuları Ağdamdan Şuşa istiqamətində gedən «QAZ-24» markalı maşına həmlə edirlər. Sürücü R.Məmmədov bıçaqlanır, sərnişin Q.Cümşüdov vəhşicəsinə döyülür, maşının ehtiyat hissələri oğurlanır;

**429. 18 noyabr 1990-cı il:** Daşnak terrorçuları Şuşanın Göytala kəndinə basqın edirlər. Nəticədə V.Bayramov güllə yarası alır;

**430. 19 noyabr 1990-cı il:** Daşnak terrorçuları Xankəndində vilayət prokurorluğunun baş müstəntiqi Siyasət Alıyevi işlədiyi binanın qabağında tutaraq üstünə bıçaq çəkmişlər. Müstəntiq bir neçə bıçaq yarası ilə ağır vəziyyətdə xəstəxanaya düşmüşdür;

**431. 20 noyabr 1990-cı il:** Sumqayıt şəhər sakini Şahlar Cəlil oğlu Nəcəfov Laçın rayonunun Zabux kəndinə tikinti materialı aparlarkən daşnak terrorçuları tərəfindən qətlə yetirilmişdir. Sərnişin Etibar Məmmədov isə ağır güllə yarası almışdır;

**432. 21 noyabr 1990-cı il:** Laçın rayonunun Seyidlər kənd sakini Elxan Məmmədov Zabux kəndi yaxınlığında daşnak terrorçuları tərəfindən qətlə yetirilmişdir;

**433. 22 noyabr 1990-cı il:** Daşnak terrorçuları saat $9^{00}$ radələrində qəflətən Kərkicahan qəsəbəsinə basqın etmiş, qəsəbə sakini Həsənov Tofiq Bəylər oğlunu qətlə yetirmişlər. Mərhumun meyiti tanınmaz hala salınmışdır;

**434. 24 noyabr 1990-cı il:** Daşnak terrorçuları tərəfindən X.Hüseynovun idarə etdiyi «QAZ-53» markalı maşın Xankəndi-Xocavənd yolunda güllənbaran edilmişdir. X.Hüseynov və iki mülki şəxs qətlə yetirilmişdir;

**435. 26 noyabr 1990-cı il:** Daşnak terrorçuları vilayət prokurorluğunun müstəntiqi Ö.Əliyevə hücum edərək ona ağır bıçaq yaraları vurmuşlar;

**436. 29 noyabr 1990-cı il:** Xocalı təyyarə limanına növbə çəkməyə gedən milis işçilərini aparan avtobus daşnak terrorçularının basqınına məruz qalır. Bir milis işçisi həlak olur, 16 nəfər əməkdaş isə güllə yarası alır;

**437. 30 noyabr 1990-cı il:** Çaykəndinə sığınmış daşnak terrorçuları tərəfindən Xanlar rayon sakinləri Məmmədəli Əhmədov, Sənan Ağayarov, Raqub Rzayev, Şərif Məmmədov, Sərhəddin Əliyev, Rafiq Məmmədov qətlə yetirilmişlər;

**438. 30 noyabr 1990-cı il:** Xanlar rayonunun Martunaşen erməni kəndinə sülh danışığına gedən ictimaiyyət nümayəndələri kəndə sığınmış daşnak terrorçuları tərəfindən atəşlə qarşılanır. Səkkiz nəfərlik elçinin dördü qətlə yetirilir,

iki nəfəri yaralanır, iki nəfəri isə girov götürülür. Girov götürülənlərdən biri sonradan işgəncə ilə qətlə yetirilir;

**439. 30 noyabr 1990-cı il:** Daşnak terrorçuları milis işçilərini Şuşaya aparan avtobusa Ağa körpüsündə basqın edirlər. Milis serjantları R.Yusifov, A.Xıdırov və İ.Yaqubov güllə yarası alırlar;

**440. 02 dekabr 1990-cı il:** Xanlar rayonunun Çaykəndi və Kamo kəndlərində məskən salmış daşnak terrorçuları ətraf kəndlərə basqınlar edərək 11 Azərbaycan türkünü qətlə yetirmişlər;

**441. 03 dekabr 1990-cı il:** Daşnak terror qrupu Cəbrayıl rayonunun Yuxarı Məzrə kəndinə basqın etmiş, əliyalın, dinc kənd sakinlərindən Quliyev Aydın Poladxan oğlu, Rəhimov Mətləb Əvəz oğlu qətlə yetirilmiş, iki nəfər isə güllə yarası almışdır;

**442. 04 dekabr 1990-cı il:** Əsgəranda məskunlaşmış daşnak terrorçuları 20 maşından ibarət karvana basqın etmişlər. 12 sürücüyə ağır bədən xəsarəti yetirmişlər;

**443. 05 dekabr 1990-cı il:** Xankəndində idarə və müəssisələrin Azərbaycan dilində yazılmış bütün ünvan lövhələri daşnak terrorçuları tərəfindən qoparılıb atılmış, 92-41 AQA markalı maşının sürücüsü döyülmüş, maşın isə qaçırılmışdı;

444. **06 dekabr 1990-cı il:** Daşnak terrorçuları Tərtər rayonunun Sarov kəndinin fermasına həmlə edirlər. Çoban Q.Bayramov ağır güllə yarası alır;

**445. 12 dekabr 1990-cı il:** Ağdam-Şuşa marşrutu ilə hərəkət edən avtobus Xankəndi ərazisində daşnak terrorçularının həmləsinə məruz qalır. 1964-cü il təvəllüdlü sərnişin A.Mehrəliyev ağır güllə yarası alır;

**446.14 dekabr 1990-cı il:** Tərtər rayonunun Umudlu kəndinə tikinti materialı aparan 6 maşın karvanı daşnak terrorçularının təcavüzünə məruz qalmışdı. Sürücü A.Məmmədov həlak olmuş, mühafizəçi D.Şakirov və sürücü S.Əmirov yaralanmışlar;

**447.15 dekabr 1990-cı il:** Şuşa rayonunun Cəmilli kənd sakinlərinin oturduğu «ZİL-130» markalı yük maşını Kosalar kəndinə gedərkən «İstisu» adlanan ərazidə daşnak terrorçuları «Napaleon» ləqəbli Ayriyan Arkadi Abramoviç və Babayan Samvel Andronikoviçin qrupu tərəfindən atəşə tutulmuşdur. Üç nəfər - milis baş leytenantı M.Cəbrayılov, mühafizə şöbəsinin əməkdaşı A.Əliyev, kənd sakini A.Cavadov həlak olmuş, beş nəfər ağır güllə yarası almışdır. Hər iki terrorçu cinayət məsuliyyətinə cəlb olunmuş, 19 iyun 1992-ci il tarixli məhkəmə qərarı ilə onlar ölüm cəzasına məhkum edilmişlər. Lakin bir ay sonra onlar əsir və girovlarla dəyişdirilmişdir. S.Babayan 1993-1999-cu illərdə qondarma DQ Respublikasının müdafiə naziri olmuşdur;

**448. 15 dekabr 1990-cı il:** Daşnak terrorçuları Ağdərə rayonunun Sırxavənd kəndinə həmlə etmişlər. 18 yaşlı kənd sakini A.Həsənov güllə yarası almışdır;

**449. 17 dekabr 1990-cı il:** Şərur rayonunda pusqu quran daşnak terrorçuları 23 yaşlı milis işçisi F.Əliyevi və mülki şəxs İ.Hacıyevi vəhşicəsinə qətlə yetirmişlər. Dinc sakin F.Abdullayev güllə yarası almışdır;

**450. 18 dekabr 1990-cı il:** Daşnak terrorçuları Daşkəsən rayonunun Lenin adına sovxozun otlaq sahəsinə basqın etmişlər. 27 yaşlı R.İsmayılovu girov götürərək 500 baş qoyun sürüsünü çəkib aparmışlar;

**451. 09 yanvar 1991-ci il:** Qaradağlı kəndinə gedən «UAZ-469» markalı 53-55 AQT dövlət nişanlı minik maşını daşnak terrorçuları tərəfindən gülləbaran edilir. Qaradağlı kənd sakini S.Bayramov yerindəcə həlak olur, sürücü N.Səmədov isə ağır güllə yarası alır;

**452. 09 yanvar 1991-ci il:** Daşnak Arno Mixayıloviç Mkrtıçyanın rəhbərlik etdiyi terror qrupu tərəfindən Laçın-Şuşa yolunun 5-ci km-də «Molodyoj Azerbaydjana» qəzetinin müxbiri Salatın Əsgərova və Sovet ordusunun 3 zabitinin oturduğu avtomobil güllələbaran edilmişdir. 4 nəfər həlak olmuşdur. Terrorçular ələ keçmiş və mühakimə edilmişlər. Terrorçulardan Mkrtıçyan A.M., Arustamyan Q.M., Zakaryan A.A., Sərkisyan M.S., Osipyan Y.R. 15 il, Qriqoryan Q.S. isə 5 il müddətinə azadlıqdan məhrum edilmişdir. Lakin terrorçular 1996-cı il may ayının 8-də birtərəfli qaydada Ermənistana verilmişlər;

**453. 19 yanvar 1991-ci il:** Baqmanyan Akop Qavruşoviç, Baqmanyan Samvel Qavruşoviç və Antonyan Artuş Qriqoryeviçdən ibarət daşnak terror qrupu tərəfindən DQMV DİÍ-nin rəisi işləyən general-mayor V.Kovolyovun həyatına sui-qəsd edilir. Lakin o, xoş təsadüf nəticəsində sağ qalır;

**454. 21 fevral 1991-ci il:** Daşnak terrorçusu tərəfindən Ağdam şəhərinin avtovağzalında partlayış törədilir. Cinayətin izini itirmək üçün partlayışın qazdan törəndiyini elan edənlər unudurlar ki, həmin gün şəhərdə qaz olmayıb, daha doğrusu, 3 gün əvvəl kəsilib;

**455. 20 fevral 1991-ci il:** Daşnak terrorçuları Laçın-Yevlax yolunda «Kamaz-5511» markalı 25-31 AQT dövlət nişanlı avtomobili partladırlar. Sürücü və maşındakı sərnişin həlak olur;

**456. 24 fevral 1991-ci il:** Laçın-Yevlax yolunda 64-90 AQF dövlət nişanlı sərnişin avtobusu daşnak terrorçuları tərəfindən partladılır. Sərnişinlərdən 7 nəfər ağır bədən xəsarəti ilə xəstəxanaya düşür;

**457. 24 fevral 1991-ci il:** Şuşa-Ağdam marşrutu ilə işləyən sərnişin avtobusu Xankəndi ərazisində daşnak terrorçularının basdırdıqları minaya düşür. Avtobus tamamilə sıradan çıxır. 30 sərnişindən 8-i müxtəlif dərəcəli bədən xəsarəti alır;

**458. 25 fevral 1991-ci il:** Daşnak terror qrupu Şuşa rayonunun Cəmilli kəndinə basqın etmiş, 14 yaşlı Elşən Sadıqovu qətlə yetirmişlər;

**459. 10 mart 1991-ci il:** Daşnak terror qrupu Xocavənd rayonunun Qaradağlı kəndinin fermasına basqın edir. İki ferma işçisi qətlə yetirilir;

**460. 14 mart 1991-ci il:** Daşnak terror qrupu Ağdam-Şuşa marşrutu ilə işləyən sərnişin avtobusunu Əsgəran rayonu ərazisində güllələbaran edir. Nəticədə üç sərnişin həlak olur, iki nəfəri isə ağır güllə yarası alır;

**461. 28 mart 1991-ci il:** Cəbrayıl rayonunun İsaxdı kəndindən Xocavənd rayonunun Dolanlar kəndi istiqamətində hərəkət edən «KAMAZ» markalı yük maşını daşnak terrorçularının yola basdırdıqları minaya düşür. İki mülki şəxs həlak olur, bir nəfər isə qəlpə yarası alır;

**462. 07 aprel 1991-ci il:** Daşnak terrorçuları Qubadlı rayonunun Yuxarı Çibikli kəndinə basqın edirlər. Kənd sakinlərindən Hüseynov Şahin İlyas oğlu, Nəzərov Qərib Qulam oğlu və Oleq adlı rus zabiti qətlə yetirilir, iki nəfər güllə atəşi ilə ağır yaralanır;

**463. 08 aprel 1991-ci il:** Daşnak terrorçularından S.Baqmanyan, A.Baqmanyan, A.Antonyan, K.Akopyan və K.Yegiyandan ibarət terror qrupu SSRİ DQ-in Zaqafqaziya və Şimali Qafqaz üzrə idarəsinin rəis müavini polkovnik V.Blaxotini qətlə yetirirlər. Terrorçular özlərini Qarabağda və xarici erməni icmalarında fəaliyyət göstərən «Amaras» elmi-xeyriyyə təşkilatının üzvləri kimi qələmə verirlər;

**464. 11 aprel 1991-ci il:** Daşnak terrorçuları tərəfindən Ağdamdan Şuşaya sərnişin aparan mülki vertolyot Şuşa səmasında vurulmuş və yerə enməklə partlamışdır. Yaralananlar olsa da, xoşbəxtlikdən insan tələfatı olmamışdır;

**14 aprel 1991-ci il:** Daşnak terrorçuları tərəfindən Rostov şəhərinin girəcəyində Simferopol-Bakı qatarında partlayış törədilmişdir. Xoşbəxtlikdən bu dəfə xəsarət alan olmamışdır;

**466. 16 aprel 1991-ci il:** Səhər saat $10^{00}$ radələrində Pirəbədi bulağı yaxınlığında Füzuli rayon avtonəqliyyat müəssisəsinə məxsus 93-69 AQV dövlət nişanlı taksi maşını daşnak terrorçuları tərəfindən güllələbaran edilmişdir. Füzuli rayon sakinləri İbrahimov Adil İntiqam oğlu və İsmayılov Mübariz İnqilab oğlu qətlə yetirilmiş, digər iki sərnişin ağır güllə yarası almışdır;

**467. 16 aprel 1991-ci il:** Daşnak terror qrupları tərəfindən Xocavənd (Martuni) rayonunun azərbaycanlılar yaşayan Xocavənd, Qaradağlı, Əmiralılar, Muğanlı kəndləri atəşə tutulur. Ayrı-ayrı kəndlərdə üç ev partladılır. Qarakənd döngəsində bir nəfər Azərbaycan türkü qətlə yetirilir. Xocavənd rayonunun Kenxurd kəndində anadan olmuş qatı türk düşməni Z.Balayan 16 aprel 1991-ci ildə törədilən bu terror aktlarında bilavasitə iştirak edir;

**468. 18 aprel 1991-ci il:** Daşnak terrorçusu Sərkisyan Qrarik Qriqoryeviçin başçılıq etdiyi qrup tərəfindən 3 polis əməkdaşı Ağoğlan kilsəsi yaxınlığında qətlə yetirilmişdir. Terrorçular cəzasız qalmışdır;

**469. 23 aprel 1991-ci il:** Daşnak terrorçuları tərəfindən səhər saat $4^{00}$ radələrindən Şuşa şəhəri top və raket atəşinə tutulur. Yuxarı Gövhərağa məscidinin damı və 22 ev dağıdılır. Dörd nəfər dinc sakin ağır qəlpə yarası alır;

**470. 26 aprel 1991-ci il:** Goranboy rayonunun erməni kəndlərində vəzifə borclarını yerinə yetirən polis əməkdaşları Xametov Azər, Rəhimxanov Səlimxan daşnak terrorçuları tərəfindən qətlə yetirilmişlər;

**471. 27 aprel 1991-ci il:** Daşnak terror qrupu Qubadlı rayonunun Məzrə kəndinə basqın edir. Əhalisi yurd-yuvasından didərgin salınmış kənd tamamilə yandırılır;

**472. 30 aprel 1991-ci il:** Xanlar rayonunun Çaykəndinə sığınmış daşnak terror qrupu tərəfindən SSRİ DİN DQ-nın 13 hərbi qulluqçusu və bir mülki şəxs girov götürülmüşdür;

**473. 03 may 1991-ci il:** Topla silahlanmış daşnak terrorçuları Qazax şəhərini mərmi atəşinə tutur. Nəticədə İsmayılovlar ailəsinin evi dağıdılır, ailə başçısı həlak olur;

**474. 06 may 1991-ci il:** Daşnak terrorçuları Ağdərə rayonunun Umudlu kənd sakini Nigar Mustafayevanın evini talan edir və dağıdırlar;

**475. 09 may 1991-ci il:** Daşnak terrorçuları tərəfindən Azərbaycan SSR-nin Qarabağ üzrə təşkilat komitəsinin sədri V.Polyaniçkonun həyatına sui-qəsd edilməsinə cəhd göstərilir. Lakin qəsd baş tutmur;

**476. 30 may 1991-ci il:** Daşnak terrorçuları Dağıstanın Xasavyurt dəmiryol dayanacağının yaxınlığında Moskva-Bakı istiqamətində hərəkət edən sərnişin qatarını partladırlar. Nəticədə 12 nəfər (7-si qadın) həlak olur, 22 nəfər yaralanır;

**477. 30 may 1991-ci il:** Daşnak terror qrupu Ağdamın Əliqalın kəndinə basqın edir, 12 dinc sakin güllə yarası alır, üç nəfəri isə girov götürürlər;

**478. 06 iyun 1991-ci il:** Gorus istiqamətindən Qubadlı rayonunun Yuxarı Cibikli kəndinə doğru uçan vertolyotdakı daşnak terrorçuları avtomat silahdan kəndi atəşə tutur. Bir nəfər dinc kənd sakini qətlə yetirilir;

**479. 09 iyun 1991-ci il:** Daşnak terror qrupu Tərtərin Qaradağlı kəndinə basqın edir. İki dinc kənd sakini qətlə yetirilir. İki nəfər isə güllə yarası alır;

**480. 09 iyun 1991-ci il:** Daşnak terror qrupu Xocavənd rayonunun Zamzur kəndinə basqın edir. Bir milis əməkdaşı güllə yarası alır;

**481. 10 iyun 1991-ci il:** Daşnak terrorçuları Tovuz rayonunun Ağdam kəndində yerləşən zastavaya həmlə edirlər. Bir hərbi qulluqçu güllə yarası ilə hospitala düşür;

**482. 19 iyun 1991-ci il:** Daşnak terrorçuları tərəfindən «Yevlax-Laçın» yolunda avtomaşın partladılır. Üç nəfər həlak olur, üç nəfər isə ağır qəlpə yarası alır;

**483. 19 iyun 1991-ci il:** Daşnak terrorçuları Şuşa-Xankəndi yolunda hərbi minik maşınına həmlə edirlər. Bir hərbi qulluqçu SSRİ DİN DQ mayoru Xomiç həlak olur, digəri isə ağır güllə yarası alır;

**484. 22 iyun 1991-ci il:** Daşnak terrorçuları Ağdərə rayonunun Sırxavənd kəndinə basqın edirlər. Bir dinc sakin qətlə yetirilir;

**485. 25 iyun 1991-ci il:** Daşnak terrorçuları Ağdərənin «Mahal yurdu» yaylağında M.F.Axundov adına sovxozun çobanını qətlə yetirirlər;

**486. 26 iyun 1991-ci il:** Daşnak terrorçuları Murovdağa gedən yolda Ağdərə rayonunun İmarət Qərvənd kənd sakinlərindən birini qətlə yetirir, digəri isə ağır güllə yarası alır;

**487. 28 iyun 1991-ci il:** Daşnak terror qrupu Xocavənd rayonunun Qaradağlı kəndinin qaramal fermasına basqın edirlər. Altı nəfər mala baxanı qətlə yetirirlər. İki nəfər isə yaralanır. 130 baş iribuynuzlu mal-qaranı aparırlar;

**488. 30 iyun 1991-ci il:** Daşnak terrorçuları Temirtau (Dağıstan MSSR) dayanacağı yaxınlığında Bakı istiqamətində hərəkət edən sərnişin qatarında partlayış törədirlər. Nəticədə 16 nəfər həlak olur, 20 nəfər yaralanır;

**489. 04 iyul 1991-ci il:** Ağdərə rayonunun Umudlu kəndinin 70 yaşlı sakini daşnak terrorçuları tərəfindən qətlə yetirilir;

**490. 04 iyul 1991-ci il:** Daşnak terrorçuları Füzuli rayonunun Qacar kəndinə basqın edirlər. Bir nəfər dinc sakin güllə yarası alır;

**491. 06 iyul 1991-ci il:** Goranboy rayonunun ermənilər yaşayan kəndlərinə sığınmış daşnak terrorçuları vəzifə borclarını yerinə yetirən polis əməkdaşları Vahid İbrahimov, İlqar Əliyev və Məhərrəm Süleymanovu qətlə yetirirlər;

**492. 07 iyul 1991-ci il:** Daşnak terrorçuları tərəfindən Ağdərə rayonunun Sırxavənd kəndi yaxınlığında 31-85 AQU dövlət nişanlı maşın atəşə tutulur, dörd nəfər qətlə yetirilir, sonra isə cəsədləri yandırılır;

**493. 15 iyul 1991-ci il:** Daşnak terror qrupu Goranboy rayonunun erməni kəndlərində pasport rejimini yoxlayan milis bölməsinə həmlə edir. İki milis işçisi güllə yarası alır;

**494. 17 iyul 1991-ci il:** Saat $18^{00}$ radələrində Kəlbəcərin Xanımdərəsi və Zor kəndləri daşnak terrorçuları tərəfindən atəşə tutulur, iki milis nəfəri qətlə yetirilir, iki nəfəri isə yaralanır. Aşağı Ayrım kəndinə basqın edən terrorçular bir nəfəri girov götürürlər. 20 baş qaramalı sürüb aparırlar;

**495. 20 iyul 1991-ci il:** Daşnak terrorçuları Zəngilan rayonundakı Ağbəndə basqın edirlər. Ölən və yaralananların olduğu qeydə alınır;

**496. 20 iyul 1991-ci il:** Daşnak terrorçuları Goranboyda milis postuna hücum edirlər. Ölən və yaralananların olduğu qeydə alınır;

**497. 21 iyul 1991-ci il:** Laçın rayonunun yaylaqlarındakı yurd yerləri «Tiqran Mets» adlı daşnak terror dəstələrinin təcavüzünə məruz qalır. Doqquz nəfər qətlə yetirilir, bir nəfər yaralanır, bir nəfər itkin düşür. 13 min baş qoyun, 29 baş qaramal, 27 baş at terrorçular tərəfindən aparılır;

**498. 23 iyul 1991-ci il:** Daşnak terror birləşmələri Şuşa rayonunun Cəmilli kəndinə həmlə edir. Kənd qarət olunur, evlər yerlə yeksan edilir, 28 nəfər qətlə yetirilir. Kənd əhalisi etnik təmizləmə siyasətinin günahsız qurbanlarına çevrilir;

**499. 29 iyul 1991-ci il:** Hadrutda məskən salmış daşnak terror qrupu kənd təsərrüfat işləri ilə məşğul olan iki Azərbaycan türkünü qətlə yetirirlər;

**500. 31 iyul 1991-ci il:** Səhər tezdən Mahaçqala yaxınlığında Moskva-Bakı sərnişin qatarında erməni terrorçuları tərəfindən partlayış törədilir. Nəticədə 15 nəfər həlak olur, 18 sərnişin isə ağır xəsarət alır;

**501. 31 iyul 1991-ci il:** Daşnak terrorçuları Ağdərənin Umudlu kəndinə həmlə edirlər. Bir nəfər mülki şəxs yaralanır;

**502. 31 iyul 1991-ci il:** Daşnak terror qrupu Ağdərə ərazisində SSRİ hərbi qulluqçularını aparan maşına basqın edirlər. Nəticədə dörd hərbi qulluqçu və Perm şəhərindən gəlmiş jurnalist güllə yarası alır;

**503. 02 avqust 1991-ci il:** Əsgəranın Badara kəndi yaxınlığında daşnak terrorçuları təcili yardım maşınını güllələbaran edirlər. İki tibb işçisi ağır güllə yarası alır;

**504. 02 avqust 1991-ci il:** Daşnak terror qrupu Goranboyda qohumları evinə gedən dörd nəfər Gəncə sakinini girov götürür. Terrorçular üç əsiri qaytarmaq üçün 90 min rus rublu tələb edirlər;

**505. 02 avqust 1991-ci il:** Daşnak terror qrupu tərəfindən Xocavənd rayonunun Dolanlar kəndində avtomaşın partladılır. Nəticədə dörd nəfər həlak olur, səkkiz nəfər yaralanır;

**506. 06 avqust 1991-ci il:** Daşnak terrorçuları tərəfindən Laçın rayonunun kənd məktəbi atəşə tutulur. Nəticədə bir nəfər güllə yarası alır;

**507. 06 avqust 1991-ci il:** Xocavənd rayonunun Dolanlar kəndində iki mülki şəxs daşnak terrorçularının basdırdığı minaya düşür. Hər ikisi həlak olur. Yaralananların olduğu bildirilir;

**508. 08 avqust 1991-ci il:** Qərbi Azərbaycanın türklər yaşayan sonuncu kəndi Nüvədinin mühafizəsində duran Sovet ordu hissələri kəndi tərk edir. Bununla bahəm daşnak terror qruplaşmaları tərəfindən kənd mühasirəyə alınır, evlər aramsız atəşə tutulur. Kəndin əliyalın, müdafiəsiz qalmış 1000 nəfərlik dinc sakini dədə-baba yurdlarını məcburiyyət qarşısında tərk etməli olurlar;

**Qeyd:** 25 yanvar 1988-ci ildən 8 avqust 1991-ci ilədək daşnak terror qrupları və birləşmələri ermənipərəst M.Qorbaçovun başçılıq etdiyi SSRİ hökuməti rəhbərlərinin, bədnam Sovet ordusunun və xristian dünyasının himayəsi altında Qərbi Azərbaycanda (indiki Ermənistan Respublikası) etnik təmizləmə - «Türksüz Ermənistan» və Azərbaycan türklərinin soyqırımı siyasətini son həddə çatdırmışlar. 460 nəfər qətlə yetirilmiş, 1154 nəfər yaralanmış, yüzlərcə adama işgəncələr verilmişdir. Ancaq azərbaycanlılar yaşayan 185 kənd yerlə yeksan edilmişdir. 265 min Azərbaycan türkü öz dədə-baba yurdlarından didərgin salınmışdır. Qaçqın düşmüş əhalinin 20 milyard dollarlıq (ABŞ $) əmlakı, 8 min $km^2$ torpaq sahəsi Ermənistan Respublikasının ərazisində qalmışdır. Qaçqınlardan 231400 nəfəri Azərbaycan respublikasının, 33600 nəfəri isə postsovet məkanındakı (MDB) ölkələrin ərazilərində özlərinə sığınacaq tapmışlar. Ümumiyyətlə, ötən yüzilliyin başlanğıcında başlamış və davam edən bu proseslər nəticəsində Qərbi

Azərbaycanda yaşayan 1 milyon Azərbaycan türkündən bugünkü törəmə Ermənistan Respublikasında bir nəfəri belə qalmamışdır;

**509. 10 avqust 1991-ci il:** Daşnak terror qrupu Culfa rayonunun Dəmirli yaylağına basqın edir. «Qələbə» kolxozunun çobanı öldürülür. 1050 baş davar sürülüb aparılır;

**510. 11 avqust 1991-ci il:** Daşnak terror qrupu Xocavənd rayonunun Ağcakəndindəki polis postuna həmlə edir. Polis kiçik serjantı Məmmədov Əmir İbrahim oğlu güllə yarası alır;

**511. 11 avqust 1991-ci il:** Cəbrayıl DİŞ-nin əməkdaşlarını daşıyan UAZ-469 markalı maşın daşnak terrorçularının Zamzur kəndi ərazisində basdırdıqları minaya düşür. Partlayış nəticəsində sürücü mülki şəxs Şöhbət Məmmədov, polis baş leytenantı Elman Hüseynov, polis nəfərləri Nadir Verdiyev, Fərhad Həsənov, Nadir Mustafayev müxtəlif dərəcəli xəsarətlər alır;

**512. 15 avqust 1991-ci il:** Daşnak terrorçuları DQMV Respublika Təşkilat Komitəsinin sədri V.Polyaniçkonun həyatına sui-qəsd etməyə cəhd göstərirlər. Atılmış qumbara partlayışı nəticəsində UAZ-469 maşınında iki mühafizəçi qəlpə yarası alır. Nəhayət o, Şimali Osetiyada terrorçuların hədəfinə keçir və həyatını itirir;

**513. 18 avqust 1991-ci il:** Goranboy rayonunun Buzluq kəndinə sığınmış daşnak terrorçuları vəzifə borclarını yerinə yetirən polis əməkdaşları Hüseyn Mehdiyev, Akif Abdullayev və Eldar Babayevi qətlə yetirmişlər;

**514. 21 avqust 1991-ci il:** Daşnak terrorçuları Qazax rayonu ərazisində üç mülki şəxsi qətlə yetirirlər;

**515. 21 avqust 1991-ci il:** Cəbrayıl polisini daşıyan avtobus Sayaq yolunda daşnak terrorçularının basdırdığı minaya düşür. Sürücü – mülki şəxs Şamil Heydər oğlu Əhmədov həlak olur. Polis baş leytenantı Şamil Şərif oğlu Əhmədov, polis serjantı Camal Məmmədov və Rövşən Xəlilov ağır qəlpə yarası alırlar;

**516. 22 avqust 1991-ci il:** Daşnak terror qruplaşması Qazax rayonunun Bağanis Ayrım kəndinə basqın edir. Kənd tamamilə dağıdılır, əhali yurd-yuvasından didərgin salınır:

**517. 23 avqust 1991-ci il:** Şuşa-Cəmilli istiqamətində hərəkət edən marşrut avtobusu daşnak terrorçuları tərəfindən güllələbaran edilir. 4 nəfər sərnişin qətlə yetirilir, 13 sərnişin güllə yarası alır;

**518. 27 avqust 1991-ci il:** Daşnak terrorçuları Goranboyun Rus Borisi kəndinə həmlə edirlər. Üç naxırçını döyüb ölümcül hala salır, mal-qaranı sürüb aparırlar;

**519. 29 avqust 1991-ci il:** Daşnak terrorçuları Füzuli rayonunun Aşağı Veysəlli kəndinin yaxınlığında içərisində yeddi sərnişin olan avtomaşını ələ keçirib Xocavənd rayonuna aparırlar. Girovların əvəzində onlar Şuşa həbsxanasında saxlanan iki daşnak terrorçusunu tələb edirlər;

**520. 29 avqıst 1991-ci il:** Daşnak terrorçuları Goranboy rayonunun Şəfəq kəndinə basqın edirlər. Bir mülki şəxs qətlə yetirilir, üç nəfər isə güllə yarası alır;

**521. 30 avqust 1991-ci il:** Daşnak terrorçuları Füzuli rayonunun Aşağı Veysəlli kəndinə həmlə edir, altı nəfər mülki şəxsi ot yığarkən girov götürürlər;

**522. 05 sentyabr 1991-ci il:** Gorus rayonunda yuva qurmuş daşnak terrorçuları Novlu kəndindən bir nəfəri girov götürürlər;

**523. 06 sentyabr 1991-ci il:** Daşnak terror qrupu Goranboy rayonunun Şəfəq kəndinə basqın edirlər. Nəticədə iki milis əməkdaşı güllə yarası alır;

**524. 07 sentyabr 1991-ci il:** Daşnak terrorçuları Xocavənd rayonunun Tuğ kəndində iki mülki şəxsi qətlə yetirirlər;

**525. 07 sentyabr 1991-ci il:** Daşnak terrorçuları Xankəndinə gedən avtobusa basqın edirlər. Üç nəfər qətlə yetirilir, dörd nəfər yaralanır;

**526. 08 sentyabr 1991-ci il:** Martunidə yuva qurmuş daşnak terrorçuları Ağdam-Xocavənd və Ağdam-Qaradağlı marşrutunda hərəkət edən avtobuslara basqın edirlər. Qaradağlı kəndinə gedən avtobusda 5 nəfər (4-ü qadın) mülki şəxs qətlə yetirilir. Ağdam-Xocavənd avtobusunda dörd nəfər qətlə yetirilir, 20 nəfər sərnişin isə güllə yarası alır;

**527. 10 sentyabr 1991-ci il:** Ordubad rayonunun yaylaqlarına basqın edən daşnak terrorçuları iki çobanı girov götürür, 1250 baş davarı sürüb aparırlar;

**528. 11 sentyabr 1991-ci il:** Şahbuz rayonunun Yuxarı Remeşin kəndinə basqın edən daşnak terrorçuları 850 baş davarı sürüb aparırlar;

**529. 14 sentyabr 1991-ci il:** Daşnak terror birləşmələri Goranboy rayonunun Buzluq və Baş Qışlaq kəndlərinə basqın edirlər. Dörd milis əməkdaşı, on mülki şəxs qətlə yetirilir. Üç milis əməkdaşı və bir mülki şəxs yaralanır. Üç milis əməkdaşı itkin düşür;

**530. 14 sentyabr 1991-ci il:** Xocavənd rayonunun Zamzur polis bölməsinin rəisi Zahid Əhmədov və sürücüsü Əsgər Veysəlov xidməti maşında daşnak terrorçularının Zamzur yolu üstə basdırdıqları tank əleyhinə minaya düşürlər və hər iki polis əməkdaşı həlak olur;

**531. 15 sentyabr 1991-ci il:** Daşnak terror qrupu Xocavənd rayonunun Zamzur kəndinə basqın edir. Polis serjantı Pəhlivan Məmmədov ağır güllə yarası alır;

**532. 23 sentyabr 1991-ci il:** Daşnak terrorçuları tərəfindən Əsgəranın Ağbulaq kəndində milis işçilərinin maşını atəşə tutulur. Sürücü qətlə yetirilir. Bir milis əməkdaşı isə ağır güllə yarası alır;

**533. 24 sentyabr 1991-ci il:** Daşnak terrorçuları Ağdərə rayonunun İmarət Qərvənd kəndinə basqın edirlər. Bir nəfər kənd sakini yandırılaraq qətlə yetirilir, 1200 sakin isə meşələrə qaçmaq məcburiyyətində qalır, kənd yerlə yeksan edilir;

**534. 24 sentyabr 1991-ci il:** Daşnak terrorçuları Əsgəran rayonunun Ağbulaq kəndinə basqın edirlər. Polis əməkdaşlarından Fazil Mehdiyev qətlə yetirilir, Qarayev soyadlı polis əməkdaşı isə ağır güllə yarası alır;

**535. 25 sentyabr 1991-ci il:** Daşnak terrorçuları Kərkicahana basqın edirlər. Bir nəfər həlak olur, doqquz nəfər isə ağır bədən xəsarəti alır;

**536. 25 sentyabr 1991-ci il:** Ağdam-Xocalı sərnişin avtobusu daşnak təxribatçılar tərəfindən Əsgəran ərazisində saxlanılır. Sürücü və 15 sərnişin vəhşicəsinə döyülür. Avtobus isə aşırılıb daşlanır, yararsız hala salınır;

**537. 26 sentyabr 1991-ci il:** Daşnak terrorçuları tərəfindən yol polisinin əməkdaşları Əli Vəliyev və Natiq Əhmədov Əsgəran rayonunun çıxacağındakı kiçik elektrik yarımstansiyasının yaxınlığında qətlə yetirilmişlər;

**538. 26 sentyabr 1991-ci il:** Daşnak terrorçuları raket atəşi ilə Şuşa şəhər sakini Füzulini qətlə yetirirlər;

**539. 26 sentyabr 1991-ci il:** Daşnak terrorçuları «Yevlax-Laçın» yolunda avtomaşın partladırlar. İki nəfər həlak olur, 14 nəfər yaralanır;

**540. 27 sentyabr 1991-ci il:** Daşnak terrorçuları Goranboy rayonunun Sarısu kəndinə həmlə edirlər. Bir uşaq yaralanır, dörd ev dağıdılır;

**541. 27 sentyabr 1991-ci il:** Daşnak terrorçuları Topxanadan Şuşanı atəşə tuturlar və ətrafa həmlə edirlər. Bir nəfər həlak olur, altı nəfər yaralanır, bir nəfər isə girov götürülür;

**542. 28 sentyabr 1991-ci il:** Ağdamlı qadın qəbir üstə gedərkən daşnak terrorçusunun snayper gülləsi ilə qətlə yetirilir;

**543. 29 sentyabr 1991-ci il:** Daşnak terrorçuları Goranboyun Şəfəq kəndinə basqın edirlər. İki milis əməkdaşı qətlə yetirilir, beş milis əməkdaşı isə ağır güllə yarası alır;

**544. 29 sentyabr 1991-ci il:** Daşnak terrorçusu tərəfindən mülki şəxs - Həsənov soyadlı Kərkicahan kənd sakini qətlə yetirilir;

**545. 30 sentyabr 1991-ci il:** Daşnak terror qrupu Xocavənd rayonunun Ağcakənd kəndindəki milis postuna həmlə edir. Üç milis əməkdaşı - milis leytenantı Yəhya Ağayev, milis nəfərləri Əlövsət Məmmədov, Pənah İsmayılov və bir mülki şəxs güllə yarası alır;

546. **30 sentyabr 1991-ci il:** Daşnak terrorçuları Şahbuz rayonunun Biçənək kəndinə basqın edirlər. Teleradio ötürücüsü dağıdılır, iki nəfər isə girov götürülür;

**547. 03 oktyabr 1991-ci il:** Daşnak terror qrupu Xocavənd rayonu ərazisində rus hərbi qulluqçularını aparan UAZ-469 markalı avtomobili güllələbaran edirlər. İki hərbi qulluqçu həlak olur, ikisi yaralanır;

548. **06 oktyabr 1991-ci il:** Daşnak terrorçuları Qazax rayonunun Xeyrimli kəndinə basqın edirlər. Bir nəfər dinc sakin qətlə yetirilir, bir nəfər yaralanır;

**549. 09 oktyabr 1991-ci il:** Daşnak terrorçuları Xankəndi istiqamətindən Kərkicahan qəsəbəsini atəşə tuturlar. Bir nəfər dinc sakin həlak olur;

**550. 16 oktyabr 1991-ci il:** Daşnak terrorçuları Tuğ kəndində bir nəfər dinc sakini qətlə yetirir, milis əməkdaşı E.Cəfərov isə ağır güllə yarası alır;

**551. 17 oktyabr 1991-ci il:** Daşnak terror qrupu Qazax rayonunun I Şıxlar kəndinə basqın edir. DT-75 markalı traktor və sürücü girov götürülür;

**552. 17 oktyabr 1991-ci il:** Daşnak terrorçuları Ağdərə yaylağında çobanlara basqın edirlər. Nəticədə bir çoban qətlə yetirilir, digəri yaralanır. Sürü isə aparılır;

**553. 19 oktyabr 1991-ci il:** Daşnak terrorçuları tərəfindən Ağdərə rayonunun Sırxavənd kənd sakini Nazim Ağayev qətlə yetirilir. Kəndin yaxınlığında UAZ-469 markalı minik maşını gülləbaran edilir, iki nəfər həlak olur, bir nəfər yaralanır;

**554. 19 oktyabr 1991-ci il:** Daşnak terrorçuları Şuşanın Quşçular kəndini atəşə tutur. Bir nəfər güllə yarası alır;

**555. 29 oktyabr 1991-ci il:** Yevlaxdan Xocalıya uçan AN-12 təyyarəsi Əsgəran rayonunun Kərmirsar erməni kəndi yaxınlığında daşnak terror qruplaşması tərəfindən vurulub yerə salınır. Təyyarədəki yeddi ekipaj üzvü; Əsəd Əsədov, Hikmət Muradov, Ceyhun Rəhimov, Əhmədağa Baxşıyev, Yunis Misirov, Azad Sadıqov və Sabir Rəcəbov qətlə yetirilir, cəsədləri bütövlükdə yandırılır;

**556. 30 oktyabr 1991-ci il:** Daşnak terror qrupları Xocavənd rayonunun Tuğ və Səlakətin kəndlərində zorakılıq aktları törədirlər. Hər iki kənd işğala məruz qalır. Canlı aləmdən təcrid olunur;

**557. 30 oktyabr 1991-ci il:** Əsgəran rayonunun Naxçıvanik kənd soveti sakinlərinin - «Təhlükəsizliyimizi təmin edin, yəni saqqallıları (daşnak terrorçularını) kənddən çıxarın. Biz Azərbaycan hökumətinin qanunlarına əməl etməyə hazırıq» müraciətini mərkəzə təqdim etməyə aparan Eldar Bağırov Bakı şəhərində daşnak muzdluları tərəfindən qətlə yetirilir;

**558. 05 noyabr 1991-ci il:** Daşnak terrorçuları Qazax rayonunun Xeyrimli və Aşağı Əskipara kəndlərinə həmlə edirlər. Aşağı Əskipara kəndinin iki dinc sakini qətlə yetirilir, dörd nəfər isə yaralanır;

**559. 06 noyabr 1991-ci il:** Daşnak terrorçuları Qazaxın Yuxarı Əskipara kəndinin bir sakinini qətlə yetirirlər;

**560. 07 noyabr 1991-ci il:** Daşnak terrorçuları Şuşanın Nəbilər kəndinə basqın edirlər. Bir nəfər dinc sakin qətlə yetirilir, bir nəfər isə güllə yarası alır;

**561. 11 noyabr 1991-ci il:** Daşnak terrorçuları Qazax rayonunun Xeyrimli kəndinə basqın edirlər. İki nəfər dinc sakin qətlə yetirilir, bir nəfər isə güllə yarası alır;

**562. 12 noyabr 1991-ci il:** Daşnak terror qrupu Xocavənd rayonunun Haxullu kəndinə basqın edir. Evini tərk etməyənlər qətlə yetirilir. Əhali yurd-yuvasından didərgin salınır;

**563. 15 noyabr 1991-ci il:** Daşnak terrorçuları Şuşa rayonunun Zarıslı kəndinin bir sakinini girov götürürlər;

**564. 15 noyabr 1991-ci il:** Daşnak terror qruplaşmaları Xocavənd (Hadrut) rayonunun Şayaq və Zamzur kəndlərinə basqın edirlər. Yeddi nəfər polis əməkdaşı,

iki mülki şəxs qətlə yetirilir, üç polis əməkdaşı ağır güllə yarası alır, iki qadın terrorçular tərəfindən girov götürülür;

**565. 17 noyabr 1991-ci il:** Daşnak terrorçuları Ağdamın Qalayçı kəndinin qoyun sürüsünə basqın edirlər. Çoban girov götürülür. Sürü isə çəkilib aparılır;

**566. 19 noyabr 1991-ci il:** Daşnak terrorçuları Xocavənd kəndinə basqın edirlər. Nəticədə dörd nəfər dinc sakin həlak olur. 24 nəfər itkin düşür. Sağ qalan əhali kəndi tərk edir;

**567. 20 noyabr 1991-ci il:** Daşnak terrorçuları Şuşanın Malıbəyli kəndinin beş dinc sakinini girov götürürlər;

568. **20 noyabr 1991-ci il:** Beynəlxalq aləmdə ad çıxarmış peşəkar daşnak terrorçusu Monte Melkonyanın və Zori Balayanın rəhbərlik etdiyi «Zorik» terror qrupu Xocavənd rayonunun Qarakənd yaşayış məntəqəsi yaxınlığında Mİ-8 tipli hərbi vertolyotu iriçaplı silahlarla vurub yerə salmışdı. Nəticədə Ağdam şəhərindən Xocavənd qəsəbəsinə sülhməramlı missiya ilə səfərə çıxan 22 nəfər yüksək vəzifəli şəxs - Azərbaycan Respublikasının Dövlət katibi, millət vəkili T.K.İsmayılov, AR Baş nazirinin müavini, millət vəkili Z.S.Hacıyev, sabiq DİN-i, Prezidentin dövlət müşaviri M.N.Əsədov, AR-nın Baş prokuroru İ.İ.Qayıbov, millət vəkilləri V.D.Cəfərov, V.T.Məmmədov, Prezident aparatının şöbə müdiri O.M.Mirzəyev, nazir müavini T.T.Namazəliyev, DQMV-nin prokuroru İ.A.Plavski, MTN-nin DQMV üzrə idarə rəisi S.S.İvanov, DQMV Dİİ-nin rəisi, general-mayor V.V.Kovalyov, DQMV FV rayonunun komendatı N.V.Jilkin, AR Dövlət katibinin köməkçisi R.M.Məmmədov, Azərbaycan Teleradio Dövlət Şirkətinin əməkdaşları A.M.Mustafayev, A.İ.Hüseynzadə, F.İ.Şahbazov, Rusiya Federasiyasından olan müşahidəçilər - general-mayor İ.D.Lukasov, podpolkovnik V.M.Koçarov, Qazaxıstan Respublikasının DİN-nin birinci müavini S.D.Serikov və ekipaj üzvləri həlak olmuşlar. Vertolyotun qara qutusu tapılaraq Moskvaya aparılmış və orada məhv edilmişdir. Terrorçular haqqında heç bir əməliyyat tədbiri həyata keçirilməmişdir. Əfsuslar olsun ki, bu günədək Azərbaycan hökuməti tərəfindən bu dəhşətli terror hadisəsinə heç bir hüquqi qiymət verilməmişdir;

**569. 21 noyabr 1991-ci il:** Kərkicahan kəndində iş başında olan «Mayak» radiostansiyasının müxbiri, jurnalist Leonid Lazareviç snayperçi daşnak terrorçusu tərəfindən qətlə yetirilmişdir;

**570. 21 noyabr 1991-ci il:** Daşnak terror qrupu Ağdamın Abdal-Gülablı kəndinə basqın edir. Kəndin bir dinc sakini həlak olur, iki nəfər ağır bədən xəsarəti alır;

**571. 26 noyabr 1991-ci il:** Daşnak terrorçuları Goranboy rayonunun Şəfəq kəndinə basqın edirlər. İki dinc sakin güllə yarası alır;

**572. 01 dekabr 1991-ci il:** Daşnak terror qrupları Kərkicahan qəsəbəsinin aşağı başına həmlə edirlər. Bir milis əməkdaşı həlak olur, üç nəfər qəsəbə sakini itkin düşür, beş nəfər yaralanır, 21 ev yandırılır;

**573. 02 dekabr 1991-ci il:** Daşnak terrorçuları tərəfindən Kərkicahan qəsəbə sakini Elman Həsənov həyətində qətlə yetirilir, dörd uşaq anası S.Sabahova ağır güllə yarası alır;

**574. 02 dekabr 1991-ci il:** Daşnak terrorçuları Şuşa şəhərinə həmlə edirlər. 8 ev dağıdılır, iki nəfər dinc şəhər sakini qəlpə yarası alır;

**575. 04 dekabr 1991-ci il:** Daşnak terrorçuları tərəfindən Kərkicahan qəsəbə sakini Osman Səfərov qətlə yetirilmiş, üç nəfər ağır güllə yarası almışdır;

**576. 07 dekabr 1991-ci il:** Daşnak terror qrupu Füzuli rayonunun Yuxarı Divanallar kəndinə basqın etmiş, 17 nəfər mülki şəxs (8 qadın, 4 uşaq) girov götürülmüşdür. Kənd dağıdılmış, evlər yandırılmışdır. Kəndin dinc, əliyalın əhalisi isti od-ocağından didərgin salınmışdır;

**577. 08 dekabr 1991-ci il:** Xankəndində məskən salmış daşnak terrorçuları Kərkicahana basqın etmişlər. Səkkiz nəfər dinc kənd sakini ağır güllə yarası almışdır;

**578. 10 dekabr 1991-ci il:** Goranboyun Todan kəndi Mənəş və Buzluq kəndlərində məskən salmış daşnak terrorçuları tərəfindən atəşə tutulmuşdur. 80 ev dağıdılmış, beş nəfər yaralanmış, bir nəfər həlak olmuşdur;

**579. 11 dekabr 1991-ci il:** Yerli və köklü əhalisinin 40-45%-ni təşkil edən Azərbaycan türklərinin iştirakı olmadan, habelə Azərbaycan vətəndaşı olan erməni əhalisinin öz fikirlərini sərbəst ifadə etmək hüquq və imkanları əllərindən alınmaqla daşnak terror qruplarının silahlı müdaxiləsi altında 10 dekabr 1991-ci ildə DQMV-nin müstəqilliyi barədə saxta referendum keçirilməsinin qəti əleyhdarı kimi çıxış edən Şuşa rayon İH-nin başçısı Mikayıl Gözəlov daşnak muzdlusu tərəfindən iş otağında qətlə yetirilir;

**580. 13 dekabr 1991-ci il:** Şuşanın Cəmilli kəndinə məxsus «UAZ» markalı aztonnajlı yük maşını daşnak terrorçularının həmləsinə məruz qalır. Maşının banındakı 17 nəfər Cəmilli kənd sakinlərindən 10 uşaq atası Tahir Sadıqov qətlə yetirilmiş, 15 nəfər isə ağır güllə yarası almışdır;

**581. 14 dekabr 1991-ci il:** Kərkicahan kəndinin dinc sakini A.Nəcəfov daşnak terrorçusu tərəfindən qətlə yetirilmişdir;

**582. 15 dekabr 1991-ci il:** Daşnak terror qruplaşması Şuşanın Cəmilli kəndinə basqın etmiş, 9 nəfər dinc, əliyalın kənd sakinini qətlə yetirmişdir. Əhali kənddən didərgin salınmış, evlər tamamilə yandırılmışdır;

**583. 15 dekabr 1991-ci il:** Daşnak terror qrupu Xocalı hava limanına basqın etmişdir. Atışmada milis əməkdaşı E.Əhmədov qətlə yetirilmiş, iki əməkdaş isə güllə yarası almışdır;

**584. 21 dekabr 1991-ci il:** Daşnak terror qrupu Şuşa rayonunun Nəbilər kəndinə basqın edir. Dinc əhalidən itkilər qeydə alınır. Sağ qalan əhali yurd-yuvasından didərgin salınır;

**585. 23 dekabr 1991-ci il:** «Qarabağ» adlı daşnak terror qrupu 3 istiqamətdən Əsgəran rayonunun Meşəli kəndinə soxulub qanlı terror aktı

törədirlər. 6 dinc sakin (ötən illər ərzində ümumilikdə 32) qətlə yetirilir. 15-dən çox dinc sakin (ümumilikdə 50-dən çox) yaralanır. Kənd tamamilə yandırılır, varlığı yer üstündən silinir;

**586. 23 dekabr 1991-ci il:** Daşnak terror qrupları kütləvi şəkildə Füzuli rayonunun həmsərhəd kəndlərinə basqınlar edirlər. Qaradağlı kəndi boşaldılır. Bir nəfər qətlə yetirilir, üç nəfər yaralanır, Haxullu kəndində 40-dan çox ev yandırılır, bir nəfər yaralanır. Cuvarlı kəndində bir nəfər güllə yarası alır;

**587. 23 dekabr 1991-ci il:** Daşnak terror qrupu Xocavənd rayonunun Daşbaşı kəndinə basqın edir. İki nəfər qətlə yetirilmiş, iki nəfər ağır güllə yarası almışdır;

**588. 25 dekabr 1991-ci il:** Daşnak terror qrupu Sənabad kəndində zorakılıq aktına əl atır. Əhali ev-eşiyini tərk edir;

**589. 26 dekabr 1991-ci il:** Şuşa şəhər sakini Abbasov Süleyman İsmayıl oğlu, hamilə həyat yoldaşı, yaş yarımda olan oğlu, qayınanası və sürücü ilə Bakıdan Şuşaya qayıdarkən daşnak terror qrupunun yüksək gərginlikli elektrik dirəyini partlatdıqlarının şahidi olurlar. Terrorçular izi itirmək üçün bütün ailəni və onları Şuşaya aparan sürücünü vəhşicəsinə qətlə yetirirlər.

**590. 27 dekabr 1991-ci il:** Daşnak terrorçuları Zarıslıdan Şuşaya gedən daha bir maşını - «Moskviç» markalı minik maşınını güllələbaran edirlər. Üç mülki şəxs həlak olur;

**591. 28 dekabr 1991-ci il:** Daşnak terror qruplaşmaları ağır texnikanın köməyi ilə Kərkicahan qəsəbəsinə basqın etmişlər. 33 nəfər kənd sakini qətlə yetirilmiş, 14 nəfər itkin düşmüşdür. Əhali ev-eşiyindən didərgin salınmış, əmlakı qarət olunmuş, qəsəbə yerlə yeksan edilmişdir. Kənd sakinlərindən birinin - Fərhad Ağakişiyevin cəsədi geri alınarkən onun üzərində müxtəlif alətlərlə icra edilmiş 75-dən artıq işgəncə izi aşkar edilmişdir;

**592. 30 dekabr 1991-ci il:** Daşnak terror qrupu Qazax rayonunun Çaylı kəndindən Əskipara kəndinə yas yerinə gedən üç dinc sakini yolda qətlə yetirmiş, meyitlərini girov qismində özləri ilə Ermənistan SSR-ə aparmışlar;

**593. 1991-1992-ci illər:** Daşnak terrorçuları öz soydaşlarından 1) şovinist çıxışlara qarşı çıxdığına görə DQMV DTİ-nin əməkdaşı L.Qaraxanyanı; 2) Qarabağ ermənilərinin təmsilçisi kimi AR prezidenti A.Mütəllimovla görüşə getdiyinə görə V.Qriqoryanı; 3) milli ədavət salmağın əleyhinə çıxdığına görə icma başçısı A.Mkrtıçyanı qətlə yetirmişlər;

**594. 01 yanvar 1992-ci il:** Daşnak terror qrupu Ağdamın Çuxurməhəllə kəndinə hücum edir. Dörd nəfər həlak olur, 28 nəfər yaralanır;

**595. 02 yanvar 1992-ci il:** Daşnak terror qrupu Goranboy rayonunun Todan kəndini atəşə tutur. Bir nəfər həlak olur;

**596. 04 yanvar 1992-ci il:** Daşnak terrorçuları Şuşa şəhərini atəşə tuturlar. Bir nəfər ağır qəlpə yarası alır;

**597. 04 yanvar 1992-ci il:** Daşnak terrorçuları Ağdərənin Bağbanlar kəndinə basqın edirlər. Bir milis əməkdaşı ağır güllə yarası alır:

**598. 08 yanvar 1992-ci il:** Daşnak terrorçuları Krasnovodsk-Bakı istiqamətində hərəkət edən sərnişin bərəsində partlayış törədirlər. Terror aktı nəticəsində 25 nəfər həlak olur, 88 nəfər yaralanır;

**599. 15 yanvar 1992-ci il:** Daşnak terrorçuları ilə dil tapmış rus hərbiçiləri Ordubad ərazisində «LAZ» markalı sərnişin avtobusunu atəşə tuturlar. Üç nəfər girov götürülür;

**600. 15 yanvar 1992-ci il:** Rus hərbçiləri ilə birləşmiş daşnak terrorçuları Əylis kəndi yaxınlığında Culfa şəhər sakinlərini atəşə tuturlar. İki nəfər həlak olur, dörd nəfər yaralanır;

**601. 15 yanvar 1992-ci il:** Daşnak terrorçuları ilə əlaqəyə girən rus hərbçiləri Naxçıvan aeroportuna soxularaq Naxçıvan Müdafiə Komitəsinin sədri E.Abbasovu, Daxili İşlər naziri M.Məmmədovu girov saxlayaraq iki yük təyyarəsi ilə hərbi sursatı Ermənistana adladırlar;

**602. 21 yanvar 1992-ci il:** Daşnak terror qrupu Şuşanın Qaybalı kəndinə basqın edir. İtkilər qeydə alınır. Əhali yurd-yuvasından didərgin düşür;

**603. 26 yanvar 1992-ci il:** Şuşa şəhərini blokadada saxlayan və Daşaltı kəndinə sığınmış daşnak terrorçularını bu kənddən çıxarmaq məqsədi ilə hərəkətə keçən Azərbaycan milli ordusunun ilk könüllü taboru tələyə salınır. Milli ordu əsgərlərindən 33 nəfər qətlə yetirilir, 34 nəfər itkin düşür, 36 nəfər isə ağır güllə yarası alır;

**604. 28 yanvar 1992-ci il:** Daşnak terrorçuları tərəfindən Ağdam-Şuşa marşrutu ilə sərnişin daşıyan 27127 nömrəli Mİ-8 mülki vertolyot Şuşa şəhəri yaxınlığında «Yer-yer» tipli raketlə vurulur. Əksəriyyəti qadın və uşaqlardan ibarət olan 44 sərnişin və 3 ekipaj üzv həlak olur. Heç bir istintaq işi aparılmır. Sanki azərbaycanlı qadın və uşaqların qanı qan deyil, adi sudur, göydən yerə axıdılır;

**605. 07 fevral 1992-ci il:** Daşnak terror qrupu Ağdamın Papravənd kəndi yaxınlığında «Qarabağ» sovxozunun qış otlağına basqın etmiş, 200 başlıq qoyun sürüsünü özləri ilə aparmışlar;

**606. 09 fevral 1992-ci il:** Daşnak terror qrupu Şuşanın Malıbəyli kəndinə hücum etmiş, bir nəfəri qətlə yetirmiş, 16 nəfəri isə yaralamışdır. Kəndin bir hissəsi işğal edilmişdir;

**607. 11 fevral 1992-ci il:** Daşnak terrorçuları Xankəndində yerləşən Sovet Ordusunun 81-ci alayını daxili razılıqları əsasında tamamilə tərk-silah edirlər;

**608. 12 fevral 1992-ci il:** Daşnak terror birləşmələri Şuşanın Malıbəyli və Quşçular kəndlərinə basqın edirlər. Hər iki kənddə qətliam törədirlər. Hər iki kəndin sakinləri qətliamdan qaçıb dağlara, meşələrə çəkilirlər. Kəndlər yerlə yeksan edilir;

**609. 16 fevral 1992-ci il:** Daşnak terrorçuları Sədərək yaxınlığında yerləşən rus ordusunun zabitlərini ələ alaraq onların postlarında yerləşirlər;

**610. 17 fevral 1992-ci il:** Daşnak terror qruplaşması Xocavənd rayonunun Qaradağlı kəndinə həmlə edir. Kənd yerlə yeksan edilir. Girov götürülənlərdən 54 dinc sakin güllələnərək meyitləri silos quyusuna atılır. Uşaq, qadın, qoca daxil olmaqla 117 nəfər dinc sakin isə girov götürülür. Girov götürülənlərdən 77 nəfərini qətlə yetirmişlər;

**611. 22 fevral 1992-ci il:** Daşnak terrorçuları tərəfindən Xocalı şəhəri atəşə tutulur. Üç nəfər həlak olur, doqquz nəfər yaralanır;

**612. 22 fevral 1992-ci il:** Daşnak terrorçuları Şuşanın Cəmilli kəndinə basqın edirlər. İki milis əməkdaşı həlak olur, dörd nəfər yaralanır;

**613. 22 fevral 1992-ci il:** Daşnak terrorçuları Füzuli rayonunun Yuxarı Veysəlli kəndinə hücum etmiş, səkkiz nəfəri qətlə yetirmişlər;

**614. 26 fevral 1992-ci il:** Daşnak terror qruplaşmaları Rusiyanın Xankəndindəki 366 saylı xüsusi təyinatlı motoatıcı alayının iştirakı ilə Xocalı şəhərinə həmlə etmişlər. Bununla erməni-daşnak faşistləri daşnak düşüncəsinin qanlı tacı hesab olunan Xocalı soyqırımına imza atmış, yeddi min türk əhalisi olan Xocalı şəhəri yerlə yeksan edilmişdir. 1153 nəfər dinc sakin (83 uşaq, 186 qadın və 70 qoca) vəhşicəsinə doğranmış, güllələnmiş, yandırılmış, xüsusi qəddarlıqla qətlə yetirilmişdir. Soyulmuş baş dərilərindən, kəsilmiş qulaq seyvanlarından kolleksiyalar düzəltmişlər. Şəhər əhalisindən 910 nəfər əsir götürülmüş, şikəst edilmiş (487 nəfər), onlarla ailə soyqırıma məruz qalmışdır. Şəhər bir gecədə canlı aləmdən tam təcrid edilmişdir. Beynəlxalq aləmdə ad çıxarmış «ASALA» terrorçusu Vazgen Sisyan öz milli mənliyini ikigünlük körpəni öldürməklə bəyan və nümayiş etdirmişdir;

**615. 26 fevral 1992-ci il:** Daşnak terror qrupları Tərtər rayonunun Qapanlı, Qaradağlı, Əskipara, Seydimli kəndlərinə həmlə edirlər. Nəticədə dörd nəfər həlak olur, doqquz nəfər yaralanır;

**616. 01 mart 1992-ci il:** Daşnak terrorçuları Xocalıdan əsir götürdükləri Azərbaycan türklərindən 120 nəfərini martın 1-nə keçən gecə güllələyirlər;

**617. 04 mart 1992-ci il:** Daşnak terror qrupu Ağdərənin Sırxavənd kəndinə basqın edir. Yeddi nəfər həlak olur, on nəfər yaralanır, iki nəfər itkin düşür;

**618. 08 mart 1992-ci il:** Daşnak terror qrupu Ağdam ərazisindəki Qaraqaya adlı hərbi hissə postuna basqın edir. İki nəfər həlak olur. Postdakıların əksəriyyəti güllə yarası alır;

**619. 12 mart 1992-ci il:** Daşnak terrorçuları səhər saat $4^{00}$-dan Şuşa şəhərini artilleriya atəşinə tuturlar. On bir nəfər dinc şəhər sakini həlak olur. Otuz nəfərdən çoxu isə yaralanır. Qadın və uşaqlar şəhərdən çıxarılır;

**620. 13 mart 1992-ci il:** Daşnak terrorçuları Füzuli şəhərini artilleriya atəşinə tuturlar. Dinc şəhər sakinlərindən 10 nəfər həlak olur. Xeyli şəhər sakini yaralanır;

**621. 14 mart 1992-ci il:** Qazax rayonunun Məzəm kəndinə gedən iki avtobus daşnak terrorçularının basqınına məruz qalır. Sərnişinlər yerlərini tərk etdikdən sonra avtobuslardan biri partlayır;

**622. 14 mart 1992-ci il:** Daşnak terror qrupu Şuşa şəhərini artilleriya atəşinə tutur. İyirmiyə yaxın ev dağılır, 15 ev tamamilə yanır;

**623. 14 mart 1992-ci il:** Daşnak terror qrupu Ağdərənin Baş Güneypəyə kəndinə basqın edir. On nəfər kənd sakini həlak olur;

**624. 18 mart 1992-ci il:** Daşnak terrorçuları Tərtər rayonunun Qapanlı və Qaradağlı kəndlərini artilleriya atəşinə tuturlar. Üç nəfər kənd sakini həlak olur;

**625. 16 mart 1992-ci il:** Daşnak terror qrupu Füzuli şəhərini raket atəşinə tutur. Hərbi komissarlıq binasının, kolxoz bazarının ətrafında dağıntılar törədirlər. Ölən və yaralananlar qeydə alınır.

**626. 21 mart 1992-ci il:** Daşnak terrorçuları Qazax rayonunun Aşağı Əskipara, Məzəm, Sofulu, Cəfərli, Quşçu Ayrım kəndlərinə basqınlar edirlər. Dörd nəfər həlak olur, altı nəfər yaralanır;

**627. 22 mart 1992-ci il:** Daşnak terror qrupu Qazax rayonu ərazisində avtomaşın partladır. Üç nəfər həlak olur, iki nəfər yaralanır;

**628. 26 mart 1992-ci il:** Daşnak terrorçuları Ağstafanın Köhnə Qışlaq kəndi yaxınlığındakı Qəpənçə meşəsində tarla işləri apararkən altı nəfər girov götürülür;

**629. 29 mart 1992-ci il:** Daşnak terrorçuları Şuşanın Kosalar və Qaybalı kəndlərinə basqın edirlər. Qaybalıda dörd dinc sakin yaralanır;

**630. 30 mart 1992-ci il:** Daşnak terror qrupu Füzuli rayonunun Hoğa kəndinə basqın edir. Evini tərk etməyənlər qətlə yetirilir. Sağ qalan əhali yurd-yuvasından didərgin salınır;

**631. 31 mart 1992-ci il:** Daşnak terrorçular Şuşanın Kosalar və Qaybalı kəndlərinə təkrar həmlə edirlər, Bir nəfər həlak olur, yeddi nəfər yaralanır;

**632. 31 mart 1992-ci il:** Daşnak terrorçuları Gədəbəyin Mutudərə kəndinə basqın edirlər. Bir nəfər yaralanır;

**633. 31 mart 1992-ci il:** Daşnak terrorçuları Goranboy rayonunun Tapqaraqoyunlu kəndini top atəşinə tuturlar, dörd uşaq qəlpə yarası alır;

**634. 04 aprel 1992-ci il:** Daşnak terrorçuları Tovuz rayonunun Əlibəyli kəndinə həmlə edirlər. Bir nəfər kənd sakini ağır güllə yarası alır;

**635. 07-08 aprel 1992-ci il:** Daşnak terror qrupları Kəlbəcərin Ağdaban kəndinə şiddətli hücuma keçirlər. 38 nəfər dinc sakin (əksəriyyəti qadın və uşaq) qətlə yetirilir, iki nəfər evində yanıb kül olur. 19 nəfər yaralanır, yeddi nəfər girov götürülür. 50-dən çox adam itkin düşür. Kolxozun 1000 baş mal-qarası, 4000 baş qoyunu, camaatın minlərlə baş mal-qarası və davarı sürülüb aparılır, əmlakı qarət olunur. Kənd başdan-başa oda qalanır;

**636. 11 aprel 1992-ci il:** Daşnak terrorçuları Şuşanın Cəmilli, Füzuli rayonunun Qacar kəndlərinə həmlə edirlər. Cəmillidə 2 nəfər, Qacarda 4 nəfər həlak olur;

**637. 12 aprel 1992-ci il:** Daşnak terrorçuları Füzuli rayonunun Divanallar kəndinə hücum edir. Bir dinc kənd sakini yaralanır;

**638. 13 aprel 1992-ci il:** Daşnak terrorçuları Füzuli rayonunun Govşadlı, Qaradağlı, Arış, Çimən kəndlərinə həmlə edirlər. Çiməndən iki nəfər girov götürülür;

**639. 13 aprel 1992-ci il:** Daşnak terrorçuları Qazax rayonunun, Məzəm, Quşçu Ayrım, Aşağı Əskipara kəndlərinə həmlə edirlər. Bir nəfər həlak olur, doqquz nəfər yaralanır;

**640. 14 aprel 1992-ci il:** Daşnak terrorçuları Ağdam rayonunun Papravənd, Şelli, Qalayçılar kəndlərinə həmlə edirlər. İki nəfər həlak olur;

**641. 14 aprel 1992-ci il:** Daşnak terrorçuları Şuşa şəhərini artilleriya atəşinə tuturlar. Səkkiz nəfər yaralanır;

**642. 15 aprel 1992-ci il:** Daşnak terror qrupu Xocavəndin Muğanlı kəndinə həmlə edirlər. İki nəfər yaralanır;

**643. 22 aprel 1992-ci il:** Daşnak terrorçuları Zəngilanın Kollu, Günqışlaq, Seyidlər, Pirveyisli, Rəzdərə kəndlərinə həmlə edirlər. Nəticədə Rəzdərə kənd sakini, kiçik yaşlı Süleymanov Sadıq Baloğlan oğlu qəlpə yarasından həlak olur;

**644. 24 aprel 1992-ci il:** Daşnak terror qrupu Ağdamın Şelli, Abdal-Gülablı və Papravənd kəndlərinə həmlə edirlər. İki nəfər həlak olur, on nəfər yaralanır;

**645. 24 aprel 1992-ci il:** Daşnak terrorçuları Goranboyun Sarısu kəndinə həmlə edirlər. Bir nəfər yaralanır;

**646. 28 aprel 1992-ci il:** Daşnak terrorçuları Ağdərənin Narışdar kəndinə həmlə edirlər. Altı nəfər həlak olur, iki nəfər yaralanır;

**647. 29 aprel 1992-ci il:** Daşnak terrorçuları Şuşanın Kosalar kəndinə həmlə edirlər. Dörd nəfər həlak olur, on beş nəfər yaralanır;

**648. 29 aprel 1992-ci il:** Daşnak terrorçuları Füzuli şəhərinə və ətraf kəndlərə həmlələr edirlər. Bir nəfər həlak olur, bir nəfər yaralanır;

**649. 30 aprel 1992-ci il:** Daşnak terrorçuları Ağdərə rayonunun Narışdar kəndinə təkrar həmlələr edirlər. Beş nəfər həlak olur;

**650. 30 aprel 1992-ci il:** Daşnak terrorçuları Şuşanın Hacı talası deyilən strateji mövqeyinə həmlə edirlər. Dörd nəfər həlak olur, on iki nəfər yaralanır;

**651. 02 may 1992-ci il:** Daşnak terrorçuları Goranboyun Todan və Şəfəq kəndlərinə basqın edirlər. Bir nəfər həlak olur, bir nəfər yaralanır;

**652. 02 may 1992-ci il:** Daşnak terrorçuları Tovuzun Əlibəyli, Ağbulaq, Ağdam, Koxa-Nəbi, Muncuqlu kəndlərinə həmlə edirlər. Əlibəyli kəndinin iki sakini yaralanır, 5 ev dağıdılır;

**653. 03 may 1992-ci il:** Daşnak terrorçuları Qazax rayonunun Quşçu Ayrım kəndinə həmlə edirlər. Doqquz nəfər yaralanır;

**654. 03 may 1992-ci il:** Daşnak terror qrupu Şərur rayonunun Sədərək qəsəbəsinə basqın edirlər. 2 milis əməkdaşı qətlə yetirilir, 11 nəfər isə yaralanır;

**655. 05 may 1992-ci il:** Daşnak terrorçuları Ağdamın Çuxurməhlə kəndinə basqın edirlər, iki nəfər qətlə yetirilir;

**656. 06 may 1992-ci il:** Füzuli rayonunun Qacar, Divanallar kəndləri daşnak terrorçularının həmləsinə məruz qalır. İki nəfər həlak olur, beş nəfər dinc sakin yaralanır;

**657. 06 may 1992-ci il:** Naxçıvanın Sədərək qəsəbəsi və Havış, Günnüt kəndləri daşnak terrorçularının həmləsinə məruz qalır. Üç nəfər həlak olur, 45 nəfər güllə yarası alır;

**658. 07 may 1992-ci il:** Daşnak terrorçuları Xocavənd rayonunun Kuropatkin kəndinə basqın edir. 10 nəfər dinc sakin güllə yarası alır;

**659. 07 may 1992-ci il:** Füzuli rayonunun Hoğa kəndi daşnak terrorçularının həmləsinə məruz qalır, 6 nəfər qətlə yetirilir, çoxsaylı güllə yarası alanlar olur;

**660. 08 may 1992-ci il:** Daşnak terror birləşmələri həddi-hüdudu olmayan xəyanətlərdən bəhrələnərək üç istiqamətdən Şuşa şəhərinə həmlə edirlər. 155 nəfər həlak olur, 167 nəfər isə yaralanır. Şuşa şəhəri işğala məruz qalır;

**Qeyd:** Bununla da Şuşa şəhərində və onun 30 ətraf kəndlərində yaşayan 24165 nəfər Azərbaycan türkü erməni-daşnak faşistlərinin etnik təmizləmə siyasətinin qurbanlarına çevrilir. Şuşa bölgəsi bu savaşda 193 şəhid verir.

**661. 08 may 1992-ci il:** Daşnak terrorçuları Tovuz rayonunun Əsrik-Çırdaxan kəndlərinə həmlə edirlər. Dörd nəfər yaralanır;

**662. 09 may 1992-ci il:** Daşnak terror qruplaşması Kosalar kəndinə basqın etmişdir. 18 nəfər dinc sakin qətlə yetirilmiş, kənd əhalisi ev-eşiyindən didərgin salınmışdır. Kənd bütövlükdə qarət edilmiş, evlər yerlə yeksan olunmuşdur;

**663. 10 may 1992-ci il:** Daşnak terrorçuları Qazaxın Böyük Cəfərli, Musagöy kəndlərinə həmlə edirlər. Beş nəfər yaralanır;

**664. 15 may 1992-ci il:** Cəbrayıl RPŞ-nin bölmə rəisi Əbdürrəhim Heydərov xidməti maşında daşnak terrorçularının Dolanlar kəndi ərazisində basdırdıqları minaya düşür. Partlayış nəticəsində polis kapitanı Əbdürrəhim Heydərov həlak olur;

**665. 17 may 1992-ci il:** Daşnak terror birləşmələri iki istiqamətdən Laçın rayonuna həmlə edirlər. Laçın şəhəri və onun 125 kəndi işğal olunur. Rayonun 71 min əhalisi yurd-yuvasından didərgin salınır. 328 nəfər şəhid olur, 36 nəfər girov götürülür, 100 nəfər itkin düşür;

**666. 18 may 1992-ci il:** Daşnak terror birləşmələri Şərur rayonunun Sədərək qəsəbəsinə həmlə edir. 10 nəfər qətlə yetirilir, 50 nəfər dinc sakin yaralanır;

**667. 20 may 1992-ci il:** Daşnak terror qrupu tərəfindən Zəngilan rayonunun Qazançı kəndi yaxınlığında avtomaşın partladılır. İki nəfər həlak olur, iki nəfər yaralanır;

**668. 28 iyun 1992-ci il:** Daşnak terrorçuları Cəbrayıl şəhərini atəşə tuturlar. Tanınmış ziyalı Əliyev Məhəmməd Hüseyn oğlu, evdar qadın Əhmədova Qızbəst Topuş qızı və yay tətilində xalası Səmayəgilə qonaq gəlmiş Sumqayıt şəhərindəki 22 saylı məktəbin V sinif şagirdi Xanəliyev Pünhan Bəyiş oğlu həlak olur. Xeyli dinc sakin qəlpə yarası alır;

**669. 06 avqust 1992-ci il:** Daşnak terrorçuları Gədəbəy rayonunun sərhəd kəndlərinə həmlə edərək 5 nəfər dinc kənd sakinlərini qətlə yetirmişlər;

**670. 22 avqust 1992-ci il:** Daşnak terror qrupu qəflətən Zəngilan rayonunun Şayıflı kəndinə basqın etmişdir. Şayıflı dəmiryol stansiyasının rəisi Məhəmməd Qasımovu və oğlu Baloğlan Qasımovu iş yerlərində ələ keçirərək hər ikisini qəddarcasına doğramışlar;

**671. 30 avqust 1992-ci il:** Daşnak terrorçuları Cəbrayıl şəhərini və Süleymanlı kəndini atəşə tuturlar. Dinc şəhər sakinləri - kommunal təsərrüfatı şöbəsinin su maşınının sürücüsü Süleymanov Tofiq Mustafa oğlu, evdar qadın Kərimova Səmayə Qiyas qızı, şəhərə iş dalınca gəlmiş Çərəkən kənd sakini Həsənov Ramiz Surxay oğlu və Süleymanlı kənd sakini Kazımova Rəfiqə İsa qızı həlak olur. Nüzgar kənd sakini Fərgüzarov Qafqaz Əli oğlu daxil olmaqla şəhərin onlarla dinc sakini yaralanır;

**672. 25 sentyabr 1992-ci il:** Daşnak terrorçuları Qazax rayonunun Fərəhli kəndinə həmlə edirlər. Nəticədə kənd sakini Sayad Allahverdiyev qətlə yetirilir;

**673. 29 sentyabr 1992-ci il:** Daşnak terror qrupu Laçın rayonunun Səfyan kəndinə basqın edir. Nəticədə 10 nəfər qətlə yetirilir, 16 nəfər isə ağır güllə yarası alır;

**674. 30 sentyabr 1992-ci il:** Daşnak terrorçuları Zəngilan rayonunun Kolluqışlaq kəndinə həmlə etmişlər. Həyət bağlarında təsərrüfatla məşğul olan Quliyeva Anuş Mikayıl qızını və oğlu Quliyev Elşad Kamil oğlunu yerlərindəcə avtomat silahdan açılan atəşlə qətlə yetirmişlər;

**675. 01 oktyabr 1992-ci il:** Daşnak terrorçuları Zəngilan rayonunun Saralı Xəştab kəndinə basqın etmişlər. Dinc kənd sakinləri Vüqar Abasquliyev və Vüqar Babayev odlu silahdan açılan atəşlə qətlə yetirilmişlər;

**676. 05 noyabr 1992-ci il:** Daşnak terrorçuları Zəngilan rayonunun Qaragöl kəndinə həmlə edirlər. Əliyalın dinc kənd sakinləri Qərib və Pərviz Nəcəfovlar amansızcasına qətlə yetirilirlər;

**677. 10 dekabr 1992-ci il:** Daşnak terror birləşmələri Zəngilan rayonunun «Dardan yuxarı» adlanan Şayıflı və Şərikan kənd sovetliklərinin əhatə etdiyi ərazilərə basqınlar etmişlər. Şayıflı kənd sakini Həsən İsmayılovu palaza büküb diri-diri yandırmışlar. Şayıflı kənd sakini Müseyib Ələkbərovu, Aşağı Göəli kənd sakinləri Vəli Abbasovu, Nabat Nəsirovanı, Telman Abbasovu, Nüsrət Şirinovu,

Şərikankənd sakinləri İsmayıl İsmayılovu, Töhfə Məmmədovanı, Musa Məmmədovu, Səkinə Qədimquliyevanı, Bürünlü kənd sakini Zülfüqar Məmmədovu, Canbar kənd sakini Ağa Səfiyarovu qəddarcasına döyərək öldürmüşlər. Qətlə yetirilənlər əliyalın və dinc sakinlər olmaqla 60-80 yaş həddində olmuşlar; Həmin ərazidə olmuş Zəngilan kənd sovetliyinin sakini Əsgərov Seymur Əsgər oğlunun əl-ayağını bağlayıb xüsusi amansızlıqla, üstündə siqaret kötükləri yandırıb-söndürməklə, əzab verə-verə faciəli şəkildə qətlə yetirmişlər;

**678. 11 dekabr 1992-ci il:** Zəngilan rayonunun Qaçaq Müslan kənd sakini, IX sinif şagirdi Hüseynova Könül İmanqulu qızı məktəbdən çıxıb evə gedərkən daşnak terrorçularının atdığı qrad mərmisinin hədəfinə çevrilmişdir;

**679. 28 fevral 1993-cü il:** Daşnak terror qrupu tərəfindən Kislovodsk-Bakı istiqamətində hərəkət edən sərnişin qatarı Qudermes (Çeçenistan) dayanacağı yaxınlığında partladılır. 11 nəfər həlak olur, 18 nəfər yaralanır;

**680. 24 mart 1993-cü il:** Daşnak terrorçuları Zəngilan şəhərini qrad atəşinə tutmuşlar. Nəticədə Zəngilan şəbəkə rayonunun rəisi Dadaş Zeynalov, şəhər sakini Elman Quliyev qəlpə yarasından yerlərindəcə həlak olmuşlar. Elektrik şəbəkəsinin sürücüsü Yaqubun sağ qolunu qəlpə aparmışdır;

**681. 27 mart 1993-cü il:** Daşnak terror qruplaşmaları ikinci dəfə Kəlbəcər rayonunun Ağdaban kəndinə basqın edirlər. 49 nəfər (ötən illərlə birlikdə 87 nəfər) dinc kənd sakini qətlə yetirilir. Evlər yerlə yeksan edilir. Sağ qalan əhali yurd-yuvasından didərgin salınır;

**682. 01 aprel 1993-cü il:** Daşnak terror qruplaşmaları Kəlbəcərin İstisu qəsəbəsinə həmlə edirlər. Şəhər tipli qəsəbə işğal altında qalır. Əhalisi erməni-daşnak faşizminin etnik təmizləmə siyasətinin qurbanlarına çevrilir;

**683. 02 aprel 1993-cü il:** Daşnak terror qruplaşmaları Füzuli rayonunun Qacar, Aşağı Divanallar, Govşad kəndlərinə basqın edirlər;

**684. 02 aprel 1993-cü il:** Daşnak terror qruplaşması Kəlbəcər rayonunun cənub hissəsini şimal əraziləri ilə birləşdirən tunel ağzında pusqu qururlar. Əsasən Başlıbel, Taxtabaşı, Əsrik kəndlərinin canlarını təhlükədən qurtarmaq istəyən dinc əhalisinin yığışdığı üç yük maşını tunel ağzında güllələbaran edilir. Taxtabaşı kənd sakinləri - Qəzənfər, Sərxan, Habil, Mehman, Qafar, Yusif və başqalarının daxil olduğu yüzə yaxın kişi, qadın güllələbaran edilir, cəsədləri yandırılır. 8 qadın, 15 kişi isə girov götürülür;

**685. 02 aprel 1993-cü il:** Daşnak terror birləşmələri Ermənistandakı VII rus ordusunun köməyi ilə Kəlbəcər rayonuna həmlə edirlər. Kəlbəcər şəhəri və rayonun 122 yaşayış məntəqəsi işğal olunur. 511 nəfər dinc sakin şəhid düşür. 321 nəfər girov götürülür. Girovların böyük bir qismi sonradan qətlə yetirilir, 74 minlik rayon əhalisi yurd-yuvasından didərgin salınır;

**686. 05 aprel 1993-cü il:** Daşnak terror qrupu Füzuli rayonunun Üçbulaq kəndinə həmlə edir. Şəhid düşənlər olur. Kənd yerlə yeksan edilir;

**687. 04 may 1993-cü il:** Cəbrayıl şəhər sakini buldozerçi Məmmədov Musa Maqsud oğlu Xocavənd rayonunun Mülkədərə kəndinin yolunda təmir işi apararkən daşnak terrorçularının basdırdıqları minaya düşür. Buldozer tam sıradan çıxır, özü isə həlak olur;

**688. 02 iyun 1993-cü il:** Daşnak muzdlusu, Rusiya vətəndaşı İqor Anatoliyeviç Xatkov tərəfindən Bakı dəmiryol vağzalında ehtiyat yolda dayanan sərnişin qatarında partlayış törədilir. Daşnak muzdlusu həbs olunur. İstintaq zamanı məlum olur ki, o, ER MTN-nin əks-kəşfiyyat idarəsinin rəisi, polkovnik Can Ohanesyan tərəfindən məxfi əməkdaşlığa cəlb edilib. AR MTN və RF Əks-kəşfiyyat xidmətinin birgə keçirdiyi əməliyyat nəticəsində 1994-cü il may ayının 13-də Can Ohanesyan, onun müavini mayor Aşot Qalayan, Rusiya əks-kəşfiyyat xidmətinin əməkdaşı mayor Boris Simonyan və V.S.Petrosyan tutulmuşlar. İstintaq sübut etmişdir ki, həmin daşnak terror qrupu tərəfindən 1991-1994-cü illərdə Rusiya ərazisindən Bakıya gələn sərnişin qatarlarında partlayışlar törədilmişdir. Nəticədə 47 günahsız insan həlak olmuş, 83 nəfər yaralanmışdır. Əfsuslar olsun ki, bu daşnak terrorçularının məhkəmə araşdırması Ermənistan prezidenti E.Ter-Petrosyanın şəxsi xahişi ilə Moskvanın əyalət şəhəri olan Tambova köçürülür. Burada terrorçular həbsdən buraxılır. Cinayətkarlar Ermənistana gələrək daha yüksək vəzifələrə təyinat alırlar;

**689. 06 iyun 1993-cü il:** Daşnak terror qrupları Cəbrayıl rayonunun güney kəndlərinə həmlə edirlər. İmişlidən qohumlarını yoluxmağa gəlmiş Cəfərov Nail Fehruz oğlu Süleymanlı kəndində odlu silahla qətlə yetirilir;

**690. 15 iyun 1993-cü il:** Daşnak terrorçularının təlim mərkəzində hazırlanmış sadvalçıların terror qrupu Qusar rayonunun Zuxul kəndindəki sərhəd məntəqəsinə basqın etmişdir. Nəticədə bir polis zabiti qətlə yetirilmiş, iki nəfər hərbçi güllə yarası almışdı. Qrup üzvləri həbsə alınmış, istintaq zamanı cinayətkarların erməni daşnak faşistləri ilə əlaqələri tam sübuta yetirilmişdir;

**691. 02 iyul 1993-cü il:** Daşnak terror qruplaşmaları Füzuli rayonunun Gorazıllı, Yuxarı Güzdək, Qaradağlı kəndlərinə basqın edirlər. Gorazıllı kəndində toyxanaya soxulan daşnak terrorçuları qadınlı-kişili ondan artıq şənlik iştirakçısını girov götürürlər;

**692. 22 iyul 1993-cü il:** Daşnak terror qrupları Tərtər və Qazax rayonlarında partlayışlar törədirlər. Nəticədə 11 nəfər dinc sakin həlak olur, 28 nəfəri isə yaralanır;

**693. 23 iyul 1993-cü il:** Daşnak terror qruplaşmaları tərəfindən Ağdam şəhəri zəbt olunur. Həmin günədək 6000-ə qədər övladını şəhid verən 132493 nəfər əhali, həm də erməni-daşnak faşizminin etnik təmizləmə siyasətinin qurbanlarına çevrilir. 80 yaşayış məntəqəsi yerlə yeksan edilir;

**694. 15 avqust 1993-cü il:** Daşnak terror qrupları Cəbrayıl rayonunun Qaracallı və Balyand kəndlərinə həmlə edirlər. Balyand kənd sakinləri Vəliyeva Səkinə Heydər qızı, Hüseynov İsa Surxay oğlu və kənd orta məktəbinin müəllimi

Babaşov Oruc Həmzə oğlunu qətlə yetirirlər. Qaracallı kənd sakini Alışov Nizami Cümşüd oğlunu girov götürürlər;

**695. 15 avqust 1993-cü il:** Daşnak terror qrupları Cəbrayıl şəhərini və Xocavənd rayonunun Hərəkül kəndini atəşə tuturlar. Hərəkül kəndi ərazisində Hovuslu kənd sakinləri Həsrətov Səxavət Möhübbət oğlu, Həsrətov Məhəmmədəli Səməd oğlu, Sofulu kənd sakini Mirimov Qərib Mehdi oğlu qətlə yetirilir. Cəbrayılda isə şəhər sakini Əliyev Nizami Fili oğlu həlak olur. Xeyli şəhər sakini yaralanır;

**696. 15 avqust 1993-cü il:** Daşnak terror qrupu Xocavənd rayonunun Daşbaşı kəndində yerləşən hərbi hissə postuna qəflətən basqın edir. Milli ordu əsgərləri Əliyev Etibar, Ağayev Ramiz, Fətullayev Nurəddin və başqaları da daxil olmaqla 17 nəfər əsgəri xüsusi qəddarlıqla, əksəriyyətinin başını kəsməklə qətlə yetirirlər;

**697. 16 avqust 1993-cü il:** Daşnak terror qrupu Cəbrayıl rayonunun Süleymanlı kəndinə həmlə edir. Dinc kənd sakinləri Cəbrayılov Saday Misirxan oğlu, Xudiyev Əyyub Şərif oğlu və kənd icra nümayəndəsi Əsgərov Müzəffər Qəzənfər oğlu qətlə yetirilir. Şükür Yaşar oğlu, Camal Soltan oğlu və Azər Zabit oğlunu girov götürürlər;

**698. 17 avqust 1993-cü il:** Daşnak terror birləşməsi Füzuli rayonunun Qacar kəndinə basqın edir. Ev-eşiyini tərk etmək istəməyən 25 dinc sakin güllələnir. Əhalinin əmlakını qarət və talan edirlər. Kənd dağıdılır;

**699. 18 avqust 1993-cü il:** Daşnak terror qrupu Füzuli rayonunun Yuxarı Əbdürrəhmanlı kəndinə basqın edir. Ümumiyyətlə, Əbdürrəhmanlı kəndində 25 nəfər dinc, təhlükəsiz sakin qətlə yetirilir;

**700. 18 avqust 1993-cü il:** Daşnak terror qrupları Cəbrayıl rayonunun Yuxarı Məzrə və Daşkəsən kəndlərinə həmlə edirlər. Yuxarı Məzrə kənd sakini, 1928-ci il təvəllüdlü Təhməzova Qönçə Səfəralı qızı həyətyanı sahədə işləyərkən güllələnir. Qışlak kənd sakini, kolxoz mühasibi İbişov Baxış Zeynal oğlu mərmi atəşiylə qətlə yetirilir. Daşkəsən kənd sakini Bəbirova Manya Məmmədalı qızı itkin düşür;

**701. 20 avqust 1993-cü il:** Daşnak terror qrupu Cəbrayıl rayonunun Çərəkən və Papı kəndlərinə həmlə edir. Papı kənd sakini Həsənov Xəlil Balaca oğlu mərmi atəşi ilə qətlə yetirilir. Çərəkən kənd sakinləri Musayev Eldar Musa oğlu, Şükürov Seyilxan Salman oğlu itkin düşür;

**702. 22 avqust 1993-cü il:** Zərdab rayonunun xalq hakimi Məmmədov Məhərrəm Fehruz oğlu Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndində yaşayan anası Məmmədova Səfurə Mirsəlim qızının, yaxın qohumları İbrahimov Rəsul Bəyqulu oğlunun və Hüseynova Aminə Ədil qızının olduğu şəxsi minik maşınında Beyləqan istiqamətində hərəkət edərkən Füzuli rayonunun Əhmədbəyli kəndi ərazisində, «Gültəpə» adlanan yerdə daşnak terror qrupunun raket atəşinə tuş gəlir. Hər dörd sərnişin bir anın içində od alan maşında yanıb külə dönürlər;

**703. 22 avqust 1993-cü il:** Daşnak terror qrupları Füzuli şəhərini işğal edirlər. Bu terror müharibəsində 733 nəfər qətlə yetirilir, 1209 nəfər şikəst olur, 181 nəfər itkin düşür, 60 yaşayış məntəqəsi dağıdılır. 106543 nəfər yurd-yuvasından didərgin salınır;

**704. 23 avqust 1993-cü il:** Daşnak terror birləşmələri Cəbrayıl şəhərinə həmlə edirlər. Şəhər sakinlərindən Verdiyev Famil qətlə yetirilir, Hüseynov Maqsud Oruc oğlu itkin düşür. Şəhər Sovetinin sədri İlqar Mehdiyev, tədarükçü Üzeyir Rüstəmov və Beyləqandan qohumlarını yoluxmağa gəlmiş Yusif həkim girov düşür. Şəhər erməni faşistlərinin işğalına məruz qalır. Hal-hazırda Cəbrayıl rayonunun 62519 nəfər sakini məcburi köçkündür. Rayon Qarabağ savaşında 368 şəhid vermişdir, 90 yaşayış məntəqəsi yerlə yeksan edilmişdir;

**705. 25 avqust 1993-cü il:** Daşnak terror birləşmələri Cəbrayıl rayonunun Dağtumas kəndinə basqın edirlər. Dədə-baba yurdunu tərk etməyən 22 nəfəri, kənd xəstəxanasının baş həkimi Əli Mahmudovu, kənd ağsaqqalı Əli Quliyevi, kəndin baytar həkimi Qüdrət Rüstəmovu, 1916-cı il təvəllüdlü Osmanova Bənövşə İbrahim qızını, 1918-ci il təvəllüdlü Mehrəliyev Əziz Salman oğlunu, 1930-cu il təvəllüdlü Məmmədov Məhəmməd Əvəz oğlunu və oğlu Səxavəti, 1930-cu il təvəllüdlü Hacıyev Məhəmmədəli Ədil oğlunu, onun həyat yoldaşı Nəcəfova Gülarə İsmayıl qızını və başqalarını güllələyirlər. Girov düşən qadınların zinət əşyaları, kişilərin var-dövləti əlindən alınır. Daşınan və daşınmaz əmlakları talan və qarət edilir, evlərə od vurulur. Evsiz-eşiksiz qalmış 3 min əliyalın, dinc kənd əhalisi yurd-yuvasından didərgin salınır;

**706. 25 avqust 1993-cü il:** Daşnak terror qrupu Cəbrayıl rayonunun Hovuslu kəndinə həmlə edir. İsti ocağını tərk etmədiklərinə görə dinc sakinlər Cavadov Aydın Adışirin oğlu, həyat yoldaşı Məmmədova Şövkət Məmməd qızı, 87 yaşlı Piralıyeva Nənəxanım Məmməd qızı, Məmmədova Narxanım Məmməd qızı və Əmrahova Mahnisə Şıxəli qızı qətlə yetirilir;

**707. 25 avqust 1993-cü il:** Daşnak terrorçuları Cəbrayıl rayonunun Daşveysəlli kəndinə basqın edirlər. Doğma yurd-yuvasını tərk etmədiklərinə görə 1923-cü il təvəllüdlü, Böyük Vətən müharibəsi veteranı, el ağsaqqalı Hüseynov Hüseyn Ataş oğlu, Əliyev Şakir Məhəmməd oğlu və Yunisova Şura Şəmil qızını qətlə yetirirlər;

**708. 30 avqust 1993-cü il:** Cəbrayıl avtonəqliyyat müəssisəsinə məxsus sərnişin avtobusu Cəbrayıl-Qubadlı sərhədində, «Xanlığın qaşı» adlanan ərazidə daşnak terrorçularının həmləsinə məruz qalır. Mərmi atəşi ilə avtobus partladılır. Dağtumas kənd sakinləri Abbas Rüstəmov, Həsən Məmmədov, İlham Rüstəmov, Pənah Rüstəmov həlak olur, Çaytumas kənd sakini Mövlanverdi İbrahim oğlu ağır qəlpə yarası alır;

**709. 30 avqust 1993-cü il:** Daşnak terror qrupu tərəfindən Xocavənd (Hadrut) rayonu ərazisində «Zil» markalı maşın partladılır. İki nəfər həlak olur. Bir

neçə gün sonra isə sərnişin avtobusu partladılır. Dörd nəfər həlak olur, səkkiz nəfər yaralanır;

**710. 31 avqust 1993-cü il:** Daşnak terror birləşmələri Qubadlı şəhərinə basqın edirlər. 94 yaşayış məntəqəsi dağıdılır. 140 nəfər qətlə yetirilir, 100 nəfər girov götürülür. 32 min nəfərlik rayon əhalisi erməni-daşnak faşistlərinin etnik təmizləmə siyasətinin qurbanı olur;

**711. 09 sentyabr 1993-cü il:** Daşnak terror qrupu Cəbrayıl rayonunun Şahvəlli kəndinə basqın edir. Doğma yurd-yuvalarını tərk etmədiklərinə görə dinc sakinlər - İsmayılov Məhəmməd Yunis oğlunu və oğlu Ramazanı, yeznəsi Qurbanov Mürvət Əmrah oğlunu və həmkəndlisi Maqsudov Əhməd Abbas oğlunu girov götürürlər;

**712. 14 sentyabr 1993-cü il:** Atası ilə birgə Beyləqan istiqamətində mal-qara qovan Cəbrayıl rayonunun Xələfli kənd sakini 11 yaşlı Hüseynov İsa Musa oğlu Füzuli rayonunun Bəhmənli kəndi ərazisində daşnak terrorçularının mərmi atəşinə tuş gəlir. Yerindəcə həlak olur;

**713. 23 oktyabr 1993-cü il:** Daşnak terror birləşmələri Füzuli rayonunun Horadiz qəsəbəsinə basqın edirlər. 26 dinc sakin güllələnir, 14 nəfər girov götürülür. Qəsəbə canlı aləmdən təcrid edilir. Habelə azğınlaşmış başqa bir daşnak terror qrupu Füzuli rayonunun Yağlıvənd kəndinin qəbiristanlığına həmlə edir. Dəfn mərasiminin iştirakçılarından 13 nəfər öldürülür, qalanları isə qəlpə yarası alır;

**714. 23 oktyabr 1993-cü il:** İrəvandan xüsusi məqsədlə təşkil edilib göndərilmiş daşnak terror qruplaşması Füzuli rayonunun «Almalı bağı» adlanan ərazisində pusqu quraraq Qaradiz-Daşburun istiqamətində və əksinə hərəkət edən «Jiquli» markalı minik maşınlarından və digər nəqliyyat vasitələrindən Sabirabad rayonunun Telmankənd sakini Türk Əhmədin həyat yoldaşı, qızı və oğlu da daxil olmaqla 40-a yaxın sərnişini girov götürülmüşlər. Girovları «QAZ-66» markalı tentli hərbi hissə maşınında Füzuli şəhəri istiqamətində aparmışlar. Bu günə kimi həmin 40 nəfər girovdan heç birinin səs-sorağı çıxmamışdır. Görünür, sağlam və gənc yaşda olan bu insanların müxtəlif əzalarından və daxili orqanlarından transplantasiya məqsədi ilə Qərb bazarlarında istifadə edilməsinə dair gəzən söz-söhbətlər həqiqətə uyğundur. Axı, həmin dövrlərdə insan əzalarının satışına görə Ermənistan dünya ölkələri arasında birinci yerdə gedirdi;

**715. 23 oktyabr 1993-cü il:** Daşnak terror birləşmələri Cəbrayıl rayonunun Araz boyu kəndlərinə basqınlar edirlər. Doğma od-ocaqlarını tərk etmədiklərinə görə Mahmudlu kənd sakinləri Əhmədov Yurik Bəhlul oğlu, 1912-ci il təvəllüdlü Əliyev Bilal Həsənəli oğlu, 1912-ci il təvəllüdlü Yəhyayev Şamil Səlim oğlu, Aşağı Maralyan kənd sakinləri 1898-ci il təvəllüdlü Məmmədov Məşi Məmmədalı oğlu, 1904-cü il təvəllüdlü Abbasov Cəfər Dadaş oğlu, 1918-ci il təvəllüdlü Səfərov Bəxtiyar Zülfüqar oğlu, Böyük Mərcanlı kənd sakinləri 1920-ci il təvəllüdlü Əzizov Baha Ağamməd oğlu, 1925-ci il təvəllüdlü Quliyev Məhəmməd

İbrahim oğlu və 1902-ci il təvəllüdlü Məmmədzamanova Lala Ağahüseyn qızı daşnak terrorçuları tərəfindən qətlə yetirilmişlər;

**716. 23 oktyabr 1993-cü il:** Daşnak terror qruplaşmalarının Cəbrayıl rayonunun Arazboyu kəndlərinə basqını zamanı sərhəd kəndlərinə sığınmış Safarşa kənd sakinləri Həsənquliyev Sabir Hüseyn oğlu və həyat yoldaşı Əkbərova Cəmilə Yaqub qızı İrana adlayarkən Arazda boğulmuşlar. Nüzgar kənd sakini, Zəngilan rayonunda fizika-riyaziyyat müəllimi işləyən Məmmədov Məmməd Yunis oğlu isə Stansı Mahmudlu kəndində, Horovlu kənd orta məktəbinin müəllimi Quliyev Əkbər Məhəmməd oğlu Füzuli rayonunun Arayatlı kəndi ətrafında daşnak terrorçuları tərəfindən güllələnərək qətlə yetirilmişlər;

**717. 23 oktyabr 1993-cü il:** Daşnak terror birləşmələri Füzuli rayonunun Arazboyu kəndlərinə basqın etmişlər. Cəbrayıl rayonunun Doşulu kənd sakinləri Şirinov Şirin Bilal oğlu, oğlanları Nazim və Tahir, həmkəndliləri Hüseynov Cavanşir Ərşad oğlu və onlarla bir maşında olan Məzrə kənd sakini Əliyeva Nisə Xanlar qızı Qaradiz-Daşburun avtomagistralının Şükürbəyli kəndi ərazisində daşnak terrorçuları tərəfindən girov götürülmüşlər. Hələ də onların hər hansı birinin öldüsündən və ya qaldısından xəbər-ətər yoxdur;

**718. 23 oktyabr 1993-cü il:** Daşnak terror qrupu Cəbrayıl rayonunun Arazboyu kəndlərindən olan Şıxalıağalıya basqın edir. Dinc kənd sakinlərindən doğma ocağını tərk etməyən Zalova Zabitə Əhməd qızını qətlə yetirirlər, oğlunu - İsgəndərov Təbriz Novruz oğlunu isə girov götürürlər. Sağ qalan əhali yurd-yuvasından didərgin salınır;

**719. 23 oktyabr 1993-cü il:** Daşnak terror qrupu Sarıcallı kəndinə həmlə edir. Kəndin dinc sakinlərindən Əliyev Pili Dilavər oğlu həyətində qətlə yetirilir, Hacıyev Ramiz Əyyub oğlu isə girov götürülür. O da terrorçular tərəfindən 1994-cü il avqust ayının 8-də Xankəndində güllələnərək qətlə yetirilir;

**720. 23 oktyabr 1993-cü il:** Daşnak terror qrupu Cəbrayıl rayonunun Mehdili kəndinə basqın edirlər. 16 yaşlı Rəşad Əhliman oğlu girov götürülür. 500 baş qoyun sürüsünü, onlarca nəqliyyat vasitəsini ələ keçirirlər. Həmin kəndə sığınmış Daşveysəlli kənd sakini Xudiyev Ayaz Vəli oğlu İrana adlayarkən Arazda boğulur;

**721. 23 oktyabr 1993-cü il:** Cəbrayıl rayonunun Niyazqulular kənd sakini Quliyev Mehdiqulu Mədət oğlu sürücüsü olduğu yük maşınında ailə üzvləri - həyat yoldaşı Quliyeva Ofelya Məmiş qızı, oğlanları 13 yaşlı Ceyhun və 11 yaşlı Xürrəm, 6 yaşlı qızı Ceyhunə ilə birlikdə Füzuli rayonunun Horadiz qəsəbəsi ərazisində daşnak terror qruplaşmasının təcavüzünə məruz qalır. Bu günədək girov götürülmüş Quliyevlər ailəsinin heç bir üzvündən xəbər-ətər yoxdur. Bir ailə bütövlükdə məhv edilmişdir;

**722. 24 oktyabr 1993-cü il:** Daşnak terror qrupları Cəbrayıl rayonunun Arazboyu kəndlərinə basqınları zamanı sərhəd kəndlərinə sığınmış Şəybəy kənd sakinləri Məmmədov Vəliş Allahverdi oğlu, həyat yoldaşı Məmmədova Fatma

Adış qızı və Quycaq kənd sakini Paşayev Oruc Əziz oğlu şəxsi minik maşınında Füzuli rayonunun Qazaxlar kəndi ərazisində - sərhəd xəttindəki keçid məntəqəsinin qapısı ağzında daşnak terrorçularının mərmi atəşinə tuş gəlirlər. Hər üç sərnişin həlak olur;

**723. 24 oktyabr 1993-cü il:** Daşnak terror qruplaşmaları Füzuli rayonunun Qazaxlar kəndi ərazisinə basqın edirlər. Dinc əhalini işğal zonasından çıxarmağa çalışan Mərcanlı kənd sakini Fazil Seyidəliyevin təkərli traktoru terrorçuların aramsız gülləbaranına tuş gəlir. Lafetə yığılanlardan 1920-ci il təvəllüdlü Seyidəliyeva Göyçək Xəlil qızı, İmanova Gözəl Mehdi qızı, Əmrahova Xanım Qərib qızı, 7 yaşlı Seyidəliyev Faiq Fazil oğlu, 11 yaşlı Məmmədov Seyidəli İsmayıl oğlu, 13 yaşlı Məmmədov Mübariz Fərmayıl oğlu, 13 yaşlı Məmmədova Tamella Fərmayıl qızı, Məmmədova Təranə İsmayıl qızı qətlə yetirilir. Quliyev Elvin və Elgün Hüseyn oğlu qardaşlarının və İsgəndərov Rasim Yolçu oğlunun sağ tikələri ələ gəlmir. Arazı İrana adlamaq istəyən Həsənov Allahyar İsrafil oğlu isə çayda boğulur. Fazil Seyidəliyev və Aminə Qarayeva ağır qəlpə yarası alırlar;

**724. 24 oktyabr 1993-cü il:** Daşnak terror qrupu Füzuli rayonunun Qazaxlar kəndi ərazisində rezin təkərli K700 traktoruna həmlə edirlər. Terrorçular Böyük Mərcanlı kənd sakinləri sürücü Mehdiyev İsmayıl Şükür oğlunu və oğlu Şükürov İlyas İsmayıl oğlunu qətlə yetirirlər;

**725. 25 oktyabr 1993-cü il:** Daşnak terror qrupu Cəbrayıl rayonunun Qumlaq kəndi yaxınlığında «UAZ-469» markalı minik maşınını gülləbaran edir. Mincivan qəsəbə sakinləri Bəhram Adıgözəlov və Emin Nəsibov qətlə yetirilirlər;

**726. 30 oktyabr 1993-cü il:** Daşnak terror birləşmələri Zəngilan şəhərinə həmlə edirlər. Nəticədə rayonun 83 yaşayış məntəqəsinin 35 minlik dinc, əliyalın əhalisi erməni-daşnak faşizminin etnik təmizləmə siyasətinin günahsız qurbanına çevrilir. Rayon üzrə 182 nəfər qətlə yetirilmiş, 44 nəfər itkin düşmüşdür; 110 nəfər şikəst olmuş, 200 uşaq yetim qalmışdır;

**Qeyd:** Ümumiyyətlə, 22 fevral 1988-ci ildən 01 noyabr 1993-cü ilədək erməni-daşnak faşistləri Qarabağda 10 şəhəri və 890 yaşayış məntəqəsini (ümumilikdə 900) dağıtmış, 735 mindən çox dinc əhalini yurd-yuvasından didərgin salmışlar. Nəticədə 30 min Azərbaycan türkü qətlə yetirilmiş, 50 min nəfəri şikəst edilmiş, 100 mindən çoxu yaralanmış, 4959 nəfər girov götürülmüşdür. Qəsbkarlar əhalinin 100 milyard ABŞ dolları dəyərində daşınan və daşınmaz əmlakını talan və qarət etmiş, mənimsəmişlər;

**727. 01 fevral 1994-cü il:** Daşnak terrorçusu tərəfindən Bakı dəmiryol vağzalında Kislovodsk-Bakı sərnişin qatarından ayrılıb Bakı-Astara qatarına qoşulan 3-cü vaqonda partlayış törədilir. Nəticədə 5 nəfər həlak olur, 20 nəfər yaralanır;

**728.09 fevral 1994-cü il:** Daşnak terrorçusu tərəfindən Azərbaycan dəmiryolunun Xudat stansiyasının ehtiyat yolunda dayanmış yük qatarı partladılır. Dövlətə külli miqdarda maddi ziyan dəyir;

**729.18 mart 1994-cü il:** Daşnak terrorçuları tərəfindən İran hərbi hava qüvvələrinə məxsus «Herkules» təyyarəsi Xankəndi yaxınlığında vurulur. 34 nəfər həlak olur. Terrorçular cəzadan yayınırlar;

**730.19 mart 1994-cü il:** Daşnaksutyun partiyasının hərbi cinahının nəzarəti altında olan Sadval terrorçuları tərəfindən Bakı metropoliteninin «20 yanvar» stansiyasında qatar partladılır. 14 nəfər həlak olur, 49 nəfər müxtəlif dərəcəli bədən xəsarəti alır. Sadvalın üzvü, terrorçu Qurbanov Oqtay Sədrə oğlu həlak olur. Terror qrupunun digər 5 üzvü həbs edilir. İstintaq zamanı məlum olur ki, 1992-ci ildə Ermənistandan Dağıstanın Axtı rayonunun Miqrax kəndinə Sadvalın yaraqlıları üçün vertolyotla külli miqdarda silah, döyüş sursatı, partlayıcı maddələr daşınır. Oradan isə təşkilatın Azərbaycan Respublikasının şimal rayonlarındakı fəallarına paylanır. 1992-ci ilin aprel-may aylarında Sadvalın 17 üzvü (Oqtay Qurbanov da onların arasında olub) Ermənistanın Nairi rayonunun Lusoker qəsəbəsində yerləşən təlim-məşq bazasında xüsusi hərbi və terror-təxribat hazırlığı keçiblər. 1993-cü ilin yay aylarında Ermənistanın Arzni rayonunda və Dağıstanın Məhərrəmkənd rayonunun Darquş kəndində və Bilici qəsəbəsində daşnak təlimatçılarının rəhbərliyi altında sadvalçılardan terror qrupları hazırlanıb;

**731. 13 aprel 1994-cü il:** Daşnak terrorçuları «Dağıstan alovları» dayanacağında Moskva-Bakı istiqamətində hərəkət edən sərnişin qatarında partlayış törədir. 6 nəfər həlak olur, 3 nəfər yaralanır;

**732. 3 iyul 1994-cü il:** Daşnak muzdlusu və sadvalçı Aslanov Azər Salman oğlu tərəfindən Bakı metropoliteninin «28 may» və «Gənclik» stansiyaları arasında elektrik qatarında partlayış törədilir. 13 nəfər həlak olur, 54 nəfər yaralanır, müxtəlif dərəcəli bədən xəsarəti alırlar. Aslanov Azər Salman oğlu erməni əsirliyində olarkən Ermənistan xüsusi xidmət orqanlarının əməkdaşları polkovnik Karen Baqdasaryan, Ağvan ləqəbli polkovnik və kapitan Seyran Sarkisyan, Moskvada yaşayan əlaqələndirici agent Artur Şmavonoviç Akopyanın vasitəsi ilə ələ alınır. Onun ələ alınmasında Zori Balayan və qondarma DQR-nın o vaxtkı prezidenti R.Koçaryanın xüsusi rolu olur. O, məxfi əməkdaşlığa cəlb olunduqdan sonra iyulun 3-də gizli yolla Bakıya gəlir və terror aktını həyata keçirir;

**733. 28 oktyabr 1995-ci il:** Daşnak terrorçuları tərəfindən Bakı metropoliteninin «Ulduz» və «Nərimanov» stansiyaları arasında elektrik qatarında terror aktı törədilir. 289 nəfər (137 qadın, 28 uşaq) həlak olur, 269 nəfər yaralanır;

**Qeyd:** Çoxsaylı insan tələfatı ilə nəticələnən bu terror aktına heç bir təhlil və ekspertiza aparılmadan elə həmin gün dövlət nümayəndələri «texniki səbəbdir» deyə, yanğın hadisəsi kimi boz don geydirirlər. Lakin zaman keçdikcə hadisənin terror aktı olması faktını gizlətmək mümkün olmur. Nəhayət, ermənilər tərəfindən törədilən terror aktı kimi qiymətləndirilir;

**734. 1995-ci il:** Erməni-daşnak faşizmindən qorunmanın simvolu, rəmzi kimi Bakı-Qazax yolunun Şəmkir rayonu ərazisindən keçən hissəsi üstə qoyulmuş Boz qurd heykəli daşnak muzdlusu tərəfindən partladılır;

**735. 27 oktyabr 1999-cu il:** Dörd nəfərdən ibarət daşnak terror qrupu Ermənistan parlamentinə soxularaq parlamentin sədri Karen Dəmirçiyan və Baş nazir Vazgen Sarkisyan başda olmaqla bir neçə deputatı qətlə yetirir;

**736. 30 iyun 2001-ci il:** Erməni-daşnak faşizminin rəhbərliyi altında fəaliyyət göstərən Hacı Maqamedovun terror qrupu Daxili Qoşunların Zaqatalada yerləşən hərbi hissəsinə basqın etmişdir;

**737. 18 avqust 2001-ci il:** Erməni-daşnak faşizminin yetirməsi olan Murad Qurbanovun terror qrupu Rusiya işğalına qarşı Qafqaz xalqlarının azadlıq simvolu olan Şeyx Şamilin Zaqatala şəhərində qoyulmuş büstünü partlatmışdır;

**738. 19 avqust 2001-ci il:** Erməni-daşnak faşizminin yetirməsi olan Hacı Maqamedovun terror qrupu Zaqatala rayon polis şöbəsinə basqın edir. Altı polis əməkdaşı güllə yarası alır;

**739. 20 sentyabr 2001-ci il:** Erməni-daşnak faşizminin yetirməsi olan Hacı Maqamedovun terror qrupu Katex kəndində yol polisinə basqın edir. Bir mülki şəxs qətlə yetirilir;

**740. 10 iyul 2002-ci il:** Erməni-daşnak faşizminin yetirməsi olan Hacı Maqamedovun terror qrupu «Şabalıdlı» restoranına basqın edir. İsmayılov Anar həlak olur. İki sərhədçi yaralanır. Atışma zamanı Hacı Maqamedov öldürülür;

**741. Mart-oktyabr 2002-ci il:** Əvvəl Hacı Maqamedovun, sonra isə Murad Qurbanovun rəhbərlik etdiyi terror qrupu ayrı-ayrı iaşə və ticarət müəssisələrinə, evlərə basqın edirlər. Qarət və soyğunçuluqla məşğul olurlar;

**742. 30 oktyabr 2003-cü il:** Erməni-daşnak faşizminin yetirməsi, sadvalçı Qurban Muradovun terror qrupu iki evə və bir mağazaya basqın edir. Bir mülki şəxs qətlə yetirilir;

**Söz ardı:** Əziz oxucu, mənim burada haqlarında bəhs etdiyim terror aktlarının sayı və məzmunu erməni-daşnak faşistlərinin Azərbaycanın tarixi coğrafiyasında törətdikləri terror aktlarını tam miqyası və öz dəhşətləri ilə əks etdirmir. Mən sadəcə olaraq bu terror aktlarının tarixi baxımdan bir çox hallarda ümumi mənzərəsini, mərhələlər üzrə baş vermə dövrlərini, qabarıq şəkildə özünü göstərən hadisə və vəhşətlərin adını və qısa şərhini verməyə çalışmışam. Onun mükəmməl şəkildə işlənməsi, əhatə dairəsinin tamamlanması ayrıca bir institutun tədqiqat predmeti və obyekti ola bilər. Təkcə bir faktı burada qeyd edə bilərəm ki, 1988-1993-cü illərdə Qərbi Azərbaycan (Ermənistan), DQ və ətraf rayonlarda etnik təmizləmə siyasətini həyata keçirən erməni-daşnak faşistləri ötən yüz ildə Qərbi Azərbaycanda Azərbaycan türklərinin məskun olduğu 930 yaşayış məntəqəsini canlı aləmdən tədric etmiş, siyasi xəritədən adlarını silib çıxarmışlar. Türksüz Ermənistan Respublikası qurmuş, Azərbaycan Respublikasının 20% torpaqlarını işğal etmişlər. Düzən və Yuxarı Qarabağın 900 şəhər, kənd və qəsəbələrinin dinc, əliyalın əhalisini məcburi köçkünlüyə məhkum etmişlər. Evini, doğma yurd-yuvasını tərk etməyən əhalini isə qətlə yetirmiş, türk soyqırımına məruz qoymuşlar. Bu isə elə ən azı 900 terror aktı deməkdir. Halbuki çar Rusiyasının

Azərbaycanı işğal etmək məqsədi ilə apardığı 32 illik müharibə dövründə, habelə XIX əsrin II yarısında rus-türk müharibələri dövrlərində, ermənilərin Azərbaycan ərazisinə köçürülməsi prosesləri zamanı, 1905-1907, 1918-1920, 1948-53, 1988-1994-cü illərdə erməni-daşnak faşistlərinin türk soyqırımları, deportasiyalar törətdikləri dövrlərdə yüzlərlə yaşayış məntəqəsi bu sayaq canlı aləmdən təcrid edilmiş, yüzlərlə, bəlkə də minlərlə bu sayaq terror aktları törədilmişdir. Bu baxımdan ermənilər və erməni-daşnak faşistlərinin törətdikləri terror aktlarının sırası saya gəlməzdir. Odur ki, Azərbaycanda erməni-daşnak faşistlərinin törətdikləri terror aktlarının xronologiyasının dəqiqləşdirilməsinə, onun dünya ictimaiyyətinə olduğu kimi çatdırılmasına ciddi ehtiyac vardır. Erməni-daşnak faşistlərinin Azərbaycan türklərinə qarşı törətdikləri vəhşiliklər, etnik təmizləmə və soyqırımı siyasəti Azərbaycan tarixinin tədqiq olunmamış sahələrindəndir. Bu tarixin hələ çox vərəqləri açılmamış, ən müdhiş neçə-neçə səhifələri öz tədqiqatçılarını gözləyir.

Erməni-daşnak terrorçularının cinayətlərini müdafiə edənlərə və gizlədən kimsələrə Allahın lənətləri olsun!

## ERMƏNİ-DAŞNAK FAŞİZMİ TƏRƏFİNDƏN ƏVVƏLCƏDƏN HAZIRLANAN MƏXSUSİ QANTÖKMƏ PLANI – SUMQAYIT FİTNƏSİ

Həmişə olduğu kimi bu dəfə də ermənipərəst Qorbaçovun yenidənqurmasına rəğmən Sovet hökumətinin dəmir əlinin boşalmasıyla yaranan hökumət boşluğundan istifadə edən erməni-daşnak faşistləri baş dikəltdilər. Dağlıq Qarabağ məsələsini yenə də ortaya atdılar. Qorbaçov hökuməti siyasi möhtəkirliklə, erməni-daşnak faşizmi isə davakar və millətçi ibarəbazlıqla Azərbaycanı milli münaqişə, Ermənistanı isə milli əlahiddəlik meydanına çəkdi. Moskvada özünə topdağıtmaz qala quran erməni diasporu mərkəzi hakimiyyəti tam öz təsiri altına aldı. Mərkəz və onun əlaltısı olan yerli hakimiyyətlər tərəfindən ziddiyyətlər bizim üçün nə qədər kütləşdirilsə də, qonşularımız tərəfindən mütəmadi olaraq bir o qədər kəskinləşdirildi. Qorbaçovun yanında Aqanbekyan, Şahnazaryan, Brutens otururdu. Ümumiyyətlə, o dövrdə Sov. İKP MK aparatında 17 nəfər erməni məsul vəzifələrdə çalışırdı. Baş nazir Rıjkovun ətrafında isə fırlananlar Sitaryanla Xaçaturyan oldu. 1987-ci il noyabr ayının 18-də «Humanitə» qəzetində Aqambekyanın DQMV-nin Azərbaycandan alınıb Ermənistana verilməsinin «iqtisadi məqsədəuyğunluğu» barəsindəki qeyri-qanuni bəyanatından sonra erməni-daşnak faşistləri-barbarları açıq və leqal şəkildə Sovetlər Birliyində finiş xəttinə ayaq götürdülər. Qələbəliklə fəaliyyətə başladılar. Misli görünməmiş həyasızlıqla hərəkətə keçdilər. 1987-ci ilin dekabrında ABŞ-dan həmrəylik səsləri eşidildi. Respublikaçılar partiyasının Nyu-Orleandakı qurultayında erməni icmasından olan nümayəndələr təkid etdilər ki, partiyanın proqramına «Sovet

İttifaqında öz müqəddəratını təyin etmək hüququnu əldə etməyə çalışan xalqların müdafiəsi» barədə maddə daxil edilsin. Məhz belə bir dövrdə antiazərbaycan əhvali-ruhiyyəsi yaratmağın məqamı və vaxtı yetişdi. Təzyiqlərə, təqiblərə, təxribatlara, həmlələrə revanş verildi. 1988-ci ilin ilk günlərindən erməni-daşnak fasistlərinin azərbaycanlılara qarşı ideoloji təcavüzü kütləvi xarakter aldı. Daşnak ziyalıları mətbuatda, ekran və efirlərdə geniş cəbhə boyu tam leqal şəkildə hücuma keçdilər. Rəsmi Moskva KİV-ləri açıqdan-açığa erməni-daşnak faşistlərinin xidmətində durdular. Azərbaycanlı qələmindən çıxan yazıların çapına qadağalar qoydular. Qorbaçov başda olmaqla partiya və dövlət rəhbərləri riyakarcasına özlərini kar-kor kimi apardılar, bütün bunları görməməzliyə vurdular. Zahirən sakitləşdirici, mahiyyət etibarilərsə qızışdırıcı hərəkətləriylə erməni-daşnak faşistlərini dava-dalaşa şirnikləndirirdilər. Baş verənlər həmin andan bir qayda olaraq birtərəfli, qızışdırıcı ruhda təqdim olunmağa başladı. İdeoloji cəhətdən Azərbaycan tərk-silah edildi. Azərbaycan siyasi-psixoloji böhran həddinə salındı. Erməni-daşnak faşistləri Azərbaycanı məkrli niyyətlərinin terror və təbliğat obyektlərinə çevirməyin yolunu və yerini aradılar. Qarşıda faşizmin klassik, milli əleyhdarlarına qarşı yönəltdikləri gizli, kütləvi terror aktlarından milli münaqişələrin törədilməsi, millətlərarası ədavətin qızışdırılmasında bir üsul, bir vasitə kimi istifadə etmək vəzifəsi dururdu. Uyğun ssenarilər 1905-1907 və 1918-1920-ci illərdə azərbaycanlıların soyqırımı hadisələrində öz təsdiqini tapmışdı. Onsuz da azərbaycanlıların türk olmaq etibarı ilə erməni-daşnak şüurunda milli düşmən obrazı vardı və bu gərginlik müdam ayaqda saxlanılırdı. Bu obrazı yeniləşdirmək, bugünkü dünya şüurunda bu günün tələbləri baxımından yeritmək və daşnak təbliğatının döyüş silahını işə salmaq lazım idi. Bunun üçün köhnə ssenarini yeni quruluşda oynamaq, fitnənin və fitnəkarlığın törədiləcəyi konkret obyekti, yeri-yurdu seçmək lazım idi. İngilis jurnalisti Skotlan Lidder hələ 1919-cu ildə yazırdı ki, daşnak üçün öldürülmüş erməni çox qiymətlidir. Belə hadisədən necə lazımdırsa o cür istifadə edilsə, o, təbliğat işində çox xeyir verə bilər. Ən əlverişli nifrət obyekti isə Sumqayıt seçilə bilərdi, elə də oldu. Erməni-daşnak faşistləri tərəfindən fitnə və fitnəkarlığın törədiləcəyi yer, obyekt Sumqayıt məkanı seçildi. Sumqayıt köhnəlmiş texnologiya və avadanlıqlarla işləyən kimya zavodlarının yerləşdiyi sənaye şəhəri idi. Xalq arasında Sumqayıt «ölü şəhər» (Sumqayıtda yüksək ölüm faizi vardı), «ekoloji cəhənnəm» (Sumqayıtda ağır ekoloji şərait vardı) adlanırdı. Kasıbların, iş axtaranların yığıldığı, toplaşdığı fəhlə şəhəriydi. Əhalinin böyük bir qismi yataqxanalarda, «gecə qondular»da çirkab içində yaşayırdı. Sumqayıtda zaman-zaman öz doğma yurdlarını «könüllü və ya məcburi» tərk etmiş Ermənistandan gəlmiş minlərlə köçkün ailələri, habelə öz həbs müddətlərini çəkmiş, başa vurmuş 20 minə yaxın keçmiş dustaqlar ordusu məskunlaşmışdı. Hələ neçə-neçə məcburi əməyə, icbari islah işlərinə cəlb edilmişlər təyinatla göndərildikləri buradakı zavodlarda gündəlik iş normalarını yerinə yetirmək məcburiyyətində idilər. Sumqayıtda kriminal sükut hökm sürürdü.

Lakin bütün bunlara baxmayaraq Sumqayıtda milli etnik zəmində içəridən, öz-özünə törənə biləcək münaqişə ovqatı, infeksiya ocağı yox idi. Hər halda Sumqayıt sovet mətbuatında birlik, həmrəylik, beynəlmiləl şəhər kimi, kimyaçılar şəhəri, gənclik şəhəri kimi təbliğ olunurdu. Lakin Sumqayıt səması həmişə kimya zavodlarının havaya buraxdığı zəhərli qazların çirkabında boğulurdu. Göy üzünün maviliyi bu boz-bulanıq burusqallığın, zəhər dənəcikli sisin-hisin ağırlığına tab gətirmir, zəhərli qaz qatı tez-tez şəhərin sinəsinə çökürdü. Sumqayıtdan çox-çox uzaqlarda isə İrəvanda, Moskvada, Parisdə, Los-Ancelesdə fəaliyyət göstərən erməni-daşnak faşistləri zaman-zaman hazırladıqları məkrli, məqsədyönlü, məxsusi qantökmə planlarının Sumqayıt variantını - Sumqayıt fitnəsini fitildətmək, fırlatmaq barədə düşünür, məqam gözləyirdilər. Milli-etnik münaqişə və millətçilik qasırğasının istiqamətini Azərbaycanın bu kriminal şəhərinə yönəltməyin, çatılmış ocağa neft tökməyin vaxtı tamam oldu. Azərbaycanlılar üçün gözlənilmədən baş verən Sumqayıt fitnəsi heç də hamı üçün gözlənilməz deyildi. Sumqayıt fitnəsi Moskvada - SSRİ DTK-da məskən salan, SSRİ-nin dağılmasında maraqlı olan qüvvələrin erməni-daşnak faşistlərinin iştirakı ilə düşünülüb-daşınılan bir aksiya formasında hərəkətə salınması yolu və qaydasında məsləhətləşmələr də olmuşdu. Bu fitnənin törədilməsində hər iki tərəfin öz maraqları vardı. Birinci tərəf sovetlər məkanında milli münaqişəni qızışdırmaq və bu zəmində imperiyanı dağıtmaq niyyəti güdürdü. Erməni-daşnak faşistləri isə birincilərin maraqları çərçivəsində öz məkrli planlarını əraziləri zəbt etməklə Azərbaycandan növbəti dəfə torpaq qoparmaq planlarını həyata keçirmək üçün Sumqayıt fitnəsini törətməliydilər. Milli-etnik münaqişənin tərəfləri kimi ermənilərlə azərbaycanlıların üz-üzə qoyulması gözlənilən idi. Sovetlər məkanında bu, optimal bir seçim idi. Erməni-azərbaycanlı münaqişəsinin tarixi kökləri vardı. Bu münaqişə ocağı erməni-daşnak faşistləri tərəfindən həmişə çatılı ocaq vəziyyətində, tətiyi ayaqda odlu silah kimi saxlanılırdı. Ermənilər həm də bu cəhətdən ən kəmfürsət xalq kimi tanınırdı. Təxribat, iğtişaş, intriqa, qalmaqal törətməkdə usta olduqları bəlliydi. Azərbaycanlıları qarət və talan etmək fürsətlərini heç zaman əldən vermədikləri tarixi ənənəyə çevrilmişdi. Qədim, çoxmillətli, birgəyaşayış mədəniyyətinə, zəngin dini tolerantlıq ənənəsinə malik humanist, sadəlövh Azərbaycan xalqını münaqişəyə çəkmək, hədəf seçmək bir ənənə halını almışdı.

Sumqayıt fitnəsinə faciə və hadisə, milli zəmində baş verən münaqişə və ya toqquşma, təsadüfi təxribat və ya iğtişaş, habelə Qorbaçovun ikiüzlülüklə bəyan etdiyi xuliqanlıq zəminində baş verən bir aksiya kimi baxmaq olmaz. Hadisələrin mahiyyətinə varmaqla, tədqiq və təhlil etməklə hadisələrin kökündə nələrin durduğunu açıq-aşkar görməmək mümkünsüzlüyündən danışmaq və yazmaq lazımdır. Bu fitnəkarlıq mərkəzin nəzarəti altında erməni-daşnak faşistlərinin təşkilatçılığı və zorakılıqları, öz maraqlarını həyata keçirmək şərtiylə SSRİ-nin dağıdılmasına yönələn və yerində atılan bir addım idi. Lakin istintaqın gedişi bütünlükdə Moskvanın - Qalkin və onun əməkdaşlarının ixtiyarına keçirilməsi,

cinayətin öz motivi ilə deyil, tamam başqa səmtə yönəldilməsi, daha doğrusu, təşkilatçılıqla bağlı cinayət işinin başlanılması tələblərinin üstündən sükutla keçilməsi, ancaq talançılıq və Qorbaçovun diktəsi ilə xuliqanlıq zəminində köklənməsi çox şeydən xəbər verirdi. Hər vəchlə Moskvanın istintaqçıları tərəfindən Sumqayıt fitnəkarlığının erməni-daşnak faşistləri tərəfindən törədilməsinə dəlalət edən faktlar gizlədilir, ermənilər tərəfindən təşkilinə dəlalət edən ifadələr, izahatlar aradan çıxarılır, işdə təmizləmə cəhdlərinin olması və aparılması hər an hiss olunurdu. Ermənilərin qətlə yetirilməsinin əsas təşkilatçısı, iştirakçısı və icraedicisi olan daşnak terrorçusu E.Qriqoryanın DTK-nın əlaltısı olması, DTK əməkdaşı Eseyanın diktəsi altında ifadələr verməsi və məhkəmə prosesinin onun tərəfindən izlənilməsi, hadisələrdən bir gün əvvəl və hadisələr zamanı qatilin iki qara plaşlı adamlarla rastlaşması, görüşməsi və onlardan təlimat alma faktları istintaq zamanı qətiyyən araşdırılmamışdı. Çünki məqsəd tamam başqaydı. İctimai şüura azərbaycanlıların yeni - faşist, düşmən, panislamist, pantürkist, ən başlıcası isə demokratik dəyişikliklərin əleyhdarları kimi lənətlənəcək stereotipini yaratmaq və yeritmək idi. Axı, Sumqayt fitnəsi qabaqcadan Qorbaçovun erməni-daşnak faşistləri tərəfindən törədiləcək və aparılacaq terror müharibəsinə bəraət qazandıracaq kimi alçaq bir məqsəd güdürdü. Bəli, bunu, bu fitnənin törədiləcəyini bilənlər və təxmin edənlər işlərini bilərək öz ehtiyatlarını bəri başdan görürdülər. Belə ki, şəhərin məlumatlı erməniləri 2-3 ay öncə əmanət kassalarından pullarını çıxarmış, özlərinin və yaxınlarının təhlükəsizliyini təmin etmək üçün bir neçə gün əvvəlcədən etibar etdikləri yerlərə köçürmüşdülər. Sex sahibi olan varlı ermənilər həmin günlər ərəfəsində ailəlikcə şəhəri, bir çoxu isə hətta Azərbaycanın özünü tərk etmişdilər. Daşnak agentləri daşnak terrorçuları tərəfindən qətlə yetiriləcək ermənilərin şəxsiyyətlərini, ünvanlarını qabaqcadan müəyyən etmişdilər. Bu ölüm siyahısına o ermənilərin adları daxil edilmişdir ki, məhz onlar «Böyük Ermənistan» yaratmaq xülyasını qəbul etməyənlər, Daşnaksutyun partiyasına üzv yazılmayanlar, onun xeyrinə və hesab fonduna pul köçürməyənlər, DQ-ın Ermənistana birləşdirilməsini istəməyənlər, bir sözlə, Daşnaksutyunun əleyhdarları olmuşlar. Daşnak terrorçuları fürsəti əldən vermədilər. Ermənistan SSRİ-dən qovulmuş minlərlə azərbaycanlının toplaşması nəticəsində Sumqayıtda yaranan sosial-siyasi gərginlikdən məharətlə və yetərincə istifadə etdilər. Köhnə vərdişlərindən bəhrələndilər. Onlar öz soydaşlarından olan adamları öldürməklə öz məkrli niyyətlərini həyata keçirmək, törətdikləri qanlı aksiyanı Azərbaycan türklərinin ayağına yazmaq, bu təxribat aksiyasından vəhşi türk obrazı yaratmaq, azərbaycanlıları 1915-ci il genosidinin davamçıları kimi qələmə vermək niyyətlərini reallaşdırmaq istəklərini həyata keçirdilər. DQMV alovunu sönməyə qoymadılar. Azərbaycanlıları son nəfərinədək qovmaq üçün Ermənistanda gərginlik yaratmağa nail oldular. Həmçinin təbliğat maşınını işə salmaq üçün qabaqcadan hazırlıq işləri görmüşdülər. Sumqayıt hadisəsi baş verməzdən 2-3 gün öncə şəhərin müxtəlif rayonlarında gizlənmiş

daşnak rejissorları video-kameralarla, səsyazma avadanlıqları ilə silahlanmış uzaq Avropadan tutma muzdlu nümayəndələrini - reportyorları Sumqayıtda yerləşdirmişlər. İğtişaşlar başlamazdan öncə texniki vasitələr evlərin damlarına qoyulmuşdu. Azərbaycan dilini tam mənimsəmiş daşnak təhrikçiləri - təxribatçı qadın və kişilər isə 25 yanvar və 23-24 fevral günlərində (1988-ci il) Qafandan qovulan didərginlərə qoşularaq Sumqayıta göndərilmişlər. Bu azğınlar şəhərdəki texniki peşə məktəblərinin yataqxanalarında məskunlaşmışlar. Onlar daşnakların azğınlığından, başlarına olmazın oyunlar açmalarından, kürəklərinə xaç damğası basmalarından, namuslarına təcavüz etmələrindən o ki var danışmış, şagirdləri şəhərdəki ermənilərdən intiqam almağa çağırmışdılar. Hətta, yaman şişə görə döşü cərrahiyə əməliyyatı zamanı kəsilib götürülən daşnak qadını döşünün erməni-daşnak faşistləri tərəfindən kəsildiyini də söyləmişdi. Bu minvalla təxribatçılar milli münaqişənin törədilməsi üçün tam zəmin hazırlamışlar. Tornaçı daşnak isə təxribatda iştirak edəcək şagirdlər üçün ucları çarxa verilən dəmir armatur çubuqları, parçaları da hazırlamışdı. Təxribatçıların və daşnak terrorçularının özləri isə faşizmin klassik üsulu ilə özünümüdafiə və milli əleyhdarlarına qarşı yönəltdikləri terror aktının icraçılarına və iştirakçılarına çevrilmişlər. Yalnız qan kütləvi qəzəb və intiqam hissi oyadır. Fitnəkarlar hadisə olan günü özləri qabağa düşmüş, nəzərdə tutulan ermənilərə o ki var divan tutmuşlar. Hadisələr zamanı müxtəlif maşınlarla yeniyetmə və gənclərə siqaret, araq, narkotik maddələr paylayanların da olduğu qeydə alınmışdı. Erməni-daşnak faşistlərinin başqa bir təşkilatçılıq işi özünü onda göstərir ki, fevral ayının 27-də aranı qızışdıran, «Qafan dəhşətlərini» öz gözləri ilə gördüyünü bəyan edən, danışan qalstuklu «şahidlər» sonradan qeybə çəkilmişlər. Habelə fitnənin törədilməsi ərəfəsində Sumqayıtda çoxlu gəlmələr peyda olmuş, kirayə mənzillər tutub şəhərdə yaşamış, onlar da hadisələr başlanandan bir gün sonra gizli şəkildə aradan çıxmışlar. Ümumiyyətlə, Sumqayıt fitnəsi əvvəldən hazırlanmış plan üzrə - bir zərgər dəqiqliyi ilə həyata keçirilən təxribat aksiyası olmuşdu. Sumqayıt fitnəsinin əsas təşkilatçısı, iştirakçısı və icraçısı kimi daşnak terrorçusu Eduart Qriqoryanın seçilməsi də təsadüfi deyildi. Zahirən o erməniyə yox, rusa oxşayırdı. Qonşuları isə onu milli mənsubiyyətinə görə ləzgi, ad sarıdan isə Paşa kimi tanıyırdılar. Çox uğurlu bir seçim idi. Bununla yanaşı həddindən artıq hazırlıqlı, savadlı və hiyləgər olması onunla sorğu aparan istintaqçıların diqqətini həmişə cəlb etmişdir. Əlaltıları bir başçı - daşnak terror qrupunun rəhbəri kimi də həmişə ona itaətkarlıq göstərmişlər. Sumqayıtda yaşayan ermənilərin siyahısı da məhz onda olmuşdu. Adlarının qabağında plyus, minus işarələri qoyulmuşdu. Qətlə yetirilməsi nəzərdə tutulan ermənilər də məhz onun əli və ya təhriki ilə qətlə yetirilmişdilər. Beləliklə, daşnak terrorçuları Eduart Robertoviç Qriqoryanın, silahdaşı Ohanyanın, onların əlaltıları, daşnak muzdluları Samoylovun, Pavlovskinin rəhbərliyi altında 26 erməni, erməni adı altında 2 azərbaycanlı qətlə yetirilmişdi. Bir gün sonra isə 4 azərbaycanlı rus tanklarının altına salınmışdı. Daşnak təxribatının, daha doğrusu, Sumqayıt fitnəsinin baş

tutmasına xidmət edən Qorbaçov hökuməti də öz işini, öz rolunu «lazımınca» oynamışdır. Fərman verənlər tərəfindən qoşun hissələrinin şəhərə daxil olması, hadisələrin qarşısını almaq təşəbbüsü qəsdən yubadılmışdır. Bir gün sonraya saxlanılmışdı. Bu azmış kimi, Moskva istintaqı da öz əlinə alır. Doqquz ermənini bilavasitə öz əli ilə qətlə yetirməsi cinayəti sübuta yetirilən daşnak terrorçusu E.Qriqoryanın kimliyi elan edilmir. Paşa adı ilə istintaqa cəlb olunur. Moskvaya aparılır, oradan isə azadlığa buraxılır. Hazırda İrəvanda yaşayır. Digər daşnak terrorçusu Ohanyan, daşnak muzdluları Samoylov, Pavlovski isə bəri başdan yuxarıların təzyiqi və sifarişiylə azadlığa buraxılmışlar. Adları isə uzun müddət və məqsədyönlü şəkildə KİV-lərdən gizlədilir. Moskvaya aparılan azərbaycanlılardan Tale İsmayılov, Elçin Gəncəliyev və Yavər Cəfərov müttəhimlər kürsüsünə çıxarılmadan öncə istintaq təcridxanasında müəmmalı şəkildə məhv edilirlər. Heç bir sübut-dəlil olmadan yuxarıdan gələn sifariş əsasında dördüncü azərbaycanlı müttəhim Əhməd Əhmədov isə SSRİ Ali Məhkəməsinin qərarı ilə güllələnir. Halbuki Ə.Əhmədov Sumqayıt hadisələrində fəallıq göstərən və videolentlərdə şəkilləri nümayiş etdirilən 1000 nəfər gəncin təsvirləri arasında görsənməmişdir. Onun Qriqoryanla, onun ətrafı ilə tanışlığı, hər hansı bir əlaqəsi istintaq yolu ilə sübuta yetirilməmişdir. Bütün bu haqsızlıqlara görə özündə dözüm tapa bilməyən hüquq müdafiəçisi, Ə.Əhmədovun vəkili, rus millətindən olan Yaşin və oğlunun haqsız yerə güllələnməsinə tab gətirə bilməyən ata Əhmədov az keçmir ki, ürək partlamasından həyatlarını qeyb edirlər. Ümumiyyətlə, daşnak terrorçusu Eduard Qriqoryanın rəhbərliyi, təşkilatçılığı və iştirakı altında gedən Sumqayıt iğtişaşında 32 nəfər qətlə yetirilmiş, 400 nəfər yaralanmışdır. Daşnakların təbliğat maşını isə öz işini görür. Erməni-daşnak faşistləri dünya ictimaiyyətini aldatmaq məqsədilə «Sumqayıt soyqırımı» deyilən yeni bir əfsanə yaradırlar. Ayın 28-29-da baş vermiş iğtişaşlar sona çatmamış videoya alınan lentlərdəki fraqmentlər elə həmin gün xaricə ötürülür, uzaq-uzaq ölkələrin televiziya kanallarında nümayiş etdirilir. Belə ki, qabaqcadan planlaşdırılmış qan tökülməsi günündən hələ bir gün əvvəl Sumqayıta gəlmiş xarici ölkə vətəndaşlarının kino və videokamera aparatları qeydə alınmışdı. İki xarici ölkə vətəndaşı - «ezamiyyətə gəlmiş» çex və alman mütəxəssisləri hadisələri lentə alıb yaymışdılar. Filmlər Avropa və Amerikanın erməni kaloniyaları olan bütün ərazilərində nümayiş etdirilmişdi. Baş tutan Sumqayıt fitnəsindən, Sumqayıt fitnəkarlığından bir gün sonra, daha doğrusu, səhərisi gün Xankəndində «Sumqayıt genosidi qurbanları üçün» əvvəlcədən hazırlanmış abidənin açılışı olur. Üç gün sonra isə «KRUNK» tərəfindən DQMV-nin kinoteatrlarında Sumqayıt hadisələrinə həsr olunmuş film nümayiş etdirilir. Filmdə şahid kimi göstərilən və dindirilən Qabrielyan adlı bir erməni dostu Mişanın və onun arvadının ölüm səhnəsini təsvir edir və dediklərini guya öz gözləri ilə görmüş kimi təsdiqləyir. Onun deməsinə görə Mişanın və arvadının başı kəsildikdən sonra 30 azərbaycanlı onun yeniyetmə qızını növbə ilə zorlayırlar. Bundan sonra qızı tikə-tikə doğrayıb ətini duzlayırlar. Manqala od vururlar. İnsan

ətindən bişirilmiş kababı iştahla yeyirlər. Siz təsəvvür edə bilməzsiniz ki, biz bu vəhşilərin nələrinə dözmüşük. Bu o deməkdir ki, azərbaycanlılar təkcə köçəri-müsəlmanlar, türklər deyil, həm də adamyeyəndilər. Ona görə də onları DQ-dan və ümumiyyətlə, Zaqafqaziyadan qovmaq və öldürmək ədalətlidir. Ermənilərin düzəltdikləri bu şou-tamaşaya 10 manatdan tamaşaçı biletləri satılır, külli miqdarda vəsait toplanır. Vəsaitin silah alınacağına sərf ediləcəyi bildirilir. İntiqam hissi qızışdırılır. Əhali psixoz hala gətirilir. Halbuki Sumqayıt hadisələri zamanı filmdə nümayiş etdirilən şəxsin Sumqayıt sakini olmadığı aydınlaşır. Artıq bu filmin peşəkar aktyor oyunu olduğu hamıya bəlli olan məsələdir. Bəli, «Sumqayıt soyqırımı» deyilən əfsanə erməni-daşnak faşistlərinə həm DQMV-ə yiyələnmək, həm də Ermənistan adlanan Qərbi Azərbaycanın aborigen Azərbaycan türkləri əleyhinə ehtirasları qızışdırmaq üçün bir zəmin oldu. Erməni-daşnak faşistləri qorxu və nifrəti bu sayaq yeni quruluşda bərpa etdilər. Qərəzli və məkrli erməni-daşnak təbliğatı Sumqayıt fitnəsindən, fitnəkarlığından sonra daha da fəallaşdı. Sumqayıt beynəlxalq antiazərbaycan təbliğatının nüvəsinə çevrildi. Dünyanın bütün radiostansiyaları, ermənipərəst mövqe tutan Qərb mətbuatı azərbaycanlıların erməniləri necə öldürməyindən danışdılar və yazdılar. Hətta G.Borovik «Pozitsiya» verilişində Sumqayıtla heç bir əlaqəsi olmayan Livan qırğınının montajından ibarət videokasetlərdən istifadə etməklə erməni xəyanətinə haqq qazandıran, məkrli niyyətlərə xidmət edən süjetlərini bilərəkdən ekrana çıxardı. «Moskovskiye novosti» qəzetinin əməkdaşı V.Losak, fəlsəfə elmləri doktoru M.Kapustin, professor V.Petrovski kimi ermənipərəst rus müəllifləri daşnak təbliğatçılarına qoşulub mərkəzi qəzetlərin səhifələrində Azərbaycan əleyhinə yazılar dərc etdirdilər. Böhtanlar atdılar, haray-həşir saldılar, şivən qopardılar. Ən çox işlədilən, səslənən və yazılan, təkrarlanan sözləri genosid və qırğın sözləri oldu. Azərbaycanlılar dünya ictimaiyyətinə qatillər və zorakı adamlar kimi təqdim edildi. Bütün bu işlər yeni nəsillərin düşmənçilik ruhunda tərbiyə olunmasında, erməni gənclərinin azərbaycanlılara qarşı mübarizəyə qalxmasında, erməni-daşnak terror qruplarının ardınca getmələrində mühüm rol oynadı. Onların millətçilik ehtiraslarını alovlandırdı. Həqiqətən də bu hadisədən sonra Azərbaycan türklərinin Ermənistan SSR-dən qovulması dövlət siyasəti səviyyəsində həyata keçirildi. Ümumiyyətlə, Sumqayıt fitnəsinin erməni-daşnak faşistləri tərəfindən və onların əliylə təşkil edilməsini və mərkəzin buna rəvac verməsini təsdiqləyən nüans və məqamlar kifayət qədərdir. Sumqayıt hadisələri zamanı Mejlumyan bacıları da öz soydaşları tərəfindən təcavüzə və zorlamaya məruz qaldıqlarını və E.Qriqoryanın cinayətkar olduğunu izahatlarıyla təsdiqləyiblər. Həm də onlar izahatlarını İrəvanda heç bir təzyiq altında olmadan, istintaqı aparan rus müstəntiqlərinə veriblər. Hadisələr zamanı daxili qoşunların 12000 əsgəri, DİN və DTK-nin yerli orqanları fitnəkarlıqların, təxribat və talanların qarşısını almaq üçün praktiki olaraq heç nə etməmişlər. Milis passiv, seyrçi mövqe tutmuş, hadisələri ancaq müşahidə

etməklə kifayətlənmişdir. Ordu isə ancaq iş-işdən keçəndən sonra, bir sutka gecikməklə «fəaliyyətə» başlamışdı.

Azərbaycan hökumətinin gücsüzlüyü, onun rəhbərlərinin öz xalqına etinasız münasibət bəsləməsi, Kreml qabağında itaətkar kölə qulluğunda durmaları da Azərbaycan xalqına çox baha başa gəlmişdi. Respublika hakimiyyət orqanları rəhbərlərinin ən böyük suçu kimin-kim olduğunu aydınlaşdırmaq üçün Sumqayıt fitnəsində, fitnəkarlığında məsuliyyətə cəlb olunan bütün iştirakçılarının işinə açıq məhkəmə prosesində baxılmasını tələb və təkid etməməsi olmuşdu.

Sumqayıt fitnəsinin təhqiqatında da ağılasığmaz hərəkətlərə qol qoyulmuşdu. Moskvanın istintaqı öz əlinə alması respublika prokurorluğuna etimadsızlığın təzahürü kimi respublikanın rəhbər orqanları tərəfindən bu dəfə də pislənməmiş, etirazla qarşılanmamışdır. Halbuki 20 iyun 1988-ci ildə Xankəndində vilayət sovetinin növbədənkənar sessiyasında iştirak edən, Sumqayıt hadisələri zamanı orada «komendant saatına» rəhbərlik etmiş rus generalı Krayev Sumqayıtda əvvəlcədən planlı iş aparılmasını, cinayətin burada gedən hadisələrlə əlaqəsi olduğunu bildirmişdir.

Əfsuslar olsun ki, Sumqayıt fitnəsinin törədilməsindən uzun illər keçməsinə baxmayaraq, hələ də SSRİ xüsusi xidmət orqanlarının və erməni-daşnak faşistlərinin bilavasitə təşkilatçılığı və iştirakı ilə həyata keçirilən bu fitnəkarlıq aktına hüquqi-siyasi qiymət verilməmişdi. Azərbaycan hüquq mühafizə və məhkəmə orqanlarının nümayəndələri tərəfindən hadisənin mahiyyəti, başvermə səbəbləri, kökləri barədə nəinki beynəlxalq ictimaiyyət arasında təbliğat işi aparılmayıb, heç ölkə ictimaiyyətinə belə lazımi bilgilər verilməsinə səylər göstərilməmişdir.

Bu gün heç kimə sirr deyil ki, Sumqayıt fitnəsi erməni-daşnak faşizminin təbliğat maşınını işə salmaq üçün, nifrət obyekti doğurmaq üçün məqsədli səkildə törədilmişdir.

## 20 YANVAR BAKI QIRĞININDA ERMƏNİ-DAŞNAK İZİ

20 Yanvar Bakı qırğını Azərbaycanın faciə dolu tarixindən bir qanlı səhifədir. Xalqımızın həyatına fəlakət, qan gətirən günlərimizdəndir. Qorbaçov hökumətinin başbilənləri qoşunun Bakıda qayda-qanun yaratmaq və qan tökülməsinin qarşısını almaq, daha doğrusu, ermənilərin və ya şəhərin rus əhalisinin təhlükəsizliyini təmin etmək adı altında yeridildiyini desələr də, məqsəd tamam başqaydı. Bəs onda 20 Yanvar Bakı qırğınının Azərbaycan tarixinin, taleyinin, mənəviyyatının kontekstində oynadığı rol barədə nə demək olar?! Bu bəlanın başverma səbəbi nədir, günahkarları kimlərdir?!

Bəli, hadisə var, baş verən kimi tarixə dönür. Öz adıyla, öz ünvanıyla qırmızı və ya qara xətlə tarix səhifəsinə, eləcə də xalqın qan yaddaşına həkk

olunur. Hansı xətlə, rənglə yazılmasından asılı olmayaraq bu hadisələrin eləsi də var ki, o dünənin əsarətinə, ölümünə fərman verir, gətirdiyi sarsıntıdan, qəm-kədər yükündən asılı olmayaraq bu günün və sabahın müjdəçisinə, tarixin və xalqın qəhrəmanlıq səhifəsinə çevrilir. 20 Yanvar qırğını da məhz tariximizin bu qəbildən olan, həm fəlakətli və faciəvi bir günü özündə ehtiva edən, həm də fədakarlığı yaşadan bir gündür. Azərbaycan xalqının azadlıq uğrunda apardığı mübarizədə əhvali-ruhiyyəsinin ifadəsinin göstəricisidir. Müstəqillik və istiqlal mübarizəsinin ilk mərhələsində, qan tökmələrindən biri olan bu faciə öz miqyasına görə bəlkə də birincisidir. Yenə də bu faciədə Rusiyanın işğalçılıq siyasəti erməni daşnak faşistlərinin çirkin, məkrli niyyətləri ilə uzlaşdı, üst-üstə düşdü. Ermənipərəst mərkəzin daşnak xislətli rəhbəri Qorbaçovun, mənəvi və siyasi əxlaqsızlığın, milli ədavət qızışdırıcılarının sürfəsindən mayalanmış cütünə - erkəkciyinə və dişiciyinə dönmüş Balayanla Silvanın psixopat düdüyünə züy tutması Azərbaycan xalqının səbir kasasını doldurub-daşdırırdı. Qorbaçovun daşnak isteriyasının erməni sadizminə yoluxması, açıq-aşkar Azərbaycan xalqına ögey münasibət bəsləməsi, Qarabağ probleminə, onun həlli məsələsinə üçəm, beşəm standartlardan yanaşması Azərbaycanın uduzması demək idi. Xalq artıq üzləşdiyi erməni bəlasına çarə tapa, əncam çəkə biləcək öz dövlətini, öz hakimiyyətini qurmaq tələbi ilə çıxış edirdi. Xalqın qətiyyəti, dönməzliyi, dözümlülüyü, mübarizliyi Moskvanın kürkünə birə salırdı. Sözdən söz çıxaranlar deyirdilər ki, Ata Buşla Qorbaçovun dekabrın 7-də (1989) Maltada görüşlərində Azərbaycanda vüsət alan milli azadlıq hərəkatını hərbi güclə susdurmaq məsələsini də müzakirə ediblər. Rusiya Bakı qırğınını ABŞ-ın Panamada törətdiklərinə kompensasiya edəcəkdir, söz-söhbəti gəzirdi. Xalqın əqidəsini, əzmini qırmaq, Azərbaycan SSR-in Sovet İttifaqından ayrılması təhlükəsini aradan qaldırmaq üçün Bakıya qoşun yeridilməsi labüd idi. O vaxtlar SSRİ Ali Soveti İttifaq Sovetinin sədri işləyən Primakovun təbirincə desək, buna bir addım yol qalırdı. Bakını işğal etməkdə ordunun əsas məqsədi xalqın gözünün odunu almaq, xalq hərəkatını yatırtmaq, Xalq Cəbhəsinin təşkilat strukturlarını, dayaqlarını birdəfəlik darmadağın etmək idi. Azərbaycan Xalq Cəbhəsinin antierməni siyasəti yürüdən və zorakılıqda əli olan təşkilat kimi mərkəzdə adı hallandırılırdı. Bakının işğalı əməliyyatına rəhbərliyi bilavasitə öz əlinə alan SSRİ Müdafiə naziri, erməni yeznəsi Yazov ordunun məqsədini birbaşa bəyan edirdi ki, məqsədimiz Xalq Cəbhəsi təşkilatını dağıtmaq və onun dayaq dəstələrini sıradan çıxarmaqdır. Siyasilər isə papaq altda ot yolurdular: Qoşun Bakıda qayda-qanun yaratmaq, erməniləri müdafiə etmək, şəhərin rus əhalisinin təhlükəsizliyini qorumaq, təmin etmək üçün yeridilir - deyirdilər. Arada işğal söhbəti varsa, erməni-daşnak faşistləri bu girəvəni əldən verərdilərmi heç?! Mərkəz erməni-azərbaycanlı münaqişəsinə ögey-doğmalıq münasibətini göstərməkdə davam edirdi. 265 min azərbaycanlının Qərbi Azərbaycandan didərgin salınması, 450 nəfər Azərbaycan türkünün qətlə yetirilməsi, 50 nəfərdən çoxunun şikəst edilməsindən sanki, nə daşnak xislətli Qorbaçovun, nə erməni yeznəsi Yazovun, nə

də Ermənistan SSR-də lövbər salmış 7-ci rus ordusunun komandanı, erməni mənşəli sovet generalı Samsonovun xəbəri vardı. Təkcə 1989-cu ilin son beş ayında daşnak terror qrupları 91 dəfə Ermənistan SSR ərazisindən Azərbaycanın sərhəd kəndlərinə basqılar etmişdi. 52 nəfər Azərbaycan vətəndaşı qətlə yetirilmiş, 166 nəfər dinc sakin güllə yarası almışdı. Nə Qorbaçov, nə Yazov, nə də Samsonov bu cinayət qarşılığında tük belə tərpətməmişdilər. Sanki SSRİ hökuməti SSRİ Konstitusiyasına görə Azərbaycan SSR-in ərazi bütövlüyünü, əhalisinin təhlükəsizliyini qorumaq öhdəliyini deyil, əhalisini məhv etmək, torpaqlarını hissə-hissə qoparıb Ermənistan SSR-ə ilhaq etmək vəzifəsini yerinə yetirmək üçün ali hakimiyyət kürsüsündə oturmuşdur. Öz üzərinə bu sayaq öhdəliklər götürmüşdür. Öz təxribat işlərini altdan-altdan əlaltıları-xalqına etinasız münasibət bəsləyən yerli idarəçilərin, respublika rəhbərlərinin əliylə görməkdəydilər. Bakını işğal etməyin, Bakıya qoşun yeritməyin yolunu axtarıb-arayırdılar. Tapırdılar da: 1) qaçqınlarla yerli camaat arasında narazılıq yaratmağa cəhd göstərdilər. Lakin alınmadı. Ən böyük düşmən - erməni-daşnak faşistləri xalqın qarşısındaydı; 2) bir neçə partiya, sovet orqanlarına basqılar etmək təşəbbüsündə olmaq təxribatına əl atdılar. Təəssüf ki, buna nail oldular. Cəlilabadda məlum aksiya törədildi. Bununla da Azərbaycan SSR AS-nin 15 sentyabr, 5 oktyabr sessiyalarının kulminasiya nöqtəsi olacaq 29 dekabr 1989-cu ildə keçirilməsi nəzərdə tutulan sessiyanın baş tutmasına imkan verilmədi. Hakimiyyətin demokratik, dinc yolla dəyişdirilməsi yolunun bərqərar olması ehtimalı aradan qaldırıldı. Xalqın üzünə demokratiya qapıları biryolluq bağlandı; 3) son pillədə isə detekanın əliylə milli zəmində toqquşmaları törətmək və Bakıya qoşun yeritmək tədbirinə önəm vermək idi;

Ən nəhayət, Azərbaycan Xalq Cəbhəsinin Milli Müdafiə Şurası yaratmaq bəyanatı ilə çıxış etdiyi gün - 13 yanvar 1990-cı il tarixdə Bakı şəhərində xüsusi xidmət orqanlarının əli ilə erməni qırğınlarına rəvac verildi. Lakin Xalq Cəbhəsi fəallarının köməyi ilə yanvar ayının 15-dək vəziyyət sabitləşdi. Mərkəz isə yanvar ayının 13-15-ci günlərində baş verənləri çeynəməkdə, iğtişaşa yeni çalarlar qatmaqda, fitnəkarlıq aktları barədə söz-söhbətlərini gəvələməkdə davam edirdi. Azərbaycanda silahlı dövlət çevrilişi, hərbi hissələrin yaradılması, islam fundamentalizmi, Bakıda guya ruslar əleyhinə hərəkatın başlaması haqqında cəfəngiyatlar uydururdular. Axı, nəyin bahasına olursa-olsun Bakıya qoşun yeritmək lazım idi. Azərbaycana güzəşt edilə bilməzdi. Yanvarın 20-də XC-nin izdihamlı mitinqi gözlənilirdi. Bakı isə o günədək işğal edilməliydi. Azərbaycanın Sovet İttifaqından ayrılmasına yol vermək olmazdı. Tarixi ənənəyə də əməl edilməliydi. Qafqazın işğalında erməni amilindən istifadə etmək ənənəsindən məhz bu gün də Bakının işğalında istifadə olundu. Səfərbərlik haqqında fərman olmasa da, erməni diasporunun nəzərəçarpacaq dərəcədə və səviyyədə gücə malik olan Rusiyanın cənub əyalətlərində Krasnodar, Stavropol ölkələrində və Rostov vilayətində ehtiyatda olan hərbiçilərin toplantısı keçirildi. Bakıya yeridiləcək qisasçı ordunun tərkibinə erməni millətindən ehtiyatda olan 600 nəfər əsgər və

zabit, 180 nəfər diasporda adları hallanan daşnak terrorçusu daxil edildi. Daha doğrusu, «verbovka» olundular. Erməni-daşnak faşistləri tərəfindən ələ alınmış ermənipərəst Qorbaçov 20 Yanvar Bakı qırğınının törədilməsinə «dobro» verdi. Bakıda kifayət qədər ordu hissələrinin olmasına baxmayaraq, ordunun kənardan gətirilməsinin açıq-aşkar nə niyyətə edildiyi faş oldu. Bunun ancaq daşnak əlaltısı Qorbaçov və onun ətrafındakı ermənilər tərəfindən ordunun tərkibinə erməni-daşnak ünsürlərinin yeridilməsi ilə bağlı edildiyinə heç bir şəkk-şübhə yeri qalmadı. Krasnodardan, Stavropoldan, Postov vilayətindən çağırılmış ehtiyatda olan əsgərlərə - daşnaklara (istər terrorçu olsun, istərsə də erməni znovoru) xüsusi qəddarlıq dərsləri keçmək lazım deyildi, artıq onlar buna hazır idilər. Səfərbər olunanlar Azərbaycan türkünü qırmaq, öldürmək hərisləriydilər. Qisasçı ermənilərin tərkibinə yeridildiyi ordunun formalaşdırılması bununla məhdudlaşmırdı. Ermənipərəst Qorbaçovun, erməni yeznəsi Yazovun öz daşnak xislətləriylə daşnak dost-aşnalarına verdikləri vədlər müqabilində belə çox işlər gördülər. Lakin heç nə bildikləri, bazar möhtəkiri sandıqları Azərbaycan sınan qoza oxşamırdı. 20 Yanvar gecəsində Bakını al qana boyamaq üçün Kremldə qantutarlar da hazırladılar. Bəs nələr hazırlamadılar? Bilmədiklərimiz bildiklərimizdən qat-qat çoxdur, bəlkə də min dəfə artıqdır. Bakı demokratiya selində üzürdü. Bakını bu selin özündə boğacaq emissarlar artıq paytaxtda oturmuşdular. Əməliyyat hazırlayırdılar. Bu əməliyyata quru, hərbi dəniz, hərbi hava və hərbi desant qoşunlarının iri hissələri, SSRİ DTK-nın və SSRİ DİN-nin xüsusi təyinatlı qoşunları qatılmışdılar.

Qana susamış ordu 1990-cı il 20 Yanvarda gecəyarısı, gecənin bağrını iriçaplı güllə atəşləriylə yarır. Qorbaçov gizli fərman verir. Fövqəladə vəziyyət elan edilmədən, habelə respublikanın Ali Soveti ilə razılaşdırılmadan qeyri-qanuni şəkildə Bakıya qoşun yeridilir. Qorbaçov hökuməti tərəfindən açıq-aydın xalqı xəbərdar etmədən, xalqın varlığına qəsd edilir, cinayətkarcasına açıq hərbi təcavüz aktı həyata keçirilir. Hücumdan öncə SSRİ DTK-nın alfa xüsusi qrupu tərəfindən Azərbaycan SSR DTK-nın əməkdaşı Starçenkonun bilavasitə iştirakı və bələdçiliyi ilə Azərbaycan Televiziyasının enerji bloku partladılır. Bakı güllələnir o gecə! Bakı al qana qərq edilir o gecə! Azərbaycan türkünün azadlıq harayı rus tanklarının tırtılları altına salınır, əzilir o gecə! İnamlar, ümidlər dara çəkilir insan bədənində o gecə! Azərbaycan xalqı öz faciəsi ilə üzbəüz, təkbətək qalır o gecə! Xalqın milli mənliyi, milli qürur, milli iftixar hissləri tapdanır o gecə! Zorakılıq və atəş səsləri ilə həkk olunur Azərbaycan xalqının qan yaddaşına o gecə!

Erməni-daşnak faşistlərinin atəşfəşanlığıdır 20 Yanvar gecəsi. Qansız, goreşən, kəmfürsət daşnak terrorçularının fürsət düşür əllərinə o gecə. Nəşələnmiş, narkotik qəbul etmiş əsgərlər daşnak terrorçularına qoşulur, onların diqtəsi altında bir-birindən üstün, xüsusi amansızlıqlarla qətl hadisələri, vəhşilik aktları törədirlər. Xəbərdarlıq etmədən silahsız adamlara güllələr atırlar. İstifadəsi qadağan edilmiş, insan bədənində müxtəlif istiqamətlərdə hərəkət edən güllələrdən istifadə edirlər.

Küçədən keçən bütün şəhər sakinləri və işığı yanan evlər gülləbaran edilir. Dinc sakinlər öz mənzillərində qətlə yetirilir. Ölüm insanları o müdhiş gecədə küçə qapılarında, avtobuslarda, iş yerlərində haqlayır. Minik maşınları öz sərnişinləri ilə birgə tankların, PDM-lərin altına salınır. Yaralılara kömək etməyə tələsən təcili yardım maşınları atəşə tutulur. Yerlərdə yaralılara təcili yardım göstərən tibb işçiləri güllələrə tuş edilir. Həkimlərə də güllə atılır, ölən həkimlər var. Yaralılara da güllə atılır. Yaralananları səhərə kimi yerdən götürməyə qoymurlar. Onlara kömək edənləri döyürlər, söyürlər. Qabırğaları sındırılır, qol-qıçları əzilir. 5,45 mm kalibrli güllələrdən yara alanların əzabı qat-qat artır, ölümləri labüdləşir. Saqqallı əsgərlər, daşnak terrorçuları onların iniltisindən həzz alır. Bu saqqallı əsgərlər, heç cürə demək olmaz ki, sovet ordusuna məxsusdular. Onlar ancaq bu ad altında Bakıya soxulan daşnak terrorçularından başqa kim ola bilərdilər?! Məhz bu cəlladlar ələ salamat keçənləri də döyür, şil-küt edirdilər. Ölülərin qiymətli əşyaları, əsginazları oğurlanır, mənzillər qarət olunur, vətəndaşlar soyulurdu. Göz altına alınanlar təhqir edilir, onların insanlıq ləyaqəti alçaldılırdı. Bütün bunlar, habelə silahsız adamların qabaqcadan təşkil edilmiş qırğını, qəddarlıqla müşahidə olunan qətllər məgər erməni-daşnak faşistlərinin bu qətliamda iştirakını təsdiqləmirmi?!

Bəli, o gecə insanlar qırılırdı... O gecə təkcə küçələrin, evlərin deyil, xəstəxanaların da işıqları söndürülmüşdü. Xəstəxanalarda cərrahiyyə əməliyyatları, tibbi yardımlar şam işığında, qəzet, kağız bükmələrinin alovu altında aparılırdı. Şəhidlər və şahidlər şəhadət verirdi o gecə! O gecə Bakının 171 dinc sakini qətlə yetirildi, beş nəfər itkin düşdü, 800 nəfər yaralandı, 841 nəfər göz altına alındı. Yüzə yaxın müxtəlif markalı avtomaşın tankların altında əzildi. Onlarla nəqliyyat vasitəsi gülləbaran edildi. Binalar dağıdıldı, zədələndi. Şəhərə və şəhər təsərrüfatına 5 milyard rus rublu dəyərində maddi ziyan vuruldu. Sovet ordusu tərəfindən daha altı nəfər AXC üzvü Lənkəranda qətlə yetirildi. AXC-nin bütün rayon mərkəzlərindəki dayaq dəstələri sovet ordusunun təcavüzünə məruz qaldı. Qırmızı ordu qızıl qanımızla qəddarcasına tariximizə Qara Yanvar səhifəsi yazdı. Qəlbi saflığımız, bəşəri dəyərlərə hörmətimiz, inamımız çox baha başa gəldi bizə o gecə. Bakının dinc, əliboş, əliyalın əhalisinə qarşı soyuqqanlılıqla düşünülmüş, qəddarlıqla həyata keçirilən qanlı faciə xalqın birliyini, mətinliyini, ləyaqət hissini birdən-birə endirdi o gecə. Cinayətin təşkilatçıları - Sov. İKP-nın Baş katibi Qorbaçov, SSRİ AS İttifaq Sovetinin sədri Primakov, Sov. İKP MK katibi Girenko, Sov. İKP MK-nın məsul işçisi Mixaylov; iştirakçıları SSRİ MN-i Yazov, SSRİ DİN-i Bakatin, SSRİ DTK sədri Kryuçkov və hərbi hissələrin komandirləri, zabit heyəti; icraçıları hərbi qulluqçular (əsgərlər) 20 Yanvar Bakı qırğınını törətdiklərinə görə, görəsən, Tanrı cəzasındandamı yan keçəcəklər?! Xalqın müdafiəsini təşkil etməyə borclu olan yerli vəzifə mənsubları - Ə.Vəzirov, A.Mütəllibov, Y.Polyaniçko, E.Qafarova, V.Hüseynov 20 Yanvar Bakı qırğınının qarşısını almaqda fəaliyyətsizlik göstərmələrinin, xalqın şərəfini, namusunu,

mənliyini tapdalatdıqlarının görəsən heç fərqinə vardılarmı?! Xalqın qınağına keçməyin nə olduğunu dərk etmək iqtidarında heç oldularmı?!

Xalqın önündə bu sayaq gedənlərin - öz millətinin, xalqının aqibətinə, taleyinə bu qədər biganə olmaları, etinasızlıq göstərmələri, olub-keçənləri belə ört-basdır etmə cəhdləri adamda ancaq təəssüf hissi doğurur. Öz vəzifələri, mənsəbləri, şəxsi mənafeləri naminə nələr etmədilər, etmirlər, bu vəzifə düşkünləri, İlahi! Fəlakəti sovuşdurmaq və ya miqyasını azaltmaq gücündə olmayan yerli idarəetmə aparatının nümayəndələri Bakıya qoşun yeridilməsinə qarşı nə açıq, nə gizli etirazlarını bildirdilər, nə də xalqın etimadını itirdiklərinə görə vəzifələrindən istefa verdilər. Xalq hərəkatının liderləri isə 20 Yanvar Bakı qırğınının asanlıqla həyata keçirilməsinə bir növ şərait yaratmış oldular. Qorbaçov hökuməti mənliyi tapdanmış zavallı xalqın həqiqət istəyini qərənfillərlə bəzəmiş qara mafələrə - tabutlara çevirib xalqın, zavallı insanların öz çiyinlərinə yüklədi. Bakı boyda xiyabanlara qərənfillərdən xalı döşəndi. Qırmızı qərənfillər günahsız qanlara ağı dedi. Göz yaşlarıyla odlandı qərənfillər. Qara geyimli, gözləri bulud-bulud dolmuş, kökslərinə dağ basılmış dəfn mərasiminin iştirakçılarının heyrətamiz görkəmləri qarşısında Xəzər dənizi lal sükuta daldı. Sahildə insan dənizi dalğalanırdı. Konturları qara boyalarla çəkilmiş bu hüznlü mənzərənin ehtişamından yer-göy lərzəyə gəlirdi. Ümumxalq matəmi idi. Kədərdən doğan bu birlik xalqın əyilməzliyini, əzəmətini nümayiş etdirirdi.

Bəli, xalqı sarsıtdı, lakin əyə bilmədi o gecə! Qorbaçov hökuməti dərk etmədi ki, 70 illik imperiyanın süqutunun əlamətlərindən biriydi o gecə! Son iki əsrdə müstəmləkəyə çevrilmiş bir məmləkəti zorakılıq və silah gücünə əsarətdə saxlamaq mümkün olan şey deyildi. Bakı susmadı. Özünə son və əzəli dönüş və döyüş yolu sandığı istiqlal mücadiləsinə daha böyük əzmlə qalxdı. Bakı nəhrə döndü. Böyük öndərimiz M.Ə.Rəsulzadənin «Bir kərə yüksələn bayraq bir daha enməz» çağırışını özünə müqəddəs kəlam bildi.

20 Yanvar Bakı qırğını sübut etdi ki, Azərbaycan türkünü qanına qəltan etmək olar, lakin işıqlı gələcəyə, Azərbaycanı dünyəvi dövlətlər sırasında görmək arzusuna olan ümid və inamını öldürmək, qırmaq, heçə endirmək əsla olmaz!

20 Yanvar milli yaddaşımıza yazılan salnamədir. 20 Yanvar gecəsi keçdiyimiz yol alın yazımız, verdiyimiz qurbanlar isə müqəddəs Vətənə, Vətənin varlığına can borcumuzdur!

***P.S.*** 20 Yanvar şahidlərinin daşlaşan abidələri ilə tez-tez salamlaşıram. Onların önündə baş əyən milyonlardan biriyəm. Lakin çox maraq doğuran və acınacaqlısı odur ki, biz hələ də 20 Yanvar Bakı qırğınını, nə də Xocalı soyqırımını ümumbəşəri faciəyə qovuşma, qovuşdurma həddinə çatdıra bilməmişik. Qarabağ səddini aşa bilmirik. Qanlı Yanvar və Qarabağ şəhidlərinin başımız üstə dolaşan ruhları bizi o taylı, bu taylı Vətənimizin nicatı, torpaqlarımızın düşmən işğalından xilası, demokratiyanın inkişafı, iqtisadi-sosial dirçəlişimizin çiçəklənməsi naminə vahid bir yumruq kimi birləşməyə çağırır. El-obası dağılan, nizamı pozulan,

torpağı düşmən tapdağı altında qalan, övladları həlak olan, qız-gəlinləri girov düşən, namusuna təcavüz olunan bir millətin parçalanmağa, ölkə daxilində qarşıdurma yaratmağa mənəvi haqqı yoxdur. Birliyimiz nicatımızdır! Çox təəssüflər olsun ki, 20 Yanvar Bakı qırğınından bu qədər müddət keçməsinə baxmayaraq, onun da müzakirəsi zamanı qəbul edilən parlament qərarından bir sıra anlaşılmazlıqlar hələ də öz həllini tapmamışdır. Ümumiyyətlə, bu qırğında erməni-daşnak terrorçularının iştirakına açıq şəkildə toxunulmur. Son variantda isə Bakıda qanlı qırğın törədilməsində baş rollardan birinin ifaçısı olmuş Yevgeni Primakovun adı faciəyə görə mənəvi-siyasi-kriminal cinayət məsuliyyəti daşıyan şəxslərin siyahısından çıxarılmışdı. Deməzsən, bu faciəyə heç bir dəxli olmayan, daha doğrusu, məsuliyyət daşımayan o dövrün müxalifət nümayəndələri Arif Hacıyev və Fazil Qəzənfəroğlunun adları nəyə görəsə, hansı səbəbdənsə mənəvi-siyasi-kriminal məsuliyyəti daşıyan şəxslərin cərgəsinə daxil edilmişlər.

**Qeyd:** İstər 20 Yanvar Bakı qırğınının, istərsə də Xocalı soyqırımının cani və günahkarlarının cinayətləri və təqsirkarlıq dərəcələri işlətdikləri əmələ görə iki qrupa bölünür. Ona görə də istər siyasi məsuliyyətə, istərsə də cinayət məsuliyyətinə cəlb edilmədə günahkarlar da iki qisimdə müəyyən edilməlidirlər: 1) cinayəti törədənlər və buna fərman verənlər; 2) günahsız insanların müdafiəsini təşkil etməyə borclu olan səlahiyyət sahibləri və onların vəzifə borclarını yerinə yetirməyə mane olanlar;

Hər iki qrupa daxil olanların siyahıları tərtib edilməli və ayrı-ayrılıqda cinayət xarakterli hərəkətləri tam tədqiq olunmalı və hərəkətlərinə hüquqi qiymət verilməlidir. Əməlində cinayət tərkibi tam sübuta yetirilənlər layiq olduqları cəzalarını da çəkməlidirlər. Nə qədər cəzadan yayınmalar varsa, cinayətlərin artma tempi də bir o qədər çoxalacaqdır. Hər iki məsələyə hüquqi-siyasi qiymət verilərkən bu prinsiplər gözlənilməli, ölkə xaricindəki və ölkə daxilindəki cinayət törədicilərinin siyasi məsuliyyət məsələsinə ayrı-ayrılıqda baxılması bir zərurət kimi qəbul edilməlidir.

## ERMƏNİ-DAŞNAK FAŞİZMİNİN TÖRƏTDİYİ «XOCALI SOYQIRIMI» İNSAN AĞLININ QƏBUL ETMƏDİYİ VƏHŞANƏLİKDİR

Heç bir təsirli söz 1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə erməni-daşnak faşistlərinin Xocalıda törətdiyi dəhşəti ifadə etmək gücünə malik deyil. Əslində bu fikirlə də barışmaq istəməzdim. Məyusluq və təəssüf hissiylə qeyd edərdim ki, tarix hələ bu sözü tapacaq, yazacaq, qələm tutacaq əl axtarışındadır. İnsan iztirabından ləzzət almaq mərəzinə tutulmuş daşnak manqurtlarının bu gecə məqsədləri ərazini Azərbaycan türkündən təmizləmək yox, ərazidəki Azərbaycan türkünün kökünü kəsmək olub.

Həmin gecə erməni-daşnak faşistləri oqnemyotların, tank və topların atəşiylə ulu türk şəhərinə müqəddəs al türk qanından don biçdilər. Uşaq, qadın,

qoca demədilər, təhlükəsiz, əliyalın, dinc əhalini piyadaların döyüş maşınlarının, zirehli transportyorların mərmi atəşinə tuş etdilər. Şəhər yüzyaşlı ağsaqqalından tutmuş iki günlük körpəsinədək qətlə yetirildi. Ələ keçənə aman verilmədi: Əliyev Təvəkkülün əl-qolunu bağlayıb məftillə ağaca sarıdılar. Ayaqları altında şin yandırdılar. Bağırtısından yer-göy titrədi; Fərqanədən qaçqın düşüb Xocalıya pənah gətirmiş Türk Əhmədin ilk əldən başını kəsdilər. Hayqırtısı ərşə qalxdı; Hacıyev Süleymanı diri-diri soydular; Mehdiyev Səfanın baş dərisini alasunlu qaşıdılar; Nəbiyev Həsənin baş beynini kəllə boşluğundan çıxarıb apardılar; Quliyev Taleyin ağzına güllə sıxdılar. Ürəkləri soyumadı, başını daşla əzdilər. Ömür-gün yoldaşı Rahilənin qıyyasına dözmədilər, onu da güllələdilər. Qucağından yerə düşmüş Samirə qanı buxarlanan anasının üstünə iməklədi. Onun ürək yaxan ağlartısını, qışqırtısını qurşunla kəsmədilər, pırpızaqlı daşnak manqurtu əlindəki avtomatın qundağı ilə məsum qızcığazın əmgəyi bərkiməmiş başını torpağa yapışdırdı; Atası Hümbətov Cəmilin gözü qabağındaca Muğanın alnına güllə sıxdılar. Oğul dağına dözməyən əliyalın ata düyünlənmiş yumruğuyla düşmənlərinin üstə atıldı, onu da havada güllələdilər. Daşnak manqurtları Hümbətov Cəmilin ömür-gün yoldaşının, qızının, gəlininin şərəfini alçaldıb, sonra da hər üçünü xüsusi amansızlıqla qətlə yetirdilər; ikiyaşlı Natəvan güllə yarasından keçinən anası Xanımın sorağındaydı. «Ana» deyə haylanırdı, hoylanırdı, anasını arayırdı. Anasını araya-araya ağlayırdı, fəryad edirdi, səsini kəsmək bilmirdi. İkiyaşlı qızcığazın səsini də gicgahına güllə sıxmaqla kəsdilər; Salahov Məhəmmədi, Novruzov Ələsgəri, Səfiyev Elçini armatur çubuqlarla döyə-döyə şil-küt etdilər, qol-qabırğalarını sındırıb əzdilər. Hər üçünün sür-sümüklərini xıncım-xıncım edərək qətlə yetirdilər. Ələ keçən şəhər müdafiəçilərinin aqibəti daha dəhşətli, daha acınacaqlı, ağlasığmaz oldu. Diri-diri dondurdular. İsti-isti erməni qəbirlərinin yastı daşları üstə başlarını kəsdilər. Xüsusi qəddarlıqla, amansızlıqla öldürdülər. Neçə-neçə başı, qulağı kəsilmiş uşaq, kişi meyitlərini diri girovlara dəyişdilər. Bu mənzərələrə şahidlik edənlər, gözlə görənlər qan ağladı. Körpəsini kürəyinə şəlləmiş ana həmin müdhiş gecəni dirigözlü açdı. Sübhə kimi PDM-lərin, zirehli transportyorların təkərləri qabağında ora-bura qaçdı. Heydən düşsə də qurtuldu, düşmən əlindən salamat çıxdı. Gecənin qaranlığında işıq saçan güllələrin hədəfindən yayındı. Nəfəsini dərib şəlləyini açanda gözlərinə inanmadı. Gözləri bərələ qaldı. Gömgöy göyərmiş körpəsi donvurmadan kürəyindəcə keçinmişdi. Sarsıldı, başına, sinəsinə döydü. Ana bala itkisinə dözəmmədi. Əbədi şikəst oldu. Gözlərində qan cilvələndi. Müqəddəs yurddan, ana torpaqdan ruhu da qopdu. O gecə şəhərdə ancaq ölülər qaldılar.

Şəhər şəhid qanına boyandı. Şəhər özü də elə şəhid düşdü. Xocalı dünyası qan gölündə üzdü. Ağ qar üstə al qan gölməçələri sərgiləndi. Qan gölündə qərib adalar kimi şəhid cəsədləri bir-birinə söykəndi. Gecə donunda düşmən gözündən yayınıb söykəkdən çıxan yaralı Xocalı şəhidi hələ də qala divarlarına tərəf dartınırdı. Canından can diləyirdi. Nəfəsi üzülürdü. Tıncıxa-tıncıxa, nəfəsi gizlənə-

gizlənə sürünürdü. Ancaq nəfəsi sinəsinə dirənəndə əli daşlara çatdı. Son gücünü gözləri didilən dizlərinə verdi. Əllərinin köməyi ilə qamətini dikəltdi. «Azadlıq ağacı qanla suvarılar» pıçıldadı. Pıçıltısını bir ancaq özü eşitdi. Dizini qatladı. Şəhadət barmağını ayaq ləpirinin yerində göllənmiş qanına batırdı. Al qanıyla Qara divarına son vəsiyyətini yazdı: «Xocalı qan gölüdür. Bu qanlı göldən çırmanıb keçmə, türk oğlu! Xocalı faciəsinə göz yumar olsan, Vətən sənə oğul deməz. Şəhid ruhları səni bağışlamaz, Vətən oğlu!»

Daşnak terror qrupları mühasirədən çıxıb qaçanları, sağ can qurtarmaq istəyənləri yanlarına sürəkçilər salıb yollarda, yamaclarda, dağ keçidlərində, meşələrdə pusqular qurub tələyə salırdılar. Ov kimi ovlayırdılar. Təkrar qətliamlar törədirdilər. Fevralın 25-dən 26-na keçən gecə erməni-daşnak faşizminin XX əsrin son vandalizminə əl qoydular, bəşər tarixində isə ən böyük insani fəlakətlərdən birinə imza atdılar. 83 uşaq o gecənin qurbanı oldu. 76 uşaq ağır yaralar aldı. 25 uşaq ata-anasız qaldı. 130 uşaq valideynlərindən birini itirdi. 8 ailə tamamilə məhv edildi. 1153 dinc sakin qətlə yetirildi. 910 nəfər əsir alındı. 487 nəfər əlil oldu. İnsan ölümü varsa, həyatını itirənlərin dağıdılan, yandırılan xanimanlarından, qarət olunan, talanan var-dövlətinin itkisindən, hesabından söz açmağına dəyərmi? Xocalı faciəsi kitab-dəftərə sığası dərd deyil yazasan, Vətən oğlu!

Öz çeşidinə, rənginə görə oxşarı, bənzəri, analoqu olmayan, xüsusi qəddarlığı ilə seçilən bu terror aktı sivil dünyanın gözləri qarşısında baş verən insanlığa qarşı yönəlmiş bəşəri bir cinayət idi. Məhz bu gün bəşər tarixi insan ağlının, insan idrakının, insan dərrakəsinin qəbul edə bilmədiyi bir faciə ilə bu qanlı aksiya ilə, vəhşanəliklə üz-üzə qaldı. Bu qanlı aksiya erməni-daşnak faşistləri tərəfindən törədilən türk soyqırımının ən dəhşətli mənzərəsi, Rusiyanın imperiyapərəst dairələri tərəfindən isə Azərbaycanın müstəqilliyinə qarşı yönəldilən qəsdin ən qanlı və son zirvəsiydi. Bu faciə Azərbaycan türkünün sabaha ümidini qırmaq, işıqlı dünyaya baxan gözünə mil çəkmək, oyulmuş gözünü ovcuna qoymaq dərsiydi. Daşnak terror qruplaşmalarına və hərbi hissələrinə qoşulan, Xocalı soyqırımının həyata keçirilməsində daşnak muzdlusu qismində iştirak edən xüsusi təyinatlı 366-cı motoatıcı rus alayının fitnəkar və cinayətkar rolundan yan keçmək mümkün deyil. Bir halda ki alayın praporşiklərinin 80%-i, bir batalyon komandiri, başqa birinin qərargah rəisi, 15 vzvod komandiri, yüzlərlə əsgəri daşnaklardan ibarət səlahiyyətli vəzifə sahibləri və hərbi qulluqçuları idisə, alaya təhkim edilən də Zaqafqaziya Hərbi Dairəsi Komandirinin müavini, erməni mənşəli general-leytenant İosif Ohanyan olubsa, tay buna nə ad vermək olar?!

Alay komandiri Y.Y.Zarviqorov erməni-daşnak faşistlərinə satılıbsa, artilleriya divizionunun komandiri İ.Lixodey, kombatlardan Nabokix, Kraule haqqında danışmağa, yazmağa, artıq söz deməyə dəyərmi?! Mayor Ohanyan Seyran Mişaqoviç (batalyon komandiri), Çitçiyan Valeriy İsayeviç (qərargah rəisi) daxil olmaqla 366-cı alayda xidmət edən 50-dən çox erməni millətindən olan zabit və praporşiklərin qəddarlıqları göz dəlirsə, bu amansız terror aktında iştirak edən,

beynəlxalq aləmdə ad çıxaran, öz milli mənliyini Xocalıda ikigünlük körpəni öldürməsiylə bəyan edən, adı Tayqulaq Androniklə bir sırada çəkilən ASALA terrorçusu Vazgen Sislyandan nə ummaq olar?! Həm də bu məlun Qarabağ separatçısı, Azərbaycan vətəndaşı, Azərbaycanın Abdulla Ocalanı kimi ad çıxarmış, ədalət məhkəməsində mühakimə olunmaq əvəzinə Ermənistan Respublikasının prezidenti kreslosunu mənimsəmiş R.Koçaryanın təşəbbüsü ilə Qarabağ müharibəsinin qəhrəmanı adına layiq görülmüşdür. 15 il keçməsinə baxmayaraq nə yazıqlar ki Xocalı qətliamının törədilməsində adı çəkilən «Qaflan» və çəkilməyən onlarca daşnak terror qrupları hələ də Ana torpaqda Qarabağda, Xocalının xarabazarlığı üstə at oynadırlar. Şəhid ruhlarını təhqir etməkdə davam edirlər. Milli mənliyimizi ələ salmaqdan şövqlə danışırlar. Öz qanlı, çirkin oyunbazlıqlarından əl çəkmirlər. Biz isə hələ də toparlanıb erməni-daşnak faşistlərinin Qarabağda dikəlib körüklənən burunlarını ova-ovuşdura bilmirik ki, bilmirik. İllər keçir, lakin Xocalı soyqırımının yarası nə sağalır, nə də qaysaq bağlayır. İl üstə il gəldikcə göynərtisi daha da artır. Axı, bu yara ovutmalı, ovunmalı yara deyil. Qapısında axı, çöpü dikəlmir şəhərin. Xocalı qətliamından salamat çıxanlara Tanrı öz lütfünü göstərib. Allah şəhid düşənlərə qəni-qəni rəhmət eləsin. Amin!

**Söz ardı:** Xocalı soyqırımı erməni-daşnak faşizminin məqsədyönlü şəkildə nəzərdə tutulan, törədilməsi qabaqcadan düşünülən, məqamı gözlənən, zamanında həyata keçirilən, insanlığa qarşı çevrilmiş bir vəhşət aktı idi. Deməli, bu soyqırımı gözlənilən idi. Bəs bu qətliamın qarşısını almaq olardımı? Sualını verənlərə mən qeyri-müəyyənliklə yox deyirəm. Çünki həmin zaman kəsiyində və məkan çərçivəsində əks qüvvənin mövcudluğu kifayət edə bilən və zəruri şərt kimi qiymətləndirilən halda deyildi, birliyi olmayan güclə müqavimət göstərə bilməzdi. Yuxarıda qeyd etdiyimiz kimi erməni-daşnak faşistləri planlı şəkildə qabaqcadan buna hazırlaşırdılar. Rusiyanın imperiyapərəst dairələri isə müstəqilliyə can atan, son məqamda SSRİ-nin hər hansı bir şəkildə bərpasına yönələn MDB-ni inkar edən Azərbaycana qulaqburması vermək üçün işğalın daşıyıcısı və təminatçısı olan 366-cı xüsusi təyinatlı motoatıcı alayı kömək üçün, elə bu məqsədlə də Xankəndində toplanmış erməni-daşnak terror birləşmələrinin ixtiyarına buraxmışdı. Deməli, soyqırımın baş verməsi labüd idi. Lakin bu qətliamın qarşısını ala biləcək, dinc əhalinin təhlükəsizliyini təmin edəcək əks qütbdəki qüvvələr buna təminat vermək iqtidarından uzaq idilər. Bu qüvvələr tamah və şöhrət düşkünləri, vəzifə hərisləriydilər. Xalqın, millətin taleyini şəxsi mənafelərinə qurban vermək üçün sanki bir-birləri ilə yarışa girmişdilər. Hakimiyyətdə olanlar da, hakimiyyətə can atanlar da Qarabağ savaşından siyasi məqsədlər üçün istifadə edirdilər. Qulaqlarına qurğuşun tökür, xocalıların hayını-harayını eşitmirdilər. Bu mənafelər baxımından qətliamın qarşısını almağa az-çox qabil olan qüvvələr Xocalı soyqırımının törədilməsində bəlkə də maraqlıydılar. İqtidar bədnam üzünü, hər şeydən öncə 20 noyabr 1991-ci ildə baş verən vertolyot qəzasında heç nəyə qadir

olmadığını göstərdi. 20 noyabr terror aktı daşnak terror qruplaşması tərəfindən törədilsə də, nə onlar axtarıldı, nə də fərman verənlərin izinə düşən oldu. Bu terror aktının da təşkilatçıları və iştirakçıları qara qutu kimi qara pərdələr arxasında it-bata düşdü. O günlərin iqtidarı isə Xocalının müdafiəsini öz üzərinə götürən könüllüləri tam silahlandırmaq yox, silahsızlaşdırmaq yolunda çapaladı. Yalan vədlər verməklə günü-günə satır, vaxt ötürürdü. Milli Ordu yaradılması barədə o günlər fərman verilsə də, mətn quru kağız üzərində qalıb Qarabağın işğalına göz bərəldirdi. İxtiyar sahibləri Milli Ordu yaradılmasına barmaqarası baxırdılar. Demokratiyanın öncülləri sayılan müxalifət liderlərinin isə vəzifə stullarına, kreslolarına hərislik göstərmələri xalqın müqavimətini və müdafiəsini təşkil etmək, Xocalının xilası naminə hər hansı bir addım atmaq təşəbbüsündən uzaq saldı. Gözə görünməyən 3-cü, 4-cü qüvvələr isə dilləri altına çöp qoyub ortalığa danışdılar. Dərd azmış kimi, hər iki real qüvvəni öz dillərindən tuta-tuta lağa-loğaza qoydular. Qarabağ camaatının isə birlik nümayiş etdirməsinin qeyri-reallığı Qarabağ hadisələri başlayan ilk günlərdən özünü göstərdi. Qonşu-qonşuyla, kənd-kəndlə, bölgə-bölgəylə əl-ələ verib tam halda çıxış etmək əzmkarlığı göstərmədilər. Xocalının müqavimətini təşkil edəcək qüvvə əksinə, qətliamı törətmək üçün erməni-daşnak faşistlərinin yolu üstünə, belə demək mümkünsə, yaşıl işıq tutur, düşmən dəyirmanına su tökürdülər. Bu qətliamı törətmək və ya törətməmək, soyqırımın miqyası və qəddarlıq dərəcəsi ancaq və ancaq erməni-daşnak faşistlərinin öz insafına qalırdı. Sərbəstlikdən və cəzasızlıqdan isə erməni-daşnak faşistləri sözün tam mənasında azad idilər. Onlar son anda öz vəhşanəliklərindən bəhrələndilər. Qəddarlığın və qətliamın misli-bərabəri olmayan həddindən və mümkün miqyasından gen-bol, bütövlükdə istifadə etdilər. XX əsrin son və ən dəhşətli soyqırımı faciəsini bəşəriyyətin bu günüylə uyuşmayan qətliam hadisəsini törətdilər. Müxalifət millətin mənafeyini hakimiyyət hərisliyinə qurban verdi. İqtidarsa sanki əldən getməkdə olan hakimiyyətinin acığını susdurmaq adıyla millətdən bu sayaq çıxdı.

Xocalı faciəsindən Qarabağ camaatı şoka düşdü. Köməksiz olduğunu anladı. Kimsə hər hansı bir güc-qüvvə tərəfindən müdafiə olunacağına olub-qalan son ümidini də tamam-kamal itirdi. Qarabağ elatının gündoğana yön alan adda-budda köçləri Xocalı qətliamının baş verdiyi gündən arasıkəsilməz oldu, kütləvi hal aldı. Əks tərəfdən heç bir reaksiya görməyən, hətta Xocalı qətliamının miqyasını azaltmağa, heçə endirməyə çalışan Azərbaycan hökumətinin bivecliyindən ruhlanan daşnak terror qruplaşmaları daha da fəallaşdılar. Ağdamın mərkəzi meydanlarını, Füzuli şəhərinin bazar ətrafı məhəllələrini raket yağışına tutdular. İnsan tələfatına boy verdilər.

**Haşiyə 1:** Füzulidə baş verən faciənin sabahı günü tamam başqa məqsədlə, cari iş dalınca Qubadlı rayonuna getmişdim. Yolüstü hal-əhval tutmaq üçün bölgənin Çaytumas kəndinə döndüm. Gözlərimə inanmadım. Mən kəndə çatanda nəinki təkcə qohumlarımı, bütün kənd əhalisini ayaq üstə qalan, bir tərəfini

qaçaqaçda qoyan gördüm. Camaat həmən saat başıma toplaşdı. Məni haya gələn kimi qarşıladılar. Mən mat-məəttəl qaldım. Deyirdilər ki, bəs buralara xəbər çatıb ki, ermənilər hücuma keçiblər. Bu gün-sabah Qaradizi tutacaqlar. Akara-Bakı avtomagistralı və Mincivan-Bakı dəmiryol xətti bağlanacaqdır. Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın rayonları mühasirədə qalacaq. Xankəndindəki 366-cı motoatıcı alay ermənilərin tərəfinə keçib. Ermənistandakı 7-ci rus ordusu da erməni milli ordusu ilə birləşibdi. Neçə-neçə Xocalı faciəsi kimi qətliamlar törətməyə hazırlaşırlar. Bir neçə günə yer-yurdunu tərk etməyən şəhər, kənd əhalisi Xocalı faciəsi ilə üz-üzə qalacaq. Hətta şayiə buraxmışdılar ki, erməni Xocalıda girov götürdükləri türk qızlarını postlara paylayıb, onların namuslarına hər cür təcavüzlər edirlər. Səsucaldanlar qoyub qızların ah-naləsini, fəryadlarını, qışqırtılarını sərhədyanı kəndlərə yayırlar.

Camaat həyəcan içindəydi. Dedim ki, ay camaat, mən, vallah, buraya tamam başqa bir məqsədlə, iş ardınca gəlmişəm. Qubadlıya gedəcəm. Siz nə danışırsınız, Qubadlı, Cəbrayıl kimi Füzuliyə də növbəti dəfə qrad atıblar, vəssalam. Dünən mən özüm Qaradizdə olmuşam. Orada tam sakitlikdi. Cəbrayılda da siz deyən söz-söhbət, filan yoxdur. Kimdi sizə bu sözü deyən?! Kim idi, kim durur bu təxribatların, şayiələrin arxasında?! Yenə də deyirəm, mən özüm dünən Qaradizdə olmuşam. Şayiə yayanlar sizi təşvişə salıblar. Burada erməni barmağı var. Danışdıqlarınızın hamısı şayiədir. Bu gedişlə hələ başımıza çox bəlalar gələcək. Mən qohumlarımı, kənd camaatını arxayın salsam da, sonradan eşidirəm ki, yenə də şayiə öz işini görüb. Bir çoxları dediklərimə məhəl qoymayıb, arxayın olmayıblar. Qabağını qaranlığa salaraq gecəykən var-dövlətindən ələ gələnini yır-yığış edib Bakıya, Sumqayıta, Milə, Muğana barxana aparanlar olub. Tək bununla kifayətlənməyənlər də vardı. Dinc, əliyalın əhali təpədən dırnağadək silahlanmış daşnak terror qrupları ilə, onlara havadarlıq edən rus hərbiçiləri ilə üz-üzə qalmaqdan qorxurdu. Narahatlıq keçirirdilər. Özlərinə sakitlik tapa bilmirdi. Özünə güvənib onlara təskinlik verən də yox idi. Daşnak terrorundan həyatlarını sığortalaya bilmir, əlimyandıda qalan camaat ailələrinin təhlükəsizliyini təmin etməyə bir isnad nöqtəsi gəzirdi. Son çıxış yolunu bəri başdan arvad-uşaqlarını döyüş bölgəsindən uzaqlaşdırmaqda görürdülər. Artıq biz Şuşa şəhərindən, Laçın rayonundan daşınanların köçü ilə tez-tez rastlaşırdıq. Arazboyu asfaltla Bakı istiqamətində hərəkət edən yük daşıyan maşın karvanlarının intensivliyi günbəgün artırdı...

Bakıda isə ikihakimiyyətlik deyil, tam hakimiyyətsizlik hökm sürürdü. Boş qalmış prezident kürsüsü uğrunda istefaya göndərilən prezidentin tör-töküntüləri ilə ayrı-ayrı müxalifət və mafioz qrupların liderləri arasında mübarizə, əsl döyüş, savaş, dava-dalaş gedirdi. O günlər döyüş bölgələrindəki başıpozuqluqlardan, özbaşınalıqlardan heç söz açmağına dəyməzdi. Adını, özünü müdafiə batalyonları qoymuş, siyasiləşmiş könüllü va könülsüz silahlı dəstələr ayrı-ayrı siyasi qüvvələrin və onların liderlərinin diqtəsi ilə oturub-durur, ayrı-ayrı mafioz

qrupların nəzarəti altında Bakı-Şuşa arasında var-gəl edirdilər. Qarabağı – ana torpağı, bu cənnət məkanı Vətən övladlarının hakimiyyət ehtiraslarına qurban verirdilər.

**Söz ardı:** Əlbəttə, söhbət erməni-daşnak faşizminin törətdiyi bəşəri cinayətdən - Xocalı soyqırımından gedir. Milli mənsubiyyətinə görə Azərbaycan türkünə qarşı törədilən bu soyqırım faktı öz qəddarlığına görə XX əsrin ən böyük və dəhşətli qırğını idi. Qırğında 613 nəfərin qətlə yetirildiyini bildirən bu rəqəm ancaq cəsədləri Azərbaycan tərəfinə təhvil verilən və ya götürülən şəhidlərin sayıdır. Halbuki 150 nəfər itkin kimi qeydə alınanlardan və əsir götürülmüş 1275 nəfərdən cəmi 800 nəfəri girovluqdan azad edilmişdir. Əsirlər siyahısında adı qalan, hələ də qaytarılmayan 500 nəfər Xocalı sakinindən bu günə kimi heç bir xəbər-ətər yoxdur. Halbuki 01 və 03 mart 1992-ci il tarixlərdə əsir və girov götürülənlərdən müvafiq olaraq həmin günlərdə 120 və 70 nəfərin güllələndiyi ratsiya məlumatları vasitəsi ilə aidiyyəti qurumlar tərəfindən qeydə alınmışdır. Bundan başqa, Beyrutlu jurnalist, erməni müəllifi Davut Xerriyanın yazdığına görə, 02 mart 1992-ci ildə «Qaflan» terror qrupu tərəfindən Xocalıdan yığılan 100-dən çox meyitin daşınıb şəhər kənarında yandırılması kimi faktlar da mövcuddur. Bütün bunları nəzərə alsaq, bu qətliamda ən azı 1153-dən çox Xocalı insanının məhv edildiyi təsdiqlənir. Ərazidə beynəlxalq qurumlar tərəfindən ekspertiza aparılmadığından ilkin rəqəmlər reallığı əks etdirmir. Gec də olsa əsl həqiqəti əks etdirən rəqəmlər dəqiqləşdirilməli, dürüstlük Xocalı tarixinin qanlı səhifəsində öz əksini tapmalıdır. 1153 günahsız insanın qətlinə fərman vermək, bir toplumu bütövlükdə məhv etməyi qarşıya məqsəd qoymaq heç bir insan əxlaqına sığmır. Dünya insanı tərəfindən Xocalı faciəsinə anlaqlı və qərəzsiz şəkildə, insan iztirabları və insan hüquq və haqları baxımından yanaşılmalıdır. Beynəlxalq hüquq prinsiplərinə müvafiq olaraq dünya birliyi tərəfindən Xocalı qətliamı bəşəriyyətə qarşı cinayət kimi qəbul olunmalıdır. Öz qəddarlığı, xüsusi amansızlığı ilə Xatın və Sonqmi faciələrini kölgədə qoyan Xocalı faciəsinin miqyası tam təfərrüatı ilə öyrənilməlidir.

**Sözə qüvvət:** Əslində erməni-daşnak faşistlərinin beyninə iz salan Xocalı soyqırımı rişəsini erməni-daşnak faşizminin qabaqcadan hazırlayıb həyata keçirdikləri məxsusi qantökmə planının baş tutduğu gündən - Sumqayıt fitnəsindən alsa da, erməni-rus cütlüyü isə hərəkət mənbəyini əslində qekaçepedən aldı.

Tehrana atüstü səfərində Moskvadan aldığı çevriliş xəbərindən fərəhlənən A.Mütəllibov sevincindən özünü ələ ala bilmədi. Öz əliylə boğazına siyasət xaltası keçirdi, (O xaltanı hələ də boynundan çıxarıb ata bilmir.) Siyasi xamlıq göstərdi, Moskvada dövlət çevrilişinə cəhd edən Yanayevi və onun komandasını alqışladı. Lakin çevriliş baş tutmadı. Yanayevin hakimiyyət ömrü A.Mütəllibovun Tehran səfərinin müddətindən az oldu. Qekaçepeçilərin basdırdıqları ölü özlərindən qabaq dirildi.

İran səfərindən qayıdan A.Mütəllibov centlmensayaq hərəkət etmədi, nə istefa verdi, nə də hakimiyyətinin köklü müdafiəsi haqqında fikirləşdi. Əksinə, xalqı Xocalı soyqırımına sürüklədi. Özü də nəhayət, məcburi istefa tələsinə düşdü. Yerlərdən təşkil etdirdiyi teleqram və məktublarla daim lənətlədiyi rus demokratiyasının qələbəsindən qeyzləndi, Hacı Əbdül demişkən «Əyaz müəllim» qəzəbini AXC liderlərinin üstə tökdü. Onları küçə qoçularına ustaddan qalma əzişdirdi, iqamətgahlarını dağıtdı. Hirsi soyumadı, yan-yörəsinə də dirsək göstərdi. Hirsli başda ağıl olmaz deyiblər, lap cin vurmuşa döndü. Ancaq özü də dirsək görüb döndü oyuncaq prezidentə. Hər çalınan havaya başladı qol götürüb oynamağa. Dedilər sessiyanın prezident seçməyə səlahiyyəti yoxdu, prezidentliyin Tofiq bəy demişkən, hüquqi baxımdan qeyri-qanunidir. Bir aya beş ayı tamam olmayan prezidentliyini təzələdi. Bu dəfə özünü ümumxalq referendumu yolu ilə prezident seçdirdi. Guya yerini bərkitdi, əslində prezident üsuli-idarəsini çevirdi oyuncağa. Özü də bu oyunda Y.Məmmədov demişkən, oldu peşka. Müxtəlif oyunlarla baş girləyən marionet prezident gücünü məsrəfsiz oyunlarda itirdikcə müxalifət günbəgün gücləndi. A.Mütəllibov mitinq və nümayişlərin, yürüşlərin qarşısını almaq, cəbhəçilərə güc göstərmək, qorxuya salmaq üçün döyüş bölgələrində mətin dayanmış omonçuları Bakıya yığdı. Özünə arxa bildiyi küçə uşaqlarının pozuculuq fəaliyyətini gücləndirdi. «Bakı bakılılar üçündü» deyə şəhərli-rayonlu qarşıdurması yaratmağa cəhd göstərdi. Yenicə yaranmaqda olan özünümüdafiə dəstələrində başıpozuqluq, inamsızlıq və etimadsızlıq toxumu cücərtdi. O biri tərəfdənsə özünü ona yaxınlıq verməyən Yeltsinə göstərmək istədi. Azərbaycan parlamenti 18 oktyabr 1991-ci il tarixdə Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında Konstitusiya aktı qəbul etdi. Bu münasibətlə Azərbaycana ilk «töhfəsini» də ərməğan edən elə Yeltsinin özü oldu. Belə ki, Qorbaçovun onu arxasız qoyub Yeltsin ətrafına toplaşan və «dikbaşlıq» edən erməni həmkarlarına dərs olsun deyə 13-20 may 1991-ci il tarixdə Azərbaycanın xeyrinə fırlatdığı erməni qulaqburmasını, Yeltsin 13-20 noyabr 1991-ci ildə valı tərs üzünə çevirdi, ermənilərin xeyrinə fırlatdı. (O val günü bu gün də fırlanmaqdadı.) O vaxt Cəbrayıl-Hadrut, Laçın-Şuşa arasındakı erməni kəndləri Sovet ordusunun nəzarəti altında, omonçular tərəfindən humanistcəsinə boşaldıldı.

Ermənilər tərəfdən bir nəfərin burnu belə qanamadı. Həmin kəndlərə Ermənistandan qovulmuş azərbaycanlılar köçürüldü. Yeltsin zamanında isə rus ordusunun nəzarəti altında erməni-daşnak faşistləri tərəfindən həmin kəndlərdəki türklərə vəhşiliklə təcavüz edildi. Yenicə isinişməyə başladıqları od-ocaqdan qovuldular, təkrar qırğına məruz qaldılar. Qətliamlar törədildi. Yenə də qırılan, malı-mülkü talan olan türklər oldu, yardım alan, xeyir görən ermənilər.

Rusiyanın hərbi yardımına, bütöv təbliğat maşınına yiyələnən və Mütəllibov rejiminin bivecliyindən istifadə edən erməni-daşnak faşistlərinin azğınlığı yeni mərhələyə qədəm qoydu. Dağlıq Qarabağ ərazisindəki türk kəndlərinin birbəbir

mühasirəyə alınıb odlanması, əhalisinin yurd-yuvasından qovulub çıxarılması, qətlə yetirilməsi əməliyyatlarına kampaniya xarakteri verildi.

Daşnak beyninə iz salmış Xocalı soyqırımını törətmək ehtirası ideyadan həyati gerçəkliyə istiqamət götürdü. Erməni vəhşəti alovlandı, günbəgün, saatbasaat yeni vüsət aldı. Xocalı soyqırımına qara örtük çəkildi. Ağdərə rayonunun İmarət Qərvənd kəndindən başlayan, Xocavəndin Tuğ, Şirakətin, Haxullu kəndlərində davam etdirilən yerüstü terror aktları ala ulduza yön aldı. Göy terrorunun göstərici lövhəsinin asılacağı ilk dirək Qarakəndin səmasına dikəldi. Qarabağ münaqişəsində az-çox sərt və prinsipial mövqe tutan A.Mütəllibov komandasının fəal üzvləri T.İsmayılov, M.Əsədov, İ.Qayıbov, Z.Hacıyev, V.Məmmədov və başqaları Xocavənd harayına can atdılar, lakin çata bilmədilər. Uçduqları vertolyotla birgə Qarakənd səmasında təcavüzə məruz qaldılar. Daşnak terroruna qurban getdilər.

Xalqın artan qəzəbi, kini-küdurəti, müxalifətin təzyiqi hər üzünə kəskinləşdi. A.Mütəllibov rejimi 22 dekabr 1991-ci ildə MDB-yə münasibət barədə təkrar ümumxalq referendumu keçirmək məcburiyyətində qaldı. Azərbaycan Respublikası MDB-dən çıxdı. Azərbaycan MDB-dən hansı sürətlə çıxdısa, Ermənistan həmin geriçəkilmənin iki mislinə bərabər bir sürətlə MDB-yə daxil oldu. Daha doğrusu, Rusiya Federasiyasına pərçimləndi. Bir daha Rusiyanın Qafqaz işğalında sədaqətli dayağı olduğunu, əzəli və davamlı əl alətinə çevrildiyini nümayiş etdirdi. Rusiya Ermənistan dövlətinə super dəstək verdi, bahəm Azərbaycana təzyiqi on qat artırdı. Həm də Ermənistanla birgə yarımleqal təcavüzə qoşuldu. Qanlı yanvardan nəticə çıxarmadığına görə bu ibrət dərsini kifayət saymadı. Erməni-daşnak faşistlərinin diktəsi ilə həyata keçirilən son ibrət dərsi kimi Xocalı soyqırımını qəbul etməyə hazır olduğunu bildirdi.

Dağlıq Qarabağ ərazisindəki türk kəndlərinin kütləvi şəkildə yandırılıb yerlə yeksan edilməsi, qarət olunması, əhalisinin faciəvi şəkildə qətlə yetirilməsi, od-ocağından didərgin salınması kosmik sürət aldı. Rus ordusunun 366-cı atıcı alayı sözün əsl mənasında türk kəndlərində insan ovuna çıxdı. Xocalı soyqırımına sınaq yürüşləri keçirmək üçün ətraf kəndlərdə təlim-məşq toplantıları keçirdi.

Xocalı soyqırımı Xocalının üstünə ayaq aldı.

Artıq hakimiyyəti laxlamış A.Mütəllibov kimsəyə gərək deyildi. Kimsəsiz və köməksiz idi. Ətrafında dişədəyər qeyrət sahibi olan bir kimsə qalmamışdı. Həm Rusiyadan, həm də öz xalqından əli üzüldü. Əlini saman çöpünə atdı, o da kara gəlmədi. Bir ildə iki dəfə referendum keçirib imperiya boyunduruğunu saxlamağa cəhd edən, lakin uğursuzluğa düçar olan, özünü iki dəfə prezident seçdirib nəyəsə nail olmayan, 20 Yanvar şəhidlərinin qanı üstə hakimiyyətə gələn A.Mütəllibov «Xocalı soyqırımı» adlanacaq şəhid şəhərin qanı üstə hakimiyyətdən getməyə məcbur oldu. (Hər iki ssenari Moskvada hazırlanmışdı. A.Mütəllibov Moskvanın buyruq quluydu və buyruq qulu olaraq da qalır. Bu gün də Moskvada oturub prezidentlik iddiası aparır.)

Xocalıya giriş-çıxış ancaq havadan idi. Bu yolda da xırda-para təmizləmə işləri görülürdü. Göy altı, yer üstü asfaltı deşib çıxan otdan, kol-kosdan, çör-çöpdən, daşdan-kəsəkdən, yol qırağı pöhrələrdən təmizlənirdi. Ağdam-Şuşa hava yolu da kəsildi. Şuşaya əhali daşıyan mülki vertolyotlar kəklik kimi göydə ovlanırdı. Göydən yerə türk cəsədi səpilir, dəmir qırıntıları yağırdı. Torpağa çilənən qanlar bəs etmirdi. Qarabağın səmasına da qan çilənirdi. Daxildən və xaricdən törədilən saysız-hesabsız təxribatlar, fitnəkarlıqlar, hakimiyyət dava-şavaları Bakıya göz açmağa aman vermirdi, vermədi də. Hakimiyyət hərisləri, ayrı-ayrı fərdlər, korrupsiyaya qurşanmış dəstələr, mafioz qruplar Qarabağ savaşına oyun kimi baxırdılar. Rəsmi dairələrin ermənilərə güc göstərmək məqsədilə hazırladıqları Daşaltı əməliyyatı da onu hazırlayanların öz başında çatladı. Xəyanət və satqınlıqlar elə o məğlubiyyətlə bahəm o gündən həyata vəsiqə aldı, qarşısıalınmaz milli faciəyə çevrildi. Bütün Qarabağ oyuna qoyuldu. Qumar altdan qumar üstə çıxarıldı.

13 fevral 1992-ci ildən Xocalıya gedən hava yolu da bağlandı. Xocalı daşnak terror qruplaşmaları tərəfindən tam mühasirəyə alındı. Artıq Xocalı soyqırımı top-tüfəng səsiylə öz açılış gününə hazır idi. Açılış gününün tarixini daşnak ideoloqları müəyyən etdi. O gün üçün öz fitnəkarlıqları ilə törətdikləri Sumqayıt fitnəsinin 4-cü ildönümü günü əsas götürüldü.

Xocalı soyqırımının həyati gerçəkliyə çevrilməsində Silva Kaputikyan kimi daşnak jizoitləri, Zori Balayan kimi daşnak psixopatları təbliğat maşınlarını tam gücü ilə işə saldılar. Onlarla yanaşı bu qətliamın baş tutmasında Starovoytova, baronessa Koks kimi ermənilərə satılmış çeşid-çeşid muzdluların, erməni düdüyü püləyən mərkəzi televiziyanın dəstəyi də az olmadı. Əsl Üçmüəzzin dəlləyinə çevrilmiş «Vesti» xəbərlər proqramının xidməti misilsiz oldu.

İrəvan atəşfəşanlığa çıxdı. Moskvadan sos aldı. Xankəndindəki 366-cı motoatıcı rus alayı tam heyətdə açılış lentinin qayçılanacağı anı səbirsizliklə gözlədi, qulağını şəklədi. Son komandanı Moskva verməliydi, verdi də. Lentin xəyali görüntüsü Kremldə Yeltsin tərəfindən kəsildi.

Bəli, Qarabağın əcəl zəngi Kremlin Spasski qülləsində çalındı.

Faciənin də qanlı zirvəsi olarmış. Möhtərəm oxucu, Xocalı soyqırımına o qanlı zirvədən bax. O qanlı zirvə altında qaralan yol Şuşaya dikəlirdi. Ağdama yaylım atəşləri səpirdi. Bir daş altdan qoyulub bir daş üstdən Şuşanın, Ağdamın başına döyülürdü. Görəsən Şuşanı, Ağdamı Xocalıya qahmar çıxmağa qoymayanlar kimlər oldu?! Bu başabəla iqtidar öz yerində. Gəlin bu faciəyə əqlimizin gözü ilə də baxaq. Sözü insanın ağlına, dərrakəsinə verək. Özümüzü dərk etməyə çalışaq. Kimsə tərəfindən müdafiə olunmayan əliyalın, dinc sakini, günahsız insanı hansı instinktin diktəsi ilə öldürmək, qətliam etmək olar?! Buna adı insan olanın haqqı çatırmı? Bu suallar ilə özümüzə müraciət edək. Mənə elə gəlir ki, qəzəbi, kini olmayan ikiayaqlı mağara sakinləri, vəhşi və ya yarımvəhşi insan

belə, erməni-daşnak faşizminin isteriyasına, mərəzinə tutulmuş terrorçuların - daşnak manqurtlarının səviyyəsinə enməzdi, əsla.

Daha bir nüansa da diqqət yetirməmək olmur. Belə ki, erməni-daşnak faşistlərinin terror qruplaşmaları və onlara qoşulan 366-cı xüsusi təyinatlı rus alayının hərbi hissələri Xocalı əhalisini vəhşicəsinə qırıb-çatarkən hərbi texnikanın gücü ilə mənəvi soyqırımın ən iyrənc mərhələsi olan izi itirmək kimi mənfur bir əmələ də əl atmaqdan çəkinmədilər. E.ə. XVII-XIII əsrlərə aid edilən yaşayış yerləri, daş qutu qəbirləri, müxtəlif tipli kurqanlar, siklop tikililər, kromlexlər (dairəvi düzülmüş bir neçə dik və onların üzərinə qoyulmuş bir ədəd köndələn daşdan ibarət axirət evləri) və menkirlərdən (ruhun daşa keçməsi inancına rəğmən ölən adamın qəbri üstə bir növ heykələ oxşar basdırılmış daş) ibarət Xocalı abidələri kompleksini də dağıdaraq məhv etdilər.

**Haşiyə 2:** Hüquq müdafiəçiləri İqor Babanov və Konstantin Voldoski özlərinin yazdıqları «Qarabağ böhranı» adlı müştərək kitablarında göstərirlər ki, guya DQ-ın özünümüdafiə dəstələri Xocalını mühasirəyə alarkən əhalinin çıxması üçün dəhliz açıblar. Bununla da başabəla hüquq müdafiəçiləri daşnak terrorçularına haqq qazandırmaq istəyirlər. Qırışmallardan soran yoxdu ki, ev-eşiyini tərk etmək istəməyən dinc əhali bəs nə üçün xüsusi qəddarlıqla qətlə yetirilməlidir?! Dinc, əliyalın, təhlükəsiz əhalinin - qoca, qadın və uşaqların çox qismi isə bəs nə üçün şəhər ətrafında daşnak vəhşətinin qurbanı olmuşdur?! Cənab hüquq müdafiəçiləri, harada yazılıb ki, silahlılar dinc əhalini qətliam etməlidir, xüsusilə qocaya, qadına, uşağa əl qaldırmalıdılar. Sizin şahidləriniz ancaq daşnak terrorçularıdır. Axı, siz heç bir Xocalı sakinini dindirmədən, qətliamı tədqiq etmədən dəhliz məsələsini ortaya atırsınız. Zərərçəkən tərəfdən kimsəni dinləmirsiniz. Onlar qətiyyən belə bir dəhlizin açılmadığını deyirlər. Sizin haqqınızda mən ancaq bunu deyə bilərəm: Siz hüquq müdafiəçiləri deyil, daşnak yalağına çənə söykəmiş yal tulalarısınız. Siz ancaq türk qətliamı törədən erməni-daşnak faşizminin mahiyyətini ört-basdır etmək üçün ortaya atılmısınız, gödən güdən köpəklərsiniz, tüstü qovlayan dələduzlarsınız. Rus millətinin adına ləkə gətirən alçaqlardan başqa siz, bir kimsə deyilsiniz. SSRİ Baş prokurorunun müavini Viktor İlyuxin vətən xaini kimi Qorbaçov haqqında iş qaldırır. Siz isə faşizmi müdafiəyə qalxırsınız, onlara haqq qazandırmağa cəhdlər göstərirsiniz. Halbuki Xocalı soyqırımı erməni-daşnak faşistləri tərəfindən qabaqcadan hazırlanan kütləvi və amansız qırğın aktıdır. Habelə, həmin ərazidə yaşayan insanların məhz azərbaycanlı olduqlarına görə tamamilə məhv edilməsi niyyəti ilə törədilmişdir. Xocalı soyqırımı etnik azərbaycanlılara qarşı törədilmiş cinayət hərəkətləri, onun tərkib hissələri tamamilə BMT BM 1948-ci il dekabr ayının 9-da 260 (m) saylı qətnaməsində qəbul edilmiş «Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında»kı konsepsiyada ifadə olunan qərarla tam üst-üstə düşür. Odur ki, Xocalı soyqırımı beynəlxalq hüquq prinsiplərinə müvafiq olaraq dünya birliyi tərəfindən beynəlxalq

hüquqi qiymətini almalıdır. Dünya birliyi tərəfindən bəşəriyyətə qarşı cinayət kimi qəbul olunmalıdır.

Əfsuslar olsun ki, dünya ictimaiyyəti hələ də bütün beynəlxalq hüquq və ümumbəşəri əxlaq normalarına məhəl qoymayan Ermənistanı qəsbkar kimi tanımır və Azərbaycana qarşı bu gün də davam edən təcavüzkar hərəkətlərini pisləmək istəmir. Bu da erməni-daşnak faşistlərini daha da azğınlaşdırır. İşğal altında saxladıqları Azərbaycan torpaqlarından hələ də çəkilib getmək fikrində deyillər.

## SOS!

Xocalı soyqırımı dünya tarixində analoqu olmayan vəhşilikdir, fəlakətdir, vəhşanəlikdir. Bəşəriyyətə, insanlığa qarşı yönəlmiş cinayətdir. Zooloji-heyvani nifrət nümunəsidir. İrəli sürülmə müddəaları, detalları şübhə doğuran, tarixi təsdiqini tapmayan uydurma «erməni soyqırımı»ndan fərqli olaraq Xocalı soyqırımı günün reallığıdır. Xocalıların ağlasığmaz vəhşiliklərə tuş olmuş insanlarının meyitləri, min bir işgəncələrlə qətlə yetirilən, təhqir edilən cəsədləri göz qabağındadır. Xocalı soyqırımı faktı erməni-daşnak faşistlərinin barbarlığından, vandalizmindən, vəhşanəliyindən xəbər verən kütləvi qırğın aktıdır. Erməni-daşnak faşistlərinin zaman-zaman törətdikləri «azərbaycanlıların soyqırımı» cinayətinin tərkib hissəsidir, inkaredilməz təsdiqidir. Bu faktdan qaçmaq, yan keçmək olmaz. Halbuki 24 aprel 1915-ci ildə Türkiyə şəhərlərindəki erməni-daşnak faşistləri tərəfindən təşkil edilmiş komitələr, daha doğrusu, Türkiyə əleyhinə döyüşəcək daşnak terror qrupları hazırlayan, pozuculuq fəaliyyəti ilə məşğul olan təşkilatlar bağlanıb, liderləri dövləti xəyanətdə suçlanaraq göz altına alınıblar. Bir sözlə, həmin gün heç bir erməni qırğını filan olmayıb. «Erməni soyqırımı» erməni uydurmasından başqa bir şey deyildir. Bəs necə olur ki, erməni olmayanlar belə uydurma «erməni soyqırımı»nın ildönümünü qeyd edir, Qərb ölkələrinin parlamentləri bir-birinin ardınca bu olmayan aksiyanı olmuş kimi qəbul edir. Bu açıq, ağ yalanı dünya ictimaiyyəti həzm edir, lakin sübuta ehtiyacı olmayan, göz önündə baş verən Xocalı soyqırımını əxz etmək istəmirlər. Hüquqi məntiqə söykənərək ərz edirəm: Soyqırıma məruz qalan bir xalq heç bir zaman Xocalı soyqırımı törətməzdi. Bəşəriyyətə, insanlığa qarşı törədilən bu cinayət aktı erməni tarixinin qara hərflə yazılan bədnam səhifələrindən biridir. Bu qanlı, qara səhifə erməni-daşnak faşizminin vəhşanəliyindən xəbər verən bir qətliamı - «azərbaycanlıların soyqırımı» cinayətini törədənlərin izində, sorağındadır.

Dünya ictimaiyyətinin erməni-daşnak faşizmi tərəfindən törədilən «azərbaycanlıların soyqırımı» cinayətini əxz edəcəyi gün çox uzaqda deyil!

# XX ƏSR AZƏRBAYCAN TÜRKÜNÜN SOYQIRIMI ƏSRİDİR

Erməni-daşnak faşistləri Azərbaycan türkünə qarşı apardıqları etnik təmizləmə və soyqırımı siyasətini XX əsrdə başdan-başa düşünülmüş, məqsədyönlü və planlı şəkildə aparmışlar. Bu siyasətin qanlı dövrləri dörd mərhələdə özünü daha dəhşətli və faciəvi tərzdə göstərmiş, azərbaycanlıların kütləvi qətliamları ilə müşahidə olunmuşdur. Bu mərhələlərin əyaniliyini artırmaq üçün cədvəl şəklində oxuculara təqdim edirik:

| **Soyqırım mərhələləri** | **Tarix** | **Bölgələrin adı** | **Dağılan kəndlərin sayı** | **Qırğın törədilən şəhərlər** | **Qətlə yetirilənlər (nəfərlə)** | **Yurd-yuvasından didərgin salınanlar (nəfərlə)** |
|---|---|---|---|---|---|---|
| I | 1905-1907-ci illər | İrəvan quberniyası | 188 | İrəvan, Naxçıvan, Tiflis, Ordubad | 94.000 | 350.000 |
| | | Yelizavetpol (Gəncə) quberniyası | 112 | Bakı, Gəncə, Şuşa | 56.000 | |
| | 1914-1918-ci illər | Cənubi Azərbaycan vilayətləri | 100-lərlə | Xoy, Urmiya, Əhər, Səlmas, Təbriz, Maku, Marağa, Dilman, Həmədan | 150.000 | 10 minlərlə |
| | | İqdır qəzası | 60 | Qars, İqdır, Van, | 200.000 | 100 minlərlə |
| | | Qars vilayəti | 82 | Ərzurum, Ərzincan, Bayburt | (Burada Osmanlı türklərinin qətliamı nəzərə alınmayıb) | |
| | | Şərqi Anadolunun digər bölgələri | 100-lərlə | | | |
| | 1918-1920-ci illər | Çuxursəd, Şörəyel, Ağbaba, Loru-Pəmbək, Borçalı bölgələri; | 211 | İrəvan, Gümrü, Böyük Qara kilsə, Arpaçay, Tiflis | 132.000 | |
| II | | Vedibasar bölgəsi | 118 | | 207.000 | 500.000 |
| | | Sürməli qəzası | 96 | | | |
| | | Üçmüəzzin qəzası | 60 | | | |
| | | Yeni Bəyazit qəzası | 84 | | | |
| | | Zəngəzur qəzası | 127 | | | |
| | | Dərələyəz bölgəsi | 74 | | | |
| | | Göyçə nahiyəsi | 22 | | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | 1918-1921-ci illər | Naxçıvan bölgəsi (Şərur nahiyəsi, Gilançay və Əlincəçay hövzələri) | 156 | Naxçıvan,Culfa, Ordubad | 73.727 | |
| | 1918-1920-ci illər | Şuşa, Cəbrayıl, Cavanşir qəzaları və Gəncəbasar bölgəsi | 157 | Şuşa, Gəncə | 25.000 | 10 minlərlə |
| | mart 1918-sentyabr 1918-ci il | Bakı şəhəri və ətraf kəndləri | 20 | Bakı | 30.000 | Əhalinin böyük bir qismi Aşqabada köçür |
| | | Şamaxı qəzası | 58 | Şamaxı. | 10.000 | |
| | | Quba qəzası | 122 | Quba, Xaçmaz | 19.000 | |
| | | Salyan qəzası | 12 | Salyan, Neftçala | 3.000 | |
| | | Lənkəran qəzası | 5 | Lənkəran | 4.000 | |
| | | Ərəc qəzası və Kürdəmir, Hacıqabul, Göyçə nahiyələri | 10-larla | Kürdəmir, Hacıqabul, Göyçay, Oğuz, Qəbələ | 10.000 | 10 minlərlə |
| III | 1948-1953-cü illər | Ermənistan SSR | 229 | Ermənistan SSR-in bütün şəhərindən azərbaycanlılar deportasiya olunub | 30.000 deportasiya zamanı aclığa və iqlimə uyğunlaşmayıb tələf oldular | 144.654 |
| IV | 1988-1991-ci illər | Qərbi Azərbaycan (Ermənistan SSR) | 279 | İrəvan və Ermənistan SSR-in bütün şəhərləri | 460[*] | 265.000 |
| | 1988-1994-cü illər | DQMV, Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Qazax bölgəsi | 890 | Şuşa,Xocalı,Laçın, Kəlbəcər,İstisu, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı | 30.000[**] | 735.000 |
| **Cəmi qətlə yetirilənlər və didərgin salınanlar** | | | | | **1.064.187** | **2. 00.000** |

---

* Bu rəqəm bir çox müəlliflər tərəfindən və statistik bülletenlərdə 216 və ya 229 kimi göstərilir. Bu, çaşqınlıqdan başqa bir şey deyildir. Çünki həmin müəlliflər və statistik bülletenlərin tərtibçiləri 1988-ci illərdə erməni-daşnak terrorçuları tərəfindən Hamamlı şəhərində 87-yə yaxın türk mənşəli uşaqların müxtəlif üsullarla həyata keçirilən qətliamları, rayonlararası nevroloji və ya psixi xəstəxanalarda müalicə alan türk mənşəli onlarca ruhi xəstələrin suda boğulmaları, habelə qaçqın düşərək MDB ölkələrində özlərinə sığınacaq tapan Azərbaycanlı ailələrin qətlə yetirilən qohum-əqrəbalarının sayını nəzərə almamışdılar. Habelə tərəfimizdən qaçqınlıq həyatına dözüm tapmayaraq həyatlarını itirən minlərlə azərbaycanlının sayı buraya daxil edilməmişdir.

** 1988-94-cü illərdə əsir və girov götürülərək sonradan qətlə yetirilənlərin, atəşkəs dövründə mütəmadi olaraq döyüş bölgələrində şəhid olanların sayı da bura daxil edilmişdir. Onu da qeyd edək ki, məcburi köçkünlüyə dözməyib, ilan mələyən düzlərdə salınan çadır şəhərciklərində həyatlarını itirən insanların sayı isə bura daxil edilməmişdir.

**Haşiyə 1:** Uydurma «erməni soyqırımı» əfsanəsi cəfəngiyatdır. Erməni-daşnak faşistlərinin Azərbaycan türkünə qarşı apardıqları etnik təmizləmə və soyqırımı siyasəti isə reallıqdır. Hər iki tərəfin iddiası tarixçilər tərəfindən təhlil və tədqiq edilməli, ekspertlər hər iki tərəfin arqumentlərini tarixin süzgəcindən keçirib son nəticəyə gəlməlidilər. Bu zaman məsələnin çözülməsində Türkiyə erməniləri ilə Qərbi Azərbaycan türklərinin ortaq talelərində oxşar bənzəyişi olan iki nüansa, həm də müqayisəli şəkildə diqqət yetirilməsi mahiyyət etibarı ilə kimin haqlı, kimin haqsız olduğunu bəri başdan göstərəcək bir məsələdir. Atalar demişkən, görsənən dağa bələdçi nə lazımdır: (1) Erməni-daşnak faşistlərinin iddiasında olduqları Türkiyə torpaqlarında hal-hazırda bir nəfər də olsun erməni mənşəli kimsə yaşamır. Çünki hələ 1877-1878-ci illərdə baş verən rus-türk müharibəsi zamanı Türkiyənin yerli erməni əhalisinin Rusiyanın xeyrinə casusluq etmələri, ölkə daxilində iğtişaşlar törətmələri, rus ordusunun tərkibində 150000 erməni əsgərinin, baş komandanın və üç ordu komandirinin, erməni mənşəli çar generalının türklər əleyhinə döyüşməsi türklər üçün bir həyəcan siqnalı oldu. Bununla kifayətlənməyən erməni terror qrupları tez-tez üsyanlar etdilər, qiyamlar qaldırdılar.

Ermənilər Rusiya azmış kimi, Türkiyənin çökdürülməsi zəminində İngiltərənin, Fransanın da agentlərinə çevrildilər. I Dünya müharibəsində isə 250000 erməni əsgəri Rusiya ordusunun tərkibində türklərə qarşı vuruşmalarda iştirak edir və əliyalın, dinc əhaliyə qarşı vəhşiliklər törədirlər. Xüsusilə rus ordusunun qələbələri erməni-daşnak faşistlərinin iştahını daha da artırır. Onlar Şərqi Anadoludakı türk kəndlərinin əhalisini qəddarcasına və son nəfərinədək məhv etmək fikrinə düşürlər. Erməni-daşnak faşizminin bu məkrli niyyətindən xəbər tutan Osmanlı hökuməti öz təhlükəsizliyini təmin etmək üçün vəziyyətdən çıxış yolunu 15 may 1915-ci il tarixli köçürmə qanununa imza atmaqda görür. Həm də Türkiyə torpaqlarında erməni dövləti qurmaq istəyən erməni-daşnak faşistləri qəbul etmək istəmirlər ki, bu baş tutan sövda, mümkün olan iş deyil. Çünki həmin ərazilərdə ermənilər ümumi əhalinin heç zaman 20%-dən çoxunu təşkil etməyib və etməmişdi də.

Qərbi Azərbaycanda (indiki Ermənistanda) isə türklər ümumi əhalinin 1905-ci ilədək 70-80%-ni təşkil edib. Halbuki XIX əsrdə başdan-başa həmişə bu ərazilərə Türkiyə və İrandan erməni ailələri köçürülüb. Erməni-daşnak faşistləri Qərbi Azərbaycanda erməni əhalisinin üstünlüyünü Rusiyanın himayəsi altında 1905-1907, 1918-1920, 1948-1953, 1988-1991-ci illərdə mərhələlərlə Azərbaycan türklərinə qarşı apardıqları etnik təmizləmə və soyqırımı siyasəti, habelə deportasiya və sıxışdırmalar nəticəsində nail olublar. Azərbaycan türkləri XX əsri başdan-başa həyatlarının ən dəhşətli, faciəvi dövrlərini yaşayıblar. Qırğınlara, deportasiyalara, soyqırıma, mənəvi genosidə məruz qalıblar. Əzab çəkiblər, işgəncələr görüblər. Halbuki onlar heç zaman qonşularına qarşı üsyankar münasibət bəsləməyiblər. Düşmən mövqeyi tutmayıblar. Müstəqillik, hakimiyyət

uğrunda nə dinc, nə də silahlı yolla mübarizə aparmaq fikrində belə olmayıblar. Sadəcə erməni-daşnak faşizminin «Türksüz Ermənistan dövləti» qurmaq siyasətinin günahsız qurbanlarına çevriliblər. Bu gün Ermənistan ərazilərindəki tarixi torpaqlarında həm fiziki, həm də mənəvi kökü kəsilən bir etnik halına düşüblər; (2) I Dünya müharibəsində 2,5 milyon türk, 300000 erməni həlak olub. Ermənilər isə iddia edirlər ki, guya bu «erməni soyqırımıdır» və həmin dövrdə 2,5 milyon erməni qətlə yetirilib. Halbuki həmin dövrdə bir o qədər erməninin qırıldığı güman edilən ərazilərdə tarixi faktlar göstərir ki, cəmi-cümlətanı 1,3 milyon erməni əhalisi yaşamışdır. XX əsrdə isə Qərbi Azərbaycanda yaşayan 1,5 milyon türk erməni-daşnak faşizminin etnik tənzimləmə siyasətinin və soyqırımının zərərçəkəni olmuşdur. Onlardan 500000 nəfəri qətlə yetirilmiş, 1 milyonu isə dədə-baba torpaqlarından didərgin salınmışdır. Bütövlükdə isə XX əsrdə erməni-daşnak faşistləri tərəfindən 1064187 Azərbaycan türkü qətlə yetirmiş, 2,2 milyon nəfəri isə yurd-yuvasından didərgin salınmışdır.

**Haşiyə 2:** Mən hər deyəndə ki, «Erməni-daşnak faşizmi və Azərbaycan» kitabı üzərində işləyirəm, bu zaman iki mövqedən dostlarımın təklif və iradları ilə rastlaşıram. İrad tutanlar deyirlər ki, erməni-daşnak faşizminin əməllərini təhlil, tədqiq etməyin bundan belə nə əhəmiyyəti var? Daha da aradakı düşmənçilik, intiqam, qisas hisslərini qızışdırırsan. Guya gələcəyimizi təhlükə altında qoyuram. İkinci mövqeyin tərəfdarları isə deyirlər ki, erməni-daşnak murdarlığını faşist sözü ilə yüngülləşdirmək olmaz. Heç faciə sözünün özü də erməni-daşnak vəhşətini mahiyyət etibarı ilə özündə tam əks etdirmək gücünə malik deyil. Daha tutarlı söz tapmağımı təklif edirlər. Birincilər nə qədər haqsızdılarsa, ikincilər bir o qədər haqlıdırlar.

İfrat faşist partiyası kimi formalaşan Daşnaksutyunun ideya daşıyıcıları işğal etdikləri ərazilərdə öz hakimiyyətini qurmaqla kifayətlənmirlər. İlk növbədə əhalini qırır, ərazini canlı aləmdən təcrid edirlər. Etnik təmizləmə və soyqırımı siyasəti aparırlar. Adi faşistlər isə ancaq onların hakimiyyətinə qorxu törədənlərə qarşı döyüşürlər və erməni-daşnak faşistlərindən fərqli olaraq daha yüngül cəzalar tətbiq etməklə kifayətlənirlər. Kütləvi qətliamları işgəncələrlə deyil, güllə atəşləri ilə yerinə yetirirlər. İnsan meyitlərini təhqir etmək kimi ağlasığmaz əməllərdən uzaqdılar.

Bəli, keçmişi yada salmamağın özü bir cinayətdir. Tarixi yaddaşdan məhrum olmaq deməkdir. Uzun əsrlər boyu ulu tarixindən, ulu kökündən bu və ya başqa şəkildə ayrı salınmış Azərbaycan xalqı da özünü dərk etməkdən məhrum olub. Çar Rusiyasının, totalitar Sovet rejiminin himayəsi və havadarlığı altında erməni-daşnak faşizminin apardığı uzunmüddətli, çirkin, azğın təxribat və böhtanlar artıq öz işini görmüşdür. Azərbaycan türkləri pillə-pillə erməni-daşnak faşizminin etnik təmizləmə və soyqırımı siyasətinin günahsız qurbanlarına çevrilmişlər. Heç şübhəsiz ki, mayası məkr və hiylə acıtmasından tutulan, xəmiri xəyanət ləyənində yoğurulan Daşnaksutyun partiyası var, nə qədər onun bizə qarşı

yönəlmiş ideologiyası mövcuddur, onun soyqırımı törətməsi təhlükəsi də bir o qədər bizimlə baş-başa qalacaqdır.

Erməni-daşnak faşistlərinin istəklərini, vəhşətlərini unutmaq, cinayətlərinə görə cəzasız buraxmaq, onları gələcəkdə daha böyük vəhşanəliklərə əl atmağa, azğınlıqlar törətməyə sövq və səfərbər edir. Yüz illərdir ki, bu proses davam edir. Nə qədər ki erməni-daşnak faşistləri cəzasız qalır, öz fəaliyyətini davam etdirir, biz rahatçılıq tapa bilmərik. Axı, tarix qanlı cinayətləri bağışlamır. Erməni-daşnak faşizminin rus müstəmləkəçiliyinin himayəsi və havadarlığı altında Azərbaycan türkünə qarşı törətdikləri fəlakətlərin, amansızlıqların, qəddarlıqların, vəhşət və vəhşanəliklərin ancaq bir adı var – Azərbaycan türkünün soyqırımı!!! Əfsuslar olsun ki, erməni-daşnak faşizminin bəşəriyyətə, insanlığa qarşı çevrilmiş «azərbaycanlıların soyqırımı» cinayəti orta əsr vandalizmi deyil, sivil dünyamızın reallığıdır!!!

**Haşiyə 3:** Bu gün erməni diplomatları humanist insan mövqeyindən çıxışlar edir, əməli fəaliyyətdə isə daşnakcasına hərəkət edirlər. Dünyanın 70 ölkəsində bərqərar olan, xüsusilə ABŞ, Fransa, RF kimi nəhəng dövlətlərdə böyük maliyyə ehtiyatına və bu ölkələrin dövlət siyasətinə təsir etmə gücünə malik olan erməni diasporu və lobbilərinin, beynəlxalq erməni təşkilatlarının dayaq durduğu erməni-daşnak faşistlərinin iç üzünü, mənfur niyyətlərini bütün dünyaya açıb göstərə və ya ifşa edə bilməməyimiz yolverilməzdir.

Erməni-daşnak ideoloqları Azərbaycan gerçəkliklərini qəsdən təhrif edir, saxtakarlıq edərək tarixlər boyu uydurduqları çeşid-çeşid yalanlarını sübut etməyə çalışırlar. Bəzən buna heç ehtiyac belə duymurlar. Yalanlarını dünya birliyinə həqiqət kimi, tutarlı fakt kimi sırıyırlar. Həm də onların bu yalanları müəyyən mənada super güclərə sərf edir. Bu cılız və zəif görkəmli millət məhz super güclərin köməyi ilə istəklərini həyata keçirir.

Erməni-daşnak faşistlərinin Azərbaycana qarşı olan ərazi iddiaları bitib-tükənmək bilmir. Azərbaycan türklərinə qarşı zaman-zaman həyata keçirdikləri etnik təmizləmə və soyqırımı siyasətlərinin tədqiqi, təhlili, xəyanət və fitnə yolu ilə Azərbaycan ərazilərini özününküləşdirmək, mənimsəmək cəhdləri bəhrə verdikcə iştahları artır. Ümumiyyətlə, erməni milli hərəkatının tarixinə nəzər salmaq kifayətdir ki, onun saxtalığından söz aça biləsən. Bu tarixin öyrənilməsi göstərir ki, erməni-daşnak faşistləri qeyri-insani hərəkətlərini, cinayət əməllərini yerli əhalinin genosidi hesabına qurmaq istədikləri və hələ bir neçə əsr bundan öncə xülyasında olduqları qondarma «Böyük Ermənistan» sayıqlaması ilə düşünülmüş bir hiyləgərliklə pərdələyirlər.

Bu gün Qarabağ problemində vilayətin bir ovuc erməni əhalisinə öz müqəddəratını təyin etmənin şamil edilməsinə yönələn cəhdlər, Azərbaycan Respublikasının ərazi bütövlüyü prinsiplərinin danışıq masasında hansı nisbətdə aparılmasına aydınlıq gətirilməməsi, erməni əhalisinin Azərbaycan vətəndaşı kimi burada yaşamalarının qeyri-mümkünlüyü kimi eybəcər, irqçilik mahiyyəti daşıyan

fikirlərin ortaya atılması faktları onu göstərir ki, danışıqların uzadılması fırıldaqçılıqla vaxt qazanmaqdan, baş qatmaqdan başqa bir şey deyildir. Çünki ermənilər artıq öz müqəddəratlarını bir dəfə təyin etmişlər və həm də tarixi Azərbaycan torpaqlarında Ermənistan Respublikası qurmuşlar. Bu problem heç də öz müqəddəratını təyin etmə, «siyasi müstəqillik» və ya «ayrılma» mahiyyəti daşımır. Əsas məqsədi: Azərbaycan torpaqlarının ilhaqıdır. «DQ»-da beynəlxalq terrorçular, ekstremistlər və separatçılar, bir sözlə, erməni-daşnak faşistləri azad şəkildə fəaliyyət göstərir. Bu terror dalğası atəşkəslə sönmür, sona çatmaq bilmir. DQ-da və işğal olunmuş ətraf rayonlarda terror zorakılığı elə bir həddə çatmış, elə geniş vüsət almışdır ki, bu gün bütöv vilayət deyil, onunla həmsərhəd olan və olmayan 7 bölgənin əraziləri terrorçuların nəzarəti altında saxlanır.

Düşmənlə təmas xəttində baş verən gündəlik atışmalar, atəşkəsin pozulması bizə heç cür rahat oturmağa şans verə bilməz. Elə bir gün yoxdur ki, atəşkəs pozulmasın, günahsız yerə qan qardaşlarımızın, soydaşlarımızın qanı axıdılmamış olsun. Azərbaycan Respublikasının təhlükəsizliyi, suverenliyi, ərazi bütövlüyü, torpaqlarının toxunulmazlığı Ermənistan Respublikası tərəfindən daim təhlükə altında saxlanır.

Bizim üçün ən təhlükəli və acınacaqlı haldır ki, ER-nın timsalında erməni-daşnak faşizmi dövlətləşib. Bugünkü ER 1918-ci ildə yaradılan erməni-daşnak hökumətindən heç nəylə fərqlənmir. Əksinə, ondan daha üstün, geniş şəkildə Azərbaycan türkünə qarşı etnik təmizləmə və soyqırım siyasəti aparır. Naxçıvan MR və digər həmsərhəd bölgələri əhatə edən daha geniş ərazilərdə həyata keçirir. Yüz illik təcrübə əsasında bizə qarşı lokal terror müharibəsi aparır. Dünya ictimai fikrini öz qafil təbliğatları ilə əsl həqiqətdən uzaqlaşdırıb əks məcraya yönəldirlər. Erməni-daşnak fasistlərinin XX yüzillikdə Azərbaycan türklərinə qarşı apardıqları soyqırımını türklərin ermənilərə qarşı apardıqları soyqırımı kimi qələmə verirlər. Bizi hələ də fil qulağında yatızdırırlar, vəziyyətdən çıxış yolunu tapmaqda acizlik göstəririk.

1918-ci ilin iyun ayında 9 min km-ə yaxın ərazinin Azərbaycan torpaqlarından qoparılaraq paytaxtı olmayan Ermənistan daşnak hökumətinə verilməsindən başqa qalan bütün torpaqlar və İrəvan şəhəri ancaq qəsbkarlıq yolu ilə əldə edilmişdir. Bu gün tərəfimizdən erməni-daşnak faşistlərinin hüquqi bazaya malik olduqları 9,8 min km$^2$-lik əraziyə sıxışdıra, beynəlxalq aləmdə ermənilərə bundan artıq torpaq verməyə haqqımız yoxdur, deyə bilməməyimiz, hələ də gücsüzlüyümüzdən qaynaqlanır. Günü bu gün də ədalətli haqqımızı erməni beyninə diqtə edə bilməməyimiz, görünür, bizə hələ də çox baha başa gələcəkdir. Hələ də çox baha başa gəlməkdə davam edir. Erməni-daşnak faşizminin terror zorakılığına son qoya bilmirik. Ərazi bütövlüyümüzü bərpa etməkdə güc göstərə bilmirik. Bu terror zorakılığının başında erməni-daşnak faşistləri, beynəlxalq terroru və separatizmi müdafiə edən işğalçı ER, onun himayəçisi və havadarı rolunda çıxış edən RF-nın qəsbkar ordusu durur.

## ƏLAVƏLƏR

## YAZIÇI-PUBLİSİST ƏLİSAHİB ƏROĞULUN DÜNYA XALQLARINA MÜRACİƏTİ

Möhtərəm dostlar, həmplanetlilər!

Mən nümayəndəsi olduğum Azərbaycan xalqının milli faciəsinin daşıyıcısı - dünya tarixində analoqu olmayan erməni-daşnak faşizminin XX əsrdə həyata keçirdiyi azərbaycanlıların əzəli torpaqlarından qovulması, etnik təmizləmə və soyqırımı siyasətinin qurbanı kimi Sizlərə müraciət edirəm. Düçar olduğumuz məhrumiyyətlərdən, yaşantımız üçün yaranmış qeyri-normal vəziyyətdən çıxış yolunu siyasi oyunbazlıqlara qoşulmaqda deyil, nə qədər ağrılı-acılı olsa da, həqiqəti Sizlərə - dünya xalqlarına çatdırmaqda, deməkdə, çəkilməsi mümkün olmayan dərdlərimizi bölüşməyə şərik axtarmaqda görürəm.

Əslində, milli faciələrə və misli görünməyən məşəqqətlərə məruz qalmağımızın tarixi çar Rusiyasının XIX əsrin birinci yarısında Azərbaycanı işğal etməsi və vəhşanə, sərsəm bir siyasət yeritməsiylə - Türkiyə və çar Rusiyası arasında süni surətdə bufer dövlət - «Böyük Ermənistan» yaratmaq xülyası ilə baş-başa qaldığımız müdhiş bir gündən başlayır. Əsli-kökü, yeri-yurdu məlum olmayan yüz minlərlə erməni əhalisi Türkiyə və İran ərazilərindən, habelə dünyanın müxtəlif yerlərindən Azərbaycanın münbit qərb və mərkəzi torpaqlarına köçürüldükcə və onların yerləşdirilməsi dövlət səviyyəsində təmin edildikcə, biz azərbaycanlıların şəhər və kəndləri topa tutuldu, ulularımız qılıncdan keçirildi, qanları su yerinə axıdıldı. Günahsız, dinc, aborigen əhali olan türksoylu azərbaycanlılar ana yurdlarından zor gücünə qovuldular, vəhşanə tərzdə etnik torpaqlarından sıxışdırılıb çıxarıldılar, qətlə yetirildilər.

Dünya zəiflərin haqqını tanımır! Rusiyanın müstəmləkə siyasətinin nəticəsidir ki, bütün Qafqaz xalqlarının, xüsusən azərbaycanlıların milli azadlıq və müstəqillik mübarizəsinə qarşı yönəldilmiş xəyanət və satqınlıq, məkr və hiylə təzahürlərindən maya tutan, ətə-qana dolan gəlmə ermənilərin süni surətdə «erməni vilayəti» adlı ilk inzibati-ərazi vahidi işıq üzü gördü. İllər ötdükcə azərbaycanlıların torpağında özünü möhkəmlədən erməni icmasının təfəkkürünə «Böyük Ermənistan» xülyasını yeritmək, siyasi mütəşəkkilliyi və təşkilatlanmanı artırmaq, silahlı əsgəri hissələr formalaşdırmaq və saxlamaq, məqamı gəldikcə onlardan istifadə etmək, terror aktları törətmək və s. üçün çar Rusiyası tərəfindən qatı faşist ideologiyası ilə silahlanmış erməni faşist partiyasının - Daşnaksutyunun yaradılmasına xeyir-dua verildi. Bu ifrat faşist partiyası türkə düşmənçilik

siyasətindən doğdu. Beləliklə, rus müstəmləkəçiləri ilə erməni-daşnak faşizminin müştərək siyasəti bir-birini tamamladı. Üst-üstə düşdüyü gündən Azərbaycan torpağı azərbaycanlılar üçün milli didişmə, ermənilər üçün isə milli əlahiddəlik meydanına çevrildi. Demək, ötən yüzilliyin hər ili milli mənsubiyyətə görə məhv edilmələrə, qırğınlara, talanlara, qanlı hadisələrə, ana yurddan qovulmalara, insanlıqdan kənar vəhşiliklərə məruz qalmalar, günahsız, dinc, təhlükəsiz Azərbaycan türkləri üçün alın yazısına dönən məhrumiyyətli illər oldu. Bu illərdə erməni-daşnak faşizminin insan ağlına sığmayan vəhşiliklər törətməsi - 1905-ci il avqust ayının 14-də Zəngəzur mahalının Saqqarsu oymağında 90 yaşlı, əli Quranlı el ağsaqqalı Molla Həsən Əfəndi ətrafına toplaşmış qadın və uşaqlara aman dilərkən daşnak fasistləri tərəfindən pirani insanın və yanındakı 62 qadının doğranması, 15 uşağın başının kəsilməsi; 1918-ci ilin ilaxır çərşənbəsində Göyçə mahalının Şişqaya kəndində 640 nəfərin bir gündə diri-diri yandırılması; el sənətkarı Daşkəndli aşıq Nəcəfin girov götürülərək kürəyinə qaynar samovar bağlayıb işgəncəylə öldürülməsi; 1918-ci ilin mart ayının 29-dan keçən üç gün ərzində Bakı şəhərində 30000 azərbaycanlının kütləvi şəkildə qətlə yetirilməsi; 1919-cu ilin qışında 3000 azərbaycanlı kəndlisinin Ağmaqan dağında dondurulması; 1988-ci il dekabr ayının 5-də Spitakda azərbaycanlı millətindən olduqlarına görə 80-dən çox azyaşlı uşağın iri diametrli borulara doldurub başlarına dəmir lövhələr qaynaq edilərək uçurumdan yuvarladılması; 1992-ci ilin fevral ayının 25-dən 26-na keçən gecə 1153 nəfərin qətli, 1200 nəfərin şikəst edilməsi, 7000 nəfər əhalisi olan Xocalı şəhərinin bir gecədə yerlə yeksan edilməsi kimi faciələr azərbaycanlı olan hər kəsin qan yaddaşına silinməz izlər buraxmışdır. Bütün bu terror aktları insanlıq əleyhinə yönəlmiş erməni-daşnak faşistlərinin törətdikləri vəhşətləridir. Bu gün əsir düşənlərin və girov götürülənlərin elektrikə verilməsi, diri-diri basdırılması, yandırılması, sinələrinə xaç nişanları çəkilməsi, gözlərinin çıxarılması, başlarının kəsilməsi, avtomobillərin təkərləri altına atılması, oynaq sümüklərinin və daxili əzalarının qablaşdırılaraq Qərbi Avropa bazarlarına çıxarılması orta əsr vandalizmi deyil, sivil dünyamızda erməni-daşnak faşistlərinin azərbaycanlıların başına gətirdiyi müsibətlər, faciələr, fəlakət və azğınlıqlardan xəbər verən gerçəkliklərdir, vəhşanəliklərdir.

Tarixi faktların analitik təhlili göstərir ki, erməni-daşnak faşistlərinin 1905-1907-ci illərdə Azərbaycan türklərinə qarşı apardıqları etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində, 1914-1917-ci illərdə Qars, Ərzurum, Ərdahan, Van, Adana, Səlmas, Xoy, Urmiya, Təbriz şəhər və əyalətlərində rus işğalının yaratdığı münbit şəraitdən istifadə edərək törətdikləri qırğınlarda, 1918-1920 və 1988-1994-cü illərdə Azərbaycan türkünə qarşı törətdikləri qətliamlarda nə az, nə çox, bir milyondan çox Azərbaycan türkü qətlə yetirilmiş, 2,2 milyon nəfər isə yurd-yuvasından didərgin salınmışdır.

Təəssüflər olsun ki, çar Rusiyasının yerində bərqərar olan Sovet Rusiyası öz sələflərinin himayədarlığı və havadarlığı altında erməni-daşnak faşizminin

törətdiyi tarixi cinayətləri və ədalətsizlikləri ləğv etmək, aradan qaldırmaq əvəzinə, daha da dərinləşdirilməsinə rəvac verdi. Faciələrimizin həcmi ölçüyəgəlməz dərəcədə artdı. 1918-ci il iyun ayının 4-də torpağı, paytaxtı olmayan erməni dövləti ilə bağlanmış Batum sülh müqaviləsinə və Azərbaycan Demokratik Cümhuriyyətinin İrəvan mahalını erməni vilayətinə güzəşt etməsi ilə ümumi sahəsi 9,8 min km olan Ermənistan daşnak hökuməti yaradıldı. Həmçinin 1920-ci il noyabr ayının 29-da Ermənistan SSR təşkil edilərkən Sovet Rusiyası Azərbaycan xalqına qarşı misli görünməmiş bir xəyanətə əl aldı. Azərbaycanın Dərələyəz, Zəngəzur, Qaraqoyunlu, Göyçə mahallarını ilhaq edərək Ermənistan SSR-nin ərazisini 29,8 min $km^2$-ə çatdırdı. Qərbi Azərbaycanın daha 20 min $km^2$-lik torpağını süni surətdə Ermənistan SSR-nin ərazisi elan etdi. Bu azmış kimi, Azərbaycanın mərkəzi vilayəti sayılan Qarabağın dağlıq hissəsində iki cüt bir tək erməni yaşayan bir ərazidə 1923-cü ildə Azərbaycana hakimi-mütləq təyin edilmiş bolşevik emissarı S.M.Kirovun, Mirzoyanın və Zaqafqaziya Federasiyasının rəhbər orqanlarında oturmuş bolşevik-daşnak siam əkizlərinin, xüsusilə S.Orcenikidzenin, Miyasnikovun səyi ilə hətta Lenin milli siyasətinin ziddinə olsa da, ikinci bir erməni muxtar qurumu - DQMV təşkil edildi. SSRİ hökumətinin rəhbər orqanlarında mövqe tutmuş, kommunist maskası taxmış erməni-daşnak faşistlərinin fitnə-fəsadıyla 1929, 1968, 1985-ci illərdə Azərbaycan SSR-nin 10 min hektarlarla torpaqları hissə-hissə qoparılaraq müxtəlif adlar altında Ermənistan SSR-nin ərazisinə qatıldı. Torpaq, ərazi ilhaqları ilə bahəm Qərbi Azərbaycan torpaqlarından azərbaycanlıların sıxışdırılıb çıxarılması bir an belə səngimək bilmədi. 1930-cu illərin repressiyalarında pantürkist, panislamist, qolçomaqlarla mübarizə siyasəti və kommunist cildinə girmiş daşnakların antitürk fəaliyyətinə yuxarı partiya və sovet orqanları rəhbərlərinin loyal münasibəti nəticəsində sırf azərbaycanlılar yaşayan 100-dən çox kənd xarabazarlığa çevrildi. Ermənistan SSR-nin azərbaycanlılardan təmizləmə və məhv etmə siyasətinin daha bir iyrənc üsuluna əl atıldı. Daşnak fitnəsinə uymuş Stalin 1948-1953-cü illərdə xaricdən gələn ermənilərin Ermənistan SSR-də yerləşdirilməsi adı altında 150 min azərbaycanlını könüllülük adı altında zorla dədə-baba torpaqlarından köçürüb Azərbaycan SSR-nin isti, malyariyanın tüğyan etdiyi Kür-Araz ovalığının ilan mələyən, həyat nişanəsi olmayan düzlərinə atdı. Bu köçürmə kampaniyası DQMV-də də həyata keçirildi. DQMV-nin yüzlərlə azərbaycanlı ailəsi daxili köçürmə adı altında ondan kənar ərazilərə - Xanlar və Beyləqan rayonlarına köçürüldülər.

Bütün bunlarla yanaşı, partiya, sovet təşkilatlarının nümayəndəsi kimi rəhbər işlərdə oturmuş maskalı daşnakların gözümçıxdısından daim əziyyət çəkən, cana doyan, sovet totalitar rejiminin hüquq müdafiəçilərindən haqq-ədalət görməyən, təzyiq, təqib və təhqirlərə məruz qalan azərbaycanlıların tək-tək, ailə-ailə, tayfa-tayfa, kənd-kənd Ermənistan SSR-dən Azərbaycan SSR-ə, habelə digər müttəfiq respublikalara miqrasiyası biz nəsillərin gözü qabağında davam edən

arasıkəsilməz bir proses oldu. SSRİ hökuməti tərəfindən Daşnaksutyun partiyasının mövcudluğu üzdə yasaq edilsə də, bolşevik qiyafəsinə girərək özünün açıq və ya gizli fəaliyyətini heç vaxt dayandırmadı. Hər dövrün, tarixi şəraitin özünəməxsus, düşünülmüş türkə qəsd planları hazırlayıb, məqsədyönlü şəkildə həyata keçirdi. Daşnak qaragüruhunun tör-töküntüləri antitürk fəaliyyətinə görə Sov. İKP-dən, xüsusilə sovet detekasından daim dəstək aldı.

60-70-ci illərdə Ermənistan SSR-nin İƏD-də azərbaycanlı dustaqların tez-tez qətlə yetirilməsi, xüsusi qəddarlıqla kəsilmiş başlarının poçt baratları kimi ailələrinin ünvanlarına göndərilməsi, təcridxanada saxlanan azərbaycanlıların məhkəmə sonu Xankəndi şəhərinin mərkəzi meydanında yandırılması, Bakının memarlıq incilərindən olan Opera və Balet Teatrı binasında yanğınlar törədilməsi, Yasamal yaşayış sahəsində doqquzmərtəbəli yaşayış evinin partladılması, 106 saylı avtobusa partlayıcı paket qoyulması kimi cinayət hadisələrinin motivləri senzuranın hakim olduğu bir şəraitdə sovet KİV-ləri tərəfindən ictimaiyyətə açıqlanmasa da, bütün bunlar ümumxalq rəyində erməni-daşnak faşistlərinin Azərbaycan xalqına qarşı törətdiyi növbəti terror aktları kimi başa düşülürdü.

Nəhayət, 80-ci illərin ikinci yarısında Sovetlər Birliyində baş verən çatlar və boşalmalar erməni-daşnak faşist ideologiyasının Ermənistan SSR-də tam dövlətləşməsinə geniş meydan açdı və Daşnaksutyun bu imkanı əldən vermədi. 1988-1989-cu illərdə 450 nəfərin qətlini törətməklə köməksiz və müdafiəsiz qalmış 265 min azərbaycanlı əhalisi son nəfərinədək və 20 milyard dollar dəyərində əmlakı əlindən alınaraq Ermənistan SSR-nin ərazisindən zor gücünə çıxarıldı. Sırf azərbaycanlılar yaşayan 172 kənd sahibsiz qaldı. Bununla da, SSRİ-nin mövcudluğu ərzində Azərbaycan xalqı tarixi etnik torpaqlarında müasir Ermənistan Respublikasının ərazisində mövcud olan yaşayış məskənlərinin sayından iki qat artıq doğma od-ocağını itirdi. İki əsr bundan öncə bir dənə də olsun erməni mənşəli yer-yurd, dərə-təpə, dağ-düz, çay, göl adına rast gəlinməyən bir torpaqda indi bir dənə də olsun türk mənşəli toponim tapa bilməzsən. Bütün tarixi adlar erməni-daşnak faşizminin həyata keçirdiyi tarixi bir cinayətin - adların kütləvi şəkildə erməniləşdirilməsi aksiyasının qurbanına çevrildi.

Qərbi Azərbaycanı bütövlükdə mənimsəməklə kifayətlənməyən erməni-daşnak faşistləri Ermənistan SSR Ali Sovetinə 15 iyun 1988-ci ildə Azərbaycan SSR-nin ayrılmaz tərkib hissəsi olan DQMV-nin Ermənistan SSR-ə qatılması, 01 dekabr 1989-cu ildə isə Ermənistan SSR ilə DQMV-nin birləşdirilməsi haqqında heç bir beynəlxalq hüquq normalarına sığmayan qeyri-konstitusion qərarlar qəbul etdirməklə, əslində Azərbaycan SSR-ə qarşı açıq şəkildə elan olunmamış təcavüzkarlıq müharibəsinə başladı. Rus müstəmləkəçilərinin təmənnasız hərbi yardımı və ölkə xaricində fəaliyyət göstərən çoxsaylı erməni diasporunun vəsaiti hesabına dişinədək silahlanmış daşnak terror qruplaşmaları nəinki sərhəd rayonlarında və DQMV-də, demək olar ki, Azərbaycan SSR-in bütün ərazisində terror müharibəsinə başladı. Yeraltı, yerüstü nəqliyyatları, körpü, bina və qurğuları

partlatmaqla kifayətlənmədilər, dəniz, səma demədilər, Azərbaycanı özlərinə məxsus vəhşiliklə lokal terror leysanına qərq etdilər.

22 fevral 1988-ci ildə Əsgəran qəsəbəsində dinc yürüş iştirakçısı olan iki azərbaycanlı gənc daşnak terrorçuları tərəfindən güllələndi; 1990-cı il mart ayının 24-də Qazax rayonunun Bağanis Ayrım kəndində yuxarı yaş həddi səksən, aşağı həddi ikiaylıq olan bir ailə qocasından beləkdəki körpəsinədək diri-diri yandırıldı; 30 noyabr 1990-cı ildə Xanlar rayonunun ermənilər yaşayan Martunaşen kəndinə sülh danışığına gedən ictimaiyyət nümayəndələri terrorçular tərəfindən atəşlə qarşılandı. Səkkiz nəfərlik elçinin 4 nəfəri qətlə yetirildi. İkisi yaralandı, ikisi girov götürüldü. Girovlardan biri sonra işgəncə ilə öldürüldü; 16 sentyabr 1989-cu ildə «Tiflis-Bakı», 13 fevral 1990-cı ildə «Şuşa-Bakı», 10 avqust 1990-cı ildə «Tiflis-Ağdam» marşrutu ilə hərəkət edən sərnişin avtobusları partladıldı, 25 nəfər həlak oldu, 68 nəfər yaralandı; 30 may, 31 iyul 1991, 13 aprel 1994-cü ildə «Moskva-Bakı», 28 fevral 1993, 01 fevral 1994-cü ildə «Kislovodsk-Bakı» sərnişin qatarlarında partlayışlar törədildi, 47 nəfər həlak oldu, 83 nəfər yaralandı; 19 mart 1994-cü ildə Bakı metropoliteninin «20 Yanvar», 3 iyul 1994-cü ildə isə «28 May» - «Gənclik» stansiyaları arasında elektrik qatarlarında partlayışlar törədildi, 27 nəfər həlak oldu, 91 nəfər müxtəlif dərəcəli bədən xəsarəti aldı; 8 yanvar 1992-ci ildə «Krasnovodsk-Bakı» marşrutu ilə sərnişin daşıyan dəniz bərəsində törədilən terror aktında 25 nəfər həlak oldu, 88 nəfər yaralandı; 28 yanvar 1992-ci ildə «Ağdam-Şuşa» marşrutu ilə sərnişin daşıyan mülki vertolyot, 18 mart 1994-cü ildə İrana məxsus «Herkules» tipli təyyarə Xankəndi səmasında vuruldu, 78 nəfər həlak oldu; 20 noyabr 1991-ci ildə Azərbaycan Respublikası dövlət rəhbərlərinin və RF, QR-dan olan yüksək rütbəli hərbiçilərdən ibarət müşahidəçilər qrupunun sülhməramlı missiya ilə uçduğu Mİ-8 tipli vertolyotun Xocavənd rayonunun ermənilər yaşayan Qarakənd səmasında vurulması 22 nəfərlik bir heyətin həyatına son qoydu; 11 iyun 1990-cı ildə Kəlbəcərə mülki yük və sərnişin aparan avtomobil karvanına Ağdərə rayonunun ermənilər yaşayan Getavan və Çərəkdar kəndləri arasında basqın edildi, 3 nəfər həlak oldu, 23 nəfər yaralandı; 15 dekabr 1990-cı ildə Əsgəran rayonunun Cəmilli-Kosalar kəndləri arasında 3 nəfər kəndli, 9 yanvar 1991-ci ildə Qaladərəsi-Şuşa yolunda «Molodyoj Azərbaydjana» qəzetinin qadın müxbiri Salatın Əsgərova, 18 aprel 1991-ci ildə Xocavənd rayonunun Amaras kilsəsi yaxınlığında 3 nəfər mühafizə keşikçisi, 1991-ci il iyun ayının 27-dən 28-nə keçən gecə Xocavənd rayonunun Qaradağlı kəndində 6 nəfər dinc sakin qətlə yetirildi. Naxçıvan MSSR, Zəngilan, Qubadlı, Laçın, Kəlbəcər, Gədəbəy, Qazax kimi Ermənistanla həmsərhəd, habelə DQMV ərazisində və ona bitişik rayonlarda erməni-daşnak faşistlərinin törətdiyi qətl hadisələrindən yetərincə sadalamaq olar.

Cəzasızlıq şəraiti, 1990-cı ildə sovet ordusunun Bakıya yeridilməsi, 20 Yanvar qırğınının törədilməsi və Azərbaycan SSR ərazisində hərbi vəziyyət elan edilməsi birmənalı şəkildə daşnak silahlı qruplaşmalarının azğınlığını birə on artırdı. AR-nın öz müstəqilliyini elan etməsi, MDB-dən çıxmasıyla Ermənistan

SSR ərazisindəki 7-ci ordunun ayrı-ayrı hissələri və DQMV-də yerləşən 366-cı motoatıcı alay daşnak terrorçularından ibarət silahlı qruplaşmaların tərəfinə keçməsi ilə müşayiət olundu. Ermənistanla həmsərhəd və DQMV ərazisindəki azərbaycanlı kəndləri davamlı olaraq top və raket atəşlərinə tutuldu. Əsrin faciəsi adlanan Xocalı soyqırımı xüsusi qəddarlıqla bu və ya başqa şəkildə Qarabağın 900 yaşayış məntəqəsində təkrar edildi, 30 min günahsız, dinc azərbaycanlı, ələlxüsus qocalar, qadınlar və uşaqlar raket, mərmi, mina partlayışlarından həlak oldular. Ev-eşiyini tərk etmək istəməyən 4 min nəfər azərbaycanlı daşnak quldurlarının gülləsinə hədəf seçildi, 5 mini isə girov götürüldü. 50 min azərbaycanlı şikəst edildi. AR-nın 20% torpağı işğala məruz qaldı. Bir nəfər azərbaycanlıya belə öz doğma ocağı başında qalıb yaşamasına aman verilmədi. Ana yurdundan qoparılan 1000000 günahsız, dinc azərbaycan türkü erməni-daşnak faşizminin etnik təmizləmə və soyqırımı siyasətinin günahsız qurbanlarına çevrildi.

Bu gün bir milyon azərbaycanlı qaçqın və məcburi köçkün artıq 15 ilə yaxındır ki, ehtiyat dəmiryol relsləri üstündəki sınıq-salxaq yük vaqonlarında, qışlaqlardakı mal-qara tövlələrində, yol kənarlarındakı torpaq qazmalarda, çadır şəhərciklərində, fin qəsəbələrində, məktəbli düşərgələrində, uşaq bağçalarında, klub və yataqxanalarda, ümumiyyətlə, yaşayış üçün nəzərdə tutulmayan ictimai malikanələrdə və tikintisi yarımçıq qalmış binalarda ağır, dəhşətli və məşəqqətli həyat tərzi keçirməyə və məhv edilməyə məhkum olunmuşlar. Qaçqınların hədsiz yoxsulluq şəraitində yaşamaları ilə razılaşmaq və ya onların ölümsaçan xəstəlikləri ilə barışmaq qeyri-mümkündür. Yaşından asılı olmayaraq yatağa düşən qaçqının sağalıb həyata qayıtma ehtimalı sıfır rəqəmi ilə ölçülür. Əslində bu aksiyanın özü dünya ictimaiyyətinin gözü qarşısında erməni-daşnak faşizminin azərbaycanlıların soyqırımı siyasətini dolayısı ilə davam etdirməsinin iyrənc bir təzahür formasıdır.

Təəssüflə qeyd edirəm ki, təcavüzkar ER hələ də BMT Nizamnaməsinin, ərazilərin toxunulmazlığı haqqındakı 1967-ci il Konvensiyasının, BMT TŞ-nın işğalçı qüvvələrin AR-nın ayrı-ayrı rayonlarından qeyd-şərtsiz çıxarılmasına dair 722, 753, 774 və 784 saylı qətnamələrinin tələblərinə məhəl qoymur. Bu inadkarlığın müqabilində BMT-nin təcavüzkara təsir və təzyiq vasitəsi kimi heç də az kəsəri olmayan sanksiyalar silahından istifadə etməməsinə heç cür haqq qazandırmaq olmur. Azərbaycan-Ermənistan münaqişəsinin sülh yolu ilə həllini öhdəsinə götürmüş ATƏT-in Minsk qrupunun həmsədrləri olan ABŞ, RF və Fransanın təcavüzkarla təcavüzə məruz qalanı bərabər tutmaları azmış kimi, təcavüzkara gözgörəti üstünlük vermələri, AR-na qarşı ən böyük diskriminasiya nümayiş etdirmələri, ikili deyil, bəzən üçəm, dördəm standartlarla münasibət göstərmələri bizdə ancaq ikrah hissi doğurur. Görün iş nə yerə çatmışdır ki, ABŞ, Fransa kimi qüdrətli dövlətlərdə keçirilən prezident və parlament seçkiləri Azərbaycan torpaqlarının Ermənistana ilhaq edilməsinə maraq və Azərbaycan xalqının mənafelərinin tapdanması prinsiplərinə uzlaşdırılır. Prezident və ya millət vəkili seçilmək istəyən kimsə səs qazanmaq üçün siyasi qumarbazlığa baş vurur.

Erməni diasporunun fəaliyyət göstərdiyi dairələrdən səs toplamaq üçün onların daşnak tələblərini yerinə yetirəcəklərinə bəri başdan söz verir və ya öz üzərlərinə müəyyən öhdəliklər götürməli olurlar. Bütün bu siyasi möhtəkirliklərin nəticəsidir ki, ABŞ konqresi təcavüzkar ER-nı himayə, AR-na isə humanitar yardımı qadağan edən 907-ci düzəlişin ləğvini yubadır, icra müddətini ildən-ilə uzadaraq əsrdən-əsrə adladır. Fransa senatı isə daşnak ideologiyasına yoluxur. Tarixi həqiqətlərə göz yumaraq erməni diasporunun təzyiqi altında 90-100 il bundan öncə Osmanlı dövlətinin öz vətəndaşlarının qırğınının qarşısını almaq, təhlükəsizliyini təmin etmək üçün rus müstəmləkəçilərinin tərəfinə keçib satqınlıq və xəyanətkarlıq zəminində qətllər törədən, türk dövlətini parçalamaq istəyən silahlı daşnak qruplaşmalarının ləğvi ilə bağlı apardığı mübarizəyə erməni soyqırımı adı verir. Lakin bu gün erməni-daşnak faşizminin dünya ictimaiyyətinin gözü qarşısında azərbaycanlılara qarşı apardığı etnik təmizləmə və soyqırım siyasətini görmək istəmir. Üçüncü həmsədr - RF hərtərəfli qaydada ER ilə hərbi əməkdaşlığa girir. Təcavüzkara təmənnasız olaraq bir milyard dollar dəyərində silah-sursat, «SKAT-300» raketləri və qırıcı təyyarə eskadronu verir. Üstəlik GR-dan çıxardığı hərbi bazalarının canlı qüvvəsini və ağır texnikasını ER-na, oradan isə AR-nın işğal olunmuş ərazilərinə keçirir.

Biz ABŞ, RF və Fransa kimi fövqəlbəşər, dünyanın super dövlətləri tərəfindən erməni-daşnak faşizminin təqdir və himayə olunmasına insanlığa, insan ləyaqətinə təhqir aktı kimi baxırıq. Bu ölkələrin hegemonluq və xristianlıq mistikasına uymuş siyasət dəllalları başa düşmək istəmirlər ki, daşnak ideologiyası faşizmin ali irq təbliğatından daha məkrli, daha qorxulu virusdur. Bu ideologiya təkcə azərbaycanlılara qarşı soyqırımı aparmaq, etnik təmizləmə siyasətini həyata keçirmək, 8 milyonluq azərbaycan xalqını tarix səhnəsindən silib atmaq istəmir, həm də erməni xalqını bütövlükdə bəşəri cinayət törətməyə sövq və məcbur edir. Canlılar aləminə xas olmayan bir instinkti qaytarmağa çalışır, öz həmcinsinin qanını tökmək və içmək psixologiyası aşılamağı təşviq edir. Erməni-daşnak faşistləri insanlıq hissini itirməyən, onların tələblərinə əməl etməyən, sağlam düşüncə nümayiş etdirən soydaşlarını belə qətlə yetirməkdən çəkinmirlər. Hətta faşizmin klassik, milli əleyhdarlarına qarşı yönəltdikləri gizli, kütləvi terror aktlarından milli münaqişələrin törədilməsi və millətlərarası ədavətin qızışdırılmasından bir üsul, bir vasitə kimi istifadə edirlər (28 fevral 1988-ci ildə gənc, beynəlmiləl sovet şəhəri olan Sumqayıtda 26 erməninin qətli məhz bu məqsədlə, əvvəlcədən hazırlanmış plan əsasında törədilmişdi. Daşnak terrorçusu Eduard Qriqoryanın rəhbərlik etdiyi qrupun təhriki, fitvası və bilavasitə iştirakı ilə qətlə yetirilən 26 ermənidən heç biri nə Daşnaksutyunun üzvü, nə də «Böyük Ermənistan» yaratmaq xülyasına uyan kimsə olmamışdır. Heç biri zaman-zaman bu kampaniya uğrunda yığılan fonda Daşnaksutyunun tələb etdiyi vəsaiti ödəməmişdir).

Sülh, əmin-amanlıq faşizmin dağıdıcı, şərə hamilə xislətinə yaddır. Daşnaksutyun milli ideologiya səviyyəsinə qaldırdığı faşist ideologiyasının təməlində dünyanın yenidən düşmən cəbhələrə bölünməsini təmin edəcək məkrli, hiyləgər, xudbin bir niyyət durur. Sovetlər Birliyinin çökməsi ilə soyuq müharibə doğuran iki siyasi sistemin qarşıdurmasından yenicə azad olmuş anamız dünya indi də xristian-islam qarşıdurmasına doğru sürüklənir.

Mən anamız dünyanın şər qüvvələrdən xilasını - bəşəriyyəti qanlı müharibələrə sürükləyən ideologiyaların qidalandıqları beşiyin başındaca məhv edilməsində görürəm. Odur ki, AR-nın Qarabağ vilayətini, etnik ermənilər yaşayan dağlıq və bundan da üç dəfə geniş, lakin bu gün bir nəfər erməninin yaşamadığı ərazisini işğal altında saxlayan, bir milyon azərbaycanlı qaçqının hüquq və mənafelərini, şərəf və ləyaqətini vəhşicəsinə tapdalayan, erməni-daşnak faşizminin əsirinə çevrilmiş ER-nın təcavüzkar, separatizmi və beynəlxalq terrorçuluğu dəstəkləyən bir dövlət olmasını bir daha dünya xalqlarının nəzər-diqqətinə çatdırmaq istəyirəm.

Mən, dünya xalqlarını varlığımızı qorumağa və yaşamaq uğrunda apardığımız ədalətli mübarizəyə kömək etməyə, qaçqınların ana yurdlarına qaytarılmasına, ədalət və humanizm naminə bizə yardımçı olmağa, haqq səsimizi eşitməyə çağırıram.

Biz erməni-daşnak faşizminə ölüm diləyirik!

Bizim mübarizəmizin bir devizi vardır:

- Qoy bəşəriyyət rahat nəfəs alsın!

## YAZIÇT-PUBLİSİST ƏLİSAHİB ƏROĞULUN ÇOXMİLYONLU RUS XALQINA

## MÜRACİƏTİ

Möhtərəm, sabiq həmvətənlər!

Mən, Rusiyanın Azərbaycan xalqının tarixi inkişafında, onun ictimai-iqtisadi, siyasi və mədəni həyatında böyük rol oynamasını heç vaxt inkar etməmişəm. Əksinə maarifçiliyin, elmi və demokratik ideyaların inkişafında rus mütəfəkkirlərinin, qabaqcıl ziyalılarının, elm və mədəniyyət xadimlərinin təkanverici təsirindən, maarifpərvər rolundan qürur hissiylə danışmışam. İctimai fikir tariximizdə Rusiyanın xüsusi yer tutmasından, rus klassiklərinin aparıcı, realist və mütərəqqi təcrübəsindən həmişə bəhrələnməyimizdən, istifadə etməyimizdən, daim mənəvi qida almağımızdan geniş yazmışam. Rus dilini ikinci ana dilimiz kimi yüksək qiymətləndirmişik. Günü bu gün də, müstəqil respublikamızda rusdilli məktəblərin inkişaf etdirilməsi, hətta onların sayının sovet dönəmindəki səviyyədən aşağı düşməməsi, rus dilinin dövlət dili olan Azərbaycan

dili ilə yanaşı işlədilməsi rus dilinə, rus xalqına, onun elminə, mədəniyyətinə göstərilən diqqətin, hüsn-rəğbətin dəyər ölçüsü ola bilər.

Mən əsrlərdən bəri davam edən Azərbaycan-Rusiya əlaqələrinin hər hansı bir səbəbdən kəsilə biləcəyinə, qarşılıqlı etimadın nə vaxtsa tükənəcəyinə qətiyyən bir əsas görmürəm. Məhz bu etibar, etimad və ehtiramın yaratdığı bir ovqatın, fikir təminatının təsiri altında Ermənistan-Azərbaycan-Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqəti, tarix səhifələrində baş vermiş bir çox hadisələri yada salmağı, çoxmilyonlu rus xalqına müraciət etməyi özümə rəva bilirəm. Çünki erməni məsələsinin köklərinə yaxından bələd olmadan, dəqiq və tam öyrənmədən, qəzet uydurmalarına, televiziya kanallarının birtərəfli və qərəzli təbliğatına aldananların nəinki Azərbaycan, həmçinin erməni xalqının özünün cəlladına çevrilmiş daşnak faşistlərinin və «Böyük Ermənistan» ideoloqlarının təşviq etdikləri şeytan felinə uymamaları qeyri-mümkündür. Hələ də XX əsrdə başdan-başa azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı siyasətini aparan erməni-daşnak faşistləri günü bu gün də Rusiyanın mətbuat və digər informasiya kanalları vasitəsi ilə öz yalanlarını, gerçəkliklə heç bir əlaqəsi olmayan uydurmalarını, riyakar, saxta tarixlərinə dair şərhlərini MDB məkanında sərbəst yayırlar. Ermənilərin və onların muzdlu nökərlərinin, erməni təəssübkeşlərinin qərəzli səyi ilə hələ də, ABŞ, Fransa kimi qüdrətli dövlətlərin KİV-lərinə yalan və böhtan axını davam edir. Azərbaycan isə Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması yolunda Rusiya və digər Qərbi Avropa KİV-lərinin böyük maneçilikləri ilə üz-üzə gəlir. Erməni məkri ictimai fikirdə nə qədər dərinə işləyirsə, azərbaycanlıların kövrək sadəlövhlüyü bir o qədər üzdə qalır. Əlbəttə, ancaq haqqı dananlar, utanmağın, həyanın nə olduğu bilməyənlər həqiqəti inkar edə bilərlər. Erməni məsələsində qərəzsiz olmaq üçün bu məsələyə məkrli erməni mövqeyindən yanaşmaq yolverilməzdir. Azərbaycan xalqı daşnak sərsəmliyinə uyan və satılan rus və Qərbi Avropa KİV-lərinin iftiralarına layiq deyildir.

Açıq etiraf etmək lazımdır ki, 200 ildir ki, Rusiyanın hakim dairələri erməni-azərbaycanlı münaqişəsində haqlıya-haqqını, haqsıza-həddini tanıtmaq əvəzinə «Böyük Ermənistan» xülyasını qızışdırmaqla, Qafqazda süni erməni dövləti yaratmaqla məşğul olublar. Erməni məsələsi ilk dəfə Türkiyədə qaldırılsa da, Azərbaycana çar Rusiyası tərəfindən gətirilib. İnkarolunmaz tarixi faktlar göstərir ki, çar orduları Qafqazı işğal edərkən ermənilərin xəyanət və satqınlığından kifayət qədər bəhrələniblər. Cənubi Qafqazda bir qarış torpağı olmayan, əzəli torpaqları Türkiyə və İran ərazilərində olan ermənilər isə bu «xidmətləri» müqabilində Qafqazda, daha doğrusu, Qərbi Azərbaycanda erməni dövləti qurmağa müvəffəq olublar.

Ümumiyyətlə, ermənilərin Cənubi Qafqaza əsasən XIX əsrdə gəlmə xalq olduğunu təsdiq edən tarixi faktlar, qərəzsiz rəsmi statistika inandırıcı və sənədli sübutlardır. Erməni müəllifi B.İşxanyan 1916-cı ildə S.Peterburqda dərc etdirdiyi «Qafqaz xalqları» adlı kitabında yazır: «Ermənilərin Böyük Ermənistan

adlı həqiqi vətəni, Rusiyanın hüquqlarından kənarda, daha doğrusu, Kiçik Asiyada yerləşir». Ermənilərin Qafqaza gəlmə xalq olduğunu təsdiqləyən istənilən sayda faktlar göstərmək olar. Bunlardan ancaq ikisini qeyd etmək yetərlidir. Birinci, 1829-cu ildə, Rusiya işğalından bir il sonra belə İrəvan şəhərində əhalinin 95%-ni azərbaycanlılar təşkil etmişdir. İkinci, bu gün Ermənistan Respublikasının inzibati-ərazi bölgüsünü təşkil edən 36 rayonun 33-də 1918-ci ilədək sırf azərbaycanlılar yaşamış, ancaq üçünün əhalisi qarışıq olmuşdur. Zaman keçdikcə Qərbi Azərbaycanda əhalinin milli tərkibinin ermənilərin xeyrinə dəyişməsi ancaq və ancaq çar Rusiyası tərəfindən ermənilərin bu ərazilərə məqsədli şəkildə köçürülməsi, Sovet Rusiyasının qərəzli antitürk siyasəti yürütməsi sayəsində mümkün olmuşdur. Rus tarixçisi N.N.Şavrov yazır: «Biz 1828-ci ildən 1830-cu ilədək Zaqafqaziyaya 40 mindən çox fars, 84 min türk ermənisi köçürmüşük. Onları erməni əhalisinin az olduğu Yelizavetpol (Gəncə) və İrəvan quberniyalarındakı (Qərbi Azərbaycan) ən yaxşı dövlət torpaqlarında yerləşdirmişik. Bu məqsədlə 200 min desyatin dövlət torpağı ayrılmış, müsəlmanlardan (azərbaycanlılardan) 2 milyon manatlıqdan çox torpaq satın alınmışdır. Bu ermənilər Yelizavetpol quberniyasının dağlıq hissəsində (Qarabağ) və Göyçə (Sevan) gölünün sahillərində yerləşdirilmişdir. Köçənlərin sayı rəsmi məlumata görə 124 min olmasına baxmayaraq, əslində onların sayı 200 mini keçmişdir». Rəsmi statistika göstərir ki, 1820-1920-ci illər ərzində Qərbi Azərbaycana 600 min erməni əhalisi köçürülmüşdü. Bolşevik istilasının Qərbi Azərbaycanda yaratmış olduğu Ermənistan SSR adlı süni qurumdan sonra ermənilərin Ermənistan SSR-ə repatriasiyası adı altında köçürülmə prosesi daha da intensivləşdirilmişdi. 1922-ci ildə Mesopotamiyadan 9 min erməni, 1925-1926-cı illərdə 20 min, 1926-29-cu illərdə 6 min, 1930-36-cı illərdə 42 min erməni İran, Türkiyə Yunanıstan, Fransa, Suriya və Livandan Ermənistan SSR-ə köçürülmüşdür. Bu proses Sovetlər Birliyinin süqutunadək mərhələ-mərhələ davam etdirilmiş və bu gün də davam etməkdədir. Ermənilərin Qafqaza ayaq basdığı gündən isə yerli, aborigen, heç bir günahı olmayan azərbaycanlıların basqına, zülmə, zorakılığa, qırğına məruz qalması, ana yurdundan sıxışdırılıb çıxarılması, qovulması, soyqırıma düçar edilməsi Azərbaycan tarixinin qanlı səhifəsinə çevrildi.

1905-1907 və 1918-20-ci illərdə daşnak faşistləri azərbaycanlılara qarşı kütləvi qırğınlar törətdilər. Güdülən məqsəd - bölgədə erməni dövləti qurmaq üçün azərbaycanlıları məhv etmək, son nəfərinədək qırıb qurtarmaq idi. Bu minvalla 1820-1920-ci illəri əhatə edən yüz il ərzində iki milyon azərbaycanlı milli mənsubiyyətinə görə öz ana yurdundan qovulmuş və ya məhv edilmişdir. Daşnakların Azərbaycan xalqına qarşı yönəlmiş bu çirkin, qeyri-humanist və qeyri-insani aksiyalarını Sovet Rusiyası öz qırmızı terroru vasitəsi ilə daha da dərinləşdirdi, düşünülmüş və sistemli şəkildə davam etdirdi.

1920-30-cu illərdə 100 min Ermənistan azərbaycanlısı repressiyaya məruz qaldı. Təkcə 1937-1938-ci illərdə bolşevik maskası taxmış daşnak Mikoyanın dezinformasiyası (guya Ermənistan azərbaycanlıları Türkiyəyə köçmək istəyir) nəticəsində 50 min azərbaycanlı Qazaxıstana sürgün edildi. 1948-1953-cü illərdə xaricdən gələn ermənilərin Ermənistan SSR-də yerləşdirilməsi bəhanəsi ilə 150 min azərbaycanlının insan hüquqları cinayətkarcasına pozuldu. Onlar antikonstitusion, beynəlxalq hüquq normalarına zidd şəkildə Azərbaycan SSR-yə köçürüldülər. Bu tədbir SSRİ hökuməti tərəfindən dövlət səviyyəsində həyata keçirilən, milli mənsubiyyətə görə etnik təmizləmə aksiyası idi.

Daşnak ideoloqlarının hər hansı bir sərsəmliyini SSRİ-nin hökumət rəhbərlərinin qeyd-şərtsiz qəbul etmələrini, 1965-ci ildə uydurma erməni soyqırımının 50 illiyinin Ermənistan SSR-də qeyd edilməsinə icazə vermələrini heç cür qavramaq olmur. Əgər bu tanınma türk düşmənçiliyi və siyasi möhtəkirlik naminə edilsə də, mübaliğəsiz demək olar ki, ermənilər üçün milli əlahiddəlik şəraitinin yaradılmasına, daşnak faşizminin dirçəlməsinə rəvac verilməsi, dünyaya meydan oxuyan Sovetlər Birliyinin daxildən çat atmasına və 1991-ci ildə çökməsinə təsir göstərən həlledici amillərdən biri idi. Deyirlər ədalətin ən etibarlı zəmanətçisini dövlətdə tapmaq insanın son ümid yeridir. Əfsuslar olsun ki, 200 ilə yaxın bir müddətdə Rusiyanın hakimiyyəti altında qalmış azərbaycanlılar son ümid yerini bir qayda olaraq itiriblər. Bu illər ərzində ermənilər dəfələrlə azərbaycanlıları kütləvi surətdə öldürüb, qırıb, ana yurdlarından zorakılıqla qovub çıxarıblar. Azərbaycanlılar cinayətkar qonşularına cavab vermək istəyəndə, buna qarşı tədbir görəndə rus əsgərləri və rus silahları işə düşüb, azərbaycanlıların qarşısına sədd çəkiblər. Ermənilərin tərəfini saxlayıb, ermənilərə arxa-dayaq durublar. Çoxsaylı yalanları ilə dünyanı aldadan, insanlığa düşmən kəsilən, insanı insana qırdırmağı, qonşunu qonşuya öldürməyi təbliğ edən daşnak faşist ideologiyasını bitərəfli qaydada müdafiə ediblər. Bu acı həqiqət biz nəsillərin gözü qaşısında bir daha təkrarlanıbdı.

Belə ki, 1988-ci ildə Ermənistan SSR-də neofaşist daşnak qruplaşmalarının açıq-aşkar baş qaldırmasına göz yumuldu, Qarabağda bir ovuc yaraqlının separatizmi dəstəkləndi, Azərbaycan xalqına qarşı xəyanət etmələri dövlət hüquq qanunları ilə ittiham edilməli olduğu halda, SSRİ hökuməti aşkarlıq və demokratiya pərdəsi altında erməni tərəfinin mövqeyini müdafiə etdi. Ermənistan SSR ərazisindəki 7-ci ordunun komandanı, erməni mənşəli rus generalı Samsonov sələflərinin yolunu davam etdirdi. Azğınlaşmış silahlı erməni-daşnak terror qruplaşmaları 1988-ci ilin yanvar ayından dekabr ayınadək 265 min dinc, əliyalın, günahsız Ermənistan azərbaycanlısını zorakılıqla neçə minilliklərdən bəri məskun olduqları ana yurdlarından qovdular. Etnik təmizləmə zamanı ev-eşiyini tərk etmək istəməyən 450 nəfər azərbaycanlı qətlə yetirildi. Cinayətkarların şəxsiyyəti tam məlum olsa da, onlardan heç biri SSRİ-nin hüquq mühafizə orqanları tərəfindən cinayət məsuliyyətinə cəlb edilmədilər.

Mitinqlər və küçə yürüşləri ilə haqqını tələb edən Azərbaycan xalqına qarşı həmişə qərəzli siyasət yeridən Kreml yenə də öz tarixi mövqeyini təkrar bildirdi. SSRİ Müdafiə naziri, ordu generalı Yazovun komandanlığı altında sovet ordusunun, xüsusi təyinatlı dəstələrin və daxili qoşunların iri kontingenti 1990-cı il yanvar ayının 19-dan 20-sinə keçən gecə fövqəladə vəziyyət elan edilmədən Bakıya yeridildi. Xüsusi qəddarlıq və misli görünməyən vəhşiliklərlə törədilən qanlı yanvar qırğını uzun illərdən bəri beynimizə sülh və əmin-amanlıq keşikçisi kimi təbliğ edilən, yeridilən rus əsgərlərinə qarşı olan son hörmət və inam hissimizi bir gecədə puç etdi.

1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə daşnak silahlıları Xankəndində yerləşən, RF-na məxsus 336-cı motoatıcı alayın hərbi texnikasının və canlı qüvvələrinin köməyi ilə Xocalı soyqırımını törətdilər. Daşnak terror qruplaşmaları ilə yanaşı bu dəhşətli və müdhiş cinayətdə iştirak etmiş alayın zabit, gizir və əsgərləri hərbi cani kimi hələ də öz cəzalarına çatmamışlar.

Təəssüf hissi ilə qeyd edirəm ki, bu gün Azərbaycan Respublikasının müstəqilliyinə və varlığına qəsd kimi ortaya atılmış Qarabağ münaqişəsinin ədalətli həllində RF ən böyük diskriminasiya nümayiş etdirən dövlət kimi çıxış edir. Rusiyasız heç bir gücə malik olmayan ER məhz bu dəstəkdən güc alaraq AR-nın 20% torpaqlarını işğal altından saxlayır. Bir milyon qaçqını etnik təmizləmə siyasətinin girovlarına çevirməklə Dağlıq Qarabağı öz ərazisinə birləşdirmək istəyir. Halbuki Qarabağ ulu tarixin heç bir dönəmində erməni torpağı olmamışdır. Bunun üçün tarixin yaddaşını oyatmaq kifayət edər: rus tarixçisi N.Dubrovinin məlumatına görə 1795-97-ci illərdə Qarabağda 60 min ailə mövcud olmuşdursa, 1913-cü ildə vur-tut 3080 ailə qalmışdı. Bu ərazilərin çar Rusiyasının və İranın işğalçılıq müharibələrinin savaş meydanına çevrilməsi nəticəsində əhali 20 dəfə azalmış, Qarabağ xarabazarlığa çevrilmişdi. Bu isə ermənilərin Qarabağa köçürülməsinə tam hazırlıq demək idi; Qarabağın mərkəzi şəhəri Şuşada rus kilsəsi XIX əsrin birinci yarısında tikildiyi halda, erməni kilsəsi XIX əsrin ikinci yarısında inşa edilmişdir; Şuşa şəhərində erməni məhəlləsi 1830-cu ildə, Azərbaycanın Rusiya tərəfindən işğalının tam başa çatdırılmasından sonra salınmışdı.

Bu gün Qarabağ ermənilərinin mərkəzi şəhəri sayılan Xankəndinə ilk erməni ailəsi nökər qismində gəlmişdir. Çoxsaylı ailələr isə 1923-cü ildə, Lenin milli siyasətinin ziddinə olaraq Azərbaycan ərazisində ikinci bir süni erməni qurumu yaradıldıqdan sonra köçürülmüşdür.

Tarixi ədalətsizliklər, xüsusilə əhalinin milli tərkibinin süni surətdə azaldılıb-artırılması sovet dönəmində antitürk siyasəti zəminində daha eybəcər şəkildə davam etdirilmişdi. Belə ki, 1920-ci ildə 50 min əhalisi olan Şuşada 1988-ci ildə cəmi 13 min əhali qeydə alınmışdır. 1920-ci ildə cəmi 1500 nəfərin yaşadığı Xankəndi isə bu illər ərzində əksəriyyətini ermənilər təşkil edən 50 minlik əhalisi olan bir şəhərə çevrilmişdi.

Bu gün Şuşanı riyakarcasına erməni mədəniyyət mərkəzi və ya erməni şəhəri adlandıran erməni-daşnak faşistləri fakt olaraq Qarabağda ədəbi-mədəni hadisəyə səbəb ola bilən bir nəfər belə Şuşada doğulan erməni yazıçısının, mədəniyyət və ya elm xadiminin adını çəkməkdə acizdilər. Azərbaycanlılar isə Şuşanı Qafqazın konservatoriyası adlandırırlar. Şuşa - Ü.Hacıbəyov, S.Ələsgərov, Ə.Bədəlbəyli, Niyazi, Bülbül, R.Behbudov, Cabbar Qaryağdıoğlu, Xan Şuşinski kimi dünya şöhrətli bəstəkar və müğənnilərin, M.P.Vaqif, Q.Zakir, M.M.Nəvvab, X.Natəvan, N.Vəzirov, Ə.Ağayev, Ə.Haqverdiyev, Y.V.Çəmənzəminli, E.Köçərli kimi şair və dramaturqlarımızın, ədəbiyyat korifeylərimizin Vətəni sayılır. Bütün bunlar göstərir ki, bu gün Qarabağla bağlı Ermənistanın torpaq iddiasının heç bir hüquqi əsası yoxdur. Təkzibolunmaz faktları ört-basdır etməklə və gizlətməklə saxta tarix yazanların ünvanına deyiləcək ifşaedici bir sözüm vardır: Böhtançıda məntiq olmaz. Onun silahı ancaq zor ola bilər!

Bu gün mən ötən iki əsrin keşməkeşində bu zora məruz qalan Azərbaycan xalqının dözülməz və dəhşətli həyat tərzi keçirən bir milyon qaçqının adından çoxmilyonlu rus xalqına müraciət etmək, sadəliyinə və səmimiyyətinə həmişə qibtə etdiyim rus xalqının diqqətini Domokl qılıncı kimi başımızın üstündən asılmış Qarabağ münaqişəsinə cəlb etmək qərarına gəldim.

Bu gün biz tariximizin ən məsul, ağır, çətin və sınaqlı bir dövrünü yaşayırıq. Təcavüzkar, separatizmi və beynəlxalq terroru dəstəkləyən Ermənistan dövləti tərəfindən məcburən qanlı müharibəyə cəlb olunmuşuq. Ağlı başında olan hər kəs dərk edir ki, burada söhbət 60-70 minlik Qarabağ ermənisinin müstəqil dövlət qurmasından, öz müqəddəratını təyin etmək hüququnun müdafiə edilməsindən deyil, erməni diasporunun at oynatdığı super dövlətlərin siyasi möhtəkirliklə Azərbaycan xalqına qarşı yönəldilmiş siyasi düşmənçilik pərdəsi altında Dağlıq Qarabağ torpaqlarının və onu anklavdan qurtaran Laçın və Şuşa rayonları ərazilərinin Ermənistan Respublikasına ilhaq edilməsindən gedir. Söhbət bu ərazilərlə heç bir əlaqəsi olmayan Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı bölgələrini işğal altında saxlamaqla Azərbaycan Respublikasına edilən ədalətsiz, məkrli və hiyləgər, qərəzli təzyiqdən gedir. Heç kimə sirr deyildir ki, bu gün Ermənistanın dövlət rəhbərləri, prezident R.Köçəryan başda olmaqla müdafiə və hüquq mühafizə orqanlarının başçıları 1988-1994-cü illərdə Dağlıq Qarabağda separatizmə və beynəlxalq terrorçuluğa rəhbərlik etmişlər. Daşnak faşist ideologiyasının fəal təbliğatçıları, aparıcı və daşıyıcı, iştirakçı və pozucu nümayəndələri olmuşlar. Elə buna görə də onlar beynəlxalq hüquq normalarına hörmət etmir, beynəlxalq ictimaiyyətin tələblərinə məhəl qoymur, münaqişənin dinc yolla, ədalətli həllinə hər vasitəylə maneçilik törədirlər. Bütün hərəkət və davranışlarıyla sülh danışıqlarının uzadılması prinsipində maraqlı olduqlarını nümayiş etdirirlər. Riyakar danışıqlarıyla, özlərinə xas hiyləgərliklə bütün dünyanı aldada biləcəklərini güman edirlər. Onlar dərk etmək istəmirlər ki, qonşuya düşmənçilik etməklə özlərinə səadət sarayı ucaldanlar heç zaman xoşbəxtliyə

qovuşmamış, qızıl teştə qan qusmalı olmuşlar. Qonşuya düşmənçilik edənlər, qonşunun düşmənini özünə həmməslək və müttəfiq seçənlər həmişə satqın və xəyanətkar adıyla damğalanmışlar.

Lakin məni bu sətirləri yazmağa vadar edən başlıca məsələ bir sıra suallara cavab axtarmaq, dialoqa girmək üçün müraciətimi rus xalqının mühakiməsinə vermək istəyimdir: Görəsən, tarixi keçmişin ibrət dərslərindən nəticə çıxarmayan RF rəhbərlərinin daşnak faşizmini dəstəkləməkdə, tarixin təkərini geri fırlatmaq təşəbbüsündən əl çəkməməkdə məqsədləri nədir?! Nə üçün RF Dağlıq Qarabağ probleminin həllində ümumdövlət prinsipi kimi sərsəm bir ideyanı ortaya atmaq və müdafiə etməklə Azərbaycan Respublikasının müstəqilliyinə və unitar dövlətçiliyinə düşməncəsinə sarsıdıcı zərbə vurmaq istəyir?! Nə üçün böyük rus xalqı onun adına ləkə gətirən, özlərini qaniçən və qatil tərəfdarları kimi göstərən parabeyin Jirinovski, daşnaklar tərəfindən satın alınmış Mitrafonov, Starovoytova və s. kimi yaramazların DD-na üzv seçilmələrinə imza atır?! Nə üçün özünü bizə dost kimi tanıdan rus siyasətçiləri, biznesmenləri, imkanlı iş adamları, bir sözlə, rus ictimaiyyətinin nümayəndələri tərəqqipərvər dünyadan fərqli olaraq Azərbaycan xalqının düşdüyü bəlaya biganəlik və diqqətsizlik göstərir?! Nə üçün keçən əsrdə çar və Sovet Rusiyasının havadarlığı və himayəsi altında erməni-daşnak faşizmi tərəfindən azərbaycanlıların zaman-zaman tarixi-etnik torpaqlarından qovulması, deportasiya edilməsi və soyqırıma məruz qalması çar və Sovet Rusiyasının varisi kimi çıxış edən RF tərəfindən etiraf olunmur və pislənmir?! Nə üçün sovet ordusu daşnak fitvasına uyaraq Böyük Vətən müharibəsində rus xalqının alman faşizminin qanlı caynağından qurtulmasında müstəsna rol oynamış, gecə-gündüz çalışaraq hərbi texnikanı və iqtisadiyyatın bütün sahələrini yanacaqla təmin etmiş, dünyanın ən beynəlmiləl şəhəri kimi ad çıxarmış Bakını 1990-cı il 20 Yanvar gecəsində al-qana boyadı?! Nə üçün Dağlıq Qarabağda 60-70 minlik erməni əhalisi üçün müstəqil, Azərbaycan torpağında ikinci bir erməni dövləti yaratmaq siyasətini dəstəkləyən RF dərk etmək istəmir ki, Rusiya ərazisində tarixi-etnik torpaqlarında toplum halında yaşayan, sayları 10 milyonları aşan türksoylu tatar, başqırd, çuvaş, habelə türk mənşəli Sibir və Qafqaz xalqlarının, xüsusi ilə milli-azadlıq mücadiləsində RF ilə ölüm-dirim mübarizəsinə qalxmış çeçen xalqının müstəqil dövlət qurmağa daha çox milli-mənəvi hüquqları, insanlıq haqları vardır?!..

Tarixi həqiqətlər günü-gündən öz parlaqlığını artırır, əlahəzrət zaman öz hökmünü verir və verəcəkdir. RF-nın gec-tez erməni hiyləsinin qurbanına çevriləcəyi tarix çox da uzaqda deyildir. Bunu bizə ədalətsiz, hər addımda başqa xalqların haqqını tapdalayan rus-erməni müştərək siyasətinin gələcək perspektivsizliyi, törətdikləri vəhşiliklərin müqabilində alacaqları tarixi cəza diqtə edir. Bu siyasətin antitürk mahiyyəti Azərbaycan xalqının taleyi üçün daha məkrli xarakter daşıyır. Erməni-rus müştərək siyasəti Azərbaycanı təkcə işğal etmək, Azərbaycan xalqını kölə vəziyyətində saxlamaq məqsədi güdmür, həmçinin

çoxmilyonlu Azərbaycan xalqının bir hissəsinin yaşadığı Şimali Azərbaycan torpaqlarını başdan-başa mənimsəmək üçün 8 milyonluq aborigen əhalisini tədricən məhv etmək və ya etnik təmizləmə siyasətinin qurbanlarına çevrimək məqsədi güdür. Bu gün RF-nın da həmsədr olduğu Minsk qrupunun apardığı erməni yönümlü danışıqlar Azərbaycan hökumətinin DQ-ın müstəqilliyini təmin edən güzəştli addımlar atmasını təhdid edir. Bu isə münaqişəyə son qoymaq deyil, onun daha da dərinləşməsinə təkan vermək deməkdir. Rüsvayçı sülh müqaviləsinin imzalanması ilə razılaşmayan Azərbaycan xalqı, sözsüz ki, son anda çıxış yolunu silaha əl atmaqda görəcəkdir. Vətənin ayrılmaz tərkib hissəsi olan, ana dilimizin, musiqimizin, incəsənətimizin, mədəniyyətimizin, bir sözlə, milli varlığımızın beşiyi, vuran ürəyi olan müqəddəs Qarabağ torpaqları, Azərbaycanın qeyrət tacı, azadlıq simvolu sayılan Şuşa uğrunda ölüm-dirim mübarizəsinə qalxacaqdır. Nə qədər erməni-daşnak faşist ideologiyasının son işartısı qalır, əldən yerə qələm qoymayacağımız, nə qədər ki son erməni yaraqlısı Qarabağ torpağından çəkilməyib, əldə silah tutacağımız danılmazdır. Xüsusən, biz qaçqınlar Qarabağ uğrunda qan axıtmağı, şərəf və namusla ölməyi, Vətəndə vətənsiz qalmaqdan, xəcalət və rüsvayçılıq içində yaşamaqdan üstün tuturuq. Ədalətli sülhün özü də mübarizədə qazanılır.

Biz ölüm-dirim müharibəsinin astanasındayıq. RF-nın birtərəfli qaydada ER ilə hərbi ittifaqa girməsi, kollektiv təhlükəsizlik sazişlərinə imza atması, birgə hərbi qruplaşmalar və hava hücumundan vahid müdafiə sistemləri yaratması, Ermənistan ərazisini əvəzi ödənilməyən, təmənnasız müasir döyüş silah və sursatlarıyla doldurması, barıt çəlləyinə döndərməsi, söz yox ki, rus hərbiçilərinin də bu mübarizəyə qatılacağını istisna etmir. Bu isə rus gəncliyinin məhv edilməsi, rus analarının gözü yaşlı qalması deməkdir.

Ona görə mən çoxmilyonlu rus xalqını, öz həqiqət seçiminə sadiq qalan rus ziyalılarını, ələlxüsus rus gəncliyini və rus analarını haqqı nahaqqın ayağına verməməyə, erməni şərinə uymamağa, erməni-daşnak faşizminin törədə biləcəyi qanlı faciə və fəlakətlərin qarşısını almağa, rus gəncliyinin, gələcək nəsillərinizin AR-nın əbədi və əzəli torpağı olan Qarabağda indən belə günahsız qanlar axıtmalarına və qan tökmələrinə, erməni şərinin, erməni məkr və hiyləsinin havayı qurbanlarına çevrilməsinə imkan verməməyə çağırıram:

- Siz haqqın tərəfində olun, haqq isə bizimlədir!

## YAZIÇI-PUBLİSİST ƏLİSAHİB ƏROĞULUN ÇOXSAYLI QAFQAZ XALQLARINA

## MÜRACİƏTİ

Əziz «Qafqaz evinin» övladları!

Biz müxtəlif dinli millətlərin və ya çoxsaylı xalqların nümayəndələri olsaq da, «Qafqaz evi» bizim doğma ocağımızdır. Bizi bu ocaq ətrafında birləşdirən, bu evin sakinləri edən ümumi cəhətlərimiz, birgə yaşam tərzimiz var. Bu evin köklü, avtoxton, aborigen xalqları kimi min illər boyu bir-birimizə qarşılıqlı hörmət və etimad göstərmiş, mehriban qonşuluq şəraitində yaşamışıq. Qonşu haqlarımızı tapdamamışıq. Bağışlamaq, comərdlik etmək, vüqarlı olmaq, qürurunu, mənliyini qorumaq kimi xarakterik xüsusiyyətlərimizlə tanınmışıq. Mərdanəliyimiz, sözünün ağası olmaq, çılğınlıq etməmiz, qonaqpərvərlik göstərməmiz kimi ovqatda olmamız həmişə buraya ayağı düşən səyyahların, insan sərraflarının nəzər-diqqətini cəlb edib. Bu kimi keyfiyyət halları özünü qabardan ümumi əxlaq və davranış normalarımız olub. Əsrlər boyu azad və müstəqil, sülh və əmin-amanlıq şəraitində yaşamaq uğrunda mübarizə aparmışıq. Yadellilərə qarşı mübarizədə birliyimiz olub, ümumi düşmənə qarşı bir cəbhədə döyüşmüşük.

Əfsuslar olsun ki, 200 ildən artıqdır Rus imperiyasının əsarətindən xilas ola bilmirik. Bir çoxumuz son illər öz müstəqilliyimizi elan etsək də, ümumi güc tapıb, birgə səy göstərib hələ də bu super dövlətin təsir dairəsindən çıxa bilmirik. Çünki içimizdəki xəyanət əli, erməni satqınlığı və xəyanəti bizi bu imkandan hər zaman məhrum edib. Ermənilər Qafqazda peyda olan gündən həmişə mənfur oyunlarla, millətlərarası münaqişələr törətməklə məşğul olublar. Dağıdıcı fəaliyyət göstəriblər. Erməni xəyanəti, satqınlığı, məkr və hiyləsi çar Rusiyasının Qafqaza ayaq basdığı ilk gündən özünü göstərmişdir. Qafqazda əli qana bulaşmış elə bir çar generalının adını çəkmək mümkün deyil ki, Qafqaz xalqlarını əsarət altına alarkən o, erməni agentinin bələdçiliyindən, xəyanət və satqınlığından istifadə etməmiş, bəhrələnməmiş olsun. Rus imperiyasının himayəsi altında Qafqaza köçürülən ermənilər uzun illərdi ki, Rus dövlətçiliyinin, onun işğalçılıq siyasətinin xidmətçisinə, Rusiyanın Qafqazda oturuşunda bir alətə çevriliblər. Bu gün də ermənilər, onun aparıcı gücü olan erməni-daşnak faşistləri regionun xalqları arasında nifaq salır, qonşu millətlərə arxadan zərbə vurur, ümumqafqaz həmrəyliyini daim təhdid edir, pozurlar. Tarixən törəmə və Qafqaza gəlmə xalq olan ermənilər öz xəyanətləri və satqınlıqları hesabına Rus dəstəyinə arxalanaraq Qafqazda özbaşınalıqları ilə əlahiddəlik əldə etmişlər. Heç kəsə sirr deyildir ki, bugünkü Ermənistanın bütün ərazisi Azərbaycanın tarixi etnik torpağıdır. Bu torpaqları çar Rusiyası 32 illik bir müharibədə işğal edərək 1828-ci ildə bağlanan bədnam Türkmənçay müqaviləsindən sonra ardıcıl, müxtəlif yollarla və zor gücünə ermənilərə ərməğan edib. Bu günsə Rusiyanın havadarlığından, himayəsindən, ən başlıcası isə hərbi gücündən istifadə edən erməni-daşnak faşistləri Azərbaycanın əzəli torpağı olan Qarabağı işğal altında saxlayır. Günü bu gün də Rusiya öz tarixi cinayətlərinin üstünü ört-basdır edir, erməni-daşnak faşistlərinin yalançı təbliğatına dəstək verir. Uydurma Qarabağ məsələsində tutduğu mövqeylə dünya ictimaiyyətinin nəzər-diqqətini əsl mətləbdən erməni-daşnak faşistlərinin işğalçılıq,

etnik təmizləmə və azərbaycanlıların soyqırımı siyasəti aparması fikrindən yayındırmağa çalışır.

Çoxsaylı Qafqaz xalqları bu həqiqəti bilməlidirlər ki, Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir. Erməni-daşnak faşistləri Rusiyanın təmənnasız canlı qüvvə və silah yardımından istifadə edərək işğalçılıq siyasəti yeridir. Ərazi iddialarına terrorla, adamları məhv etməklə, etnik təmizləmə siyasəti aparmaqla, yaşayış məntəqələrinin varlığını yer üzündən silməklə nail olublar. Moskvadakı erməni lobbisinin, xaricdəki erməni diasporunun nüfuzundan istifadə edərək öz məkrli, xəbis niyyətlərini həyata keçirirlər. Rusiya və Qərb dövlətləri öz böyük siyasətləri və milli maraqları çərçivəsində erməni diasporundan və Qarabağ məsələsindən bir vasitə kimi istifadə edirlər. Qafqaz xalqları bu acı həqiqəti bilməmiş deyildilər ki, Rusiyanın Qafqaz xalqlarına qarşı göstərdiyi ədalətsiz, düzgün olmayan münasibətdən erməni-daşnak faşistləri məharətlə istifadə edirlər. Öz çirkin niyyətlərinə çatmaq ücün dəridən-qabıqdan çıxırlar. Aşkar və ya gizli təbliğat və təşviqat üsulları ilə xalqları bir-birinə qarşı qoyur, millətdaxili, dindaxili, ölkədaxili ziddiyyətləri süni şəkildə şişirdir, dramatik həddə çatdırırlar. Onların qeyri-insani xislətlərini, gizli qəsbkar planlarını, məkrli, məxfi mübarizə metodlarını dilindən və dinindən asılı olmayaraq hər bir qafqazlı dərk etməlidir. Hər bir qafqazlı birmənalı şəkildə başa düşməlidir ki, Qafqazda nə qədər erməni-daşnak faşizminin izi, iyi, qoxusu varsa, Qafqaz xalqları heç bir zaman rus əsarətindən və onun təsir dairəsindən can qurtara bilməyəcəklər. Erməni-daşnak faşistləri Rusiyaya özlərinin xilaskarı kimi baxırlar. Rusiyasız ermənilər bir gün belə Qafqazda nəinki öz dövlətçiliklərini, heç özlərini belə bir millət kimi qoruyub saxlaya bilməzlər. Erməni-daşnak faşistləri öz məqsədlərinə çatmaq üçün hər an, hər dəqiqə «parçala, hökm et» siyasəti yeridən güclü tərəfə satılaraq qonşu xalqlara xəyanət etməyə hazırdılar. Həmişə də yeri gəldikcə bu sayaq xəyanət yolu tutublar. 22 aprel 1918-ci ildə Seym Zaqafqaziyanı Rusiyadan ayrı elan edir, lakin erməni-daşnak faşistləri bu qərarın əleyhinə çıxırlar. Şimali Qafqazda müstəqil Dağıstan dövlətinin yaradılmasını heç cür qəbul etmək istəmirlər. «Qafqaz evi» uğrunda mücadilə 1918-ci ildə olduğu kimi bu gün də Gürcüstanla Azərbaycanı yaxınlaşdırır. Hər iki dövrdə - dünən olduğu kimi bu gün də ermənilər bu birliyə qarşı çıxır. Rusiyanın qoltuğuna sığınırlar.

Ümumiyyətlə, erməni-daşnak faşistləri Qafqazda peyda olduqları gündən milli ədavəti qızışdırmaqla, fəlakətlər törətməklə məşğul olublar. Öz azadlığı uğrunda mübarizə aparan Qafqaz xalqları arasına düşmənçilik toxumu səpiblər. Xəyanət və satqınlıq yolu ilə rus işğalının xeyrinə xidmətlər göstəriblər. Zaman-zaman azərbaycanlılara, gürcülərə, ləzgilərə, kürdlərə, yəhudilərə qarşı düşmən mövqedə duran daşnaklar bu gün Ermənistanda hakimiyyət başındadılar. Onlar öz məkrli niyyətlərinin reallaşdırılmasına çalışır və təəssüflər olsun ki, çox şeylərə də nail olurlar. Yalançı göz yaşları tökə-tökə yırtıcı timsah kimi həmlə etməyə məqam gözləyir, vaxt yetişəndə fürsəti əldən vermirlər. Ermənilər həmişə qonşularına və

ərazisində yaşadıqları dövlətə düşmən münasibət bəsləyiblər. Zəiflədiklərini görüncə onlara qarşı xəyanət yolu tutublar. Hansı yolla olursa-olsun öz məqsədlərinə doğru addımlar atıblar. Erməni-daşnak faşizmi, onun terrorçuluq siyasəti bütün Qafqaz regionunda sabitləşməni pozan, bu regionda inkişafı əngəlləyən bir amildir. Təkcə bir faktı göstərmək kifayətdir ki, erməni-daşnak faşistləri arasıkəsilməz ərazi iddialarını hər bir zaman kəsiyində tarixi məqama uyğun şəkildə həyata keçiriblər. 1905-1907, 1918-1920-ci illərdə azərbaycanlılara qarşı kütləvi qırğınlar – qətliamlar törədiblər. 1948-1953-cü illərdə deportasiya aktına əl atıblar. 1988-ci ildə isə terror və təxribatlar yolu ilə etnik təmizləmə siyasətini tam həyata keçiriblər. Nəticədə azərbaycanlılar Qərbi Azərbaycandan, indi Ermənistan adlanan tarixi torpaqlarından son nəfərinədək didərgin salınıblar. Bunun əksinə olaraq, müxtəlif ölkələrdə yaşayan ermənilərin Ermənistana repatriasiyasını həyata keçirmişlər. Ermənistan-daşnak faşistləri dənizdən-dənizə «Böyük Ermənistan» yaratmaq proqramından heç vədə əl çəkmək istəmirlər. Halbuki «Böyük Ermənistan» yaratmaq proqramının heç bir tarixi, elmi-texniki əsası yoxdur. Bu, tarixi saxtalaşdıran millətçi erməni alimlərinin, erməni-daşnak faşistlərinin arzusundan, xəyanət və torpaq tamahından doğan uydurmadır. Erməni-daşnak faşistləri dərk etmək istəmirlər ki, qonşu torpaqlarına əsassız göz dikən, sərhədyanı dövlətlərin ərazilərinə zorla sahib çıxan xalqın siyasi-coğrafi mövqeyi heç bir zaman əlverişli ola bilməz. Ermənilər Qafqaza gəlmə xalq olduqlarına görə nəinki Qarabağ haqqında iddia irəli sürməyə, heç onun adını tutmağa, adını çəkməyə belə haqları yoxdur.

Odur ki, mən «Qafqaz evi»nin bir sakini kimi sizlərə üz tutur, çoxsaylı Qafqaz xalqlarına müraciət edirəm. Qafqazda baş verən prosesləri təhlil etmək, mehriban qonşuluq haqlarını yaşatmaq, Qafqaz adamlarının hüquqlarını, şərəfini qorumaq, milli dəyərlərimizi, qarşılıqlı hörmətə, etimada əsaslanan münasibətlərimizi, xüsusən Qafqaz xalqlarının dinc birgəyaşayış ənənələrini bərqərar etmək uğrunda birgə mübarizəyə çağırıram. Bu mübarizə zamanın tələbidir. Unutmamalıyıq ki, Qafqaz xalqlarının istiqlalı onların birliyindən keçir. "Nə qədər içimizdə erməni əli var bu birliyi təmin etmək, Rusiyanın əsarətindən, onun təsir dairəsindən qurtarmaq şansımızın ehtimalı sıfır həddə qalacaqdır. Nə qədər Qafqazda işğalı, separatizmi, terroru himayə edən Ermənistan Respublikası adlı dövlət var, Qafqaz xalqlarına dinclik olmayacaqdır. Ermənistan Respublikası dövlət deyil, Rusiya tərəfindən imperiya siyasətinə uyğun olaraq Qafqazda süni yolla qurulan, rus hökmranlığını Qafqazda saxlayan və yaşadan infeksiya ocağıdır. Rusiyanın qucaq dövləti, forpostudur. Biz ilk növbədə Qafqazda mövcud olan erməni təhlükəsini, onun xəyanət əlini yox etmək barədə düşünməliyik. Mən sizləri erməni-daşnak faşist ideologiyasının əsl mahiyyətini dərk və ifşa etməyə, erməni-daşnak faşistlərini yerlərində otuzdurmağa çağırıram. Onlar hələ də tarixin ibrət dərslərindən nəticə çıxarmaq iqtidarından uzaqdılar. Onlar hələ də nümayəndəsi olduqları erməni millətinə sığınacaq vermiş Qafqaz xalqlarını işğalçı dövlətlərin

yeminə çevirmək istəklərindən əl çəkmirlər. Onların super dövlətlərə quyruq bulamaları, əzabkeş, məzlum sifətdə özlərini təqdim etmələri, tanıtmaları, Moskvada, Parisdə, Vaşinqtonda özlərinə saxta tarix yazmalarına, yazdırmalarına, məncə, son verilməlidir. Qafqazı müharibə meydanına çevirməkləri yetər. Qafqazda erməni-daşnak faşist dövlətinin qurulması ilə bahəm erməni-daşnak terror qruplaşmaları öz fəaliyyətlərini daha da genişləndirmiş, ardıcıl, sistemli və mütəşəkkil xarakter almışdır. Terror və separatizm dövlət səviyyəsində himayə olunur. Biz erməni-daşnak faşizminə yox deməyi bacarmalıyıq. Biz hamı üçün sülh və əmin-amanlıq arzulayırıq. Çünki, biz bu evdə həmişə dostluq və həmrəylik şəraitində yaşamışıq.

İnsanlıq haqqımızı tapdamağa kimsənin haqqı yoxdur!

**Son söz əvəzi**

## BELƏ DƏ QALMAZ

Azərbaycan xalqı bu gün belə, iki əsr bundan öncə başlamış və 1988-1994-cü illərdə bir daha təkrarlanan, daha doğrusu, erməni-daşnak faşistləri tərəfindən törədilən qanlı qətliamların dəhşətini son dərəcə ağrılı bir problem kimi hələ də yaşamaqdadır. XIX əsrin ilk illərindən üzü bəri imperiya qüvvələrinin dirijor çubuğu ilə hərəkətə gətirilən və himayə olunan erməni-daşnak faşizminin vəhşiliyi və vəhşanəliyi iyrənc və amansız bir kabus kimi bu gün də Vətənimizin başı üstə dolanmaqda davam edir. Ötən yüzilliklər ərzində rus əsarəti altında inləyən Azərbaycan türkü tərəfindən özünə qarşı müqavimət görməyən, ruslar tərəfindən daim dəstək alan erməni-daşnak faşistləri zaman-zaman azğınlaşıblar. Bu azğınlığa hətta qulb qoyanlar belə, az da olsa tapılmayıb. Xüsusilə sovet illərində xalqına bağlı olmayan, onun taleyinə laqeyd münasibət bəsləyən, repressiv mövqedə duran insanlar Kremlin əli ilə Azərbaycana rəhbər təyin ediliblər. Onlar da Azərbaycan türkünü həmişə zərbə altında qoyublar. Bu rəhbərlərin etinasızlığından istifadə edən erməni-daşnak faşistləri Azərbaycan xalqının genefonduna sağalmaz yaralar vurublar. Bir sözlə, idrakı sönük, Kremlə kölə olan bu insanlar erməni-daşnak faşistlərinə xidmət edən nakəslər olublar. Bizlər isə bir xalq, bir millət olaraq laqeydliyimizin, unutqanlığımızın girovlarına çevrilərək tarixi faciələrimizdən nəticə çıxarmamışıq. Bu ağrı-acıların altını bu gün özəlliklə çəkirik. Erməni-daşnak faşistləri isə öz həyasızlıqları, riyakarlıqları ilə günü bu gün də həqiqəti təhrif edirlər. Uydurduqları səbəb və yalan hadisələri yaymaqla məşğuldular, tariximiz barədə dünya xalqlarına yanlış məlumatlar verirlər. Torpaqlarımızı tuta-tuta, dünyada analoqu olmayan cinayətlər törədə-törədə bizi hər cür böhtanlarla ləkələyirlər. Erməni barbarlığını, erməni vandalizmini, erməni vəhşiliyini öz yalanlarıyla pərdələyirlər. Həm də bütün bunları ustalıqla edir, yerində deməyi bacarırlar. Necə deyərlər, arpanı divara yeridirlər. Tarixi gerçəklikləri inkar

etməklə dünya xalqlarını türkün əleyhinə qaldırmağa səy göstərirlər. Hətta özlərinin bu ağılsız, qeyri-humanist, qeyri-insani hərəkətlərini dəstəkləyən, dünyanı türklər əleyhinə qaldıran, dünya ictimai fikrini yanlış yola sürükləməyə çalışan qeyri-millətlərdən özlərinə tərəfdar olan insanlar da tapırlar. Senator R.Doul (İkinci Dünya müharibəsində yaralandıqdan sonra Çikaqo Ştatının İllinoys şəhər xəstəxanasında bir erməni cərrah tərəfindən müalicə alıb. O öz sədaqətini ermənipərəstliyi ilə sübuta çalışır), baronessa Koks (İngiltərə), arvadı dul erməni qadını olan akademik Saxarov, RDD deputatı Qalina Starovoytova, siyasi icmalçı Borovik, jurnalist Nyukin, erməni diasporunun yalağına çənə söykəmiş daha onlarca rus ziyalılarının adını və başqalarının soyadlarını bu siyahıya əlavə etmək olar.

Onu da etiraf etməliyik ki, bütün bunlara baxmayaraq biz heç vaxt erməni nankorluğunu, erməni xəyanətini, erməni şər-böhtanını, erməni həyasızlığını, erməni riyakarlığını, məkr və hiyləsini uzun illər boyu ciddi qəbul etməmişik. (Çox qəribə deyilmi?!) Qabaqlayıcı tədbirlərlə erməni daşnak-faşistlərinin, onların fitnə-fəsadlarının qarşısını almaq barədə əsla düşünməmişik. Buna heç zaman hazır da olmamışıq. Hətta ekstremal şəraitlərdə belə öz səhvlərini anlar düşüncəsində olmuşuq. Güzəştə getmişik. Hikkəmizi udmuşuq. Əgər-əskik hərəkətlərini yola vermişik. Onlara da Böyük Yaradanın bəndələri kimi baxmışıq. Ermənilərə düşmən gözüylə baxmamışıq, əksinə onlara olan istəyimizi qonşu haqqı bilmişik. Bilməmişik ki, nankorlar çörəyimizi yeyib ayağımızın altını qazmaqla məşğuldular. Unutmuşuq ki, bədnam qonşularımız yıxılana balta çalan, təpik vuran, baş tutan naxələfdilər. Zaman-zaman rəng alıb rəng vermək, buqələmunluq etmək, kimliyindən asılı olmayaraq super güclərə əlaltı olmaq, nökərçilik etmək üçün doğulublar. Yalmanıb-yarınmaq üçün yaranıblar. Güclər əlində alət olub qonaq kimi gəldikləri, torpağına sığındıqları bizim Vətəni əlimizdən alıb özlərinə vətən etmək yolu tutublar. Fürsətçidilər. Qonşuya xəyanət edib yurd-yuvasına sahib çıxmaq üçün girəvə gəzirlər, əlverişli məqam düşməsini gözləyirlər. Zamanı gəldi, fürsəti əldən verməyiblər. Təşkilatlanıblar. Xüsusi fəallıqla əzazillik, zalımlıq, amansızlıq və qəddarlıq ediblər, qırğınlar törədiblər. Bizsə saqqalı əldən vermişik. Erməni-daşnak faşistləri sinəmiz üstə çöküb şəvə tüklərini gücləri düşdükcə, bacardıqları qədər yolublar. Sayıqlığı itirmişik, bizi qırıb-çatıblar. Erməni-daşnak faşistləri bu sayaq pillə-pillə bizə qarşı etnik təmizləmə və soyqırımı siyasəti aparıblar, torpaq qoparmaq istəklərini həyata keçiriblər. Biz daim erməni-daşnak faşistlərinin həyata keçirdikləri etnik təmizləmə və soyqırım siyasətinin qurbanı olmuşuq, erməni siyasətinin quyruğunda sürünmüşük, torpaqlarımızı, dədə-baba yurdlarımızı soydaşlarımızı itirə-itirə uçurumdan-uçuruma yuvarlanmışıq.

Əlbəttə, erməni-daşnak faşistləri super güclərin əlində türkə qarşı yönəldilən, tətiyi ayaqda saxlanan bir yaraq-alətdir. Həmişə işlək halda saxlanır. İki yüz ildir ki, bu yaraq-alətdən yarınanlar hər bir danışıqda, mübahisə və

münaqişə anlarında bu aləti Domokl qılıncı kimi başımız üstə tutublar. Uduzan biz, qazanan ermənilər olub. Nələr olub, bugünkü nəslin qan yaddaşında yaşayır, yaşamaqdadır. Tək bir misal: Qərbi Azərbaycanda biz ən azı müasir Ermənistanda olan yaşayış məntəqələrinin sayından 2 qat artıq yaşayış məskənlərimizi, yer-yurdlarımızı itirmişik. Qarabağ itkisini də bu gün bizə yedirtmək istəyirlər.

Bu gün Azərbaycan xalqı atəşkəsin girovuna çevrilib. Lakin heç bir qüvvə, kimsə İlahi haqqımızı, Qarabağ uğrunda şəhid olmaq haqqını əlimizdən ala bilməz. «Böyük Ermənistan» yaratmaq ideyasından, xülyasından əl çəkməyən erməni-daşnak faşistlərinin məqsədi «DQR» qurmaq deyil, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağ torpaqlarını Ermənistan ərazisinə qatmaqdan ibarətdir. Bu torpaqları ilhaq etmək üçün min cür fitnəkar əməllərə əl atır, hiyləgərliklə bizi oyundan-oyuna atırlar, dondan-dona girirlər. Unutmamalıyıq ki, erməni-daşnak faşizminin insanlıq əleyhinə yönəltdiyi cinayətə haqq qazandırmaq, bir milləti tarix səhnəsindən silib atmaq - bu dəhşətli soyqırımı siyasəti ilə barışmaq bizə ancaq və ancaq ölüm vəd edir. Bu faşizm aktı həm də bizi «öldürməsən, öldürəcək» dilemması ilə üz-üzə qoyur. Bu dilemma qarşısında qurbanlıq qoyun olmağa Azərbaycan xalqının haqqı yoxdur. Tarixi təcrübə göstərir ki, faşist ideologiyası ilə yüklənmiş fərdlər son nəfərinədək məhv edilməyincə biz Azərbaycan türklərinə rahatlıq ola bilməz. Faşizm ayaq tutduğu, mayalandığı son yuvasınadək qovulmalı, ana bətnində yox edilməlidir. Ən azı isə Qarabağ torpağı hansı yolla olursa-olsun (istər sülh, istər hərb) erməni-daşnak faşistlərindən təmizlənməli, AR-nın ərazi bütövlüyü, torpaqlarının toxunulmazlığı təmin edilməlidir. Bu, ilk növbədə, Azərbaycan dövlətçiliyinin şikəstlikdən çıxması deməkdir. Bu yolda yarı müharibə, yarı sülh yolu haqqında danışmağına dəyməz. Ərazi bütövlüyünün təminatı isə bu iki yoldan birinin qəti şəkildə seçilməsindən asılı olmayaraq gedişatda irəliyə doğru konkret addımlar atılmasını müəyyən zaman çərçivəsində görməyi tələb edir. Qətiyyətli addımlar atılması ardıcıllığının cizgisini gözlə görməliyik. Bu isə addımların son sərhəd nöqtəsinə çatdırılmasını gündəmə gətirir.

Bugünkü reallıq isə tamam başqadır. Sanki Minsk qrupu məsələnin həlli üçün deyil, mən deyərdim ki, məsələnin həll edilməməsi üçün çalışan və yaradılan bir qrup statusunda fəaliyyət göstərir. Belə ki, Minsk qrupu yarandığı gündən (mart 1992) keçən 15 il ərzində qurumun həmsədrləri (ABŞ, Rusiya, Fransa) regiona saysız-hesabsız səfərlər ediblər. Gah bir, gah ikitərəfli görüşlər keçiriblər, vədlər veriblər. Son olaraq iynənin ucu boyda hər hansı bir irəliləyişə nail olunmayıbdır. Sanki məqsəd işğal müddətini uzadaraq ermənilərin onların olmayan torpaqlarda yerləşdirilməsinə haqq qazandırmaq, Qarabağın ilhaqına ideoloji zəmin yaratmaq, ER-nın separatizmi və terrorçuluğu dəstəkləyən, müstəmləkəçilik və işğalçılıq yönümlü dövlət siyasətini dolayısı ilə müdafiə etmək məqsədi güdüblər. Dünya ictimaiyyətinə erməni-daşnak faşizminin Azərbaycan türkünə qarşı apardığı etnik təmizləmə və soyqırımı siyasətinin mahiyyətini açmaq yox, regionda hansı fəsadlar törətdiklərini gizlətmək təşəbbüsündə olublar. Əgər belə olmasaydı, Minsk

qrupunun yaradıcısı olan ATƏT-in Budapeşt sammitində (1994) üzv ölkələr tərəfindən DQ separatçılarını münaqişə tərəfi kimi tanımağa, Lissabon sammitində (1996) DQ separatçılarına millətlərin öz müqəddəratını təyin etməsi hüququnun şamil edilməsinə, İstanbul sammitində (1999) Azərbaycanın ərazi bütövlüyünə etinasızlıq göstərilməsi kimi bir halın müşahidə edilməsinə səylər, maraqlar olmazdı. Paris və Ki-Uest danışıqlarına bəslənən ümidlərin puça çıxması təkrar-təkrar sübut edir ki, ATƏT-ə bel bağlamaq, onun Minsk qrupundan müsbət nəsə gözləmək sadəlövhlükdən başqa bir şey deyildir. Bu gün Praqa çərçivə danışıqlarının detallarının son müzakirə həddinə çatdırılmasından müxtəlif bəhanələrlə boyun qaçıran ER-na gözün üstə qaşın var deyilməməsi dediklərimizi bir daha təsdiq edir. Bir də ki, axı Qarabağ məsələsinin həlli deyəndə bu tip məsələlər ATƏT-in missiyasına daxil olmayan məsələdir. ATƏT-in fəaliyyət predmetində əsasən ölkədaxili insan hüquqları, milli azlıqların hüquqları, mətbuat, söz azadlıqları prioritet önəm daşıyır. Qarabağ probleminin bu baxımdan çözülməsi söz olaraq məsələnin əsl mahiyyətini kölgədə qoyur. İş o yerə çatıb ki, Minsk qrupu erməni saxtalığını, erməni yalanlarını bizə həqiqət kimi qəbul etdirməyə, əxz etdirməyə, bizimsə haqq səsimizi boğmağa çalışır. Tarixi Azərbaycan torpaqlarında ayın, ilin bu vaxtında ER azmış kimi, ikinci bir erməni dövlətinin yaradılmasına cəhdlər göstərilir. Erməni-daşnak faşizminin damağına şəkər əzib tökənlər, səpənlər, bal qatanlar tapılır. Bu cəhdlər 60-70 min Qarabağ ermənisinin azad yaşaması, müstəqil dövlət qurması pərdəsi altında yurd-yuvasından didərgin salınmış bir milyon Azərbaycan türkünün adi insan haqq və hüquqlarının tapdanmasına göz yummaq cəhdi deyilmi?! ER-nın Qarabağ oyunu sözün əsl mənasında torpaq mənimsəmək, ilhaq etmək cəhdidir. Həmsədrlərin təcavüzkar ER ilə təcavüzə məruz qalan AR-nı bərabər tutmaq, hətta təcavüzkara bir az da üstünlük vermək cəhdləri hansı etik normaya sığır?! Qarabağ həqiqətlərini erməni-daşnak faşistlərinin uydurma Qarabağ ədalətsizlikləri ilə ört-basdır etmək səylərinə yönələn bu cəhdlər tarixi ədalətsizliyin kulminasiya nöqtəsində durur. Həmişə güzəştə getmək uduzmaq deməkdir. Uduzmaq isə bizi daim məğlubiyyətə aparır. Axı, məğlubiyyətin də bir son həddi var. Bu son həddi aşmaq səbir kasasını daşdıra bilər.

Heç kimə sirr deyil ki, Minsk qrupunun həmsədrləri olan ABŞ, Rusiya, Fransa Qarabağ məsələsinin həllinə xristian təəssübkeşliyi altında və ya milli mənafeləri, öz dövlət maraqları çərçivəsində baxırlar. Ermənistan-Azərbaycan münaqişəsinin tarixi kökləri, yaranma və başvermə səbəbləri öyrənilmir, dolğun və sistemli şəkildə tərəflərə izah olunmur. Beynəlxalq hüquq normaları əsasında kimin haqlı, kimin haqsız olması müəyyən edilmir, tarixçi ekspertlərin iştirakı ilə təhlil və tədqiqat işləri aparılmır. Təqsirkar tərəf aşkarlanmır. Bu münaqişənin, Qarabağ probleminin düzgün, ədalətli həllinə heç cür önəm vermək istəmirlər. Vasitəçilik missiyasına prinsipial mövqedən yanaşmırlar. Regional təhlükəsizlik konsepsiyasına, xalq diplomatiyası ilə dövlət diplomatiyasının vəhdətinə, birliyinə

belə, ikili standartlardan yanaşmalar var. Müzakirələrdə söhbət DQ-dakı erməni etnik azlığın azadlığından getmir, Ermənistanın işğal alətinə çevrilmiş bir ovuc separatçının müdafiə edilməsindən gedir. Məlumdur ki, ermənilər dünyada güclü lobbiyə, diaspora və təkrarolunmaz beynəlxalq terror təşkilatlarına malikdilər. Yekdil şüarlarla çıxış edirlər: «DQ-ı ana ürəyimiz olan Ermənistana birləşdirəcəyik!» (Qarabağ-Hayastan-Miatsum!) Erməni diasporunun təsiri altına düşən beynəlxalq təşkilatlar Azərbaycan xalqının mənafeyinə zidd, suveren hüquqları əleyhinə yönələn, ərazi bütövlüyünü şübhə altına alan fikirlər səsləndirirlər. Qarabağ probleminin həllində vasitəçilik missiyasını öz üzərlərinə götürənlər və götürmək istəyənlər dərk etmək istəmirlər ki, nə qədər erməni-daşnak faşizmi mövcuddur, onun ideologiyası dövlət səviyyəsində təqdir olunur, terror təşkilatı var, sülh haqqında danışmaq qeyri-mümkündür. O ki qalmışdı həmsədrlər Qarabağ probleminin həllində böyük diskriminasiyalar nümayiş etdirmiş olsunlar. Ümumilikdə məsələnin həllinə ikili standartlardan yanaşan həmsədrlər bir çox hallarda fərdi yanaşmalarda hətta üçəm, beşəm baxışlar nümayiş etdirirlər. Təcavüzkar ER ilə təcavüzə məruz qalan, torpaqlarının 20%-i düşmən tapdağında olan AR-na eyni gözlə baxırlar. Danışıqların bu minvalla davam etdiriləcəyi halda münaqişənin uzanma ehtimalı daha da böyükdür. Atəşkəsin on illərlə çəkəcəyi, danışıqların uzun illər sürəcəyi bir şəraitdə əmin-amanlığını təmin edən DQ-ın separatçı terror dəstəsi cinayətkar hərəkətlərinə qələbə kimi qiymət verir, mübarizələrinə Qarabağın etnik qrupunun öz müqəddəratını təyin etmə haqqı kimi baxırlar. Həmsədr ölkələrin himayəsi və havadarlığı altında 70 min erməni Azərbaycan torpağında ikinci erməni dövləti qurmaq həvəsinə düşür. Halbuki erməni milləti öz müqəddəratını təyin etmək hüququndan artıq istifadə etmiş, üstəlik öz dövlətini özgə torpaqlarında – Qərbi Azərbaycanda super güclərin himayəsi altında Ermənistan dövləti qurmaq şansı əldə etmişdir. DQ-da isə ancaq və ancaq AR-nın vətəndaşlığını qəbul edən etnik Qarabağ ermənilərinə yaşamaq haqqı verilə bilər. Bu vətəndaşlığı qəbul etməyənlər isə istədikləri yerə - istər Qərbi Azərbaycanda bərqərar etdikləri Ermənistan ərazisinə, istərsə də dünyanın hər hansı bir güşəsinə köç edə bilərlər. Bu prinsipial mövqeyi qulaqardına vuran güc sahiblərindən sual etməyə haqqımız var: ABŞ, Fransa, Rusiya öz daxillərində ayrı-ayrı ərazilərdə kompakt şəkildə yaşayan yarım milyondan çox erməni əhalisinin yaşadığı yerlərdə onlara müstəqil erməni dövləti qurmağa imkan verərlərmi?! Əlbəttə, yox! Uzun illərdən bəri BMT TŞ-nın kağız üzərində qalan 822, 853, 874, 884 saylı qətnamələrinin də bu gün heç bir dəyəri yoxdur. Fransa, Rusiya kimi həmsədrlər bu mötəbər təşkilatın adı çəkilən qətnamələrinə tövsiyə xarakterli sənəd kimi baxırlar. Təcavüzün nəticələrini dinc vasitələrlə, lüzumsuz, təsiri olmayan danışıqlar yolu ilə aradan qaldırılmasının qeyri-mümkünlüyünü bilərəkdən yaxına buraxmırlar. Nə də BMT TŞ tərəfindən təzyiq vasitəsi olan sanksiyalar silahından istifadə edilməsinə təşəbbüs göstərirlər. Bu ayrı-seçkiliyə heç cür haqq qazandırmaq olmaz. Qəti şəkildə demək olar ki,

Minsk qrupunun həmsədrləri ikili standartlardan əl çəkməyincə, ER-nı təcavüzkar, separatizmi və terroru dəstəkləyən dövlət qismində tanımayınca, təcavüzkara təzyiq vasitəsi kimi sanksiyaların tətbiq edilməsinə rəvac verməyincə Qarabağ probleminin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə həllində hər hansı bir irəliləyişin əldə ediləbiləcəyindən danışmaq əbəsdir. Çünki Qarabağ probleminin ədalətli həlli simmetrik statusdan və ərazi toxunulmazlığından keçir. Əgər belə bir niyyət yoxsa, heç bu barədə danışıqların aparılmasına və ya davam etdirilməsinə dəyməz. Buna lüzum da yoxdur. Zaman, vaxt itkisi xeyrimizə deyil. Qarabağı geri almaq şansını itirə bilərik. Güc olar, amma gec olar. Buna imkan verməzlər. Nə qədər erməni daşnak-faşizmi mövcuddur, onun terror təşkilatları var, olmayan hər hansı bir sülh haqqında danışmaq da qeyri-mümkündür. Bizim ərazi toxunulmazlığımızın təminatı, dövlətçiliyimizin əbədi yaşam fəlsəfəsinin mənası ilk növbədə DQ-da erməni-daşnak faşistlərinin varlığına son qoymaqdan asılıdır. Bu gün qarşımızda duran əsas vəzifə «DQ ordusu» adlı daşnak terror qruplaşmalarından və ya birləşmələrindən ibarət hərbiləşmiş dəstələrin zərərsizləşdirilməsindən, antiterror əməliyyatlarının keçirilməsindən ibarətdir. Beynəlxalq aləmdə ad çıxarmış erməni mənşəli terrorçuların bu regionda səhra komandirlərinə çevrilməsi və onun ətraf rayonlarında beynəlxalq miqyaslı və qeyri-insani xarakterli cinayət hadisələri törətmələri, soyğunçuluq əməllərinə baş vurmaları bəri başdan bu əməliyyatların keçirilməsini şərtləndirir. Bu əməliyyatların keçirilməsi üçün beynəlxalq sanksiyalar mövcuddur. Bunun üçün terror zorakılığının qarşısının alınması və ləğv edilməsi üzrə köklü proqram işlənməlidir. Bu proqram hazırlanarkən BMT TŞ-nın Qarabağ münaqişəsi ilə bağlı 4 qətnaməsi əsas götürülməlidir. Bu terrorla mübarizə hərbi yolun labüdlüyünü ortaya qoyur. Bizim mübarizəmiz humanitar əməliyyatlar üzərində qurulur. Nəzarətsiz zona üzərində mübarizə aparmaq haqqımızı gerçəkləşdirir. Terror antiterror əməliyyatlarının aparılmasına haqq qazandırır. Qaçqınlar yer-yurdlarına qaytarılmalı, onların öz yerlərində təhlükəsiz yaşamaları təmin edilməlidir. Bunun üçün haqlı olmamız yetərli deyil, həm də güclü olmalıyıq. Güc tətbiq etmədən Ermənistanın dəstək verdiyi daşnak terror qruplaşmaları ilə, onların vasitəsi ilə DQ-ın erməni mənşəli Azərbaycan vətəndaşlarını qorxu altında saxlayan, Azərbaycan dövlətçiliyinə düşmən kəsilmiş bir qrup separatçı ünsürləri öz cinayət əməllərinə görə göz altına almağı, zərərsizləşdirməyi mümkünsüz edir.

Bu gün biz öz qətiyyətimizi göstərməliyik. Kənardan güc-qüvvət, kömək gəzmək, gözləmək, öz yerində əli qoynunda qalmamızın, dayanmamızın da heç bir mənası yoxdur. Öz gücümüzə arxalanmalıyıq. Qeyrətimizə, namusumuza sığınmalıyıq. DQ problemi öz ədalətli həllini terrorla mübarizə, savaş meydanında tapa bilər.

Erməni-daşnak faşizminə qarşı mübarizəmiz iki yöndə və iki mərhələdə aparılması diqqətçəkəndir. Yönləri dəyişmədən birinci mərhələ Qarabağ uğrunda gedən mübarizədir. Bir əlimizdə silah, bir əlimizdə qələm. Silah bizə erməni-

daşnak faşistlərini öz yuvasında boğmaq üçün lazımdır. Qələmsə ayıq düşüncəli erməni ziyalılarını və əməksevər erməni xalqını daşnak ideologiyasının təsir dairəsindən çıxarmaq, erməni-daşnak faşizminə qarşı birgə mübarizəyə qaldırmaq üçün gərəkdir. Ancaq bu iki yöndə çıxış etməmiz, bu iki yöndə mübarizə aparmamız həm bizə haqq qazandırar, həm də haqq-ədalətin bərpa edilməsinə xidmət etmiş olar. Digər tərəfdən bu paralellik həm bizim dünya birliyindən təcrid olunmağımızın qarşısını alar, həm də bu yolla ən az optimallı itkilərlə son məqsədə çatmaq məsələsini həll etmiş olarıq. İkinci mərhələdə isə mübarizəmiz Qərbi Azərbaycan türkünün Ermənistan ərazisinə, öz tarixi etnik torpaqlarına qaytarılması, XX əsrdə başdan-başa soydaşlarımızın tapdanmış hüquqlarının bərpa edilməsi, tarixi ədalətsizliyin aradan qaldırılması uğrunda getməlidir. Erməni-daşnak faşizminin Azərbaycan türkünə qarşı apardığı etnik təmizləmə və soyqırımı siyasəti lənətlənməlidir. Azərbaycan xalqına qarşı erməni-daşnak faşistlərinin törətdiyi cinayətlər qarşısında həmsədr dövlətlərin tarixi töhfəsi bizim üçün aşağıda şərtləndirilən məsələdir: Azərbaycanlıların soyqırımı faktının ABŞ, Rusiya, Fransa parlamentləri tərəfindən tanınması tərəfimizdən haqqın təntənəsi kimi qiymətləndirilə bilər.

Nəhayət, humanizm və ədalət naminə erməni xalqı başa düşməlidir ki, Daşnaksutyun partiyasının milli ideologiya səviyyəsinə qaldırılmış siyasi avantürası onu məhvə aparır. Daşnak ideologiyasında qonşu haqları, millətlərin qardaşlığı və bərabərliyi, xalqlar dostluğu, qonşularla sərhəd anlaşması qəbul edilmir. Sərhəd məsələsində nə Türkiyə, nə də Gürcüstanla razı deyillər. Hələ də həmin dövlətlərin ərazilərindən torpaq qoparmaq iddiasında israrlıdılar. Qara dənizə çıxış iştahı ilə Cavaxetiya, Abxaziyanın quzeyi, Adler, Krasnodar ölkəsini gözaltı edirlər. Ağ dənizə çıxmaq məqsədilə Türkiyənin Şərqi Anadolu hissəsini ələ keçirmək istəyirlər. Azərbaycanla isə Ermənistanın həllolunmaz sərhəd mübahisələri var, deyirlər. Azərbaycan türkü ilə əbədi düşmənçilik iddiasını ortaya atırlar. Bizi həm fiziki, həm də mənəvi cəhətdən məhv etməyi, etnik xəritəmizi mənimsəməyi qarşılarına məqsəd qoymuşlar. Terrora adi həyat norması kimi baxırlar. Erməni-daşnak terroru, təcavüzkarlığı və ərazi iddialarını Azərbaycan üçün daimi təhlükə mənbəyinə çeviriblər. Erməni-daşnak, faşistlərinin qisasçılıq təhrikləri, tarixi səhvlərini etiraf etməmələri, qonşularla münasibətlərini sağlam təməl üstə qurmamaları, bugünkü Ermənistan Respublikasının 1918-ci ilin daşnak hökumətindən heç nəylə fərqlənməməsi, eyni məzmun və eyni mahiyyət kəsb etməsi erməni xalqının yeni fəlakətlərə sürükləyəcəyini göstərir. Daşnak ideologiyasından üz çevirməməsi erməni xalqının tarixin ibrət dərslərindən hələ də lazımi nəticələr çıxarmamasından xəbər verir. Bəlkə də bu susqunluq qorxudan yaranır. Daşnaksutyunun «Haydat» terror təşkilatının daşnak ideologiyasına qarşı çıxanları yerindəcə məhv etməsinin, güllələməsinin nəticəsidir. Əhali qorxu altında saxlanır. Tarixi zərurət isə faşizmin öz yuvasında boğulmasını tələb edir. Erməni xalqı dərk etməlidir ki, bu gün Cənubi Qafqazda tərəqqinin qarşısını alan, pozucu

elementə çevrilən, böyük dövlətlərin əlaltısı rolunda çıxış edən, bundan bəhrələnmək istəyən, qonşu dövlətlərə ərazi və təzminat iddiası ilə çıxış edən Ermənistan Respublikası gec-tez bölgədən özünü təcrid edərək bir qucaq dövləti kimi varlığına xitam verən subyektə çevrilə bilər. ER-nın qonşu dövlətlərin ərazi bütövlüyünü tanımaması onun sülhsevər dövlət olmamasının meyarıdır. Bu üzdən erməni xalqı birkərəmlik dərk etməlidir ki, nə qədər beyinlərdə erməni-daşnak faşizminin ideyaları özünə yer edib, nə erməni millətinə, nə də Azərbaycan türkünə bu işıqlı dünyada dinclik olmayacaqdır. Erməni xalqı dərk etməlidir ki, Ermənistan Respublikasının bu gün yerləşdiyi bütün ərazi tarixi etnik Azərbaycan torpağıdır. O torpaqları cismən tərk etsək də, biz Azərbaycan türkləri mənən, ruhən ana yurddayıq. Dürlü-dürlü dağ çaylarının qijovu-qıjıltısı, şəlalələrin şaqqıltısı, şaqraq səsləri, şirnovların şırıltısı, lilpar bulaqların pıqqıllısı-pıçıltısı, dağ kəllərinin nəriltisi-nərəsi, qartalların, qırğıların, şahinlərin, qızıl quşların qıyyaları, kəkliklərin qaqqıltısı hələ də qulaqlarımızdadır. Çiçəklərin, güllərin ətri, ənbər qoxusu burnumuzda, çeşid-ceşid nemətlərin dadı, tamı, təamı damağımızdadır, Dəli dağ, Leyli zirvəsi, Ağmağan, Alagöz, Qaranlıq, Boğazkəsən, Qızılboğaz, Damqaya, Çalbayır, Keçəl dağ, Əyri qar, Salvartı, Qırxlar, Qırxqız, Ustub dağı, Qızlar dərəsi, Armudlu dərə, Qaçaqqırılan dərə, Dərəçiçək, Lala bulağı, Soyuqbulaq, Binnət-hümmət bulağı, İlyas körpüsü və s. yüzləri, minləri aşan, adını çəkib-çəkmədiyimiz yurd yerlərimiz, ocaq daşlarımız, köç düşərgələrimiz qucaq açıb bizi gözləyir. Biz onlara tamarzıyıq, onlar bizə həsrət. Axı, ora Vətəndir. Ulularımızın, dədə-babalarımızın məzarları uyuyan torpaqdır, məkandır. Başdaşları sındırılmış, oğurlanmış, nagahan qəbirlərin sorağındayıq. Bizi bizdən alır o Vətən. Doğmalarımızın ruhudur, qarabaqara bizi izləyən, o torpağa səsləyən. Varlığımızı cismən o yurddan, o eldən-obadan, elatdan nə qədər uzaq salsanız da, ruhumuz yenə də o Vətən göylərində dolaşır. Vətən bizi çəkir. Vətən Vətənə səsləyir bizi...

Bu lal elegiyalar, vaveylalar səddini gec-tez aşmalıyıq, aşacağıq da. Bugünkü siyasi xəritəmiz etnik xəritəmizin heç 30%-ni təşkil etmir. Biz Tanrıya bağlıyıq. Türk Tanrı millətidir. Vətən Tanrı payı. Tanrı çəkir türk millətini sınağa. Tarix öz ədalətli hökmünü zamanında verəcəkdir. Gün gələcək alman faşistləri kimi erməni-daşnak faşistləri barəsində də beynəlxalq ədalət məhkəməsi qurulacaqdır. Köçəryanlar da, Zori Balayanlar da, beynəlxalq aləmdə ad çıxarmış terrorçu səhra komandirləri də, 366 saylı alayın zabit və hərbi qulluqçuları da «Nürnberq mühakiməsinin» müttəhimlər kürsüsündə əyləşməli olacaqlar. Kəskinliklə siyasi yox, birbaşa ifrat faşist partiyası Daşnaksutyunun yetirməsi olan erməni-daşnak faşistləri nə vaxta kimi meydan sulayacaqlar?! Bu faşist partiyası manqurtlaşdırdığı üzvlərinin beyninə özünə sərf edən fikirləri yeritməklə, öz cılızlığı ilə necə mütləq və şəksiz hökmranlıq əldə edə bilər?! Böyük dövlətçilik şovinizmi bu kiçik etnik xalqın beyninə hardan dolubdur?! «Böyük Ermənistan» xülyasını beyinlərə doldurmaqla erməni-daşnak faşistləri nə demək istəyirlər?! Öz irqi üstünlüklərini axı, nədə görürlər?! Faşizmi və yezuidizmi özündə birləşdirən

Daşnaksutyun öz xislətini irqçilikdə göstərməklə, etnik təmizləmə və soyqırımı siyasəti yeritməklə nə demək istəyir?! Psixoz millətçilik konsepsiyasından başqa buna nə ad vermək olar?!

Əlbəttə, xeyirxah olmayan qəddardır. Bütün bu suallara, sözsüz ki, cavab ancaq və ancaq psixoterapevtlərdən gələ bilər.

Bütün olub-keçənlər bu gün mənə bir yuxu kimi gəlir. Qarabağ itkisini heç cür qəbul edə bilmirəm. Baş verənləri heç cür başa düşə, dərk edə bilmirəm. Bir onu bilirəm ki, içimizdə erməni əli olub və hələ də var. Böyük ümidlə, ürək çırpıntılarıyla bu əlin kəsiləcəyi günü gözləyir və o günü görürəm. Bizim özgə torpağında gözümüz yoxdur, öz torpaqlarımızı qorumağa, müdafiə etməyə bəs sözümüz nədir?!

Cənnətimiz xarabazardı. Belə də qalmaz...

## ƏLİSAHİB ƏROĞULUN NƏŞR OLUNMUŞ KİTABLARININ SİYAHISI

1. **Əlisahib İsrafilzadə.** «At oğrusu» (povest və hekayələr). Bakı, «Gənclik», 1992-ci il. 88 səh., tirajı 4000;
2. **Əlisahib İsrafilzadə.** «Sızıntılarım və sızıltılarım» (bədii publisistika). Bakı, «Ekologiya», 1996-cı il. 148 səh., tirajı 1000;
3. **Əlisahib İsrafilzadə.** «Leyləklər yuvasına qayıdacaqmı» (Qarabağ hekayələri). Bakı, «Ekologiya», 1996-cı il. 128 səh., tirajı 1000;
4. **Əlisahib İsrafilzadə.** «Boğanaq» (povest və hekayələr). Bakı, «Ekologiya», 1997-ci il. 151 səh., tirajı 500;
5. **Əlisahib İsrafilzadə.** «Gürzə gözü» (roman). Bakı, «Ekologiya», 1998-ci il. 232 səh., tirajı 1000;
6. **Əlisahib ƏROĞUL.** «Torpaq ətirli insan» (bədii publisistika). Bakı. «Ekologiya», 2002-ci il. 192 səh., tirajı 200;
7. **Əlisahib ƏROĞUL.** «Yəhya Çələbi-haqq dünyamızın işığı» (bədii publisistika). Bakı, «Ekologiya», 2002-ci il. 164 səh., tirajı 500;
8. **Əlisahib ƏROĞUL.** «Tiqana» (hekayələr toplusu). Bakı, «Ekologiya», 2002-ci il. 392 səh., tirajı 300;
9. **Əlisahib ƏROĞUL.** «İki gövhər-iki inci» (bədii publisistika). Bakı. «Ekologiya», 2003-cü il. 488 səh., tirajı 1000:
10. **Əlisahib ƏROĞUL.** «Böyük Nazara» (roman). Bakı, «Ekologiya», 2005-ci il. 307 səh., tirajı 300;
11. **Əlisahib ƏROĞUL.** «Cəbrayılım - müqəddəs torpaq» (bədii publisistika). Bakı, «Ekologiya», 2006-cı il. 410 səh., tirajı 300.

# KİTABIN İÇİNDƏKİLƏR

QARABAĞ HARAYI!!! .......... 3

JİZOİT QADIN VƏ YA DAŞNAK MANQURTLARI .......... 5

TARİXİ «ERMƏNİ XƏSTƏLİYİNİN» DAŞNAK İSTERİYASI .......... 24

ERMƏNİ BALASI, ERMƏNİ BƏLASI VƏ YAXUD DAŞNAK PSİXOPATLARININ «BÖYÜK ERMƏNİSTAN» SAYIQLAMASI .......... 37

QEYRİ-TÜRK MÜƏLLİFLƏRİ ERMƏNİLƏRİ İTTİHAM EDİR .......... 49

«ERMƏNİ MƏSƏLƏSİ» TORBADA PİŞİK MƏSƏLƏSİDİR. BU GÜN «ERMƏNİ MƏSƏLƏSİ» UYDURMA «ERMƏNİ SOYQIRIMI» ƏFSANƏSİNƏ KOMPENSASİYA EDİLİR .......... 112

DAŞNAKSUTYUNUN XAÇ ATASI KİLSƏLƏRDİR .......... 124

DAŞNAKSUTYUN İFRAT FAŞİST PARTİYASIDIR .......... 131

ERMƏNİ-DAŞNAK FAŞİZMİ TƏRƏFİNDƏN AZƏRBAYCANIN TARİXİ TORPAQLARININ MƏNİMSƏNİLMƏ ARDICILLIĞI .......... 149

ERMƏNİ-DAŞNAK FAŞİZMİNİN ETNİK TƏMİZLƏMƏ SİYASƏTİ VƏ AZƏRBAYCANLILARIN SOYQIRIMI .......... 159

AZƏRBAYCANDA ERMƏNİ-DAŞNAK TERRORUNUN XRONOLOGİYASI .......... 196

ERMƏNİ-DAŞNAK FAŞİZMİ TƏRƏFİNDƏN ƏVVƏLCƏDƏN HAZIRLANAN MƏXSUSİ QANTÖKMƏ PLANI - SUMQAYIT FİTNƏSİ .......... 267

20 YANVAR BAKI QIRĞININDA ERMƏNİ-DAŞNAK İZİ .......... 274

ERMƏNİ-DAŞNAK FAŞİZMİNİN TÖRƏTDİYİ «XOCALI SOYQIRIMI» İNSAN AĞLININ QƏBUL ETMƏDİYİ VƏHŞANƏLİKDİR .......... 280

XX ƏSR AZƏRBAYCAN TÜRKÜNÜN SOYQIRIMI ƏSRİDİR .......... 292

**ƏLAVƏLƏR**

YAZIÇI-PUBLİSİST ƏLİSAHİB ƏROĞULUN DÜNYA XALQLARINA MÜRACİƏTİ .......... 298

YAZIÇT-PUBLİSİST ƏLİSAHİB ƏROĞULUN ÇOXMİLYONLU RUS XALQINA MÜRACİƏTİ .......... 305

YAZIÇI-PUBLİSİST ƏLİSAHİB ƏROĞULUN ÇOXSAYLI QAFQAZ XALQLARINA MÜRACİƏTİ .......... 312

Son söz əvəzi: BELƏ DƏ QALMAZ .......... 316

ƏLİSAHİB ƏROĞULUN NƏŞR OLUNMUŞ KİTABLARININ SİYAHISI .......... 325

*İsrafilzadə Əlisahib Qiyas oğlu*

**ERMƏNİ-DAŞNAK FAŞİZMİ**
**VƏ**
**AZƏRBAYCAN**
***(bədii publisistika)***

Bakı, «Təhsil», 2007

Redaktoru: *Mustafa Çəmənli*
Bədii və texniki redaktoru: *Abdulla Ələkbərov*
Kompyuter tərtibatı və dizayn: *Arif Həsənov*
Korrektoru: *Zülfiyyə Rzayeva*

Çapa imzalanmışdır 30.07.2007. Kağız formatı 60x90 $^{1}/_{16}$.
Ofset çapı. Ofset kağızı. Fiziki çap vərəqi 25,75.
Sifariş 26. Tirajı 500. Qiyməti razılaşma ilə.

«Təhsil Nəşriyyat-Poliqrafiya» MMC
Bakı, AZ 1141, Şəhriyar küç. 6